FRANSIZ ƏDƏBİYYATI ANTOLOJİSİ
(XIX—XX əsrlər)

Tərcümə və tərtib edəni:
Hamlet Qoca

Mündəricat

1. Ön söz
2. Anri dö Sən-Simon
3. Stendal
4. Onore Balzak
5. Viktor Hüqo
6. Aleksandr Düma
7. Jorj Sand
8. Jerar dö Nerval
9. Jül Vern
10. Emil Zola
11. Pol Verlen
12. Gi dö Mopasan
13. Pol Valeri
14. Anri Barbüs
15. Giyom Apoliner
16. Andre Morua
17. Lui-Ferdinand Selin
18. Pol Elüar
19. Lui Araqon
20. Jak Prever
21. Antuan dö Sənt-Ekzüperi
22. Marsel Eme
23. Jorj Simenon
24. Jan Pol Sartr
25. Banin (Üm-ül Banu)
26. Alber Kamü
27. Anri Truaya
28. Mari-Lui Ver
29. Ann Filip
30. Lui Bazən
31. Fransuaz Saqan
32. Pyer Qamarra
33. Jan Sanitas
34. Jorj Kulon
35. Martin Mono
36. Moris P ons
37. Roje Lökürö
38. Roje Şatonö
39. Simon Teri

ÖN SÖZ

Fransız ədəbiyyatının zəngin tarixi haqda hamının az-çox mə'lumatı var. Ədəbiyyat tarixinə ciddi maraq göstərməyənlər belə XYII əsrdən Korney, Rasin, Molyer və Lafonten, XYIII əsrdən isə Volter, Didro, Russo, Bomarşe kimi dahilərin sorağını almış olar. XIX əsr fransız ədəbiyyatı ilə tanışlığımız isə nisbətən daha genişdir. Balzak, Hüqo, Defo, Jül Vern kimi məşhur yazıçıların bir sıra əsərləri azərbaycan dilinə tərcümə olunub və böyük maraqla oxunur.

XX əsrin fransız ədəbiyyatı da geniş dünya şöhrəti tapmışdır. Müasir fransız ədəbiyyatı özünün keçmiş sirayəiedici ən'ənələrinə sadiq qalaraq bütün qitələrdə oxucuların qəlbinə yol tapa bilib. Bu ədəbiyyatın bir çox nümunələri dünya şöhrəti tapıb, onların ana dilimizə çevrilməsi işi isə xeyli ləngiyir. XIX-XX əsr fransız yazıçılarının bir qismi, onların yaradıcılığı, oxuduğum, tərcümə etdiyim və bələd olduğum əsərləri bir kitab həcmində toplayıb qısa da olsa mə'lumat vermək istəyirəm.

Bir cildlik antoloji vasitəsilə fransız ədəbiyyatı ilə tanışlıq, güclü, şəffaf bir çeşmədən bir içimlik su götürmək kimi görünür. Əsrin əvvəlindən bəri fransız ədəbiyyatından dilimizə birbaşa yaxud rus dili vasitəsilə çevrilmiş nümunələri toplayıb redaktə etmək, yeni dəyərli əsərləri tərcümə edib bir neçə cildlik fransız ədəbiyyatı antoloji tərtib etmək isə yəqin ki, gələcəyin və peşəkar bir kollektivin işidir. Bilmirəm təsüflənməyə dəyər yoxsa yox, amma mənim bir ömürlük mütaliəmin böyük hissəsi fransız ədəbiyyatının payına düşür. Hələ fransız dilini yaxşı öyrənməyə başladığım tələbəlik illərindən əlimə düşən bütün fransız kitablarını oxuyurdum. Tələbəlik illərindən sonra Afrikada, Mali respublikasında tərcüməçi işlədiyim illərdə yaşadığım şəhərlərdə fransızlardan qalma kitabxanalardakı kitabların əksəriyyətini yararlı-yararsızlığına baxmadan gecə-gündüz oxuyurdum. Doğrudur, həmən illər fransız ədəbiyyatına və müəlliflərə yaxşı bələd olmadığıma görə əlimə düşən bütün kitabları oxuyurdum və bu kitabların əksəriyyəti dedektiv və polis mövzulu kitablar idi. Az qala bir gecəyə oxuduğum bir kitab bə'zən bir neçə gündən sonra mövzusu ilə birgə unudulurdu. Amma onların içində sosyal mövzulu, yadda qalan əsərlər də olurdu. Sonralar, əlcəzairdə işlədiyim illərdə isə kitabları və müəllifləri seçmə imkanım da var idi. Saatlarla bukinist dükanlarında vaxt itirir, kitabla-

rı ancaq reklamlı üzlüklərə görə deyil, mövzu və müəlliflərə görə də seçmək imkanı qazanırdım. Məhz rona görə də 1982-ci ildə Əlcazairdən gəmi ilə Azərbaycana qayıtdığım vaxt Odessadakı Sovet kömrük işçiləri yükümün böyük hissəsinin fransız kitablarından ibarət olduğunu görüb çox təəccüblənmişdilər. Yalnız Sovet yazıçıları birliyinin üzvülük vəsiqəsinin təqdimi, kitablar haqda sorğusualdan, bədii tərcümə ilə məşğul olduğumu dedikdən və kinayəli baxışlardan sonra yüklərdə qızıl və başqa dəyərli əşlar axtaran gömrük işçilərinin əlindən qurtarıb həmən kitabları vətənə gətirə bildim. Məhz həmən kitablar təqdim olunan fransız ədəbiyyatı antolojisiin əsasını təşkil edir.

Fransız ədəbiyyatı haqda bildiklərimi Azərbaycanlı oxuculara, ədəbiyyat həvəskarlarına çatdırmaq fikri də elə həmən dövrlərdən başlayıb. İlk vaxtlar Moskva və Leninqrad nəşriyyatlarının fransızca nəşr etdikləri müxtəlif sahələri və dövrləri əhatə edən ədəbiyyat antolojilərinin tərtibat üsullarını öyrənirdim. Mə'lum məsələdir ki, həmən dövrdə tərtib olunan bircildliklərdə fransız yazıçılarının seçimi onların siyasi mövqelərinə də əsaslanırdı. Amma hazırkı dövrdə, fransada nəşr olunmuş Fransız ədəbiyyatı antolojiləri ilə tanışlıq imkanından sonra da həmən kitabların tərtibində müəyyən uyğunsuzluqlar aşkar olunur. Məsələn, fransız ədəbiyyatşünası Anri Mitteranın 1992-ci ildə nəşr etdirdiyi "Fransız ədəbiyyatı antolojisi (XIX-XX əsrlər)" kitabında Jorj Simenonla Fransız Saqanın adlarına rast gəlmədikdə təcüblənməmək olmur. Tək Fransada deyil, az qala bütün dünyada tanınan, əsərləri böyük tirajlarla yayılan bu iki fransız yazıçısının adının Fransız ədəbiyyatı antolojisinə salınmamısının səbəbini öyrənmək istədikdə isə deyirlər ki, bu tərtibatçının seçmə prinsipindən asılıdır.

Mən isə tərtibatçılıqdan əvvəl tərcüməçiyəm, prinsipim isə tanıdığım və əsərlərindən nümunələr tərcümə etdiyim fransız müəlliflərini bir kitabda Azərbaycan oxucularına təqdim etməkdir.

1994-cü ildə Parisin "Frans Kültür" radiosunda iş təcrübəsində olarkən həmən ilin Konkur mükafatına (Fransanın ən yüksək ədəbiyyat mükafatı) layiq görülmüş Didye Van Qovelaer ilə görüşdüm. Onun "Sadə bir gediş" adlı romanı ilin sonunda bütün mətbuatda və televiziya ekranlarında geniş təhlil edilirdi. Müəllif elə "Frans kültür" radiosuna da canlı müsahibə üçün də'vət olunmuşdu. Onunla geniş söhbət edə bilməsəm də bədii ədəbiyyat tərcüməçisi olduğumu və onun mükafat almış əsəri ilə maraqlandığımı

bildirdim. O nəzakətlə dedi ki, kitabı ancaq naşirdən götürə bilərəm və onu azərbaycan dilinə çevirmək qərarına gəlsəm naşirlə danışmalıyam. Bunun nə demək olduğunu, yə'ni həmən kitabı dilimizə çevirib çap etdirmək üçün naşirlə müqavilə bağlayıb sonra isə pul ödəməli olacağımızı bildiyim üçün fikrimdən vaz keçdim.

XX əsr fransız ədəbiyyatında yüksək ədəbiyyat mükafatlarına layiq görülmüş, dünya şöhrəti tapmış yazıçılar çoxdur. Çox təəsüf ki, onların çox az bir qismi vətənimizdə tanınır, əsərlərindən tərcümələr isə lap cüzidir. Təqdim olunan antolojiyə onların bə'ziləri haqda mə'lumat və əsərlərindən nümunələr salınsa da, əsərləri tərcümə olunmamış tanınmış yazıçıların bə'ziləri haqda ötəri də olsa mə'lumat vermək məqsədə uyğun sayılar.

Belələlrindən biri **Andre Malrodur**. O 1901-ci ildə Parisdə anadan olub və 75 il ömür sürüb. Malro tanınmış diplomatt və mədəniyyət xadimi olub, general dö Qol Hakimiyyəti dövründə mədəniyyət naziri işləyib. Onun "Antimemuar" adlı əsərinin nəşri dövrünün mühüm ədəbi hadisəsi sayılıb.10 gün ərzində əsərin 170.000 nüsxəsi satılıb. Müəllif söhbətlərindən birində deyib: "Memuardan da gözəl bir əsər yazmaq olarmı?" Amma əvvəllər nəşr etdirdiyi "Nifrət dövrü" (1935) və "Altenburqda boğulanlar" (1948) adlı əsərləri də oxucuların diqqətindən kənarda qalmayıb.

Jorj Perek də müasir fransız ədəbiyyatının tanınmış nümayəndələridəndir. Onun "Ömrü sərf etmə yolu" adlı əsəri 1978-ci ildə "Medisi" ədəbiyyat mükafatına layiq görülüb. Bu yüz əlli ilə yaxın bir dövrü əhatə edən ensiklopedik bir romandır. Yüzdən çox tanınmış adamın həyatından parçalar əsərə böyük maraq yaradıb, onun yazıçı şöhrətini daha da artırıb.

1985-ci ildə Nobel mükafatına layiq görülmüş **Klod Simon** 1913-cü ildə anadan olub, gənclik illərindən rəssamlığa daha çox meyl göstərib. O, Paris, Oksford və Kambric Universitetlərində təhsil alıb. "Kələkbaz" (1964) və "Sərt kəndir" (1947) romanları ilə tanınmağa başlayıb. 1967-ci ildə çap olunmuş "Tarix" adlı romanına görə "Medisi" ədəbiyyat mükafatını alıb. 1969-cu ildə yazdığı "Farsal döyüşü" əsəri isə onun bədii yaradıcılığının zirvəsi sayılır.

1926-cı il təvəllüdlü **Mişel Bütor** ixtisasca filosof olub. İngiltərə, Yunanastan, Misir və Amerika universitetlərində fəlsəfədən dərs deyib. "Milandan keçid" adlı ilk romanını 1954-cü ildə yazıb. 1957-ci ildə yazdığı "Modifikasiya" romanı "Renodo" ədəbi

mükafatına layiq görülüb. Daha sonra yazılmış "Dərəcələr" (1960), "Hərəki" (1962), "Arzu mənbələri" (1975), "Bumeranq" (1978), "Lovğalıq" (1980) romanalrı Mişel Bütor yaradıcılığının əsasını təşkil edir.

Başqa bir müasir fransız yazıçısı, **Mişel Turny0e** də ixtisasca filosofdur. Lakin o radioda işləyib bədii verilişlər hazırlayıb, daha sonra isə nəşriyyatda işləyib. Turnyenin 1967-ci ildə yazdığı "Cümə yaxud Sakit okean qapıları" adlı ilk romanı böyük rəğbətlə qarşılanıb. 1970-ci ildə isə "Oln kralı" romanı konkur mükafatına layiq görülüb. Sonralar isə "Meteorlar" (1975), "Qızıl damlası" (1985) kimi romanları ilə şöhrət qazanıb. Mişel Turnye uşaqlar üçün də maraqlı əsərlər yazıb. O Fransa konkur akademiyasının üzvüdür.

Patrik Modyano 1945-ci ildə anadan olub, müasir fransız ədəbiyyatının yeni nəslini təmsil edir. O 23 yaşında yazdığı "Ulduz meydanı" romanı ilə tanınmağa başlayıb. 1978-cü ildə isə "Qaranlıq köşklər küçəsi" adlı romanına görə konkur mükafatı alıb. "İtmiş məhəllə" (1984), "Avqustda bazar günü" (1986) kimi əsərləri onun yaradıcılığının ən yaxşı nümunələrindən sayılır.

Filip Sollers də ilk romanını 23 yaşında nəşr etdirib (1936-cı ildə anadan olub), "Park" adlı ikinci romanı isə 1961-ci ildə Medisi ədəbiyyat mükafatına layiq görülüb. "Cənnət" (1981), "Qadınlar" (1983), "Oyunçu portreti" (1984), "Fransız dəlisoyluğu" (1988), "Qızıl zanbaq" (1998), "Venesiyada bayram" (1991) kimi əsərləri onu müasir fransız ədəbiyyatının tanınmış nümayəndələri sırasına çəkib.

Müasir fransız ədəbiyyatında qadın müəlliflərin yaradıcılığı özünəməxsus yer tutur. Əgər əsrin əvvəllərindən başlasaq birincilər sırasında **Sidoni Qabriel Koletin** (1873-1954) də adı çəkilməlidir. Onun ilk əsəri 1900-cü ildə çap olunub və sonrakı dörd ildə dörd bioqrafik əsər nəşr etdirib. Birinci dünya müharibəsi illərində Kolet hərbi müxbir işləyib. Sonrakı illər yazıçı qadının onlarla roman və povestləri, hekayələr kitabları çap olunubö. 1945-ci ildə o Qonkur Akademiyasının üzvü, 1949-cu ildən isə həmən akademiyanın prezidenti seçilib. Koletin əsərləri də hələlik Azərbaycan dilinə tərcümə olunmayıb.

Haqqında söz açmaq istədiyim başqa bir yazıçı qadın **Elza Trioledir** (1896-1970). Triole haqda söz açmağa ona görə tələsirəm ki, onun bir romanı məni valeh edib və həmən əsəri maraqlan-

dığım və mütəliyə etdiyim müasir fransız ədəbiyyatının ən tə'sirli nümunələrindən biri sayıram.

Elza Triole məşhur fransız yazıçısı Lui Araqonun zövcəsi idi. İkinci dünya müharibəsi illərində o əri ilə birgə fransa müqavimət hərəkatında iştirak edib. Onun 1954-cü ildə yazıb gizlində çap etdirdiyi "Avinyon sevgililəri" romanı Müqavimət hərəkatı ədəbiyyatının qızıl fonduna daxil edilib. Triole əsərlərinin mövzusu müasir həyatın ən müxtəlif sahələrini əhatə edir, ən güclü işlənmiş mövzusu isə əxlaq və mə'nəviyyat porblemləridir. Elə əvvəl haqqında söz açdığım əsər — "Nisyə qızıl güllər" romanı belə mövzulu bir romandır. Əsərdə gənc və gözəl bir qadının əşya həvəsi ucundan bəlaya düşməsi, çox sevdiyi ərindən ayrılması və nəhayət faciəvi həlakı təsvir olunub. Bəlkə də görkəmli kişi yazıçıları bu mövzunu Triole kimi açа bilməzdi. Əsər gənc ailələr üçün təbliğat vasitəsinə bənzəməyən gözəl bir ibrət dərsi sayıla bilər.

Elza Triole çoxlu hekayə də yazıb və onları bir neçə kitabda toplayıb çap etdirib. Yazıçının əsərləri rus dilinə tərcümə olunub.

Natali Sarrot 1902-ci ildə Rusiyada anadan olub, uşaqlıq illərindən isə Parisdə yaşayıb, orada da təhsil alıb, hüquqşünas işləyib. O yazıçılıq fəaliyyətinə başlayandan beş kitab nəşr etdirib. Elə ilk əsərindən Natali Sarrot insan psixologiyasının nəzərə çarpmaz xırda cəhətlərini acmağı böyük hadisələrin, ictimai dəyişikliklərin təsvirindən üstün tutub. Bəlkə də elə bu cəhətinə görə onun yaraıcılığı böyük oxucu kütləsinin deyil, mütəxəssislərin və əsl ədəbiyyat həvəskarlarının diqqətini cəlb edir.

Simon dö Bovuar da əsrin əvvəllərində dünyaya gəlmiş yazıçı qadınlardandır. 1908-ci ildə Parisdə anadan olub. Fəlsəfə elmi üzrə ixtisas alıb. Parisdə, Ruanda, Marseldə müəllimlik edib. 1943-cü ildə "Qonaq" adlı ilk romanı çap olunduqdan sonra müəllimlik sənətini tərk edib yazıçılıq fəaliyyətinə başlayıb. Simon dö Bovuar yaradıcılığında insana inam və gələcəyə ümid hissləri tez-tez nəzərə çarpır. O Sartrın dostu olsa da şairin pessimizminə ortaq olmayıb. Simon dö Bovuar 1944-1947-ci illərdə iki yeni roman çap etdirib. Lakin 1954-cü ildə çap olunmuş "Mandarinlər" romanı ədəbi ictimaiyyətin nəzərini daha çox cəlb etmiş və əsər Konkur mükafatına layiq görülmüşdür. Bu əsərdə yazıçı sol təmayüllü fransız ziyalılarının ikinci dünya müharibəsindən sonrakı dövrdə fəaliyyətindən, onların üzləşdiyi problemlərdən bəhs edir. Daha sonralar çap etdirdiyi üç cildlik xatirələr kitabı da Simon dö Bovuar yaradıcı-

lığında özünəməxsus yer uttur. Bu yazıçının əsərləri də azərbaycan oxucusuna tanınş deyil.

Yaradıcılığına tək bircə əsəri vasitəsilə bələd olduğum bir qadın yazıçı da var — **Xristian Roşfor**. Onun "Döyüşcünün istirahəti" adlı romanını oxuyarkən əvvəlcə adama elə gəlir ki, əsərdəki açıq-açıq səhnələr, cinsi qovuşmalar təsviri çərçivədən çıxır. Əsərin mütaliəsini başa vurub onun haqda fikirləşdikdə isə hiss edirsən ki, bütün bu təsvirlərin və kişinin kobudluqlarına dözən qadının xeyirxah bir məqsədi varmış. Həyatdan doymuş və özünü öldürməyə hazırlaşan bir kişi ilə rastlaşmış qadın min əzaba dözüb nəhayət onun əqidəsini dəyişir, ailə sahibi, ata olmaq arzusu ilə normal həyata qaytarır.

Jenevyev Dorman da müasir fransız ədəbiyyatının maraqla oxunan qadın yazıçılarındandır. O, 1933-cü ildə anadan olub və 26 yaşında ikən ilk omanın çap etdirib. Yazıçının 6-cı romanı "Poçt gəmisi" Parisdə 1974-cü ildə nəşr olunub və bu dövrdən sonrakı yaradıcılığı hadqa mə'lumatım yoxdur. "Poçt gəmisi" və "Sənə tufan gətirəcəm" romanları Fransanın ədəbiyyat mükafatlarına layiq görülüblər.

Anna Qreki Əlcəzairdə doğulub böyümüş, milliyətcə fransız olan qəribə taleli yazıçılardan biridird. O, gənc yaşlarından Əlcəzairin istiqlaliyyəti uğrunda mübarizəyə qoşulmuş, tə'qib və həbs olunmuş, əzab çəkmişdir. Ölkə istiqlaliyyət qazandıqdan sonra Anna müxtəlif mətbuat orqanlarında çalışmış və fransız ədəbiyyatından dərs demişdir. Lakin o azad Əlcəzairə dördcə il xidmət edə bilib. 1966-cı ildə 35 yaşında ikən vəfat edib. Ölümündən əvvəl cəmi bir şe'rlər kitabı və bir romanı çapdan çıxıb. İkinci şe'rlər kitabı isə ölümündən az sonra nəşr olunub.

Anna Qreki haqda verdiyim qısa mə'lumat başqa maraqlı bir yazıçı qadının taleini yadıma saldı. Həmən yazıçı 60-cı illərdə Fransada böyük tirajla çap olunan və çox oxunan yazıçılardan biri — **Albertin Sarazəndir**. Albertin Əlcəzairdə doğulub. Lakin valideynlərinin kim oluğu mə'lum deyil. Onu 1937-ci ildə Əlcəzairdəki Mustafa Paşa xəstəxanasında bələkdə tapıblar. Körpə qaraşın qızcığaz dörd yaşına qədər uşaq evində böyüdülüb. Adını isə Albertin qoyublar. Dörd yaşında ikən onu bir fransız ailəsi övladlığa götürür və Fransaya aparırlar. Lakin Albertinin ailə həyatı uzun çəkmir. Dərslərini yaxşı oxusa da özünü yaxşı aparmadığına görə valideynləri onu xüsusi nəzarətli məktəbə göndərirlər. Bu məktəb-

dən isə yeniyetmə qız bakalavar imtahanı günü qaçır və Paris küçələrində pozğun həyat sürməyə başlayır. Sonra o başqa yolla pul qazanmaq fikrinə düşür, rəfiqəsi ilə birgə oğurluq edir və həbs olunur. İyirmi yaşında ikən həbsdən qaçır. Həbsxananın çox hündür barısından atılarkən bud sümüyü sınır. Yol keçən bir nəfər ona kömək edir və gizlədir. Bu şəxs sonra onunla həbsxanada evlənməli olan Jülyən Sarazəndir. Albertin öz əri ilə də birgə həyat sürə bilmir. Onlar tez-tez həbsə düşürlər, Albertin otuz illik ömrünün səkkiz ilini həbsdə keçirir. Əri isə on səkkiz il həbsxanada yaşamalı olub. Həbsdə ikən Albertin iki roman yazır: "Madyan at" ("Lakaval") və "Bud sümüyü" ("Lastraqal"). Romanların hər ikisi 1965-ci ildə nəşr olunur və müəlifə böyük şöhrət qazandırırlar. Əslində bu romanlar gənc yazıçının qəribə həyat yolunun bədii dilli təsviridir. Bir il sonra onun yeni bir romanı, daha sonra məktublar və şe'rlər kitabı və ayrıca şe'rlər kitabı çap olunur. Onun hər yeni kitabı böyük maraqla qarşılanır. Müsahibə şəklində söhbəti yazılmış vallar da əl-əl gəzir. Lakin Albertin şöhrət tacını da cəmisi iki il gəzdirə bilir. Həbsxana barısından atılarkən sınmış sümüyü müalicəsiz qaldığı üçün 1957-ci ildə iltihab verir və Albertin Sarazən otuz yaşında ikən şöhrət tapmış qalmaqallı ömrünü cərrahiyyə otağında başa vurur.

Naməlum valideynlərin dünyaya gətirdiyi qaraşın bir qızcığazın az ömürlə Fransada keçdiyi qəribə həyat yolu, onun qeyri-adi iste'dadı kimi desən təəccübləndirə bilər. Elə buna görə də sözarası Albertin Sarəzəndən söhbət düşmüşdür. Onun kitabüstü şəkilləri xatirəmdə həkk olunmuş və Əlcəzair küçələrində zahirən ona çox bənzəyən qızlara rast gələndə hər dəfə diksinirdim.

Parisdə çap olunmuş ilk şe'rlər kitabının bir nusxəsini mənə bağışlamış gənc əlcazirli şairə Hakima Tamani Reciminin şe'rlərilə Albertinin şe'rləri arasındakı oxşarlığı duyanda da təəccüblənmişdim.

Fransanın müasir yazıçı qadınları haqda söhbət istənilən qədər uzana bilər. 14 kitab müəllifi **Dominik Rolən**, əvvəlcə jurnalistlik etmiş, sonra beş oxunaqlı bədii əsər yazmış **Kristin dö Rivuar**, 1970-ci ildən Qonkur akademiyasına üzv seçilmiş, tanınmış yazıçı **Fransuaz Malle-Joris** və başqaları haqda söhbəti xeyli uzatmaq olardı. Amma müasir fransız yazıçılarının adlarını sadalayıb yaradıcılıqları haqda cüz'i mə'lumat vermək xırda xidmətdir. Ən yaxşı xidmət isə bu gün Fransada və bütün dünyada rəğbətlə qarşılanmış

fransız ədəbiyyatı nümunələrinin dilimizə çevrilib yayılması olardı. Mən isə bu sahədə indiyə qədər, dövr və imkandan asılı olaraq, görə bildiyim işlərin yığcam hesabatını verməyə çalışmışam.

Hamlet Qoca

Anri dö Sən-Simon (1760-1825)

Qraf Anri dö Simon XYIII əsrin sonlarında Amerikanın istiqlaliyyət müharibəsində iştirak etmişdir. Bir neçə il Amerikanın şimalında və Meksikada macəralarla dolu bir həyat sürmüş, Fransa inqilabı vaxtı Fransaya qayıtdığı günlərdən fəal ziyalı qurumları ilə əməkdaşlıq etmişdir. Bərpa dövründə[1] Sən-Simon tarixçi Ogustin Tyeri və filosof Ogüst Komt ilə əməkdaşlıq etmiş, 1819-1820 illərdə o, Ogüst Komt ilə birgə "Təşkilatçı" kitabını nəşr etdirmişdir. 1820-1822-ci illərdə çap etdirdiyi "Sənaye sistemi" silsiləsi onun optimist sənayeçilik ideyalarını biruzə verir: Köhnə rejimin dağılması və sənayeçilərin (yə'ni istehsalçıların) özlərinin idarə edəyəcəyi, müəssisə sahibləri ilə fəhlələrin maraqlarının uyğunlaşdıran yeni sənaye sisteminin yaradılması, onun yazıları rasional sosiologiyaya meylin yaranmasına daim təkan vermişdir. Sən-Simonun sonuncu və bitməmiş əsəri "Yeni Xristianlıq" onun ölümündən sonra çap olunub.

Amerika və Fransa inqilabları, eyni zamanda İngiltərədəki sənaye yenilikləri Sən-Simonun düşüncə istiqamətinə güclü tə'sir göstərmiş və o ki, ölkənin sosial inkişafının iqtisadi inkişafla sıx əlaqəli olduğuna və yüksək cəmiyyətin nümayəndələrinin ləng hərəkətləri ilə bu inkişafa mane olduğlarına tam əmin olur.

Sən-Simonun "Təşkilatçı" əsərindən verilmiş bir parça onun ictimai fikirlərinin əsasını aşkarlayır:

"Təsəvvür edək ki, Fransa özünün əllidə bir fizikini, əllidə kimyaçısını, əllidə bir fizioloqunu, əllidə bir riyaziyyatçısını, əllidə bir şairini, əllidə bir rəssamını, əllidə bir heykəltaraşını, əllidə bir musiqiçisini, əllidə bir ədəbiyyatçısını, əllidə bir çilingərini, əllidə bir mülki və hərbi mühəndisini, əllidə bir topçusunu, əllidə bir arxitektorunu, əllidə bir həkimini, əllidə bir əczaçısını… itirir" (sadalama uzundur, az qala bütün yaradıcılıq sahələri və sənətlərin adı çəkilir və nəhayət belə bir nəticəyə gəlinir — H.Q).

"Bu adamlar ən məhsuldar fransızlar olduqlarına, ən vacib şeyləri yaratdıqlarına, millət üçün ən vacib işləri idarə etdiklərinə və bu işləri elmin, incəsənətin və sənətkarlığın inkişafına istiqamətləndirdiklərinə görə fransız cəmiyyətinin ən gözəl hissəsi sayılırlar. Onlar bütün fransızlar arasında ölkəyə ən çox xeyir verən, ona adsan qazandıran, onun tərəqqisinə və abadlaşmasına təkan verən

[1] Наполеонун сцгуту

adamlardır. Fransa onları itirsə başsız bir bədənə dönər, elə həmin andanca onunla rəqabət aparan ölkələr qarşısında kiçilər, bu itgini bərpa edənə qədər, bədəndə yeni baş bitənə qədər rəqiblər qarşısında kiçik qalar. Belə bir bədbəxtliyi aradan qaldırmaq üçün Fransa tam yeni bir nəslin yaranmasını gözləməli olar. Çünki öz xeyirli işləri ilə fərqlənən adamlar qeyri-adi adamlardır, təbiət isə qeyri-adi adamları, əlaxüsus yaradıcılıqda qeyri-adi olanları az-az yetirir.

İndi isə başqa bir vəziyyəti təsəvvür edək. Təsəvvür edək ki, Fransa bütün bu dahi adamları, elm, incəsənət xadimlərini, öz yaradıcılarını qoruyub saxlayır, amma bədbəxtlikdən eyni gündə Kralın qardaşı cənablarını, Anqulem qrafını, Berri qrafını, Orlean qrafını, Burbon qrafını, Anqulem qrafinyasını, Berri qrafinyasını, Orlean qrafinyasını, Burbon qrafinyasını və Mademuazel Kondeni (Bunların hamısı kral ailəsi və yüksək cəmiyyətin nümayəndələridir — H.Q.) itirir.

Təsəvvür edək ki, Fransa eyni zamanda krala xidmət edən yüksək çinli zabitləri, bütün dövlət nazirlərini, bütün dövlət müşavirlərini, dövlət şurası mə'murlarını, bütün marşalları, kardinalları, arxiyepiskop və yepiskopları, yüksək çinli keşişləri, vilayət və əyalət rəhbərlərini nazirlik mə'murlarını, hakimləri və üstəlik də varlılar içindən on min ən varlı sahibkarını itirib.

Belə bir hadisə yəqin ki, fransızları rahatsız edərdi, çünki onlar mülayimdirlər, çünki onlar belə böyük bir sayda həmvətənlərinin qəfildən yoxa çıxmasına biganə qala bilməzlər. Amma bu otuz min adamın, dövlətin tanınmış mə'murlarını itirmək onlara ancaq sentimental qüssə gətirərdi, çünki bu işin Dövlətə heç bir siyasi zərəri dəyməzdi".

Stendal (Anri Beyl) (1783-1842)

1783-cü ildə Qrenoblda anadan olmuşdur. Tənhalıq və əzab içərisində, atasının və müəlliminin sərt xasiyyətindən bezikmiş uşaq yeddi yaşında ikən, yeganə mehribanlıq gördüyü insanı, anasını da itirir. Ailədəki sərt dini ən'ənəçilikdən cana gələrək daha dəqiq elm saydığı riyaziyyata ciddi meyl göstərməyə başlayır. 1799-cu ildə Politexnik Məktəbə daxil olmaq üçün Parisə gəlib. Lakin bu fikrindən daşınıb hərbi Nazirlikdə işə girmiş, I Napoleonun İtaliya səfərində (1800-ci il) iştirak etmişdir. Xidmətinin bir hissəsini Milanda keçirir. Burada İtaliya həyatına vurulur. Musiqi və məhəbbətin dadını görüb onları öz həyatının simvolu kimi qəbul edir. Parisə qayıtdıqdan sonra idarəçilik işinə keçir, tez-tez ezamiyyətlərdə olur. İşində uğurlar qazansa da, ürək sıxıntısından yaxa qurtara bilmir.

1814-cü ildə Napoleonun süqutu onun karyerasına son qoyur. Kasıblayaraq, Milana qayıdır və 1821-ci ilə qədər burada öz ehtiraslarının xidmətində olub, Sevdiyi qadınlardan Metild Dembrovskanı həyatının ən yaxın mərhəmi sanmışdır. İtaliyadakı liberallarla əlaqələri polisi şübhəyə saldığından Parisə qayıtmalı olur. Parisə qayıtdıqdan sonra da İtaliya və İngiltərəyə səfərlər edir, bu ölkələrdəki liberallar və romantiklərlə təmasda olur, lakin bu hərəkatların heç birinə ciddi maraq göstərməmişdir. Sərbəst yaradıcılıqla məşğul olmağa maddi imkanı olmadığına görə Stendal 1830-cu ildə yenidən dövlət xidmətinə qayıtmalı olmuş və Triyestdə konsul vəzifəsində çalışmışdı. Bu işdə xəstələnir və can sıxıntısı daha da artır. Vaxtını keçirmək üçün o İtaliya kitabxanalarında mütaliələrlə məşğul olur və Fransanın cənubuna səfərlərə çıxmış,1842-ci ildə belə səfərlərdən biri vaxtı vəfat etmişdir.

Stendal ciddi bədii yaradıcılığa 30 yaşından sonra başlamışdır. 1817-ci ildə "Roma Neapol və Florensiya", 1822-ci ildə "Məhəbbət haqqında", 1823-25-ci illərdə "Rasin və Şekspir", 1829-cu ilə "Romada gəzinti". 1830-cu ildə "Qırmızı və Qara", 1834-36-cı illərdə "Lüsyən Löven" və "Anri Brüların həyatı", 1838-ci ildə "Turistin xatirələri", 1839-cu ildə "Parm qəsrinin əsiri" və "İtaliya xronikası" əsərlərini yaratmışdır.

Stendalın ən tanınmış və populyar əsəri "Qırmızı və Qara" romanı sayılır. Əsərin mövzusu belədir: Kiçik Veryer şəhərinin valisi cənab dö Renal, Jülyən Sorel adlı bir gənci, odunçu oğlunu, öz

uşaqlarına tərbiyəçi kimi işə götürür. Jülyən üzdən utancaq və təvəzökar görünsə də çox xudpəsən bir gəncdir. Karyera qazanmaq arzusu ilə yanır. Çox canfəşanlıqdan sonra uşaqların anası, mülayim madam dö Ronalın məhəbbətini qazana bilir.

Bu ailədən uzaqlaşdırılandan sonra o seminariyaya daxil olur və seminariya rəhbərliyinin rəğbətini qazanır. Rəhbərlik isə onu Markiz dö la Molun katibi vəzifəsinə düzəldir. Jülyən tezliklə Markizin qılığına girir və onun qızı, xəyalpərvər Matildanı özünə cəlb etməyə çalışır. O istəyinə nail olur, qızın valideynlərindən vəzifə, ad-san və evlənmək icazəsi alır.

Jülyəni sevən və qısqanclıqdan yanan madam dö Renal isə onun pis adam olduğu haqda markizə mə'lumat verir.

Jülyən onun həyat planını pozmuş qadından intiqam almaq qərarına gəlir. Veryer şəhərinə qayıdır və tapanca gülləsi ilə madam dö Renalı yaralayır. Sonra o həbs olunur və ölüm cəzasına məhkum edilir.

Əsərdən kiçik bir parçanın tərcüməsini təqdim edirik:

"İsti günlər başlamışdı. Axşamları evin yaxınlığındakı nəhəng cökə ağacının altında keçirmək də bir adətə çevrilmişdi. Ağacın kölgəsi həmişə alaqaranlıq olurdu. Axşamların birində Jülyən coşmuşdu, əl-qol ata-ata danışır, iki gənc qadının qarşısında belə məharətlə, səlist danışmasından özü də həzz alırdı. Əl-qol atdığı anlardan birində təsadüfən madam dö Renalın əlinə toxundu. Madam əlini rənglənmiş stulun söykənəcəyinə qoymuşdu.

Madam dö Renal əlini geri çəkdi. Jülyen isə fikirləşdi ki, həmin əli tutub saxlamaq imkanına nail olmalıdır. Qarşıya qoyulmuş məqsəd gülünc və mənəviyyətsiz olsa da, onu yerinə yetirə bilməyəcəyini təsəvvür edəndə əhvalı tamam korlandı.

Ertəsi gün madam dö Renalla görüşəndə Jülyənin baxışlarında qəribə bir ifadə vardı. O gənc qadına qatı düşmən, döyüşəcəyi bir rəqib kimi baxırdı. Dünənkindən çox fərqli olan bu baxışlar Madam dö Renalı çaşdırmışdı. Xoş münasibətinin cavabında qəzəbli nəzərlərlə rastlaşmışdı. Gözlərini Jülyənin gözlərindən çəkə bilmirdi.

Madam Dervilin orada olması Jülyənə az danışmaq imkanı verirdi və o bütün fikrini görəcəyi iş ətrafında cəmləmişdi. Elə bütün gününü də öz planına uyğun bir kitabın mütaliəsi ilə keçirmişdi.

O uşaqların dərsini xeyli ixtisar elədi. Madam dö Renalın baxışları ilə yenidən rastlaşdıqda öz şərəfli öhdəliyinə əməl edəcəyini

bir daha qərarlaşdırdı. Qəti qərara aldı ki, bu axşam gənc xanımın əlini tutub öz əlində saxlamalıdır.

Günəşin batması və öhdəçilik vaxtının yaxınlaşması Jülyənin həyəcanını artırırdı. Hava qaraldıqda isə gecənin çox qaranlıq olacağını duyub bir az sevindi. İsti güləyin səmada dolandırdığı qara bulud parçaları getdikcə sıxlaşır, sanki yaxın vaxtda tufan qopacağını xəbər vermək istəyirdi. Rəfiqələr gecə düşənə qədər bağçada gəzindilər. Bu gecə onların hər hərəkəti Jülyənə qəribə görünürdü. Zərif qəlbli adamların bə'zilərinə şirin məhəbbət anlarını andıran buludlu hava xanımlara ləzzət verirdi.

Nəhayət, onlar gəlib skamyada əyləşdilər. Madam dö Renal Jülyənin yanında, Madam Dervil isə rəfiqəsinin yanında oturdu. Fikri öz planı ilə məşğul olduğundan Jülyən danışmağa söz tapa bilmirdi. Söhbət baş tutmurdu. Jülyən fikirləşdi: "Yəni məni gözləyən ilk sınaq vaxtı da belə acizlik göstərəcəyəm?" həyəcandan çırpınan ürəyi şübhələrlə dolmuşdu.

Jülyən bu sıxıntıdan qurtarmaq üçün bir təsadüf arayırdı. Dəfələrlə fikirləşdi ki, kaş hansısa bir iş ucbatından Madam dö Renal evə tez getməli olsun! Həyəcandan Jülyənin səsi titrəyirdi. Tezliklə madam dö Renalın səsi də sıxıntılı bir ahəng aldı, amma Jülyən onun həyəcanını duymadı. Qarşısına qoyduğu məqsədin götür-qoyu Jülyəni bir hala salmışdı ki, öz ürəyinin döyüntüsündən başqa heç nə duya bilmirdi. Qəsr saatının zəngi on tamama on beş dəqiqə qaldığını bildirdi, amma Jülyən hələ də tərəddüd edirdi. O öz qorxaqlığından bezikib qəti qərar qəbul elədi: "Ya saat on tamamda bütün günü ölçüb-biçdiyim öhdəçiliyi həyata keçirəcəyəm, ya da evə qalxıb gicgahıma bir güllə vuracağam".

Sıxıntılı dəqiqələr çox ağır keçdi və nəhayət Jülyənin başı üzərindəki qəsr saatı on zəngini çalmağa başladı. Saatın hər zəngi onu astaca diksindirir və vücudunu lərzəyə salırdı.

Nəhayət, onuncu zəng çalındığı vaxt o əlini uzadıb madam dö Renalın əlindən tutdu. Gənc xanım əlini geri çəkdi. Həyəcandan keyləşmiş Jülyən həmən əli yenidən tutdu. Özü qorxudan titrəsə də madam dö Renalın əlinin soyuqluğu onu təcübləndirdi və tutduğu əli daha da bərk sıxmağa başladı. Əl xilas olmaq üçün bir də uğursuz cəhd göstərdikdən sonra süstləşib qaldı.

Jülyənin ürəyi indi də sevincdən çırpınırdı. Bu çırpıntı Madam dö Renala olan məhəbbətdən deyil, sıxıntıdan xilas olma sevincinin çırpıntısı idi".

Onore Balzak (1799-1850)

Tanınmış fransız yazıçısı Onore Balzak 1799-cu il may ayının 20-də Fransanın Ture şəhərində anadan olmuşdur. Onore maraqlı bir ailənin — 53 yaşlı Bernar-Fransua ilə 21 yaşlı ANN-Şarlottanın ilk övladı idi. Bernar-Fransua uzun müddət hərbi idarədə işləsə də, yaşadığı şəhərdə şən, işgüzar və macərapərəst bir adam kimi tanınırdı. Gələcəyin məşhur yazıçısının atası həm də yaxşı qələm və bilik sahibi idi, müxtəlif mövzularda elmi-kütləvi broşuralar yazıb çap etdirirdi.

O dövr Fransasının minlərlə başqa uşaqları kimi balaca Onore də ailə mehribanlığından məhrum böyüyürdü. Lap körpəliyindən süd anasına verilmiş, dörd yaşından sonra isə müxtəlif pansionlarda böyüyərək təhsil almışdı. Uşaqlıq dövrünün ən ağır illəri isə Vandom kollecində oxuduğu illərlə bağlı idi. Yeddi il təhsil aldığı bu qapalı məktəbdəki din xadimləri ən xırda günahlara görə uşaqları döyür və nəmli, qaranlıq otaqda saxlayırdılar.

Həmən illər Balzak çoxlu kitab oxuyur, və özü də yazmaq həvəsinə düşmüşdü. Yoldaşları onu məsxərəyə qoyub "şair"№adlandırsalar da öz fikirlərini vərəqlərə köçürməyə başlamışdı. Bir dəfə müəllimlərindən biri onun "sərbəstlik haqda" adlı əlyazmasını gözləri qarşısındaca cırıb atmışdı. Bu cür münasibətlər gənc müəllifin əsəblərini korlamış, nəticədə o xəstəliyinə görə kollecdən evə gətirilmiş, bir müddət sonra isə başqa bir pansiona göndərilmişdi.

Nəhayət Balzak on beş yaşına çatanda ailəsi ilə birlikdə Parisə köçür. Atası istəyirdi ki, Balzak təhsil alıb notarius rəisi yaxud tanınmış vəkil olsun. 1816-cı ildə Balzak atasının tə'kidi ilə hüquq məktəbinə daxil olur və eyni zamanda Mervil adlı bir vəkilin idarəsində katib işləməyə başlayır. (Sonralar vəkil Mervil Balzakın "İnsan komediyası" adlı romanlar silsiləsində Dervil adlı maraqlı bir obraza çevrilib). Paris həyatı Balzakın dünya görüşünü genişləndirir və yaşadığı cəmiyyətin sirlərinə marağını artırır. Mütaliəyə meyli də getdikcə artırdı. Balzak valideynlərindən gizli Sorbon universitetində ədəbiyyat mühazirələrini dinləməyə gedirdi.

1819-cu ildə Balzak Hüquq məktəbini uğurla bitirsə də, valideynlərinə qətiyyətlə, ədəbiyyat sahəsində çalışmaq fikrində olduğunu bildirir. Ailədə uzun narazılıqdan sonra qərara alırlar ki, ədəbiyyatda gücünü göstərə bilmək üçün ona iki illik sınaq müddəti

verilsin. Həmən vaxt ailə kəndə köçür, Balzak isə Parisdə tək qalır. Bu dövrü o rahatsızlıq və korluq içində yaşayır. Bacısına göndərdiyi məktublardan birində Balzak yazırdı: "Gələcəkdən böyük şöhrət gözləyən qardaşın indidən dahi adamlar kimi yaşayır, yə'ni acından ölür".

Balzak tutduğu çardaq otaqda roman, komediya, məzhəkəli liberetto yazmaqla qələmini yoxlayır, lakin onlarla bərabər yazdığı ilk faciə də uğursuz çıxır. Balzak ruhdan düşmür, uğurlu romanlar yazmaq həvəsi ilə yaradıcılığını davam etdirirdi. 1821-1825-ci illər arasında ona yaxın roman yazıb müxtəlif təxəllüslərlə çap etdirmişdisə də nə uğur qazana bilmişdi, nə də pul. O tez-tez əyalətə, valideynlərinin evinə də gedirdi. Kənddə o Laura dö Berni adlı dul, altı uşaq anası olan bir qadınla tanış olur və ona vurulmuş və bu qadın öz ömrünün sonuna qədər Balzaka kömək etmiş və onu yaradıcılığa ruhlandırmışdı.

Bir vaxt Balzak borc pul toplayıb mətbəə açmaq fikrinə düşür. Lakin bu işi də uğursuzluğa düçar olur və o uzun müddət borc içində yaşamağa məcbur olmuşdu.

1831-ci ildən Balzakın ədəbi uğurlar dövrü başlayır. Həmən il çap etdirdiyi "Üzlük dəri" romanı öz psixoloji və fəlsəfi dəyərlərinə görə ona şöhrət qazandırır. Onun yaradıcılığı Fransadan kənarda da ciddi maraq doğurur. Bir neçə əsəri xarici ölkələrdə çap olunur. 1832-ci ildə Rusiyadan "Yadelli Qadın " imzası ilə bir ouxucu məktubu alır. Sonra o öyrənir ki, həmən qadın Polşa mənşəli Zadəkan zanım Hanskayadır və 1833-cü ildən onunla məktublaşmağa başlayır, həmən ilin payızında isə onunla İsveçrədə görüşür.

Bu illər Balzakın "Qaryo ata", "Evqeni Qrande", "Kənd həkimi", "Qobsek", "Topla oynayan pişiyin evi" və başqa əsərləri məşhurlaşmışdı. Xanım Hanskayaya göndərdiyi məktublardan biridə Balzak yazırdı:

"Mənim romanlarım qərbin "Min bir gecə"sidir". Doğrudan da Balzakın əsərlərinə maraq getdikcə artırdı və o böyük əzmkarlıqla işləyirdi. Başqa məktublarından birində o yazırdı: "Gecə yarıdan gönortaya qədər işləyirəm, yə'ni 12 saat kresloda oturur, yazır və düzəliş edirəm. Günortadan sonra saat dördə qədər vərəqləri səliqəyə salır, saat beşdə nahar edir, altının yarısında yatır, gecə saat on ikidə isə yenidən qalxıb işləməyə başlayıram".

Ağır iş rejimi Balzakın səhhətinə zərbələr vururdu. Yaradıcılığı uğurlu bəhrələr verdikcə ürək ağrısı da çoxalırdı. 1843-cü ildə o

sevdiyi xanım Hanskaya ilə görüşmək üçün Peterburqa gedir və bir müddət Hanskayanın evinə yaxın bir mənzildə yaşayır. Rus mədəniyyətinə nifrət edən Hanskaya Balzakın rus oxucuları və ziyalıları ilə yaxın təmasına imkan vermirdi.

Elə həmən ilin payızında Parisə qayıdan Balzak yeni həvəslə işləməyə başlayır və nəzərdə tutduğu "İnsan komediyası" romanlar silsiləsinin tərkibini planlaşdırmağa başlayır. Sonrakı illərdə o, "Xırda burjualar", "Modest Minyon", "Kəndlilər", "Əmioğlu Pons", "Beatrisa" və başqa romanları yazıb silsilə üçün hazırlayır. Balzakın hesabına görə "İnsan komediyası" silsiləsinə 144 əsər daxil olmalı və onların bir hissəsi hələ yazılmalı idi.

Nəhayət fasiləsiz ağır iş böyük yazıçının yaradıcılıq imkanalrını kiçiltdi. 1847-ci ildə daha yaza bilmədiyindən şikayətlənirdi. Ona elə gəlirdi ki, Rusiyaya gedib sevgilisi Hanskaya ilə evlənsə həyatı təzələnər və səhhəti düzələr.

Elə bu fikirlər də Balzak 1847-ci ilin payızında yenidən Rusiyaya, Hanskayanın Berdiçevadakı malikanəsinə gedir. Çar I Nikolayın göstərişi ilə polis nəzarətində olsa da yazıçı rus şəhərlərini gəzir və Kiyevə də gedir. Hanskaya isə Ukraynadakı böyük əmlakını qoyub yadelli yazıçının zövcəsi kimi Fransaya köçmək qərarına gələ bilmirdi.

Balzak Parisə qayıdır və burada özünün "Ögey ana" pyesinin uğurunun və vətəndə baş verən tarixi siyasi hadisələrin şahidi olandan sonra 1848-ci ildə yenə Rusiyaya getmək qərarına gəlir. Onun səhhətinin getdikcə ağırlaşdığını görən Hanskaya nəhayət evlənməyə razılıq verir. Onlar 1850-ci ilin martında Berdiçevada evlənirlər. Balzakın həyata ümidi artır və həmin günlər o belə yazırdı: "Mənim nə xoşbəxt gəncliyim, nə də çiçəkli baharım olub, indi ən günəşli yayı və sti payızı yaşamaq imkanı qazandım".

Lakin onun ümidləri boşa çıxır. Rusiyadan Parisə uzanan bir aylıq yol onu daha da üzüb əldən salır. Parisə çatandan sonra isə yataq xəstəsinə çevrilir. Xəstə Balzaka baş çəkəndən sonra Viktor Hüqo öz dostlarına demişdi: "Cənablar, hazırda dünya böyük bir insanı itirmək üzrədir". Elə həmən gün, avqustun 18-də dünya böyük yazıçını itirdi. İki gün sonra isə Balzakı Per-Laşez qəbristanlığında böyük hüznlə dəfn etdilər.

Balzak istədiyi qədər yazıb-yarada bilmədisə də Fransanın və dünyanın böyük yazıçıları sırasına düşdü.

"Üzlük dəri" romanı Balzakın ilk və ən kamil əsərlərindən biridir. Yazıçı öz fəlsəfi düşüncələrini burada daha aydın ifadə edə bilmişdi.

Rafael adlı bir gənc düçar olduğu iflasın əzablarını çəkdiyi günlərdə bir antikvar dükanında kitab üzlüyü kimi işlədilən dəri parçası görür. İnsan ömrü kimi işləndikcə üzülüb məhv olan üzlük dərinin taleyi gəncə çox möcüzəli görünür. Qoca antikvarçı bu əşyanın taleyini insan taleyi ilə çox məharətlə müqayisə edir. Oğlan elə bil üzlük dərinin tilsiminə düşür və onu alır. Əşya işlənib üzüldükcə onun da həyatı sona yetir.

Qoca antikvarçının dükanda Rafaelə dediklərindən bir hissənin tərcüməsi:

"İnsan ömrünün böyük bir sirrini qısa söhbətlə sizə açıram. İnsanın instinktlə həyata keçirdiyi iki məşğuliyyət onu üzür və həyat işığını söndürür. Ölümə aparan bu iki səbəbin hər cür forması ikicə fellə ad tapır: "İstəmək" və "Bacarmaq". İnsan fəaliyyətinin bu iki adı arasında başqa bir ifadə də var və ağıllılar ondan istifadə edir. Mən də öz uzunömürlülüyümə görə ona borcluyam. "İstək" bizi yandırır, "bacarıq" məhv edir, lakin "bilik" bizim zəif vücudumuza daimi bir dinclik gətirir. Beləliklə, məndəki istək yaxud, arzu artıq ölüb, onu şüur öldürüb; hərəkət, yaxud bacarıq isə mənim əzalarımın təbii funksiyası ilə həll olunub. Qısa desək, mən həyatımı parçalanan ürəyə, yaxud zəifləyən hisslərə deyil, heç vaxt köhnəlməyən və bütün əzalardan çox yaşayan beyinə tapşırmışam. Heç bir artıq hərəktələ nə ürəyimə nə də bədənimə əzab verməmişəm. Amma bütün dünyanı gəzib görmüşəm. Mənim ayaqlarım Asiya və Amerikanın ən uca dağlarında iz qoyub, dünya dillərinin çoxunu öyrənmişəm, bütün hakimiyyətlər altında yaşamışam. Atasının cəsədini girov götürməklə bir çinliyə borc vermişəm, bir ərəbin andına inanıb onun çadırında yatmışam, bütün avropa ölkələri paytaxtlarında müqavilələr imzalamışam, heç bir həyəcan keçirmədən qızıl kisəmi vəhşi hinduların komasında saxlamışam, bir sözlə; heç nəyə oludə olmadığıma görə hər istəyimə nail olmuşam. Yeganə arzum çox görmək olub. Çox görmək çox bilmək deyil yə'ni? Eh, cavan oğlan, bilik təbii bir həzz deyilmi? Hər işin kökünü öyrənib məğzini anlamaq deyilmi? Maddi sərvətdən adama nə qalır? Tək bir fikir. Bütün reallıqları şüuruna həkk edən, qəlbində xoşbəxtlik tumurcuqları gəzdirən və onların bəşəri çirkablardan uzaq tutub əsl xoşbəxtliyə çevirə bilən bir adamın həya-

tının nə qədər gözəl olduğunu təsəvvürə gətirin. Şüur bütün xəzinələrin açarıdır; O xəsisə də sevinc gətirir. Mən dünyanı dolanıdqca ancaq mə'nəvi sərvət aramışam. Dənizləri, xalqları, peşələri, dağları müşahidə eləməkdən həzz almışam! Hər şeyə səbrlə, özümü yormadan tamaşa etmişəm. Heç vaxt heç nəyi çox arzulamamışam, hər şeyin gəlişini gözləmişəm. Mən dünyanı gəzərkən öz evimin həyətində dolanırmış kimi gəzirdim. İnsanların qəm, məhəbbət, istək, uğursuzluq, qüssə adlandırdığı mövhumlar mənim üçün ancaq xəyala gətirilən fikirlərdir. Onları öz vücudumda hiss etmək əvəzinə üzə çıxarır, uzaqlaşdırıram, ömrümünyandırılmasına aman vermədən onları kənarda yoxlayır, inkişaf etdirir, tə'sirsiz bir roman oxuyurmuş kimi onlarla əylənirəm. Heç vaxt öz əzalarımı yorub əldən salmamışam, ona görə də özümü hələ sağlam və gümrah hiss edirəm. Qəlbimin enerjisinə vaxtında qənaət edə bildiyimə görə beynimin əmlakı dükanlarımın əmlakından dəyərlidir. O əlini alnına vuraraq əlavə etdi: Əsl milyonlar bax burada yığılıb. Keçmişimi yada salanda həzz alıram, müxtəlif ölkələr, şəhərlər, okean mənzərələri, gözəl sifətlər gəlir gözlərim qarşısına! Hələ mənim xəyali bir hərəmxanam da var, ələ keçirə bilmədiyim gözəl qadınları ora yığmışam. Tez-tez sizin müharibə və inqilabları yada salır və onları mühakimə edirəm. Eh, heç bilmirəm dərinin rəng çalarına, yaxud bədənin formasına yüngül aludəlik nəyə gərəkdir! Fəlakətlər gətirən yanlış arzulara sadiqlik nəyə gərəkdir! Dünyanı özündə cəmləmək, nə azmana nə də əhatəyə bağlı olmadan gəzib-dolanmaq ləzzəti, hər şeyi qavramaq, hər şeyi görmək ləzzəti, dünyanın sonuna çatıb başqa aləmləri öyrənmək, Tanrını dinləmək yaxşı deyilmi!

O üzlük dərini göstərərək səsini ucaltdı: bax, bu bacarıqla istəyin birlik rəmzidir. Buradadır sizin ictimai fikirləriniz, sonsuz istəklərniz, dözümsüzlükləriniz, ölüm gətirən sevinclərniz, ömür uzadan ağrılarınız — axı, bəlkə də ağrının özü də sərt bir ləzzət deməkdir. Ləzzətin ağrıya yaxud ağrının ləzzətə döndüyü anı kim dəqiq tə'yin edə bilər? İdeal aləmin ən güclü işıqları insan gözünü oxşadığı halda təbii aləmin ən mülayim qaranlığı gözü incitmirmi? Bilik sözü bilməkdən yaranmırmı? İstəyin yaxud bacarığın artıqlığı nədən yaranır?

Onore Balzakın əsərlərinin çox cüz'i bir hissəsi rus dili vasitəsilə dilimizə çevrilib. Fransız dilini öyrənən və bədii tərcüməyə maraq göstərən gənclərimizə bu sahədə uğurlar arzulayıram.

Viktor Hüqo (1802-1885)

Viktor Hüqo 1802-ci ildə Bezansonda anadan olmuşdur. Atası İmperiya dövrünün yüksək rütbəli zabiti idi. Xidmət yerlərinin dəyişməsindən asılı olaraq ailə çox vaxt köçkün vəziyyətində yaşayır, valideynləri arasındakı savaşlar balaca Viktora əzab verirdi. 1809-cu ildə ailə Parisdə məsgən salaraq bir müddət rahatlıq tapmış. 1811-1812-ci illərdə İspaniyaya səfərdən sonra isə dağılmış, Viktor Hüqo qardaşları Abel və Öjen ilə anasının himayəsində qalmışdı.

1819-cu ildə Viktor Hüqo Adel Futer adlı bir qıza vurulur və üç il sonra valideynlərinin etirazına baxmayaraq həmin qızla evlənir. O gənc yaşlarından şe'r məclislərində iştirak etməyə başlayır, müxtəlif müsabiqələrdə tanınır, kral təqaüdünə layiq görüldükdən sonra bütün vaxtını bədii yaradıcılığa sərf etmək imkanı qazanır və tədricən romantizmə meylli fransız yazıçı və şairlərinin liderinə çevrilmişdir. O gah ən'ənəçilərin gah da senzuranın təzyiqinə mə'ruz qalırdı. 1833-cü ildən Jülyet Drue adlı bir aktrisanın məşuqu olmuş və həmin qadınla küsüb, barışa-barışa 50 il dostluq etmişdi.

1830-cu ildə Monarxiyanın bərpası dövründə Fransa Akademiyasına üzv olmağa çalışmış, lakin bu rütbəyə ancaq 1841-ci ildə layiq görülmüşdür. Həmən dövrdə o başqa uğurlar da qazanır, lakin 1843-cü ildə sevimli qızı ilə kürəkəninin Sena çayında boğulub ölməsi ona uzun illər əzab verimişdir.

1848-ci ildə Fransada İkinci Respublika yaranandan sonra Viktor Hüqonun siyasi nüfuzu güclənir. O deputat seçilir. Lui-Napoleon Bonapartı müdafiə edir, sonra isə sol respublikaçıların tərəfinə keçir. 1851-ci il dövlət çevrilişindən sonra həbs olunmamaq üçün Brüsselə qaçır, daha sonra başqa şəhərlərdə gizlənməli olur. Sürgün həyatı onu əfsanəvi qəhrəmana döndərir və bu dövrdə dəyərli əsərlər yazır. 1870-ci ildə III Napoleonun hakimiyyəti devrildikdən sonra onu Parisdə böyük təntənə ilə qarşılamışlar. Ömrünün son illərini Paris Kommunası iştirakçılarının hüquqlarının bərpası və özünün əl yazmalarını sahmana salmaqla məşğul olmuşdur. 1885-ci ildə vəfatı milli matəmə hadisəsinə çevrilmiş və Hüqo böyük təntənə ilə panteonda dəfn edilmişdir.

Viktor Hüqonun gənclik dövrü yaradıcılığında poeziya mühüm yer tutur. 1820-1830-cu illərdə çap olunmuş "Odalar və ballada-

lar", "Şərqlilər", "Payız yarpaqları", "Alaqaranlıq nəğmələr" adlı şe'r iktabalrı Viktor Hüqo poeziyası ilə əsaslı tanışlıq yaradır. "Məhbusun son günü", "Paris Notr-Dam kilsəsi", "Səfillər", "Doxsan üçüncü il" romanları isə demək olar ki, Hüqonun şöhrət tacının ən iri almazlarıdır. Viktor Hüqonun "Qromvel", "Hernani", "Maryon Delorm", "Lükres Borjya", "Mariya Tüdor", "Rüy Blas", "Burqravlar" kimi dram əsərləri də fransız ədəbiyyatının ulduzları sayılır.

Viktor Hüqo, deputat—yazıçı

1848-ci il noyabrın 10-da parlamentin öbüdcə müzakirəsində çıxışı:

"Cənablar, büdcənin yüngülləşdirilməsi vacibliyini mən də çox yaxşı anlayıram. Amma, mənim fikrimcə maliyyə çətinliyimizin çarəsi bir neçə xırda və ürəkbulandıran qənaətdə deyil, bu çarəni başqa yerdə, yuxarıda aramaq lazımdır; Fransanın inamını qazanmaq, ölkədə qanun-qayda, iş yeri və kredit yaradacaq, xüsusi, böyük xərcləri ləğv edə biləcək ağıllı siyasət də aramaq lazımdır. Bəli, cənablar, büdcənin artıq xərcləri əgər davam etsə və artsa, qarşısını almasanız, gələcəkdə ölkənin ictimai əsaslarını dağıdacaq. Artıq xərclər məhz oradadır…

Təklif olunmuş bə'zi qənaətlər üçün səs vermişəm və verəcəyəm. Amma ictimai həyatın mənbələrini görməyən, hətta təhlükədə qoyan və maliyyə qənaət adı ilə təklif olunub, şübhəsiz siyasi səhvə apapran təkliflərə səs vermirəm. Ədəbiyyat, elm və incəsənət xərclərinin azadılması haqda maliyyə komitəsinin təklifini mən həmən kateqoriyaya aid edirəm…

Cənablar, elm incəsənət və ədəbiyyat fondunun azaldılması haqda təklif ikiqat zərərlidir. Bu xərclər maliyyə baxımından cüz'idir, bütün başqa cəhətlərdə isə əhəmiyyətsizdir.

Bəli, maliyyə cəhətindən cüz'idir. Bu elə, bir mə'lum məsələdir ki, öz çəkdiyim hesabı məclis nümayəndələrinə göstərməkdə tərəddüd edirəm. Belə ciddi bir məsələdən danışarkən məclis üzvlərini güldürmək istəmirəm. Amma məsələni aydın və sadə təsvir edəcək sadəlövh bir muqayisəni nəzərinizə çatdırmağı özümə borc bilirəm.

Təsəvvür edin, cənablar, ildə 1500 frank gəliri olan bir şəxs özünün mədəni inkişafı, elmi, ədəbiyyat və incəsənət sahəsindəki inkişafı üçün cəmi 5 frank pul xərcləyir və reforma dövründə bu məbləği də altı su azaldır.

Bəli, cənablar, təklif olunan qənaətin dəqiq müqayisəsi belədir. Deməli, mədəni bir ölkənin geridə qalmış bir adamına məsləhət görmədiyiniz işi Fransaya təklif edirsiniz.

İndicə sizə bu qənaətin necə kiçik odluğunu göstərdim. İndi isə oun necə pis nəticə verəcəyi haqda danışım…

Bu cür qənaət üsulu fransız şüuru inkişafının əsası olan mədəniyyət ocaqlarını dağıtmaq deməkdir. Özü də hansı bir vaxtda? Əvvəldə ciddi siyasi səhv kimi mən elə bunu göstərirdim. İndiki vaxtda onlar daha vacibdir, onları azaltmaq yox, çoxaltmaq və genişləndirmək lazımdır.

Sizin hamınızın vicdanınıza və duyğularıınza üz tutub soruşuram ki, bu günkü pis vəziyyətin səbəbi nədir? Kəmsavadlıqdır. Kasıblıqdan da çox kəmsavadlıqdır.

Kəmsavadlıq bizi boğur, ətrafımızı bürüyüb bizi məhvə aparır… Belə bir vaxtda, belə bir təhlükə qarşısında kəmsavadlığı aradan qaldırmağa, məhv etməyə yönəldilmiş mədəniyyət ocaqlarına qəsd etməyi ağıla gətirmək olarmı!

Bir daha sizin mənəviyyatınıza müraciət edirəm, küçədə vəhşiliklər gördüyümüz vaxt, hökumət vandlizminə yol verməyək! Cənablar, dünyada ancaq maddi qorxu mövcuddur, başqalarını isə sərtlikdən yaranmış qorxu adlandırardım. Şükür olsun ki, mədəni bir cəmiyyətdə kobud mühafizə, polis gücünə arxalanmaq son imkan sayılmır.

Şəhərlərin işıqlandırılması, axşam qaranlığında tinlərdə, kütləvi yerlərdə fanarlar yandırılması vacibliyi duyulur. Axı, insan mənəviyyatına də qaranlıq çökür, bəs insan şüuru üçün işıq yandırmaq vacibliyi niyə başa düşülmür?

Mənəvi xəstəlik, dərin bir mənəvi xəstəlik canımıza yeriyir, bizə əzab verir. Bu mənəvi xəstəlik isə, qəribə görünsə də,maddi sərvətə hərislikdən yaranır. Yaxşı, bu maddi sərvət hərisliyinə necə qalib gəlmək olar? Ancaq mə'nəvi sərvət hərisliyi ilə. Deməli, gövdədən kəsib qəlbə calamaq lazımdır.

Mənim "gövdədən kəsib qəlbə calamaq lazımdır" fikrimə şübhə ilə yanaşmayın, həmınız məni yaxşı başa düşürsünüz. Hamınız kimi mən də ürəkdən istəyirəm ki, kasıb təbəqənin maddi vəziyyəti

yaxşılaşsın. Bu bizim hər birimizin can atmalı olduğumuz bir sahədir, bu cəhdlər bizim həm insan kimi, həm də deputat kiim borcumuzdur.

Dövrümüzün ən böyük səhvi bundadır ki, insanları mə'nəvi dəyərlərdən salındırıb, maddi dəyərlər hərisinə döndərib…

Bu xəstəliyə çarə qılmaq lazımdır, cənablar, insanların mə'nəviyyatını bərpa etmək lazımdır. Maarif nazirliyinin ən vacib vəzifəsi adamların şüuruna tə'sir etmək, onları vicdana, yaxşıya, gözəlləyə, haqqa və düzgünlüyə istiqamətləndirməkdir. Belə şəraitdə insan insanla da, cəmiyyətlə də barışda olar.

Bu məqsədə nail olmaq üçün nə etmək lazımdır? Məktəblərin, dərnəklərin, kitabxanaların, muzeylərin, teatrların, kitab dükanlarının sayını artırmaq lazımdır.

Uşaq təhsil ocaqlarının, böyüklər üçün qıraətxanaların, təhsil alınan, bilik verən bütün müəssisələrin sayını artırmaq lazımdır. Bir sözlə, hər tərəfdən xalqın şüuruna işıq salmaq lazımdır, çünki biz xalqı qaranlıqlarda itiririk.

Bu məqsədə siz nə vaxt istəsəniz nail ola bilərsiniz. Nə vaxt istəsəniz Fransada gözəl bir mə'nəvi tərəqqiyə nail olarsınız. Bu tərəqqi artıq mövcuddur, ondan istifadə etmək, onu idarə etmək, onu yaxşı yerdə becərmək lazımdır…

Yaşadığınız dövr varlı və bərəkətli dövrdür. Burada çatışmayan ziyalılar, talantlar, bilikli adamlar deyil, çatışmayan şey hökumət sevgisi, hökumət qayğısı, hökumət fədakarlığıdır…

Ədəbiyyatın, incəsənətin və elmin zəifləməsi hesabına təklif olunan hər cür qənaətin əleyhinə səs verəcəyəm.

Hörmətli təklif müəlliflərinə isə bircə sözüm var. Siz pula qənaət etmək istədiyiniz halda, şərəfə qənaət etmisiniz və təəsüf ki, özünüzə qarşı kin qazanmısınız. Fransanın şərəfi naminə, Respublikanın qeyrəti naminə mən bu təklifi rədd edirəm".

Aleksandr Düma (1802-1870)

Aleksandr Düma (ata) 1802-ci ildə Paris yaxınlığındakı Viller Kotere qəsəbəsində anadan olmuşdur. Atası fransız ordusunun Napoleon dövründə istefaya çıxmış generalı idi. 1806-cı ildə atası vəfat etdikdən sonra ailə kasıblıq içərisində yaşadığından balaca Düma bir neçə il məktəbə getdikdən sonra çörək qazanmaq üçün çalışmalı olmuşdu. 1822-ci ildə o Parisə gəlib və bir neçə ildən sonra Viktor Hüqonun başçılıq etdiyi romantiklər dərnəyinə daxil olur. Romantiklərin əsas məqsədi klassik faciənin hökmranlıq etdiyi fransız teatrına romantik mövzular gətirmək idi.

Elə bu məqsədə nail olan ilk yazıçı da Aleksandr Düma oldu. 1829-cu ildə onun "III Henri və onun sarayı" adlı pyesi Odeon teatrında tamaşaya qoyuldu və böyük uğur qazandı. Bu əsərdə o dövrün tamaşaçısı klassik faciələri yamsılamayan yeni bir süjet, monaorxiya əleyhinə güclənən ovqata dəstək tapırdı. 1830-cu ilin iyul inqilabı Dumaya şöhrət gətirir. Otuzuncu illərin ortalarından Paris qəzetləri onun "Üç müşkater", "İyirmi il sonra", "Bratelon Vikontu", "Qraf Monte-Kristo"," Kraliça Marqo", "Qırx beş" kimi çox maraqlı macəra romanlarını hissə-hissə çap edərək ona böyük yazıçı şöhrəti qazandırırlar.

1848-cı il inqilabı vaxtı Aleksandr Düma siyasi karyera arzusuna düşür, amma sekcilərdə uğursuzluq qazanır.

1858-1859-cu illərdə yazıçı Rusiyaya səfər edir və bu səfər nəticəsində yeddi cildlik bir səfərnamə yazır.

Bu cildlərdən biri də məşhur "Qafqaz" əsəridir. Sonralar o Qaribaldi ilə tanış olur və məşhur Siciliya yürüşündə onu müşayiət edir.

Aleksandr Düma ömrünün son illərini kasıblıq içərisində keçirmişdir. Ölümü isə 1870-ci ilə, Fransanın məğlubiyyəti ilinə təsadüf edir.

Düma çox böyük maraqla oxunan macəra romanlarının müəllifi kimi tanınmış və bu əsərlərin bir hissəsi istər tərcümə vasitəsilə, istərsə də, bədii filmlər şəklində Azərbaycanda rəğbət qazanmışdır. Lakin onun "Qafqaz" adlı əsəri bizdə daha böyük maraq doğurduğundan həmin əsər haqda qeydləri və əsərdən parçaları bu kitaba salmağı məsləhət bildik.

ALEKSANDR DÜMA AZƏRBAYCANDA

A.Dümanın "Qafqaz" adlanan kitabı nəinki tarixi bir əsər kimi çox əhəmiyyətlidir, həm də qafqazlıların özləri üçün belə qəribə təsadüflər, görüşlər, unudulmuş hadisələr, xatirələr mənbəyidir. Bu əsər XIX əsrin ortalarında Azərbaycanda olmuş fransız tarixçisi, səyyah, yaxud ədiblərin yazdıqlarının ən maraqlısı sayıla bilər. Ona görə ki, Dümanın qələminə məxsusdur — dünyanı gəzib doşmış, tarix və fəlsəfə elmini yaxşı bilən, qədim ədəbiyyata, həmçinin öz dövrünün məşhur əsərlərinə bələd olan məşhur fransız yazıçısı A.Dümanın.

Əsəri oxuduqca onun üslubu, yazılış xüsusiyyətləri, oradakı dil kəskinliyi, xəfif yumor, lirik səhnələr, sərt ifadələr birliyi adamı valeh edir. Müəllif gördüyü və eşitdiklərini, keçən əsrin fransız oxucularına maraqlı görünəcək ən xırda təsadüfləri belə ətraflı şərh edir. Axı, o, Qafqazdan yazırdı — həmin vaxtlar bütün Avropanı heyrətə gətirən şamillərin vətəni, səyyahları valeh edən diyardan yazırdı.

A.Dümanın Azərbaycana səfəri Dərbənd şəhərindən başlayır. Dərbənddən Bakıya gəlib, Bakıdan Şamaxıya, Şamaxıdan Şəkiyə, Şəkidən isə Tiflisə gedib. Olduğu şəhərlərin hər biri haqda geniş danışır, onların əhalisi, bazarları, adətləri haqda mə'lumat verməyə çalışır.

Kitabı oxuyarkən bu günkü oxucu bir az təəccüblənə bilər, ələlxüsus əvvəldə. Birincisi ona görə ki, əsərdə bir dəfə də olsun "azərbaycanlı" sözü işlədilməyib, hər dəfə azərbaycanlılar "tatar" adlandırılıblar. İkincisi isə, Dərbənddən başlayaraq Tiflisə qədər Azərbaycan ərazisiinn hər yerində Aleksandr Dümanı hər şəhərdə gürcü, yaxud rus knyazları, Dərbənd, Quba, Bakı, Şamaxı və Şəki şəhərlərinin qubernatorları qarşılamış, müşayiət eləmişlər. Şübhə yox ki, ölkə, onun mədəniyyəti və tarixi mə'lumatları da Fransa yazıçısı ancaq onlardan ala bilərdi. Məhz buna görə də, A.Düma Azərbaycan ədəbiyyatı və incəsənətinə aid mə'lumat almamış, ancaq təsadüfən gördüyü sənətkarlıq nümunələri haqda təəvvürü yaranmışdır.

Dərbənddən Bakıya gələrkən yolda Dümaya onun tərcüməçisi Kalino bir dastanı tərcümə edir. Dastan "Şah dağın qarı" adlanırmış. Əfsanəyə görə hava quraqlıq keçəndə bu yerlərin ən cəsur gəncini camaat dağa, sıldırım qayalar arasından qar gətirməyə

göndərirmişlər. Cəsur gənc qarı mis qaba yığıb Dərbənddə mollaların yanına — məscidə gətirərmiş. Sonra birlikdə gedib qarı dənizə atarlarmış. Bundan sonra hamının gözlədiyi yağış yağarmış. "Şahdağın qarı" dastanında belə səfərə çıxmış bir gəncin macəralarından danışılır. Təəsüf ki, Düma öz adətinə bu dəfə xilaf çıxır və dastanın mövzusun yazmır. Ya tərcümə fərsiz olub, ya da macəra onu az maraqlandırıb.

Düma Bakıya gələrkən Quba şəhərindən keçib. Onun təsvirinə görə Qubanın küçələri Venetsiya kanallarına oxşayırmış. Şəhər evləri iri bir gölün xırdaca adacıqlarına bənzəyirmiş. İndi bizim gözlərimiz qarşısında günü-gündən gözəlləşən, abad Quba şəhəri o vaxt Dümanın fikrində "havasına görə dünyanın ən pis şəhərciyi" imiş.

Düma Qubanın bazarını gəzmiş. Burada onun nəzərini "qadınların toxuduğu xalçalar və məşhur ustaların hazırladığı xəncərlər" cəlb emişdir.

O Qubanı tərk edərkən damların üstü ilə qaçaraq onları müşayiət edən bir qızcığaza baxıb fikirləşib: "Qubanın damları başqa şəhərlərdəki küçələri əvəz edir; burada ancaq damların üstündə suya batmamış gəzmək olar:

Gecə düşəndə səyyah və onu müşayiət edənlər Sumqayıt stansiyasına çatıblar. Hesaba görə onlar Sumqayıtda gecələməli idilər. Stansiyada dayanan kimi dənizin lap yaxınlıqda olduğuna görə Düma sahilə gedir. Dənizə, səmaya, düzənlərə tamaşa edir. Xeyli uzaqda beş-altı işıq görür və fikirləşir ki, bu "tatar düşərgəsidir" — gedib orada gecələməyi qərara alır.

Bütün əsərdə Dümanın sadə azərbaycanlılarla yaxın görüşü və söhbəti təsadüfi bir haldır. Həmən gecə onun tanımadığı "tatarlarla", "namə'lum yolçularla" görüşü də təsadüfidir.

Təsvir edilən düşərgə qədim karvansaranın, nəhəng bir xarabalığın ətrafında salınıbmış. Müşaiyət edənlər Dümaya söyləyirlər ki, bu şah Abbasın tikdirdiyi karvansaralardan birinin xarabasıdır.

Düma "tatar düşərgəsinə" gəlişini bu cür təsvir edir:

"… Biz tatarlardan iki şey xahiş etdik. Birincisi onların yanında köç salmaq idi. Bu xahişimizə belə cavab verdilər ki, biz harada istəsək gecələyə bilərik. Düzənlik hamıya məxsusdur.

İkinci xahişimiz onların düşərgəsində qonaq olmaq istəməyimizdi. Belə cavab verdilər ki, gəlişimizə şad olarlar" (Səh. 13).

Düşərgədəkilər qonaqpərvərlik əlaməti olaraq Dümagilə duzçörək təklif edirlər. Onlar Dümanın təsvir etdiyinə görə sac üzərində yuxa bişirirlərmiş. Sonra isə sacın üzərindəcə ət qızardıb qonaqları yedirirlər. Düma çox məmnun olur. O, yazır:

"Biz bol süfrəli ziyafətlərdə belə ləzzətlə yeməmişdik. Bu məclisdə xüsusi bir şairanəlik vardı" (səh. 15).

Həmin şairanəliyi isə məşhur fransız belə təsvir edir:

"Çingiz xanın və Teymurləngin sələfləri ilə Xəzər sahilindəki düzlərdə, Şah Abbasın tikdirdiyi karvansaranın xarabaları önündə şam edəsən; bir tərəfin Dağıstan dağları — azadlığını və həyatını hədə altına alan quldurların düşüb gələ biləcəyi dağlar, o biri tərəfin çox az mə'lum olan bu böyük göl — Heredota baxmayaraq Yunanıstanda əvvəllər az tanındığı kimi bu gün Klaprota baxmayaraq Avropada az tanınan göl ola; hər tərəfdə quru ot kövşəyən, yaxud başını qum üzərinə qoyub yatmış əlliyə yaxın dəvənin zınqrovlarının cingiltəsinə qulaq asasan; Avropaya təbiətən düşmən olan bir ölkənin ortasında tək, yaxud az qala tək olasan; böyük bir sonsuzluqda tənha nöqtəyə oxşayan çadırın silkələndiyinə baxasan, bəlkə də burada ilk dəfə çadır üstündə gecə küləyinin əsdirdiyi üçrəngli bayrağa baxasan; bax bu hər gün baş vermir, bu insan həyatanda dərin iz buraxır, bunu hər dəfə yenidən görmək istəsən gözlərini yumub xəyalına gətirərsən; belə tablonun sahsi elə geniş, buradakı ənginliklər elə şairanə, elə gözəl, cizgilər elə yığcamdır ki". (səh.15).

XIX əsrin ortasında Azərbaycan torpağında ilk gecəni gecələyə şair qəlbli Dümanın ilk təəssüratı adamı həyəcanlandırır.

İstər-istəməz fikirləşirsən ki, kaş burada onu bu torpağın doğma bir oğlu, bir ziyalısı müşaiyət etmiş olaydı, bu torpağın əsil sahiblərinin XIX əsrə qədərki ədəbiyyatı haqda, mədəniyyəti haqda yol boyu ona geniş mə'lumat verə, incəsənəti ilə tanış edəydi. Kaş Düma bu xalqın məişətini Çar Rusiyasının yerlərdə tə'yin etdiyi kəmsavad, milliyətcə rus, yaxud gürcü olan qubernatorların ağızucu və saxta izahı ilə deyil elmi mənbələrdən öyrənmiş olaydı. Kaş Dümaya Nizami yaradıcılığından danışmış olaydılar. Onda Düma bilərdi ki, bu torpağın sakinləri nəinki Avropanı, dünyanın heç bir qitəsinin xalqlarını düşmən hesab etməyib. Bu xalq həmişə qonaqpərvər olub və ancaq yadelli işğalçılara qarşı vuruşub. Onda Düma özünün iki-üç addımlığındakı xarabalığın daşları üzərində nəzərini cəlb etmiş naxışlar haqda bir də düşünərdi. Düşünərdi ki,

həmin naxışlar yüz illər əvvəl buradaca xalq sənətkarlarının əli ilə işlənib. Bu abidələri qəsbkar əli xarabazara çevirib. Bu torpaqda həmişə həyat qaynayıb. İndi bu qonaqpərvər adamlar arasında o özünü tənha hesab etməzdi.

Həmən "tatar düşərgəsinin" qonaqpərvərləri Dümagilə tanımadıqları yol adamlarına səhərki yol üçün də yemək hazırlayıb veriblər. Düma çox məmnun olub. Axı, həmin qonaqpərvərlərin özləri də yol adamları idi.

Yerlilərlə ilk görüşündən sonra Dümanın daxili narahatlığın xeyli azaldığı hiss olunur. O, elə zənn edirmiş ki, gözlənilməz və qorxulu hadisələrlə dolu bir torpağa ayaq basır. Yəqin ona silahı əldən qoymamağı tövsiyə ediblərmiş. Məhz ona görə də "tatar düşərgəsinə" yaxınlaşarkən özünün yazdığı kimi "tüfəng və xəncərlə möhkəm silahlanıb" və düşərgədə bunun tamam əhəmiyyətsiz olduğunu anlayıb.

Düma tatar adlandırdığı azərbaycanlılarda bir xüsusiyyəti lap əvvəldən sezib. Bu da silaha və silah səliqəsinə olan böyük həvəsdir. O, yazır ki, tatarlarda hər şey silah üçündür. Onu müşaiyət edən dəstədəki adamlardan birinin paltarı köhnə olsa da, əlli manatlıq kəmər, yüz manatlıq xəncər və qılınc, iyirmi beş manatlıq bir patrondaş gəzdirirmiş.

Yə'qin ki, ölkəni öz gözləri ilə gördükcə, onun tarix boyu yadellilərə qarşı döyüşdə olduğunu öyrəndikcə Dümaya bu xüsusiyyətin necə yarandığı aydın olub. Həmişə sayca çox olan düşmənlərə qarşı vuruşmuş bu xalq silahı özünə geyimdən də, yeməkdən də əziz tutub.

Dərbənddən gələrkən dəstənin qarşısı ilə gedən, yolda hər şeyin qaydada olmasına nəzarət edən "tatarın" işgüzarlığı və bacarığı haqda Düma təəccüblə danışır:

"O bütün günü dəstənin başında gedir, irəlidə dayanacağımız stansiyaya üç verst qalmış atını çapıb gözdən itir; sonra həmən sitansiyanın qapısı qarşısında bizi gözləyib hər şeyin hazır olduğunu xəbər verir; sonra yenə gözdən itir və biz onu yalnız ertəsi gün yenidən at belində dəstənin başında görürdük" (səh.11).

Bakıdakı təsadüfi bir tanışlıq fransız yazıçısının azərbaycanlılar haqqındakı yanlış təsəvvürünü tamam alt-üst edir.

Düma Bakıda şəhərin qubernatoru Piqulevskinin evinə gələrkən öyrənir ki, iki "tatar" xanımı qubernatorun ailəsinin qonağıdır. Qonaqlar ana ilə qız imiş. Onları qubernatorun arvadı ilə qızı

qəbul edirmiş. Dümaya izah edirlər ki, müsəlman qadını yad kişilər qarşısında üzü açıq əyləşə bilməz. Onu ikinci bir nahara də'vət edib qonaq mənzilinə yola salıblar.

Lakin Düma heç istirahət etməyə vaxt tapmamış Piqulevski gəlib xəbər verir ki, qonaqlar yaşınmaq fikrində deyillər və "Düma ilə mütləq görüşmək istəyirlər" (səh.22).

Düma gələndə onu evdə qubernatorun ailəsi, "iki tatar prinsessası və gənc tatar xanımının əri prins Xasay Usmiyev" gözləyirdi.

Qonaqları Düma bu cür təsvir edir: "Tatar prinsessalarının biri Qarabağın sonuncu xanı Mehdiqulu xanın zövcəsi, o biri isə qızı idi. Ananın qırx, qızın iyirmi yaşı olardı. Hər ikisi milli geyimdə idi.

Qız bu geyimdə çox gözəl idi, lakin məlahətindən çox ziynəti nəzərə çarpırdı.

Anasının geydiyi paltardan geymiş üç-dörd yaşlı balaca bir qızcığaz iri, qara gözlərini bizə zilləyib təəccüblə baxırdı. Nənəsinin dizləri arasında sığınmış beş-altı yaşlı balaca bir oğlan isə hər ehtimala qarşı və instinktə görə əlini xəncərinin dəstəyi üzərinə qoymuşdu.

Doğrudan da bu, ucu iynə kimi, hər iki ağzı ülgüc kimi kəsən xəncər idi. Fransalı ana heç icazə verməzdi ki, uşağı onu əlində saxlasın, tatar ananın isə uşağının ilk oyuncağı xəncərdir (səh.23).

Körpələrin atası Xasay Usmiyev haqda yazarkən müəllif ona öz təəccübünü gizlətmir: "… O Otuz beş yaşlı, gözəl, ciddi, parisililər kimi fransızca danışan, qara və qızılı rəngli kostyum geyim, başına uca şiş gürcü papağı qoymuş, dəstəyi fil dişindən, qabı qızıl naxışlı xəncər asmış bir gəncdi.

Boynuma almalıyam ki, onun çox təmiz və çox savadlı bir dillə fransızca danışdığını eşidəndə diksindim.

Parisdə zənnimcə San-Peterburqda mənim yaxın dostum Mariye ilə tanışlıq edib, həmin saat onun mənə tanış olan yaxşı cəhətlərindən danışmağa başladı və xahiş etdi ki, Parisə qayıdan kimi onu səyyah alimin yadına salıb" (səh.24).

Belə, Azərbaycan torpağına ayaq basarkən fransız yazıçısı Aleksandr Düma belə bir görüşü təsəvvürünə gətirmirdi. Belə bir görüşü XIX əsrin ortasında Rusiyadan keçib Azərbaycana gəlmiş başqa fransız səyyahları da yəqin ki təsəvvür edə bilməzdilər. Düma özü e'tiraf edir ki, Avropada bu ölkəni ən az tanıyan xalq fransızlardır. Şübhə yox ki, o vaxtlar azərbaycanlılar haqda fikir

və təsəvvürə əsasən, Qafqaz səfərlərindən qayıtmış gopçu zabitlərin Peterburq və Moskva salonlarındakı söhbətlərindən yaranırdı. Yə'qin ki, o vaxtlar belə salonlarda başda əyləşən fransız qonaqlara görə hekayətçilər hərbi yürüşlər haqda xatirələrini, başlarına gəlmiş macəraları daha da şişirdilmiş şəkildə danışır, qorxulu səhnələr əlavə edir, hekayətlərini yarım Afrika qəbilələri üzərinə müstəmləkəçi yürüşlərdə iştirak etmiş fransızların söhbətlərinə bənzətmək istəyirlərmiş.

Məhz buna görə Düma, adı Xasay olan, "Fransızca parisli kimi danışan", "avropalıdan da dəqiq" bir "tatarla" rastlaşdıqda təəccüblənir və öz təəccübünü oxucularına da çatdırmağa çalışaraq yazır: "parislilərə bir tatar prinsi haqqında danışsan, vəhşi, əyninə bir qoyun dərisi keçirmiş, yaxud iki qoyun dərisinin birini papaq əvəzinə başına qoyub, o birini kürk əvəzinə əyninə geymiş; kobud, anlaşılmaz bir dildə danışan; üstündən bir yığın qılınc, xəncər, şaşka və pistolet sallanan; bizim siyasətimizdən, ədəbiyyatımızdan və mədəniyyətimizdən xəbərsiz bir məxluq təsəvvür edərdilər" (səh.32).

Bakı şəhərinin komendantının, "bir kəlmə də olsun fransızca bilməyən", rus hərbi paltarı geyib tatar papağı qoymuş" cənab Piqulevskinin mənzilindəki təsadüfi görüş Azərbaycan torpağının sakinləri haqda fransız yazıçısının təsəvvürünün dəyişməsində müəyyən rol oynayıb.

Lakin yol üstündəki Azərbaycan şəhərlərinin hər birində bir-iki gün qalmaqla Tiflisdə fransa konsulu, dostu cənab Finonun yanında bir ay qalmaq üçün Gürcüstana tələsən Düma üçün belə görüş də, azərbaycanlıların ədəbiyyatı və incəsənəti ilə tanışlıq da ancaq təsadüfi ola bilərdi.

Bu görüş zamanı Düma ilə Xasay Usmiyev dostlaşırlar. Düma dostuna bir fransız revolveri bağışlayır. Əvəzində bir saat sonra ondan "nə bir dil xətası, nə də orfoqrafik səhvi olmayan" bir məktub alır:

"Cənab, sizin elə gözəl silahlarınız var ki, mən kolleksiyanıza yeni bir şey əlavə edə bilmərəm; lakin prinsesa sizdən xahiş edir ki, bu rul kisəsini və iki arxalıq yaxalığını ondan qəbul edəsiniz.

Pul kisəsini o özü toxuyub.

"Prins Xasay Usmiyev".

Öz əlilə toxuduğu pul kisəsini Dümaya hədiyyə göndərən "prinsessa" göründüyü kimi bizim sevimli şairəmiz Natəvan xanımdır.

Bəlkə də, məşhur fransız yazıçısının gəlişindən xəbər tutduqda onunla görüşmək təşəbbüsünü də o irəli sürüb.

Dümanın Bakı xatirələri, şəhərin və ayrı-ayrı abidələrin tarixinə aid qeydləri də maraqlıdır. Düma dövründə də onun təsvirincə Bakı "ağ" və "qara" şəhərdən ibarət imiş. Lakin o vaxt indi bizə mə'lum olan "qara şəhər" yə'ni şəhərin sənaye müəssisələri yerləşən hissəsi mövcdud deyildi. Dümanın təsvir etdiyi "qara şəhər" indiki bizim İçəri şəhərdir.

"Ağ Bakı" isə şəhərin çar qoşunu tərəfindən tutulduğu vaxtdan sonra qaladan kənarda tikiliş hissəsi adlanır.

Görəsən şəhərin bu iki hissəsinə ad qoyularkən yalnız barıların, evlərin rəngi əsas götürülüb, yoxsa talelərin ağlığı və qaralığı? Axı "qara Bakının Dümaya mə'lum olan tarixçəsində onun taleyinin rəngi də duyulur: "Əvvəl azad xanlıq olub, sonra İranın tabeliyinə keçib, 1735-də azadlığını bərpa edib, sonuncu xanın xəyanəti ilə azadlığını birdəfəlik itirib" (səh.20).

"Sonuncu xanın xəyanəti" məsələsini Düma bu cür izah edir.

"Gürcüstanın qubernatoru, general Tisyanov Bakını mühasirə etmişdir.

Xan şəhərin ruslara təslim olunması şərtlərini bildirmək bəhanəsi ilə general Tisyanovla görüşmək istəyir.

Rusların dostu olan ermənilər generalı xəbərdar edirlər ki, xan görüş vaxtı onu öldürəcək.

O, Sezar kimi deyir: "Cəsarət etməzlər!". Görüşə gəlir və öldürülür" (səh. 20).

İçəri şəhərdə Dümanın nəzərini cəlb edən əsas abidələr Şirvanşahlar sarayı, "köhnə məscidin uçulmuş minarəsi" və "ayağını dənizdə yuyan Qız qalası" olub.

Qız qalası haqda bizə mə'lum olan əfsanələrin birini Dümaya danışıblar. Bu, da xanın öz qızına evlənmək istəməsi, qızın nəhayət əlacsız qalıb qala tikdirmək şərtini qoyması, qala hazır olanda isə özünü oradan dənizə atması haqda əfsanədir.

Düma haqlı olaraq "bu boyda və bu əzəmətdə bir tikili" ilə onun adı və əfsanə arasında uyğunluq olmadığını söyləyir.

Bakıda olduğu vaxt Aleksandr Düma Atəşgaha da gedib. Düma yazır ki, bu əbədi məş'əli dünyanın hər yerində tanıyırlar. O yenə də giley edir ki, fransızlar "dünyanın ən az səyahətə çıxan xalqı" olduğundan bu yerə başqalarından az bələddirlər.

Məhz həmyerliklərinin mə'lumatını artırmaq üçün Düma Atəşgah, atəşpərəstliyin tarixi və onun "Əsasını qoyan yaxud onu dəyişən" Zərdüşt haqda öz kitabında geniş mə'lumat verir. Müəllif Zərdüştün Azərbaycanda anadan olduğunu yazır: "O Midiyada, yaxud Azərbaycanda, yaxud Atropatendə, çox mümkün ki, I Daranın atası Histasnın hakimiyyəti dövründə anadan olub" (səh.27).

Düma Atəşgaha səfər etdiyi vaxt, yə'ni 1858-ci ildə orada cəmi üç atəşpərəst var imiş — bir qoca və otuz-otuz beş yaşlarında iki başqa kişi. O atəşpərəstliyi ən məs'um din və atəşpərəstləri ən mülayim, ən təvazökar adamlar, "Günəşə pərəstiş edənlər" adlandırır. Yazıçı atəşpərəstlərin sitayiş mərasiminə məmnuniyyətlə tamaşa edib. Bu tamaşadan sonra isə o mə'bəddən kənarda yanar quyulara baxıb. Düma yazır ki, bu quyuların ən dərini əvvəl su quyusu imiş, sonra su yoxa çıxıb, adamlar quyunun dibinə baxmaq üçün oraya yanar məş'əl atıblar, quyu alovlanıb və həmən vaxtdan bəri yanır. Başqa quyular isə dayaz imiş, onların bə'zisinin ağzına çərçivə qoyub üstündə əhəng bişirirlərmiş.

Bu tamaşalardan sonra Suraxanı qəsəbəsinin komendantı Dümagili öz evlərinə çay içməyə də'vət edir. Onlar bu də'vəti qəbul edirlər və Düma bu qəbuldan çox məmnun odluğunu söyləyir:

"Çay bəhanə imiş. O bizim üçün yataq otağı kimi hazırlanmış bir otaqda plov, şişlik, armud, üzüm və qarpızdan ibarət ləzzətli bir tatar süfrəsi açdı.

Biz saat on birə qədər orada qaldıq. Mən çox arzulayırdım ki, sabah səhərə qədər orada qalam; lakin Piqulevskinin Bakıya tək qayıtması yaxşı düşməzdi" (səh.31).

Aleksandr Düma Qafqaza, o cümlədən Azərbaycana səfəri dövründə artıq məşhurlaşmış, demək olar ki, dünya şöhrəti qazanmış bir yazıçı olsa da, bu səfər vaxtı ədəbiyyatdan və incəsənətdən çox bu yerlərin sakinlərinin fərdi xüsusiyyətləri, bazarlar, alınan, satılan malların qiymətləri ilə maraqlanıb və onun səfər qeydlərinin bə'zisi, gələcəkdə buralarda olacaq fransız səyyah və tacirlərinə məsləhətlər vermək məqsədinə xidmət edib. Yazıçının bu xüsusiyyəti Bakı haqdakı qeydlərində daha çox nəzərə çarpır.

O, Bakının sakinlərini milliyyətinə və fərdi xüsusiyyətlərinə görə üç yerə bölüb və onları fransız oxucularına bu cür təqdim edib:

"Bakının əhalisi əsasən farslardan, ermənilərdən və tatarlardan ibarətdir".

Bizə icazə versinlə bu üç xalqın nümayəndəsi üç tipi bir neçə sözlə təsvir edək, hər halda, bir tip bir xalqı və bir adam adamları təcəssüm edə bilər. İndi ki, əvvəlcə farsın adını çəkmişik, farsdan da başlayaq. Amma, bizi yaxşı başa düşsünlər, biz İrandakı farslar haqda danışmayacağıq — onları tanış olan gözəl bir nümunə ilə, yə'ni demək istəyirəm ki, Tiflisdən İran konsulu ilə tanıyırıq — biz zəbt olunmuş əyalətlərdəki fraslardan danışacağıq.

Fars qaraşındır, canlıdır, boyu demək olar xeyli ucadır, üzü təbiətən uzundur və üstdən ucu şiş, qıvrım tüklü papağına, aşağıdan isə təbii rəngin üstündən adətən qara rənglə boyadılmış saqqalına görə daha uzun görünür; onun yerişi adətən ləngdir; hərdən cəld yeriyir, lazım olanda qaçır da bu xüsusiyyəti heç vaxt heç bir türkdə görməmişəm.

Bir əsrdən də çox vaxtdan bəri Qafqaz farsı öz ölkəsinin növbə ilə türkmənlər, tatarlar, ruslar tərəfindən zəbt olunduğunu görüb, axırda Məhəmməd dinindən gəlmə bir fatalizm ilə özünü gələliyə və tə'qibə məhkum olmuş bir qurban sayıb. Keçmiş xatirələr tarixi kitabların yoxluğu üzündən silinib; yeni xatirələr isə xəcalətli xatirələrdir; müqavimət göstərmək ona qorxulu və əhəmiyyətsiz görünür; yadında qalıb ki, müqavimətə görə cəzalanıb; o öz şəhərlərinin dağıdıldığını, varının talan olunduğunu, həmvətənlərinin qırıldığını görüb, bu vaxt o həyatını xilas etmək, varını saxlamaq, əmlakını qrumaq üçün hər cür vasitəyə əl atmağa məcbur olub və heç biri onu bezikdirməyib.

Bunun nəticəsidir ki, Astraxandan Bakıya qədərki fars şəhərlərinin başlanğıcı olan Dərbəndə daxil olanda, şərq qapısından çıxmaq üçün cənub qapısından Dərbəndə girəndə sizə deyilən ilk söz budur: "farsa bel bağlamayın, onun sözünə inanmayın, onun andına inanmayın; onun həmişə geri götürülməyə hazır olan sözü öz mənafeyi xeyrinə dəyişəcək, onun həmişə pozulmağa hazır olan andı əgər öz siyasi və ticarət mövqeyini yaxşılaşdırmağa yönəldibsə, dəmir kimi möhkəm, əgər bir xəndəkdən hoppanmaq, yaxud bir maneəni dəf etmək məcburiyyətində qalsa saman çöpü kimi dözümsüz olacaq; o güclülər qarşısında itaətkar, zəiflər qarşısında amansız və sərtdir. Farsla işdə həmişə ehtiyatlı olun; onun tək imzası sizə inam yox, ehtimal verə bilər.

Erməni boyca təxminən farsla birdir; lakin o piylənir fars isə heç vaxt piylənmir. Fars kimi onun da cizgilərində qəribə mütənasiblik var: gözləri gözəldir, baxışları ancaq onun özünə məxsusdur.

Bu baxışda şimşəyin üç yerə bölünmüş şüaları kimi eyni zamanda fikir — ciddilik, qüssə, yaxud itaətkarlıq, bəlkə də hər ikisi duyulur. O patriarxal ən'ənələri saxlayıb. Onun üçün Abram dünən ölüb, Jakob isə həmişə sağdır, evin tam ağası atadır; atadan sonra isə onun ilk övladı — qardaşları onun xidmətçiləri bacıları isə qulduqçularıdır. Lakin ilk övlad, qardaş və bacılar atanın dönməz iradəsi qarşısında ehtiramla əyilirlər. Təsadüfi halda onlar ata ilə bir süfrədə çörək yeyir, təsadüfi halda onun qarşısında əyləşirlər; bunun üçün onlara atanın təkcə də'vəti deyil, əmri də lazımdır.

Zəmanətli, yaxud zəmanətli sayıla biləcək (bu erməni üçün eyni şeydir) bir qonaq gəldikdə evdə bayram olur; daha kök bir öküz kəsirlir — Ermənistanda öküz azalıb; bəlkə sərkərdən övladların çoxluğuna görədir? Mən buna inanmıram. Qoyun kəsirlər, hamamı qızdırırlar, bütün dostları yeməyə də'vət edirlər, bir az fikirləşəndə təsəvvür edirsən ki, Jakobla Reşel indicə gəlib bu süfrə arxasında əyləşəcək və öz nişanlama mərasimlərini bayram edəcəklər.

Bax, ermənilərin ciddi qənaətlə, ehtiyatla və böyük tacirlik bacarığı ilə büruzə verilən zahiri belədir.

İndi başqa tərəfi, kölgədə qalan tərəfi, yalnız uzun zaman yaxınlıq etdikdən, dərin tədqiqat apardıqdan sonra gözə göründən tərəfi. Bu ikinci sifət erməni millətini ən'ənələrlə, dünyanın əvvəlinə aparıb çıxaran tarixi xatirələrlə bağlı olduğu yəhudi millətinə yaxınlaşdırır. Yer üzünün cənnəti Ermənistanda yerləşirdi; yeri sulayan dörd qədim çay öz mənbəyini Ermənistandan götürürdü; dağılmış dünyanın adamları Ermənistanda yenidən törəyib; nəhayət bütün dünya bütpərəstlərinin başçısı üzüm ağacını əkib, şərabın gücünü Ermənistanda yoxlayıb.

Yəhudilər kimi, ermənilər də ətrafa yayılıblar, lakin onlar bütün dünyaya deyil, Asiyaya yayılıblar. Onlar hər cür hakimiyyət altında — həmişə despot, müxtəlif dinli, qəddar, qaydası şıltaqlıqdan, qanun şəxsi iradədən ibarət olan hakimiyyətlər altında yaşayıblar. Bunun nəticəsidir ki, onlar varlarının hədə altında olduğunu görəndə varlarını gizlədiblər. Erməni biləndə ki, doğru söz demək ehtiyatsızlıqdır və bu ehtiyatsızlıq onu müflis edə bilər, dilsizə və saxtakara çevrilib; dünənki himayədarı bu gün bərk ayaqdadırsa, ona kömək etsə, özü bəlaya düşər — nankorluq edər. Nəhayət ticarətdən başqa peşə seçə bilmədiyinə görə namuslu ola bilməyib, vəziyyətdən gəlmə bütün hiylə və alçaqlıqlara yiyələnib

tacir olub. Buna baxmayaraq ermənin sözü düzgünlüyə yaxın və ticarətdə imzası müqəddəsliyə yaxındır.

Tatara gəldikdə isə biz onun haqda danışmışıq. Başqa Qafqaz nəsilləri ilə qarışığı qədim görkəmini dəyişib. O fateh olub, döyüşçü olaraq qalır; o köçərli olub, səfərlərlə dolu həyat sürür; həvəslə ilxı saxlayır, çobanlıq və maldarlıq edir; o dağları, uzaq yolları, düzənləri, nəhayət azadlığı sevir. Tatar yazdan payıza qədər kəndini tərk etdiyi vaxt arvadı onun otardığı sürülərin yununu əyirir, Quba, Şamaxı Nuxa xalçalarını toxuyur. Bu xalçalar naxışların sadəliyi rənginin gözəlliyinə və ilmələrinin möhkəmliyinə görə İran xalçalarına meydan oxuyur, qiymətinin yarıdan-yarıya ucuz olduğuna görə onlardan üstündür. Onlar yenə də kəsəri iti, qını gözəl naxışlı xəncərlər, dağlı hökmdarın dörd at və iki arvada dəyişməyə hazır odluğu, fil sümüyü və gümüşlə bəzədilmiş tüfənglər düzəldən adamlardır.

Tatarın imzasına ehtiyac yoxdur, bircə sözü bəs edir" (səh. 35, 36, 38, 39).

Bakının sakinləri haqda Dümada yaranmış bu təsəvvür bütünlüklə onun öz şəxsi təcrübəsi sahəsində yarana bilməzdi. Bunun üçün o uzun illər Bakıda yaşamalı olardı. Yə'qin ki, Qafqaz səfərinə hazırlaşdığı vaxt, Peterburqdan Dərbəndə gəlincə və Dərbənddə ona Qafqaz xalqları haqda istədiyi qədər mə'lumat vermişlər. Lakin bu xalqların bə'zi nümayəndələrinin xarakterində və təbiətində yaranmış dəyişikliklərin ictimai, siyasi mühitin tə'siri, tarixin acı dərsləri ilə bu cür əlaqələndirməkdə yə'qin ki, ona kömək edən olmayıb. Bunu duymaq üçün dünyanı gəzib dolaşmış, çox görüb, çox eşitmiş, insan taleyinin qorxulu dolanbaclarına bələd olan, siyasəti bilən Aleksandr Düma olmaq lazım idi.

Düma Bakıda istehsal olunan malları və onun satış qiymətlərini diqqətlə öyrənib. Onun təsvirincə Bakıda ticarətin əsasını ipək, xalça, qənd, zəfəran, İran parçası və neft təşkil edir. Bakıda hər il yüz min sentnerə yaxın neft istehsal edilir və bu neft əsasən İrana, Tiflisə və Astraxana ixrac olunurmuş, Dümanın Bakıda odluğu vaxt, yə'ni 1858-ci ildə burada neftdən sürtgü yağı və sement də hazırlayırlarmış. Bakıda neftin bolluğundan və onun imkanlarından yazıçı səyyah həyəcanla danışır: "… Dünyanın bir çox yerində neft istehsal olunur; lakin onun ən bol yeri Bakı və onun ətrafıdır. Şəhərin bütün ətrafında və Xəzərin sahili boyunca dərinliyi üç metrdən iyirmi metrə qədər olan quyular qazılıb…" (səh. 25).

Neftdən sonra Bakının əsas istehsal etdiyi mallar ipək və zəfəran imiş. Bakı ipəyi "Nuxa ipəyinə tay olmasa da", keyfiyyətdən asılı olaraq bir funtu on-iyirmi franka satılır və Bakı ildə 5-6 min funt ipək istehsal edirmiş. Zəfərana gəldikdəisə hər ilə Bakıda altı mindən on səkkiz min funta qədər zəfəran istehsal olunur və bazarlarda bir funtu 8-12 və bə'zən də 14 franka satılırmış.

Aleksandır Dümanın bu qeydləri bu gün bizim hər birimiz üçün maraqlıdır. Çünki bu qeydlər bizçə az qala 120 il əvvəl məşhur bir fransızın Bakı bazarlarından verdiyi reportaja oxşayır; həm də bu qeydlər bu gün təsərrüfatımızın müxtəlif sahələri üzrə tədqiqat işləri aparan mütəxəssislərimiz üçün də müəyyən əhəmiyyət kəsb edir.

Dümanın özünü isə, yazdığına görə, bu bazarlarda maraqlandıran əsas şeylər xalçalar, İran parçaları və silahlar olub. Buna baxmayaraq o Bakı bazarında Yusif adlı bir ustadan iki cür təsbeh və "tatar" pullarından hazırlanmış bir boyunbağı da alıb. Usta Yusifin kiçicik, qaranlıq e'malatxanasındakı gördüyü zərif zərgərlik əşyaları, gözəl sənətkarlıq nümunələri, adi alətlərlə, "çəkic, biz və qayçı ilə düzəldilmiş" bu sənət əsərləri Dümanı məmnum edir və o Bakı sənətkarlarını məşhur italyan nəqqaşı, heykəltəraşı və zərgəri Benvenito Çelliniyə (1500-1571) bənzədir, onların iş şəraitindən giley edir:

"Qəribə burasıdır ki, bu mirvari və daş-qaş ustaları, bu başı şiş papaqlı Benvenito Çellinilər daxmalarda yaşayır, onların yanına uçuq pilləklənlərlə gəlməli olursan və onların kürəsini şüşəsi sınıq pəncərədən içəri vuran külək alovlandırır" (səh.41).

Bakı bazarının rəngarəngliyi, buradakı "türk məxməri, Qarabağ xalçaları, İran ipəyi, Lənkəran yastıqları, gürcü toxumaları, bütün bu malların, geyimlərin al-əlvanlığına, hətta bazarda qaçışan güvə və siçanlara, qaynaşan uşaqlara rəssam gözü ilə baxan Düma onları öz təsəvvüründə əbədiləşdirməyə çalışır və Parisdə qalmış sənətkar dostlarına müraciətən yazır:

"Ah! Mənim Parisdəki zavallı dostlarım, gözlərinə xeyirxah allahın bol-bol işıq verdiyi sizlər, tablonuzu yarı qiymətə satdıqdan sonra bircə şərq parçası görməyiniz sizə təsəlli verərdi. Əgər mən varlı olsaydım, sizin e'malatxanalarınızın divarlarından elə xəzinələr asar, ayaqlarınızın altına elə gözəlliklər sərərdim ki!" (səh. 42).

Bakıda sonuncu axşam Düma üçün dəniz gəzintisi təşkil edirlər. Dümanı alüdə edən, bu gəzinti zamanı onu hər şeydən çox ma-

raqlandıran "dənizin altında qalmış və hava sakit olanda qüllələri bir fut hündürlükdə suyun üzündə görünən karvansarayın qalıqları" (səh. 41) olub. Dümanın təsvirincə bu abidə bir verstdən də çox dənizə uzanır, qüllələri birləşdirən barı da qüllələr kimi salamat və hündürlüyü on iki-on beş fut imiş. Abidənin dənizin altında qalması səbəbi Dümanı çox düşündürür. O yazır ki, alimlərin söylədiyinə görə Xəzər dənizi hələ 1826-cı ildə on səkkizdən iyirmi futa qədər geri çəkilibsə Dümanın Bakıda olduğu vaxt yə'ni 1858-də on ikidən on beş futa qədər geri çəkilibmiş.

Düma təəccüblə özündən soruşur ki, əgər dənizin suyu getdikcə geri çəkilirsə, bu abidə nə üçün suyun altında qalıb, axı, o suda tikilməyib? Düma yazır ki, "indi Bakının divarlarını döycələyən sahil" həmin abidə tikilərkən bir verst uzaqda imiş.

"Bəlkə küləyin gətirdiyi qum, Terek, Ural və Kür çaylarının uçurduğu qayalar Xəzərdə suyun səviyyəsini yavaş-yavaş qaldırırlar!

Deməli onu Qara dəniz və İran körfəzi ilə birləşdirən yeraltı əlaqə artıq mövcud deyil" (səh. 43).

Suyun altında qalmış abidənin aşağı hissələrini görmək üçün suyun altına atılmış məş'əl — hələ bu gün də bizim çoxumuza mə'lum olmayan "tatar məş'əli" Dümanı yüz iyirmi il əvvəl təəccübləndirib:

"Biz neft və ipək tullantısı ilə düzəldilmiş, qurğuşun kürəciklə ağırlaşdırılmış bir növ raket yandırdıq. Raketi qüllələrdən birinin içərisinə atdıq. O suyun dibini işıqlandırırdı və qüllənin içində məskən salmış, girdikləri yolu tapmayaraq ümidsizliklə burunlarını divarlara sürtən, bir düjün balığı bərk qorxuya saldı. Xam ipəkdən düzəldilmiş bu işığı tatarlar hazırlayıblar. O, Juenvilin təsvir etdiyi, türklərin onlara atdığı, Nilin sularında yanaraq səlibçiləri bərk qorxuya salmış işığı yadıma saldı" (səh. 44).

Təsvir olunan abidənin qəribəliyi həm də bundadır ki, Dümanın yazdığına görə cənab Freyqanqın dənizçiləri öz dəmir qarmaqları və ləngərlərini işə salıb nə qədər çalışsalar da barıdan bir dənə də olsun daş qopara bilməyiblər. Bəlkə də qopara bilsəydilər Dümanın Qafqazdan apardığı böyük kolleksiyaya bu sirli abidənin bir parça daşı da əlavə olarmış. Kaş həmən abidənin daşlarını qoparmağa çalışan bütün alətlər cənab Freyqanqın dənizçi alətləri kimi kəsərsiz olaydı. Onda bu gün həmin abidə Dümanın Bakıda olduğu vaxtdakı kimi, paytaxtımızın ən görkəmli tarixi abidələrin-

dən olardı. İndi isə biz onu "Şirvanhşahlar sarayı" tarixi abidəsinin həyətinə düzülmüş, naxışlarına dənizin və tarixin düzəliş verdiyi bir neçə daş parçası ilə tanıyırıq.

Bu tamaşadan sonra Dümanı gəzdirən gəmi Nikov burnuna yaxınlaşıb. Onlar "fatma məscidinə" yol almışdılar.

Düma təsvir edir ki, həmən məscid sahidlən yüz m etr aralı imiş və o, məscidi "çox yaraşıqlı minarəsindən" tanıyıb.

Saat altı olmasına baxmayaraq qapını açıb Dümanı və onu müşaiyət edənləri içəri buraxıblar. Onlar ayaqqabılarını çıxarmağa imkan verməyib, "dinsizlərin ayaqları toxunmasın deyə müqəddəs xalçaları yığışdırmaqla" kifayətləniblər.

Dümaya burada fatimənin qəbrini göstəriblər:

"Bizi, adını fathitlərə, yaxud fatmitlərə vermiş, Yezidin təqibi zamanı qaçıb gəlib Bakıda ölmüş Fatmanın qəbri üstünə apardılar" (səh. 45).

Düma yazır ki, bu məscid Bakıda və Bakı ətrafında yaşayan uşaqsız qadınların ziyarəti yeri imiş. Uşağı olmayan qadınlar piyada buraya gəlir və bir ilin ərzində uşaqları olarmış. Dümanın "prinsesa Usmiyeva" kimi tanıdığı bizim şairimiz Natəvan Fatma məscidini ziyarət edibmiş:

"Az əvvəl birlikdə nahar etdiyimiz prinsessa Usmiyeva da bu vəziyyətdə imiş. O, müqəddəs məscidi ziyarət edib və bir il sonra oğlu olub.

Prins isə göylərin bu hədiyyəsinə cavab olaraq öz pulu ilə Bakıdan məscidə yol çəkdirib.

Belə bir şöhrətə və müqəddəsliyə malik olmasına baxmayaraq fatma məscidi bizə varlı məscid tə'siri bağışlamadı. Görünür Bakıda və Bakı ətrafında yaşayan tatar qadınlarının, Peyğəmbərin nəvəsinin Allahın hüzurundakı tə'sirinə təsadüfü hallarda ehtiyacları olur" (səh. 45).

Məscidə və qəbrə tamaşa etdikdən sonra geri qayıdarkən cənab Freyqanqın dənizçiləri əvvəldən görülmüş hazırlıqla və onun göstərişi ilə Dümaya qəribə bir tamaşa göstəriblər. Onlar mə'lum yerə çatdıqda suya od atıblar. Həmən andaca qayığın hər tərəfində suyun üzünü alov götürüb və onlar zərif alov dillərinin arası ilə üzüblər. Bu mənzərə məşhur yazıçını çox həyəcanlandırıb və məftun edib:

"Bu, ən qəribə və ən sehirli tamaşa idi, zənnimcə belə tamaşanı dünyanın ancaq bu güşəsində görmək olardı" (səh 43).

Limana çatarkən qayıqdan verilən işıq siqnalı ilə bütün Bakı limanında işıqlar yandırılıb. Sularda əks olunan bu atəşfəşanlıq Dümanın məmnunluğunu daha da artırıb. Bakıdakı sonuncu axşamının xatirələrinə yekun vuraraq yazıb:

"Şübhə yox ki, San-Peterburqdan Bakıya gəlsə Aleksandr istisna olmaqla, dünyanın ən varlı imperatoru öz ölkəsində özü üçün, bizə, sadə incəsənət adamlarına həsr olunmuş bu axşam kimi bir axşam təşkil edə bilməzdi.

Sadəcə olaraq iş burasındadır ki, incəsənət imperatorların kralı və kralların imperatorudur" (səh. 48).

Yazıçı bu də'vətdən çox məmnun olduğunu söyləyir. Çünki o bilirdi ki, Şamaxı rəqqasələri bütün Qafqazda məşhurdurlar. Rusiyadan Şamaxıya gəlincə bütün yol boyu tanıdığı adamlar ona Şamaxı rəqqasələrinə atmaşa etməyi məsləhət görmüşdülər. Dümanın təsvirincə Şamaxıda üç məşhur rəqqasə varmış. Onlardan ən gözəl və ən məşhurunun adı Sona imiş. Lakin Dümanın qonaq olduğu rəqs axşamında rəqqasə Sona iştirak etmirmiş. Həmin ilin mart ayının biri gecəsi Sonanın evinə "ləzgi quldurları" basqın ediblərmiş. Basqın vaxtı Sonanın evində olmuş onun rəqs müəllimi və əmisi oğlu "Nəcif İsmayıl oğlu" nu quldurlar öldürmüş, Sonanın bütün varını və geyimlərini yığıb aparmışlar. Həmən hadisədən sonra Sona Şamaxını tərk etmiş və onun hara getdiyindən xəbər tutan olmamışdır.

Düma yazır ki, onun tamaşa etdiyi rəqs axşamında Sonanın qadın paltarı geydirilmiş "Çox gözəl bir qıza oxşayan" kiçik bir oğlan əvəz edirmiş. Qalan iki rəqqasənin birinin adı Nisə imiş. Dümanın təsvirincə Nisə artıq gənc olmasa da çox gözəl və məlahətli bir qadın imiş. Yazıçı onu məşhur fransız aktrisası madomuazel Jorja bənzədir. Lakin eyni zamanda bu iki qadının taleləri-nin nə qədər fərqli olduğunu göstərməyi də unutmayıb. Madomuazel Jorj ölkələri gəzir, ən gözəl salonlarda tamaşaçıların, saraylarda imperatğor və kralların qarşısında öz sənətini və gözəlliyini nümayiş etdirir və rəğbət qazanırdı. Məlahətli rəqqasə Nisə xanımı görmək və sənətinə qiymət vermək üçün isə ancaq Şamaxıya gəlmək lazım idi.

Çalğıçıların müşaiyəti ilə əvvəl oğlan, sonra isə növbə ilə rəqqasələr rəqs ediblər.

Rəqslər arasındakı fasilədə Mahmud bəy qonaqlarına "toyuqlu və narlı, yanında və yağ olan pilo"dan ibarət nahar verib. Qonaq-

lar gecə saat üçə qədər rəqsə tamaşa ediblər. Şamaxıda olduqları vaxt Dümanı səfərdə müşayiət edən fransız rəssamı Mayne köhnə, uçuq bir fontanın şəklini çəkib.

Şamaxıda bir gün qaldıqdan sonra Düma Şəkiyə yola düşüb, Şamaxıdan xeyli uzaqlaşdıqdan sonra Düma yerli ovçuların müşayiəti və qızılquşların köməyilə qırqovul ovlayıb.

Ağsuya çatmağa az qalmış onların faytonu qəzaya uğrayıb, aşıb. Təkcə sürücü yaralanıb. Düma isə fayton aşarkən yandakı bir ağacın budağından yapışıb havada qalıb və qəzadan salamat qurtarıb. Lakin tərcüməçi Kalino qəza vaxtı Dümanın cib saatını itirib. Aleksandr Dümanın cib saatı Ağsu ətrafında əbədi xatirə kimi qalıb. Əgər həmən saatı sonralar tapanlar onun kimə məxsus olduğunu bilib saxlasaydılar indi ədəbiyyat muzeylərinin birində dəyərli bir eksponat kimi nümayiş etdirilərdi.

Dümagil Ağsuda dayanmadan yollarına davam edirlər: "Əvvəllər otuz beş, qırx min əhalisi olan Ağsuda, indi üç, yaxud dörd min adam yaşayır; burada dayanmağına dəyməzdi…" (səh. 125).

Düma "Tormençaya" adlandırdığı (yə'qin ki, Türyan çaydır) stansiyada gecələyib səhər yoluna davam edib və gecə Düma pəncərəsinin qarşısında keşikçi gəzindiyini gördükdə şübhəyə düşüb. O, öz-özünə fikirləşib: "Bəlkə özümün xəbərim olmadan həbs olunmuşam?" (səh. 130). Əslində bu şübhə nahaq deyildi. Çünki əsər boyu o Çar Rusiyasını, onun bə'zi çinovniklərini, daxili idarə işindəki qüsurları dəfələrlə nəzərə çarpdırıb. Lakin onun bu tənqidləri hələ vərəqə köçürülməmişdi, buna görə də şübhəni özündən tez qovub və həmin gecə onun yuxusuna mane olan yeganə şey adət etmədiyi xoruz banı olub.

Dümanın Moskvadan bəri bütün səfər boyu narazı salan məsələlərdən biri yolüstü mehmanxanalarda ("poçt dayanacaqları") su və əlüzyuyan olmamasıdır. Düma bu çatışmazlığı mədəniyyətsizlik adlandırır və bunun üçün çar hökumətini təqsirləndirir: "Hökumət bütün poçt dayanacaqlarındakı taxta çarpayı, bir masa, iki taburet və divar saatı qoyulmasını əmr edərkən, orada bir gecə qabı, ləyən və su qoymağı da əmr etsəydi, bu ona çox baha başa gəlməzdi.

Baş-altı il sonra o dəsmal da əlavə edərdi: hər şeyi birdən diləmək olmaz" (səh. 136).

Yazıçı çar hökumətinin mədəniyyətini dayaz çaylara oxşadır: "rus çayları da rus sivilizasiya kimidir: genişdir, lakin dərin deyil" (səh. 136).

Çar Rusiyasının təhsil ocaqlarında tə'limin də keyfiyyətsiz olmasına misal üçün onu müşaiyət edən tərcüməçi Kalionu Düma nümunə göstərib. Dərbənddə "Şah Hüseyn" mərasiminə tamaşa edərkən tərcüməçisindən kömək görməyən Düma yazır: "Kolinoya gəldikdə, rus universitetlərində verilən biliyin zəifliyi ucundan gözləri qarşısındakı tamaşanı məndən də pis anlayırdı" (səh. 63).

Yazıçı arada imkan tapıb rus məbəxindən də şikayətlənir:

"Mənim zənnimcə musiqilərin ən vəhşisi kalmık musiqisidir. Lakin mətbəxlərin ən dəhşətlisi rus mətbəxidir, çünki bu mətbəxin zahiri mədəni, əsası isə çox yönsüzdür.

Xörəklərin tanınmaması bir yana, onları gizlədir və görkəmlərini dəyişirlər. Ət dişlədiyini güman etdiyin vaxt balıq dişləyirsən, balıq dişlədiyini güman etdiyin vaxt, sıyıq, yaxud krem dişləyirsən.

Alim Qretş, ona qədər qrammatikasız keçinmiş rus dili üçün qrammatika yaratdı.

İstərdim ki, Qretş kimi güclü bir qastronom da rus mətbəxi üçün lüğət yaratsın" (səh. 100).

Şəkidəki xan sarayına tamaşa etdiyi vaxt bu sarayın tarixinə və gözəlliyinə aludə olmuş Düma çar rejimindən narazılığını daha siyasi bir tərzdə büruzə verib:

"Saray elə gözəl bir tikintidir ki, onun rəngarəngliyinin böyüklüyünü və sonsuz gözəlliyini yalnız fırça ilə təsvir etmək olar. Birinci mərtəbə burada yurd salmış böyük nailiyyətlərə görə köhnə rəsmlər üzrə bərpa olunub. Lakin iki pilləkəndən yuxarı qalxmayıb, girəcəkdə qurtarıb. Rusiyada hər iş bu cür görülür: heç vaxt bir iş lazımi vaxtdan, mövcud ehtiyacdan o yana keçmir; sonra, ehtiyac keçdikdən sonra qalanı qalır öz başına — həmən işi qaydaya salmaq, davam etdirmək, tamamlamaqdansa, onu əvvəlki vəziyyətindəcə qoyurlar.

Rusiya bir qoşun bölüyüdür: o zəbt edir, lakin məqsədi dağıtmaq olur. Bu müasir fatehlərdə Skif və Tatar barbarlığının qalığı var: bugünkü tərəqqi və şüurla yanaşı bu fatehlik ehtiyacını və abadlaşdırma işinə laqeydliyi anlamaq olmur" (səh.168).

Məşhur fransız yazıçısı çar Rusiyasının müdaxiləçilik siyasətinin əvvəl-axır boşa çıxacağını, hələ Oktyabr sosialist inqilabından 60 il əvvəl mövcud rejimin parçalanacağını söyləyirdi:

"Bu gün Yer kürəsinin yeddidə birini əhatə edən bir imperiyanın eyni əldə qalması mümkün deyil: əl sərt olsa qıralacaq; zəif ol-

sa açılacaq — bu və ya o biri halda tutduqlarını buraxmalı olacaq" (səh. 169).

Arxayınlıqda çar üsul-idarəsinə qarşı yazdığı bu sətirlərin kölgəsi hələ qəlbində ikən Şəkidə pəncərəsinin altında keşikçi görüb Aleksandr Düma qorxuya düşmüşdü.

Şəkidə odluğu vaxt Düma Şəki xanlarının tarixi və həyatı haqda mə'lumat toplamış sonuncu Şəki xanının nəvəsi Məhəmməd xanla tanış olmuşdur. Məhəmməd xan Dümaya öz qılıncını və tapançasını bağışlayıb, yazıçı isə əvəzində ona fransız tüfəngləri göndərəcəyini və'd edib.

Gənc Məhəmməd xan çar ordusunun mayoru imiş və hökumətdən təqaüd alırmış. Şəkidə Dümanı maraqlandıran şəxsiyyətlərdən biri Məhəmməd xanın əmisi Daniyel bəy olub Şəkinin komendantı gürcü knayazı Tarkanovun oğlu İvan, Danyel bəyin əvvəlcə rus ordusunda xidmət etməsi, sonra isə Şamilin tərəfinə keçməsi səbəbini Dümaya ətraflı nəql etməyə çalışıb:

" — Bu əhvalatda bir anlaşılmazlıq olub: Danyel bəy İlisu xanı kimi ruslara xidmət edib. Həmin vaxtlar ləzgi xəttində komandan olan general Şvarts onunla deyəsən yaxşı rəftar etməyib. Danyel bəy şikayətlənib, bəlkə də onu hədələyib. — Bilirsinizmi, bu əhvalatda kimin haqlı olduğunu söyləmək çətindir — Danyel bəyin bir erməni katibi var imiş; erməni katib general Şvartsa yazıb ki, onun ağası Şamilin tərəfinə keçmək istəyir. Məktub gedib ünvana çatmaqdansa, Danyel bəyə verilib: Danyel bəy bir xəncər zərbəsi ilə öz katibini öldürüb, atına minib keçib Şamil tərəfə. Əhvalat 1845-ci ildə olub. Deyilənə görə o cana doyubdur; Tiflisə gedib general Şvatsdan imperatorun özü ilə danışmaq üçün Peterburqa getməyə mə'zuniyyət istəyibmiş. Onun xahişini rədd edib özünə bir dəstə adam qoşublar. Bu adamlar onun şəxsi dəstəsi deyildi, onu izləmək üçün qoşulublarmış. 1852-ci ildə o qayıtmaq istəyib və Qarney Maqolliyə gəlib. Baron Vrangelin vasitəçiliyi ilə knyaz Vorontsov ondan ruslara xidmətə qayıtmasını xahiş edib. O ancaq Maqollidə qalmaq şərti ilə razı olduğunu bildirib. Fikirləşiblər ki, o Şamilə çox yaxın olar və onunla əlaqə saxlaya bilər. Ona təklif ediblər ki, əgər Qarabağda, yaxud Tiflisdə yaşamağa razı olsa, əvvəlki rütbəsini qaytararlar. O, razı olmayıb Şamilin yanına qayıdıb. Həmin vaxtdan bəri bütün yürüşlərə başçılıq edir və bizə ən ağır itkiləri o verir" (səh. 166).

Azərbaycan torpağına qədəm baxdığı ilk gündən Dümanı ən çox maraqlandıran hadisə Şamil hərəkatı olub.

Hələ Şamaxıda ikən o, imkan tapıb, Şamilin yanında altı ay əsirlikdə olmuş bir rus zabitini Şamil haqda söhbətinə qulaq asmış, sonra Şamilin ailəsi, arvadları, uşaqları, məişəti, adətləri, döyüşləri haqda öz oxucularına geniş mə'lumat vermişdir. Bu mə'lumatdan hiss olunur ki, əsirlikdə olmuş zabit Şamili bir növ rəqabət hissi ilə xatırlayırmış.

Dərbənddən bəri Azərbaycandan Gürcüstana qədər Dümanı həmişə azı on iki, on beş nəfərlik mühafizə dəstələri müşahidə edib. Bu dəstənin əsas məqsədi yadelli yazıçını "ləzgi basqınından" müdafiə etmək olub. Əslində isə Şəkiyə çatınca Düma bir dəfə də olsun nə ləzgini görüb, nə də ləzgilərlə döyüşü.

Şəkidə isə nəhayət çarın adamları ilə Şamilin adamları arasında baş vermiş bir toqquşmanın, daha doğrusu Şəkinin hakimi knyaz Tarkanovun, qoşun başçısı Varbidzenin fransalı qonaq üçün hazırladığı bir sürprizin vəhşi nəticəsini görüb dəhşətə gəlib.

Şəkiyə gəlişinin ikinci günü Düma üçün knyaz Tarkanov tamaşa axşamı düzəldibmiş. Tamaşa da qoç döyüşündən və güləşmədən ibarət olub. Barbidzenin hazırladığı tamaşa isə tamaşa axşamının ən qəribə hissəsi olub. Barbidze həmin axşam şəhər kənarında, meşədə pusqu qurubmuş. Gecə öz adamları ilə ləzgi atlılarına hücum edib başçılarını öldürüb. Sonra isə ölmüş adamın başını kəsdirib payaya keçirdib məclisə yollayıb, özü isə paltarını dəyişmək üçün evinə gedib. Başı gətirmiş nökər Tarkanovdan onun hər baş üçün tə'yin etdiyi on manatı istəyib. Tarkanov bu sahədə xəsislik etmirmiş. Barbidze isə yaxın vaxtda imperatordan mükafat alacaqmış, axı o həmən gün on ikinci ləzgini öldürmüşdü. Tarkanovun özü daha çox ləzgi qırdığına görə imperatordan şəxsi mükafat — brilyant üzük alıbmış. İmperatorun özü də yol dayanacağında — çaparxanalarda əlüzyuyan qoydurmağa xəsislik edirmişsə də, baş kəsənlərə mükafat verməyə əliaçıq imiş.

Həvəsləndirmə o dərəcəyə çatıbmış ki, Tarkanovun kiçik oğlunun ən böyük arzusu böyüyəndə çoxlu ləzgi öldürüb imperatordan mükafat almaq imiş.

Çar Rusiyası "dağlılara" qarşı nifrət hissini elə təbliğ etmişdi ki, Rusiyanın iste'dadlı şairi Lermontov, "Dağlı" sözü ilə əlaqədar bir zarafatın qurbanı olub. İş elə gətirib ki, Lermontov özünün köhnə dostu Martinova indi bizim rəğbətlə qarşılayacağımız bir zarafat

edib. Dostunun iki xəncər bağladığını görən şair ona qadınların yanında zarafatyana belə deyib:

"— Siz çox gözəl görünürsünüz, Martinov! Birdən-birə iki dağlını xatırladırsınız" (səh. 257).

Belə bir bənzətmədən təhqir olmuş Martinov öz dostunu duelə çağırıb və dünyanın ən gözəl şairlərindən biri səfeh bir anlaşılmazlığın qurbanı olub.

Dümanın Şəkidən Tiflisə təntənə ilə yola salıblar. Ayrılarkən Dümaya hədiyyələr veriblər. Şəkinin hakimi öz kəmərini ona bağışlayıb. Yolda isə "cəsur" Barbidze əliaçıqlığın Dümanı təəccübləndirmiş bir nümunəsini göstərib. Düma satın aldığı ləzgi drabından Fransaya qayıtdıqdan sonra gürcü şalvarı tikdirəcəyini bildirdikdə Barbidze yolun ortasındaca Dümanın ciddi e'tirazına baxmayaraq şalvarını çıxarıb nümunə üçün ona bağışlayıb. Sonra isə mühafizə dəstəsinə başçılığı başqasına tapşırıb, özü şalvarsız Şəkiyə qayıdıb.

Beləliklə, Aleksandr Düma Azərbaycandan keçib Gürcüstana, Tbilisidəki Fransa konsulunun və orada məskən salmış başqa həmyerlilərinin görüşünə gedib.

Hamlet QOCAYEV.

Jorj Sand (1804-1876)

Əsl adı Oror Düpin olan fransız yazıçısı Jorj Sand 1804-ci ildə Fransanın Nohan şəhərində anadan olub. O dörd yaşında ikən yetim qalıb və nənəsinin himayəsində böyüyüb. 1831-ci ildə Parisə gəlib və sərbəst həyat sürməyə başlayıb. 1832-ci ildən Jorj Sand adını götürüb (Sand adı onun məşuqlarından birinin adından götürülüb). Həmən dövr Jorj Sand artıq maraqlı romanlar yazır və dövrünün fransız yazıçıları ilə dostluq edirdi. "İndiana", "Lelya", "Konsuelo", "Fransada Səfər yoldaşı", "Şeytan bataqlığı" və başqa romanları əsrin ortalarında tanınmış əsərlər sayılardı. Yazıçının özünün mə'nəvi sərbəstliyi, şalvar geyib siqaret çəkməsi çoxlarının xoşuna gəlmirdi.

1848-ci il Fransa İnqilabı onu siyasi fəaliyyətə cəlb edib. Bir il sonra isə siyasətdən əl çəkdiyini elan edib sentimental romanlar yaradıcılığına üstünlük verib. Jorj Sandın "İndiana" əsəri artıq Azərbaycan dilində nəşr olunub, həm də ki, bu yazıçı klassik fransız ədəbiyyatının görkəmli nümayəndələrindən biri kimi tanınır. XIX əsrin ortalarında yazıb-yaratmış yazıçı bu gün də maraqla oxunur.

Son zamanlar oxuduğum iki romanı vasitəsilə Jorj Sand yaradıcılığına daha yaxından bələd olmuşam. Yazıçının "Fransua dö şampi" (Tapılma Fransua) və "La petit Fadet" (Balaca Fadut) romanları hər ikisi eyni üslubla yazılmış, xeyirxahlıq və cəngaverlik dastanlarına yaxın, gənclərin həyatından və macəralarından bəhs edən əsərlərdir. "Tapılma Fransua" əsərində müəllif valideynləri mə'lum olmayan bir oğlanın taleindən, ona çəpəki və inamsızlıqla baxanların bədxah ümidlərinin boşa çıxmasından, oğlanın xeyirxah, təmiz bir insan kimi yetkinləşməsindən və xoşbəxt həyat qurmasından bəhs olunur.

"Balaca Fadet" romanında isə az qala eyni taleli bir qızcığazın həyatı və onu əhatə edən mühitdən bəhs olunur. Meşədə nənəsi ilə tənha daxmada yaşayan Fadetə də anasının pis adına görə hamı ikrahla baxır, kəndin uşaqları ondan yan qaçırlar. Lakin qızcığaz öz təvazökarlığı və tədbirliliyi ilə insanlar arasına yol açır, dərman bitkiləri toplayıb nənəsindən öyrəndiyi üsullarla xəstələrə kömək edib rəğbət qazanır, nəhayət xoşbəxt ailə qurub hörmətli bir xanım kimi tanınır.

Jerar dö Nerval (1808-1855)

Jerar dö Nervalın əsl adı Jerar Labrünidir. O 1808-ci ildə Parisdə anadan olmuş, Parisin şimalında yaşayan dayısının malikanəsində boya-başa çatmışdır. Gənclik illərində əvvəlcə populyar, klassik poeziyaya maraq göstərmiş, sonrakı təhsil illərində isə alman ədəbiyyatı ilə ciddi məşğul olaraq və bu ədəbiyyatın gözəl tərcüməçisinə çevrilmişdir.

1841-ci ildə əsəb xəstəliyinə tutulur. 1843-cü ilə Şərq ölkələrinə səfər edir və şərqdə on il yaşayır, nəşriyyat və qəzetçilik sahəsində kiçik işlərdə çalışaraq özünü dolandırır. 1851-ci ildə "Şərqə səfər" 1852-ci ildə isə "İşıqlı adamlar" əsərləri çap olunur. 1853-cü ildə o yenidən əsəb xəstəliyinə tutulmuş və ömrünün sonunacaq bu xəstəlikdən yaxa qurtara bilməmişdir. Xəstəlik macal verdiyi günlərdə yaradıcılığını davam etdirir və özünün şah əsərlərini məhz həmən dövrdə yazmışdı. 1853-cü ildə "Silvi", 1854-cü ildə isə "Od qızları" və "Ximerlər" əsərləri çap olunur. 1855-ci ildə yazdığı "Oreliya" adlı əsərinin çap olunduğu günlərdən birində isə onun cəsədi Parisin Vyey-Lantern küçəsindəki bir evin pilləkən çərçivəsindən asılmış vəziyyətdə tapılmışdı.

Jerar dö Nerval

Dayanacaq

Səfər vaxtı ən gözəl yer dayanacaqdır
İki mənzil arasına aləm düzülür
Atlar çəkir, yol uzanır, qamçı səslənir
Göz görmədən doyur, bədən üzülür.

Dayanacaq göz oxşayan gözəl bir çəmən
Əlvan gül-çiçəyə bürünüb aləm
Qovaq kölgəsində bulaqlar sızır,
Yolun yorğunluğu uçur gözündən

Uzan bu çəməndə həyatı dinlə
Ləzzət al güllərin təravətindən
Göyü heyran-heyran süzdüyün zaman
Bir səda gələcək yerdəkilərdən:
"Yolçu yodla gərək, getdik, ay adam!"

Jerar dö Nerval

Lüksemburq xiyabanı

Bir qız çıxdı yoluma
Süzdü qaranquş kimi
Əlində əlvan çiçək
Dilində şirin nəğmə
Oda saldı qəlbimi

Bəlkə onu gəzmişəm
Sınayıb neçəsini.
İndi bircə baxışla,
İşığa qərq edəcək
Ömrünün gecəsini

Heyif, keçib gəncliyim.
Çoxdan vidalaşdığım
Şirin bir xəyaldı bu.
Gənclik, gözəllik olur
Qocalığın arzusu

Jül Vern (1828-1905)

Jül Vern XIX əsr fransız realist yazıçıları arasında özünəməxsus bir yer tutur. O 1828-ci ildə Fransanın Nant şəhərində, vəkil ailəsində anadan olub. Uşaq yaşlarından balaca Jül dəniz səfərlərinə böyük həvəs göstərib. Lakin çox ailələrdə olduğu kimi Jülün ailəsində də onu ata sənətinin davamçısı kuimi böyütmək istəyirdilər. İyiirmi yaşında Jül Parisə gedir və hüquq təhsili almağa başlayır. Amma çox keçməmiş bu sahəyə marağını itirir, ədəbiyyata marağı isə getdikcə artır. Əvvəlcə komik pyeslər yazmağa cəhd göstərir və nəhayət öz üslubunu tapır və hamını heyran edən elmi-fantastik romanlar yazmağa başlayır. 1863-cü ildə "Beş həftə hava balonunda" adlı ilk elmi romanı çap etdirib ilk uğurunu qazanan yazıçı sonrakı illərdə daha əzmkarlıqla işləyərək 65 cildlik "Qeyri-adi səfərlər" başlıqlı romanlar silsiləsini hazırla- yır.

Jül Vern Paris kommunasını öz gözləri ilə görsə də ona siyasi əhəmiyyət verməyən ziyalılardan biri olub. O elmi tərəqqiyyə daha böyük əhəmiyyət verir və düşünürdü ki ancaq bu yolla insan cəmiyyətini lərzəyə salmadan inkişaf etmək olar.

Jül Vernin "Yerin mərkəzinə səfər" (1864), "Yerdən Aya" (1865), "Kapitan Haterasın macəraları" (1866), "Ay ətrafında" (1870), "Kapitan Qrantın uşaqları" trilogiyası (1867-68), "İyirmi min verst dəniz dibində" (1870), "Sirrli Ada" (1875), "80 gün ərzində "Dünya səfəri" (1873), "On beş yaşlı kapitan" (1878) romanları dünya şöhrəti tapmış əsərlərdir. Bu məşhur əsərlərin cüz'i bir qismi də olsa rus dili vasitəsilə dilimizə çevrilib, bə'ziləri ilə isə bədii filmlər vasitəsilə xalqımıza çatdırılıb.

Emil Zola (1840-1902)

Emil Zola 1840-cı ildə Parisdə anadan olmuşdur. Atası italiyalı mühəndis idi və onun vaxtsız ölümü balaca Emili və ailəsini maddi çətinliklər içində yaşamağa məcbur etmişdir. Emil Zolanın uşaqlıq illəri Fransanın cənubunda keçmiş, burada sonralar uzun müddət dostluq etdiyi rəssam Sezan ilə bir məktəbdə oxumuşdur. Sonra o təhsilini Parisdə davam etdirmişsədə, lakin attestat imtahanından kəsilir. 1862-66-cı illərdə "Libreri Aşet" nəşriyyatındla işləyir və burada bir çox yazıçılarla tanışlıq yaradır. Yavaş-yavaş jurnalistika sahəsinə keçərək, öz yaradıcılığında bu sahəyə mühüm yer ayırır. Ədəbiyyat və mədəniyyət mövzusunda çoxlu məqalələr yazmışdır.

1870-ci ildə Zola evlənir və ailəsini dolandıra bilmək üçün özünə yaradıcılıq planı qurur. Bu plana əsasən, 1871-ci ildən 1893-cü ilə qədər "Ruqon—Makar" adlı romanlar silsiləsindən hər il bir roman hesabı ilə 20 roman nəşr etdirmişdir. Bu illər Zola öz məqalələri ilə mətbuatda da çıxış edir və maddi cəhətdən korluq çəkmirdi.

İki hadisə Zolanın sonrakı həyatına böyük tə'sir göstərir. Janna Rozero adlı bir xanımla olan əlaqəsi və bu qanunsuz əlaqədən iki uşağın dünyaya gəlməsi, daha sonra Dreyfus əhvalatına görə gözdən düşmüş Zola 1888-ci ildə Fransanı tərk etməli olur. Düşmənlərinin nifrət və böhtanlarına mə'ruz qalan yazıçı 1902-ci ildə müəmmalı bir ölümlə dünyasını dəyişmişdir.

Lakin Emil Zola məşhur yazıçı, roman ustası kimi fransız ədəbiyyatında öz yerini daim saxlayır. Onun "Ruqon—Makar" silsiləsinə daxil olan romanlarından "Ruqonların sərvəti", "Keşiş Murenin səhvi", "Xanımların xoşbəxtlik evi", "Jerminal", "Torpaq", "Nana" və başqaları Fransada dönə-dönə nəşr olunmuşdur. Silsilədən əvvəl və sonra yazdığı əsərlər də maraqla qarşılanmışdır.

Emil Zolanın publisistikası isə çox vaxt elə bu günün yazısı kimi oxunur.j Onun roman yaradıcılığı haqda söylədikləri xüsusi maraq doğurur. 1808-ci ildə yazdığı "Təcrübə romanı" adlı məqaləsi Emil Zolanın ədəbiyyat mövzusuda söhbətlərindən yxaşı bir nümunə sayıla bilər. Elə buna görə də yazıçının yaradıcılığından bir nümunə kimi həmin məqaləni seçib dilimizə çevirdik.

Emil Zola

Təcrübə romanı

Bəli, roman haqda yeni bir söhbət açdıqda belə bir cəhət də nəzərə çarpır ki, romançı müşahidəçi ilə təcrübəçinin birliyindən yoğrulmuş bir sənətkardır. Onun müşahidəçiliyi olayları gördüyü kimi təqdim etməkdir, o başlanğıc nöqtəsi yaradır, obrazların hərəkət edəcəyi, hadisələrin inkişaf edəcəyi meydanı qurur. Sonra təcrübəçi gəlir və təcrübəyə başlayır, demək istəyirəm ki, hadisələri mövzunun və məqsədin tələb etdiyi istiqamətdə inkişaf etdirmək üçün obrazları hərəkətə gətirir. Bu təcrübə Klod Bernarın (bioloq, həkim. H.Q.) adlandırdığı kimi "Görmək üçün" aparılan təcrübədir. Romançı həqiqət axtarışındadır. Misal üçün Balzakın "Əmiqızı Bet" romanıdakı baron Hülo obrazını göstərmək istəyirəm. Balzakın müşahidə etdiyi əsas hadisə bir kişinin məhəbbət ehtirasının onun və ailəsinin həyatında, cəmiyyətdə doğurduğu təlatümdür. Mövzunu seçəndən sonra Balzak müşahidə elədiyi hadisələrdən başlayır. Sonra isə o Hülonun ehtiras əlamətlərini göstərmək üçün onu müxtəlif vəziyyətlərdə və müxtəlif əhatələrdə təsvir edərək öz təcrübəsini qurub. Deməli müşahidəçiliklə yanaşı yaradıcılıq təcrübəsi vacibdir. Elə buna görə də Balzak müşahidə etdiyi əhvalatların təsvirini vermir, yaratdığı obrazı özü istədiyi şəraitdə və vəziyyətdə təsvir edir. Problem isə belə bir ehtirasın, belə bir əhatə və şəraitdə təsviri fərdə və cəmiyyətə necə tə'sir edəcəyini bilməkdədir. "Əmiqızı Bet" kimi bir təcrübə romanı, elə kütlənin gözü qarşısında keçirilən bir yaradıcılıq təcrübəsinə nümunədir. Əsas məsələ hadisələri təbii şəklində götürməkdir. Sonra bü hadisələrin mexanizmini öyrənmək, təbiilik qaydalarına sadiq qalmaq şərti ilə oardakı şəraiti və əhatəni dəyişmək olar. Burada insanın biliyi, fərdi və ictimai davranışındakı elmi təcrübəsi üzə çıxır.

Şübhə yox ki, biz bu məsələni kimya və hətda fiziologiya elmləri ilə bərabərləşdirmək fikrində deyilik. Çünki biz hələ ehtirası parçalayıb onu analiz etməyə imkan verə bir reaktiv tanımırıq. Təkrar etmək istəyirəm ki, təcrübə romanı hələ yenicə yaranmış təcrübə tibbindən də cavandır. Mənim məqsədim alınmış nəticəni deyil, sadəcə olaraq yeni bir metodu nümayiş etdirməkdir. Təcrübə romançısı elmlərin çətin və qaranlıq yollarına təzə qədəm qoyur, onu yaxşı görmürsə, bu zaman elmin mövcudluğuna xələl gətirmir.

Mə'lum məsələdir ki, bizim anladığımız mə'nada natüralist roman, romançının müşahidədən istifadə edərək insan üzərində apardığı əsl təcrübədir.

1880.

Pol Verlen (1844-1896)

Pol Verlen 1844-cü ildə Fransanın şərqində anadan olmuşdur. Orta təhsilini Parisdə almış, və 20 yaşında şəhər Valisi idarəsində işə düzəlmişdir. Gənc və zərif hissiyyatlı Verlen bütün boş vaxtını poeziyaya həsr etmiş, ilk dəfə "Müasir Monparnas" jurnalında "Saturn şe'rləri" dalı şe'rlər silsiləsini çap etdirmişdir. Üç il sonra onun daxili sıxıntılarını açıq biruzə verən başqa əsərləri çap olunur. Həmən dövrdə o artıq sərsəm həyat keçirməyə başlamış və içkiyə meyli güclənmişdi. Buna baxmayaraq Matild Mote adlı mülayim və məlahətli bir qız ona ərə gedir və şair bir neçə ay xoşbəxt ailə həyatı sürür. 1870-ci ildə Parisin almanlar tərəfindən mühasirəyə alınması, ictimai qarışıqlıqlar, xüsusən də şair Artur Rəmbo ilə yaxınlığı Verlenin ailə həyatına son qoymuşdur.

Rəmbo ilə birgə o iki il avara həyat keçirmiş, İngiltərə və Belçikaya səfərlər etmişdir. Səfərləri vaxtı Verlen özünün "Sözsüz romanslar" adlı ən yaxşı şe'rlər kitabını yazır. Sərxoşluq anlarının birində özünün yol yoldaşını güllə ilə vurur və Belçikada həbs edilir. İki il həbsxana həyatı yaşadıqdan sonra Verlen "Ağıllılıq" adlı yeni bir şe'rlər kitabı hazırlayır. Bundan sonra da bir neçə dəyərli şe'rlər silsiləsi yazmasına baxmayaraq, şairin yaradıcılığı həyatı boyu qiymətləndirilməmiş və 1896-cı ildə ömrünü rəzalət içərisində başa vurmuşdur.

Pol Verlen

Hamıdan gözəl dəniz

Dəniz hamıdan gözəl
Mə'bəddən də gözəldir.
Yemək verir, layla çalır,
Xeyirdən də əzəldir
Dalğasında Məryəmin
Duaları səslənir

Dənizdə xeyir var,
Dənizdə şər var.
Ləpə mürgü vurur,
Coşur dalğalar.
Coşan dənizin də
Qanunları var.

Coşub daşanda da
Təmkinlidir o!
Dalğası ölümə
Cəsarət verir:
"İndi ki, çarə yox,
Əzabsız öl", söyləyir.

Sonra göylər açılır,
Dənizə işıq salır.
Dəniz mavi, qırmızı,
Dəniz boz, yaşıl olur.
Hamıdan gözəl dəniz
Bizlərdən əzəl dəniz.

Pol Verlen

Şirin yuxu

Tez-tez yuxu görürəm, qəribə, şirin yuxu
Yuxumdasa bir qadın — sevirəm, sevir məni.
O hər gecə dəyişir, nə doğma olur, nə yad
Amma hər dəfə sevir, duya bilir qəlbimi.

Bəli, o duyur məni, tək o duyur heyif ki,
Qəlbimin nəğməsini, ürəyimin səsini
Saralmış üzümə, isti alnıma əl çəkir,
Yaş tökür, oxşayır məni

Sarışınmı o qadın, qarışınmı, bilmirəm
Ən mülayim, ən incə bir adı var deyəsən
Bu dünyadan sevə-sevə köçənlərin adı kimi.

Baxışı daş insanın baxışıdır elə bil,
Səsi həzin, mülayim, səsi çox yaxın deyil.
Yada salır ölənləri, yada salır sevgimi.

Pol Verlen

Qadın və pişik
(Henri Vinterə)

Qadın pişiklə oynayır
Göz oxşayır bu mənzərə.
Qaranlıqda qarışıblar
Ağ əllər ağ pəncələrə.

Qadının şiş dırnaqları
Qorxuludur ülgüc kimi.
Hamarlanıb, boyaq alıb,
Gizlədib öz kəsərini.

Pişik də yığıb caynağın
Məzələnir şirin-şirin
Şeytansa yummur gözlərin…

Çılğın gülüş gəlir hərdən
Dörd fosforlu göz parlayır
Otağın qara küncündən.

Pol Verlen

Qəlbmə göz yaşım axır
("şəhərə həzin bir yağış çiləyir…"
Artur Rembo)

Yenə də qəlbimə göz yaşım axır,
Elə bil şəhərə yağış çiləyir.
Ürəyim sıxılır, yanır, darıxır
Ruhumu oynadan bu təlaş nədir?

Yağış yağır yerə-göyə
Şırıldayır şirin-şirin
Darıxmalı bir ürəyə
Bundan şirin nəğmə verin!

Qəlbim sızlayır nahaqdan
Özü bilmir nədən küsüb
Nə dəyən var, nə aldadan
Niyə belə yasa düşüb?

Bu da belə bir bəladır
Öz dərdini bilməyəsən.
Nə eşqim var, nə də kinim
Qəlbim çatlayır kədərdən!

Gİ DE MOPASSAN
(1850-1893)

"Mopasanın əsərini oxuyub başa vuranda özünü elə şən və gümrah hiss edirsən ki, elə bil təmiz havada gəzintidən qayıdıbsan." Bu sözləri Mopassanın dəfn mərasimində Emil Zolya söyləyib. Yəqin ki, həmən gün yazıçının qəbri önündə söylənmiş xoş sözlərin hamısından çox Mopassanın ruhunu bu sözlər oxşayıb. Öz yaradıcılığı ilə insanlara xidmət etməyə, öz daxili aləmini biruzə verməyə, özünün ən zərif hisslərini insanlarla bölüşməyə çalışmış bir yazıçı üçün bundan xoş rə'y almaq gərəksizdir. Həmdə ki, Balzaklar, Hüqolar Fransasında, Floberlər, Emil Zolyalar dövrüdə yazıçı kimi tanınmaq, sevilmək, xoş sözlər eşitmək üçün sözün əsil mə'nasında böyük yavzıçıolmaq gərək idi.

Fransanın tanınmış realist yazıçısı Gi dö Mopassan 1850-ci ildə Normandiya vilayətində kasıblamış zadəgani ailəsində anadan olmuşdur. Onun uşaqlıq illəri Normandiyanın mənzərəli bir güşəsində, meşələr arasında, dəniz sahilində keçmişdir. Təbiətə, dəniz gəzintisinə, balıq ovuna olan həvəsi, sadə kənd adamları və balıqçılarla ünsiyyəti, onların məişəti, adətləri, kobud, lakin duzlü zarafatları sonralar yazıçının yaradıcılığında öz bədii əksini tapmışdır. Gənc yaşalrında Parisə gəldikdən sonra Mopasan tanınmış yazıçılar əhatəsinə düşür, onları dinləyir, onlardan öyrənir və nəhayət "Gombul" hekayəsilə şöhrət tapır və böyük yaradıcılıq həvəsilə yeni əsərlər yazır. Qustav Flober və İ.S.Turgenevin şagirdi az vaxtda ustadlar sırasına keçir. Onun hekayələrinin mövzu seçimi dil şirinliyi, yığcamlığı və xəfif yumoru hamını heyran edirdi. Sağlam cüssəli, xoş əhval-ruhiyyəli, bütün məclislərə təravət gətirən həm gənc, həm də çox qabiliyyətli bir yazıçının Fransada necə tez şöhrətlənməsini hamı marqala izləyirdi. Mopasanın hekayələr toplusu əl-əl gəzirdi. Hekayə kitablarından birini, — "Telye evi" adlı kitabını Mopasan öz sevimli müəllimi İvan Trugenevə ithaf etmişdi. Kitabın titul səhifəsində belə yazılıb: "İvan Trugenevə dərin hörmət və rəğbət hissi ilə. Gi dö Mopasan".

Mopasan novella ustası kimi məşhurlaşmışdı. Oxucular onun əsərlərində gözəl yazıçı qələminə alınmış insan münasitətləri ilə qarşılışır. Onun təsvirində insan münasibətlərinin ən ülvisi, insan hisslərinin ən təmizi məhəbbətdir. Məhəbbətə kəm baxanları, pula, ad-sana uyub təmiz məhəbbəti tapdayan adamları, belələrini ye-

tişdirən şəraiti və cəmiyyəti Mopasan lənətləyir. ("Mademuazel Perl", "Həqiqi əhvalat", "Həsirçi qadın" və başqa hekayələrdə). Mopasan məhəbbətin gücünə inanır və çox vaxt onu ən ciddi sınaqlardan qalib çıxarır. "Ay işığı" hekayəsində məhəbbət din nümayəndəsinin qəddar əqidəsini alt-üst edir. Himayəsində olan bacısı qızının rahibə etmək istəyən keşiş eşidir ki, qız eşqə düşüb. Tanrıdan başqa heç kəsi sevməmiş, insan məhəbbətinə və bu hissin əsas səbəbkarı saydığı bütün qadınlara nifrət edən keşiş qəzəbindən odlanır və intiqam almaq üçün gecə qızın görüş yerinə gəlir. Lakin sevən gəncləri qoynuna almış təbiət, təmiz hava, sehirli ay işığı, bülbüllərin cəhcəhi keşişi çaşdırır, o fiirləşir ki, gənclərin sevgi görüşünü tanrının özü belə bir gözəlliyə bürüyüb.

Mopassan romanlar da yazmışdır, amma bu romanlar hekayə ustası kimi şöhrət tapdığı bir dövrdə yazılıb. Elə bil sübut etməyə çalışırmış ki, o gözəl romanlar da yaza bilir — və məqsədində nail olub. Mopasanın yaratdığı yeddi romanın da hər biri maraqla oxunur və müəllifinin şöhrətini daha da artırmışdır. "Gözəl dost", "Həyat", "Mont-Oryol", "Ölüm kimi güclü", "Bizim qəlbimiz", "Pyer və Jan", "Parisli burjuanın bazar günləri" romanları çap olunduqca Mopasan öz pərəstişkarlarının gözündə daha da yüksəldi. Çox təəssüf ki, həmən romanlardan ancaq bircəsi — "Həyat" romanı Azərbaycan dilinə tərcümə olunub. 1980-ci ildə "Yazıçı" nəşriyyatınınçap etdiyi "Hekayələr və novellalar" kitabı isə Mopasanın Azərbaycan oxucularına təqdim edilən ikinci kitabı oldu. Cəmisi qırx üç ilə ömür yaşamış bu böyük yazıçının Fransada hələ 1905-ci ilə qədər yeddi romanı, on yeddi kitabda toplanmış və yüzdən çox hekayəsi, bir şe'rlər kitabı və pyesləri dərc olunmuşdur. Mopasanın əsərlərinin böyük əksəriyyəti rus dilində dəfələrlə nəşr olunmuşdur.

Bü məşhur yazıçı əsasən optimist hisslər təbliğatçısıdır. Əsərlərinin əksəriyyti oxucuya xoş əhval-ruhiyyə gətirir. Amma bə'zən Mopasan əsərinin təbəssümlü gözlərində ürək ağrısı da duyulur. Onun qəhrəmanları burjua cəmiyyətinin, milyonlar dünyasının burulğanında, acınacaqlı vəziyyətdə təsvir olunur. Özünün ilk romanı olan "Həyat" romanında müəllif burjua cəmiyyətinin şikəst etdiyi bədbəxt insanların taleyindən danışır. Ondan sonrakı "Gözəl dost" romanında isə həmən cəmiyyəti hərəkətə gətirən, yaşadan, ölkənin siyasətini öz əlində saxlayan müxtəlif hiylələrlə vardövlət sahibi olan şəxsiyyətlərin mürdar iç üzü açılır. Mopasanın

hekayələrində də onu əhatə edən quruluşun insan taleinə mənfi tə'siri az tənqid olunmur. Lakin həmin əhatədə təmiz qalmış, öz mənliyini qoruyan adamlara da rast gəlinir. "Simonun atası", "Şikəst", "Martenin qızı" kimi bir sıra hekayələrdə Mopasan sadə əmək adamlarını rəğbət hissi ilə təsvir edir.. Ömrünün gənclik illərini kənddə yaşaması, Fransa kəndlilərinin adət-ən'ənəsini, xasiyyətini, danışıq tərzini yaxından öyrənməsi Mopasanın kənd mövzulu hekayələrinin də tə'sirli və təbii alınmasına kömək etmişdir. Mopasanın kənd mövzusunda hekayəsi çoxdur və o, özünün şirin yumorunu da çox vaxt fransa kəndlisinin həyatına və məişətinə calayır, duzlu, məzəli hekayələr yaradır. O çox vaxt əsərlərində kəndliləri öz dili, öz ləhcəsi ilə danışdırır. Lakin bu əsərin dilinin axıcılığına xələl gətirmir. Əksinə Mopasan əsərlərinin dil rahatlığı oxucuları həmişə heyran edir. Məşhur yazıçı öz doğma dili haqda belə deyib: "Fransız dili saf su kimidir, fərsiz yazıçılar bu saflığı heç vaxt bulandıra bilməmiş və bulandıra bilməzlər… O özünün zəiflədilməsi, solğunlaşdırılması və korlanmasına imkan vermir".

Mopasan yaradıcılığında kiçək hekayələr mühüm yer tutur. Adətən həcmcə kiçik olan bu hekayələrdə geniş bir mövzu oxunur, qəribə bir həyat həqiqəti üzə çıxır. İnsan psixologiyasına yaxşı bələd olan yazıçı öz dövrünün adamlarının həyat və məişətini diqqətlə müşahidə edir. Gördükləri, duyduqları və eşitdikləri əsasında gözəl, oxunaqlı hekayələr yazır.

Mopasan hekayəsinin bir qismi müharibə mövzusuna həsr olunmuşdur. Bu hekayələrdən, Mopasanın yalnız Fransa və fransızlar əleyhinə olan muharibəni deyil, bütün hərbi yürüşləri, insan qırğınını, müharibə əmri verən hökmdarları lə'nətləyir.

Mopasanın müharibə mövzulu hekayələrində Fransa — prusiya müharibəsinin acı səhnələri, bu müharibənin xalqa verdiyi əzablar, düşmənin qəddarlığı, Fransa burjuaziyasının ölkəyə xəyanəti, rəsmi fransız ordusunun zəifliyi və sadə fransızların özbaşına azadlıq mübarizəsi təsvir olunur.

"Gombul" hekayəsi Mopasan yaradıcılığının ən gözəl nümunələrindən olduğu kimi müharibə mövzulu hekayələrinin də baş əsəri sayıla bilər.

Bu hekayənin lap əvvəlində Mopasan fransız qoşunlarının Prusiya ordusunun təzyiqi ilə geri çəkildiyini təsvir edir. Bu təsvirdə bir vətənpərvərin ürək ağrısına güclü bir yazıçının ironiyası və yumor hissi qarışıb: "Üzünü uzun, çirkli saqqal basmış, dəstəsiz və

bayraqsız irəliləyən əsgərlər ayaqlarını güc-bəla ilə sürüyürdülər… Onların başçıları keçmiş mahud, taxıl tacirləri. Piy, yaxud sabun satıb baş girləmiş, indi hərbçiyə çevrilmiş, pulunun sayına, yaxud bığının uzunluğuna görə rütbə almış zər baftalı zabitlər hikkə ilə danışır, döyüş planlarını müzakirə edir, can verən Fransanı tək öz zər naxışlı çiyinlərində saxladıqlarını iddia edirdilər…"

Başqa bir hekayədə, "Valter Şnafsın macərası" hekayəsində isə gülməli bir məzhəkənin qəhrəmanı fransız əsgərləridir. Emil Zola nahaqdan demirdi ki, "Onu oxuyarkən adam həm gülür, həm ağlayır, amma yenə də oxumaq istəyir".

Doğrudan da "Valter Şnafsın macərası" hekayəsini oxuyan hər kəs gülür və yəqin ki, vətənini sevən hər bir fransız ölkənin müdafiəsi tapşırılmış bu qoşunun təsvirini oxuyanda ağlayırmış.

Valter Şnafs adi və sadəlövh bir prus əsgəridir. Prusiya qoşunu ilə Fransa ərazisinə, yad bir ölkəyə qəsbkar kimi daxil olduğu gündən özünü bədbəxt və məhv olmuş bir adam sayır. O düşmən olmaqdan əsir olmağı üstün tutur və fransızlara əsir düşməyə çalışır.

Nəhayət Valter Şnafs bir qəsrə yaxınlışar. Lakin pəncərədə onun kölgəsini görən kimi qəsrin sakinləri vahiməüyə düşüb qaçışır. Valter Şnafs özünü təslim etməyə bircə adam tapa bilmir. Yarımçıq qalmış nahar masasına yanaşıb doyunca yeyir, sonra arxayınlıqla uzanıb yatır.

Gecə yarısı əsir düşməyə gəlmiş əsgəri tutmaq üçün bir qoşun bölüyü gəlir. Təpədən dırnağa qədər silahlanmış əlli nəfər fransız əsgəri ehtiyatla qəsrə yaxınlaşır. Şirin yuxuda olan Valter Şnafsı başdan-ayağa kəndirləyib təntənəli mə'lumatlar verməyə başlayırlar. Zabitlər döyüşün çox gərgin keçdiyini və qazandığını, bir neçə düşmən əsgərinin yaralandığını söyləyir, polkovnik isə belə mə'lumat yazır: "…Prusiyalılar həlak olmuş və yaralanmış əsgərləri ilə geri çəkilməli oldular. Əlli nəfər düşmən sıradan çıxarılıb, bir neçəsi əsir alınıb".

Mopasanın müharibə mövzulu hekayələrinin bir neçəsində prusiyalı düşmənin qəddarlığı təsvir olunursa da, düşmən əsgərləri arasında zorla hərbi paltar geydirilib silah verilmiş, Valter Şnafs kimi sülhsevər əsgərlərə də rast gəlinir.

"Gombul" hekayəsində təsvir olunan bir qrup prus əsgəri özlərini zəbt olunmuş torpağın ağası kimi aparmır, yaşadıqları evlərin təsərrüfatına kömək edirlər. Qoca bir fransız həmən əsgərlər haqda deyir: "…Onların hamısı evindən, arvad uşağından ayrılıb gəlib,

müharibə onların xeyrinə deyil, bəli! Əminəm ki, onların da ölkəsində arvadlar ərləri üçün göz yaşı axıdır… Bəli, cənab, kasıblar bir-birinə kömək etməlidirlər. Müharibə edən böyüklərdir"…

Mopasan öz hekayələrində dönə-dönə sübut edir ki, hərb ancaq aparıcıların xeyrindədir, evlər dağıdan, övladları valideynlərindən, sevgililəri bir-birindən, ərləri ailələrindən ayrı salan müharibələr sadə adamların məhrumiyyət mənbəyidir.

Elə buna görə də məşhur yazıçı yaratdığı obrazlardan birinin dili ilə deyir: "Müharibə edən bütün hökmdarları öldürmək daha düzgün olardı".

Mopasan eyni zamanda yazır ki, sakit qonşuya hücum edənlərin müharibəsi vəhşilik, vətənini müdafiə edənlərin müharibəsi isə müqəddəs vəzifədir.

Fransız torpağını zəbt etmiş düşmən zabitlərinin vəhşiliyi bir neçə hekayədə təsvir olunub. Daha çox tə'sir gücünə malik hekayələrdən biri "İki dost" hekayəsidir.

Ön cəbhədə xidmət edən iki dost müharibədən əvvəl də tez-tez getdikləri çay kənarında balıq ovuna icazə alır. Düşmən oonları əsir alır, ön cəbhənin keçid sözünü demək istəmədiklərinə görə güllələyir. Prusiyalı zabit iki milçək öldürübmüş kimi laqeydliklə əmr edir ki, meyidləri çaya atsınlar və öldürülmüş balıqçıların çaydan təzə çıxardıqları balıqları onun üçün qızartsınlar.

"Dəli qadın" hekayəsində də görünməmiş bir qəddarlıq təsvir olunmuşdur.

Atası, əri və uşağı eyni vaxtda həlak olmuş bir qadın dərddən havalanır, beş il öz çarpayısından ayağa qalxmır. Qalib gəlmiş Prusiya ordusu ölgədə yerbəyer edilərkən həmin qadının evini də bir neçə düşmən əsgəri və bir zabit zəbt edir.

Ev sahibəsinin gözə grünməsinin qürur əlaməti hesab edən zabit onu öz hüzuruna çağırır, qadın isə yerindən qalxmır. Onun xəstəliyinə inanmayan zabit əsgərlərinə əmr edir ki, qadını yatağı ilə birgə qarlı-şaxtalı havada meşənin dərinliyinə aparıb qoysunlar. Fikrindən dönməyən zavallı qadın kimsəsiz meşədə qarın altında qalır və canavarlara yem olur.

"Anjelüs" hekayəsində də xudpəsənd düşmən zabiti ilə qürurlu bir qadın üz-üzə gəlir. Burada xudpəsənd zabit zəbt elədiyi qəsrin sahibəsini hüzuruna çağırır, lakin zadəgan qadın zabitdən qorxmur, onun kobud danışığına layiqli cavablar verir. Zəbt olunmuş

torpağın sahibi olduğunu sübuta yetirmək üçün zabit qadını öz qəsrindən qovur.

Bütün əsərlərində qadın obrazına xüsusi rəğbətlə yanaşan Mopasan müharibə mövzulu hekayələrində də bu ən'ənəyə sadiq qalır. Müharibənin özü bir rəzalət mənbəyi olduğu üçün bu hekayələrdə qadın obrazları da çox vaxt rəzalət içində və ürək ağrısı ilə təsvir olunur.

"Madumuazel Fifi" hekayəsində düşmən zabitləri əxlaqsız fransız qadınları ilə bir məclisdə təsvir olunur. Zabitlərdən biri hey lovğalanır, özünü Fransanın sahibi e'lan edir, ara vermədən Fransa və fransızlar hada nalayiq sözlər deyir, fransız kişilərini söyür. Məclisdəki qadınların biri, mademuazel Fifi düşmən zabitinin təhqirlərinə dözə bilmir, masanın üstündən bir bıçaq götürüb onun sinəsinə sancır.

"29 N-li çarpayı" hekayəsi də sanki xəcalət hissi ilə yazılıb. Burada təsvir olunan gənc qadın — Madam İrma müharibədən əvvəl hörmətli bir xanım olmuş. Lakin müharibə vaxtı xəstə bir prusiyalı ona təcavüz etmiş və qadın xəstəlik tutmuşdur. Madam İrma müalicə olunmaq əvəzinə intiqam almaq qərarına gəlir və rastına gələn hər prus əsgərinə özünü təslim edib onları xəstəliyə salır, özünün dediyi kimi bu yolla döyüşçülərdən çox düşmən tələf edir.

Mopasanın müharibə mövzulu hekayələrində belə acınacaqlı səhnələrlə yanaşı işğalçı düşmənə qarşı əsl muüqavimət hərəkatı da təsvir olunub. Bu müqavimətin nümayəndələri sadə fransızlardır. "Məhbuslar" hekayəsində kasıb meşəbəyinin qızı öz həyatını təhlükədə qoyub altı düşmən əsgərini həbs edir. Yeniyətmə qız meşədə azmış prus əsgərlərinə fransız qoşununun yaxınlıqdan keçəcəyini söyləyib, onları qorxuya salır və zirzəmidə gizlənmələrini məsləhəğ görür. Başını itirmiş əsgərlər zirzəmiyə düşən kimi qızcığaz qapağı möhkəm bağlayır. Tələyə düşdüklərini duyan kimi prus əsgərləri atəş açır, qızı hədələyir, qapağı açmasını tələb edirlər. Qorxu bilməyən yeniyetmə qız fransız əsgərləri gəlincə düşmənləri zirzəmidə saxlayır.

Bir sıra hekayələrdə düşmən əsgərlərini tələf edən fransızlar vətənpərvərlik hissi ilə deyil, intiqam hissi ilə fədakarlıq göstərir. "qana-qan" deyə həlak olmuş qohumlarının intiqamını alırlar.

Qoca Milon kişi də ("Milon ata") bu cür intiqamçılardandır. Düşmən əsgərləri tərəfindən öldürülmüş atası və oğlunun intiqa-

mını aldığını bildirir. Düşmənin özü də bu qocanın cəsarət və bacarığına təəccüb edir.

"Sovaj ana" hekayəsində isə bir ana müharibədə həlak olmuş oğlunun intiqamını alır. Sovaj ananın evində dörd prus əsgəri yaşayırdı. Onlar evin övladları kimi bütün təsərrüfat işlərinə kömək edib qarının rəğbətini qazanmışdılar. Qarının yeganə övladı isə cəbhədə idi. Oğlunun düşmən tərəfindən öldürüldüyünü eşidən ana intiqam almaq məqsədi ilə evinə od vurub orada yatmış əsgərləri diri-diri yandırır. Lakin güllələnməzdən əvvəl Sovaj qarı yanmış əsgərlərin ünvanlarını prusiyalı zabitə verib xahiş edir ki, onların valideynlərinə məktub yazıb bildirsinlər ki, övladlarını qətlə yetirən öldürülmüş yeganə bir övladın anasıdır.

Mopasanın bu hekayəsini oxuyanda adamın ürəyi sıxılır. Hiss edirsən müharibə sadə insanları necə qəddarlaşdırır. Bu hekayə bütün müharibələrə meydan oxuyan bir himn kimi səslənir.

Mopasanın hekayələrinə xas olan süjet qeyri-adiliyi həyəcan hissi və tez-tez təsadüf olunan xoş təbəssüm müharibə mövzulu hekayələrdə də öz qüvvəsini itirmir.

"Duel" hekayəsindəki cənab Dübüi ağır vəziyyətə salınıb yumor hissi ilə təsvir olunan obrazlardandır. O Qatarda lovğa bir düşmən zabiti ilə eyni kupeyə düşür. Həmin kupedə iki ingilis də var. Prus zabiti söhbət edir, cənab Dübüiyə baxa-baxa fransızları söyür, onları necə həbs etməsindən və güllələməsindən danışır, sonra da əlavə edir ki, əgər ixtiyarı olsa Parisi yandırar və bütün fransızları qırardı. Cənub Dübüidən səs çıxmadığını görən zabit ona əmr edir ki, dayanacaqda düşüb ona tütün alsın. Əvəzində cib xərci verəcək. Dübüi yenə dinmir. Nəhayət zabit cənab Dübüinin bığını kəsib onunla qəlyanını qurdalamaq istəyir. Bu yerdə Dübüi rəqibinə macal vermir, onu yumruqlayır. Döyülmüş zabit onu duelə çağırır. Ömründə silah tutmamış Dübüi təsadüfən düşmən zabitini öldürür. Rahat vaqonda səfər edən bu burjua, vətəninin və xalqının ünvanına deyilən təhqiramiz sözlərə dözür, bığının kəsilməsinə isə dözmür. Ölüm-dirim döyüşünə çıxır.

"Sent-Antuan" hekayəsində bir fransız kəndlisi evində yaşayan düşmən əsgərini öldürür. O da vətənpərvərlik hissi ilə yananlardan deyil. Ölkə işğal olunarkən döyüşməmişdir. Evində yaşayan düşmən əsgəriin yaxşı yedirir, onu özü ilə qonaqlıqlara da aparır. Lakin bir dəfə içgi məclisindən evə qayıdarkən gecə yolda sözləri

çəp düşür. Əvvəl prus əsgəri ev sahibini vurur, sonra isə coşmuş fransız kəndlisi prus əsgərini vurub öldürür.

Yenə müharibə dumanı içərisində təsadüfi bir ölüm. Müharibənin ölkəyə gətirdiyi bir əsgər fransız kəndlisi tərəfindən qərəzsiz də olsa öldürülür.

"Sovaj ana" hekayəsində Mopasan obrazlarından biri belə deyir: "…kəndlilərdə vətən düşmənlərinə qarşı kin olmur, bu hiss ancaq yüksək sinif nümayəndələrinə mənsubdur".

Eyni zamanda "Məhbuslar" hekayəsində kəndli qızı Bertinin hərəkəti əsl vətənpərvər hərəkəti kimi təsvir olunub. "Gombul" hekayəsi isə az qala tamamilə yuxarı sinif nümayəndələrinin tənqidinə həsr edilib.

Bu hekayədə Ruan şəhəri yüksək cəmiyyətinin üç nümayəndəsinin alçaq hərəkətəlri təsvir olunub. Onlardan biri şərab alveri ilə varlanmış cənab Luazo, ikincisi Şərəf Legionu zabiti, Baş Məclisin üzvü cənab Karre Lamdon, üçüncüsü isə zadəgan idi, qraf Hübert dö Brevil. "Yüksək cəmiyyətin" bu nümayəndələri yolda ləngiməmək üçün həmyerliləri olan bir qadını düşmən zabitinin qolları arasına atmağa çalışır və məqsədlərinə nail olurlar.

Bu obrazları yaratdığı üçün öz dövründə Mopasana çəpəki baxanlar az olmayıb. 1880-ci il yanvarın 5-də Floberə yazdığı məktubunda Mopasan bildirirdi ki, Ruan burjuylarının alçaqlıqları hələ yumşaq şəkildə təsvir olunub. "Gombul" hekayəsinin də daxil edildiyi "Medan axşamları" adlı kitabı ilə əlaqədar yazılmış həmin məktubda müəllif inandırırdı ki, kitabı tərtib edərkən heç bir qərəzçilik hissinə qapılmamış, müharibənin əsl sifətini göstərməyə çalışmışdır.

Mopasanın müharibə mövzulu hekayələri bizim əsrimizdə də öz tə'sir qüvvəsini itirməmişdir. İkinci dünya müzaribəsində faşist işğalçılarına qarşı vuruşan Fransa müqavimət hərəkatı nümayəndələri həmin hekayələri nəşr edir, düşmən isə onları yığıb yandırırdı. Mopasan faşist işğalçılarına da düşmən kəsilmişdi.

Mopassanın həyat və yaradıçılığına iri həcmli tədqiqat əsərləri həsr edilib, lakin qələm dostu, məşhur fransız yazıçısı Emil Zolyanın 1893-cü ilə iyulun 7-də onun dəfn mərasimindəki ürək yanğısı və səmimiyyətlə dolu çıxışı da Mopassan haqqında geniş mə'lumat almağa imkan verir:

"Mopassanı ilk dəfə on səkkiz-iyirmi il əvəl Qustav Floberin evində görmüşəm. O vaxtkı Mopassan hələ də gözümün qabağın-

dadır… Səmimi, həmişə gülümsəyən, ustadın qarşısında təvazökarlıqla susan bir gənc idi. O, bütün axaşmı bizi dinləyir, təsadüfi hallarda kəlmə kəsirdi. Amma bu ürəyiaçıq, mərd və sağlam görkəmli oğlanda həmişə şənlik və həyat eşqi duyulurdu. Məclisimizə əgtirdiyi təravət üçün onu sevirdik.

Mopassan macəranı sevirdi. Onun macəraları və igidliyi barədə maraqlı söhbətlər yayılmışdı. Heç birimizin ağlına gəlmirdi ki, bir gün o öz yaradıcılığı ilə də bizi heyran qoyacaq.

"Gombul" hekayəsi meydana çıxdı. Bu, onun əsl şah əsəri idi, satira, məhəbbət və həyatla dolu bir əsərdi. Mopassan elə ilk dəfədən dəyərli əsərlə çıxış edib, ustalar sırasına keçdi. Biz çox sevindik, çünki dühasından xəbərsiz olduğumuz, gözlərimiz qarşısında böyümüş bu gənc bizə qardaş oldu. Həmin vaxtdan o, ara vermədən, yaradıcılıqla məşğul olur, bizi heyran qoyan bir həvəslə, inamla, qüvvə ilə yazırdı. Mopassan bir neçə qəzetlə əməkdaşlıq edir və müxtəlif məzmunlu, hamısı da maraqlı nağıllar, hekayələr çap etdirirdi. Onların hərəsi kiçik həcmli yeni bir komediya, məzmunca dolğun həcmcə kiçik bir pyes, həyata geniş pəncərə açan əsərlər idi. Onları oxuyarkən adam gülür, ağlayır və düşünür. Mopassanın xırda həcmli elə əsərləri var ki, oradakı mövzunu daşqa yazıçılar qalın cildli bir kitaba zorla sığışdıra bilərdi. Misal gətirmək istəsək, gərək bütün əsərlərin adını çəkək. Məgər bu əsərlərin bə'zləri Fontenin təmsili, yaxud Volterin nağılı kimi klassik əsərlər sayılmırmı?

Onu yalnız hekayə ustası kimi tanıyanlara cavab vermək üçün Mopassan yaradıcılıq sahəsini genişləndirdi. Özünəməxsus enerji və dönməz iradə ilə işləyib gözəl romanlar yazdı. Bu əsərlərdə onun yazıçılıq qabiliyyəti daha qabarıq və həyat eşqi ilə cilalanmış şəkildə özünü göstərdi. Ona ilham gəlmişdi. Gözəl və canlı əsərlər yaratmağa sövq edən yazıçı ilhamı.

"Həyat"dan başlanan "Bizim qəlbimiz"ə qədər yazdığı romanlarda — "Gözəl dost", "Telye evi". "Ölüm kimi güclü" romanlarının hamısında həyat həqiqəti güclü və adi gözlə görünəndir. Bu romanlarda hadisələr inandırıcı şəkildə təhlil edilir, fikir sadə dillə söylənilir. Yazıçı ləyaqəti və mərdliyi adamı heyran edir. "Pyer və Jan" romanını xüsusi qeyd etmək istəyirəm. Məncə, bu, bir gözəllik nümunəsi, bədii naxış, həyat həqiqəti ilə dolu, tayı-bərabəri olmayan bir əsərdir. Bizi — Mopassanı sevə-sevə izləyənləri təəccübləndirən məsələ onun ürəkləri belə tez fəth etməsi idi. O,

hər yeni yazı ilə oxucu kütləsini özünə cəlb edirdi. Mən belə bir xoşbəxt başlanğıc, belə tez və yekdil qazanılmış ikinci bir müvəffəqiyyət tanımıram. O nə yazırdısa, alqışlanırdı. Başqasının qələmində həmin yazılar ancaq təbəssüms doğura bilərdi.

O müxtəlif düşüncəli adamları qane edir. Hər cür hissiyyata toxuna bilirdi. Bircə çıxışla adamları heyran edən, tanınmış sənətkarların şöhrətlənməsinə xəsisliklə imkan verən ziyalıların da, adi kütlənin də rəğbətini qazanmış mərd və iradəli bir dahinin ucalmasını qeyri-adi bir tamaşa kimi izləyirdik.

Mopassanın dahiliyi onun qeyri-adiliyindən irəli gəlirdi. Mlpassan ona görə ilk addımdan sevilmiş və tanınmışdı ki, ədəbiyyata dəyəri və keyfiyyətinə görə millətin fəxri sayılan fransız ürəyi gətirmişdi. Onu hamı başa düşürdü, çünki o, aydınlıq, sadəlik və güclülük kimi xüsusiyyətləri özündə toplamışdı... Onu sevirdilər, çünki o, gözəlliyə, böyük məharətlə yumşaldılmış dərin satiraya və göz yaşları altında gizlənmiş zərif yumora malik idi. O, dilimizin yeni təşəkkül dövründən indiyə qədərki ali irqin nümayəndəsidir. Onun babaları ədəbiyyatımızın baniləri və işığı olan Rable, Monten, Molyer, La Fonten kimi güclülər və çıraqbanlar idi. Oxucular, pərəstişkarlar yanılmırdılar, onların ruhi ehtiyaclarının izi gəlib bu şəffaf sərin çeşməyə, bu gözəlliyə üslub bolluğuna müraciət edirdilər. Oxucular əsərlərinin aydınlığı ilə onlara müvazinət və inam bağışlamış bədbin, yazıçıya minnətdar idilər.

Aydınlıq! Bu elə bir çeşmədir ki, istərdim bütün nəsillər öz ürək yanğılarını onun sərin suyu ilə söndürsünlər. Mən Mopassanı çox sevirdim, çünki onun damarlarında ulu babalarımızın qanı axırdı, həm də o, böyük ədəbiyyatın nümayəndəsi idi. İncəsənətə hədd qoymaq olmaz: qarışıq, zəif, qaranlıq əsərləri də qəbul etmək lazımdır. Zənnimcə, onlar müəyyən bir dövrdə, qarışıq, hay-küylü bir dövrdə yaşaya bilirlər... hər halda insanın əsas yeməyi olan, bizi heç vaxt zara gətirməyən çörəyə müraciət etdiyimiz kimi, ədəbiyyatda da adi, anlaşılan əsərlərə müraciət etməli oluruq. Elə gözəllik də, sağlamlıq da, sadəlik də hamının sevdiyi şəffaflıqdadır. Yəqin bizim sevə-sevə oxuduğumuz əsərləri yazarkən Mopassan çox əmək sərf edib, yorulub. Əgər bu yorğunluq oxuda duyulmursa, əsərdən qəlbimizə gözəllik axırsa, ondan qüvvə alırıqsa, deməli, sərf edilən əmək özünü doğruldub. Mopassanın əsərini oxuyub başa vuranda adam təmiz havada gəzintidən qayıdıbmış kimi, özünü şən və gümrah hiss edir".

Gi dö Mopasan

QƏBİRBAZLAR

Beş dost təzəcə nahar edib qurtarmışdılar. Onların beşi də yüksək cəmiyyətə mənsub, varlı adamlardı; üçü evlənmişdi, ikisi isə hələ subay idi. Dostlar hər ay görüşür, gənclik illərini yadlarına salırdılar. Nahardan sonra gecə saat ikiyə qədər söhbət edirdilər. Onlar əvvəlki kimi səmimi idilər, birlikdə vaxtları xoş keçirdi, bir yerə toplaşdıqları axşamları ömürlərinin ən yaxşı çağı hesab edirdilər. Hər şeydən danışırdılar, parisliləri maraqlandıran, əyləndirən hər şeydən.

Bütün başqa salonların əksəriyyətində olduğu kimi onlar da səhər qəzetlərindəki yazılardan başlayıb söhbəti uzadırdılar.

— Onların arasında ən məzəlisi Jozef dö Bardon idi. O subaydı. Sözün əsil mənasında parisli idi, macəranı sevirdi. Jozefə əxlaqsız, pozğun demək olmazdı, özü elə belə həvəskar idi, şənliyi sevirdi, hələ cavandı, qırx yaşı ancaq olardı.

O, əsil cəmiyyət adamı idi, xeyirxahlıqda tayı-bərabəri olmazdı, dahi olmasa da ağıllı idi, çox dərin biliyi olmasa da, hər sahədən mə'lumatı vardı, arif adam olmasa da çox şeyi duyurdu. O gördüyü, eşitdiyi, şahidi olduğu hadisələri, öz macəralarını məzəli, bəzən də fəlsəfi roman dili ilə danışırdı, bütün şəhərdə ağıllı bir adam kimi şöhrət qazanmışdı.

Bütün məclislərdə masabəyi o idi. Hər dəfə yeni bir əhvalat danışmalı idi, buna hamı öyrəşmişdi. Ətrafındakıların xahişini gözləmədən özü danışmağa başlayırdı.

Harada olsa özünü öz evində hiss edirdi. Masaya dirsəklənir, rahat-rahat papiros çəkirdi. Boşqabının yanında yarımçıq şampan bakalı olurdu, papiros tüstüsü və ətirli kofe məclislərində özünü sərbəst aparırdı. Bə'zi adamlar öz evlərində, dindar mə'bəddə, balıq suda olduğu kimi özlərini sərbəst aparırlar, o isə hər yerdə srəbəst idi.

Jozef tüstü qullablarına ara verib dedi:

— Bir az əvvəl başıma qəribə bir macəra gəlib. Az qala hamı bir səslə dedi:

— Danışın!

— Məmnuniyyətlə. Bilirsiniz ki, mən Parisdəə çox gəzirəm, bəzək-düzək həvəskarları, vitrinləri gəzən kimi mən də bütün günü

tamaşalara, adamlara, yoldan keçənlərə, baş verən hadisələrə baxıram.

Sentyabrın ortalarıda hava çox yaxşı idi. Bir gün günortadan sonra evdən çıxdım, heç özüm də bilmirdim hara getməliyəm. Adam həmişə fikrində saxlayır ki, qəşəng qadınlardan birinə baş çəkmək olar. Fikirləşirsən, xəyalən onları müqayisə edirsən, hansının daha çox cəlb elədiyini, hansının daha yaraşıqlı olduğunu götür-qoy edirsən, axırda gününün necə keçməsindən asılı olaraq bir qərara gəlirsən. Amma gün günəşli, hava isti olanda çox vaxt adam heç kəsə qonaq getmək istəmir.

Gün çıxmışdı, hava da isti idi. Damağıma bir siqar qoyub avara-avara çöl bulvarda gəzinirdim. Sonra ağlıma gəldi ki, gəzə-gəzə gedim Monmartr qəbiristanlığına, bir az da orada gəzinim.

Qəbiristanlıqdan xoşum gəlir, orada istirahət edirəm. Melanxolik bir əhval-ruhiyyədə oluram — buna ehtiyacım var. Həm də qəbirsanlıqda gözəl dostlarımız var, onları daha görə bilmirik, hərdən onlara baş çəkirəm.

Monmartr qəbiristanlığında bir məhəbbətim: məni çox incitmiş, çox narahat etmiş bir mə'şuqəm var. Xırdaca, gözəl bir qadındı, onun xatirəsi mənə əzab verir, çox təəssüf edirəm… ürəkdən təəssüflənirəm… Gedib qəbrin önündə xəyala dalıram. Özü daha yoxdur.

Qəbiristanlıqları həm də ona görə sevirəm ki, onlar əcaib bir həyatla yaşayan, tükürpədən şəhərlərdir. Bircə fikir verin, bu balaca yerdə nə qədər ölü var, Parisin hər nəslinin nümayəndələrinə rast gələrsən. Hamısı öz kahalarında həmişəlik gizlənibələr. Hərəsinin üzərində daş parçası yaxud xaç qoyulub, daha heç nə istəmirlər. Amma sağ qalmış səfehlər görün nə qədər yer tutublar, yenə gözləri doymur.

Qəbiristanlıqlarda muzey əşyaları qədər maraqlı abidələr var. Kavenyakın qəbrini görəndə xəyala dalıram, sözün doğrusu, mən onu hələ Jan Qujonun şah əsərilə — Lui dö Brezenin Ruan kilsəsinin yeraltı məbədində qoyulmuş "cəsədi" ilə müqaisə etmirəm. İndi modern və realist adlandırdığımız incəsənət əsərlərinin hamısı onların əsasında yaranır, cənablar. Hazırda qəbirlər üzərinə həkk olunan əkslərin ən oxşarı, ən dəhşətlisi can verən, ölən bir insana daha çox oxşayanı Lui dö Brezenin abidəsidir. Monmartr qəbiristanlığında Bodənin heykəlinə baxanda adam heyran qalır, böyük heykəldir: Qotyenin də Mürjenin də heykəlləri gözəldir. Keçən dəfə

Mürjenin abidəsi önündə ucuz, tünd sarı rəngli bir əklil vardı, görəsən kim gətiribmiş? Bəlkə buralarda yaşayan, əldən düşmüş xidmətçi qarılardan biri onu yad edib? Bu gözəl heykəli Mile işləyib. Amma baxımsızlıqdan korlanır, çirk içərisindədir. Gəncliyə mahnılar de, Mürje!

Mən Monmartr qəbiristanlığına girdim. Qüssəyə qərq oldum, elə bir qüssəyə ki, əzab vermir, əhvalı yaxşı olanda adamda belə bir fikir oyadır:

"Bura pis yer deyil, amma hələ vaxtım çatmayıb…"

Payızın gəldiyini, yarpaqların öldüyünü, günəşin zəiflədiyini, yorulduğunu, saraldığını xəbər verən nəm, ilıq hava, tənhalıq hissinə, insan ölümünün abidəsi olan bu sükuta şairanə bir boya çəkir.

Mən xırda addımlarla qəbiristanlıq küçələrində gəzinirdim. Burada qonşular qonşuluq etmirlər, tək yatırlar, qəzet də oxumurlar. Qəbirlərin üzərindəki yazıları oxumağa başladım. Dünyada bundan maraqlı nə var ki?

Heç vaxt Labiş, yaxud Meyaq məni qəbir yazılarını oxuyarkən güldüyüm qədər güldürməyiblər. Mərmər lövhəciklərin və xaçların üzərindəki bu yazılar Pol dö Kokun əsərlərindən də məzəlidir. Ölənlərin qohumları burada öz qüssələrini, itirilmiş adam üçün xoş arzularını həkk ediblər, hətta ölüb onlara qovuşmağı da arzulayıblar — yalançılar!

Bu qəbiristanlığın iri sərv ağacları və qaraçöhrələrlə dolu, yaddan çıxmış, köhnə hissəsindən daha çox xoşum gəlir. Bura köhnə ölülərin köhnə məhəlləsidir, az sonra təzə məhəlləyə çevriləcək; insan cəsədlərindən şirə çəkib, böyümüş ağaclar qırılacaq, yerində üzəri mərmər lövhəcikli yeni qəbirlər salınacaq.

Fikrimi dağıtmaq üçün gəzindiyim vaxt anladım ki, darıxacağam; gərək balaca rəfiqəmin qəbrinə baş çəkəm, ona öz e'tibarımı bildirəm. Qəbrin yanına çatanda ürəyim bir az sıxılırdı. Mənim zavallı sevgilim, o elə gözəl, elə mehriban, ələ ağ, elə təravətli idi ki … bəs indi … qəbiri açsaq görərsən ki…

Dəmir çərçivəyə söykənib lap astadan ona öz dərdimi söylədim, şübhə yox ki, heç nə eşitmədi. Aralanıb getmək istəyəndə qonşu qəbrin önündə diz çökmüş qara paltarlı, yasa batmış bir qadın gördüm. Onun zərif şalının arasından gözəl ağ sifəti görünürdü. Qara örtüyün altında sarışın saçları zərif günəş şüaları kimi işıq saçırdı. Mən dayandım.

Yəqin bu qadının dərdi dözülməz idi. Üzünü əllərilə örtüb heykəl kimi doğub qalmışdı. Gözlərinə çökmüş qaranlıq onu dərd aləminə, xatirələr dünyasına aparmışdı, elə bil ölmüş əzizinin dərdindən özü də ölmüşdü. Sonra duydum ki, o ağlamağa başlayır, çiyinləri həzin-həzin silkələnirdi.

Əvvəlcə astadan ağlayırdı, sonra boynunu və çiyinlərini əsdirə-əsdirə ucadan ağladı. Birdən gözlərini açdı, göz yaşlarının arasından kürkək baxışlarla ətrafına nəzər saldı, elə bil qorxulu bir yuxudan ayılmışdı. Mənim ona baxdığımı görüb azacıq utandı, yenidən üzünü əllərilə örtdü. Hönkürtüləri süstləşdi, başı yavaş-yavaş qəbrə tərəf əyildi. Alnını qəbrə söykədi, şalı əziz qəbrin ağ küncləri örtdü. O inildəyirdi. Sonra taqətsizləşdi, üzünü qəbrə söykəyib süst qaldı, huşunu itirdi.

Mən ona tərəf qaçdım, əllərini əlimə alıb döyəclədim, göz qapaqlarını üfürdüm ki, ayılsın. Eyni zamanda qəbrin üzərindəki yazını oxuyurdum. Yazı çox sadə idi: "Burada dəniz piyada qoşunu kapitanı Lui-Teodor Korrel dəfn edilib. Tonkində düşmən tərəfindən öldürülüb. Ona dua oxuyun".

Mərhum bir neçə ay əvvəl ölübmüş. Gözlərim yaşardı, qadını ayıltmaq üçün daha ciddi cəhd göstərdim. Məqsədimə nail oldum, o ayıldı. Mən bərk həyəcanlanmışdım, özünüz bilirsiniz ki, pis adam deyiləm, özüm də cavanam, heç qırx yaşım yoxdur. Onun ilk baxışından anladım ki, nəzakətli qadındır, mənə təşəkkür edəcək. Belə də oldu. Gözləri yenidən yaşla doldu, hıçqıra-hıçqıra mənə öz taleyindən və zabitin Tonkində həlak olmasından danışdı. Evləndikləri gündən bircə il keçibmiş, əri onu sevib evlənibmiş, qadın atadan da, anadan da yetim imiş, çehizi çox deyilmiş.

Mən onu ovundurdum, ürək-dirək verdim, qolundan tutub ayağa qaldırdım. Sonra dedim:

— Burada qalmayın, gedək.

O mızıldadı:

— Getməyə halım qalmayıb.

— Mən sizə kömək edərəm.

— Sağ olun, cənab, xeyirxah adamsınız. Siz də qəbir üstünə gəlmisiniz?

— Bəli xanım.

— Qadındır?

— Bəli, xanım.

— Arvadınızdır?

— Rəfiqəmdir.

— Adam rəfiqəsini də arvadı qədər sevə bilər, ehtirasın hüdudu yoxdur.

— Elədir, xanım.

Biz birlikdə yola düşdük, o mənə söykənmişdi. Mən də onu elə tutmuşdum ki, az qala ayaqları yerdən üzülürdü. Qəbiristanlıqdan çıxanda zəif səslə dilləndi:

— Qorxuram əhvalım pisləşə.

— Bəlkə kafelərdən birinə girək, bir şey içmək istəyirsinizmi?

— Bəli, cənab.

Yaxınlıqda gözümə bir restoran dəydi, belə restoranlarda mərhumların dostları mərasimlərin sona çatmasını bayram edirlər. Restorana daxil olduq. Mən ona bir stəkan qaynar çay içirtdim, deyəsən əhvalı yaxşılaşdı. Dodaqlarında azacıq sezilən bir təbəssüm oyandı. Sonra mənə özü barədə danışmağa başladı. Deyirdi ki, həyatda tənha olmaq, gecə də, gündüz də evdə tək qalmaq daha heç kəsə məhrəm olmamaq, mehribanlıq görməmək adama əzab verir, adam qüssədən boğulur.

Səmimi söhbətə oxşayırdı. O gözəl danışırdı. Mən heyran olmuşdum. Qadın çox gənc idi, iyirmi yaşı ancaq olardı. Mən onu tə'rifləyib xoş sözlər dedim, razılıqla təşəkkür elədi. Vaxt keçirdi, təklif elədim ki, onu faytonla evlərinə aparım. Razı oldu. Faytonda elə sıx oturmuşduq ki, çiyinlərimiz bir-birindən ayrılmırdı, bədənlərimizin hərarəti, paltarlarımızdan süzülüb qarışırdı. Dünyada bundan tə'sirli nə var ki!

Fayton evə çatanda o zəif səslə dedi:

— Pilləkəni tək qalxmağa halım qalmayıb, özü də dördüncü mərtəbədə oluram. Siz mənə çox yaxşılıq eləmişsiniz, bəlkə mənzilimə qalxınca mənə kömək edəsiniz?

Mən tələsik razılaşdım. O yavaş-yavaş qalxırdı, tövşüyürdü. Qapının qabağına çatanda mənə dedi:

— Keçin bir az əyləşin, nəfəsimi dərib sizə təşəkkür eləmək istəyirəm.

Lə'nət şeytana, keçdim içəri. Onun mənzili yaxşı idi, bir az kasıb görünürdü, amma səliqəsinə söz ola bilməzdi.

Biz balaca bir divanın üstündə yanaşı oturduq, o yenə öz tənhalığından danışmağa başladı.

Zəng çalıb xidmətçisini çağırdı ki, mənə içmək üçün bir şey gətirsin. Xidmətçi görünmədi. Mən hiss elədim ki, onun xidmətçisi

yalnız səhərlər evdə olur, sevindim. Belə xidmətçilər ancaq ev-eşiyi yığışdırır, bazarlıq edir, sonra çıxıb gedirlər.

O, şlyapasını çıxartdı. Mavi gözlərini mənə zilləyəndə gördüm ki, o doğrudan da gözəldir, özü də elə yaxşı baxırdı ki, məndə dəhşətli bir arzu oyandı, özümü arzuma təslim etdim. Onu qollarım arasına aldım, qəfildən yumulmuş gözlərindən öpməyə başladım … öpdüm … Çox öpdüm … o qədər öpdüm ki, gəl görəsən.

O müqavimət göstərir, məni itələmək istəyir və tez-tez deyirdi:

— Qurtarın görək… qurtarın… yaxşı, qurtarın.

Görəsən o nə demək istəyirdi? Belə hallarda "qurtarmaq" sözünün heç olmasa iki mə'nası olur. Onu susdurmaq üçün gözlərindən əl çəkib dodaqlarından öpdüm, beləliklə "qurtarmaq" sözünə özüm istədiyim mə'nanı verdim. O çox müqavimət göstərmədi. Tonkində öldürülmüş kapitanın xatirəsini təhqir eləyəndən sonra bir-birimizə baxanda onun baxışında yorğunluq, eyni zamanda dözüm və mülayimlik gördüm, narahatlığım yoxa çıxdı.

Mən də alicənab, iltifatlı və mehriban olmağa çalışdım. Bir saata yaxın söhbət eləyəndən sonra soruşdum:

— Siz harada nahar edirsiniz?

— Yaxınlıqdakı balaca bir restoranda

— Tək?

— Əlbəttə.

— Bəlkə mənimlə nahar edəsiniz?

— Harada?

— Bulvardakı yaxşı retsoranların birində.

O bir az tərəddüd elədi. Mən əl çəkmədim. Axırda: — Mən yaman darıxıram … çox darıxıram, deyə özünə haqq qazandırıb güzəştə getdi. Sonra əlavə elədi: — "Gərək elə don geyəm ki, tünd qara olmasın".

O yataq otağına keçdi.

Otaqdan çıxanda görkəmi dəyişmişdi, zərifliyi gözə çarpırdı, boz rəngli sadə paltar geymişdi. Bu paltarla həm qəbiristanlıqda həm də şəhərdə görünmək olardı.

Nahar yaxşı keçdi. O şampan içdi, qızardı, cana gəldi, sonra birlikdə onun evinə qayıtdıq.

Qəbirlər üzərində yaranmış bu əlaqə üç həftəyə qədər davam elədi. Amma hər şey adamı təngə gətirir, əlalxüsus qadınlar.

Mən səfərə çıxmağımı bəhanə gətirib ondan ayrıldım. Alicənablıqla ayrıldım. Əvəzində mənə çoxlu təşəkkür elədi. Məndən və'də

aldı, and içdirdi ki, qayıdanda onun yanına gələcəyəm; deyəsən doğrudan da mənə bir az mehr salmışdı.

Başqa qadınlarla eşqbazlıq elədim, az qala bir ay, qəbiristanlıqda düçar olduğum məhəbbətin səbəbkarını görmədim, görmək həvəsinə düşmədim də. Amma onu unutmurdum… Onun fikri qəribə bir sirr, psixoloji problem, cavabsız bir tapmaca kimi məni məşğul edirdi.

Günlərin birində, bilmirəm nədənsə fikirləşdim ki, Monmartr qəbiristanlığına getsəm onu görərəm. Getdim.

Qəbiristanlıqda çox gəzindim, öz ölüləri ilə əlaqələri hələ tamam kəsməmiş bir neçə adamdan başqa heç kəsə rast gəlmədim. Tonkində öldürülmüş kapitanın qəbri üzərində nə ağlayan vardı, nə çiçək dəstəsi, nə də əklil görünürdü.

Ölülərin bu böyük şəhərinin başqa bir məhəlləsinə gedib çıxdım, qəfildən gördüm ki, irəlidəki səki ilə ağır yasa batmış cüt adam gəlir: bir kişi, bir qadın. Aman allah! Onlar yaxınlaşanda mən qadını tanıdım. Bu həmən qadın idi!

O məni gördü, qızardı, yaxından keçəndə azacıq toxundum, o isə mənə asta bir işarə elədi. Gözucu bir göz vurdu.

Mə'nası təxminən belə idi: "Məni tanımayın", eyni zamanda ikinci bir mə'na da duyulurdu: "Yenə bizə gəlin, əzizim".

Kişi görkəmli adama oxşayırdı. Şax qaməti vardı. Fəxri legionun zabiti idi, əlli yaşı olardı.

Qadın ona söykənmişdi, eyniylə qəbiristanlıqdan çıxarkən mənə söykəndiyi kimi.

Gedirdim, amma ağlım başımdan çıxmışdı, özüm-özümdən nələr gördüyümü, bu qəbiristanlıq ovçusunun hansı nəslə mənsub olduğunu soruşurdum. Görəsən adi bir qızdımı, yoxsa, arvadının yaxud mə'şuqəsinin mehribanlığından məhrum olmuş qəmgin kişiləri qəbirlər üzərində ovlamağa adət eləmiş bir fahişədir? Görəsən o təkdir? Yoxsa bələləri çoxdur? Bəlkə bu da bir peşədir? Bəlkə məhşur səkilərdə gəzən qadınların qəbiristanlıqlarda gəzənləri də var? Qəbirbazlar! Bəlkə qəbir üstündə yada salınan ehtiras qığılcımlarından istifadə etmək fikri, bu dərin fəlsəfə tək onun ağlına gəlib?

Fikirləşirəm ki, görəsən həmin gün o kimin dul qadını sayılırmış?

Gi dö Mopasan

KƏNDƏ SƏFƏR

Beş aydan bəri Düfurlar ailəsi xanım Düfur Petrolinin ad günündə Paris ətrafındakı mənzərəli yerlərdən birində nahar etməyi qərara almışdı. Səfəri çoxdan, səbirsizliklə gözləyirdilər, tə'yin olunmuş günün səhəri hamı erkən qalxmışdı.

Cənab Düfur süd satanın arabasını kirayə götürmüşdü, özü sürürdü. Araba iki təkərli idi, tərtəmizdi. Üst örtüyü dörd dəmir dayağın üzərinə bərkidilmişdi, yanları pərdəli idi, amma pərdələri yığmışdılar ki, ətraf yaxşı görünsün. Təkcə arxa tərəfin pərdəsi yığılmamışdı. Bayraq kimi yellənirdi.

Arvad ərinin yanında oturmuşdu, qırmızımtıl ipək don geymişdi, gözləri gülürdü. Arxada iki kətilin üstündə qoca nənə və gənc bir qız oturmuşdu. Ortada sarı bir oğlan başı da görünürdü. Kətil olmadığından o, arabanın oortasında qıçlarını qatlayıb oturmuşdu, təkcə başı görünürdü.

Şan-Elize prospekti ilə gedib, Mayyo qapısını keçəndən sonra ətrafı tamaşa eləməyə başladılar.

Nöyi körpüsünə çatanda cənab Düfur dilləndi:

— Axır ki, kənd yerinə çatdıq.

Onun bu xəbərdarlığından sonra arvadı məmnun-məmnun təbiətə tamaşa eləməyə qurşandı.

Kurbövüa meydanında getdikcə genişlənən üfüqi görüb sevindilər. Orada, sağda zəng qülləsi ucalan Arjantöy qəsəbəsi, yuxarı tərəfdə Sanua təpələri və Mulen d'Orjemon görünürdü. Solda Marli su kəməri səhər günəşinin işığında bərq vururdu. Uzaqdan Sen Jermen təpəsi gözə çarpırdı. Qarşıdakı şumlanmış torpaqlardan bilinirdi ki, Yeni Korley qalası yaxınlıqdadır. Lap uzaqda, kəndlərin və tarlaların arxasında dumana bürünmüş bir yaşıllıq, meşə görünürdü.

Günəş yandırmağa başlayırdı, toz qaxıb arabadakıların gözünə dolurdu. Yol, çılpaq, çirkli və üfunətli bir kəndin ortasından keçirdi. Kəndə elə bil cüzam düşmüşdü, evləri də çürüdüb dağıtmışdı. Hər tərəfdə tərk edilmiş, dağıdılmış evlərin qəfəsəsi, yaxud pulsuzluq üzündən tikliib başa çatdırılmamış daxmaların çılpaq, damsız divarları görünürdü.

Hərdən uzaqlarda, çöldə uca fabrik bacaları gözə çarpırdı, elə bil onlar bu çürük torpağın yeganə bitkiləri idi. Burada bahar küləyi neftin, müxtflif süxurların iyini başqa, daha murdar bir iyə qarışdırıb ətrafa yayırdı.

Nəhayət, Sena çayını ikinci dəfə keçdilər, körpünün üstündə hamı çayın gözəlliyinə tamaşa edirdi. Çay günəş şüalarının altında bərq vururdu, sanki su buxarlanıb çayın üzərində seyrək bir duman əmələ gətirmişdi. Adam ləzzzət alırdı, hava təmiz idi. Havaya nə zavodların tüstüsü, nə də zibilliklərdən gələn üfunət qarışmışdı.

Yol keçənlərin birindən bu yerin anını soruşdular, dedi ki, bura Bezondur.

Cənab Düfur arabanı saxladlı, yeməkxananın üstündəki qarışıq yazını oxudu: "Pulen restoranı. Xörəklər balıqdan və ətdən hazırlanmışdır, istirahət otaqları, bağça və yelləncəklər".

— Hə, necədir? Düfur xanım, xoşuna gəlirmi? Bir qərara gələcəksən, ya yox?

Yazını arvad da oxudu: "Pulən restoranı. Xörəklər balıqdan və ətdən hazırlanmışdır. İstirahət otaqları, bağça və yelləncəklər". Xanım xeyli dayanıb evə baxdı.

Ev yol kənarında tikilmiş kənd meyxanası idi, yaxşı ağardılmışdı. Açıq qapıdan bufetin tənəkə haşiyəsi görünürdü, bufetin qarşısında iki fəhlə baş-başa verib vaxtlarını keçirirdilər.

Nəhayət, xanım Düfur qərara gəldi:

— Hə, bura yaxşıdır, — dedi, — tamaşa eləməli mənzərə də var.

Arabanı meyxananın arxasandakı, geniş bağa sürdülər. Bağ, Sena çayına qədər uzanırdı. Hər tərəfi iri ağaclar örtmüşdü.

Arabadan tökülüşdülər. Ər əvvəlcə düşdü, əllərini irəli uzadıb, arvadını qucağına alıb düşürmək istədi. Amma dəmir qoldan asılmış ayaqlıq çox hündürdə idi, xanım Düfur ərinin qolları arasına düşmək üçün bir qıçını sallamalı oldu, qıçının yuxarıları da göründü, incəlikdən nişanə qalmamışdı, budu köklükdən qat-qat idi.

Kənd havasından bir az cuşə gəlmiş cənab Düfur, arvadından bir çimdik aldı, sonra onu ağır bir bağlama kimi güc-bəla ilə götürüb yerə qoydu.

Arvad ipək donunun tozunu təmizlimək üçün üst-başını çırpdı, sonra yan-yörəyə tamaşa eləməyə başladı.

Xanımın otuz altı yaşı olardı, kök idi, pis deyildi, üzdən xoşa gəlirdi. Korset belini elə möhkəm sıxırdı ki, təngənəfəs olurdu. Sinəsinin yumşaq əti sıxılıb yuxarıya lap buxağına qədər qalxmışdı.

Qız əlini atasının çiyninə qoyub heç kəsin köməyini gözləmədən çevikliklə yerə atıldı. Sarısaç oğlan ayaqlarını arabanın təkərinə qoyub yerə düşdü. Sonra o, nənəni düşürməkdə cənab Düfura kömək elədi.

Atı arabadan açıb bir ağaca bağladılar. Arabanın qolları yerə dirəndi, arxası yuxarı qalxdı. Kişilər pencəklərini çıxarıb əllərini bir vedrə suda yudular, sonra yelləncəklərdə əyləşmiş arvadların yanına qayıtdılar.

Xanım qız Düfur yelləncəkdə tək ayaq üstə durub yellənmək istəyirdi, amma təkan vura bilmirdi. O, on səkkiz, iyirmi yaşlarında gözəl bir qızdı. Belə qadınlara yolda rast gələndə adamın ürəyi çırpınır, gecə yarıya qədər qəribə bir hisslə yaşayırsan, unuda bilmirsən. Boyu uca, beli incə, sağrısı enli idi. Dərisi çəhrayı, gözləri iri, saçı qara idi. Bədəninin ətli olmasını donu büruzə verirdi. Hər dəfə yelləncəyə təkan verəndə budları daha çox nəzərə çarpırdı.

O, yelləncəyin ipindən bərk-bərk yapışmışdı, sinəsini dik tutmuşdu, təkan vuranda da əsmirdi. Şlyapasını külək qaldırıb arxaya atmışdı, yelləncək yavaş-yavaş işə düşmüşdü. Hər dəfə qalxanda yaraşıqlı qıçları dizə qədər görünürdü, paltarının ətri gülə-gülə ona baxan kişilərin burnuna vururdu. Bu onlara şərab iyi kimi ləzzət verirdi.

Xanım Düfur başqa bir yelləncəkdə oturub incik səslə çağırırdı:

— Sipryən, gəl məni itələ, gəl məni yellə Sipryən! Axır ki, kişi arvadına tərəf getdi, ağır bir işə hazırlaşırmış kimi, köynəyinin qolunu çirmələdi, sonra güc-bəla ilə arvadını yelləməyə başladı.

Xanım kəndirdən bərk-bərk yapışmışdı, ayaqlarını irəliyə uzatmışdı ki, yerə toxunmasın. Yelləndikcə vəcdə gəlirdi. Hər təkanda bədəni, donmuş baş-ayaq suyu kimi, titrəyirdi. Yelləncək yuxarı qalxdıqca xanım Həyacanlanır və qorxurdu. Hər dəfə enəndə bərkdən qışqırırdı. Axırda kəndin uşaqları qaçıb tamaşaya gəldilər. Xanım aşağıda üz-gözlərini qırışdırıb hırıldaşan bir dəstə uşaq gördü.

Xidmətçi qadın gəldi. Onlar nahar sifariş elədilər.

— Çay balığı, dovşan əti, salat, bir də desert, — deyə xanım əda ilə dilləndi.

— İki litr süfrə şərabı və bir şüşə də Bordo şərabı gətirin, — deyə əri içki sifariş elədi.

Qız da əlavə etdi:

— Biz çəmənlikdə nahar edəcəyik.

Qarı isə həyətin pişiyinə vurulmuşdu, onu cürbəcür şirin sözlərlə oxşayıb yanına çağırırdı. Pişik bu mehribanlıqdan xoşhallansa da, çox yaxına gəlmirdi, qarının yan-yörəsində dolanır, ağacların başına fırlanır, quyruğunu dik qaldırır, ağaca sürtünüb qaşınır, ləzzət alır, astaca xoruldayırdı.

Yerdə oturmuş sarısaç oğlan qəfildən qışqırdı:

— Bir ora baxın, görün nə gözəl qayıqlardır!

Qayıqlara baxmağa getdilər. Balaca çardağın altında iki qəşəng qayıq asılmışdı. Qayıqlar zövqlə düzəldilmişdilər, yanaşı durmuş bir cüt ucaboy qıza oxşayırdı: uzun ensiz və yaraşıqlı idilər. Onlara baxanda gözəl axşamçağında yaxud yay səhərində suda üzmək, çiçəyə qərq olmuş sahil boyu, suya sallanan budaqların arası ilə, mavi ox kimi uçan su quşlarının arxasınca üzmək istəyirsən.

Bütün ailə həsədlə qayıqlara baxırdı. Cənab Düfur onları tə'riflədi:

— Hə, bax, bunlara qayıq deyərəm.

O, qayıqları usta gözü ilə yoxlayırdı. Deyridi ki, cavanlığında o da qayıq sürürmüş. Avarları göstərib lovğalanırdı ki, avarı əlinə aldımı, qurtardı, heç kəs onunla bacarmazmış. Əvvəllər Jüənvildə neçə-neçə ingilisi yarı yolda qoyubmuş. Sonra o, avarlar bərkidilən çıxıntıları göstərib, onların "dama" adlandırıldığını söylədi, dedi ki, qayıqçılar "dama"ları hər ehtimala qarşı özləri ilə gəzdirirdilər. O danışdıqca özündən çıxır, yanındakılarla mərc gəlmək istəiyrdi ki, belə bir qayıqla tələsmədən saat da altı lye[2] üzə bilər.

— Yemək hazırdır, — deyə xidmətçi qadın çardağın altındakıları xəbərdar elədi.

Onlar həyətə tələsdilər. Xanım Düfurun xəyalən seçdiyi ən gözəl yerdə iki nəfər gənc oturub nahar edirdi. Onlar dənizçi köynəyi geymişdilər, yə'qin qayıqların sahibləri idilər.

Oğlanlar alçaq stulların üstündə yayxanmışdılар. Üzləri gündən qaralmışdı, əyinlərində nazik mayka vardı. Çılpaq qolları dəmirçi qolu kimi əzələli idi. Onlar canlı idilər. Ancaq hər hərəkətlərində

[2] Лйе — Франсада тягрибян 4,5 км-я бярабяр гядим узунлуг юлчцсцдцр (тяръцмяси).

incəlik vardı. Hiss olunurdu ki, idmançıdırlar, əzələləri ağır və yeaknəsəq əməkdən yaranmış fəhlə əzələsinə oxşamırdı.

Onlar xanımı görəndə bir-birinə baxıb gülümsədilər, qızı görəndə isə biri dedi:

— Gəl, yerimizi onlara verək, tanışlıq üçün imkan yaranar.

O birisi həmin dəqiqə yarıqırmızı, yarıqara papağını əlinə alıb ayağa qalxdı və bağda gün dəyməyən bu yeganə yeri qadınlara təklif elədi. Qadınlan uzun-uzadı təşəkkürdən sonra təklifi qəbul elədilər, kəndi daha yaxından duymaq üçün çəmənlikdə oturdular, nə masa istədilər, nə də stul.

Oğlanlar qablarını bir kənara aparıb, naharı başa vurdular, Onların tez-tez gözə çarpdırdıqları çılpaq qolları gənc qızı bir az narahat edirdi. O, üzünü yana çevirir, özünü görməməzliyə vururdu. Xanım Düfur isə gözüaçıqlıq eləyirdi, maraqla, bəlkə də həsədlə tez-tez çevrilib onlara baxırdı: yəqin onların qıvraqlığını ərinin gizli yebəcərliləri ilə müqayisə edir, təəssüflənirdi. Xanım Düfur qıçlarını qatlayıb, yerdə oturmuşdu, bədəninə qarışqa daraşdığını bəhanə edərək tez-tez ora-burasını qaşıyırdı.

Cənab Düfur bu oğlanların yaxınlıqda olmasına və canfəşanlıq etdiklərinə görə dilxor olmuşdu, hey qurdalanır, yerini rahatlaya bilmirdi. Sarıbaş oğlan isə başını aşağı salıb yeməyə qurşanmışdı.

— Gözəl hava var, cənab, — deyə kök qadın qayıqçılardan birinə müraciət etdi. Öz yerlərini verdiklərinə görə xanım onalra dilağız eləmək istəyirdi.

— Elədir, xanım, deyə oğlan cavab verdi. — Siz kəndə tez-tez gəlirsiniz?

— İldə bir, ya da iki dəyə, hava almağa gəlirik; bəs siz necə, cənab?

— Mən hər gecə burada oluram.

— Ah yəqin ləzzət alırsınız?

— Bəli, xanım.

Sonra o, şairanə sözlərlə gününü necə keçirdiyindən danışdı. Elə danışırdı ki, çəmənlik və tarlalardan məhrum olmuş, təbiət həsrəti ilə yaşayan, bütün ili dükanda oturmaqdan bezikmiş bu meşşanların ürəyi sızıldayırdı.

Gənc qız başını qaldırıb maraqla qayıqçı oğlana baxdı. Cənab Düfur axır ki danışdı:

— Bax, buna həyat deyərəm. — Sonra əlavə elədi: — Bir az da dovşan əti istəyirsənmi, gözəlim?

— Yox, sağ ol, əzizim.

Xanım yenə üzünü oğlanlara çevirdi, onların çılpaq qollarını göstərib dedi:

— Siz belə üşümürsünüz?

Onların ikisi də güldülər. Bütün günü necə çalışdıqlarından, qan-tərə batdıqlarından, gecənin qaranlığında necə üzdüklərindən danışıb qonşularını heyrətə gətirdilər. Sonra yumruqlarını siinələrinə döyüb necə möhkəm olduqlarını göstərdilər. Xanımın əri daha ingilisləri necə ötüb keçdiyindən danışmırdı, oğlanlara dedi:

— Sizin sağlam bədəniniz var.

Gənc qız çevrilib onlara baxırdı. Sarıbaş oğlan şərabı birbaş şüşədən içirdi, qəfildən çeçədi, ösgürdü, xanımın qırmızımtıl ipək donunu batırdı. Xanım hirsləndi, ləkələri təmizləmək üçün su istədi.

Hava bərk qızmışdı. Günəşin şüalarında bərq vuran çay elə bil istidən qaynayırdı. Şərab Düfurların başını kicəlləndirdi.

Cənab Düfur bərk hıçqırırdı, jiletinin yaxasını açmış və şalvarının belini boşaltmışdı. Xanım təngnəfəs olmuşdu, yavaş-yavaş donunun yaxasını açırdı. Sarıbaş oğlan şən-şən saçı pırpızaq başını yelləyir, ara vermədən şərab süzüb içirdi. Qarı kefləndiyini duyub özünü şax və təmkinli saxlamağa çalışırdı. Qız isə heç nə büruzə vermirdi, ancaq gözləri azacıq parıldayırdı, həm də qarabuğdayı yanaqnları bir az qızarmışdı.

Qəhvə içib naharı başa vurdular. Oxumaq istədilər. Hərə öz bildiyi mahnını oxudu, qalanları hərarətlə əl çaldılar. Sonra ağır-ağır ayağa qalxdılar. Arvadlar keyləşmişdilər, təngnəfəs olmuşdular. Kişilərin ikisi də kefli idi, gimnastika ilə məşğul olmağa başladılar. İkisi də kütləşmiş, üzləri səfeh bir ifadə almışdı. Asma həlqələrdən sallandılar, amma heç biri özünü qaldıra bilmədi. Köynəkləri az qala şalvarlarından çıxıb sallanacaqdı.

Qayıqçılar qayıqları suya salmışdılar, yaxınlaşıb nəzakətlə xanımları çayda gəzməyə də'vət etdilər.

— Cənab Düfur, icazə verirsinizmi? Xahiş edirəm! — deyə Düfurun arvadı həyəcanla soruşdu.

Düfur axan gözlərini arvadına zillədi, heç nə anlamadı. Qayıqçı oğlanlardan biri iki tilov gətirdi. Balıq tutmaq həvəsi kişinin dumanlanmış gözlərinə işıq gətirdi, xardavatçıların hamısı həvəskar olurlar. O hər şeylə razılaşdı, gəlib körpünün altında, kölgədə tilov atdı, qıçlarını aşağı sallayıb oturdu.

Sarıbaş oğlan özünü onun yanına verib yuxuya getdi.

Qayıqçılardan biri güzəştə getməli oldu xanımı öz qayığına götürdü.

İnglis adasındakı balaca meşəyə gedirik, — deyə dostunu xəbərdar elədi.

O biri qayıq asta-asta üzürdü. Avar çəkən öz sərnişininə elə aludə olmuşdu ki, başqa heç nə fikirləşə bilmirdi. Qəribə bir həyəcan onu gücdən salmışdı.

Gənc qız avarçının kreslosunda oturmuşdu, qayıqdan, sudan ləzzət alırdı. O heç nə fikirləşmirdi, özünü rahat və sərbəst hiss edirdi, məst olmuşdu. Yanaqları qıpqırmızı idi, tez-tez nəfəs alırdı. Şərabın sərməstliyi ətrafı oda qərq eləmiş günəşin istisinə qarışmışdı. Qız sahildəki ağacların hər birinə dərin məhəbbətlə baxırdı. Havanın hərarəti onun qanını qaynadır, ürəyində qəribə bir arzu baş qaldırırdı. İstinin qorxusundan heç kəsin görünmədiyi bu kimsəsiz yerdə, suyun üzündə oğlanla tək qalması da qıza qəribə bir şəyəcan gətirirdi; özü də oğlan onun gözəlliyinə heyran olduğunu büruzə verir, baxışları ilə onu öpüşə qərq eləyir, ehtirasdan od tutub yanırdı.

Onlar cəsarət edib danışa bilmədiklərinə görə daha da həyəcanlanır, yan-yörəyə tamaşa edirdilər. Axırda oğlan iradəsini toplayıb onun adını soruşdu.

— Anriyet, — deyə qız cavab verdi.

— Nə yaxşı, mənim adım isə Anridir.

Onlar bir-birinin səsii eşidib sakitləşdilər. Sahilə tamaşa eləməyə başladılar. O bil qayıq dayanmışdı, deyəsən, onları gözləyirdi. Qayıqçı oğlan qışqırdı:

— Meşədə görüşərək, biz Robinzona getməli olduq, xanım su içmək istəyir.

Sonra o, avaralara güc gəldi, elə tez uzaqlaşdı ki, az sonra gözdən itdilər.

Uzaqdan boğuq bir gurultu eşidilirdi, səs yavaş-yavaş yaxınlaşırdı. Elə bil çayın suyu titrəyir, gurultu suyun dibindən gəlirdi.

— Bu nə səsdir? — deyə qız soruşdu.

Səs adanın başındakı bənddən gəlirdi. Bənd burada çayın suyunu iki yerə bölür. Oğlan uzun-uzadı izah eləməyə başladı. Birdən şəlalənin gurultulu səsinə bir bülbülün cəh-cəhi qarışdı. Onların hər ikisi bu zəif səsə heyran-heyr qulaq asdı. Oğlan dilləndi:

— İşə bax, bülbül günün günorta çağı oxumağa başlayıb, deməli, dişi bülbül kürt yatır.

Bülbül! Qız heç vaxt bülbül cəh-cəhi eşitməmişdi, bu səs onun xəyalında şairanə məhəbbət mənzərələri yaratdı. Bülbül! Bu quş Cülyettanın öz balkonundakı məhəbbət görüşlərinin gözəgörünməz şahididir, bu musiqi göydən enib kişilərin öpüşlərinə qarışır. Bütün həzin romansların ifaçısı bu quş, gözəllik vurğunu zavallı qızların xırdaca ürəklərini şirin arzularla doldurur.

Qız bülbülü dikləmək istəyirdi.

— Gəl səsimizi çıxarmayaq, — deyə oğlan qıza işarə elədi. — Meşəyə girib bülbülün lap yaxınlığında oturaraq.

Qayıq asta-asta üzürdü. Sahil qayası elə alçaq idi ki, ağaclar və kolların arası görünürdü. Onlar dayandılar, oğlan qayığı sahilə bağladı. Anriyeğ Anrinin qoluna söykəndi, onlar budaqların arası ilə irəlilədilər.

Oğlan dedi:

— Əyilin aşağıya.

Qız əyildi, onlar sarmaşıq, yarpaq və qamışlarla örtülmüş bir yerə girdilər, bura lap evə oxşayırdı, tanımayan adam bu yeri tapa bilməz. Oğlan zarafatla dedi ki, bura onun "şəxsi kabineti"dir.

Bülbül onların başı üstündəki budaqda idi, ara vermədən cəh-cəh vururdu. O gah asta, gah titrək səslə oxuyur, gah da elə zəngulə vururdu ki, elə bil səsi üfüqə çatır, çay boyu axır, istidən kimsəsiz qalmış tarlalara, bağlara yayılırdı.

Onlar quşu qorxudacaqlarından ehtiyat edib danışmırdılar. Yanaşı oturmuşdular. Anrinin qolu yavaş-yavaş Anriyetin belinə dolandı və onu astaca sıxdı. Qız acıqlanmadı, oğlanın cəsarətli əlini kənar elədi. Sonra bu yüngül mübarizə tez-tez təkrar olundu: çünki əl dinc durmurdu. Qız oğlanın nəvazişindən narahat olmurdu, elə bil əlin onu sığallaması da onun əli kənar etməsi də adi bir iş imiş.

Qız bülbülə qulaq asırdı, şirin bir xəyala dalmışdı. O sonsuz bir xoşbəxtlik, mehriban bir nəvaziş, ən gözəl şe'rlər arzulayırdı. Əsəbləri süstləşmiş, ürəyi elə kövrəlmişdi ki, özündən xəbərsiz ağlayırdı. Oğlan indi onu sinəsinə sıxırdı. Qız onu daha itələmirdi.

Birdən bülbül susdu. Uzaqdan bir səs eşidildi:

— Anriyet!

Oğlan astadan dedi:

— Cavab verməyin, yoxsa quş uçar.

Qızın özünün də cavab vermək fikri yox idi.

Onlar bir anlıq beləcə qaldılar. Xanım Düfur haradasa oturmuşdu. Hərdən qarışıq səs eşidilirdi, xanım astadan ufuldayırdı, deyəsən, o biri qayıqçı dəcəllik edirdi.

Qız şirin xəyala dalıb ağlayırdı, bədənini qəribə bir hərarət bürümüşdü, Anri başını onun çiyninə qoymuşdu, birdən qızın dodaqlarından öpdü. Qız diksindi, ondan yaxa qurtarmaq üçün arxaya dartında. Oğlan qızın üstünə yıxıldı, bədəni ilə onun bədənini örtdü. Ağzı ilə qızın dodaqlarını axtardı, qız imkan vermədi, axır ki, Anri dodaqlarını qızın dodaqlarına sıxdı. Qız ehtirasından titrədi öpüşə cavab verdi, oğlanı sinəsinə basdı, onun müqaviməti elə bir ağır bir yük altında qalıb çilik-çəlik oldu.

Ətraf sakit idi. Quş y enidən oxumağa başladı. Əvvəlcə üç dəfə ucadan cəh-cəh vurdu, sanki dünyanı sevib-sevilməyə çağırırdı. Sonra azacıq ara verib incə səslə nəğməsinə başladı.

Mülayim bir meh əsdi, yarpaqlar pıçıldaşdı. Budaqların arasına ehtirasdan təngnəfəs olmuş iki nəfərin odlu nəfəsi dolur, orada bülbülün nəğməsinə, yarpaqların xışıltısına qarışırdı.

Bülbül sərməstləşirdi, nəğməsi güclənən yanğının alov dilləri kimi ucalır, insan ehtirası kimi güclənir, elə bil ağacın altından gələn öpüş səslərini müşayiət edirdi. Sonra hey qıy vurur, səsini uzadır, sanki titrək səslə fit çalırdı.

Hərdən bülbül nəfəsini dərirdi, iki-üç dəfə astadan oxuyub, sonra cır səslə nəğməyə yekun vururdu. Bə'zən də coşur, ara vermədən cəh-cəh vurur, özündən çıxır, elə bil alovlu bir eşqə nəğmə deyir, nəğməyə qələbə sədaları ilə yekun vururdu.

Birdən bülbül susdu, ağacın altında bir inilti eşidildi, sanki kim isə can verirdi. Səs xeyli davam elədi, sonra hönkürtüyə çevrildi.

Onlar ayağa qalxanda hər ikisinin rəngi sapsarı idi. Gözlərində günəş sönmüş, mavi səma tutulmuşdu. Özlərini tənha sanır, susurdalar.

Onlar yanaşı gedir, tələsirdilər, nə kəlmə kəsir, nə də bir-birinə toxundurdular. Elə bil düşmən kəsilmişdilər, bir-birindən iyrənir, bir-birinə nifrət edirdilər.

Hərdən Anriyet anasını səsləyirdi:

— Ana!

Kolluqların birində çaxnaşma düşdü. Anriyə elə gəldi ki, orada iri, ətli bir qılçanı tələm-tələsik ağ gecə köynəyi ilə örtdülər. Sonra kök qadın göründü, bir az pərt olmuşdu, rəngi daha da qızarmışdı.

Xanımın gözləri parıldayırdı, yaxası yaxşı düymələnməmişdi, oğlana çox yaxın oturmuşdu. Deyəsən oğlan maraqlı şeylər görmüşdü, özü büruzə vermək istəmirsə də, gözləri bic-bic gülürdü.

Xanım Düfur mehribanlıqla qolunu oğlanın qoluna keçirdi, onlar qayıqların yanına qayıtdılar. Anri irəlidə lal-dinməz, qızla yanaşı gedirdi. Ona elə gəldi ki, arxadan nəfəskəsən, uzun bir öpüş səsi eşidildi.

Axır ki, gəlib Bezona çatdılar.

Cənab Düfur ayılmışdı, darıxırdı, sarıbaş oğlan yola düşməzdən əvvəl yeyirdi. Araba qoşulmuşdu. Qarı yerini tutmuşdu, narahat idi, qorxurdu ki, gecəyə düşsünlər, Parisin ətrafı yaramaz adamlarla doludur.

Əl verib ayrıldılar. Düfurlar ailəsi yola düşdü. Qayıqçılar onların arxasınca qışqırdılar: — "Görüşənə qədər!"

Arabadakılardan biri köksünü ötürdü, başqa birinin isə gözləri doldu.

İki ay sonra Martir küçəsi ilə gedəndə Anri qapılardan birinin üstündə belə bir yazı gördü: "Dəmir mə'mulatı mağazası, Düfur".

O, mağazaya girdi. Kök qadın kassanın arxasında oturmuşdu. Həmin saat bir-birini tanıdılar. Xeyli şirin söhbət eləyəndən sonra Anri soruşdu:

— Anriyet necədir?

— Çox yaxşıdır, sağ olun: ərə gedib.

— Hə?

Anri qəribə bir həyəcanla soruşdu: — Kimə… Kimə gedib?

— Bizimlə gəzintidə olan oğlana, tanıyırsınız, o bizim varisimiz olacaq.

— Hə, çox gözəl!

Anri qaşqabağını tökmüşdü, heç özü də bilmirdi ki, niyə pərt olub. Çıxıb getmək istəyəndə xanım Düfur arxadan çağırdı:

— Bəs sizin dostunuz necədir? — deyə utancaq-utancaq soruşdu.

— Lap yaxşıdır.

— Bizdən ona salam söyləyin, yaxşımı, tapşırın ki, bu tərəflərə yolu düşəndə bizə baş çəksin…

Xanım qıpqırmızı qızardı, sonra əlavə elədi: — Ona deyin ki, mən çox məmnun olaram.

— Mütləq deyərəm, xadahafiz!

— Xadahafiz, yox… yaxın görüşə qədər!

Bir il sonra qızmar bazar günlərindən birində meşədəki əhvalat Anrinin yadına düşdü. Əslində həmin əhvalatı o, heç unutmurdu, amma bu dəfə elə aydın, elə ürək yanğısı ilə xatırladı ki, dözə bilməyib tək-tənha həmin guşəyə getdi.

Ora çatanda mat qaldı. Qız orada idi. Həmin yerdə, otun üstündə oturmuşdu, qəmgin idi. Əri, sarıbaş oğlan onun yanında yuxuya gedib heyvan kimi xoruldayırdı, geçən il geydiyi uzunqol köynəyi də əynində idi.

Anrini görəndə qızın rəngi elə qaçdı ki, az qala ürəyi gedəcəkdi. Sonra onlar aralarında heç nə olmayıbmış kimi, söhbət eləməyə başladılar.

Oğlan deyirdi ki, bu yeri çox sevir, hərdən bazar günləri gəlib burada istirahət edir, keçmiş gözəl dəqiqələri xatırlayır. Bu sözləri eşidəndə qız gözlərini oğlanın gözünə zilləyib xeyli baxdı, sonra dedi:

— Mən bu yeri hər axşam yadıma salıram.

— Gedək, əzizim, — deyə onun əri oyanıb əsnəyə-əsnəyə söhbəti kəsdi. — Məncə, qayıtmaq vaxtıdır.

Pol Valeri (1871-1945)

Pol Valeri 1871-ci ildə Fransanın Set adlı kiçik Liman şəhərciyində anadan olmuşdur. Valideynlərinin mənşəcə italiyalı olması, incəsənət aləminə yaxınlığı, göz oxşayan dəniz mənzərələri gənc Polu poeziyaya sövq etmişdir. Yeniyetməlik illərində dənizçi zabit olmaq arzusunda olan, Monpelyedə hüquq elmini dərindən öyrənməyə çalışan Pol Valeri, Rəmbo və Malarmenin şe'rlərini oxuduqdan sonra ilhama gələrək silsilə şe'rlər yazıb və onları müxtəlif jurnallarda çap etdirmişdir.

1892-ci ildə o öz fitri iste'dadına şübhə edərək və sarsıntı keçirməyə başlayır. Amma eyni zamanda yaradıcılığını da davam etdirir və 1895-ci ildə "Leonard da Vinçinin metodu haqda" əsərini, 1896-cı ildə isə "Cənab Test ilə bir axşam" adlı əsərini çap etdirmişdir. 1896-1912-ci illərdə ömrünün sıxıntılı illərini yaşayaraq, diqqətdən uzaqda olmağa çalışan Pol Valeri, dostlarının təhriki və köməyi ilə yenidən ruhlanaraq yaradıcılığa başlayır və 1916-cı ildə beş yüz şerdən ibarət "Gənc Park" adlı böyük bir poema yazır. 1917-ci ildə əsər çap olunur və müəllifinə böyük şöhrət qazandırır. Elə bu dövrdən şair öz köhnə yazılarını toplayaraq onların üzərində yenidən işləyir, 1920-ci ildə "Köhnə şerlər albomu" adı ilə nəşr etdirir. 1922-cı ildə nəşr etdirdiyi "Gözəlliklər" adlı şerlər kitabı isə şairi şöhrət zirvəsinə qaldırmış, o, məşhur ədəbiyyatçı kimi tanınmağa başlamışdır. 1925-ci ildə Fransa Akademiyasına üzv seçilən Pol Valeri 1937-ci ildən isə Fransanın ən hörmətli ali təhsil ocağı sayılan Fransa Kollecində poeziyadan dərs verməyə başlamış, Mətbuatda daha çox esselər və ədəbiyyat mövzulu məqalələrlə çıxış etmişdir. Çoxsaylı mühazirələri və məqalələri "Varyete" adlı kitabında cəmlənib.

Pol Valeri 1945-ci ildə vəfat etmiş, onun dəfn mərasimi ölkənin ən görkəmli şəxsiyyətinin dəfni səviyyəsində keçirilmişdir.

Pol Valeri

Görməmişəm bilmirəm

Görməmişəm, bilmirəm
Mən adi bir ətirəm
Küləyin qanadında
Yaşayıram ölürəm!

Görməmişəm, bilmirəm.
Təsadüfmü, ruhdumu,
Yoluma çıxan kimi
İşim tapır yolunu!

Oxumadın qanmadın?
Neçə böyük dahinin
Səhvlərini anmadın!

Görməmişəm, bilmirəm.
İki köynək arasında çılpaq döşün
Vaxtını itirmirəm

Pol Valeri

Addımlar

Addımların sükutumun bəhrəsi
Həzin-həzin səni mənə yetirir.
Addımların gizli, astadır səsi
Yuxusuz çarpayım səbrin itirir.

Özün mələk; kölgən mülayim, həzin
Utancaq addımlar yaraşır sənə.
İlahi!.. dünyanın hər gözəlliyin
Bu yalın ayaqlar gətirir mənə!

Allanmış dodağın tələşlı, yanar
Eşqimin həsrətin salacaq oda.
Ürəyim nigaran, özümdən kənar
Şirin bir öpüşə tələsir o da.

Gəl heç tələsdirmə bu gizli toyu
Qovuşan ya olum, ya ölüm tapar.
Sizi gözləmişəm mən ömür boyu,
Ömrümü uzadıb gələn addımlar.

ANRİ BARBÜS (1873—1935)

Anri Barbüs fransız ədəbiyyatında sosialist realizminin banisi sayılır. O Fransa kommunist partiyasının fəal üzvlərindən idi.

Barbüs Paris yaxınlığında, ziyalı ailəsində anadan olmuş, Parisdə yaşamış, məktəb bitirdikdən sonra və təhsilini Sarbon universitetində başa vurmuşdur. O ilk gənclik illərində şe'rlər yazmış, və bir şe'rlər kitabı da çap etdirmişdir.

Anri Barbüsün məhsuldar yaradıcılığı əsrimizin ilk illərindən başlayır. 1903 və 1908-ci illərdə iki romanı çapdan çıxmışdır.

Birinci dünya müharibəsi başlayanda Barbüsün səhhəti yaxşı olmasa da, o, ordu sıralarına yazılır və ömrünün iki ilini cəbhədə keçirir. Ağır cəbhə illəri yazıçının yaradıcılığına güclü tə'sir göstərmişdir və 1916-cı ildə çap etdirdiyi "Od" romanı millitarizmi ifşa edən bir əsər kimi ona şöhrət qazandırmışdır.

Bu əsərdə Barbüs humanist və beynəlmiləlçi kimi çıxış edir. O, müharibədə üz-üzə duranların kimliyindən asılı olmayaraq ilk növbədə insan olduğunu və bu insanların faciə iştirakçıları olduğunu sübut etməyə çalışaraq yazır: "Vuruşan iki ordu özünü məhv edən böyük bir ordunu xatırladır". Müharibə qurtardıqdan sonra Anri Barbüs Fransa antiimperialist cəmiyyətinin yaradıcısı və fəallarından birinə çevrilir. Onun "Od" romanı dünyanın bir çox xalqlarının dillərinə eyni zamanda rus dilinə də tərcümə olunmuşdu. Kitabın rusca nəşrinə M.Qorkinin yazdığı giriş sözündə əsərə yüksək qiymət verilir.

1926-cı ildə çap etdirdiyi "Cəlladlar" əsəridə humanist yazıçı faşist qruplarının Balkan xalqlarına tutduğu divanı ifşa edir. Otuzuncu illərdən isə Barbüs beynəlxalq antifaşist təşkilatının yaradıcılarından biri kimi fəaliyyət göstərmişdir.

"Zəncirlər" romanında (1925) yazıçı bəşəri problemlərin dərinliklərinə, tarixinə nəzəri cəlb etməyə çalışıb. İki cildlik bu əsərdə Barbüs bəşər tarixinin başladığı dövrdən ictimai haqsızlığın hökm sürdüyünü və nəhayət fədakar bir fəhlənin meydana çıxıb bu haqsızlığı yox edərək insanlara azadlıq və xoşbəxtlik gətirdiyini təsvir edir.

Sovet İttifaqına səfəri kommunist yazıçının publisistik yaradıcılığına yeni bir təkan verib. Həmən səfər zamanı Barbüs Bakıya da gəlib. Anri Barbüsün Bakıya səfəri, mədəniyyət və ədəbiyyat işçiləri ilə görüşləri xüsusi əhəmiyyət kəsb edir.

Oktyabr Sosialist inqilabından sonrakı ilk illərdən bu inqilaba rəğbət bəsləyən avropalı ziyalılarından biri də Anri Barbüs olub. Onun Sovet Rusiyasına, Qafqaza və nəhayət Bakıya gəlişinin səbəbi də sosializm quruculuğu ilə məşğul olan respublikaların həyatı, mədəniyyəti, işi ilə tanış olmaq idi.

Anri Barbüs Bakıya 1927-ci ilin oktyabr ayında gəlib və bakılılar onu böyük təntənə ilə qarşılayıblar. O şəhərin sənaye müəssisələrinə yeni tikintilərinə, mədəniyyət ocaqlarının fəaliyyətinə ciddi maraq göstərib. Azərbaycan paytaxtında fransalı qonağın şərəfinə müxtəlif yığıncaqlar və görüşlər təşkil olunmuşdur. Bakının Maarif evində şəhər ziyalılarının fransalı yazıçı ilə görüşü keçirilmiş, ziyalıların və mədəniyyət işçilərinin tərəqqi yolunda mühüm rolundan danışılmışdır.

Anri Barbüsün Bakı görüşlərindən ən yadda qalanı o vaxt Ruhulla Axundovun rəhbərliyi ilə nəşr edilən "Maarif və Mədəniyyət" jurnalının əməkdaşları ilə görüş olub. Bu jurşalın fəaliyyətinə ciddi maraq göstərən fransız yazıçısı mətbuat işçiləri qarşısında duran məsələlər haqda fikir mübadiləsi aparmış, Fransada nəşr etdirəcəyi yeni jurnal haqda danışmışdır.

Bakı görüşləri uzun müddət Anri Barbüsün xatirəsindən silinməmiş və bu görüşlər haqda mətbuat səhifələrində çıxış etmişdir. Onun "neft diyarında" başlıqlı oçerki "Kommunist" qəzetində və "Maarif və Mədəniyyət" jurnalının 1927-ci il 12-ci nömrəsində dərc olunmuşdur. Daha sonra isə onun "Bakı fəhlələrinə" adlı məktubu "Bakinski raboçi" qəzetində dərc olunub.

Bakıda olarkən Anri Barbüs Ruhulla Axundovla dostlaşmış və vətənə qayıtdıqdan sonra da bu dostluğun möhkəmlənməsinə və yaxan əməkdaşlığa çevrilməsinə çalışmışdar. Fransadan Ruhulla Axundova yazdığı müktubda Anri Barbüs yenicə nəşr etməyə başladığı "Mond" jurnalının (1928-ci il) yayılmasına kömək etməsini juranl üçün material göndərilməsini və məsləhətlər verməsini xahiş edirdi:

"Sizin məs'ul vəzifəniz və şəxsi nüfuzunuz başladığımız informasiya işinin inkiaşf etməsinə yardım göstərmənizə imkan verəcəkdir. Sizə və bütün yoldaşlarınıza qardaşlıq salamı". (C.Əfəndiyev, M.Lyandres "Anri Barbüs Bakıda", "Qobustan", 1985, N 4).

Anri Barbüsün Bakıya səfəri ədəbi ictimaiyyət üçün mühüm bir hadisə olub. Onun bir sıra əsərləri Azərbaycan dilinə tərcümə olu-

nub. Yazıçının özü də bu səfərdən sonra oxuculara borclu qalmamağa çalışıb. 1930-cu ilə Parisdə nəşr etdirdiyi "Rusiya" adlı əsəri böyük maraq doğurub.

Anri Barbüs müxtəlif səpgili əsərlər müəllifidir. "Yüksəliş" əsərində (1930) yazıçı dünyanın bütün insanlarını eyni həyat tərzində görmək arzusundan danışır. Başqa bir əsərində isə "İsa" xristian əfsanələrini tənqid edir. İsanı ilk inqilabçı və humanist adlandırır. Belə əsərlərlə yanaşı çap etdirdiyi "Müxtəlif əhvalatlar" adlı qeydlər kitabında isə tam real məsələlərə toxunur. Burada militarizmin və faşizmin tənqidi, Fransa inqilabının tarixi, hakim sinif nümamyəndələrinin cinayətləri əsas mövzudur.

Ümumiyyətlə götürdükdə isə Anri Barbüs yaradıcılığının ana xətti sosialist ideyalarının təbliği və militarizmə qarşı barışmaz mübarizədir.

Giyom Apoliner (1880—1918)

Vilhem Apolinaris Albertus dö Kostrovitski 1880-ci ildə Romada anadan olub. Onun anası baltika mənşəli fransız qızı, atası isə heç vaxt üzünü görmədiyi italyan zabiti olub. Apoliner qarmaqarışıq bir uşaqlıq dövrü yaşayıb. 1889-cu ildə anası ilə Parisə köçdükdən sonra o müxtəlif sənətlər öyrənmək istəyib və 1902-ci ildən ilk yazıları çap olunmağa başlayıb. Elə həmən ildən o Almaniyada dərs deməyə çağrılır və burada gənc ev xadiməsi Anni Pleydenə dəlicəsinə vurulur.

Parisə qayıtdıqdan sonra Apoliner avanqard artistlər sırasına qoşulur. O Pikasso ilə dostluq edir,rəssam xanım Mari Loransənlə yaxınlıq yaradır. 1909-cu ildə Apolinerin "Çürüyən təlimçi" adlı ilk kitabı nəşr olunur, 1912-ci ildə isə "Alsol" adlı silsillə ilə bir neçə poema yazır. 1913-cü ildə "Alsol" silsilə poemaları və dövrün müasir rəssamlarını müdafiə edən "Kubist rəssamlar" və "estetik düşüncələr" adlı kitabları çap olunub. 1914-cü ilin noyabrında Apoliner Birinci dünya müharibəsinin iştirakçısına çevrilir. O müharibədə yaralanır, zəifləyir və 1918-ci ildə ispan qripi epidemiyasının qurbanı olur. Ölümündən əvvəl Apoliner "Kalliqramlar" adlı kitabını çap etdirib və öz dövrünün estetik rəngarəngliyi mövzusunda konfrans keçirib. Ölümündən sonra isə şairin "İki sahilin sərkərdanı" (1919-cu il), "Var" (1925), "Sevgimin kölgəsi" (1947) adlı kitabları nəşr olunub.

Giyom Apoliner

Mirabo körpüsü

Bu körpüdən Sena axır
Eşqimiz də suya düşür, əriyir
Xatirələr məni sıxır
Qüssə gedir arxasınca sevinc gəlir

Gəl, gecədən vaxt alıram
Günlər keçir, mən qalıram.

Əl-ələ, üz-üzə durub donuruq
Qollarımız körpü olur
Sevgimizin gözlərinə qonuruq
Eşqimiz yorulur, solur

Gəl, gecədən vaxt alıram
Günlər keçir, mən qalıram.

Eşqimiz də su tək axır, uzaqlaşır
Sevgi belə davamsızdır
Həyat yaman ləng sürünür
Ümid isə amansızdır

Gəl, gecədən vaxt alıram
Günlər keçir, mən qalıram.

Keçir günlər, həftələr
Nə keçən zaman qayıdır
Nə solan sevgimiz dönər
Bu körpüdən Sena axır

Gəl, gecədən vaxt alıram
Günlər keçir, mən qalıram.

ANDRE MORUA

XX əsr fransız ədəbiyyatının və eyni zamanda novella yaradıcılığının ən görkəmli nümayəndələrindən biri Andre Moruadır.

Andre Morua 1885-ci ildə Normandiyanın kiçik Elbef şəhərində anadan olub. Onun əsl adı Emil herzoqdur. Hələ uşaqikən yazıçı olmaq həvəsinə düşmüş Emil artıq on-on iki yaşlarında qələmini sınayırdı. Sonra o, öz müəlliminin məsləhəti ilə həyatı yaxından görmək, zəhmətkeş insanları müşahidə etmək üçün atasının fabrikində işləməyə başlayıb.

Birinci dünya müharibəsi başlanan kimi Morua ingilis hərbi bölmələrinin birinə tərcüməçi tə'yin olundu. Orduda olduğu dövrdə "Kapitan Bramblın sükutu" adlı bir əsər yazdı. Kitab maraqla qarşılandı. Daha sonra Andre Morua "Doktor O'Qredin çıxışları" adlı əsəri və 1923-cü ildə yazdığı "Aryel yaxud Şelliin həyatı" bioqrafik romanı ilə oxucuların rəğbətini qazanır. O nəinki Fransada, bir çox xarici ölkələrdə də ad qazanır. Az vaxtda Morua bir sıra bioqrafik əsərlər yazır, eyni zamanda "Ailə" və "İqlim" romanlarını da çap etdirir. 1939-cu ildə Andre Morua Fransa Akademiyasına seçilir.

İkinci dünya müharibəsi dövründə yazıçı faşist işğalçılarına qarşı kəskin çıxışlar edir. İngiltərəyə gedib bir müddət radio və mətbuat vasitəsilə faşistlərin siyasətini pisləyir. Sonra isə Amerikada yaşayır, "Fransanın tarixi" və "Birləşmiş Ştatların tarixi" əsərlərini yazır.

1943-cü ildə Morua kapitan rütbəsi ilə Əlcəzairdəki fransız ordusuna daxil olur. Burada Antuan Sent-Ekzüperi ilə görüşüb dostlaşır.

Müharibədən sonra Morua Jorj Sanın, Viktor Hüqonun, Aleksandr Fleminqin həyatını bədii şəkildə qələmə alır. "Üç Düma" əsəri də bu dövrün məhsuludur. Andre Moruanın əsərləri bir çox dillərə tərcümə olunub bütün dünyaya yayılır.

Andre Morua 82 yaşında ikən 1967-ci il oktyabrın 9-da Fransada vəfat edib.

Fransa ədəbiyyatında isə onun özünə məxsus geniş yaradıcılıq yolu qalıb. O bir çox janrlarda yazıb; bir çox hekayələr nağıllar, fəlsəfi dialoqlar, elmi-kütləvi romanlar, böyük tarixi romanlar, ələlxüsus bioqrafik romanlar onun qələminə məxsusdur. Moruanın yazdığı bioqrafik romanlar bədii əsərdən də tə'sirlidir.

Onun yaradıcılığında hekayə janrı əsas yer tutmasa da maraqlı sahələrdən biridir. Bu hekayələr öz üslüblarına görə Mopasan novellalarını xatırladır. Hətta Mopasan novellalarında olduğu kimi onlarda da qadın və məhəbbət məsələləri əsas yer tutur. Lakin Mopasanın əsərlərindəki bədii boyalar Moruanın hekayələrində az rast gəlir. Onun qələmi jurnalist, yaxud alim qələmi kimi daha itidir.

Bu hekayələrdə yazıçı yaşadığı cəmiyyətin həyatından səhnələr verir. Bir sıra hekayələrdə ədəbiyyat və incəsənət adamları, onların məişəti ustalıqla təsvir edilir. Eyni zamanda cəmiyyətdəki ləyaqətsiz işlər, qadın e'tibarsızlığı və ikiüzlülüyü də bu hekayələrdə öz əksini tapıb. Morua özü e'tiraf edib ki, qadın və məhəbbət mövzumuna lazım olduğundan çox yer verib. Qadınların çoxunun ikiüzlü və e'tibarsız təsvir edilməsi isə heç də qeyri-təbii görünmür. Onların hamısı yaşadıqları cəmiyyətin tə'siri altında dəyişir: vərəsə almaq üçün ikiüzlülük edir, ya ərindən intiqam alıb e'tibarsızlıq edir, yaxud xüsüsi tapşırıqla eşq macərası başlayır.

Andre Moruanın ömrü boyu yetmiş cilddən çox əsəri çap olunub. Bu cildlərdən cəmisi iki cilddə hekayəəlr toplanıb. Göründüyü kimi novella Morua yaradıcılığında aparıcı rol oynamayıb və mə'lumdur ki, müəllif özünün bioqrafik romanlarına görə yazıçı şöhrəti tapıb. Lakin Morua elə bu iki cildlik novellaları ilə də tanınmış yazıçılar sırasında qala bilər. Çünki onun bu xırda həcmli əsərlərinin də hər birində ən geniş mövzu — insan psixologiyası və insan münasibətləri ustalıqla açılır. Tanınmış fransız yazıçılarının çoxu samballı romanlar, dram əsərləri ilə yanaşı novellalar da yazıblar. Lakin çox yazıçı novellanı yaradıcılığın ilk illərində yazıb və novella yaradıcılıqda keçid dövrü təşkil edib. Morua yaradıcılığında isə aydınca duyulur ki, novella həmişə onun yol yoldaşı, ən yığcam fikirlərini söyləmək üçün e'tibarlı vasitə olmuşdur. Onun hekayə yaradıcılığına ciddi münasibətini sübut edən cəhətlərdən biri də budur ki, bə'zi hekayələrinə yeni nəşrdən əvvəl əl gəzdirərmiş. Morua Mopasanı, Çexovu, Merimeni özünün müəllimləri adlandırıb. Onun novellalarının Mopasan novellalarına oxşarlığı mövzu seçmə ustalığı nöqteyi-nəzərincə uyğun gəlir, bə'zi hallarda isə onların arasında hissiyyat fərqi duyulur. Mopasan hekayəsində yaradılmış hər bir obraza qəribə bir rəğbət duyulur. Hər fransız kəndlisi öz ləhcəsində danışdırılır, insana rəğbət şirin yumor və vətənpərvərlik hissi az qala hər əsərdə duyulur. Moruanın bəzi no-

vellalarında isə hekayəçilik eyni zamanda maraqlı bir mövzunun ustalıqla şərhi duyulur. "Qızıl bəlası", Kilsə rəsmi" onun ailə mövzulu hekayələrin hər birinin mahir usta qələminə mənsub olduğu asanlıqla duyulur. Bu hekayələrin qəhrəmanları ən sıxıntılı anlarda belə çıxış yolu tapır, ailə çətinliklərini güzəşt, bə'zən də ikiüzlüklə yola verirlər. Belə hekayələrin süjet həllində Morua əsl psixoloq məharəti göstərir. O adətən mənfi qəhrəmanın pisliyini tənqid etməyə deyil bu pisliyin səbəbini izah etməyə çalışır. Elə bu cəhət də novellanın tə'sir qüvvəsini artırır.

Morua təbiətcə də optimist bir insan olub. Həyata, vətənə məhəbbət əsərlərində tez-tez nəzərə çarpır. Morua özünün "çılpaq əşyalar" ("Şoz Nü") əsərində yazır: "Bilmirəm mənim küknarlarım böyüyəndə kimə qismət olacaq. Sonrakı sahibə yaxud kolxoza qalacaq. Amma Fransa həmişə yaşayacaq. Gəlin meşə salaq".

Morua bədii ədəbiyyatın böyük təlbiğatçılıq mahiyyətini yaxşı görür və buna görə də oxucu kütləsinə ancaq dəyərli və yüksək tərbiyəvi əhəmiyyəti olan əsərlər təqdim olunmasını tövsiyyə edirdi. Öz həmkarları ilə söhbətlərindən birində Morua demişdir: "Kütləvi mədəniyyət adlanan mədəniyyət müasir yazıçıya insanların tərbiyə olunması sahəsində əvvəllər görünməmiş imkanlar verir... Bu xoşbəxtlikdir, əgər insanlara deyiləsi ağıllı sözümüz varsa bu xoşbəxtlikdir"...

Morua bədii sözün qüvvəsinə həmişə inanıb. O bə'zən insan taleinin, müharibə və sülh məsələlərinin də bədii söz vasitəsilə idarə olunduğuna şübhə etmir. Gənc yazıçılara müraciətlə Morua belə deyib: "İyirmi il sonra dünyanın daha xoşbəxt olacağı, yaxud heç mövcud olmayacağı sizdən asılıdır". Bu əsl humanist yazıçı fikridir. Moruanın novellalarında da, iri həcmli əsərlərində də beynəlmiləlçilik hissi tez-tez nəzərə çappır. Onun yaratdığı obrazlar gah fransız olur, gah amerikalı, gah ingilis, gah da başqa bir millətin nümayəndəsi. Onun yaratdığı, böyük zəhmət və axtarışlar tələb edən bioqrafik əsərlər də yalnız Fransanın deyil, dünyanın bir çox xalqlarının görkəmli nümayəndələrinə həsr olunub.

Morua novellalarının da onun bir sıra iri həcmli əsərləri kimi ən əhəmiyyətli cəhətlərindən biri humanist hisslərin, müsbət keyfiyyətlərin təbliğidir. Elə buna görə də yazıçı az qala bütün dünyada yaxşı tanınır, əsərləri dünyanın müxtəlif qitələrində, müxtəlif dillərdə oxunur. Onun azərbaycanca çap olunmuş ilk və yeganə kitabı fransızcadan tərcümə olunmuş hekayələr kitabıdır ("Gənc-

lik” — 1971). “Fəslin çiçəkləri” adlandırılmış bu kitabda müəllifin on beş maraqlı hekayəsi toplanıb. Həmən hekayələrdən ikisini təqdim edirik.

Andre Morua

TANATOC MEHMANXANASI

— "Stil" aksiyaları neçəyə düşüb? — deyə Jan Monye soruşdu.

— Əlli doqquz dörddə birə — on iki makinaçıdan biri cavab verdi.

Makinaların taqqıltısı bir-birinə qarışıb, caz ritmini otağa doldururdu. Pəncərədən Manhattanın nəhəng binaları görünürdü. Telefonlar cingildəyir, xəbərlər, rəqəmlər çap olunmuş kağız lentlər bir göz qırpımında qıvrılıb uzanır, otağın içində qalaqlanırdı.

— "Stil" aksiyaları necədir? — deyə Jan Monye yenidən soruşdu.

Qertrud Ouen cavab verdi:

— Əlli doqquz.

Qız bir anlıq dayanıb gənc fransıza baxdı. O, kresloda əyləşib başını əlləri arasına almışdı. Halı özündə deyildi. "Bu da lütləşdi" — deyə qız düşündü. "Vay halına! Vay Fanninin də halına!"

Holman bankının Nyu-Yorkdakı nümayəndəsi Jan Monye iki il əvvəl özünün katibəsilə, amerikalı bir qızla evlənmişdi.

Jan Monye bir də soruşdu:

— "Kennekot" aksiyaları neçəyə düşüb?

— İyirmi səkkizə, — deyə Qertrud Ouen cavab verdi.

Qapının arxasında kim isə qırşıqdı. Harri Kuper otağa girdi. Jan Monye ayağa qalxdı.

— Dəhşətdir! — Harri Kuper dilləndi. — Bütün aksiyalar iyirmi faiz qiymətini itirib. Hələ bə'zi səfəhlərin dediyinə görə guya bu böhran deyil!

— Yox, böhrandır, — deyib Jan Monye otaqdan çıxdı.

— Bu da yamanca batdı, — Harri Kuper qapıya tərəf işarə etdi.

Qertrud Ouen təsdiqlədi:

— Elədir, tamam var-yoxdan çıxıb. — Mənə Fanni dedi. O özü bu axşam Jandan ayrılacaq.

— Nə etmək olar? Əsil böhrandır, — deyib Kuper sözünü bitirdi.

Liftin yaraşıqlı tünc qapıları örtüldü.

Jan Monye yuxulu kimi göstəriş verdi:

— Aşağıya.

— “Stil” aksiyaları neçəyə düşüb? — deyə liftçi oğlan soruşdu.

— Əlli doqquza.

Jan hər aksiyaı 112 dollara almışdı, indi isə hər birindən 53 dollar zərər çəkirdi. Başqa şirkətlərdən aldığı aksiyalar da öz qiymətlərini itirmişdi. Əvvəllər Arizonada qazandığı pulların hamısını bu aksiyalara xərcləmişdi. Fanninin özünün bir senti də olmaz. Hər şey bitmişdi. O, küçəyə çıxıb, tramvaya tərəf tələsdiyi vaxt gələcəyi düşünürdü. Təzədən başlamaq? Əgər Fanni cəsarətli olsaydı, təzədən başlamaq mümkün idi. O, özünün ilk mübarizəsinin, çöllərdə qoyun güdməsini, az vaxtda ucalmasını yadına saldı. Həm də onun otuz yaşı ancaq olardı. Bircə şey mə’lum idi ki, Fanni rəhmçizlik edəcək.

Fanni belə də etdi.

Ertəsi gün səhər Jan Monye yerindən tək qalxdı. O bütün ümidini itirmişdi. Fanni ona soyuq olsa da, Jan qızı sevirdi. Zənci qadın həmişəki səhər yeməyini bir dilim yemiş və süddə bişirilmiş yulaf yarması gətirdi, sonra isə pul istəi.

— Xanım hardadır, mister?

— Gəzməyə gedib.

O, xidmətçiyə on beş dollar verdi. Qalan pulunu saydı. Altı yüz dollardan az qalmışdı. Bu pulla iki ay, uzaq başı üç ay dolanmaq olardı… Bəs sonra? O, pəncərədən baxdı. Bir həftədən bəri demək olar ki, qəzetlər hər gün intihar edənlər haqda yazılar dərc edir. Bankirlər, birja alverçiləri, aksiyaçılar ölümlə özlərini müflislikdən qurtarırdılar. İyirminci mərtəbədən tullanmaq? Neçə saniyəyə yerə çatmaq olar? Üç? Dörd? Sonar isə xıncım-xıncım olmaq. Bəlkə birdən ölmədi? O, dəhşətli ağrıları, çiliklənmiş sümükləri, parçalanmış insan ətini təsəvvürünə gətirdi. Köks ötürdü, qəzetlərdən birini qoltuğuna vurub, səhər yeməyi üçün restorana getdi. Ağcaqayın şirəsi ilə isladılmış kətələri həmişəki iştahla yeməsinə özü də təəccüb etdi.

Palas Otel “Nyu-Meksiko…” Görəsən bu qəribə ünvandan mənə məktub yazan kimdir?

Harri Küperdən də məktub var idi, əvvəlcə onu oxudu. Sahib onun nə üçün idarəyə gəlmədiyini soruşurdu. O, kassaya səkkiz yüz doxsan üç dollar (893) borcludur… Bu barədə nə fikirdədir? .. Həm qəddar, həm də sadəlövh adamın sualına oxşayır. Ancaq Harri Kuper sadəlövh adama bənzəmir.

O, ikinci məktubu açdı. Yuxarıda üç sərf ağacı çəkilmişdi. Məktub belə yazılmışdı:

Palas Otel "Tanatos"

Direktor: Henri Bersteker.

"Əziz C-b Monye!

Sizə yazdığımız bu məktubu təsadüfi hesab etməyin. Sizin haqqınızda aldığımız mə'lumat belə bir ümid yaradır ki, bizim xidmətimizə ehtiyacımız olacaq.

"Yəqin artıq sizə mə'lumdur ki, ən cəsarətli insanlara belə həyatda elə ağır bədbəxtliklər üz verir ki, mübarizə etmək imkanı qalmır, ölüm yeganə çıxış yolu olur.

"Gözlərini yumub, rahağ yatasan, bir daha ayılmayasan, bir daha suallar, kinayəli sözlər eşitməyəsən... İnsanların çoxu bunu arzu edir, bu cür ölüm istəyir. Lakin çox az da olsa, elə adamlar var ki, özlərini daha ağır əzaba salırlar. İntihara cəhd etmiş bə'zi adamları xatırlasaq aydın olar ki, bu çox qorxulu oyundur. Bə'zisi gicgahına bir güllə vurub özünü öldürmək istəyir, ancaq ölmür, görmə sinirlərini zədələyib kor olur. Başqa birisi yuxu dərmanı ilə özünü zəhərləmək fikrinə düşür. Lakin dərmanı lazımi qədər atmadığından ölmür. Üç gündən sonra yaddaşını itirmiş, beyni korlanmış, əzaları iflic vəziyyətdə ayılır. İntihar incəsənətin elə bir növüdür ki, xırdaçılığı və şıltaqlığı sevmir, həm də onun elə bir xüsusiyyəti var ki, insana bu sahədə təcrübə qazanmağa imkan vermir.

"Əziz C-b Monye əgər məsələ sizi, bizim güman etdiyimiz qədər maraqlandırsa, həmin təcrübəni sizə təklif etməyə hazırıq. Mehmanxanamız Birləşmiş Ştatlarla Meksika sərhəddində boş bir ərazidədir. Heç bir ictimai nəzarətdən qorxusu yoxdur. Biz, başqa bir çarəsi olmayan, ciddi səbəblərə görə həyatla vidalaşmaq qərarına gəlmiş insan övladlarına kömək etmək, onalra iztirabsız cəsarətlə deyə bilərik ki, qorxusuz bir ölüm bəxş etməyi özümüzə borc bilmişik.

"Tanatos Palas Oteldə şirin yuxuda olduğunuz vaxt ən asan, ən rahat bir ölümlə həyatdan gedə bilərsiniz. Hər dəfə bizə yeni müvəffəqiyyət gətirmiş (keçən il iki min nəfərdən çox müştəri qəbül etmişik), on beş illik təcrübə əsasında yaratdığımız texniki vasitələr bizə məsələni dəqiqliklə və bir anda həll etmək imkanı verir. Bunu da deməliyik ki, dini əqidələrdən çəkinən müştəriləri çox alicənab bir üsulla hər cür günahdan azad edirik.

"Bizə yaxşı mə'lumdur ki, müştərilərimizin çoxu puldan korluq çəkir və intihar hallarının çoxluğu ilə binklara olan borcların böyüklüyü arasında uyğunluq var. Biz bütün imknalarımızı səfərbər edib, ən gözəl rahatlıq nümunələri yaratmağın və "Tanatos"da qiymətlərin mümkün qədər aşağı olması qeydinə qalmışıq. Buraya gələrkən sizin burada olacağınız vaxtın bütün xərclərini: yə'ni əməliyyat üçün, dəfn və qəbrə qulluq xərcləri birlikdə hesablanıb. Sizin burada nə qədər yaşayacağınızdan xəbəriniz olmaycaaq. Əlavə xidmətlər üçün sizdən çay pulu da tələb edilməyəcək.

"Əlavə etmək lazımdır ki, "Tanatos" təbii gözəlliyə malik bir ərazidə yerləşir. Burada dörd tennis stolu, on səkkiz dəlikli qolf, qəşəng hovuz var. Bizim qonaqlarımız hər iki cinsdən və yüksək cəmiyyətdən seçmə adamlardır. Burada həyat bambaşqadır. İnsanlar şəraitin qəribəliyinin tə'sirindən daha da mülayim və səmimi olurlar. Qonaqlar dəmir yolu ilə Diminq stansiyasına qədər gəlirlər. Onları vağzalda bizim maşınımız gözləyir. Qonqalardan xahiş edilir ki, öz gəlişlərini məktub, yaxud teleqramla heç olmasa iki gün əvvəl bizə xəbər versinlər. Teleqramı bu ünvana göndərin: "Nyu-Meksiko. Soronado. Tanatos" Jan Monye bir dəst kart götürüb, Fanninin öyrətdiyi kimi fal açdı.

Yol çox uzun çəkdi. Qatar saatlarla pambıq tarlalarının arası ilə getdi. Pambıqçı zəncilərin qaraltısı ağ tarlanın içində tez-tez nəzərə çarpırdı. Sonra iki gün iki gecə yuxu ilə mütaliə bir-birini əvəz etdi. Nəhayət, dağlıq əraziyə çatdıqda mənzərə dəyişdi: hər tərəfdə nəhəng və əfsanəvi qayalar görünürdü. Qatar dərə ilə iki sıldırım qayanın arasında irəliləyirdi. Dağlar bənövşəyi, sarı, qırmızı rənglərə boyanmışdı. Ortada isə ağ qurşağa oxşayan bir bulud parçası uzanırdı. Qatarın dayandığı balaca stansiyalarda iri həsir şlyapalı və naxışlı meşin pencək geymiş meksikalılar görünürdü.

— Gələn stansiya Diminqdir, — deyə vaqon xidmətçisi zənci, Jan Monyeyə müraciət etdi. — Çəkmələriinzi silimmi, mister? — Jan kitablarını yığışdırdı, çamadanlarını örtdü. Özünün axırıncı səyahətinin bu qədər adi olması onu təəccübləndirirdi. Gurultulu bir səs gəldi. Tormozlar cingildədi. Qatar dayandı.

— Tanatosa buyurursunuzmu, ser? — deyən bir hindli öz arabası ilə vaqonlar boyu qaçırdı. Onun arabasına iki sarışın qəşəng qızın çamadanları qoyulmuşdu. Qızlar arxada gedirdilər.

Jan Monye düşünürdü: "Görəsən, doğrudanmı bu qəşəng qızlar da ölmək üçün gəliblər?"

Qızlar da ciddi nəzərlərlə ona baxır, dodaqaltı bir-birinə nə isə deyirdilər.

"Tanatosun" maşını, təsəvvür edildiyi kimi, ölü maşınına oxşamırdı. O tünd göy rənglə boyanmışdı, yaşıl və sarı zolaqları vardı, tər-təmiz idi, gün altında parıldayırdı. Həyətdəki başqa maşınlar cır-cında kimi səpələnib, həyəti köhnə dəmir bazarına oxşadırdı. Ətrafda ispanca və hindu dilində söyüşlər eşidilirdi. Yolun kənarındakı qayalar yosunla örtülmüşdü. Hündür qayalar günəşin altında metal parçaları kimi parlayırdılar. Sürücü boz rəngli xüsusi forma geymiş dombagöz, gombul bir kişi idi.

Jan Monye qəşəng qızlara mane olmamaq üçün irəli keçib sürücünün yanında əyləşdi. İti döngələrdə adama elə gəlirdi ki, maşın indicə dərəyə aşacaq. Jan sürücünü danışdırmaq istədi.

— Siz çoxdanmı "Tanatosda" sürücü işləyirsiniz?

— Üç ildir, — deyə kişi donquldandı.

— İşiniz çox qəribə işdir, eləmi?

— Qəribə? — deyə sürücü səsini qaldırdı. — Mən maşınımı sürürəm. Burada qəribə nə var ki?

— Sizin sərnişinlərdən heç geriyə qaıdanı olurmu?

— Həmişə yox. Bə'zən olur, — deyə kişi az narahatlıqla cavab verdi. — az olur… Ancaq hər halda olur. Elə mənim özümü götürün.

— Sizi? Doğrudanmı?… Deməli, siz bura… ölməyə gəlmişdiniz?

— Cənab, — sürücü acı-acı dilləndi. — Mən bu peşəni qəbul etmişəm ki, bir daha özüm haqda danışmayım. Həm də burada döngələr çox itidir. Zənnimcə nə özünüzün, nə də bu qızların qəzaya düşməsini istəmi rsiniz.

— Əlbəttə ki, yox, — deyə Jan Monye tələsik cavab verdi. Sonra isə cavabanın qəribəliyini fikirləşib gülümsədi.

İki saatdan sonra sürücü bir kəlmə söz demədən barmağı ilə dağ döşündəki "Tanatos" mehmanxanasını göstərdi.

Mehmanxana Hind-İspan stilində tikilmişdi. Damı alçaq və pilləli idi. Qırmızı divarlarına çəkilmiş sement ustalıqla gilə oxşadılmışdı. Otaqlar cənüba açılır, eyvanları gün döyürdü. İtaliyalı bir qapıçı qonaqları qəbul etdi. Onun təmiz qırxılmış üzü, başqa bir

ölkəni, böyük bir şəhərin küçələrini. Gül-çiçəkli parkları Jan Monyenin yadına saldı.

Xidmətçilərdən biri onun çamadınını əlindən aldı. Jan qapıçıdan soruşdu:

— Heç cürə yadıma slaa bilmirəm, mən sizi harada görmüşəm?

— Barselonada görmüsünüz, cənab… Mənim adım Sarkonidir… Oradan inqilab vaxtı qaçmışam…

— Barselonadan birbaş Yeni Meksikaya? Gözəl səyahətdir.

— Cənab, qapıçının işi həryerdə eynidir. Ancaq indi sizə verəcəyim kağızların doldurulması başqa yerdəkindən bir az çətin olacaq… Üzr istəyirəm, cənab!

Təzə gəlmiş üç nəfərə verilən vərəqlər xətlərlə, suallarla, izahatlarla dolu idi. Doğulduğun vaxt və yer, bir hadisə baş versə xəbərdar ediləsi adamların ünvanları tam dəqiqliklə göstərilməlidir.

— Xahiş olunur qohum, yaxud dostlarınızdan heç olmasa ikisinin ünvanını göstərəsiniz, ələlxüsus aşağıdakı "A" formasını adəti danışıq dilinizdə öz əlinizlə köçürməyi unutmayın:

"Mən, aşağıda imza edib, bədəndən və şüurdan sağlam olduğumu, həyatdan öz istəyimlə getməyimi əgər bir əhvalat baş verərsə, Tanatos Palas mehmanxanasının müdiriyyətinin və xidmətçilərinin məs'uliyyət daşımadığını təsdiq edirəm".

Qonşu stol arxasında bayaqkı qəşəng qızlar üz-üzə oturub, səliqə ilə "A" formasını köçürürdülər. Jan Monye gördü ki, qızlar alman dilində yazırlar.

Mehmanxananın müdiri Henri Bersteker sakit adam idi. Gözlərinə qızıl sağanaqlı eynək taxırdı. O öz müəssisəsi ilə fəxr edirdi.

— Mehmanxana sizinkidirmi? — deyə Jan Monye soruşdu.

— Xeyr, cənab, mehmanxana aksiyaçı bir cəmiyyətə məxsusdur. Lakin onu yaratmaq ilk dəfə mənim ağlıma gəlib. İndi mən buranın ömürlük müdiriyəm.

— Bəs nə əcəb yerli hökumət orqanları sizi incitmirlər?

— İncitmirlər? — deyə cənab Bersteker diksinərək təəccüblə dilləndi. — Cənab, biz mehmanxana qaydalarına zidd olan heç bir iş görmürük. Biz müştərilərimizin arzularını yerinə yetiririk, hər nə istəsələr onu edirik, başqa heç nə… Bir dəki, cənab burada hökumət orqanı yoxdur. Bu ərazi elə vəziyyətdədir ki, heç kəs buranın Meksikayamı, yaxud Birləşmiş Ştatlaramı məxsus olduğunu dəqiq bilmir. Uzun müddət buranı toxunulmaz hesab ediblər. Əfsanəyə görə, guya yüz il əvvəl bir dəstə hindli avropalılardan qaçıb bu də-

rədə ölüblər. Sonra yerli əhali deyirdi ki, həmin ölülərin ruhu bu dağa yaxın gəlməyə icazə vermir. Elə buna görə ərazini sərfəli qiymətə ala bildik. İndi asudə ömür sürürük.

— Bəs müştərilərin qohum-qardaşı necə sizinlə çəkişmirlər ki?

— Bizimlə çəkişmək? — cənab Bersteker incimiş halda, ucadan soruşdu? — nə üçün, canım? Hansı məhkəmənin qarşısında? Bizim müştərilərin qohumları bu cür əmmalı və ağır işlərin hay-küysüz görülməsindən çox razı qalırlar, cənab. Xeyr, xeyr əzizim burada bütün işlər alicənağblıqla və təmiz görülür, müştərilər isə bizim dostlarımızdır… Bəlkə öz otağınızı görmək istəyirsiniz?.. Əgər e'tirazınız yoxdursa, 113-cü otağı sizə veririk. Mövhumatçı deyilsiniz ki?

— Xeyr, qətiyyən. Ancaq iş burasındadır ki, mən dindar ailədə böyümüşəm, intihar fikri xoşuma gəlmir.

— İntihar haqda söhbət olmayıb, ola da bilməz, cənab! — deyə cənab Bersteker elə səmimiyyətlə inandırdı ki, mühasibinin daha sözü qalmadı. — Sarkoni, 113-cü otağı cənab Monyeyə göstər. Üç yüz dolları isə, zəhmət olmasa, kassaya verin. Kassa irəlidə, mənim kabinetimin yanındadır.

Jan Monyenin 113-cü nömrəli otağına gün düşürdü, işıqlı idi. O, nə qədər göz gəzdirdisə də, ölüm gətirəsi bir vasitə görə bilmədi.

Nahar saat neçədədir?

— Saat doqquzun yarısında ser, — deyə xidmətçi cavab verdi.

— Yaxşı geyinmək lazımdırmı?

— Centlmenlərin çoxu belə edir, ser.

— Yaxşı! Mən də geyinərəm. Mənim üçün ağ köynək və qara qalstuk hazırlayın.

Aşağı düşürkən o gördü ki, doğrudan da, qadınlar yaxası açıq, yaraşıqlı paltar, kişilər isə qara, səliqəli kostyum geymişlər. Cənab Bersteker onu böyük təntənə ilə qarşıladı.

— Ah, cənab Monye… Mən sizi axtarırdım… Bilirəm ki, təksiniz, istəyirdim sizi müştərilərimizdən biri ilə, miss Kibri Şou ilə bir stola də'vət edəm.

Monye üz-gözünü turşutdu:

— Mən buraya kef çəkmək üçün gəlməmişəm… Ancaq… Heç tanış etməmiş o qadını mənə göstərə bilərsinizmi?

— Əlbəttə, cənab Monye… Pianonun yanında əyləşib jurnalı vərəqləyən ağ krepsatin donlu gənc qadın miss Kibri Şoudur…

Heç inanmıram ki, onun xarici xoşunuza gəlməsin… Əksinə… o çox mülayim, gözəl, ağıllı və incə qadındır.

Doğrudan da miss Kibri Şou gözəl idi. Qara tellərinin xırda buruqları boynunun arxasına toplanmışdı. Hündür və yaraşıqlı alnı açıq idi. Ağıllı gözlərindən mehribanlıq duyulurdu. Görəsən, bu cür gözəl məxluq nəyə görə ölmək istəyir?

— Miss Kibri Şou da?.. Yə'ni bu qadın da buraya müştəri kimi, mənim gəldiyim məqsədlə gəlib?

— Əlbəttə, — deyə cənab Bresteker sözünə ikiqat qüvvə verməyə çalışdı. — Əl-bət-tə.

— Elə isə tanış edin.

Nahar sadə olsa da, çox ləzzətli idi. Yeməkdən sonra Jan Monye Klara Şounun həyatının heç olmasa əsas əhvalatlarını öyrənə bilmişdi. Klara varlı və xoşxasiyyət bir kişinin arvadı imiş, ərini sevmirmiş. Altı ay əvvəl ərini tərk edib, Nyu-Yorkda rast gəldiyi gənc bir yazıçının arxasınca Avropaya gəlir. Klara elə hesab edir ki, şirindilli və sırtıq oğlan onunla evlənəcək və ərindən boşanır. Lakin İngiltərədə ilk gündən mə'lum olur ki, gənc yazıçı ondan mümkün qədər tez yaxa qurtarmağa çalışır. İncimiş və heç nə başa düşməyən Klara oğlanı başa salmağa çalışır ki, onun ucbatından hər şeydən məhrum olub, indi çox pis vəziyyətə düşə bilər. Yazıçı doyunca gülübmüş:

"Klara, siz doğrudan da zəmanə qadını deyilsiniz!.. Əgər bilsəydim ki, bu qədər vasvasısınız, sizi ərinizdən və uşaqlarınızdan ayrılmağa qoymazdım… Bəli, onların yanına qayıtmaq lazımdır, əzizim… Siz böyük bir ailəyə evdarlıq etmək üçün yaranmısınız"

Klaranın bircə ümid yeri qalır: o inanır ki, əri Norman Kibri Şou ilə tezlikdə görüşə bilsə, asanlıqla könlünü alacaq. Lakin qohumlar, dostlar onun Klaraya olan kinini artırmağa çalışdılar. Normanla xoş danışmaq mümkün olmadı. Klara bir neçə dəfə alçaldı, üzrxahlıq etmək istədi, bir şey çıxmadı. Nəhayət bir səhər "Tanatosdan" məktub aldı. Fikirləşdi ki, öz dərdindən yalnız burdaa tez və asanlıqla yaxa quratra bilər.

— Bəs siz ölümdən qorxmursunuz? — deə Jan Monye soruşdu.

— Əlbəttə qorxuram… Ancaq həyatdan daha çox qorxuram…

— Çox gözəl ifadədir.

— Mən gözəl ifadə işlətmək istəmirdim, — deyə Klara təvazökarlıq etdi. — Yaxşı, indi söyləyin gərək siz nə üçün buradasınız?

Jan Monye öz əhvalatını söyləyib qurtaran kimi Klara onu danlamağa başladı:

— Heç inanmağım gəlmir! Necə yə'ni?.. Əmlakınızın qiyməti düşdüyünə görə ölmək istəyirsiniz?.. Başa düşmürsünüz ki, əgər yaşamağa cür'ətiniz çatsa, bir ildən sonra lap elə iki, üç, yaxud beş ildən sonra söz itkinizi unudarsınız bəlkə də təzədən qazana bilərsiniz?..

— Əslində varımı itirməyim bir bəhanədir. Əgər yaşamaq üçün bircə mqəsədim qalmış olsaydı, varsız da yaşayardım. Sizə bayaq söylədim ki, arvadım da məni tərk etdi… Fransada nə bir qohumum var, nə də dostum… Həm də sizdən nə gizlədim, mən öz vətənimi də uğursuz bir eşq məcərasından sonra tərk etmişəm. İndi kimin üçün mubarizə etməliyəm?

Özünüz üçün… Sizi sevəcək insanlar üçün… İnanıram ki, sizi sevənlər olacaq… Əgər ən ağır dəqiqələrdə bir-iki qadını e'tibarsız görmüsünüzsə, nahaq yerə qalanları haqda eyni fikirdə olursunuz.

— Siz doğrudan inanırsınız ki, yaxşı qadınlar… demək istəyirəm ki, mənim sevə biləcəyim, bir neçə il yoxsul və mübarizələrdə dolu həyat keçirməyə razı olacaq qadınlar var?

Mənim heç şübhəm yoxdur. Elə qadınlar var ki, mübarizəni sevir və yoxsulluqdan romantik bir ləzzət duyurlar. Məsələn, elə mən özüm.

— Sizmi?

— Oh mən ancaq demək istəyirdim ki…

O dayandı, tərəddüd etdi, sonra yenidən:

— Məncə, zala qayıtsaq yaxşıdır… Biz burada tək qalmışıq, mehmanxana müdiri də narahat-narahat yerində fırlanır.

— Siz necə bilirsiniz, — o, sözarası Klara Kibri Şounun çiyinlərinə sincab dərisindən tikilmiş zərif örtüyü saldı. — Siz necə bilirsiniz, yəqin ki, bu gecə?..

— Hələ yox! Siz ki, bu gün gəlmisiniz…

— Bəs siz?

— Mən iki gündür buradayam.

Ayrılarkən onlar, ertəsi gün səhər birgə çıxıb dağda gəzinmək üçün və'dələşdilər.

Səhər günəş qalxıb ətrafı işığa qərq etmişdi. Jan Monye soyuq duş qəbul edib çıxarkən fikirləşdi: "Yaşamaq necə gözəldir!" sonra

özü də öz fikrinə təəccüb etdi. Onun cəmisi bir neçə dollar pulu və bir neçə gün vaxtı qalmışdı. Jan köksunu ötürdü:

"Saat ondur! Klara məni gözləyəcək".

O tələsik geyindi. Ağ kətan kostyumda özünü daha da gümrah hiss edirdi. Jan, Klara Kibri Şoru ilə tennis meydançasında görüşdü. Klara da ağ geyinmişdi, dünən gəlmiş balaca avstriyalı qızlarla söhbət edə-edə gəzinirdi. Qızlar Monye yaxınlaşan kimi aralanıb getdilər.

— Yoxsa məndən qorxurlar?

— Xeyr onlar sizdən utanırlar. Mənə öz əhvalatlarını danışırdılar.

— Maraqlıdırmı?.. Mənə də danışarsan… Yaxşı yata bildinizmi?

— Çox yaxşı yatmışam. Qorxuram bü hiyləgər Bersteker bizim içkilərə narkoz qatmış ola.

— Zənn etmirəm, bu gecə yuxum çox şirin olub, təbii bir yuxu ilə yatmışam. Bu səhər özümü yaxşı hiss edirəm.

Bir andan sonrai Jan əlavə etdi:

— Həm də çox xoşbəxtəm.

Klara gülümsəyərək ona baxdı, ancaq bir söz demədi.

— Gəlin, bu cığırla gedək, — Jan uzağa aparan bir cığır göstərdi. — Mənə bayaqkı balaca avstraliyalılardan danışın… Siz burada Mənim Şəhrizadım olacaqsınız…

— Amma bizim gecələrimiz min bir olmayacaq.

— Heyhat!.. "Bizim" gecələrimiz…

Klara onun sözünü kəsdi:

— Bu qızlar əkiz bacıdırlar. Əvvəl Vyanada, sonra Budapeştdə yaşayıblar. Bir yerdə böyüyüblər, özlərindən başqa yaxın dostları olmayıb. On səkkiz yaşda onlar keçmiş zadəgan ailəsindən olan bir macar oğlanla tanış olublar. Oğlan çox gözəl imiş, həm də yaxşı çalıb-oxuyurmuş. Qızların ikisi də eyi vaxtda oğlana dəlicəsinə vurulur. Bir neçə ay sonra oğlan bacılardan biri ilə evlənmək fikrinə düşür. O biri bacı ümidsizlikdən özünü suda boğmaq istəyir, ancaq onu xilas edirlər. Onda nişanlı bacı da qraf Nikiyə ərə getməkdən imtina edir. Bacılar ikisi bir yerdə ölmək qərarına gəlirlər… Elə həmin vaxt, sizin kimi mənim kimi, onlar "Tanatosun" məktubunu alıblar.

— Səfeh iş görüblər! — deyə Jan Monye təəssüf etdi. — Onlar gənc, həmdə çox qəşəngdirlər… Gedib Amerikada yaşasınlar,

orada bu qızlardan ötrü çoxları dəli-divanə olar. Bir-iki həftə səbr etmək lazım idi.

— Əslində elə bizim hamımız səbrsizliyin ucundan buraya gəlib çıxmışıq. — Klara melanxolik səslə dilləndi. — Lakin hər birimiz öz ağlımızı başqaları üçün daha yaxşı işlədirik… Kim deyir ki, ruhu əzablara dözmək üçün insanda həmişə kifayət qədər qüvvə tapılır?

"Tanatosun" sakinləri bütün günü parkda, qaya döşündə dərədə gəzinən ağ geyimli kişi ilə qadına rast gəldilər. Onlar şirin-şirin mübahisə edirdilər. Hava qaralanda mehmanxanaya qayıtdılar. Meksikalı bağban onların qucaqlaşdığını görüb üzünü yana çevirdi.

Nahardan sonra bütün axşamı Jan Monye kimsəsiz balaca salonda Klara Kibri Şounun yanında əyləşib nə isə pıçıldayır, elə bil onu ovsunlayırdı. Direktor iri qara bir jurnalı vərəqləyirdi. O, hesablara göz gəzdirir, hərdən qırmızı qələmlə sətirlərdən birini pozurdu.

— Axşamınız xeyir, cənab Monye!.. Mənə bir qulluğunuz varmı?

— Bəli, cənab Bersteker, ümidvaram ki, kömək edərsiniz… Yəqin sözlərim sizə qəribə görünəcək… Qəfildən hər şey dəyişdi…. Bəli, həyat özü belədir… Sözün qısası, mən fikrimi dəyişmişəm…. Daha öltmək istəmirəm…

Cənab Bersteker təəccüblə ona baxdı:

— Siz zarafat etmirsiniz ki, cənab Monye?

— Anlayıram, sizə iradəsiz və dəyişkən adam tə'siri bağışlaya bilərəm… — deyə gənc fransız izah etdi. — Təbii haldır ki, yeni şərait insanda yeni duyğular yaradır. Səkkiz gün əvvəl sizin məktubunuzu alarkən özümü ümidsiz və bütün dünyada kimsəsiz hesab edirdim. Elə zənn edirdim ki, mübarizəyə başlamağına dəyməz… Bu gü hər şey dəyişdi… Əslində, bu sizin sayənizdə oldu, cənab Bersteker.

— Mənim sayəmdəmi, cənab Monye?

— Əlbəttə. Mənimlə stol arxasında üz-üzə əyləşdirdiyiniz qəşəng qadın bu cür möcüzə yaratdı… Miss Kibri Şou çox gözəl qadındır, cənab Bresteker.

— Mən ki, sizə deyirdim, cənab Monye.

— Həm gözəldir, həm də cəsarətli… Mən ona öz əhvalatımı söylədim. O, məmnuniyyətlə mənim səfil həhatıma yoldaş olmağa razılaşdı… Sizə təəccüblü gəlir, eləmi?

— Xeyr, təəccüblənmirəm… Burada belə əhvalatlar tez-tez olur… Mən bu işə çox sevinirəm, cənab Monye… Siz hələ gəncsiniz, çox gəncsiniz…

— Əgər siz narazı olmasanız biz miss Kibri Şou ilə sabah Diminqə yola düşərik.

— Deməli, miss Kibri Şou da sizin kimi… fikrini dəyişib?

— Bəli… Əlbəttə. Özü gəlib sizə danışacaq… İndi bircə mürəkəb məsələ qalır… Sizə verdiyim üç yüz dollardan başqa demək olar ki, pulum yoxdur. Həmin pul "Tanatosun" toxunulmaz əmlakı olur, yoxsa, mən yol pulu üçün bir az götürə bilərəm?

— Biz namuslu adamlarıq, cənab Monye… Görülməmiş iş üçün pul almırıq. Sabah səhər kassa günə iyirmi dollardan pulunuzu hesablayacaq, qalanı isə sizə qaytarılacaq.

— Siz çox nəcib və alicənab adamsınız… Ah, cənab Bersteker, mən sizə çox borcluyam! Yeni bir saədət tapdım… Yeni bir həyat…

— Qulluğunuzda hazırıq, — deyə cənab Bersteker gülümsündü. Sonra çıxıb uzaqlaşan Jan Monyenin arxasınca baxdı. Masanın üstündə bir düyməni basdı və dedi:

— Sarkonini yanıma göndərin.

Bir neçə dəqidədən sonra qapıçı gəldi.

— Siz məni çağırmısınız, senyor direktor?

—Çağırmışam, Sarkoni… Bu axşam… Bu axşam 113-cü otağa qaz buraxmaq lazımdır… Saat ikiyə yaxın.

— Senyor direktor, ölüm qazından əvvəl yuxu qazı göndərmək lazımdırmı?

— İnanmıram ki, lazım ola… O çox yaxşı yatacaq. Bu axşam üçün kifayətdir. Sarkoni… Sabah danışdığımız kimi, 17-ci otaqdakı balaca qızları…

Qapıçı çıxan kimi miss Kibri Şou kabinetin qapısında göründü.

— Gəl içəri, — deyə cənab Bersteker çağırdı. — Elə indicə istəyirdim səni çağırtdırım. Müştərin gəlib mənə e'lan etdi ki, yola düşməyə hazırlaşır.

— Zənnimcə, məni tə'rifləməyə dəyər, — deyə Kibri Şou lovğalandı. — İş təmiz görülüb.

— Bəli, həm də tez… nəzərdə saxlayıram.

— Deməli, bu gecə?

— Hə, bu gecə.

— Zavallı oğlan! Mehriban və xəyalpərvər adamdı…

— Onların hamısı xəyalpərvər olur, — deyə Bersteker donquldandı.

— Yaman qəddar adamsan, hər dəfə bu zavallılar həyatın qədrini bilməyə başlayanda nəfəslərini kəsirsən.

— Qəddaram?.. Əksinə, bizim üsulumuzun əsil insanpərvər cəhəti də elə burasındadır. Bu adam dini əqidələrdən çəkinirdi… Çalışıram günahsız ölsün.

O, qarşıdakı vərəqə baxıb əlavə etdi.

— Sabah istirahət edirsən… Birisi gün isə sənin üçün təzə müştəri var… O da bankirdir, ancaq bu dəfə İsveçdən… özü də çox cavan deyil.

Klara fikirli-fikirli dilləndi:

— Bu fransız oğlan hamısından yaxşı idi.

Direktor ciddiləşdi:

— İş vaxtı ayrı-seçkilik olmaz. Al, bu sənin on dolların, bu on dollar isə mükafatdır.

— Sağ ol, — deyib Klara pulları götürüb çantasına qoydu. Sonra köksünü ötürdü.

Klara qapıdan çıxan kimi cənab Bersteker qırmızı qələmini götürdü. Balaca dəmir xətkeşi səliqə ilə siyahının üstündə gəzdirib, adların birində saxladı, üstündən səliqəli bir xətt çəkdi.

— Maskanı çıxarmaq? — deyə Bertran Şmidt söhbətə qarışdı. — Sizə elə gəlir ki, maskanı çıxarmaq həmişə xeyirli olur? Məncə, çox yaxın və mehriban dostlar səmimi olurlar, qalan bütün cəmiyyətdə isə insanların münasibətində əsasən maskalar iştirak edirlər… Əgər bir dəfə təsadüfən, məcbur olub həmişə həqiqəti gizlətdiyimiz adamlara onu danışsaq tez peşman olarıq.

Kristyan Menetrye bir əhvalat danışdı:

— İngiltərədə baş vermiş bir qəzanı xatırlayıram… Şaxta qaz partlayışında uçmuşdu, on iki nəfər qazmaçı şaxtanın bir küncündə salamat qalmışdı… Bir həftə orada qaldıqdan sonra, qazmaçılar gizli işlərini e'tiraf edir… Onlar belə fikirləşiblər: "İndi ki, ölürük qoy ürəyimizi boşaldaq". Sonra gözlənilməz bir vəziyyətdə xilasedilirlər… Qazmaçılar bir daha görüşmək istəmirlərmiş… Özü barədə çox şey bilən adamlardan hər biri uzaq qaçırmış. Maskalar yenidən taxılmış cəmiyyət xilas edilmişdi.

— Bəli, — deyə Bertran təsdiq etdi. — Belə əhvalatlar olur. Yadımdadır. Afrikaya səyahətim zamanı tükürpədən bir e'tirafın şahidi olmşuam.

O, boğazını təmizlədi və tərəddüdlə bizə baxdı. Qəribə burasıdır ki, Bertran camaat qarşısında çox çıxış etsə də utancaq adamdı. O, yersiz söhbət edəcəyindən qorxurdu. Ancaq həmin axşam heç kimin mane olmadığını görüb söhbətə javam etdi:

— Yəqin ki, mənim 1938-ci ildə Fransa Cəmiyyətinin xahişi ilə mühazirə oxumaq üçün Fransanın Qərbi və Ekvatorial Afrikasını və dənizin o üzündəki başqa yerləri gəzdiyim yadınızda deyl. İngiltərənin, Fransanın, Belçikanın müstəmləkələrini (o vaxt hələ müstəmləkə deyirdilər) gəzdim, peşman olmadım. Bu yerlərə gedən az olur, yerli təşkilat işçiləri adamı şah kimi, yaxud, elə daha yaxşısı mehriban dostkimi qarşılayırlar… Əhvalatın baş verdiyi balaca paytaxtın adını sizə demək istəmirəm, çünki haqqında danışacağım adamlar sağdırlar. Mənim qəhrəmanlarımın biri əlli yaşlarında, səliqəli, ağ saçlı qubernator, ikincisi isə onun cavan, sarışın, qaragöz, deyib-gülən arvadıdır. Söhbətin dolaşıq olmaması üçün onları şərti olaraq Busardlar adlandıraq. Onlar məni öz saraylarında qəbul etdlər. Bu, qırmızımtıl, qayaların arasında tikilmiş kazarma üslubunda qəşəng bir mülk idi: yüksək zövqlə bəzədilmişdi. Onların evində iki gün yaxşı istirahət etdim. Salonun or-

tasında yerə sərilmiş pələng dərisinin üstünə eben ağacından düzəldilmiş pələng dərisinin üstünə eben ağacından düzəldilmiş bir masa qoyulmuşdu. Masanın üzərində "Nuvel revü fransez", "Merkur dö frans" və təzə romanlar vardı. Evdə yaradılmış səliqəyə görə qubernatorun köməkçisi gənc leytenant Düqası tə'riflədim.

— Düzü, xoşunuza gələn bu şeylərdə mənim əməyim yoxdur, bunlar madam Busardın işidir. Kitablar və güllərlə o məşğul olur.

— Yoxsa, madam Busard ədəbiyyat adamıdır? — deyə soruşdum.

— Əlbəttə. Nə əcəb özünüz başa düşməmisiniz… Jizel, biz onu öz aramızda belə sadə adla çağırırıq, Sevrdə Ekolnormalı bitirib. Qubernatora ərə getməzdən əvvəl Lionda ədəbiyyatdan dərs deyirdi. Qubernator mə'zuniyyətdə olduğu vaxt ona yenidən rast gəlib. Ona görə yenidən deyirəm ki, onlar əvəlcədən bir-birlərini tanıyırlarmış. Jizel sahibin ən yxaın dostlarından birinin qızıdır. O, qızı sevib, qız da onunla buraya gəlməyə razı olub. Demə, Jizel özü də çoxdandır onu sevirmiş.

— Axı, yaşları çox fərqlidir?

— O vaxtlar qubernator çox cazibədar olub. Evlənməzdən əvvəl onu tanıyanlar söyləyirdilər ki, istədiyi qadını ələ gətirirmiş… İndi qocalıb.

— Bu cür evlənmiş adamın günü qara olur.

— Məsələ təkcə evlənməkdə deyil. Onun həyatı həmişə əziyyətli olub… Otuz il Afrikada işləyib… İqlimin ağırlığ, daimi narahatlıq əziyyətli iş…Bizim sahib çox nadir adamdır. O il əvvəl o buraya gələrkən ətraf meşələrdə vəhşi qəbilələr yaşayırdı. Onlar aclıqdan qırılırdılar. Aralarındakı cadugərlər onları bir-birini öldürməyə, arvadlarını, uşaqlarını oğurlamağa, öz bütlərinə insan qurbanları kəsməyə vadar edirdi… Sahib onları sakitləşdirdi, bir yerə cəmlədi, başa saldı ki, onlar bu torpaqda kakao becərə bilərlər. Altı il sonra meyvə verəcək bir ağacın əkilməsini, gələcək haqda təsəvvürü bu adamlara aşılamaq, inanın ki, çox çətin məsələdir.

— Onlar öz azadlıqları, asudə, tənbəl həyatları üçün darıxırlar? Qubernatora necə münasibət bəsləyirlər?

— Sevirlər, lap pərəstiş edirlər… Bu yaxınlarda onunla yarımvəhşi qəbilələrdən birinə getmişdim. Qəbilə başçısı onun qarşısında diz çöküb dedi: "Sən məni tənbəl bir oğul kimi məzəmmət etdin. Çox yaxşı elədin… Məni ayıltdın… İndi varlanmışam…" Ağıllı camaatdır, özünüz görərsiniz, əgər düzgün rəftarı bacaran olsa on-

ları öyrətmək asandır. Onların hörmətini qazana bilmək üçün peyğəmbər kimi müqəddəs bir adam olmaq lazımdır.

— Sizin sahib necə, müqəddəs adamdır? — Leytenant gülümsəyərək mənə baxdı.

— Müqəddəs necə adama deyərlər?

— Bilmirəm… günahsız, təmiz adamlara.

— Hə, sahib də belə adamdır. Onun heç bir eybi yoxdur, iradəsiz adam deyil, heyf, bircə zəif cəhəti var… O, şöhrətpərəstdir, amma öz şöhrətinin yox, işin naminə çalışır… O idarə etməyi sevir, istəyir ki, daha böyük sahələr onun hakimiyyəti altında olsun.

— Maşal Lyotey də deyirmiş: "Mərakeş? Bu ki balaca kənddir… Mənə bütün yer kürəsi lazımdı!"

— Elədir, sahib bu balaca planetimizi idarə etmək istərdi… Həm də başqalarından yaxşı idarə edərdi.

— Axı, sizin müqəddəsiniz əvvəllər donjuanlıq edib?

— Müqəddəs Avqustun özü də onun kimi olub. Gənclik illərində olan şeydir… Evlənəndən sonra nümunəvi ər olub… İndiki vəziyyətində o qədər imkan var ki… Hələ mən onun kölgəsi olsam da…

— Siz həmin imkanlardan istifadə edirsinizmi?

Mən nə qubernatoram, nə müqəddəs, nə də evli… Arxa planda olmağıma sevinirəm.. Yaxşısı budur sizin səyahətinizdən danışaq, əziz cənab. Sabahkı səfərinizdə qubernatorun sizi müşayiət edəcəyini bilirsinizmi?

— Qubernator məni öz şəxsi təyyarəsində aparmağı təklif edib. Dediyinə görə, özü də sahili gəzməli, hansı bir abidəninsə açılışında iştirak etməlidir… Siz də gedəcəksinizmi?

— Xeyr… Siz və qubernatordan başqa, ərinin cəngəlliklər üzərində tək uçmasına razı olmayan madam Busard, təyyarəçi və yerli qarnizonun komendantı podpolkovnik Anjel təyyarədə olacaqlar. Anjel qubernatorla birgə yerləri yoxlamağa gedir.

— Mən onu görmüşəm?

— Zənnimcə yox, amma xoşunuza gələcək. Qızıl kimi adamdır, hazırcavabdır… Hərbi işdə də əsl asdır. Əvvəllər kəşfiyyatçı zabit kimi Mərakeşdə işləyib, sizin marşal Lyoteyin şagirdlərindəndir… Bu yaşda podpolkovnikdir, gözəl gələcəyi var.

— Sizcə, səyahət uzun çəkər?

— Yox, canım! Deltaya qədər bir saat cəngəlliyn üstü ilə uçacaqsınız, sonra yüz kilometr plyajın üstü ilə uçub çatacaqsınız.

Sarayda axırıncı naharımız çox şən keçdi. Səfərə hazırlığı təşkil etmək üçün Anjel də dəʼvət edilmişdi. O, podpolkovnik olsa da, kapitana oxşayırdı. Üzdən də, ürəkdən də cavan idi. Çox, həm də yaxşı danışdı. Söhbətində gah paradoksallıq duyulurdu, gah kəskinlik. Lakin yüksək mədəniyyəti həmişə hiss olunurdu. Yerlilərin adətləri, totemləri və tabuları haqda qubernatordan çox bilirdi. Qəribə burasıdır ki, söhbət zamanı madam Busad ona kömək edirdi. Qubernator aludəliklə arvadına qulaq asır, hərdən də gözünü mənə zilləyib arvadının necə təʼsir bağışladığını öyrənmək istəyirdi. Nahardan sonra o, Anjeli və Düqası götürüb, bəʼzi vacib məsələləri həll etmək üçün öz otağına keçdi. Mən Jizellə tək qaldım. O, işvəli qadındı, mən isə belə şeylərdə zəiflik göstərənəm, elə ki, səmimiyyətimə inandı, podpolkovnik haqda məni suala tutmağa başladı.

— Onun haqda nə fikirdəsiniz? Siz yazıçısını gərək belə adamlar xoşunuza gəlsin. Biz onu çox istəyirik. Ərim lap başına and içir. Mənə elə gəlir ki, buraya sürgün olunmuşam. Anjel isə özü ilə Fransanın və dünyanın nəfəsini gətirir… Əgər imkanınız olsa deyin əzbərdən şeʼr söyləsin… Bu adam canlı antologiyadır.

— Yaxşı oldu, təyyarədə vaxtımızı şən keçirərik.

— Yox, — deyə Jizel eʼtiraz etdi, — təyyarədə pərlərin səsindən heç nə eşitmək olmur.

Saat ona yaxın qubernatorla podpolkovnik yanımıza qayıtdılar. Lakin həmin saat ayrılmalı olduq, çünki sabahkı səfərimiz istiyə düşməmək üçün saat dördə təʼyin edilmişdi.

Qara dərili xidmətçi məni oyadanda hava yaxşı deyildi. Qəçrbdən güclü külək əsirdi. Mən təyyarə ilə min kilometrlərlə yol keçmişəm, ona görə də təyyarəyə minəndə, azacıq da olsa, naarhat olmuram. Amma bu ucsuz-bucaqsız çəngəlliklər üzərində uçmağı xoşlamıram, çünki buralarda yerə enmək olmur, əgər təsadüfən etməyə imkan tapsan da, xilasedicilərin sən tapacağına ümid bağlama. Mən səhər — nahar üçün aşağı düşəndə Düqas masa arxasında idi.

— Hava yaxşı olmayacaq, — o narahatlıqla dilləndi. — Təyyarəçi səfəri təʼxirə salmaq istəyirdi, sahib razı olmadı; o deyir ki, öz bəxtinə inanır, həm də hava bürosunun məʼlumatı çoxt vaxt yalan çıxır.

Kaş elə olsun, mən özüm bu axşam Bakokada mühazirə oxumalıyam. Qçəza gözlənildiyi vaxt gəlmir.

Bir az sonra qubernatorla arvadı qəbul otağına endilər. Qubernator ağ hərbi paltar geymişdi, ordenlərini də taxmışdı. İdman paltarı geymiş yaraşıqlı madam Busard elə bil onun qızı idi. Hələ yuxusu dağılmamışdı, az danışırdı. Təyyarə meydanında (meşənin içində qırılıb təmizlənmiş böyük talada) podpolkovniki gördük. O, kinayəli bir təbəssümlə tufanqabağı qaralmaqda olan səmaya baxırdı.

— Sent Ekzüperinin dağ üzərindəki hava boşluqlarını necə təsvir etdiyini xatırlayırsınızmı? — deyə o mənə müraciət etdi. — Meşə üzərindəki hava boşluqları daha pisdir. Özünüz görəcəksiniz. Rəqs eləməyə hazırlaşın… Siz gərək qalaydınız, madam, — deyə o, madam Busarda tərəf çevrildi.

— Elə söhbət yoxdur, — deyə madam qətiyyətlə cavab verdi. — Əgər hamı qalırsa, mən də qalıram; hamı gedirsə, mən də gedirəm.

Təyyarəçi qubernatorla salamlaşıb onu bizim dəstəmizdən ayırdı. Hiss edirdim ki, səfəri tə'xirə salmaq üçün qubernatoru dilə tutur, amma müqavimətə rast gəlirdi. Bir az sonra qubernator bizə tərəf gəldi və soyuq-soyuq dedi:

— Getmək lazımdır.

Bir neçə dəqiqə keçmiş biz sıx meşənin üzəri ilə uçurduq. Motorun səsindən heç nə eşitmək olmurdu. Külək meşəni taxıl zəmisi kimi dalğalandırırdı. Madam Busard gözlərini yummuşdu. Yolda oxumaq üçün kitab götürmüşdüm, təyyarə elə bərk silkələnməyə başladı ki, kitabı örtməli oldum. Biz meşənin üstü ilə təxminən min mer hündürlükdə qara buludların arası ilə uçurduq. Güclü yağış təyyarəni döyəcləyirdi. Hava ağır idi. Adam boğulurdu. Hərdən təyyarə boşluğa düşür, qalın hava qatı üzərində elə güclü təkanla qərar tutrdu ki, qanadların salamat qalacağına inanmırdım.

Bu dəhşətli səfər haqda çox danışmaq istəmirəm. Get-gedə güclənən tufanı, yüz oyundan çıxan təyyarəni, tez-tez çevrilib bizə baxan təyyarəçinin qorxu dolu gözlərini özünüz təsəvvürünüzə gətirin. Qubernator əhvalını pozmurdu, arvadı isə hələ gözlərini açmamışdı. Bu vəziyyətdə bir saatdan çox uçduq. Birdən podpolkovnik qolumdan tutub məni illüminator a tərəf çəkdi.

— Bircə baxın! — deyə qulağıma qışqırdı, — dənizin suyu qalxıb daha delta görünmür.

Doğrudan da, gözümüzün qabağına çox qəribə əhvalat baş verirdi. Ağacların qurtardığı yerdə sudan başqa heç nə görünmürdü.

Hər yan su idi. Elə bil dənizə sarı palçıq qatmışdın, su sapsarı idi. Güclü külək dalğaları ağaclara çırpırdı… Deyəsən, meşənin də bir hissəsini su basmışdı. Plyaj suyun altında qalmışdı. Təyyarəçi bir vərəqə xırda qeydlər etdi, çevrilib onu podpolkovnikə verdi. Anjel vərəqi mənə göstərdi.

— İstiqamət itib. Radio işləmir. Bilmirəm hara enim!

Podpolkovnik qalxıb təkandan səndələyərək kreslolardan tutatuta kağızı qubernatora apardı.

— İstiqaməti dəyişib geri qaytımaq üçün yanacaq çatarmı?

Podpolkovnik gedib təyyarəçidən soruşub qayıtdı.

— Yox, — deyə sakitcə cavab verdi.

— Onda qoy ensin aşağı, bəlkə bir ada, yaxud hələ tamam batmamış torpaq sahə tapdı. Yeganə ümidim buna qalıb. (Sonra, təzəcə gözlərini açmış arvadına tərəf döndü). Qorxmayın, Jizel, dənizdə qabarma var, indi bir yer tapıb enərik. Tufan sakitləşəndən sonra köməyimizə gələrlər.

Jizel bu qorxulu xəbəri elə sakitliklə və təmkinlə qarşıladı ki, mat qaldım. Təyyarə lap aşağıya endi. Nəhəng sarı dalğaları və bulaşıq duman arasından görünən, küləyin ikiqat əydiyi ağacları aydın görürdüm. Təyyarəçi menə ilə dənizin birləşdiyi xətlə uçur, enmək üçün tala, yaxud sahildə, kiçicik də olsa, quru yer axtarırdı. Mən dinmirdim, amma fikirləşirdim ki, sağ qalacağımıza ümid yoxdur.

— Axı, nədən ötrü? — deyə düşündüm. — Niyə özümü bu cəhənnəmə salmışam? İki yüz, yaxud üç yüz laqeyd tamaşaçının qarşısında mühazirə oxumaq üçünmü?.. Yox, bu səfərlərin heç kimə xeyri yoxdur!… Bir də ki, hamısı sözdür. Əcəlin yetdi, ölməlisən. Burada olmasa, Paris ətrafında yük maşınının altına düşə bilərdim, xəstəlikdən yaxdu qərəzsiz atılmış güllədən ölə bilərdim… Görək nə olur?! Elə bilməyin ki, öz təmkinimi təsvir edib lovğalanıram. Sözün doğrusu, hamı kimi mən də elə güclü ümidlə yaşayıram ki, ölüm bir addımlığımızda olsa da öləcəyimə inanmırdım. Şüurum ölümün yaxınlaşdığını söyləsə də, bədənim onunla razılaşmırdı. Podpolkovnik gedib təyyarəçinin yanında əyləşmişdi, onunla bərabər gözünü sarımtıl okeana zilləyib, enmək üçün yer axtarır. Əlini uzatdığını gördüm, təyyarə yana döndü. Podpolkovnik arxaya çevrildi; indiyə qədər qaşqabaqlı görünən sifəti işıqlanmışdı.

— Balaca bir ada görürəm, — dedi.

— Torpaq parçası enmək üçün kifayət edərmi? — deyə qubernator soruşdu.

— Zənnimcə bəs edər. — Bir az keçmiş o öz sözün təsdiq etdi.

— Əlbəttə bəs edər… Enmək lazımdır. Boek.

Beş dəqiqə sonra deltanın su basmış adacıqlarından birinə sonra deltanın su basmış adacıqlarından birinə endik. Təyyarəçinin məharətindənmi, yoxsa xeyirxah təsadüfdənmi təyyarə iki palma ağacının arasında ilişib dayandı. Ağaclar təyyarəni küləkdən bir az qoruyurdu. Külək o qədər güclü əsirdi ki, təyyarədən düşmək mümkün deyildi. Əslində düşməyə ehtiyac da yox idi. Hara geməli idik ki? Sağımız və solumuz yüz metr məsafədə yaş qumluq idi. Qabaqdan da, arxadan da okean bizi əhatə etmişdi. Biz müvəqqəti xilas olmuşduq, buradan sağ çıxmağımız yalnız mö'cüzə olardı.

Belə çıxılmaz bir vəziyyətdə Jizelin iradəsinə heyran olmuşdum. O nəinki cəsarətli, həm də sakit, şən bir qadın imiş.

— Bəlkə acanınız var? — deyə soruşdu. — Mən özümlə sendvic və meyvə götürmüşəm.

Təyyarəçi də pilot kabinəsindən çıxıb yanımıza gəlmişdi. O məsləhət gördü ki, yeməyi saxlayaq; allah bilir buradan nə vaxt və necə çıxa biləcəyik. O, stansiyalardan biri ilə əlaqə yaratmağa bir daha cəhd etdi, amma cavab gəlmədi. Saata baxdı. Saat on bir idi.

Günortadan sonra külək bir az sakitləşdi. Palma ağacları dözə bilmişdi. Qubernator yatdı. Mən özüm də yorulmuşdum. Gözlərimi yumdum, az keçməmiş qəribə bir hissin və qüvvənin tə'siri ilə gözlərim qeyri-ixtiyari açıldı. Mən bir-birindən azca aralı dayanmış podpolkovniklə Jizelin necə baxışdıqlarını gördüm. Bu baxışlarda elə bir mehribanlıq, elə bir od vardı ki, onların aşiq-mə'şuqə olduqlarına şübhəm qalmadı. Onların hərəkətlərində şübhə doğuracaq heç nə görməsəm də nədənsə, dünən axşamdan ürəyimə dammışdı. Tələsik gözlərimi yumdum, elə yorğun idim ki, tez yuxuya getdim.

Yuxudan gurultuya ayıldım. Külək təyyarəni elə bərk silkələdi ki, elə bil dayaq qırılmışdı. Soruşdum:

— Nə olub?

— Tufan güclənir, su qalxır, — deyə təyyarəçi acıqla cavab verdi. — Bu dəfə daha ümid yerimiz yoxdur, cənab. Bir saatdan sonra durduğumuz yer… və biz özümüz suyun altında qalacağıq.

O kinayə ilə, lap deyəsən, acıqla qubernatora baxdı və əlavə etdi:

— Mən bretonluyam, allaha inanıram… Gərək dua edəm.

Düqas mənə söyləmişdi ki, siyasi ən'ənəyə görə, qubernator antiklerikal mövqe tutur, lakin burada ona dəyərli xidmətlər göstərən missionerlərlə münasibəti çox yaxşı idi. İndi o, nə təyyarəçini fikrindən döndərmək, nə də onun kimi dua etmək üçün təşəbbüs göstərmədi. Bu vaxt şaqqıltı eşidildi; külək soldakı palma ağacını sındırdı. Qalan ömrümüzü dəqiqələrlə sayırdıq. Həmin anda rəngi qaçmış Jizel qəribə bir ehtirasla qaçıb gənc podpolkovnikə sıxıldı.

— İndi ki ölürük, mən sənin qolların arasında ölmək istəyirəm.

Sonra ərinə tərəf çevrilərək üzrxahlıq etdi:

— Bağışlayın məni, Erik… Nə qədər ki, yaşayırdıq, heç nə demirdim, sizi kədərləndirmək istəmirdim… İndi isə sizin üçün də, mənim üçün də hər şey, bitib… Daha yalan danışa bilmərəm.

Həyəcanlanmış podpolkovnik ayağa qalxıb özündən çıxmış bu qadını kənar etməyə çalışdı.

— Cənab qubernator, — deyə sözə başladı…

Tufanın uğultusundan cümlənin gerisini eşidə bilmədim. Onlardan iki addım aralıda əyləşmiş qubernator Jizellə podpolkovnikdən gözünü çəkə bilmirdi. Onun dodaqları əsirdi; bilmirəm danışırdı, yoxsa tutulmuş dilini açmağa çalışırdı. Rəngi elə ağarmışdı ki, qorxdum ürəyi getsin. Təyyarə torpağa bircə qanadı ilə ilişmişdi, sağdakı palma ağacına söykənib küləyin qarşısında bayraq palma ağacına söykənib küləyin qarşısında bayraq kimi çırpınırdı. Ölümə yaxın olduğum belə bir anda İzabel haqda, öz ailəm haqda düşünməli idim, lakin qarşımdakı səhnə o qədər qəribə idi ki, yadıma heç nə düşmürdü.

Təyyarəçi irəlidə, arxası bizə dizüstdə dua oxuyurdu. Podpolkovnik elə bil ki yerə bölünmək istəyirdi; nə qollarını açıb onu ağuşuna almağı tələb edən sevdiyi qadından keçə bilir, nə də hörmətini saxladığı rəisinin əzab çəkməsini istəyirdi. Mən isə təkanlara tab gətirə bilmək üçün özümü yığışdırmışdım, bu səhnədən kənarda olmağa, onların gözünə görünməməyə çalışırdım. Əslində, deyəsən, onlar mənim burada olduğumu unutmuşdular.

Qubernator kreslolardan tuta-tuta arvadına yaxınlaşa bildi. Onun həyatını da, xoşbəxtliyini də məhv edəcək fəlakətin qarşısında azacıq da olsa özünü itirməmişdi. Onun yaraşıqlı sifətində qəzəb duyulmurdu, ancaq gözləri nəmli idi. Arvadına çtanda mənə söykəndi, ürəkparçalayan mülayim səslə dedi:

— Mən heç nə bilmirəm, Jizel, heç nə bilmirdim… Qayıt gəl yanımda otur… Jizel! Mən xahiş edirəm… Sizə əmr edirəm.

Jizel podpolkovniki qucaqlayıb özünə sıxmağa çalışırdı.

— Mənim məhəbbətim, — deyirdim, — mənim məhəbbətim niyə çəkinirsən? Hər şey bitib… Mən sənin ağuşunda ölmək istəyirəm. Yox, son dəqiqələrimizi həya üzündən qurban vermə… Özün bilirsən ki, sənə həmişə itaət etmişəm… Sən Erikin hörmətini saxlayırdın, onu sevirdin… Mən də sevirdim… Bəli, doğrudan, Erik, mən səni sevirdim!… İndi isə ölürük!

Təkanların birində haradansa qopmuş dəmir parçası Jizelin sifətini cızdı. Onun üzündən qan süzülüb, incə bir xətt çəkdi.

— "Hörmət saxlamaq lazımdır!" — deyə Jizel acı-acı sözünə davam etdi. — Bu üç sözü mənə nə qədər demisən, əzizim… Biz hörməti ləyaqətlə saxladıq… Bəs indi? İndi hörmət sazlamaq vaxtı deyil, bizə qalan bir neçə dəqiqəni yaşamaq lazımdır.

Sonra boğuq səslə astadan dedi:

— Qorxaq, qorxaqsan! Biz indi öləxəyik… Sən isə burada, bir kölgənin qarşısında donub qalmısan . Qubernator əlindəki yaylıqla mehriban, sərbəst hərəkətlə onun üzündən qanı sildi. Sonra qəmli, lakin ciddi nəzərlərlə podpolkovnikə baxdı, onun gözləridə kin duyulmurdu. Mənə elə gəldi ki o öz baxışları ilə belə demək istəyirdi: "Bu zavallını qucaqlayın. Daha mənim əzab çəkməyə halım yoxdur". Podpolkovnik elə bil yerə mıxlanmışdı, o da sanki baxışları ilə cavab verirdi: "Yox, sizə rəğbətim böyükdür, bağışlayın məni". Mənə elə gəlir ki, Tristanla kral Mark qarşımda şahidi olmamışam. Yalnız küləyin vıyıltısı və dua oxuyan təyyarəçinin mızıltısı eşidilirdi. Kiçik pəncərədən baxanda bomboz səma, talatala qara buludalr, aşağıda isə get-gedə yaxınlaşan sarı dalğalar görünürdü.

Külək bir anlıq ama verdi, bayaqdan zabitin mundirindən yapışıb durmuş Jizel qalxa bildi. Vəhşi bir etirasla podpolkovnikin dodaqlarından öpməyə başladı. Zabit bir anlıq ondan aralanmaq istədi, smonra rəhmə gəldi, gözünü qubernatordan çəkib ehtirasla öpüşə cavab verdi. Qubernatorun rəngi daha da ağardı, o, kresloya yaxıldı, deyəsən, huşun itirmişdi. Birdən həya məni bürüdü, gözlərimi yumdum.

Biz nə qədər b vəziyyətdə qaldıq? Bilmirəm. Bircə o yadımda qalıb ki, dəqiqələrmi, saatlarmı keçəndən sonra tufanın gurultusu içərisindən motor səsi eşidildi. Bəlkə məni qara basırdı? Qulaqla-

rımı şəklədim və ətrafıma baxdım. Yoldaşlarım da mənim kimi qulaq asırdılar. Podpolkovniklə Jizel bir-birlərindən ayrılmışdılar. Jizel balaca pəncərədən çölə baxırdı. Ayaq üstə durub qulaq asan təyyarəçi soruşdu:

— Eşidirsinizmi, cənab qubernator?

— Eşidirəm. Təyyarədir?

— Zənnimcə, yox, — deyə təyyarəçi cavab verdi. — Sə motor səsidir, amma təyyarə motoru daha güclü səslənir.

— Yaxşı, bəs nədir? Mən heç nə görmürəm.

— Bəlkə keşikçi gəmidir?

— Burada olduğumuzu necə bilib?

— Bilmirəm, cənab podpolkovnik, amma səs indi aydın eşidilir. Onlar yaxınlaşırlar. Səs şərqdən gəlir, deməli, sahildən… Baxın, cənab podpolkovnik, oradakı boz nöqtəyə baxın! Bax orada, dalğaların üstündə… Kater gəlir.

O, əsəbi bir qəhqəhə çəkdi.

— Aman allah! — deyib Jizel köksünü ötürdü, ərinə tərəf bir addım da atdı.

Üzümü balaca pəncərəyə söykəyib, bizə tərəf üzən kateri lap aydın gördüm. O get-gedə qalxan su ilə mübarizə edir, hərdən dalğaların arasında itir, amma yavaş-yavaş yaxınlaşırdı. Dənizçilər bizə yaxınlaşmaq üçün on beş dəqiqə vaxt itirdilər. Bu oon beş dəqiqə bizə bir ildən çox göründü. Nəhayət, onlar irəliləyib palma ağacına atdıqları qarmağın köməyi ilə bizə yaxınlaşanda ən çətin məsələ katerə keçmək oldu. Külək təyyarəni elə silkələyirdi ki, qorxudan tərpənə bilmirdik. Kater də suda batıb çıxırdı. Nəhayət, təyyarəçi qapını açıb katerə kəndir ata bildi, dənizçilər kəndiri tutdular. Beş nəfərdən heç birimizin dənizə yıxılmadan katerə keçə bildiyimizə indi də təəccüb edirəm.

Su keçirməyən plaşlara bürünüb, katerdən təyyarəmizə baxanda dəhşətə gəldik. Kənardan baxanda açıqca göründüyü ki, təyyarə öz əqirbə müvazinətini çox saxlaya bilməz. Jizelin əhvalı azacıq da olsa dəyişməmişdi, heç nə olmayıbmış kimi saçlarını səlimqəyə salırdı. Balaca gəmiyə kapitanlıq edən kiçik rütbəli dənizçi bizə söylədi ki, gözətçi təyyarəmizin buraya endiyini görübmüş. Onlar da səhərdən köməyə gəlməyə çalışırlarmış. Üç dəfə tufan dənizçiləri geri qayıtmağa məcbur edibmiş. Dördüncü dəfə isə birtəhər özlərini yetiriblər. Dənizçilər söylədilər ki, tufan sahildə yerləşən kəndlərdə və Batoka limanında da qəzalar törədib.

Limanda bizi yerlə hakimiyyət orqanının nümayəndəsi qarşıladı. Gənc müstəmləkə mə'muru tufanın əmələ gətirdiyi qarışıqlıqdan başını itirmişdi. Qubernator Busard ayağını torpağa qoyan kimi yenidən çevrilib "sahib" oldu. Verdiyi göstərişlərdən bilmək olurdu ki, əsl rəhbərdir. Hərbi dəstələri xilasetmə işinə cəlb etmək üçün ona Anjelin köməyi lazım oldu, hər ikisinin özünü encə apardığın təəccüb edirdim. Onların eyni məqsəd üçün birgə çalışdıqlarına baxanda heç kəsin ağlına gəlməzdi, biri təhqir olunub, o biri isə vicdan əzabı çəkit. Madam Busardı gənec mə'murun evinə göndərmişdilər, ev sahibəsi çay hazırladı və öz plaşını qonağa geydirdi. Sonra Jizel özü də işləmək istədiyini bildirdi, yaralılara, uşaqlara kömək etdi.

— Bəs heykəlin açılışı necə, cənab qubernator, — deyə mə'mur soruşdu.

— Dirilərin hamısını xilas edəndən sonra ölülər haqda fikirləşərik.

Mənim mə'ruzəm haqda heç söhbət də ola bilməzdim. Hiss edirdim ki, baş vermiş əhvalatın iştirakçılarının hər biri tezlilə buradan getməyimi arzulayır. Qərara alındı ki, sonrakı şəhərə qatarrla gedim. Gedib madam Busardla xudahafizləşdim.

— Burdan dəhşətli xatirələrlə gedirsiniz! — dedi. Bilmədim o, təyyarə qəzasına işarə edirdi, yoxsa şahidi olduğbum məhəbbət faciəsinə.

* * *

Daha onlara rast gəlməmisiz ki? — deyə Kler Menetrye soruşdu.

— Qulaq asın, — deyib Bertran Şmidt sözünə davam etdi. — İki il sonra, 1940-cı ildə məni də zabit kimi orduya çağırmışdılar. Flandr cəbhəsinə müstəmləkə diviziyalarından birində bir generalın qərargahında Düqası gördüm. O artıq kapitan rütbəsində idi. Bizim qorxulu səfərimizi yada saldı. "Hələ yaxşı qurtarmısınız, — dedi. — Təyyarəçi bütün macəranı mənə söyləyib... Qubernatora yaman acığı tutmuşdu, deyirdi ki, tufan olacağını yola düşməzdən əvvəl xəbər veribmiş, qulaq asmayıb".

Aralığa çökən ağır sükutdan sonra Düqas soruşdu:

— Deməzsiniz, ustad, həmin gün başqa bir əhvalat baş verməmişdi ki? Məınə bir söz deməyiblər, podpolkovnik Anjelin arasında nə isə bir əhvalat duyulurdu… Podpolkovnikin tezliklə başqa yerə köçmək istədiyini və buna nail olduğunu bilirsinizmi?.. Qəribə burasıdır ki, qubernatorun özü ona bu işdə kömək etdi.

— Burada qəribə nə var ki?

— Bilmirəm… Quberator onu çox istəyirdi… Mənə elə gəlirdi ki, onu getməyə qoymazlar.

— Kim qoymazdı? Jizeli deyirsənmi?

Düqas diqqətlə mənə baxdı:

— İş burasındadır ki, podpolkovnikin getməsi üçün o hamıdan çox çalışırdı.

— Bəs Anjel necə oldu?

— Anjel öz layiqi rütbəsini aldı, polkovnik oldu. İndi tank diviziyasının komandanıdır.

İşğal dövrü başladı. Beşillik mübarizə, iztirab və ümid dövrü. Sonra Paris gözlərimiz qarşısında yenidən canlanmağa başladı. 1947-ci ilin əvvəllərində, bir gün, Elen Tyanj mənə dedi:

— Busardlarla tanış olmaq istəyirsiniz? Bu gün bizdə nahar edəcəklər. Deyirlər, Eik Busard Hind-Çinə baş rezident tə'yin ediləcək… Görkəli adamdır, doğrudur, bir az soyuqluğu var, amma çox savadlıdır. Keçən il təxəllüslə bir şe'rlər kitabı nəşr etdirib. Arvadı elə qəşəngdir ki…

— Tanıyarım, — dedim. — Müharibədən əvvəl Busard Qərbi Afrikdaa qubernator olduğu vaxt bir-iki gün onlada qalmışam… Onları bir də görsəm pis olmaz.

Fikirləşirdim ki, görəsən məni görməklərinə şad olacaqlarmı? Mən ki onların həyatında baş vermiş həmin qəribə əhvalatın yeganə şahidiyəm. Elə bu fikirlə naharda iştirak etməyə razı oldum.

Doğrudanmı müharibə və ağır günlər məni tanınmaz edibmiş? Busardlar əvvəlcə məni tanımadılar. Onlara tərəf gedəndə hər ikisi çaşmış halda, nəzakətli baxışları ilə Elendən kim olduğumu soruşdu. Elen məni təqdim etdi. Quburnatorun eyni açıldı, arvadı gülümsəyərək dedi:

— Əlbəttə, yadımdadır. Siz Afrikada qonağımız olmusunuz.

Süfrə başında madam Busardla yanaşı oturmuşduq. Söhbət vaxtı bu üzərində addımlayırmış kimi çox ehtiyatkarlıq edirdim. Nəhayət, onun çəkinmədiyini, özünü sərbəst apadığını görüb mən də ürəkləndim və deltadakı tufandan söhbət saldım.

— Hə, doğrudan, — dedi, axı siz də bu ağılsız səfərdə iştirak edirdiniz… Çox qəribə macəra idi! Aza qala hamımız həlak olmuşduq.

Yandan ona xörək təklif etdikləri üçün bir anlıq susdu, sonra təbii sadəlövhlüklə davam etdi:

— Anjeli tanıyırdınız… O bədbəxtin ölümündən xəbəriniz varmı?

— Xeyr, xəbərim yoxdur… Müzaribədə ölüb?

— Bəli, İtaliyada… Monte Kassino döyüşlərində diviziya komandiri imiş, döyüşdə həlak olub… Çox təəssüf, yaxşı gələcəyi vardı… Ərim onu çox istəyirdi.

Mən təəccüblə ona baxırdım, fikirləşirdim ki, görəsən öz sözləri ilə məni heyrətə gətirdiyini almışdı, yad adamın ölümü haqda danışan adamlar kimi bir az qüssələnmişdi. Onda mən başa düşdüm; maska sifətə elə möhkəm bağlanmışdı ki, lap qaynayıb dəriyə qarışmışdı. Jizel əhvalatdan xəbərdar olduğumu unutmuşdu.

Lui-Ferdinand Selin (1894-1961)

Lui-Ferdinand Detuş 1894-cü ildə Paris ətrafındakı Kurbevua şəhərciyində doğulub. Atası idarə işçisi anası ëisə köhnə mebel mağazasının sahibi olub. Ailənin yeganə övladı olan Lui-Ferdinand sonralar, bədii yaradıcılığa başlarkən anası Selinin adını psevdonim kimi qəbul edib.

O birinci dünya müharibəsinin iştirakçısı olub, 1914-cü ildə ağır yaralanıb və 1915-ci ildə hərbi xidmətdən azad olunub. Sonra o pul qazanmaq üçün Afrikaya yollanıb. 1919-cü ildə Fransaya qayıdıb və orta təhsil attestatını aldıqdan sonra tibb fakültəsinə daxil olub. 1924-cü ildə təhsilini başa vurub və bir həkimin qızı ilə evlənib, sonra isə Cenevrədəki Millətlər Cəmiyyətinin səhiyyə idarəsində işləməyə başlayıb. İki il sonra Selin arvadından ayrılıb, Paris ətrafında fərdi tibb məntəqəsi açıb. Daha sonra o bir amerika rəqqasəsi ilə dostluğa başlayıb və həmən dövrdən də bədii yaradığılığa meyli artıb.

Onun ilk əsəri olan "Gecənin sonuna səfər" romanı 1932-ci ildə Renodo mükafatına layiq görülüb. 1936-cı ildə "Borc ölüm" romanı çap olunduqdan sonra isə o yazıçı şöhrəti qazanıb.

İkinci dünya müharibəsi ərəfəsində Selin antisemit mövzuda sərt məqalələrlə çıxış edir və bu çıxışlarına görə faşizm tərəfdarı kimi tanınır. Müharibə qurtardıqda isə o həbs olunacağından qorxaraq arvadı, rəqqasə Lüset Almanzorla birgə Fransadan qaçmalı olur.

O Danemarkada həbs olunaraq iki il (1945-1946) həbsxanada qalır, daha sonra Fransada gözdən salınıb hörmətini itirir. 1951-ci ildə amnistiyaya düşərək Fransaya qayıdıb Lion şəhərində yaşayır və ağır şəraitdə yaradıcılığını davam etdirib. 197-ci ildə "Bir qəsrdən başqasına" adlı romanı çap olunduqdan sonra yenidən yazıçı şöhrəti qazanıb. 1961-ci ildə ölümündən az əvvəl "Riqodon" adlı romanını bitirib. Adı çəkilmiş əsərlərdən əlavə Selin 1938-ci ildə "Meyidlər məktəbi", 1941-ci ildə "Gözəl yorğanlar", 1960-cı ildə "Şimal" adlı əsərləri də yazıb.

Yaradıcılığı çox geniş olmasa da Lui-Ferdinand Selin əsrin görkəmli yazıçılarından sayılır. Selinin inamına görə ədəbiyyat hər şeydən əvvəl hisslərin ötürücüsü olmalıdır, və bu hisslər dil vasitəsilə yaşanmalıdır. Selin yaradıcılıq üçün yeni bir üslub yaradıb və

onun üslubu yazılı nitqlə şifahi nitq arasındakı fərqi aradan qaldırıb.

Selinin "Gecənin sonuna səfər" romanından təqdim etdiyimiz parçada uydurma adlı müəllif uydurma adlı bir müstəmləkə ölkəsində dükanı olan bir avropalı həmyerlisinə qonaq gedir və gördüyü bir əhvalatı təsvir edir.

Biz dükanın hesab masasının qarşısındaca qədəh-qədəhə vurduq və duydum ki, ətrafdakı qara dərili müştərilər bizə qibtə ilə baxırlar. Müştərilərin hamısı yerli qaralar idi və bizim kiim Ağlara yaxınlaşmağa cürət etmirdilər. Çoxu ağlarla öz aralarında məsafə saxlamağa öyrənmişdilər. Bu bir adətə dönmüşdü. Üzlülər, daha çox əhliləşmişlərin bəziləri dükanın köməkçilərinə çevrilmişdilər. Dükanın özündə də bu köməkçi qaraları tanıyır və onların başqa qaraları necə həvəslə söyüb-danlamasına adət etmişdilər. Bu "korokoro" həmkarım meşələrldən toplanılıb torba və səbətlərdə gətirilən xam kauçuk alırdı. Biz onun maraqlı söhbətlərinə qulaq asdığımız vaxt çöl əhli olan bir ailə sıxıla-sıxıla dükanın qapısında durdu. İrəlidə üz-gözü qırışlı, əli dəhrəli, paltar əvəzinə belinə bir əlcə sarı çit bağlamış ata durmuşdu.

Bu vəhşi çöl adamı içəri girməyə cəsarət eləmirdi. Dükanın yerli köməkçilərindən biri onu içəri çağırdı: "Gəl görək, çöl adamı! Gəl içəri! Burda vəhşi yeyən yox!" Bu çağırış onları hərəkətə gətirdi və səs-küylü dükana girdilər. Ən çox səsi gələn isə "korokoro" adlanan qaşınma xəstəliyinə tutulmuş həmkarım idi.

Görünür bu qara qonaq ömründə nə dükan, nə də ağ dərili adam görmüşdü. Arvadlarından birini özü ilə gətirmişdi. Gözlərini yerə dikmiş bu arvadın başında içi xam kauçukla dolu iri bir səbət vardı.

Dükanın yerli köməkçiləri hikkə ilə yaxınlaşıb səbəti arvadın başından götürdülər və içindəkini tərəzi ilə çəkməyə başladılar. Vəhşi kişi nə tərəzidən nə də görülən işdən baş açmırdı. Arvadı isə başını qaldırıb adamlara baxmağa cəsarət eləmirdi. Qara ailənin başqa üzvləri çöldə dayanıb çaşğın-çaşğın baxır və gözləyirdilər. Onları da içəri çağırdılar ki, hər şeyi görə bilsinlər. Kiçikli-böyüklü hamısı içəri keçdi.

Birinci dəfə idi ki, onların hamısı birgə meşədən çıxıb şəhərə, Ağ Adamların hüzuruna gəlmişidlər. Bu qədər kauçuku toplaya bilmək üçün yəqin ki, hamısı birgə uzun müddət çalışmışdılar. Elə buna görə də işin nəticəsi hamısını maraqlandırırdı. Ağacın gövdəsinə sancılmış xırda novçalarla damla-damla kauçuk toplamaq çox uzunçu işdir. Bə'zən bir novçadan gələn damlalar kiçik bir fincanı heç iki aya da doldurmur.

Tərəzi işi qurtarandan sonra, bizim qaşınan dostumuz çaşğın ailə başçısını özü ilə hesab masasının arxasına apardı. Orada və-

rəqə nə isə yazıb kişiyə göstərdi sonra isə ovcuna bir neçə metal pul basıb dedi: "Çıx get, hesabını aldın!.."

Sahibin ağ dərili dostları gülməkdən boğulur, xosunlaşırdılar ki, yaxşı bazarlıq etdi. Əynində cinsinin üstünü örtən kiçik sarı parçadan başqa heç bir geyimi olmayan qara kişi hesab masasının qarşısında çaşıb qalmışdı.

Əhliləşmiş, ələ öyrənmiş yerli köməkçilərdən biri onu fikirdən ayıldıb ələ salmağa başladı: "Sən, pul tanımır? Deməli vəhşi? Fransızca danışmaq bilmir? Deməli sən hələ meymun? Dilin yox? Kus kus tanıyır? Mabiliya qəbiləsi? Sən heyvan! Sən buşmən! Sən….!"

Amma vəhşi kişi pulu ovucunda sıxıb laldinməzcə durmuşdu. Cəsarəti çatsa qaçıb gedərdi, amma getməyə də cəsarət eləmirdi.

Həmişə qaşınan sahib də dayana bilməyib dilləndi: "Yaxşı, sən bu pulla nə almaq istəyirsən? Mən çoxdandı bu sifətdə heyvan görməmişəm. Yəqin çox uzaqdan gəlib. De görüm nə istəyirsən? Əlindəki pulu bura ver görüm!"

O ərk ilə çöl adamının ovucundakı pulları götürüb əvəzində ona hesab masasının arxasından götürdüyü tünd yaşıl rəngli bir dəsmal uzatdı. Qara ailənin başçısı bu dəsmalı götürüb çölə çıxmağa ürək eləmirdi. Qaşınan sahib yeni bir hiylə işlətdi, belə ayaqüstü ticarətin bicliklərini yaxşı öyrəndiyini göstərdi. O yaşıl dəsmalı qara uşaqların ən kiçiyinin gözləri qarşısında yelləyərək dedi: "Hə gözəl deyil balaca? De görüm, blaca bala, ay iylənmiş, ay qara qan tuluğu, ömründə belə şey görmüsən?" Sonra o uşağı geyindirirmiş kimi dəsmalı ərklə onun boynuna bağladı.

Vəhşi ailə indi də balacanın boynuna bağlanmış yaşıl pambıq parçaya baxırdılar.. Daha məsələ həll olunmuş, bu dəsmal ailəyə verilmişdi. Razılaşmaq və onu götürüb getməkdən başqa bir yol qalmamışdı.

Bütün ailə üzvləri yavaş-yavaş geri çəkilməyə başladılar və qapıdan çıxdılar. Axırda çıxan ata çevrilib nə isə demək istəyirdi ki, dükanın ayağı geyimli, ən sırtıq köməkçilərindən biri onun arxasına bir təpik ilişdirdi.

Ailə üzvləri kiçik bir qəbilə kimi Fedherb adına (müstəmləkəçi fransız generalı H.Q.) xiyabanın o üzünə keçib, maqnoliya ağacı kölgəsində toplaşıb bizim içgi məclisimizə tamaşa edirdi. Elə bil başlarına gələni anlamaq istəyirdilər.

İçginin pulunu “qaşınan adam” verirdi. O bizim şərəfimizə patefonu da işə salmışdı.

Pol Elüar (1895-1952)

Pol Elüar (Pol-Öjen Qrindel) 1895-ci ildə Paris yaxınlığındakı Sən-Denis şəhərində anadan olub. İlk şerlərini 1913-cü ildə, hələ müharibə öz dəhşətli üzünü göstərmədiyi aylarda çap etdirib. Birinci dünya müharibəsinin dəhşətləri onu sarsıdıb və o bir müddət anarxizmə, sonra isə sürrealizmə meyl göstərib. 1920-ci ildən "Ədəbiyyat" jurnalı ilə əməkdaşlıq edib, sonra isə özü "Məsəl" adlı jurnal nəşr edib.

Pol Elüar şerinin daimi, əsas mövzusu məhəbbət olub. 1926-cı ildə çap olunmuş "Kədər mərkəzi", 1929-da "Məhəbbət, şeir", 1932-də "İndiki həyat" kitabları ona şair şöhrəti gətirib.

Otuzuncu illərdə baş qaldıran faşizm hədəsi onu siyasi həyata bağlayıb. 1942-ci ildə o kommunist partiyasına üzv olub və müqavimət hərəkatına qoşulub. Elə həmən il "Azadlıq" poemasının da daxil olduğu "Poeziya və həqiqət" adlı kitabı nəşr olunub. 1944-cü ildə isə "Alman görüşü" adlı kitabını çap etdirib. Pol Elüarın müharibədən sonrakı dövrdəki yaradıcılığından da (1946-1953-cü illərdə yazılmış "Sonsuz poeziya", 1947-də "Vaxt daşır", 1951-ci ildə "Feniks" adlı kitabları) məhəbbət mövzusuna sadiqliyi duyulur. Rol Elüar 1952-ci ildə vəfat edib.

Pol Elüar

Qüssə

Əlvida ay qüssə
Salam ay qüssə
Evimdə hər yana yazılıb adın
Sevdiyim gözlərdə yuva salmısan
Mən sənə rəzalət deyə bilmərəm
Ən rəzil insanın dodaqlarından
Bircə təbəssümlə uçub gedirsən
Salam ay qüssə
Qorxulu kölgə tək
Qəfl gəlirsən
Sevən ürəklərin sorağı qüssə
Şirin məhəbbətin qonağı qüssə
Sevgi naxışlı qüssə
Şirin baxışlı qüssə

Pol Elüar

Haqq-ədalət

İnsanın atəşi var
Üzümdən şərab
Kömürdən alov
Öpüşdən insan yaradar

İnsanın dözümü var
Savaş olar
Aclıq olar
Ölüm olar insan sağ qalar

İnsanın gözəl adətidir
Suyu işığa
Arzunu həyata
Düşməni qardaşa çevirə bilir

Həm köhnə həm təzədir bu adət
Bir körpə qəlbindən baş alıb
Ən ali qanunlara
Yol açıb ucalıb

LUİ ARAQON

Müasir fransız ədəbiyyatı nümayəndələrindən biri sayılan Lui Araqon 1897-ci il oktyabr ayının 3-də Parisdə burjua ziyalısı ailəsində anadan olub. O Parisdə böyüyüb və Sarbon universitetinin tibb fakültəsini bitirib. Tibb təhsili alan kimi Araqon cəbhəyə yola düşüb və bir il hərbi həkim kimi fransız ordusu sıralarında işləyib.

Birinci dünya müharibəsi qurtaran kimi Araqon ədəbi fəaliyyətə başlayıb. Müasir fransız ədəbiyyatında şair, nasir, ədəbi tənqidçi kimi, eyni zamanda tarixçi, siyasi xadim və Fransa kommunist partiyasının fəal üzvü kimi tanınmış Araqon yaradıcılığa şair kimi başlayıb və əsrimizin iyirminci illərində bir sıra şe'rlər kitabı nəşr etdirib.

Otuzuncu illərdə Araqon "Bal zəngləri", "Gözəl məhəllələr", "İmperiya səyyahları" romanlarını yazıb. Bu əsərlərin hər birində yazıçı iki barışmaz sinfin nümayəndələri — burjualarla zəhmətkeş kütləni üz-üzə gətirir.

Kommunist yazıçının xatirəsində əbədiləşmiş görüşlərdən biri 1928 -ci ilin noyabr ayında Parisin Monparnas kafelərindən birində Vladimir Mayakovski ilə görüşüdür. Qəribə cəhət burasıdır ki, Mayakovski ilə görüşündən bir gün sonra yazıçı həmən kafedəcə özünün gələcək həyat və mübarizə yoldaşı Elza Triole ilə tanış olub. Sonarlar Araqon Elza Triole ilə birgə dəfələrlə Sovet İttifaqına səfər edib. Triolenin köməyi ilə Araqon Mayakovskinin bir sıra şe'rlərini fransızcaya çevirib.

İkinci dünya müharibəsi dövründə Araqon Fransa müqavimət hərəkatının fəal üzvlərindən birinə çevrilir. Yazıçı öz əsərləri ilə faşizm işğalını lə'nətləyir və ona qarşı mübarizəyə çağırırdı.

Müharibədən sonra Araqon Fransanın ictimai və siyasi yüksəlişi uğrunda mübarizənin ön sıralarında gedən bir ziyalı kimi fəaliyyətə başlayır. O "Letr Fransez" qəzetinin nəşrinə rəhbərlik edir və Fransa kommunist partiyası mərkəzi komitəsinə üzv seçilir. 1946-cı ildə çap etdirdiyi "Kommunist adam" adlı məqalələr kitabı ilə Araqon özünün publisist qabiliyyətini bir daha nümayiş etdirdi. 1949-1951-ci illərdə yazılmış 6 cildlik "Kommunistlər" və 1958-ci ildə çapdan çıxmış "Müqəddəs həftə" romanları isə Araqon yaradıcılığının zirvəsi sayılır.

Fransa ictimaiyyətinin sülh uğrunda mübarizəsinin ön sırasında gedən Araqon 1957-ci ildə Lenin Sülh mükafatına layiq görülüb. O

Sovet İttifaqına beş dəfə səfər edib. Birinci dəfə, 1930-cu ildə gəlib və Xarkovda inqilabçı yazıçıların birinci qurultayında iştirak edib. 1931 və 1932-ci illərdə yazıçı daha iki dəfə Sovetlər Ölkəsinə qonaq gəlib. 1935 və 1955-ci illərdə isə o Sovet yazıçılarının birinci və ikinci qurultaylarına də'vət olunub və Sovet ədəbiyyatı haqda əsər yazmağı qərara alıb.

x x x

Lui Araqon özünün "Sovet ədəbiyyatı" əsərini 1955-ci ildə Parisdə çap etdirib.Əsər həcmcə iridir (392 səh.) Burada, Sovet İttifaqında yaşayan xalqların ədəbiyyatı haqda danışılır, — bə'ziləri haqda geniş, bə'ziləri haqda isə qısa. Azərbaycan ədəbiyyatına həsr edilmiş hissə "Qərb-Şərq divanının vacibliyi" adlanır. Kitabda Azərbaycan ədəbiyyatına çox az yer verilib — cəmisi 16 səhifə. Bu səhifələrin bir neçəsi isə Azərbaycanın coğrafi mövqeyinə və Şoloxovun Sovet yazıçılarının ikinci qurultayındakı mə'ruzəsindən bir parçaya həsr edilib.

Müəllif Sovet ədəbiyyatına yaxından bələd olan bir ədib kimi çıxış edir. O, rus, ukrayna, gürcü ədəbiyyatına öz əsərində geniş yer verib, amma Azərbaycan ədəbiyyatı haqda verilən mə'lumat az və əhəmiyyətsizdir. Müasir Azərbaycan ədəbiyyatı haqda əsaslı bir fikir söyləmir. Klassik ədəbiyyatımızdan danışarkən başqalarının adı ilə yanaşı Xaqani, Seyid Əzim Şirvani və başqa şairlərin adlarını sadalamağı belə unudub. Çox mümkükn ki, müəllifin onlar haqda mə'lumatı olmayıb. Araqon Nizami haqda daha çox danışıb. Onsuz da Fransada şərq ədəbiyyatı haqda yazmış hər kəs Nizamini fransız oxucularına təqdim etmişdir. Nizami Fransada tanınır. Araqon isə Nizamidən danışmaqla bərabər höteyə hücum çəkir, onun "Qərb-Şərq Divanı"nı tənqid edir. Kommunist şair Araqona görə höte Nizamini yaxşı anlaya bilməyib. L.Araqon müasir Azərbaycan ədəbiyyatı haqda qeydlərini Sovet yazıçılarının birinci və ikinci qurultayları zamanı götürüb.

L.Araqon yazıçıların ikinci qurultayı ərəfəsində Mehdi Hüseynin "Komissar" əsərini oxuyub, o deyir: "Əsərin qəhrəmanı Şaumyanın yoldaşı Məşədi Əzizbəyovdur". Fransalı şair M.Hüseynin bu əsərinə yüksək qiymət verir.

Mehdi Hüseynin Moskvada, yazıçıların ikinci qurultayındakı çıxışı Araqonun çox xoşuna gəlib. O çıxışın bir parçasının tərc-

üməsini fransız oxucularına təqdim edir və söyləyir ki, M.Hüseyn öz çıxışı ilə təkcə Qafqaz ədəbiyyatı problemlərinə toxunmur, ümumi Sovet ədəbiyyatının problemləri həllində öz fikrini söyləyir. L.Araqon "yazıçı və dramaturq M.İbrahimov, yazıçı Süleyman Rəhimov, şair Səməd Vurğunu da" yazıçıların ikinci qurultayında görüb. O yeni zamanda Süleyman Rüstəm, Məmməd Rahim və Rəsul Rzanın da adını çəkir və onların şe'rlərini oxuduğunu bildirir. Təəssüf ki, müəllif həmin dövrün Azərbaycan yazıçıları və şairlərinin adını çəkirsə də onların haqqında fransız oxucularına az mə'lumat verir, görünür ki, başqa respublikalara nisbətən Azərbaycan ədəbiyyatı haqda topladığı mə'lumat az olub.

L.Araqon Azərbaycan ədəbiyyatı tarixinin YIII əsrdən, Zibeydə xatunla başlanmasını söyləyir. Zibeydə xatun haqda onun verdiyi yeganə mə'lumat şairənin "Min bir gecə" əsərində Şəhrizadın hekayətində xatırladılması və o vaxtın üç ədəbi dilində — türk, ərəb və fars dilində yazmasıdır. L.Araqon Məhsəti xanımdan söhbət açır, onun "yeni qəbul olunmuş islam dininə qarşı çıxaraq materializmi müdafiə etdiyini" oynaq yazıçı dili ilə fransız oxucularına çatdırır və şairənin bir bənd şe'rini çox sadə dillə təqdim edir:

Bizi qoca bir kişiyə vermək mümkün deyil
Bizi qaranlıq zindarlara salmaq mümkün deyil.
Əgər qızın birçəkləri zəncir kimi sallanırsa
Onu zəncirlə evə bağlamaq gərəkmi?

Araqon bu bəndi həmin dövrün, eyni zamanda gələcəyin qadınlarının səsi adlandırır.

Müəllif Məhsəti xanımın Nizaminin üzə çıxmamış bir poemasının "Əhməd və Məhsəti" poemasının qəhrəmanına çevrildiyini söyləyir.

Nizaminin böyük şair olduğunu Araqon fransız oxucularına bir daha xatırladır. Onun XII-XIII əsrlərdə yalnız azərbaycanda deyil qonşu ölkələrdə ən məşhur söz ustası sayıldığı və onun "Xəmsə"sinin, yəni beş poemasını latın və yunan şairlərindən də çox yamsılandığını" söyləyir. Araqon yazır: "Əlbəttə, tacik millətinin mövcud olduğunu inkar edən farslar onu fars şairi hesab edirdilər. Hətta 1917-ci ilin oktyabrına qədər Rusiyada da bu əfsanə qəbul olunmuşdu. Əslində isə Nizami Gəncə türkü idi…" Sonra müəllif qəbul olunmuş tarixi faktları izah edir. Nizaminin öz dövrünün başqa şairləri kimi xanların, əmirlərin, şahların sarayında qulluq etməməsi, onlara tə'riflər yazmamasını da Araqon şairin yüksək

insani keyfiyyəti kimi izah edir. Araqon Nizami yaradıcılığında sosialist-realizmi sezir və yazır: "Nizaminin və XII əsrin sosialist realizmini bu günkü sosialist realizmindən yalnız sün'i surətdə ayırmaq olar. Azərbaycanın XII əsri bizim böyük XII əsrimiz Qustav Köhenin dediyi kimi "orta əsr ədəbiyyatımızın qızıl dövrü" elə əsərlər yaradıb ki, onlarda bu gün açılan çiçəklərin uzaq kökləri duyulur".

Müəllif Hötenin "Qərb-Şərq Divanı" əsərinin bə'zi cəhətləri ilə razı qalmadığını bildirir. Hötenin Nizamini yalnız məhəbbət mövzusunda yazan şair hesab etməsi Araqonu qane etmir.

Araqon Nizamidən sonra XII əsrdə Azərbaycanda Nəsimi kimi böyük bir şairin meydana gəlməsindən, onun "öz ustadı ilə birgə diri-diri soyulmasından" danışır.

Araqon XY əsrin axırı üçün Azərbaycanın "türkcə yazan ən böyük şairi" Füzuliin adını çəkir. "O da Nizami kimi qəzəl yazırdı, bu qəzəllər aristokratiya və şah hakimiyyəti əleyhinə yazılardı" deyən Araqonun Füzulinin tanımadığına əmin olmaq olar. Füzuli qəzəlləri bütün şərqə mə'lumdur. Azərbaycan ədəbiyyatının tarixindən danışarkən Füzuli haqda üç, dörd kiçik cümlə və qısa bir fikirlə kifayətlənmək onu tanımamaq deməkdir.

"Sovet ədəbiyyatı" əsərinin müəllifi Azərbaycan ədəbiyyatına ayırdığı fəsildə Vaqiflə Zakirin də adlarını çəkməklə kifayətlənir.

M.F.Axundovdan danışarkən L.Araqon onu öz ölkəsi ilə Rus mədəniyyəti arasında "canlı əlaqə" adlandırır. Onun dekabristlərlə əlaqəsi olduğunu, Puşkinin və XYIII əsr fransız materialitslərinin güclü tə'siri altına düşdüyünü söyləyir, Kəmalüddövlə məktubları əsərindən misal gətirir. Müəllif Axundovun əsərlərinin adlarını çəksə də onların heç biri haqda mə'lumata malik deyil. Hətta onların fransız dilinə tərcümə olunmuş nümunələrindən də xəbərsizdir. Halbuki keçən əsrin axırlarında və XX əsrin əvvəllərində Axundovun bir sıra əsərləri Fransada dərc olunmuşdu. Əgər müəllif bundan xəbərdar olsaydı şübhə yox ki, söz açardı.

Araqon 1906-cı ildə Cəlil Məmmədquluzadənin başçılığı ilə "Molla Nəsrəddin" jurnalının nəşr edilməyə başlamasından danışır. O yazır: "Jurnalın ətrafına toplanmış yazıçılar gözlərini Rusiyaya, orada çar rejiminə qarşı hərəkata başçılıq etməyi bacardığını sübut etmiş proletariata dikmişdilər".

"Mən Azərbaycan sovet ədəbiyyatının inkişafı haqda mə'lumatı M.Ələkbərlinin 1934-cü ildəki çıxışı əsasında toplamağa

cəhd etdim. O keçən əsrlərin ədəbiyyatını öyrənməkdə mənə daha çox kömək etdi, yazıçıların son nəsilləri haqda isə az mə'lumat aldım".

Araqon o vaxt yazıçılar arasındakı "anlaşılmaz" mübahisələrdən danışır: "Məsələn, bu günkü Sovet poeziyasının ön sırasında gedən Səməd Vurğunun inkişaf yolunu Ələkbərlinin o cür izah etməsi düzgün idimi? 1926-cı ildə "Qızıl qələm" qrupuna toxunan mübahisə çox izahat istəyəcək. Buna qarışmaq mənim işim deyil, axı şair M.Rəfili ilə Ələkbərli arasındakı mübahisədə mən necə iştirak edə bilərdim. Ələkbərli Ordubadiyə və onun "Dumanlı Təbriz" əsərinə qarşı çox sərt idi. Şairlərə gəldikdə isə Rəsul Rzanın, Süleyman Rüstəmin adını çəkmək lazımdır. Məmməd Rahim də hələ gənclərin arasındadır, İbrahimov da".

Araqonun qeydlərindən anlamaq olur ki, onun Azərbaycan ədəbiyyatını lazımınca öyrənmək imkanı olmayıb. Sovet yazıçılarının birinci qurultayı zamanı, Azərbaycan ədəbiyyatı haqda mə'lumat toplamaqda ona Azərbaycan yazıçıları arasındakı mübahisələr mane olub. Araqon yazıçıların ikinci qurultayı zamanı da Moskvada olub, bizim yazıçı və şairlərimizlə görüşüb.

Sovet İttifaqında yaşayan xalqların ədəbiyyatı haqda iri həcmli bir əsər yazmağa hazırlaşan bir müəllif Azərbaycan ədəbiyyatından yazmaq üçün cib dəftərindəki qeydlərindən istifadə etməli deyildi. Azərbaycan ədəbiyyatı da müəllif tərəfindən tədqiq edilməli, əsərdə özünə geniş yer tapmalı idi. Nizami, Məhsəti xanım, Nəsimi, Xaqani, Füzuli, Vaqif, Zakir, Natəvar, Axundov, Mirzə Cəlil, Sabir kimi görkəmli nümayəndələri olan klassik bir ədəbiyyatı iri həcmli bir əsərdə sıxışdırıb 5-6 səhifəyə yerldəşdirmək əsərin keyfiyyətinə şübhə yox xələl gətirib.

x x x

Lui Araqon

Elza

Azadlıq üçün yarandıq
Yarandıq xoşbəxt olaq
Şüşənin qar naxışı tək
tövbəkarın baxışı tək
Torağay tək nəğmə deyək
Hər baharda sevilək
Azadlıq üçün yarandıq
Yarandıq xoşbəxt olaq.

x x x

Qucaq-qucaq arzun vardı
Qanın coşar, qaynayardı
Yazda, nəğmələr cağında
Yatmaz idin sən gecəni
Nəğmə gəzər dodağında
Şeytan da tanrı da sevərdi səni
Qucaq-qucaq arzum vardı
Qanın coşar qaynayardı.

x x x

Mənim mehribanım dəli ceyranım
Gözəllikdən od alırdı bu canım
Dodaqların qanımı coşdururdu
Saçların qızıl tək bərq vururdu
Yağışlı günlərdə odlu öpüşlər yağan
Dodaqların hərarəti nə oldu?
Mənim mehribanım dəli ceyranım
Gözəllikdən od alırdı bu canım

x x x

Zaman keçir keçir keçir
Sevənləri hədəf seçir

Sevənləri tora salır
Özlərindən xəbərsiz
Alınlara qırış salır
Gözlərinin nurun içir
Zaman keçir keçir keçir
Sevənləri hədəf seçir

Jak Prever (1900-1977)

Jak Prever 1900-cu ildə Fransada anadan olub. Gənclik illərində bir müddət sürrealist şairlərlə yoldaşlıq etsədə o təbii, anlaşılan, populyar şer dilini üstün tutub. Güclü heysiyyat sahibi olan bu nəğməkar şair müxtəlif jurnallarda dərc olunmuş şerlərini toplayaraq 1946-cı ildə iki şer kitabı, "Sözlər" və "Əhvalatlar" adlı kitablarını nəşr etdirib.

Dərin və sadə, zərif hisslər və xoş ovqatla yoğrulmuş şerləri Jak Preverə böyük rəğbət qazandırıb və şöhrət gətirib. O eyni zamanda film senariləri də yazıb ("Qəribə əhvalat" — 1937; "Dumanlı sahil"—1945). Daha sonra isə Jak Preverin şerlər kitabları, 1957-ci ildə "Tamaşa", 1966-cı ildə "Fatras", 1972-ci ildə "Əşyalar və başqaları", 1980-ci ildə isə "Gecə günəşi" əsərləri çap olunub. Jak Prever sözün əsl mə'nasında nəğməkar şair idi. O, İv Montan, Jülyer Qreko, Sert Reyqani, Jak qardaşları kimi müğənnilərin mahnılarının mətnlərinin müəllifidir.

Jak Prever 1977-ci ildə vəfat edib.

Jak Prever

Qapı döyülür

Kimdir orda
Heç kəs
Sən demə ürəyimmiş döyünən
Yaman vurur ürəyim
Çırpınır sənə görə
Çöldə isə
Taxta qapımdakı dəmir əldən
Nə səs çıxır
Nə tərpənir
Biri ağac
Biri dəmir.

Azadlığın sirri

Pəncəsi qaldı tülkünün
Bir tələnin dişlərində
Qar üstünə qan tökülüb
Ağ tülkünün qanıdır
Qar üstünə izlər düşüb
Ağ tülkünün izləridir
Günəş batır tülkü qaçır
Qaçır amma üç ayaqdır
Ağzında bir dovşan tutub
Dovşan isə hələ sağdır.

Jak Prever

Məhəbbətin mehriban və qorxulu üzü

Başa vurub uzun günü
Məhəbbətin üzünü
Gördüm bir axşam
O həm mehriban idi
Həm də zəhər yağırdı
Qaş-qabağından
Bəlkə də gördüyüm
Oxu uçuşa hazır
Bir kaman idi
Bəlkə də musiqiçi
Arfasını kökləmiş
Qəlb çalan idi
Daha nə deyim
Heç nə bilmirəm
Bircə duyuram ki
Yaralanmışam
Bəlkə bir ox dəydi
Bəlkə bir avazdan
Yara almışam
Bircə bilirəm ki
O yaralayıb
Lap ürəyimdən vurub
Uzun çəkər sağalması
Yandırır dara çəkir
Məhəbbətin yarası.

Jak Prever

Sevgi çayı

Körpülər altından çox sular axıb
Qan çayı da görüb həmən körpülər
İri bir çay da var rəngi işıqlı
Dolanır sevginin ayaqlarına
Hər gün şənləndiyim
Ay bağlarında
Sevgi çayı nəğmə deyir
Gözü yuxulu
Ay mənim başımdır
Başıma dolanan mavi günəşsə
Sənin gözlərindir
Sevgi sorğulu.

Meteor

Qəsəbə türməsi pəncərəsindən
Bir narıngi atdılar
O da şimşək kimi çaxıb
Düşdü nəcis küpəsinə
Ətrafa çilədi qabın içini
Üz-gözü batmış məhbus
Gizlətmədi sevincini
Gülə-gülə düşündü
Sevgilim unutmayıb
Hələ yad edir məni.

ANTUAN DÖ SƏNT-EKZÜPERİ

Antuan dö Sənt-Ekzüperi XX əsr fransız ədəbiyyatının ən qəribə taleli yazıçılarından biridir. O, 1900-cü ildə Lion şəhərində kasıblamış aristokrat ailəsində anadan olub Hələ körpə yaşlarından ədəbiyyata, incəsənətə, müsiqiyə böyük maraq göstərən Antuan özünə sənət seçərkən tamam bir başqa səmtə üz tutdu. Dənizçi olmaq istədi, lakin dənizçilik məktəbi imtahanlarından yaxşı qiymət ala bilmədi. Politexnik institutuna qəbul olunsa da təhsilini başa vurmamış institutu tərk edib təyyarəçilər qrupuna yazıldı.

Uşaq vaxtı şe'r yazan, nağıllar uyduran Antuan xəyallar arxasınca xeyli qaçdıqdan sonra nəhayət öz arzusunun səmtini tapdı, böyük həvəslə çalışıb təyyarəçilik vəsiqəsi aldı və uçmağa başladı. Çox keçməmiş o qəzaya uğrayıb yaralandı və bir müddət öz sevimli peşəsindən ayrı düşdü. 26 yaşında Antuan dö Sənt-Ekzüperi yenidən təyyarə sürməyə icazə alır və elə həmən il öz sənətinə həsr olunmuş ilk hekayəsini çap etdirir.

O təyyarə ilə Fransadan Afrikaya, Latın Amerikasına poçt yükü aparırdı. Hamı bilirdi ki, həmən dövrün texniki imkanları zəif olduğuna təyyarələr tez-tez qəzaya uğrayır və pilotlar həlak olurlar. Sənt-Ekzüperi bunu daha yaxşı bilirdi və onun 1929-cu ildə nəşr etdirdiyi "Cənuba uçan poçt təyyarəsi" romanı da, iki il sonra yazdığı və ədəbi mükafata layiq görülmüş "Gecə uçuşu" romanı da təyyarəçilərin qorxulu, lakin maraqlı sərgüzəştlərinə həsr olunub. Bu əsərlərdə yazıçı həyəcanlı dəqiqələrin təsviri ilə yanaşı öz fəlsəfi dünya görüşünü oxuculara çatdırırdı.

Sənt-Ekzüperi bütün boş vaxtlarını bədii yaradıcılığa sərf edir, təyyarə sürmədiyi aylarda jürnalistik fəaliyyətinə qoşulurdu.

O Fransız qəzetlərinin müxbiri kimi 1935-ci ildə SSRİ-yə gəlmiş, 1936-37-ci illərdə isə döyüşən İspaniyada olmuşdur. 1939-cu ildə yazıçının "İnsanların torpağı" adlı yeni bir romanı çapdan çıxıb. Əsər oxucuların rəğbətini qazanıb və Fransa Akademiyasının Böyük Mükafatına layiq görülüb. Bu yeni üslublu bir roman idi. Hadisələr bir süjet xəttilə inkişaf etmir, müəllifin özünün və təyyarəçi yoldaşlarının başına gəlmiş macəralar şair ürəyi və filosof təfəkkürü ilə qələmə alınıb. Bu əsərlə Sənt-Ekzüperi öz gözəl yazıçılıq qabiliyyətini də bir daha nümayiş etdirib, Böyük səhrada qəzaya uğramış iki təyyarəçinin əzabları, onların ölümlə vuruşa-vuruşa həyata, insanlara, bir ovuc suya tərəf sürünmələri elə gözəl

təsvir olunub ki, oxuyanda adam özünü amansız səhranın cəngində sanır.

İkinci dünya muharibəsi başlayandan sonra yazıçı hərbi təyyarəçi kimi işğalçı faşistlərə qarşı döyüşə qoşulub. O öz qələmi ilə də faşizmə qarşı vuruşurdu. 1943-cü ildə yazdığı iki publisistik əsəri ("Əsirə məktub" və "Hərbi təyyarəçi") faşist senzurası tərəfindən qadağan edilmişdi. Elə həmən il yazdığı "Balaca şahzadə" romanı isə insanları xeyirxahlığa, qardaşlığa və birliyə çağıran lirik dilli, fəlsəfi fikirli fantastik bir əsərdir.

Antuan dö Sənt-Ekzüperi öz vətəninin azadlığı uğurnda mübarizədə həlak olub, 1944-cü il iyunun 31-də növbəti kəşf uçuşundan qayıdarkən onun təyyarəsini alman qırıcı təyyarəsi məhv edib. Yazıçının həlakından üç həftə sonra vətəni faşist işğalından azad olunub.

Marsel Eme (1902-1967)

Tanınmış fransız yazıçısı Mrasel Eme 1902-ci ildə Fransanın Juani şəhərində anadan olub. Onun valideynləri Jura əyalətinin kəndliləri idi. Emenin uşaqlıq və yeniyetməlik illəri də həmin əyalətdə keçib. "Vuivra" romanının mövzusu da elə Jura əyalətinin bir əfsanəsindən götürülüb.

Marsel Eme əsasən kənd mövzusunda yazan bir yazıçı kimi tanınıb. Onun əsərlərində fransız kəndinin həyat tərzi, yaxud şəhərə köçmüş kəndlinin iztirabları əsas mövzu olaraq qalır.

Eme bədii yaradıcılığa əsasən 30-cu illərdən başlayıb, 1930-cu ildə "Adsız küçələr", 1933-cü ildə "Yaşıl madyan", 1934-cü ildə "Cırtdan", 1935-ci ildə "Alçaq ev", 1936-cı ildə "Surdin dəyirmanı" romanlarını, "Şəkilli quyu" adlı hekayələr kitabıın nəşr etdirib.

40-cı illər Marsel Eme yaradıcılığının məhsuldar illəri olub. "Divardan keçən adam" (1943), "İnəklər" (1942), "Şagirdlər yolu" (1946), "Paris şərabı" (1947), "Urinus" (1948) və nəhayət tərcüməsi təqdim olunan "Vuivra" (1943) romanı da həmin illərdə yazılıb.

"Vuivra", "Divardan keçən adam" (yaşlı nəslin nümayəndələri bu əsər üzrə çəkilmiş filmi görüblər), "Cırtdan" və başqa bir sıra əsərlərində Marsel Eme fantaziyaya mühüm yer verib. Amma Emenin fantastik əsərlərində həyat reallığı ilə fantaziya yanaşıdır və bir-birini yaxşı tamamlayır.

Marsel Eme dram əsərləri də yazıb ("Lüsyon və qəssab", "Ay quşları", "Başqalarının başı" və i.a.).

"Çəkməli pişik" nağıllar silsiləsini isə Eme 1934-1958-ci illər arasında yazıb və özünün ifadəsi ilə desək bu nağıllar "dörd yaşdan yetmiş yaşa qədər uşaqlar üçün" yazılıb.

Doğrudan da Marsel Eme elə nadir yazıçılardandır ki, əsərlərini böyüklər də, kiçiklər də maraqla oxuyur. Onun populyarlığına misal üçün deyə bilərəm ki, 1994-cü il üçün Fransanın ən böyük ədəbi mükafatını ("Qonkur" mükafatı) almış Didye Van Hover televiziya müsahibəsində bildirdi ki, ən çox sevdiyi yazıçı Marsel Emedir.

Marsel Eme 1967-ci ildə vəfat edib. Onun "Vuivra" romanından bir hissəni təqdim edirik.

Marsel Eme

VUİVRA

1

Səhər saat altıya yaxın Arsen Müzelye Vyey Vevr düzünə gəlib ot çalmağa başladı. Otluq iki tərəfdən çovdar talasının araya aldığı üçkünc dar ağacı şəklində bir ərazi idi. Vyey Vevr düzünün özü isə meşənin içərisinə uzanmış, ağacdan təmizlənmiş, bir hektara yaxın sahə idi. İri ağacların arasında qalmış bu ərazinin kənarları sıx kolluq idi. Otluq Müzelyelər ailəsinə, tarla isə Mindörlər ailəsinə mənsub idi. Bu iki ailə bir kökdən olsalar da üç nəsldən bəri bir-biri ilə küsülü idilər. Ailələr arasında söz-söhbət ikinci İmperiya dövrü (Fransada III Napoleonun hakimiyyəti dövrü — tərc.) bir parça meşə sahəsi əldə etmiş nəsil başçısının vəfatından xeyli sonra baş vermişdi.

Arsen iyirmi üç yaşlı, qısaboy, sağlam cüssəli bir oğlan idi. O, başını qaldırmadan dəryaza güc gəlir, otluqdan gözünü çəkmirdi. Yer çökək və gilli idi, çalaların suyu çox vaxt yayda da qurumurdu. Bu yay yer quru olsa da otu mexaniki otçalanla biçmək olmazdı, çünki otçalanın dişləri diklərə ilişib qırıla bilərdi. Arsen dəryazı da ehtiyatla çalırdı ki, kəsərin ucu diklərə ilişməsin. O seyrək, çovdar kimi başı toxumlu otları çaldıqca fikirləşirdi ki, belə seyrək otu çalmaq üçün əziyyət çəkməyə dəyməzdi, gərək bu yerə bir şey əkəydilər, ya da çovdar səpəydilər. Bu barədə ailə tez-tez fikirləşirdi, amma əkinlərin qarışacağından çəkinirdilər. Sahədəki cılız otu çalıb yığandan sonra Müzelyelər mal-qaranı otluğa buraxardı və mallar da hər dəfə Mindörlərin tarlasına ziyan vururdu.

Səhər saat səkkizə yaxın Arsen özündən bir neçə addım irəlidə alçaq otların arası ilə sürünən iri bir gürzəni görüb əlini saxladı. Onun həyəcandan ürəyi sıxıldı və canından qəribə bir üşütmə keçdi. Belə üşütməni o adətən meşənin qalın yerində kol dibindən gələn şırıltıları eşidəndə duyurdu. Beş yaşında ikən o, kolluqdan çiçək dərdiyi vaxt əli ilə bir ilana toxunmuşdu və həmin hadisədən sonra ilan görəndə canından üşütmə keçirdi. Gürzə azacıq qıvrılalarq, yastı başını qaldırmadan sürünür. Arsen əlindəki çarx daşını kinli-kinli yerə atdı, dəryazın sapını əlində bərk sıxıb irəli getdi, ilanın girdiyi ot topasına dəryaz çaldı. Heyvan dəryazın qolaylandığını görüb bircə sıçrayışla canını zərbədən qurtardı və Arsen

dəryazı ikinci dəfə qolaylayınca uzaqlaşıb irəlidəki otluğa girdi. Oğlanın həyəcandan boğazı qurumuşdu və ilanın getdiyi səmtdən gözünü çəkə bilmirdi. Ona elə gəldi ki, ilanı yaralayıb və onun başının qırışlı dərisi arasındakı xırdaca gözlərinin soyuq baxışını yadına salıb ürpəndi. Qəfildən Arsen duydu ki, meşədəki quşların səs-səmiri kəsilib və ətrafdakı bu anlaşılmaz sükut ürəyini sıxdı. Nəhayət o özünə gəlib azacıq irəlilədi və dəryazın uçu ilə ilanın girdiyi otluğu yoxladı, ilan isə bir neçə metr aralıda göründü, çılpaq bir sahəni keçib irəlidəki otluğa girdi. Arsenin irəli getməyə cəsarəti çatmadı, hiss elədi ki, dəryazın sapından yapışmış əlləri keyləşib və dizləri əsir. O, belə qorxuya düşdüyünə görə özünü danladı və bir neçə gün əvvəl öküzlə əlbəyaxa olanda qorxmadığını yadına saldı. Həmin gün fermadan qaçmış öküzü necə məharətlə ram etməsinə böyük qardaşı da heyran qalmışdı. Arsen könülsüzkönülsüz ot çalmağa başladı, amma ətrafdakı sükut və canındakı tənhalıq hissi fikrindən çıxmırdı. O ətrafdakı meşənin qara kölgələrindən, kinli sükutundan vahimələnirdi.Özünü toxtamağa çalışsa da ona elə gəlirdi ki, Vyey Vevr düzünü araya almış bu qaranlıq meşənin sıx yerlərində qorxulu heyvanlar pusquda durub, kolluqlar, qara tikanlar arasından boylanırlar.

Meşədə quşların susması onu kolluqların vahisəsindən də çox narahat etməyə başlamışdı. Arsen meşəyə çökmüş bu sükunətin səbəbini meşənin özündən öyrənmək qərarına gəldi. O, istədi gürzənin getdiyi səmtdə, meşədəki Solar bulağına gedən çığıra düşüb irəlidə ki meşəyə baş çəksin, həm də bulaqdan sərin su içsin. Meşənin alaqaranlığında şeh damcıları bərq vururdu və səhər çağı meşəni bürümüş bu qəribçə çən, adətən tufandan sonra çökən çəni xatırladırdı. Meşənin saf havasını udduqca Arsenin əhvalı dəyişirdi. Az əvvəl keçirdiyi vahməni unutmasa da meşəyə həmişəki rəğbəti təzələnirdi. O irəlilədikcə cığırın kənarlarındakı qalın ot topası və kiçik kolluqlarda gizlənmiş heyvancığazlar çəkmələrin səsindən qaçışır, otluqlar xışıldayır, şeh damlaları zoğların üstü ilə aşağı diyirlənirdi. Bu kiçik canlanma Arsenə ləzzət verir və o hərdən əyilib otların arası ilə qaçan xırda heyvancığazları görmək istəyirdi.

Beləcə xeyli gedəndən sonra Arsen cığırın irəlidəki döngəsində başqa bir gürzə gördü və bu dəfə demək olar ki, heç diksinmədi də. Bu ilan otluqda gördüyündən və zərif idi, başını bir az qaldırıb tələsmədən, arxayınca sürünürdü. Gürzə yastı başını çevirib onu

süzdü və Arsen heyvanın çənəsinin altındakı yumşaq, sallaq dərinin azacıq tərpəndiyini görüb ürpəndi. Qorxu heç canına yayılmamış Arsen gördü ki, ilanın arxasınca cavan bir qız gedir. Qıvraq bədənli bu qız ətəyi dizlərinə çatan ağ ipək paltar geymişdi, ayaqları yalın qolaları çılpaq idi. Qamətini şax tutub iri addımlarla gedirdi. Qızın gündən yanmış sifəti onun gözəlliyinə qəribə bir sərtlik verirdi. Yuxarı yığılmış zil qara saçına zərif ilan şəkilli ikiqat gümüş halqa dolanmışdı. Qızın alnı üzərində başını yuxarı qaldırmış gümüş ilan ağzında dairəvi, al-qırmızı bərq vuran yaqut parçası tutmuşdu. Arsen xalq əfsanələrində təsvir olunan, amma indiyə qədər varlığına inanmadığı Vuivranı tanıdı.

Vuivra qədim Franş-Kamte əyalətinin ləhcəsində ilan sözünün mə'nasını verən Givre sözündən yaranmış bir addır və həmin söz fransız dilinin Blazon ləhcəsində hələ də işlənir. Jüra əyaləti kəndlərində Vuivra adı "ilanların qızı" mə'nasını daşıyır. Komte vilayətinin əsas mifi də elə Vuivra haqqında rəvayətdir. Doğrudur burada "kölgə heyvan" haqqında da rəvayət yayılıb və onu lap dəhşətli bir varlıq sayırlar. Amma məsələ burasındadır ki, onu hər kəs öz fantaziyasına uyğun şəkildə təsvir edir. Vuivra haqqında isə təsəvvür dəqiqdir, onu hamı eyni görkəmdə təsvir edir. O, sular və meşələr kimi daimidir, insanların həyat tərzinə qoşulmur, Jüranın dağ və düzənliklərini dolanır, çaylarda, sellərdə, göllərdə, bataqlıqlarda çimməyi xoşlayır. Onun saçı üzərindəki gümüş ilanın ağzında tutduğu yaqut elə safdır ki, bütün dünyanın qızılı onun dəyərini ancaq ödəyə bilər. Bu böyük sərvətdən Vuivra ancaq çimdiyi vaxt ayrılır. Suya girməzdən əvvəl o, başındakı gümüş halqanı donu ilə birgə sahildə qoyur. Elə tamahkarlar da həmişə həmin vaxtdan istifadə etməyə çalışır və hər dəfə cəzalanırlar. Elə ki, bir kəs qiymətli daşı götürüb qaçmağa cəhd göstərir, minlərlə ilan hərəsi bir yandan çıxıb onun arxasınca cumur. Bu vəziyyətdə sağ qalmaq istəyən adam gərək üzərində qiymətli daş olan gümüş halqanı özündən uzağa atsın. Amma varlanmaq fikri ağlını almış bə'ziləri Vuivranın qiymətli daşını əldən vermək istəmir və bədəninin hər tikəsi bir ilanın ağzında gedir.

Komte vilayətinə mənsub olan Vuivra obrazı Selt ən'ənəsinin Fransada qalmış ən mühüm nümunəsidir. Qədim Qol diyarı əhalisinin məftun olduğu minlərlə rəvayət arasında illərin sınağından çıxıb yaşamış bu obraz yaddaşlardan silinməyib, ən geniş yayılmış bir mövhumat olub.

2.

Arsenin qarşısından keçərkən Vuvivra çevrilib elə laqeyd bir nəzərlə baxdı ki, oğlan mat qaldı. Qızın parıltılı mavi gözləri pişik gözlərinə oxşayırdı və adama baxanda əhəmiyyətsiz bir əşyaya baxırmış kimi sönükləşirdi. Cığırla meşəyə tərəf burulanda qızın üstünə kölgəliklər arasından günəş şüası düşdü və başındakı qiymətli daş elə bərq vurdu ki, elə bil onun qara saçları arasından al qırmızı qığılcımlar yayıldı. Qız gürzənin arxasınca irəliləyib Nu gölünə tərəf gedən cığıra düşdü və yüz metr aralanandan sonra ağaclar və hündür qıjılar arasnıda gözdən itdi. Arsen özünə gələndə əzəl fikri bu oldu ki, qızın arxasınca gedib onu tapsın və elə bu fikirlə də meşəyə girdi. Gürzələrdən qorxmaq fikri heç ağlına da gəlmirdi. O, qıjıların arası ilə iri addımlarla irəliləyir, şeh damlaları şalvarının balağını isladır, çəkmələrinin içərisinə sızır, ayaqlarını sızıldadırdı.

Meşənin içindəki talaya çıxanda Arsenin gözləri qamaşdı. Bataqlığın o tərəfindən qalxan günəşin şüaları suda bərq vururdu. Uzunsov gölməçənin dayazlığındakı ot talaları üzərinə elə bil almas dənələri səpələnmişdi. Sağ tərəfdəki dərin gölün qamışlıqları arasında ilişib qalmış ağ duman parçaları o biri sahilə qədər uzanırdı. Vuivra görünmürdü. Arsen onu duman parçalarının arasında axtardı. Ətraf sakit idi, quşlar hələ də oxumurdular və bu sakitlikdə bataqlığa axan bulaq sularının şırıltısından başqa bir səs eşidilmirdi. Arsen yaxınlıqdakı təpənin üstünə qalxıb ətrafa baxdı və təpənin o üzündə, yüz metr aralıda Vuivranı gördü. Qız çimmək üçün ən gözəl yeri seçmişdi. Solar bulağının şəffaf suyunun axıb bataqlığa qovuşduğu yerdə çimirdi. O qollarını çılpaq bədəninə sıxıb qurşağa qədər suyun içində durmuşdu. Çox keçməmiş o üzməyə başladı və Arsen ancaq onun qara saçını, irəli atılan qollarını və hərdən üzə qalxan kürəyini görürdü. Vuivra irəlidəki dumana bürünmüş qamışlığa tərəf üzürdü. Arsen təpəni enib qızın üzdüyü sahilə tərəf getdi və bulaq sularını gölə axıdan arxın kənarına çatdı. Qız donunu burada soyunub otların üstünə atmışdı. Gümüş halqaya bərkidilmiş al qırmızı daş günəşin şüaları altında bərq vururdu. Arsen əyilib bu qiymətli daşa tamaşa elədi, amma onu əlinə götürmək həvəsinə düşmədi. O özünün gözütoxdluğuna təəccüb etdi və fikirləşdi ki, yəqin ilanların qorxusundan gözütoxluq edir. Hələ uşaq vaxtı tez-tez bu xəzinəni ələ keçirmək arzusu ilə

xəyala dalardı və o vaxtlar yəqin ki, cəsarətsizlik etdiyi üçün xəcalət çəkərdi. Belə, elə bir neçə gün əvvəl də indiki cəsarətsizliyinə görə utanardı.

O öz cəsarətini yoxlamaq üçün ləng hərəktələ əlini daşa tərəf uzadıb dayandı. Əgər həmin vaxt gürzələrdən biri ona hədə gəlsə şübhə yox idi ki, acığa düşüb daşı götürməli olacaqdı. Yəqin ilanlar mərdlik göstərmək istəyirdilər, o, daşı ələ keçirməmiş hücuma keçmirdilər, ətrafda nə bir xışıltı eşidildi, nə də otlar tərpəndi. Arsenin əli daşa tərəf uzanmaqdansa donun ağ ipək parçasına toxundu və ləngiyib qaldı. Hələ də bədən hərarətini 0 itirməmiş bu yumşaq parça onun könülsüz başladığı əməlin qarşısını aldı. Arsen bu ilıq parçanı üzünə sürtüb ətrini duymaq arzusuna düşdü, amma utandı, Vuivra suda istiqamətini dəyişib sahilə tərəf üzürdü. Üzdükcə əli suya toxunub səs çıxarsa da bir damcı da su çilənmirdi. Qiymətli daşı unudub Arsen ayağa qalxdı və sahilə yaxınlaşan qızın üzünü sezməyə çalışdı. Qız qol atdıqca başı gündən yanmış çiyinlərinə tərəf əyilir və günün şüalarına bürünmüş sifəti getdikcə daha aydın sezilməyə başlayırdı. Əlinin şappıltısı sakit meşədə əkssəda verir, bə'zən meşənin dərinliklərindən aşidilən balta səsini xatırladırdı. Sahilə xeyli qalmış qız dayandı, suyun üstündə arxası üstə çevrildi, əllərini başınnı altında cütləşdirdi və döşlərini sudan çöldə qoyub hərəkətsiz uzandı. Bəlkə də beləcə ləngiyib oğlana öz bəxtini yoxlamaq üçün imkan yaradırdı. Arsen həm də fikirləşdi ki, qız onu sahildə görüb və sudan çıxmağa utanır. O geriyə çəkilmək istədiyi vaxt qız üzməyə başladı və oğlan üzünü döndərməyə macal tapmamış qız ayağa qalxdı. Onların baxışları rastlaşanda oğlan başını aşağı saldı, beləcə ayaq üstə durub tamaşa etdiyinə bir az sıxıldı. Amma çıxıb getmək qərarına gələ bilmədi. Qızın paltarından üç metr aralıda çəmənlikdə uzandı. Vuivra sudan çıxıb günəş şüalarına büründü, arxın gölə töküldüyü boğazın çınqıllığına tərəf gəldi. Qız ayaqlarını şəffaf suyun axınında oynadır, ayağını qaldırıb axarın qarşısını tutur, su çilənir, damlalar qıçı boyu süzülüb axırdı.

Arsen qızın bədəninin gözəlliyinə mat qalmışdı və utancaqlığı unudub ona tamaşa edirdi. Bu gözəlliyi o indiyə qədər heç bir insan orqanizmində görməmişdi. Yaraşıqlı bir ata tamaşa etdiyi vaxt sezdiyi yüksək əlamətlərə, sərbəstliyə, yığcamlığa, cizgilərin mütənasibliyinə heyran-heyran baxırdı. Qız suyun axarına uzanıb gölün suyunu bədənindən yudu, sonra isə üzünün suyunu silib sahilə çıx-

dı. Oğlanın baxışlarının altında qız sərbəstcə yaxına gəldi, ona heç bir əhəmiyyət vermədən günəşqarşıda dayanıb gölgəsini onun üstünə saldı və əllərini boynunda çarpazlayıb gözləri yumulu halda özünü günə verdi. Qızın belə təhqiredici saymazlığı Arsenin kişiliyinə toxundu və adətən, kobudluğa meylli olmasa da, kobud bir səslə dedi:

— Sən o yanbızlarını kənara çək, günün qarşısını kəsmə.

Qız dinməzcə bir addım kənara çəkildi və bu dəfə kölgəsi donunun üstündəki qiymətli daşın üstünə düşüb onun parıltısını söndürdü. Arsen indicə dediyi sözlərin xəcalətini çəkib qızardı. Amma deyəsən Vuivra heç inciməmişdi də. O, bədənini günə verib qurudandan sonra sakit səslə oğlandan adını və harada yaşadığını soruşdu. Qızın səsində gənclik ehtirası ilə yanaşı danışarkən saitləri uzadan Jüra əhalisinin şirin ləhcəsi də duyulurdu. Bu səsdə qəribə bir aydınlıq və yaxınlıq vardı. Arsan təbiətinə yad olan utancaq bir tərzlə ona cavab verdi. Qız soruşdu.

— Yaxşı sən bu meşədə nə gəzirsən? Bu vaxt gərək otlaqda ot çalaydın. Bu il yay tez gəlib, bir neçə günə ot quruyub bərkiyəcək.

— Mən elə Vyey Vevrdə ot çalıram. Bura yaxındır.

— Tanıyıram, Vyey Vevr yarasız yerdir, otdan çox kol-kosu var.

— Hə, gərək şumlayıb yonca səpəydik, amma mən elə hər dəfə deyirəm ki, əziyyətinə dəyməz. Meşənin ortasındakı çökək bir yerdə yaxşı ot bitməz, torpağın özü də gillidir.

— Mən oranın bataqlıq olduğu vaxtı da xatırlayıram. Çox da köhnə yer deyil.

— Hər halda yetmiş il əvvəlin söhbətidir, amma bə'zi yerlər adamın yaddaşında çox yaşayır.

— O qədər də çox yaşamır, — deyə Vuivra cavab verdi.

Sonra o çevrilib donunu elə sərt hərəktələ götürdü ki, donun üstündəki gümüş halqa daşla birgə xeyli kənara düşdü və qız elə bil Arsenin burada olduğunu unutdu. O qollarını qaldırıb donu yuxarıdan aşağı bədəninə keçirdiyi anda Arsen qızın arxasının əzələlərinin necə oynadığına, ombasının dartılmasına, dolğun yanbızlarına və yığcam baldırlarına tamaşa edirdi. Elə bu vaxt Vuivranın çılpaq arxasına bir milçək qondu və qız milçəyi qovmaq üçün arxasının həmən tərəfini elə oynatdı ki, Arsen milçəyini qovan atların hərəkətlərini xatırladı. Paltar əvvəlcə ombaya qədər endi, az sonra isə sürüşüb aşağıları da örtdü. Arsen bir az özünü toxtatdı və

həmin andaca ona elə gəldi ki, utanmaq bilməyən bu məxluqa kin bəsləməyə başlayır. Yad bir kişinin qarşısında lüt dayanmaq, arxasını, göbəyini açıqca nümayiş etdirmək hər qadının işi deyil. Burada anlaşılmaz bir hiylə vardı. Ehtirasdan yanan qızlar az deyil, amma heç onlar da yad bir kişinin qarşısında dayanıb oraburalarını nümayiş etdirməzdilər. Çünki onlar duyurlar ki, belə hərəkətlər qadını gözdən sala bilər. Arsen üçün bu o qədər də pis mənəzərə deyildi, amma hər şeyin həddi var. Əgər bu qız da bütün günü əlində dırmıq biçənəkdə tər töksə beləcə soyunub lüt gəzməyə həvəsi qalmazdı. Bəli, Arsenin qəlbi kinlə dolmuşdu.

Vuivranın saçını səliqəyə salması bir neçə dəqiqə çəkdi. O, qollarını qaldırıb saçlarını yığdığı vaxt qolların qıvraqlığı və hərəkətlərin şuxluğu da Arsenin nəzərindən qaçmırdı. Qız yanakı durmuşdu, saç sancaqlarını dodaqları arasında tutmuşdu, baxışları Arsenin sifətində gəzirdi və Arsen bu baxışda qəribə bir təbəssüm də duydu. O, ayağa qalxanda gördü ki, qız boyca onunla bərabərdir. Yəqin ki, Arsen çəkməli, qız ayaqyalın olmasaydı ondan uca olardı. Arsenin yadına düşdü ki, özünün burnu qısa və yastıdır, saçları inək tükü kimi coddur, gözləri xırda, qonur və sərt baxışlıdır. O, müqəddəs Fransua-Xabyerin Volodever kilsəsinin şö'bələrindən birini bəzəyən, gipsdən tökülmüş yaraşıqlı heykəlciyi həsədlə yadına saldı. Bu müqəddəs atanın üzü saqqallı olsa da sifəti cazibəli yeniyetmə sifəti kimidir. Yanağının qızartısı və başqa cazibəli cəhətləri qadınları elə cəzb edir ki, onun qarşısındakı daşın üstünə xırda pullar düzməkdən həzz alırlar.

Vuivra fit çaldı və suyun kənarındakı bir dəstə quru ot xışıldayıb tərpəndi. Gözlərini onun gözlərinə zilləyib irəliləyən gürzəni görəndə Arsen bir addım geri çəkildi. İlan onun qarşısından keçərkən quyruğu çəkməsinin burnuna toxundu. Arsenin tükləri ürpəndi və hirsindən söyüş söydü.

Sonra qızın gözətçisini söydüyünə görə pərt oldu və üzrxahlıq edirmiş kimi soruşdu:

— Siz yenə gələcəksiniz?

— Əlbəttə, mən hər iki-üç ildən bir buralardan keçirəm.

Qız gümüş həlqəni götürüb başına qoydu, parıltılı daşın irəlidə düz durduğunu yoxladı və ondan soruşdu:

— Hə, deməli daşı götürməyə cəsarətin çatmadı?

— Götürmək istəyirdim, amma sizin suda üzdüyünüzü görəndən sonra başqa şey haqqında fikirləşdm.

— Nə haqqında?

Vuivranın gözlərində bir mehribanlıq işığı yandı, sifəti qızardı və həyəcandan nəfəsi təngidi. Qızın şirin həyəcanı Arsenin özünə də siyarət etdi, canına istilik çökdü, amma şərdən uzaq olmaq naminə özünü toxtadıb sakit səslə dedi:

— Elə sizin indi fikirləşdiyiniz haqqında fikirləşirdim, amma bütün bunlar boş işlərdir. Eyş-işrət üçün həmişə vaxt tapılır, amma iş gözləmir, dəryazımı otluqda qoyub gəlmişəm, gedim işimi görüm. Hələlik.

Arsen üzünü çevirib uzaqlaşdı və geriyə baxmadan meşəyə girdi.

3.

Müzelyelərin və Mindörlərin həyətləri kəndin qurtaracağında yol kənarında, bir-birindən yüz əlli metr aralıda yerləşirdi. Əvvəllər hər iki ailə bir bulağın suyunu işlədirdi. Bulaq iki həyətin arasında, yoldan iyirmi addım kənarda, Mindörlərin üzüm bağının ayağında idi. Müzelyelər keşkəl qazıb suyun bir hissəsini öz həyətlərinə axıtdılar və suyun yolunun nə vaxtsa kəsil biləcəyi haqda da fikirləşirdilər. 1875-ci idlə Mindörlər ailəsi, başqa bir qərəzləri olmadan və ancaq üzümlüyə girən inəklərin yolunu kəsmək üçün su yolunun üstünə kiçik bir qapı qoydular. Onlar alman təbiətli qonşu dayıuşaqlarını xəbərdar etməmişdilər və bu əhvalatdan incimiş dayıuşaqları bulə güman etmişdilər ki, onların su yolunu qəsdlə kəsiblər. Müzelyelər həyətlərində quyu qazıb su çıxarana qədər suyu kəndin içindən daşımalı oldular. Elə həmin vaxtdan yaxın qonşular elə yadlaşdılar ki, elə bil hərəsi bir diyarda yaşayırmış. Üç nəsil dəyişəndən sonra küsü ailələr arasında deyil, evlər arasında qalmışdı. Mindörlər ailəsinin kənarda ev qurmuş yeni budaqları köhnə küsüdən uzaq düşüb Müzelyelər ailəsi ilə mehribanlaşmışdılar.

Arsen günorta çağı meşədən çıxdı, taxıl zəmisinin içərisindən keçən cığırla gəlib Mindörlərin evi qarşısında əsas yola çatdı. Hər iki həyətin arxa üzü çaylağadək uzanan enişli bir otlaq idi. Çaylağın o üzündəki yoxuş isə elə bil göyə dirənirdi. Yol kəndin ortasından keçirdi. Kəndin özü isə uzun bir təpənin üstündə salınmışdı və onunla meşənin arasında əkin sahələri uzanırdı. Yol irəlidə cənuba burulub Ronsyer kəndinə tərəf uzanırdı. Bu kənd də alçaq bir təpənin döşündə salınmışdı və təpə onu şimal küləyindən qo-

ruyurdu. Otuz kilometr aralıda isə Jüra dağlarının sıraları gah mavi kölgə kimi göz oxşayır, gah da isti yay səmasına qarışıb əriyir, görünməz olurdu.

Evə gedən çığırda Arsen Noel Mindörün yanından keçdi. Noel Mindörlər ailsənin başçısı idi. O, meşədən kəsdiyi bir yasəmən budağını sürüyə-sürüyə aparırdı. Budağa baxan kimi bilinirdi ki, onu təmizləyib odda qurudandan sonra, yaxşı bel, yaxud yava sapı düzəltmək olar. Arsenlə Noel nə bir-birinin üzünə baxdı, nə də salamlaşdılar. Bəli, iki ailə arasında belə bir adət yaranmışdı, təklikdə bir-birini görməməzliyə vururdular. Kənar adamların yanında bir-birinə ədəb naminə mehribançılıq edirdilərsə də bütün Volodever kəndi onların arasındakı narazılıqdan xəbərdar idi.

Kənd yoluna çıxanda Arsen xoşəgəlməz bir hadisənin şahidi oldu. Onların iti Leopard düşmən Mindörlərin həyətində, onların Senyor adlı iti ilə üz-üzə durmuşdu və itlər bir-birinin üstünə cummağa, boğuşmağa hazırlaşırdılar. Noelin oğlu Arman isə arxasında bir çubuq gizləyib itlərdən bir qədər kənarda durmuşdu və Müzelyelərin itini çubuqlamaq üçün məqam gözləyirdi. O, itləri ayırmaq istəyirmiş kimi ikiüzlülüklə öz itini çağırdı. Amma səsində elə bir ahəng vardı ki, elə bil itə ürək-dirək verir və hücuma çağırardı. İtlər bir-birinin üstünə cumdu və boğuşa-boğuşa tozda eşələnməyə başladılar. Arman itləri hürkütməmək üçün asta-asta yaxınlaşırdı. Leopard öz rəqibinin boğazından yapışıb onu elə qəzəblə silkələyirdi ki, Senyor ağrıdan zingildədi. Vəziyyəti belə görən Arman çubuqla iti dəyəcləməyə başladı. Leopard əvvəlcə çubuğa fikir vermədi, amma qabırğalarına döşənən zərbələrin sayı artdıqca gerilədi. Arman itin boynundakı kəndirdən tutub, guya aralamaq istəyirmiş kimi geri dartdı və kənarda arxayınlıqla onu döyəcləməyə başladı. Pəncərələrin birindən Armanın böyük bacısı Jermenin başı göründü. Jermen gülərüz, gombul bir qadındı və onun əxlaqsızlığı haqqında ətrafda söz-söhbət gəzirdi. Mindörlər ailəsi bu övlada görə xəcalət çəkir və qorxurdular ki, onun haqqındakı söz-söhbət ciddi və gözəl bir qız olan kiçik bacısı Jülyetin həyatını korlaya bilər.

İtinin döyüldüyünü görüb ürəyi sıxılsa da Arsen fikirləşdi ki, Arman həyətlərinə girmiş yad iti döyməkdə haqlıdır. Hirsini boğub özünü görməməzliyə vurdu. O, yolun o biri tərəfinə keçib arxasını Mindörlərin evinə çevirdi və qarşısındakı armud ağacının dibinə siyməyə başladı. Sonra səmtini dəyişib üzünü Mindörlərin

evinə tutmuşdusa da bu evi heç görməyirmiş kimi ləng hərəkətlə şalvarını düymələdi, Leopard Armanın əlindən qaçıb küçəyə çıxmışdı və quyruğunu qısıb bir az irəldiə öz sahibini gözləyirdi.

Müzelyelərin evi Mindörlərinkindən böyük olmasa da, görkməcə ondan səliqəli idi. Bu ev başqaları kimi qənaətlə tikilmiş və imkan düşdükcə genişləndirilmiş evlərdən deyildi. Ümumi səliqədən duyulurdu ki, barılar bacarıqlı bir bənnanın əli ilə hörüldüyü kimi, taxta işlərində də mahir bir dülgərin əməyi var. Qarşı üzün tavanı və sütunları qara rəngli olduğundan evə xüsusi görkəm vermişdi. Səliqə ilə əkilmiş ağac və sarmaşıqlar evə elə sarınmışdılar ki, elə bil onun əyninə biçilmişdilər.

Həyətin girəcəyindəki iki böyük qoz ağacının kölgəsində Arsen Leoparda çatdı və itini böyrünə bir təpik çəkib onu qandırmaq istədi ki, Mindörlərin həyətində veyillənmək xeyir gətirməz. Leopard deyəsən bu cəzanı gözləyirdi və çox zingildəmədi. Arsenin qardaşı arvadı Emili Müzelye evin qarşısındakı keşkalın qırağında təknə qoyub paltar yuyurdu. Kənarına sıra ilə qovaq əkilmiş bu keşgöl həyətin çöl üzü ilə çəkilib gəlmişdi və həyətdə su quyusunun qazılmasından əvvəlki dövrün yadigarı sayılırdı. Evin qadınları paltar yumaq üçün keşkalın bulanıq suyuna köpükləndirici maddə qatmaqla həm paltarı yaxşıca təmizə çıxarır, həm də sabuna qənaət edirdilər. Emili girdə, şişkin sifətini Arsenə tərəf çevirib qonşuda itlərin boğuşmasının təfsilatını soruşdu. Arsen isə dayanmadan qısa mə'lumat verib birbaşa mətbəxə tərəf getdi. Mətbəxin qarşısında quyudan su çəkməyə yollanan xidmətçi qız Beletlə rastlaşdı. Beletin on altı yaşı tamam olsa da özü elə sısqa idi ki, on üç yaşlı cılız bir qızcığaza oxşayırdı. Qız üzünə tökülmüş saçlarını əli ilə arxaya itələyib xırdaca sifətini Arsenə tərəf çevirdi, mehriban, dostyana bir təbəssümlə ona baxdı.

Arsenin anası Luiz Müzelye başını mətbəx şkafına salıb eşələnir, gil nimçəni axtarırdı. Ciddi bir ittiham irəli sürməsə də şkafın içindən gələn boğuq səsinin ahəngindən duyulurdu ki, gəlinin ehtiyatsızlıq üzündən qabı sındırb gizlətməsindən şübhələnir. Arsenin böyük qardaşı Viktor pəncərə qarşısında oturub qəzet oxuyurdu və qardaşının gəlişini görməməzliyə vurdu. Belə münasibətlə o qardaşına bildirmək istəyirdi ki, qonşuda itlərin boğuşması və bu barədəki söz-söhbətə əhəmiyyət vermir. Əslində Viktor Mindörlərə qarşı heç vaxt ciddi kin bəsləməmişdi və uzun illərdən bəri iki ailənin bir-birilə küsü saxlaması ona gülünc görünürdü. Kiçik qarda-

şından çəkinməsəydi Viktor bu küsülülüyü çoxdan aradan götürmüş olardı.

Yemək süfrəsi açılmışdı və Arsen dinməzcə keçib öz yerində oturdu. Ürben masanın aşağı başında, öz xidmətçi yerində oturub gözləyirdi. Müzelyelər ailəsində xidmətçi işlədiyi otuz ildən bəri süfrə başına həmişə birinci gəlir, heç bir ifadə büruzə verməyən gözlərini bir səmtə dikib sakitcə gözləyirdi. Onun uzunsov papağı (bəlkə də kənddə axırıncı nümunə idi) ordları çökmüş arıq sifətini daha da uzun göstərirdi. O, başını qaldırıb qorxu çökmuş sakit nəzərlə Arsenin üzünə baxdı və gənc sahibinin münasibətini duymaq istədi. Həyətdən quyuya sallanan vedrənin danqıltısı və çarxın cığıltısı eşidildi. Sonra isə qəhqəhəli gülüş və başqa qarışıq səslər gəldi. Xidmətçi qız Belet cır səslə qışqırırdı:

— Bəsdir, çarxın dəstəyi əlimdən çıxar.

Viktor duydu ki, onun balaca cüvəllağıları yenə fürsət tapıb qızın döşlərini oynadırlar və az qala həyətə çıxıb uşaqları danlayacaqdı. Sonra fikirləşdi ki, boş şeydir, onsuz da Beletin döşləri hələ heç oğlan döşündən fərqlənmir. Luiz divar şkafından aralananda tam inanmışdı ki, gil nimçəni qırıblar, həm də belə bir xəta ancaq Emilinin əlindən çıxa bilərdi. Qayınanası Emilini xoşlamasa da onun işgüzar olmasını və təsərrüfata yarımasını da unutmurdu. Gəlinin əsas günahı onun tanınmış ailədən olmaması idi. On il bir evdə yaşasalar da qayınana gəlinin ətli, qırmızı sifətinə və şit mehribanlığına adət edə bilməmişdi. Gəlinin iri arxası və piyli göbəyi kənd arvadının fəxri sayılsa da Luiz xanımın xoşuna gəlmirdi. O, nəvələri Ogüstlə Pyeri də xoşlamırdı, çünki uşaqlar eynilə analarına oxşayırdılar. İkisi də enlisifət idi, yediklərini yaxşı həzmə verib kökəlsələr də həm yerişləri həm də davranışları onu əsəbiləşdiridi. Uşaqlar sağlam və gülərüz olsalar da daxili zərifliklərı çatışmırdı. Doğrudur, düşünmək olardı ki böyüdükcə dəyişib düzələcəklər, amma belə hallar az olur və Luiz əmin idi ki, uşaqlar Müzelyelər nəslinə çəkməyiblər. Luizin sifəti zərif idi və yaş öz işini görsə də qırışmamışdı. O, hər dəfə fikirləşəndə ki, oğullarının heç biri ona oxşamayıb bu sifətə qəzəb çökürdü. Yeganə təsəllisi bunda idi ki, Arsenin sərt baxışlı xırda gözləri onun öz gözlərinə oxşamışdı. İstidən pörtmüş, gözügülər Emili nə isə danışa-danışa mətbəxə girdi və qayınansı onun sözünü kəsib dedi:

— Yenə mənim gil nimçələrimdən birini qırmısınız.

Emili qətiyyətlə e'tiraz etməyə çalışdı. Luiz kənarı sarı haşiyəli nimçənin yoxa çıxdığını bildirib ittihamını əsaslandıranda Emili qəfildən onun sözünü kəsib qışqırdı:

— Budur ey, həmin qab.

Nimçə doğurdan da rəflərdən birində, lap göz qabağındaca durmuşdu. Emili əli ilə yanbızını şappıldadıb şən-şən güldü və hamı masa arxasına əyləşənədək dil-boğaza qomadı. Luiz hirsindən dodağını gəmirirdi və fikirləşirdi ki, qab qırılmış olsaydı bundan yaxşı idi. Viktor da hirslənmişdi. Dava-dalaşı sovuşdurmaq üçün qonşuda itlərin boğuşmasından söz saldı. Arsen gördüyü əhvalatı danışdı və Arman Mindörün qəddarlığını xüsusi nida ilə nəzərə çarpdırdı. Masa ətrafında fırlanan Leopardın axsaması da bu qəddarlığa canlı sübut idi. Hamı qəzəblənmişdi və az qala Viktor da onlara qoşulacaqdı. Amma sonra yadına düşdü ki, üç həftə əvvəl onun öz cüvəllağıları Mindörlərin həyətdən çıxmış bir toyuğunu tutub diri-diri tüklərini yolmuşdular. Arsen bildirdi ki, qəddarlığa qəddarlıqla cavab vermək lazımdır. Viktor kinayə ilə gülümsədi və bu kinayə heç kimə xoş gəlmədi. Müzelyelər ailəsində işə başlamasından cəmisi altı ay keçsə də xidmətçi Beletin özü belə qonşulara qarşı ən'ənəvi ədavətin tərəfdarına dönmüşdü. Təkcə Ürben bu məsələdə bitərəf qalmışdı. O, adətən nahar vaxtı başını aşağı salıb möhkəmcə yeyirdi ki, güc toplayıb günortadan sonra da yaxşı işləyə bilsin. Şam vaxtı isə şorbasını içəndən sonra bir tikə yavan çörəklə də kifayətlənirdi. Əvvəla ona görə ki, şamdan sonra işləmək lazım gəlmirdi, həm də ki onun vəziyyətində çox yeməyin özü də xoşa gəlməyə bilərdi.

Masa arxasına əyləşəndən sonra hamı sakitləşdi, dedi-qodu sovuşub keçdi. Luiz Müzelye fikirləşirdi ki, hər halda Mindörlər ailəsi ilə barışmaq pis olmazdı. Barışıq olsa bə'zi torpaq sahələrini qarşılıqlı razılıqla dəyşimək olardı. Əsas arzusu isə Arseni Jülyet Mindörlə evləndirmək idi. Jülyet gözəl olmaqla yanaşı, həm də təmkinli və zəhmətkeş idi, gözəl uşaqlar doğub böyüdə bilərdi. Ailənin yeganə övladı kimi böyümüş Luiz həmişə görmüşdü ki, kənddə adama əmək aləti və gəlir vasitəsi kimi baxırlar. Hərdən özü də fikirləşirdi ki, gözəl bir uşaq yaraşıqlı bir öküzdən də dəyərli sayıla bilər.

Luiz səhərlər ümumi otlaqda mal otaran Beletdən otlağın vəziyyətini soruşdu. Qız sözarası danışdı ki, meşənin yanından ot-

lağa gedərkən meşə çığırında ağ paltar geyinmiş ayaqyalın bir qız görüb.

— Qaraşın bir qız idi, saçının hörüyü qəribə görünürdü. Yaxından görə bilmədim, amma başında iri darağa oxşayan bir şey parıldayırdı. Əgər ayaqyalın olmasaydı adam fikirləşərdi ki, hansısa bir varlının qızıdır.

Belə qərara gəldilər ki, həmin qız yay tə'tilinə gəlmiş varlı qızlarından biridir və bu qəribə zamanda ayaqyalın gəzmək kasıblıq əlaməti saylımaya da bilər.

Beləliklə Arsen Vuivra ilə səhərki görüşünü yada salmalı oldu. İklərin boğuşmasından sonra bu görüş onun xatirəsidə ikinci plana keçmişdi. Arsen fikirləşirdi ki, insan gərək həyatın anlaşılmaz hadisələrinə biganə qalmağı da bacarsın. Əsas məsələ Vuivranın qeyri-adi bir varlıq olub-olmamasında idi. Arsen bilirdi ki, bu qız qeyri-adi varlıqdır, amma özünün gündəlik qayğılarından yayınmamaq naminə bu hadisəni yaddaşının uzaq bir küncünə qovmuşdu. Qeyri-adi əhvalatlar təbii və real olmadıqlarına görə ağıllı adam gərək onları öz həyat tərzindən kənarda saxlasın. İncildəki yazılar həmişə Arseni təəcübləndirirdi. Müqəddəs din xadimlərinin görüb təsvir etdiyi mö'cüzələr ona qəribə görünürdü. Arsan onların yerində olsaydı heç nə danışmazdı. Ağıllı, təmkinli olmaq o deməkdir ki, aləmi çaşdıracaq əhvalatları ürəyində saxlamağı bacarasan. Volodever kəndində ağıldan kasıblardan və qəbirqazan Rekvyem kimi içkipərəsəstlərdən başqa hamı Vuivranı gördüyü haqqında söhbət edir və bununla lovğalanırdı. Arsen isə bu bardəə özününkilərə söz açmağı heç ağlına da gətirmirdi. Hələ yəqin ki, çox keçməmiş səhərki görüşü unudacaqdı.

Nahardan sonra Arsen Vyey Vevrə qayıdırdı və Viktor onunla birgə kənd yoluna qədər getdi. Yola çıxıb təzəcə ayaq saxlamşıdılar ki, çiynində dırmıq çöldən qayıdan Jülyet Mindörü görüb susdular. İki qardaşın nəzərləri altında irəliləyən qız qamətini şax saxlayıb başını dik tutsa da, yanaqları azacıq qızarmışdı. Arsen də yüngülcə qızardı. Səhər Vuivranın göldən çıxarkən nümayiş etdirdiyi lüt əzaları o indi Jülyetin paltarı altında sezməyə çalışırdı. Qız keçib gedəndən sonra Viktor pıçıldadı:

— Hər halda gözəl qızdır. Özü də ərə getmək vaxtı çatıb.

Arsen kobud səslə donquldandı:

— Mən ki, mane olmuram.

Əslində Jülyet onun xoşuna gəlirdi və bilirdi ki, bu qızla yaxşı ailə qurmaq olar. Amma fakirləşirdi ki, Jülyetin cehizi az olduğuna görə onunla evlənmək haqqında heç söhbət açmağına dəyməz və iki evin arasındakı küsülülük bunun üçün ən tutarlı bəhanədir.

Belet inəkləri tövlədən çıxarıb otlağa aparırdı.

Viktor dedi:

— Hər kəsin öz zövqü var, mənə elə gəlir ki, Jülyet Beletdən yaxşıdır.

Viktor aralanıb getdi, Arsen isə gülümsəyib Beletə yaxınlaşdı. O Beletlə dostluq edirdi və bu münasibət Müzelyelər ailəsində hamını nigaran qoymuşdu. Bir dəfə Arsen Dol bazarından Beletə don alıb gətirmişdi. Arsen kimi qənaətcil adamın öz puluna belə bazarlıq etməsi qəribə bir əhvalat idi. Luiz oğlunun belə cılız bir məxluqa mehribanlıq göstərməsinə pis gözlə baxırdı. O fikirləşirdi ki, günlərin birində Arsen o qızı xəndəklərin birinə çəkə bilər, amma istəyirdi ki, oğlu bu işi kinlə görsün. Çünki Luiz adamın şəxsiyyətinə ancaq ailəsinə görə qiymət verirdi. Belet isə kəndin ən kasıb, ən çirkli və tənbəl ailəsi sayılan Belelərin övladı idi. Belelər qonşu Rensyer kəndinə köçmüşdülərsə də yenə rəzalət içində yaşayırdılar. Arsen Mindörlərin evi qarşısında Beletdən ayrılarkən doğuş vaxtı çatmış bir inəkdən göz olmağı tapşırdı. Qonşu həyətdə aldığı çubuq zərbələrindən qorxmuş Leopard bu yerə çatanda qorxudan naxırı irəli buraxıb sahibinin ayaqlarına sığındı. Belet itin bu vəziyyətini görüb Arsenə dedi:

— Viktor nə deyir desin, amma bu Mindörlər murdar adamlardır. İstəmirəm heç bu barədə sənə deyim, amma iş burasındadır ki, neçə gündür axşamlar mən fermadan qayıdanda Arman yolumu kəsib mənə əl atmaq istəyir.

Arsen Armanın bu təzə əməlinə çox da hirslənmədi. Bəlkə də ona görə ki, bu söhbətə inanmırdı və Beletin yalançı odluğunu bilirdi. O sakit səslə soruşdu:

— Sənin haranı ələləmək istəyirdi yə'ni?

Belet hirsindən qızadı və dodağını gəmirdi. Arsen isə gülümsəyə-gülümsəyə ona baxırdı. Qız çubuğu Leoparda çırpıb iti söydü ki, naxırın qarşısına keçib irəlidə getsin.

4.

Otluğa çatanda Arsen dəryazı əvvəlki yerində görmədi və yanyörəni nə qədər gəzsə də onu tapa bilmədi. Əvvəlcə ağlına gəldi

ki, Mindörlərdən kimsə ona sataşıb. Sonra bu fikirdən vaz keçdi. Çünki Mindörlərin nə işi olsa da özgə malına tamah salan deyildilər. Başqa dəryaz götürmək üçün evə qayıtmaq istədiyi vaxt qəfildən ağlına gəldi ki, bəlkə Vuivra ona zarafat etmək istəyib.

Gölün qırağına çatanda Arsen gördü ki, Vuivranın donu səhərki yerində çəmənliyə sərilib və donun üstünə atılmış qiymətli daş bərq vurur. Dəryaz isə dondan iki-üç metr aralıda idi. Arsen dəryazı əlinə aldı və kəsərini yoxladı. Sonra Vuivranı axtarmağa başladı. Qız heç yanda görünmürdü və suyun üzü lal idi. Vyey Vevr otlağına qayıtmazdan əvvəl o ipək dona yaxınlaşıb oun üstündəki parıltılı daşa diqqətlə baxmağa başladı. Bu xırda həcmli böyük sərvət onu yüngül bir xəyala daldırdı. Özü zəhmətkeş knədli olduğundan bu daşın bəxş edəcəyi dəbdəbəli həyat ondan çox uzaq idi və zövqünə uyğun gəlmirdi. O belə həyata bir növ kin bəsləyir və düşünürdü ki, böyük sərvət onu işdən aldığı zövqdən məhrum edər. Bu xəzinənin sayəsində o işdə uğur qazanmaq, çətinliklərə üstün gəlmək həvəsini itirə bilərdi. O, milyonlardan istifadə edə bilməyən varlı bir xəsisə dönərdi. Tapıntı sayılacaq xəzinənin fikri cürbəcür qarışıq fikirlər gətirirdi. Bu xəzinənin ölüm qorxusu ilə bağlı olması fikri də öz işini görürdü. O, gümüş başlığı əlinə götürüb daşı günəşə tərəf tutdu və qırmızımtıl parıltıdan gözləri qamaşdı. Sonra fikirləşdiki əgər belə bir sərvətə malik olsa Jülyet Mindörlə ailə qurar. Arman onun yaxın qohumuna çevrilsə də ona kinini azaltmaz. Hər halda belə bir tale də ona dumanlı görünürdü. Arsen könülsüz-könülsüz gümüş halqanı büküb daşla birgə cibinə basdı.

Qalxıb dəryazı götürəndə gördü ki, göldən sahilə tərəf üzən üç ilanın başı görünür. Şübhə ilə çevrilib geri baxanda isə qorxudan rəngi ağardı. Meşənin kənarındakı hündür otları yararaq bir sürü ilan qəzəbdən fısıldaya-fısıldaya ona tərəf gəlirdi. Ağacların kölgəsindəkə qıjılıqlardandan qaynaşa-qaynaşa ilanlar gəlirdi. Yaxınlıqlardakı kollardan, sağdan, soldan ilanlar çıxır, bə'ziləri çox iri olan gürzə və əf'ilər sel suyu kimi irəliləyirdilər. Göllə meşə arasındakı bütün meşə tərpənirdi, elə bil torpağın özü cana gəlmişdi.

Arsen dişlərini qıcıyıb əlini cibinə saldı, əzilmiş gümüş başlığı çıxarıb donun üstünə atdı. Sonra dəryazın sapını qorxudan qıc olmuş barmaqları arasında möhkəm sıxıb arxada üzən ilanlara əhəmiyyət vermədən gölə tərəf geri çəkildi. Qarşıdan, iyirmi metr aralıdan böyük bir dəstə yaxınlaşırdı. Başqalarından irəli düşmüş bir

əfi ilan onun ayağına çatmışdı. Arsen çəkməsinin dabanı ilə onun başını quru torpağa sıxıb əzdi və ilanın çənə sümüyünün xırçıltısı eşidildi. İlanın başı tam əzilsə də bədəni sağ idi, açılıb-yığılır, quyruğu ilə Arsenin çəkməsini döyəcəyirdi. Arsen duydu ki, axırı çatıb və ruhunu tanrıya tapşırmaq üçün dua oxumaq istədi. Amma fikirləşdi ki, dua oxumağa vaxt itirsə xilas üçün son mübarizə imkanı əldən gedə bilər. Onun fikrincə bu dünyanın ən kiçik bir həyat ümidi, o dünyanın cənnətindən nəğddir. İrəlidəki ilan sürüsünün yaxınlaşdığını gözlədiyi anda Arsen hiss etdi ki, qıçına iri bir ilan dolanır, ilanın soyuq gövdəsi şalvarını qıçına sıxıb onu üşüdür, ayağını ağırlaşdırırdı. O, yuxarı dırmanan koramalın başını da gördü. İrəlidən gələn sürünün ona çatmasına üç metr qalmış fit səsi eşidildi və ilanlar dayandılar. Lap irəli çıxmış on-on beş ilan yüyəni dartılmış at kimi şaxə qalxdı. Arsen dəryazı elə ustalıqla çaldı ki, şaxə qalxmış ilanların başları biçilib yerə töküldü. Onun qıçına sarınmış koramal da sürüşüb yerə düşdü. Hücuma keçmiş ilanların arasında böyük bir çaxnaşma düşmüşdü. Onlar toqquşur, birbirinin üstündən aşır, sarmaşır, geriyə yol arayırdılar. Arsen sol tərəfdən suyu süzülə-süzülə qaçan Vuivranı gördü. Qız gölə axan iri arxın üstündən bir addım sıçrayıb qəzəblə qışqıra-qışqıra ona tərəf qaçırdı. Birinci zərbədən sonra daha da coşmuş Arsen isə kəsərindən qan süzülən dəryazını qaldırıb yaxınlıqda qaynaşan iri ilan topasına elə güclü qolay çaldı ki, kəsər bütün topanı doğrayıb keçdi, ilanların quyruqları və başları havada oynadı. Onların doğranmış gövdələri qan gölməçəlirində çabalayırdı.

Vuivra özünün lüt və hövlanak cüssəsi ilə Arsenin qarşısına keçdi, onu vəhşi, qaniçən adlandıraraq üzünə sərt bir sillə çəkdi. Arsen qızı yana itələyib hücumuna davam etdi, qəzəbdən coşmuş vəhşi bir gülüşlə dəryazı sağa-sola çaldı. Onun dəryazı da, çəkmələri də al qan içində idi, əllərinə də qan çilənmişdi. Onun ağlı başından çıxmışdı, hər dəfə dəryazı çalanda həzz ilə dişlərini xırçıldadırdı. Bir anlıq çaşqınlıqdan sonra özünə gəlmiş ilanlar geriyə, kolluqlara tərəf çəkilməyə başlamışdılar və Arsen bağıra-bağıra onların arxasınca irəliləyirdi. Arsenin dalınca qaçan Vuivra qolundan yapışıb onu saxladı. Var gücünü toplayıb onu iki əli ilə silkələməyə başladı. Qızın yaşıl gözlərində sərt bir parıltı vardı, dodaqları ağarmışdı və boğuq səslə qışqırırdı:

— Cani qaniçən, gərək aman verəydim ki, səni didib yeyəydilər.

Qəfildən Arsenin bütün qəzəbi qıza tərəf yönəldi. Çox yaxın olduqlarına görə o dəryazdan istifadə edə bilməzdi və dəryazı yerə atıb qızın əllərini tutmağa çalışdı. Vuivra daha cəld olduğundan oğlanın sə'yini boşa çıxarıb ona sərrast sillələr ilişdirirdi. Onda Arsen kor-koranə qıza tərəf yumruq atmağa başladı və onun yumruq qolaylamasından duyulurdu ki, heç vaxt yumruq davası eləməyib, nə öz zərbəsinin sərrastlığı, nə də alacağı cavab zərbələri haqqında fikirləşmir. Gücündən çox çevikliyi nəzərə çarpan Vuitvra isə sərrast zərbələr vurur və yaxşı da müdafiə olunurdu. Arsen qızın bədənindən yapışıb ortaladı və onu yıxmağa çalışdı. Qız isə kürəyini qabardıb ayqaqlarını yerə möhkəm dirədi, əlləri və dırnaqları ilə müdafiə olundu. O hərdən müvazinətini itirir və az qalırdı ki, yıxılsın. Sonra isə çevikliklə qamətini düzəltməklə Arseni çaşdırırdı. Qızın çılpaq bədənini köynəyin üstündən özünə sıxmış Arsenə elə gəlirdi ki, qolları arasnıda ilanların ən qorxülüsünü, cəhənnəmdən çıxmış şər və hiyləgər bir məxluqu sıxır. O təsadüfən çəkməsi ilə qızın yalın ayağını tapdadı və bütün ağırlığını həmin ayağın üstünə saldı. Qız ığrıdan qışqıranda Arsen "hə, bax belə bağırarsan, həyasız" deyib dizi ilə qızın qarnına ağır bir zərbə də vurdu. Sonra bir əli ilə qızın saçından yapışdı, o biri əlilə isə qızın çənəsindən yapışıb boynunu burmağa başladı. Qız sonuncu dəfə əl atıb onun biləyini cırmaqlayandan sonra süstləşdi və yerə sərildi. Arsen tövşüyə-tövşüyə dedi:

— Bax, adamı belə əzişdirərlər! Sonra qızın yumulmuş gözlərinə və ağarmış sifətinə baxıb təşvişə düşdü, güman etdi ki, onu öldürüb. O, qızı qucağına alıb keşkəlin yanına gətirdi, onu çəmənliyə elə uzatdı ki, başı kol topasının gölgəsinə düşsün. Vuivra tərpənmridi, sifəti sakit və mülayim idi, elə bil ölüm onu yuxuda yaxalamışdı. Arsen hansısa bir kitabda oxumuşdu ki, xaç suyuna çəkilməmiş, xristianlaşmamış bir məxluqu öldürmək ən böyük cinayətdir. Çünki belə bir ölümlə göylərin qapısını onun üzünə bağlamış olursan. Vuivra qeyri-adi bir məxluq, bəlkə də elə cəhənnəmin nümayəndəsi idi və belələrini dinə gətirmək daha vacibdir. Arsen Vuivranın hələ son nəfəsini vermədiyinə ümid edib, keşkələ tərəf qaçdı, ovucunu su ilə doldurub geri qaytıdı və onu xaç suyuna çəkmək istədi. Qızın sifəti də hələ də sakit və mülayim idi. O barmağını cütləyib Vuivranın alnına qoydu və uca səslə dedi: "Müqəddəs atanın adından səni xaç suyuna çəkirəm". Arsen duanın gerisini oxuya bilmədi. Müqəddəs atanın adını eşidən kimi qız

gözlərini açıb dikəldi, sifəti rəngi dəyişib allandı. O Arsenin biləyindən yapışıb dedi:

— Niyə belə iş görürsən? Adamın özündən soruşmamış onu xaç suyuna çəkməzlər.

— Məni xaç suyuna çəkəndə heç məndən soruşan olmayıb.

Vuivra gülümsədi və gözlərinə mehriban bir təbəssüm qondu:

— Deməli məni cəhənnəm odundan qurtarmaq istəyirdin?

— Eh, düzünə qalsa özüm üçün çalışırdım. Sonrakı vicdan əzabından qorxurdum.

Qız onu yanında oturtdu və onlar bir az əvvəlki döyüş haqqında söhbətə başladılar. Arsen dedi:

— Hələ indi fikirləşirəm ki, az qala sizi öldürmüşdüm. Amma siz istəsəydiniz ilanları geri çağırıb məni onlara yedirdə bilərdiniz.

— Belə bir fikir heç ağlıma da gəlməyib.

— Hələ ondan əvvəl fit çalıb ilanları saxlamasaydınız işim bitmişdi. Əvvəlcə nələr baş verdiyini heç anlaya da bilmirdim.

— Yaqutu qaytarıb yerə atdığına görə bəlkə də qaçıb canını qurtara bilərdin. Amma bu da imkandan asılıdır. İki-üç gürzənin sancması sənə bəs edərdi. Adətən daşımı götürmək istəyənləri ilanların öhdəsinə buraxıram. Çünki onlar paylarını almalıdırlar. Səni isə ölümlə üz-üzə qoya bilməzdim.

Vuivra əlini oğlanın çiyninə qoyub ona sıxıldı və lap yaxından danışmağa başladı:

— Xəbərin varmı ki, əlli ildən bəri sən yeganə kişisən ki, mənə qadına baxan kimi baxmısan, başqaları isə ancaq yaquta baxırlar, heç mənə əhəmiyyət vermirlər. Onların bu dəyərli qaşın qarşısında dayanıb necə baxdıqlarına tamaşa etməyə göz gərəkdir. Bu zavallı heyvanlar başlarını bədənlərinə sıxıb gözlərini bərəldir, rəngləri qaçır, yan-yörəyə döyüküb qorxudan əsirlər. Elə ki, daşı götürməyə cəsarətləri çatmır və mənim sudan çıxdığımı görürlər, gözlərinə vahimə və kin dolur. Adamın onlara yazığı gəlir, sümük gəmirən itə oxşayırlar. Hə, dünən Lu gölündə çimirdim. Sudan sıxanda gördüm ki, on beş yaşlı bir oğlan donumun yanında dizi üstə oturub və həyəcandan üzü od tutub yanır. Qiymətli daşı görüb gözü kəlləsinə çıxmışdı, əlini daşa uzadır, cəsarəti çatmır, qorxudan dişləri şaqqıldayırdı. Məni görəndə isə ayağa qalxdı. Bircə anlıq mənə baxdı və gözlərini elə tez çəkdi ki, heç baxışlarımız rastlaşmadı da. O yenə daşa baxırdı. İstədim onunla söhbət edim. Soruşdum heç ömründə çılpaq qadın görübmü? Yox, mən birinciyəmmiş. İstədim

onun fikrini cəlb edim, axı onun yaşında oğlanlar bu işə daha çox maraq göstərir. Təsəvvür edə bilərsən? Tez və asan varlanmaq fikri onun ağlını da hisslərini də şikəst eləmişdi. Özü də bu adamın cəmi on beş yaşı var. Amma sən onun kimi deyilsən.

— Heç bilmirəm ağlıma nə gəlmişdi. Düzü belə əhvalatlar məni çox maraqlandırmır.

— Sudan çıxanda gördüm ki, gözlərini məndən çəkə bilmirsən. Onda sən heç yaqut haqda fikirləşmirdin, elə deyil? Mənə xoş gələn də elə bu oldu. Gərək sənin elə həmin andaca açıq danışaydım, amma utandım. Hə, doğrudan bir az utanırdım.

Vuivra səmimi və həyəcanlı bir səslə danşıır, ehtirasdan səsinin ahəngi pozulurdu. O, Arsenin əlini əlinə alıb onun çiyninə sıxılmışdı və həyəcandan tündləşmiş yaşıl gözlərini oğlanın gözlərindən çəkmirdi. Arsen bu yaxınlığın nə ilə qurtaracağını yaxşı duyurdu, amma nə müqavimət göstərir, nə də bu ehtirasa lazımi cavab verirdi. O, qarşısındakı qızın hansı dünyaya mənsub olduğunu ayırd edə bilmədiyinə görə qorxurdu ki, cəhənnəm nümayəndəsi ilə eyş-işrətə qoşulub ağır günaha bata bilər. Amma bu qız cəhənnəmlik oldu-olmadı adamı bütün günahlara şeytan kimi sürükləyir. Bəlkə də elə təsadüfi adamlarla günaha batmaqdansa, elə şeytanın özü ilə günah etmək əlverişlidir. Hər halda Vuivranın sığalları onu getdikcə coşdurur və fikirləşməyə aman vermirdi. Qız qolunu onun boynuna salıb dodaq-dodağa durmuş və astaca pıçıldayırdı. Arsenin özü də fəallaşmışdı və vaxtı çatanda özünün günah saydığı əməli də yaxşıca icra elədi.

Vuivra güman edirdi ki, bütün axşamı eyş-işrət davam edəcək, Arsen ayağa qalxıb şalvarının qayışını bərkidə-bərkidə dedi:

— Hə, eyş-işrət yaxşı şeydir, amma vaxt keçir, iş məni gözləyir.

Qız çaşqınlıqla ona baxdı və baxışında bir az kin də düyüldü. Arsen isə daha da ciddi görkəm aldı və qərarının qət'i olduğunu bildirdi:

— İşi yaddan çıxarmaq olmaz. Sabah səhər ot yığanlar gələcək və otu çalınmış görməsələr özüm günahkar alacağam. Yox, söz elə mən deyəndir: işi heç vaxt unutmaq olmaz.

Amma meşənin kölgəliyindən kənarda elə bərk isti vardı ki, imkanı olan belə havda işə girişməzdi. Mavi gölün suyu da qızmışdı. Arsenlə Vuivranın ətrafında qana bulanmış ilan leşləri səpələnmişdi və qara milçəklər onlara darışmışdılar.

— Hər şeydən iş vacibdir, — deyib Arsen sözünün üstündə durdu.

Vuivranın cavabı isə qanmaz uşağa gülümsəyən yaşlı adamın təbəsümünə bənzər bir təbəssüm oldu. Sonra o, ayağa qalxıb yüngülcə gərnəşdi və donunu geyinməyə getdi. Günün altında fırlanan bu çılpaq bədənin qıvraq hərəkətləriin görüb Arsen bir az coşsa da fikrini dəyişə bilmədi.

5.

Aysız, qaranlıq gecə vxatı iki qardaş həyətə girdilər. Leopard irəli çıxıb onlara yalmandı və Arsen dizi ilə onun qabırğalarına dostcasına yüngül bir zərbə vurandan sonra qayıdıb it damına girdi. Qardaşlar cığırın qırağında durub siqaret yandırdılar. Viktor soruşdu:

— Hə, Vyey Vevdə vəziyyət necədir?

— Yaxşıdır.

— Oralarda heç kəsi görmədin?

— Yox.

— Hava gözəl keçir, heyif ki, otluğu çalıb qurtarmamışıq. Gərək bu işi qurtarmağa tələsək. Səhər üçümüz gedərik ot çalmağa, məncə günortaya qurtararıq.

— İkimiz getsək bəs edər — deyə Arsen cavab verdi — Ürbən daha belə işlərə yaramır, əlləri əsir, belə gələ-kötür yerdə dəryazı sındıra bilər.

— Məsələ onun necə işləyəcəyində deyil. Mən anama görə deyirəm. Əgər sabah səhər qocanı özümüzlə işə aparmasaq belə çıxacaq ki, o artıq işə yaramır. Xəbərin varmı ki, anam onu payızda işdən çıxarmaq istəyir?

— Onu işdən çıxarmağı anama mən məsləhət görmüşəm.

Viktor bir anlıq susub qaldı. O, qardaşına yaxşı bələd idi, amma heç ağlına gətirə bilmirdi ki, qocanı evdən çıxarmaq fikrini Arsen irəli sürüb. Otuz ildən bəri Müzelyelər ailəsinə xidmət edən Ürbən Arsenin doğulduğu günü də xatırlayırdı. Arsen hələ beşikdə ikən atası ölmüşdü və Ürben körpəyə ata məhəbbəti ilə bağlanmışdı. Ailə üzvlərinin yaxşı yadındadır ki, adətən dinməz və təmkinli görünən bu kişi körpə Arsenin sevincinə həmişə şərik olur, o ağlayanda isə könlünü alıb ovundururdu. Sonralar isə qoca ona at yəhərləməyi, ata qulluq etməyi, dəryaz tutmağı, ot çalmağı öyrətmişdi.

JORJ SİMENON

Jorj Simenonu cəsarətlə müasir fransız ədəbiyyatının ağsaqqalı və aparıcısı adlandırmaq olar. Əgər məhsuldarlıq əsas götürülsə ona müasir dünya ədəbiyyatının ən məhsuldar yazıçısı da demək olar. Simenon sür'ətli ikinci bir yazıçı təsəvvür etmək çətindir. Bir həftəyə, on günə oxunaqlı bir roman yazmağı bacaran bu yazıçının əsərlərinin sayı üç yüzü keçib.

Jorj Simenon 1903-cü il fevralın 13-də Belçikanın Lyej şəhərində anadan olub. Atası sadə bir sığorta mə'muru, anası isə həm vardövlət həm də kasıblıq görmüş bir ailənin evladı, sadə bir qadın idi. Atası çox canfəşanlıqla ev xərclərinə qənaət edib balaca Jorjun varlı balaları təhsil alan məktəbdə oxumasına nail olmuşdu.

Jorj Simenon sonralar təhsil illərini, yaşadığı şəhərin müxtəlif guşələrini, bazar günləri qonaq getdikləri qohum ailələrini dönədönə xatırlayıb. Gözəl rəssam yaddaşına malik olan yazıçı uzun illər əvvəl gördüyü bir guşəni yaxud mənzərəni dəqiqliklə təsvir etməyi bacarırdı. Anasının qohumları, varlıların qonağı olduğu vaxt yadında qalan hadisələri, burjua intriqalarını qırx yaşında qələmə almış yazıçı təsvirlərinin dəqiqliyinə görə məhkəmə qarşısında durmalı olub. Jorj Simenonun əsərlərində öz obrazını tanıyanlar yazıçını dəfələrlə məhkəməyə veriblər.

Gördüklərini, duyduqlarını dəqiq və anlaşılan bir tərzlə təsvir etmək bacarığı əsasən böyük sənətkarlara xas bir xüsusiyyətdir. Simenon bu sahədəki uğurlarını məşhur rus yazıçısı Qoqolun yaradıcılığı ilə əlaqələndirir və deyir: "Qoqol mənə, gənc belçikalıya imkan verdi ki, özümü Rusiyada hiss edim, onun genişliyini, gözəl mənzərələrini görüm qəribə görünən adətlər, qeyri-adi zövqlər, sərt konfliktlərlə tanış olum. Mən onda başa düşdüm ki, sənətkar doğrudan da sənətkardırsa o oxucuya nəmə'lum olan hər cür əhatəni ona göstərə və duydura bilər. Romanlarımı yazarkən mən həmişə cəhd edirəm. Mənim oxucum özünü əsərdə əhvəlatlar baş verən ölkənin, şəhərin, evin, mənzilin sakini saymalıdır".

Jorj Simenon Çexov və Dostoyevski yaradıcılığına da yüksək qiymət verir və onları özünün müəllimləri adlandırır.

Hələ lap gənc yaşlarından balaca Jorj evlərində kirayənişin olan tələbə gənclərin səs-küylü, mübahisəli yığıncaqlarını xoşlayır, onlara qoşulurdu. Nəhayət, on beş yaşında ikən, məktəbi bitirməyinə bir il qalmış təhsildən əl çəkib işləmək, özünü dolandırmaq fikrinə

düşür. Əvvəl kitab mağazasında satıcı, sonra isə yerli qəzetin xəbərlər şö'bəsində işləyir. Həmən dövrdə Simenon yerli gənc şair və rəssamların yaratdığı dərnəyin fəal üzvlərindən idi. Bu dərnəkdə müasir incəsənətin problemləri haqda ciddi mübahisələr gedirdi. Simenonun valideynləri isə onu ticarətlə, işgüzarlıqla məşğul olmağa vadar etmək istəyirdilər. Nəhayət o dözə bilməyib 1922-ci ildə, on doqquz yaşında Parisə yola düşür.

İlk vaxtlar o Parisdə korluq çəkir, çoxlu hekayələr yazıb paytaxtın qəzet və jurnallarına göndərir və nəhayət bəxti açılır: O vaxt "Matən" qəzetinin ədəbi redaktoru vəzifəsində çalışan məşhur yazıçı qadın Kolet onun hekayələrii bəyənir və çap edir. Daha sonra isə Jorj başqa qəzet və jurnallarda da çap olunmağa başlayır. O pul qazanmaq naminə, sadə oxucuları cəlb edən, intriqalar və macəralarla dolu çoxlu əsər yazıb çap etdirdi. Həmən əsərləri isə müxtəlif adlarla imzalayırdı. İyirminci illərin sonunda Simenon məhsuldar bir yazıçı kimi tanınırdı. Hamı bilirdi ki, o bir həftə ərzində maraqlı bir roman yazmağa qadir bacarıqlı və gələcəkli bir yazıçıdır. Onun daimi naşiri isə Parisli Fayar idi. Müxtəlif imzalardan əl götürüb nəhayət öz ad-familiyası ilə, Jorj Simenon kimi imza etməyi də ona Fayar məsləhət görmüşdür.

Komissar Meqrenin axtarışdarı mövzusunda romanların meydana gəlməsi ilə Simenonun şöhrəti ikiqat artdı. Lakin əvvəlcə bu romanların necə qarşılanacağını yazıçı da naşir də həyəcan içində gözləyirdilər. Əvvəlki iki romanı oxumuş naşir Simenonu yanına çağırıb demişdi: "Dostum, əsərlərinizin ikisini də oxumuşam. Əslində bunlar dedektiv romanlar deyillər. Hər şeydən əvvəl onlarda mövzu bir porblem ətrafında cəmlənməyib, onlarda açılmaz tapmacaya, əvvəlcədən hesablanmış çətin şahmat partiyasına oxşayan qeyri-adi, sirli cinayətlər yoxdur. Belə cinayətləri ancaq mahir adamlar, tanınmış, dərin düşüncəli peşəkarlar açа bilərlər. Sizin baş qəhrəmanınız isə heç bir cəhətlə fərqlənməyən sadə bir xidmətçidir, nə gənc deyil, nə gözəl, nə də güclü. Əslində elə bütün surətlər orta səviyyəlidirlər, nə çox yaxşı deyillər nə də çox pis. Romanlarda oxucuları yandıran məhəbbət intriqaları yoxdur…"

Simenon elə güman edir ki, bu sözlərdən sonra naşir əl yazmalarını ona qaytaracaq. Lakin naşir fayar bu romanlarda dedektiv roman janrının yeni bir xəttini duymuşdu. O iflas olmaqdan qorxsa da hər iki romanı çap edir və riskinə görə mükafatlaır. Simenonun yeni romanları həm yaxşı qazanc gətirir, həm də şan-şöhrət.

Simenonun komissar Meqresi başqa dedektiv qəhrəmanlarından fərqlənirdi. Yazıçı yalnız cinayətin tərənməsi və onun düyününün sadə bir polis komissarı tərəfindən açılmasını deyil, həm də cinayətin səbəbini, onun törənməsinə səbəb olan əhatə və mühiti açmağa çalışır.

Çox keçməmiş Simenon Fransanın ən məşhur yazıçılarından biri kimi tanınır. Sonra yavaş-yavaş əsərləri başqa dillərə tərcümə olunduqca dünya şbhrəti də qazanır. Simenon əsərlərinin xarici dillərə tərcümə olunması üzrə də dünya rektoru vurmuş az saylı yazıçılardandır.

Komissar Meqrenin şöhrəti elə artmışdı ki, bu ədəbi qəhrəmanı əbədiləşdirənlər də oldu. 1966-cı ildə Hollandiyanın Delfzeyle şəhərciyində Komissar Meqreyə simvolik heykəl qoyulub. Çünki Simenon 1929-cu ildə Komissar Meqrenin obrazı yaranmış ilk romanı burada yazıb. Londonda "Madam Tüssonun sərgisi" adlanan müzeydə də Meqrenin az qala canlı obrazını görmək olar. Bu qəribə muzeydə məşhur şəxsiyyətlərin mumdan düzəldilmə; geyim-kecimli fiqurları düzülüb. Həmən fiqurlar arasında orta yaşlı, ucaboy, əlində qəlyan tutmuş; sifəti sərt cizgili komissar Meqre obrazı ədəbiyyat həvəskarları və turistləri daha çox cəlb edir.

Uzun yaradıcılıq illəri boyunca Simenon dəqiq bir rejim ilə işləyib. Onun məhsaldarlığına vacib şərtlərdən biri də yəqin ki, belə bir iş rejimi olub. O bir əsəri yazmağa başlayarkən kənar aləmlə əlaqələrini kəsir, hes kəsi qəbul etmir, telefon zənglərinə cavab vermir. Hər gün səhər saat 6-dan 9-a kimi işləyir, 20-25 səhifəlik bir fəsil yazır. Sonra gəzinir — bir romanı yazıb qurtarınca ancaq eyni yerdə gəzinir. Axşamlar isə makina arxasında oturub səhər yazdığını redaktə edə-edə makinada yazır. Bu minvalla bir həftəyə, on günə yeni bir roman hazır olur. Çox keçməmiş isə yazıçı yeni, çox tirajlı romanının əlvan cildli müəllif nüsxələrini alır…

Jorj Simenon məhsuldar yazıçı olmaqla bərabər öz yaradıcılığına ciddi tələbkarlıqla yanaşan, öz imzasının keşiyində düran bir yazıçıdır. Komissar Meqre silsiləsi ilə böyük şöhrət tapmış Simenon tək dedektiv əsərlər müəllifi kimi tanınmaq fikri ilə heç cür razılaşa bilmirdi. Hələ 30-cu illərdən o duymuşdu ki, Meqre silsiləsi onu yeknəsək bir yazıçıya çevirə bilər və öz yaradıcılığında ictimai mövzulu romanlara da xüsusi bir yer ayırdı. Hətta bir müddət Meqre silsiləsindən əl çəkib ancaq sosial-psixoloji romanlar yazmaq fikrinə də düşdü. Lakin tezliklə ədəbiyyat həvəskarlarının

güclü e'tirazları və öz daxili narahatlığı yazıçıya anlatdı ki, komissar Meqre obrazı onun həyatının ayrılmaz bir hissəsinə, oxucu kültəsi arasında sərbəst yaşayan canlı bir şəxsiyyətə dönüb. Simenonun sosial-psixoloji romanları komissar Meqre ilə yanaşı yaşamalı oldular. Sosial-psixoloji romanları müəllif "çətin" romanlar adlandırırdı. Bu cür romanlarda o insanın daxili didişməsii, özü-özü ilə mübarizəsini, düşdüyü çətin vəziyyətlərdən çıxış yolu axtarmasını, uğurları və uğursuzluqları təsvir etməyə çalışır. Simenondan nə üçün yazdığının səbəbini soruşduqda o belə cavab verib: "Ona görə yazıram ki, yazmaq mənim həyatımdır. Mənə yazılan məktublarda oxuyanda ki, əsərlərim adamlara özləri-özlərini anlamaqda, başqalarını duymaqda, hər hansı bir çətinliyi aradan qaldırmaqda, bir sözlə onların həyatına nə yollasa kömək edir — həddən artıq sevinirəm".

Hələ 1973-cü ildə, yetmiş yaşı ərəfəsində Simenon rəsmən bildirmişdir ki, yorulub və daha roman yazmaq fikrində deyil. Yetmiş yaşacan yazdıqları ilə kiçik kitabxana yaratmış bir yazıçının yorulmasına şübhə edən olmadı. Lakin onu yaradıcılıqsız təsəvvür edə bilməyən fransız tənqidçiləri haqlı olaraq deyirdilər ki, Simenon müəyyən vaxt istirahətdən sonra yaradıcılığa qayıdacaq və çox güman ki, bioqrafik əsərlər yazacaq. Mütəxəssislərin gümanı düz çıxdı, az sonra Simenonun xatirələr kitabları çap olunmağa başladı.

"Malular ailəsi" romanı Simenonun azərbaycan dilinə tərcümə olunan ilk romanıdır. Bundan əvvəl isə "Meqrenin qəlyanı" adlı hekayəsi dilimizə tərcümə olunub.

JORJ SİMENON

MEQRENİN QƏLYANI

I

Saat səkkizin yarısında Meqre şefin otağında idi. İsti iyul günü başa çatırdı. Meqre arxayınlıqla köksünü ötürdü, sonra saatı çıxarıb baxdı. Şeflə görüşdü, qovluqları masanın üstündən yığışdırıb ayağa qalxdı. Qalın örtüklü qapını arxasınca örtüb gözləmə otağına çıxdı. Otaqdakı qırmızı kürsülər boş idi. Qoca xidmətçi öz yerində, dəmir çərçivəli pəncərənin arxasında oturmudu. Axtarış polisi idarəsinin koridoru kimsəsiz idi. Uzun, isti bir iş günü başa çatmışdı.

Meqre adəti üzrə birbaş öz otağına qayıtdı. Orfevr küçəsinə baxan pəncərələr geniş açıq olsa da otaqdan tütün iyi çəkilmirdi. O həmişəki kimi qovluqları masanın üstündə bir küncə qoydu, hələ soyumamış qəlyanını pəncərənin qırağına döyüb boşaltdı. Qayıdıb yerində oturdu və adətən sağ əli tərəfdə həmişə hazır olan ikinci qəlyanı götürmək istədi.

Qəlyan yerində yox idi. Meqrenin üç qəlyanı vardı. Biri külqabının yanında idi. Amma indi axtardığı sevimli qəlyanı, həvəslə sümürdüyü, həmişə özü ilə götürdüyü iri qəlyan yerində deyildi. Həmən qəlyanı on il əvvəl arvadı ad günündə bağışlamışdı. Meqrenin köhnə, sevimli qəlyanı yoxa çıxmışdı.

O, ciblərini üstdən yoxladı, sonra əllərini ciblərinə soxdu. Qara mərmər sobanın üstünə baxdı. Əslində hələ çox nigaran deyildi. Qəlyanlarından birini gec tapması adi haldır. Otağı iki-üç dəfə fırlandı. İçərisində əl yumaq üçün kiçik su fontanı qurulmuş xırda şkafın qapısını açıb içinə baxdı.

İtik axtaranların hamısı belə çaşbaş olur. Özü bilirdi ki, günortadan sonra əlini yumayıb, həm də bir az əvvəl, saat altıdan sonra hakim Kamelyo zəng eləyəndə həmən qəlyan damağında idi.

Meqre zəngi basıb xidmətçini çağırdı:

— Emil, mən şefin yanında olanda otağıma girən olmayıb?

— Heç kim girməyib, cənab komissar.

O yenə pencəyinin, şalvarının ciblərini axtardı. Meqre çaşbaş olmuş adi, gonbul kişiləri xatırladırdı. Fırlandıqca daha ox qızışırdı.

Meqre keçib müvəkkillərin boş otaqlarını gəzdi. Hərdən qəlyanlarından birini unudub onların otağında qoyurdu. İstirahət vaxtı idarədə otaqların belə boş olması həm qəribə görünür, həm də xoş tə'sir bağışlayırdı. Qəlyan yoxa çıxmışdı. Meqre şefin qapısını döydü. O təzəcə çıxmışdı. Meqre içəri keçdi, amma özü yaxşı bilirdi ki, qəlyan orda da yoxdur. Sat yeddinin yarısında günün hadisələrindən və özünün kəndə istirahətə getmək planından danışmaq üçün şefin yanına gələndə damağındakı qəlyan başqası idi.

Səkizə iyirmi dəqiqə qalmışdı. Səkkizdə evdə olmağa söz vermişdi, baldızı əri ilə qonaq gələcəkdi. Evə nə isə aparmalı idi. Hə, meyvə almaq lazımdı. Arvadı tapşırmışdı ki, gələndə şaftalı alsın.

Axşamın ağırlaşmış havasında evə qayıdarkən qəlyanın fikri Meqrenin başından çıxmırdı. Qəlyan məsələsi onu narahat edirdi. Bə'zən elə kiçik, əhəmiyyətsiz hadisələr olur ki, izahını tapmayınca adam narahat olur.

O, şaftalı alıb evə qayıtdı. Bir az kökəlib iriləşmiş baldızı ilə görüşdü. Süfrəyə içki düzdü. Həmən vaxt adəti üzrə sevimli qəlyanı damağında olmalı idi.

— İşiniz çoxdur?

— Yox, sakitlikdir.

İşdə belə vaxtlar da olur. İş yoldaşlarından ikisi istirahətdə idi. Üçüncüsü səhər zəng eləyib ailəsinin kənddən qayıtdığına görə iki günlük icazə almışdı.

Yemək vaxtı arvadı dilləndi:

— Fikirli görünürsən, Meqre.

Meqre qəlyana görə fikirli olduğunu e'tiraf edə bilməzdi. Doğrudur, bu məsələni faciəyə çevirməmişdi. Amma hər halda fikirdən də ayrıla bilmirdi.

… Saat ikidə nə edirdi? Hə, saat üçə azacıq işləmiş öz otağında idi. Lükas ona bir oğurluq əhvalatı və yenə arvadının doğmasını gözləyən müvəkil Janvye haqqında danışırdı.

Sonra pencəyini çıxarıb, qalstukunu bir az boşaldıb rahatca oturmuş, əvvəlcə qəsd hesab edilmiş bir özünü öldürmə işi haqda hesabat yazmışdı. Həmən vaxt qəlyanı da damağında idi.

Sonra Jejeni gətirmişdilər: Monmartrda yaşayan balaca xuliqanlardandı, gəzdiyi qıza bir bıçaq vurmuşdu. Özünün dediyinə görə "bir balaca sancmışdı". Jejen masaya yaxın gəlməmişdi. Həm də ki, əlləri qandallı idi.

Likör içirdilər. Arvadlar mətbəx işlərindən danışır, baldızının əri isə siqar çəkə-çəkə qulaqucu dinləyirdi. Rişar-Lonuar bulvarının səsküyü açıq pəncərədən içəri dolurdu.

Günortadan sonra Meqre heç şərab içmək üçün Dofin qəhvəxanasına da getməmişdi ki, otaq boş qalardı. Dayan, otağa bir qadın da gəlmişdi… Görəsən, familiyası necə idi — Roy demişdi, yoxsa Leroy?.. Qadın çağırışsız gəlmişdi. Emil otağa girib xəbər vermişdi:

— Bir qadın oğlu ilə gəlib.

— Nə məsələdir?

— Demək istəmir. Şeflə danışmaq istəyir.

— De, gəlsin içəri.

Təsadüfən iş arasında boş vaxtı olduğuna görə Meqre onları qəbul eləmişdi. Əslində bu qəbula o qədər az əhəmiyyət vermişdi ki, nədən danışıldığını da güclə yadına salırdı.

Meqrenin baldızı əri ilə çıxıb getdi. Arvadı evi yığışdıra-yığışdıra sözarası dedi:

— Bu axşam heç özündə deyildin, nə olub axı?

Yox, bir şey olmayıb. Hər şey yaxşı idi, qəlyan əhvalatı olmasaydı. Gecə düşmüşdü, Meqre açıq pəncərənin qarşısında durmuşdu. Parisdə minlərlə adam eyni vaxtda damaqlarında qəlyan, yaxud siqaret pəncərə qarşısında durub yuxudan əvvəl təmiz hava alırlır.

Qadının familiyası deyəsən Leroy idi, komissarla üz-üzə oturmuşdu. Hərəkətlərindən ləyaqətli görsənməyə çalışan adamları xatırladırdı. Qadının qırx beş yaşı olardı, orta yaşdan sonra ətlənməyə başlayanlardan idi. Meqre, yaqlandıqca sanballaşan qadınları xoşlayırdı.

— Cənab rəis, gəldim ki…

— Rəis buarda yoxdur. Mən komissar Meqreyəm.

Dayan! Burada bir əlamət yada düşdü. Qadın Meqrenin adını eşidəndə diksinməmişdi. Deməli, qəzet oxuyan deyilmiş, yoxsa onu tanıyardı. Əksinə, axtarış polisi rəisinə şəxsən təqdim olunmadığı üçün narazı olduğunu bildirib:

— Daha keçib, gərək dərdimi açam, — deyirmiş kimi əlini oynatmışdı.

Cavan oğlan isə əksinə, Meqre hələ ona fikir verməmiş olsa da, adını eşidən kimi diksinmiş, gözlərini həsədlə komissarın üzünə zilləmişdi…

Meqrenin avadı yatacağı hazırlayıb paltarını soyunurdu:

— Yatmaq istəmirsən, Meqre?

— İndi gəlirəm…

Hə, indi yada salaq görək həmin qadın nə danışırdı. O çox danışmışdı! Hikkə ilə, israrla danışırdı. Hər xırda sözünə böyük əhəmiyyət verəmn, söhbətinin ciddi hesab edilməyəcəyindən ehtyat edən adamlar kimi danışırdı. Bu hal qadınlarda, ələlxüsus yaşı əllini haqlamış qadınlarda ad bir şeydir.

— Biz oğlumla birgə yaşayırıq…

Meqre ona, demək olar ki, qulaq asmırdı, qadın da bunu duymuşdu.

Qadın dul idi, bu — mə'lum! Deyirdi ki, duldur, Meqrenin yadında dəqiq qalmamışdı, beş ildir, yaxud on ildir ki, duldur, deyirdi. Yəqin çoxdan dul imiş, çünki oğlunu böyüdüncə çox əziyyət çəkdiyini söyləyirdi.

— Onun üçün hər şey etmişəm, cənab komissar.

Belə söhbətə necə qulaq asasan axı? Bu yaşda, bu vəziyyətdə olan qadınların hamısı eyin sözü eyni tərzdə danışırlar. Amma bu qadının dul olması ilə əlaqədar bimr söhbət də vardı. Nə söhbət idi o? Hə, yada düşdü…

Qadın demişdi:

— Ərim adlı-sanlı zabit idi.

Oğlu isə düzəliş vermişdi:

— Adyutant idi, ana Vənsen əyalətində.

— Bağışlayın… Zabit idi, deyirəmsə, bilirəm niyə deyirəm. Əər o ölməsəydi, özündən fərsiz və hər işi ona yükləyən rəhbərləri üçün qurban getməsəydi, indi zabit olardı… Deməli…

Meqre qəlyanı yaddan çıxarmırdı. Söhbət vaxtı qəlyanın harada olduğunu fikirləşirdi. Yadına düşdü ki, Vənsen sözü deyiləndə qəlyan damağında idi. Təsdiq edirdi ki, həmin vaxt qəlyan çəkirdi. Sonra isə Vənsen sözü daha təkrar olunmamışdı.

— Bağışlayın, harada yaşayırsınız?

Meqre küçənin adını unutmuşdu. Amma yadında qalmışdı ki, Şarenton məhəlləsində birinci küçə idi. O, təsəvvüründə yaranmış geniş küçəni, kiçik evcikləri, qarmaqarışıq tikniti sahələrini xatırladı.

— Balaca birmərtəbəli evdir, kiçik qəhvəxana ilə böyük inzibati binanın arasında yerləşir.

Oğlan masanın küncündə oturmuşdu, həsir şlyapasını dizlərinin üstündə tutmuşdu.

— Oğlum istəmirdi ki, yanınıza gəlim, cənab rəis, bağışlayın, cənab komissar. Mən ona dedim:

"— İndi ki, bilirsən, sənlik bir iş yoxduur, gərək danışam"…

Qadının donu eə rəngdə idi? Parçanın yeri qara idi, üstündə də bənövşəyi bəzəklər. Özünü ləyaqətli göstərməyə çalışan yaşlı qadınların geydiyi donlardan. Başındakı papaq qəribə idi, yəqin özü dəyələrlə fasonunu dəyişmişdi. Əlcəkləri tutqun rəngli ipdən toxunmuşdu. Qadın qurduğu cümlələrlə fikir verir və hər dəfə də bu ifadələrlə sözə başlayırdı:

— Təsəvvür edirmisiniz ki…

Yaxud,

— Aləm bilir ki…

Qadını qəbul eləmək üçün Meqre pencəyini əyninə keçirmişdi, qızışırdı: yuzusu gəlirdi. Bu da bir böyük idi. Qadın içəri girən kimi müvəkkillərdən birinin yanına göndərməliyinə təəssüflənirdi.

— Neçə dəfədir hiss edirəm ki, mən evdə olmayanda evə kim isə girib.

— Bağışlayın siz evdə oğlunuzla yaşayırsınız?

— Bəli. Əvvəllər elə bilirdim ki, odur. Sonra gördüm ki, oğlum işdə olduğu vaxt evə gələn olur.

Meqre özünü itirmiş cavan oğlana tərəf çevrilib baxdı. Belələrinə Meqre yaxşı bələd idi. On yeddi yaşı olardı. Özü artıq, boyu uca idi. Üzü sızaqlı, saçı qırmızımtıl, burnunun yanları çilli idi.

Yəqin şuluqdur. Ola bilər. Deyəsən, anası belə bir söz demişdi. Özününkülərdən şikayətlənməyi sevən adam az deyil. Amma hər halda utancaq idi. Az danışırdı. Gözlərini xalçaya, yaxud kabinetdəki başqa bir əşyaya zilləyib dururdu. Heç kəsin ona baxmadığını duyan kimi gözlərini Meqreyə zilləyirdi.

Yəqin, anasının bura gəlişindən narazı idi. Bəlkə də onun israrla, uzun danışdığına bir az xəcalət də çəkirdi.

— Oğlunuz nə iş görür?

— Dəlləkxanada işləyir.

Oğlan acıqla əlavə elədi:

— Ona görə ki, dayım Niorda dəlləkxana sahibidir. Anamın da beyninə yerləşib ki…

— Dəllək olmaq ayıblı iş deyil. Onu demək istəyirəm ki, cənab komissar, o, iş vaxtı Respublika meydanı yanındakı dəlləkxanadan çıxıb evə gələ bilməz, həm də mən buna əmin olmuşam.

— Bağışlayın, deməli, siz evdə olmdığınız vaxt oğlunuzun evə gəldiyindən şübhələnib onu izləmisiniz?

— Elədir , cənab komissar. Mən şəxsən heç kəsdən şübhələnmirəm, amma bilirəm ki, kişilər hər şeyə qadirdilər.

— Axı oğlunuz sizdən xəlvət evə gəlib nə edə bilərdi?

— Bilmirəm.

Az sükutdan sonra:

— Bəlkə də evə arva gətirərdi. Üç ay olar cibindən bir qızın məktubunu tapmışam. Əgər atası…

— Axı siz nədən bilirsiniz ki, evinizə adam gəlir?

— Əvvəla bunu o saatca hiss eləmək olur. Qapını açıb içəri girən kimi deyə bilirəm ki…

Burada təzə bir şey yoxdur, amma həqiqətdir, insana məxsus hissdir. Mekqrenin özü belə hisslərkeçirmişdi.

— Bəs sonra?

— Sonra da ki, başqa əlamətlər nəzərə çarpır. Məsələn, güzgülü şkafı mən heç vaxt bağlamazdım. Bir dəfə gördüm ki, açarını bir dəfə burub bağlayıblar.

— Güzgülü şkafda qiymətli əşyalarınız var:

— Paltarımız, bir də ki, ailə suvenirləri. Amma heç nə itməyib, yəqin sizi bu maraqlandırır. Zirzəmidəki yeşiklərin də birinin yeri dəyişib.

— Yeşikdə nə vardı?

— Boş saxsı qablar.

— Deməli, evinizdən heç nə itməyib?

— Zənnimcə, yox.

— Nə vaxtdan evinizə adam girdiyini güman edirsiniz?

— Mən güman etmirəm, əminəm. Üç aydır ki, belədir.

— Zənnimizcə evə neçə dəfə giriblər?

— Bəlkə də cəmisi on dəfə. Birinci dəfədən sonar üç həftəyə yaxın gələn olmamışdı. Bəlkə də mən hiss eləməmişdim. Sonra iki dəfə dalbadal gəliblər. Sonra da üç həftə saiktlik oldu. İndi neçə gündür ki, evə girən olur, srağagün leysan yağan günü də evdə yaş izlər qalmışdı.

— Bilmirsiniz, kişi izi idi, yoxsa qadın?

— Kişi izinə oxşayırdı, amma dəqiq bilmirəm.

Qadın başqa şeylər də danışdı. Sorğu-sualsız təsi dəlləkxana işləmədiyinə görə oğlunu özü ilə kinoya aparıbmış. Bu üsulla oğlunu özü ilə kinoya aparıbmış. Bu üsulla oğlunu gözünhən kənara qoymayıb. Bütün günü bir yerdə olublar. Sonra da evə birgə qayıdıblar.

— Deməli, evə qayıtdıq.

— Oğlunuzsa bu məsələni polis idarəsində söyləmənizə razı olmurdu?

— Elədir, cənab komissar. Heç başa düşmürəm, niyə. İzləri o da gördü.

— Cavan oğlan, izləri siz də gördünüz?

Oğlan susub durdu, cavab vermək istəmədi. Görəsən anasının küylədiyinə, yalan danışdığına görə susurdu?

— Bilmirsiniz evə haradan girirlər?

— Zənnimcə, qapıdan girirlər. Pəncərələri açıq qoyan deyiləm. Həyətdən isə gəlmək olmaz, barı çox ucadır. Həm də ki, qonşu evlərin həyətlərindən keçməli olardılar.

— Qıfılın üstündə bir iz qalmamaışdı?

— Heç xırda bir cizgi də yox idi, ərimin böyüdücü şüşəsi ilə baxmışam.

— Sizin evin açarı heç kəsdə yoxdur ki?

— Heç kəsdə. Ancaq qızımda ola bilər (oğlan yüngülcə qurdalandı), amma qızım əri və iki uşağı ilə Orlean şəhərində yaşayır.

— Qızınızla münasibətiniz pis deyil ki?

— Fərsizin birinə ərə getdiyinə görə onu həmişə danlayıram. Bir də ki, az görüşürük…

— Siz evi tez-tez kimsəsiz qoyursunuz? Deyirsiniz ki, dulsunuz. Ordudan sizə verilən təqaüd, yəqin ki, azlıq edir.

Qadın ciddi və alicənab bir görkəm aldı:

— Mən işləyirəm. Bir də ki, əvvəlcə, demək istəyirəm ərim öləndən sonra kirayənişin saxlayırdım, iki nəfər. Amma kişilər pinti olurlar. Bircə görsəydiniz otaqları necə çirkli saxlayırdılar!

Həmən vaxt Meqrenin özü də bilmirdi ki, niyə qulaq asır. Söhbətdə təkcə sözlər deyil, vurğular da tanış idi.

— Bir ildir ki, madam Lamemanın yanında xidmətçi işləyirəm. Gözəl insandır, həkim anasıdır. Tək yaşayır. Şarenton şlüzünün yanında, elə üzbəüzdə olur və hər gün günortadan sonra mən… Biz əslində rəfiqəyik, başa düşürsünüzmü?

Meqre bu söhbətə heç əhəmiyyət verməmişdi. Görəsən, bu qadın ruhi xəstə deyildi? Ola bilər. Amma əhəmiyyəti yox idi. Belələrini qəbul eləmək yarım saat vaxt itirməkdən başqa bir şey deyildi. Elə həmən vaxt şef otağa girmişdi, daha doğrüsü, adəti üzrə qapını açıb qapının ağzında durmuşdu. Meqrenin yanındakılara nəzər salan kimi işin nə yerdə olduğunu anlamışdı. O da bir baxışdan duymuşdu ki, boş məsələdir.

— Bir dəqiqəlik çıxa bilərsinizmi, Meqre?

Onlar qonşu otaqda bir xeyli ayaq üstə qalıb Ditondan teleqrafla göndərilmiş həbs göstərişini müzakirə eləmişdilər.

Axırda Meqre demişdi:

— Torrense bu işlə məşğul olar.

Həmən vaxt sevimli qəlyanı əlində deyildi, başqa qəlyan götürmüşdü. Deməli, sevimli qəlyanını az əvvəl hakim Kamelyo zəng eləyəndə masanın üstündə qoymuşdu. Onda heç qəlyan haqda fikirləşmirdi.

O, otağa qayıdıb, pəncərə qarşısına keçdi, əllərini arxasında saxlayıb soruşdu:

— Deməli, madam, sizin heç nəyiniz oğurlanmayıb.

— Zənnimcə, yox.

— Demək istəyirəm ki, siz oğurluqdan şikayət eləmirsiniz?

— Şikayət edə bilmərəm, çünki…

— Deməli, sizə elə gəlir ki, son aylar, ələlxüsus, son günlər siz evdə olmayanda kim isə evinizə girir, eləmi?

— Bir dəfə lap gecə gəlib.

— Bir adam görürdünüz?

— Səs eşitdim.

— Necə səs eşitdiniz?

— Mətbəxdə qab düşüb qırıldı. Mən də həmən dəqiqə mətbəxə endim.

— Əlinizdə silah vardı?

— Yox. Mən qorxan deyiləm.

— Heç kimi görmədiniz?

— Heç kəs yox idi. Qabın qırıqları isə yerdəydi.

— Pişiyiniz yoxdur ki?

— Xeyr, nə pişiyimiz var, nə də itimiz. Heyvanlar ev-eşiyi bulayırlar.

— Bəlkə evinizə yad pişik giribmiş?

Cavan oğlan yerində qurcalanır, anasına yalvarmaq istəyirdi ki, söhbəti qurtarsın.

— Ana, sən komissar Meqreni əldən saldın!

— Sözün qısası, madam, evinizə kimin girdiyini və nə axtardığını bilmirsiniz?

— Xeyr, bilmirəm. Biz həmişə namuslu, düzgün olmuşuq, bir də ki..

— Sizə verə biləcəyim məsləhət budur ki, qıfılı dəyişəsiniz. Gözləyək görək sirli qonağınız yenə gələcəkmi.

— Bəs polis idarəsi bir iş görməyəcək?

Meqre onları qapıya tərəf apardı. Həmən vaxt şey onu öz otağında gözləməli idi.

— Hər ehtimala qarşı adamlarımdan birini sabah sizə göndərəcəyəm. Amma evinizi səhərdən axşama, axşamdan səhərə kimi nəzarət altında saxlamağa ehtiyac varmı?

— Nə vaxt gələcək?

— Deyirdiniz ki, səhərlər evdə olursunuz.

— Hərdən bazarlığa çıxıram.

— Saat on necədir?.. Sabah saat onda gələr. Xudahafiz, madam, xudahafiz, cavan oğlan.

Meqre zəngi basdı. Lükas otağa girdi:

— Hə, sənsən?.. Sabah saat onda bu ünvana gedərsən, gör nə məsələdir.

Burda inanmalı bir şey görmürdü. Bütün dəlilləri və ruhi xəstələri əsas cəlb eləyən yer qəzet redaksiyaları və polis idarələridir.

Gecənin sərin havası pəncərədən içəri dolurdu.

Meqre donquldadı:

— Səfeh uşaq!

İndi yaxşı bilirdi ki, qəlyanı masanın üstündən həmən oğlan çırpışdırıb…

— Yatmayaxaqsan?

Meqre yerinə girdi. O narahat və qaşqabaqlı idi. Yataq isinmişdi. Yuxulamaxdan əvvəl də öz-özünə deyinirdi. Səhər oyananda kefi saz deyildi. Adam axşam fikirli yatanda səhər də əzgin olurl. Meqre qaragüruhçu deyildi, amma özü də, arvadı da hiss edirdilər ki, gün nəhs günə oxşayır. Bir yandan da göyü qara bulud almış, hava ağırlaşmışdı.

O, küçələri dolana-dolana Orfevr küsəsinə piyada gəldi. Yolda iki dəfə əlini cibinə salıb huşsuz-huşsuz sevimli qəlyanını aradı.

Meqre tozlu pillələri tövşüyə-tövşüyə qalxıb otağına tərf getdi. Emil qarşısına çıxdı:

— Sizi gözləyən var, cənab komissar.

Meqre çərçivəli gözləmə zalına tərəf keçib madam Leroyu gördü. Qadın yaşıl örtüklü kürsünün qırağına yanını qoyub elə oturmuşdu ki, elə bil sıçrayışa hazırlaşmışdı. Meqreni görən kimi cəld onun üstünə yeridi. Qadın həm qəzəbli görünürdü, həm də yorğun, bütün əzablı hisləri özündə cəmləmişdi. Meqrenin yaxasından tutub qışqırdı:

— Bəs sizə nə deyirdim? Onlar bu gecə gəlmişdilər. Oğlum yoxa çıxıb. İndi mənə inanırsınız? Ah! Lap yaxşı duyurdum ki, məni dəli hesab edirsiniz. Mən o qədər də axmaq deyiləm İndi buyurun, buyurun…

Qadın tələsik sumkasını açıb içindən qırağı mavi naxışlı bir yaylıq çıxarıb təntənə ilə havada yellədi.

— Hə, baxın, bu sübut deyil? Bizim evdə qırağı mavi yaylıq olmayıb. Mən bunu mətbəxdə masanın altından tapmışam. Hələ bu hamısı deyil.

Meqre fikirli-fikirli koridora nəzər saldı. Adam getdikcə çoxalır, gəlib-keçən çevrilib onlara baxırdı.

— Gəlin otağa, madam, — deyə o, köksünü ötürdü.

Ağır gün başlayırdı. Meqre bunu duymuşdu. O, otağının qapısını itələyib açdı, şlyapasını həmişəki yerindən asdı.

— Əyləşin. Sizi dinləyirəm. Deyirsiniz ki, oğlunuz?..

— Deyirəm ki, oğlum bu gecə yoxa çıxıb. Özü də ki, indi allah bilir başına nə iş gəlib.

JAN-POL SARTR

Jan-Pol Sartr dünya şöhrəti tapmış müasir fransız yazıçılarındandır. O 1905-ci ildə Parisdə anadan olub. Fəlsəfə üzrə ixtisas aldıqdan sonra litseylərdə dərs de- yib.

Sartrın ilk bədii fəlsəfi əsərləri otuzuncu illərdən nəşr olunmağa başlayıb. 1938-ci ildə "İkrah" əsəri, 1939-cu ildə isə "Divar" adlı hekayələr kitabı çapdan çıxıb. Bu iki kitab onun bədii yaradıcılığı və fəlsəfi fikirlərinin ifadə üslubunun başlanğıc nöqtələri hesab olunur.

İkinci dünya müharibəsi illərində Sartr da bir sıra başqa fransız yazıçıları kimi Müqavimət hərəkatına qoşulub. 1943-cü ildə Parisdə onun ilk dram əsəri "Milçəklər" pyesi tamaşaya qoyulub. Qədim əfsanələr əsasında yaradılmış bu əsərdə qəddarlığa, faşizmin cinayətlərinə bənzədilmiş cinayətlərə dərin kin duyulurdu. Elə həmən ildə onun yeni bir fəlsəfi əsəri ("Varlıq və heçlik") də dərc olunub.

1944-cü ildə Jan-Pol Sartrın ikinci pyesi "Qapalı yer" meydana çıxır. Bu əsər müəllifin fəlsəfi fikirlərinin yeni təzahürü idi. Müəllif o dünyada üz-üzə durmuş müxtəlif təbiətli adamların deyişmələri ilə insan təbiətindəki cılızlıq və eybəcərlikləri ifşa edir.

Müharibədən sonra Sartr "Müasir dövr" adlı bir jurnalın nəşrinə başlayır. Bu jurnalda çap olunmuş məqalələlrini sonarlar üç cilddə nəşr etdirib. Həmən dövrdə Sartr yazıçının siyasi həyatda rolu haqda tez-tez çıxış edirdi. O yaradıcılıqda abstrakt fikirlərdən tarixi həqiqətlərə keçməyə çağırırdı.

1945-ci ildə Sartr "Azadlığın yolları" adlandırdığı silsilə ilə üç roman nəşr etdirib. 1946-cı ildə yazdığı bir pyeslə ("Qəbirsiz ölülər") yazıçı Müqavimət hərəkatı nümayəndələrinin xatirəsini yad edib. Elə həmən il yazılmış başqa bir əsərində ("Hörmətli fahişə") isə Sartr amerikalıların ictimai həyatından, əzənlər və əzilənlər cəmiyyətindən bəhs edir. Müasir həyat mövzulu əsərlərindən biri olan "Nekrasov" pyesində (1955) yazıçı kapitalist cəmiyyətində dövlət xadimlərinin hiyləgərlik və intriqalarala dolu həyatdan danışır.

Sartr yazıçılıq uğurları ilə yanaşı ictimai xadim kimi də fəaliyyət göstərib. Ümumdünya sülh Şurasının üzvü olan yazıçı dünyada sülhün və əminamanlığın qorunması işində fəal iştirak edib. Əlcəzair xalqının azadlıq mübarizəsi illərində Fransanın bir

sıra tərəqqipərvər ziyalıları ilə yanaşı Sartr da bu mübarizəyə haqq qazandırır, Fransanı və fransızları işğalçı müharibəni dayandırmağa çağırırdı.

1964-cü ildə Sartr özünün ilk avtobioqrafik əsərini, "Sözlər" romanını yazıb. Bu əsərdə yazıçı yaşlıların təkəbbür və ikiüzlülüyünün uşaq psixologiyasına necə pis tə'sir göstərməsini açmağa çalışıb.

Jan-Pol Sartr haqda verdiyimiz qıssa mə'lumatda onunu qələminə mənsub əsərlərin hamsının adını sadalamadıq. Çünki, həm də çox təəssüf ki, bu əsərlərin heç biri hələlik dilimizə tərcümə olunmayıb.

ÜM-ƏL BANİNİN "QAFQAZ GÜNLƏRİ"

Əslən azərbaycanlı olan fransız yazıçısı Banini (Üm-əl-Banu) 1987-ci ilə qədər respublikamızda tanıyanları barmaqla saymaq olardı. Həmin il "Literaturnaya qazeta"da bu xanımın məşhur rus yazıçısı Buninlə əlaqələri və məktublaşması haqda məqalə, həmin məqalənin "Ədəbiyyat və incəsənət" qəzetində çap olunması, "Qobustan" jurnalında məqalə və nəhayət "Azərbaycan" jurnalında "Buninin son höcəti" adlı sənədli romanın nəşri fransalı həmyerlimizi bizə tanıtdı. Bəli, bu tanışlıq mühacirətdə yaşamış rus yazıçısı İvan Buninə marağın sayəsində baş vedi. Amma "Buniin son höcəti" əsərinə qədər Banin Parisdə bir neçə əsər yazıb nəşr etdirmişdi və Buninlə tanışlığı da ədəbi mühitdən başlamışdı.

Baninin Parisdə nəşr olunmuş ilk romanının mövzusu Azərbaycan həyatından götürülmüş olsa da müəllifinə şöhrət gətirməyib ("Nami", Qallimar nəşriyyatı — 1943). Lakin onun ikinci kitabı "Qafqaz günləri" adlı avtobioqrafik əsəri fransız oxucusunda ciddi maraq doğurub.

Daha sonra onun "Ernst Yunqerlə görüş" ("Jülyar" nəşriyyatı), "Mən Opyumu seçdim" ("Stok" nəşriyyatı), "Sonra" ("Stok" nəşriyyatı), "Yad Fransa" ("S.O.S." nəşriyyatı), "Son ümidin çağırışı" ("S.O.S." nəşriyyatı), "Ernst Yunqerin portreti" və nəhayət "İvan Buniin son höcəti" əsərlər çap olunub.

Banin tərcümə ilə də məşbul olub. Dostoyevskinin "Özgə arvadı" əsərini və "Tatyana Tolstoyun xatirələrini" ruscadan fransızcaya, Ernst Yunqerin "Sülh" əsəriin almancadan fransızcaya tərcümə edib. O, eyni zamanda Qreqori Martonun "Dostum Blizzar" və S.Vandın "Sən Pol əslində belə deyib" əsərlərini ingilis dilindən fransızcaya çevirib.

"Qafqaz günləri" əsərinin bizə qəribə görünən cəhətləri çoxdur. Hiss olunur ki, ilk əsərinin uğursuzluğundan dərs almış müəllif bu avtobioqrafik əsəri oxunaqlı etmək üçün yeni bir fəndə əl atıb. Bu fəndin adı isə səmimiyyətdir. Fransız oxucusunun zövqünə bələd olan Banin avtobioqrafik bir əsərdə səmimiyyətin, heyrət doğuran e'tirafların maraqla qarşılanacağını bilirdi.

Müəllif əsərə ailəsi haqda mə'lumat və özünün dünyaya gəldiyi şəraitin təsviri ilə başlayıb: "Bə'zi ləyaqətli adamlar kasıb olsalar da, "yaxşı" ailədə doğulurlar. Mən dünyaya gəldiyim ailə isə çox varlı olsa da "yaxşı" ailə deyildi. Ailəm elə varlı idi ki, varı bəlaya

döndü və haqlı olaraq neçə illər əvvəl varından məhrum oldu. Bu ailənin mənim şəxsiyyətimə dəxli olduğu üçün, maraqlananlar nəzakətlə soruşa bilərlər: "Bəs nə üçün ailəniz "yaxşı" deyildi?". Əvvəla ona görə ki, bu ailənin tanınma tarixi çox uzaqdan yox, atamın babasından, Əsədullahdan başlayıb. Bu adın mə'nası "allahın sevimlisi" deməkdir və ad özünü doğruldub, çünki həmin ulu babam adi kəndli imiş, qoyun otardığı daş-kəsəkli torpağından neft fəvvarə vurub və o milyonçuya çevrilib. Digər tərəfdən də ona görə ki, ailəmin üzvləri çx yönsüz adamlar idi və onların fəaliyyəti haqda söhbəti uzatmamaq daha yaxşı olar. Amma əgər bu başladığım söhbət vaxtı həvəsə gəlsəm bəlkə də onların şəxsiyyəti haqda daha geniş mə'lumat verəm. Bunu bir müəllif kimi arzulasam da, bir şahid kimi çətinlik çəkirəm, çünki qəlbimin küncündə ailə qürurunun kiçicik bir qalığı var.

Beləliklə mən, qalmaqallı bir ilin qış günündə bu qəribə, rəngarəng və varlı ailəyə düşmüşəm. Həmin il tarixin yaddaqalan illərindən idi. İnsan dühasının ictimai qarmaqarışıqlıq naminə yaratdığı tə'tillər, soyğunlar, qırğınlar və bu kimi başqa fəaliyyətlərlə dolu bir il idi. Bakı əhalisinin əsasını təşkil edən ermənilərlə azərbaycanlılar bir-birini qırmaqla məşğul idilər. Həmin il ermənilər daha yaxşı hazırlaşdıqlarına görə azərbaycanlıları qırıb, keçmiş qırğınların hayıfını çıxardılar. Azərbaycanlılar isə başqa çarələri olmadığına gələcək qırğınlar üçün ibrət dərsi alırdılar. Bir sözlə hər kəsin öz hesabı vardı, hesabı olmayanlar isə bu hadisləər vaxtı qırılan saysız-hesabsız günahsızlar idi.

Heç kəs inanmaz ki, mən də o vaxtkı qırğında iştiak eləmişəm, amma əslində iştirak eləmişəm, mən dünyaya gələndə anamı öldürmüşəm. Qırğından canını qurtarıb rahat doğmaq üçün anam neftçi qəsəbələrindən birinə qaçıb. Amma o vaxt aləm elə qarışmışdı ki, anam ən rəzil vəziyyətdə doğmalı olub və doğuşdan pozulub, qızdırmaya tutulub. Elə həmin vaxt baş vermiş güclü tufan da kənardan kömək yolunu gəsib və vəziyyət getdikcə ağırlaşıb. Bu vəziyyətdə hər cür köməkdən məhrum olmuş anam xəstəliyə qalib gəlməyə çalışıb. O beləcə cavan öldüyünə heyifsilənə-heyifsilənə, qalan ailə üzvləriin taleyindən soraq gözləyə-gözləyə canını təhvil verib".

Beləliklə Fransanın gələcək yazıçı və tərcüməçisi Banin 1905-ci ilin qışında Bakıda milyonçu ailəsində, özünün yazdığı kimi acınacaqlı və faciəvi bir vəziyyətdə həyata gəlib.

Onun tası neft milyonçusu Əsədullayev anası isə tanınmış milyonçu Musa Nağıyevin qızı idi. Anasız qalmış Üm-əl Banin və onun üç böyük bacısı milliyyətcə alman olan dayə Annanın himayəsi və tərbiyəsi ilə böyüyüblər. Daha sonra milyonçu ata qızları üçün ingilis və fransız dli müəllimləri və eyni zamanda musiqi müəllimi də tutubmuş.

İlk uşaqlıq illərinin xatirələri Baninin kitabında xüsusi yer tutur. Xatirə genişdir və fransız oxucusunun zövqünə hesablanmış ekzotika ilə doludur. Bu xatirələrin mühüm hissəsi elə bizim üçün də xüsusi maraq kəsb edir. Əsrin əvvələrində Azərbaycan milyonçusu ailəsinin məişəti, böyüklərin vərəsə üstündə didişməsi, pozğun həyat tərzi, kiçiklərin tə'lim-tərbiyəsi və əyləncələri haqda mə'lumatları bu həyatı yaşamış bir adamın dilindən eşitmək maraqlıdır:

"Nənəm qəribə adam idi. Hər il kənd evində ətrafına toplaşan qohum-əqrəbaya ağalıq edərdi. Elə bədənin ölçüləri ona qeyri-adi bir görkəm vermişdi. Yerindən ayağa qalxanda elə bilərdin ki, Peroldun nağıllarındakı əjdahalardan biri iolə qarşılaşırsan. Bu görkəmlə ona mülayim, mehriban adam demək olmazdı. Elə doğrudan da belə adam deyildi. Bütün günü əmr verir, tələb edir, söyüş söyür, bütün evi tir-tir əsdirirdi.

Bədəninin ağırlığına görə bir yerdə çöküb qalır. XIY Luinin stolu kimi, oturacağı dəlikli stulundan az-az qalxır, avtafası isə həmişə yaxınlığında oolurdu. Beləcə şah kimi öz taxtında oturur, onu görmək istəyənləri qəbul edirdi. Kişiləri qəbul edəndə əsl müsəlman qadını kimi təvazökarlıqla yaşmanırdı. Burası da doğrudur ki, oun görkəmində amiranəliklə yanaşı ləyaqət də vardı — min qırçınlı milli tumanı stulun ətrafında yerə toxunurdu. Amma elə olurdu ki, elə belə görkəmdəcə nənəm qorxudan əsim-əsim əsən bağbanlardan birinin aşının duzunu verirdi.

O, qızlarını da, oğullarını da, kürəkənlərini də bə'zən belə danlamalı olurdu. Babam öləndən sonra ailə başçısı olmuş atam da onun yanında özünü sərbəst apara bilmirdi. Doğrudur, atam axırda hər işi öz bildiyi kimi edirdi, amma çalışırdır ki, nənəm ondan narazı qalmasın. Ancaq biz balacalar onun qəzəbindən kənarda qalırdıq. O bizə balacalar onun qəzəbindən kənarda qalırdıq. O bizə qarşı kövrəklik edir, xətrimizə dəymir, biz də bu vəziyyətdən istifadə edib bütün arzularımıza çatırdıq. O bizə dünyanın ən yaxşı halvası olan qoz halvası paylayırdı. Dayə Froyleyn Anna bizi ax-

taranda onun geniş tumanının altında gizlənirdik. Hərdən gəlinciklərimizi bəzəmək üçün bizə bəzəkli parça da verirdi və nəhayət məhəbbəti lap cuşə gələndə bizə qəpik-quruş da paylayırdı. Amma ondan gözlədiyim ən böyük xeyirxahlıq məni özü ilə məşhur hamam məclisinə aparması olurdu.

Hamam günləri, həmişə nənəmin yan-yörəsində olan bir dəstə kasıb, həvəskar arvad qohumlar (ətraf kənddən) öz körpələri və hamam bağlamaları ilə bizə gəlirdilər. Bağbanlar hamamı səhərdən qızdırırdılar. Hamam isə bir girəcək otağı, bir soyunma otağı və nəhayət hamamın özündən ibarət idi. İçəridə qarıqları daşla hörülmüş iki hovuz vardı — birində isti su, o birisində isə soyuq su. Suyu hovuzların divarlarında yan-yana düzülmüş kranlard an götürürdülər.

Burada hər cürə əyləncə və məşğuliyyət olurdu. Arvadlar bir növ gillə başlarını yuyur, bir-birini masaj edir, "taki" dərmanını keçmiş forması olan pis iyli bir dərmanla təmizlənir və hərdən də avropalılara mə'lum olmayan sapdartma üslu ilə tüklərini yolurdular. Sonra isə həna yaxılması mümkün olan hər yerə həna yaxırdılar. Bə'zən də görürdün ki, bir neçə arvad oturub öz bit-birələrini qırır. Heç anlaya bilmirdim ki, hər həftə tərtəmiz yuyanan bu arvadlar bit-birəni hardan tapırdılar.

Arvadlar burada məişət işi ilə yanaşı dillərinə də güc gəlirdilər. Onlar yuyuna-yuyuna zarafatlaşır, söhbət edir, nağıl danışırdılar. Bir də görürdün ki, baş yumaqla yambız kisələmək arasındakı yasilədə isti b uxarın tə'sirindən şərab içmiş adam kimi meyxoş olmuş arvadlar evlənmə məsələləri həll edir və belə söhbətlər hamam məclislərinin ləzzətini daha da atırırdı.

Bu təmizlik və söz-söhbət bayramında iştirak etmək üçün nəyə desən hazır idim. İş belə gətirdi ki, bir dəvə ağır bir günahım olmasa da nənəm məni bu cənnətə apramaq istəmədi. Mən yaman hirsləndim və hayıf çıxmaq qərarına gəldim. Elə ki, arvadların hamısı hamama girdi qapının üstündəki açarla qapını bağlayıb açarı gizlətdim. Bu hiyləgər hərəkətdən sonra uşaqlarla oynamağa getdim və qapını bağlamağım yadımdan çıxdı.

Arvadlar qarışıq çimmə-təmizlənmə işlərini qurtarıb çıxmaq istəyəndə qapının açılmadığını görüb mat qalıblar. Onlar qapını döyüb qışqırsa da yaxında bir adam olmayıb kei, eşidib haraya gəlsin. Pəncərələr çox hündür olduğundan pəncərəyə də qalxa bilməyib köməksiz qalıblar. Bir saat qapını döyüb qışqırsalar da səs-

lərini eşidən olmayıb. Arvadlar qorxuya düşüblər. Daha bir saat da isti buxar içində ac-yalavac qışqırışıqdan sonra təsadüfən oradan keçən bağbanlardan biri onların səsini eşidib, başqa tikililərdən xeyli aralı olan hamama yaxınlaşıb, qapı arasından hal-əhval tutub və onların ağlaşa-ağlaşa dediklərindən başa düşüb ki, qapı açılmır. Bağban da açarı tapa bilmədiyindən evə qaçıb hamını xəbərdar edib. Nəhayət başqa bir açarla qapını açıb istidən pörtmüş, ağlamaqdan üzülmüş zavallı arvadları azad ediblər.

Gördüyüm işin nəticəsini eşidəndə az qaldı qorxudan ürəyim getsin. Qorxudan günahımı boynuma almadım və hamı Əsədlə Əlidən şübhələndi. Onlar nə qədər and-aman eləsələr də sözlərinə inanan olmadı. Günahları sübt olunmadığına görə onlara yüngül cəza verdilər. Amma günahları olmadığına görə bu yüngül cəza da onlara ağır görünürdü. Qorxum çəkiləndən sonra vəziyyətin gülünclüyü mənə ləzzət verirdi; həmişə yalan danışan xalam uşaqları ömürlərində birinci dəfə yalan danışmırdılar… və onlara inanan yox idi. Yaxşı deyiblər ki, yalançının evi yandı, heç kim ona inanmadı!

Başqa günlər kasıb qohumlar gəlib nənəmin icazəsi ilə qurbağalı hovuzda paltar yuyurdular. Bu hovuzda çoxlu qurbağa olduğuna görə ona qurbağalı hovuz deyirdik. Axşam düşəndə hovuzdan qulaqbatırıcı, zil, əntiqə qışqırtılar eşidilirdi. Hamı başını yellədib deyirdi. "Eh… bu qurbağalar…" Qurbağalar isə heç kimi veclərinə almadan daha da bərkdən quruldaşırdılar.

Bu hovuzun daş hörgüsü alçaq və enli idi və buna görə də həftəlik paltar yuma mərasimi üçün çox rahat yer idi. Paltaryuyanlar suyun bulanıq və çirkli olmasından çəkinmirdilər. Burada hərdən nənəm qab-qaşığı yuyur, uşaq çimizdirirdi.

Bir gün ƏsədləƏli gəlib mənə şad xəbər verdilər. Dedilər ki, uzaq qohumunsa qohumu olan, əmidostu adlandırdığımız bir qarıya "yüngülvari zarafat" eləmək istəyirlər. Heç özümüz də bilmirdik də, nə səbəbə bu qarıya nifrət edirik, bizə heç bir yamanlığı dəyməmşidi. Mən sevimli xalam uşaqlarına qoşuldum və biz utancaq, tərbiyəli uşaqlar kimi qurbağalı hovuza tərəf getdik.

Həmin gün hovuzun kənarında on nəfərə yaxın arvad ciddicəhlə paltar yuyurdu. Onlar çadralarını iri bayraqlar kimi arxaya atıb tərli sifətlərini açıq qoymuşdular və bilirdilə ki, həyətin kişilərindən heç kəs həftəlik paltaryuma günü hovuz tərəfə hərləlnməyəcək. Onlar qarışın əlləri və hənalı barmaqlarının cəld hərəkətləri

ilə paltarı döyür, suda yaxalayır, ovxalayıb sıxırdılar. Hovuzun suyu çulğalanır, iri ləpələr bir qıraqdan o biri qırağa axışırdı. Arvadların əllərinin işi dillərinin işinə qətiyyən mane olmurdu; əlləri yorulduqca ürəklərini boşaltmaq ehtiyacı artırdı. Şirin-şirin, tələsə-tələsə, qarışıq səslə söhbət edirdilər. Paltar yumasa da işləyənlərə göz yetirən nənəm ağzını açanda hamı səsini kəsib nəzakətlə qulaq asırdı. Nənəmin ağıllı kəlamları sükuta qərq olmuş hovuzun xırda ləpələri üzərinə səpələnirdi. Əslində nənəm danışanda heç kimə müraciət eləmirdi, elə bil həm su ilə, həm arvadlarla, həm də ətrafdakı əncir ağacları və quşlarla da danışırdı

Elə biz onlara yaxınlaşanda da nənəm danışırdı, bizi görüb bir anlıq susdu və şübhəli-şübhəli soruşdu:

— Hə, niyə gəlmisiz, şeytan balaları?

— Heç, nənə. Elə gəldik sənin yaında oturaq deyə mülayim səslə cavab verdik və növbə ilə onun tərli üzündən öpdük (hava yaman isti idi).

Deyəsən nənəm sözmüzə inanmadı, şübhəli-şübhəli baxırdı; təcrübədən yaxşı bilirdi ki, Əsədlə Əli ancaq bir əməl çıxarmaq istəyəndə təvazökar görkəm alırlar. Biz sakit-sakit onun yanında oturduq, o da köksünü ötürüb üzünü arvadlara çevirdi.

Əsəd ilə Əlinin hələ on üç yaşları olmadığına görə arvadlar məclisində oturmağa ixtiyarları vardı. Həm də ki, hələ yetkin olmadıqlarına görə onlar mülayim qadın məclislərindən lazımi həzz ala bilmirdilər. Arvadlar tərli sifətlərini onlardan gizlətmir, çadraları əvvəlki kimi arxalarında yellənə-yellənə paltarı elə əzmkarlıqla əzir, sıxır, çırpırdılar ki, heç qızmar günəş də əllərini işdən saxlaya bilmirdi.

— Hə, deyə nənəm söhbətinə davam elədi. Deməli Fəridə deyib ki, Əkbərə ərə getmək istəmir, çünki altmış yaşı var. Gör bir bu murdar xristianların tə'siri ilə nə günə qalmışıq, ay allah!

— Ay allah, — deyə on arvadın hamısı birdən səsləndi.

Biz xara gedirik belə? — deyə bizim "düşmənimiz" əmidostu həyəcanlı səslə soruşdu.

O xırdaca gözlərini həyəcanla oynadıb üzünü nənəmə tutdu və ondan imdad istəyirmiş kimi bir də sorşudu:

— Biz hara gedirik belə?

Nənəm isə qeyri-ixtiyari bir hərəkətlə əlini qaldırıb havada yellədi, barmaqlığındakı üzüklərin mirvari və firuzə qaşları günəş

işığında parıldadı. Sonra isə əliin qatlanmış dizinin üstünə qoyub dedi:

— Allah kərimdir.

Arvadların onu da birdən dilləndi:

— Allah kərimdir.

Göy buludsuz idi və günəş aləmə od səpələyirdi. Arvadların qaraşın sifətlərindən tər damcıları hovuza və yuduqları paltarın üstünə səpilirdi. Amma heç biri tərini silmirdi. Çünki bilirdilər ki, havayı zəhmətdir, hədər işdir. On damcı təri silib təmizləyən kimi başqa on damcı qaynayıb çıxacaq… Təri silmək nəyə gərəkdir, ay allah?

Arvadlar yenidən söhbətə başlamışdılar. Hər biri elə güman edirdi ki, daha maraqlı əhvalat danışır və güləndə də daha bərkdən gülürdü ki, hamı eşitsin. Elə hay-küy qalxırdı ki, qurbağaların qurultusu bu səs-küyün yanında mülayim mızıltıya oxşayırdı. Günün bu sakit vaxtında onların səsi bağın ayağına da çatır, bağbanlar isə başlarını bulayıb gülürdülər…

— Xəbəriniz varmı, — deyə nənəm sözə başladı və arvadların səs-küyü o dəqiqəcə kəsildi. — Xəbəriniz varmı, bacım qızının eltisinin böyük dayısı Sarı Əhməd ağır ürək xəstəliyinə tutulub? Bəlkə də öləcək. Hamı.. tək allahdan başqa hamı gəldi-gedərdir.

— Allahdan başqa hamı gəldi-gedərdir, — deyə arvadlar bir səslə təsdiq elədilər.

Bir anlığa paltarların şappıltısına köksötürmə səsləri də qarışdı. Əmidostu daha dərindən köks ötürdü və gözü azacıq yaşardı. Nənəm bayaqdan ürəyində qalmış söhbətə yenidən başladı.

— Hə, deməli, ağlınıza gətirin ki, düz on altı yaşı olan Fəridə (qız böyük Suraxanı yanğını ilində anadn olub) Balaca Qız — Bibinin dayısına ərə getmək istəmir və deyir ki, onun altmış yaşı var.

Hər halda allah bilən yaxşıdır, — deyə arvadlar xorla təsdiqlədilər.

— Hə, bax burası doğrudur — deyə Əsəd qəflətən və ciddi səslə dilləndi.

O ayağa qalxıb əmidostuya yaxınlaşdı, cibindən kiçik bir şüşə çıxarıb içindəkini qarının çərşabına və üstünə səpələməyə başladı. Qarı isə ağzını açıb mat-mat ona baxırdı. Elə bu vaxt Əli cibindən bir qutu kibrit çıxartdı və kibrit çalmağa hazırlaşdı.

— Nə edirsiz, it uşağı, — deyə bir xəta baş verəcəyini duymuş nənəm qışqırdı.

Əsəd sakit səslə dedi:

— Ay nənə, sənə yüz dəfə demişəm ki, sən bizi söyəndə özünü də söyürsən. Əgər bizim valideynimiz itdirsə, yadından sıxarma ki, onlar sənin uşaqlarındır. Əmidostusun üstünə benzin tökdüm, istəyirik ona od vuraq, çünki zəhləmizi tökür. İndi onu yandıracağıq.

Əmidostu bərkdən qışqırdı. Bircə göz qırpımında sıçrayıb ayağa qalxdı, çarşabını yana atdı, tumanının çöldə qaldı. Qarı nöyütə bulaşmış pencəyini də çıxarmaq istəyirdi ki, Əli əlindəki kibriti yandırıb ona yaxınlaşırmış kimi bir addım atdı. Qarı hovuzun səkisindən yerə atılıb geniş həyət yolu ilə qaça-qaça cır səslə qışqırıb köməyə adam çağırmağa başladı. Nənəm qışqırıb uşaqları söyürdü, başqa arvadlar da ona qoşulmuşdular. Mən isə gülməkdən ayaq üstə dura bilməyib yerə yıxılmışdım. Əmidostu əlində kibrit tutmuş Əsədlə Əlinin qabağına düşüb üzü açıq, alt tumanı sallana-sallana həyət boyu qaçır, həyətdəki bağbanların və başqa kişilərin yanandın keçirdi. Görəsən niyə ağlına gəlmsirdi ki, qaçıb hovuza da atıla bilər?

Nənəm gündəlik baş namazdan və kürsüsündə oturub qonaq qəbul elədiyi saatlardan sonrakı vaxtını mətbəxdə keçirirdi. Bura onun salonu idi! Yan-yörəsi kasab qohumlarla dolu olurdu. Amma əslində mətbəxə varlı qohumlar da, qohum olmayan kasıblar da yığışırdılar. Bu arvadların içində Fatma adlı birisi daha çox nəzərə çarpırdı. Deyirdilər ki, o qarışıq-cinslidir və peyğəmbər nəslindəndir. Bu qohumluq isə ona qürurdan başqa bir şey verməmişdi. Bu arvad heç ərə də gedə bilməmişdi və müsəlman arvadları arasında tanıdığım ilk subay qadın idi. Bəlkə onun qarışıqcinsli olması nə isə düzəlməyən bir cini problem yaradıb; bəlkə kişilər bu peyğəmbər qohumundan istədikləri həzzi almaqdan çəkinmişdilər; bəlkə də sadəcə olaraq onun eybəcərliyinə görə imiş. Axı, heç kimdən qorxmayan Əsədlə Əli də bu arvadı görəndə ürpənirdilər. Onun qırış-qırış, tük basmış iri sifəti it sifətinə oxşayırdı. Əgər yeriyərkən silkələnib bir-birinə dəyən iri döşləri olmasa hamı onu kişi sanardı. Onun nəzərə çarpan cəhətlərindən biri də, hər dəfə gələndə nənəmin alicənablıqla ona verdiyi nargiləni həvəslə yeməsi idi. Kifir olsa da mənim Fatmadan xoşum gəlirdi, o nənəmin yeganə qadın qonağı idi ki, tərli üzünü üzümə sürtüb yaş dodağı ilə məni öpmürdü.

Belə öpüşlər məni incidir, haldan çıxarırdı. Kasıb qohum arvadlardan hər bir məni görən kimi üstümə qaçır və anlaya bilmədiyim bir acgözlüklə məni hey öpür, üz-gözümü ağız suyu və tərə bulaşdırırdı. Bu mehribançılıqdan yaxa qurtarmağın mümkün olmadığını bildiyimə görə ürəyimdə onlardan zəhləm gedə-gedə dodağımı dişləyib dözürdüm. Elə ki, arvad məni öpüb qurtadı üzüm yaylığımla, yaylığım olmayanda isə donumun ətəyi ilə silirdim. Arvadlar bunu görsələr də məni öpməkdən əl götürmürdülər. Onlar gör-götür adamı deyildilər.

Çox geniş olan bu mətbəx az qala həmişə irili-xırdalı uşaqları ilə gələn qonaq arvadlarla dolurdu. Hər dəfə bura girəndə öz körpəsini, yaxud döş əmmək yaşı keçmiş uşağını əmizdirən bir halda ki, hələ süd gəlir gərək onu işlədəsən) bir arvad görmək olardı. Bu çirkli, səs-küylü uşaqlardar zəhləm getdiyini gizlətmidim. Arvadlar bu münasibətimdən inciyir və məni şeytan balası adlandırırdılar. Mnəə verilmiş bu adı doğrultmaq üçün özümü daha da pis aparır, uşaqlardan birinə dil göstərir, birinin saçını dartır, başqa birisini isə çimdikləyirdim.

Səhər sat yeddidən axşam saat doqquza qədər cürbəcür xörəklər bişirilən bu mətbəxə Əsəd, Gülnar və Əli ilə birgə tez-tez baş çəkirdik. Aclıqdan yox, başqa uşaqlardan fərqlənmək arzusu ilə barmaqlarımızı şirniyyat üçün hazırlanmış qaynar şirə qablarına batırıb yalayır, tavada qızardılan yarıçiy qoyun ətindən qoparıb ağzımızı yandıra-yandıra yeyirdik. Nənəm isə əlinə oxlov, yaxud şiş götürüb bizi hədələyirdi. Onun ayağa qalxa bilməyəcəyindən arxayın olduğumuza görə xörəkləri istədiyimiz qədər dağıdırdıq. Əlacı kəsiləndə nənəm qonaq arvadlardan birinə göstəriş verirdi ki, bizi zorla mətbəxdən çıxarçın, qonaq da bu tapşırığa həvəslə əməl edirdi.

Bə'zən isə biz mətbəxdə stul olmadığından yerə sərilmiş həsirin üstündə dinmzəcə oturub qulaq asırdıq. Nağılçı arvadın burunda danışa-danışa söylədiyi nağıla (nağılçılar hamısı, burnunda danışırdılar, adət belə idi) heyran-heyran qulaq asırdıq. Uşaqlar əmir, arvadlar həsir yelpiklərlə üzlərini yelləyə-yelləyə, yaxud səssizcə təsbeh çevirə-çevirə qulaq asır, nağılçı isəƏhmədlə Sürəyyanın, yaxud Məhəmmədlə Leylanın nağılını danışırdı. Bizim arvadların çoxu məhəbbətə yaxşı bələd olmasalar da məhəbbət mövzulu əfsanələri xohlayırlar. Nağıllar həmişə bu sözlərlə başlayırdı: "biri var idi, biri yox idi, allahdan başqa heç kəs yox idi". Nağıl danışıl-

dıqca iri saxsı küpələrdə çalınmış süd uyuyub qatığa dönür, qoyun əti yavaş-yavaş qızarır, iri mis tavalarda halvalar bişir, arvadlardan biri isə onlara göz qoyrudu.

Kasıb qohum arvadların xoşum gəlməyən cəhəti tək onların yaş öpüşləri deyildi. Bizə maraq üzündən onlar hər cür həyasızlığa yol verirdilər: yuxuda olduğumuz vaxt bizim yataq otaqlarımıza girir, şkaf və siyirmələri açıb şey-tüylərimizə baxır, paltarlarımızı əllərində oynadıb parçasının qiymətini öyrənmək istəyir, əllərini sinəmizə sürtüb döşlərimizin çıxıb-çıxmadıbını yoxlayırdılar. Onlar öz varlı qohumları haqda hər şeyi öyrənməyə çalışır, hər cür suallar verirdilər. Soruşurdular ki, yetkinlik vaxtına çatmışıqmı və nə vaxtdan çatmışıq? Atamız hansımızı daha çox istəyir? Hərəmizin neçə donumuz var və bizə dayəlik edən "xristian arvadlar" nə qədər əmək haqqı alırlar? Onlar qapılarımızı pusur, pəncərələrimizdən içəri tamaşa edir, pianoya, mexaniki oyuncaqlarımıza, tennis ağaclarımıza, hər şeyə əl vurub yoxlayırdılar. Onlar uşaq kimi bizim oynucaq və gyimlərimizə qibtə edirsə də bütün bunların pis nəticə verə biləcəyindən çəkinir və elə güman edirdilər ki, öz güxəranları daha arxayın güzərandır. Bə'zən zəhləmizi tökdüklərinə görə biz qapımızı çırpıb onları otaqdan qovurduq, amma incimirdilər, bir az sonra yenə öz bildiklərini edirdilər.

Nənəm onları əzizləyir və müdafiə edirdi, çünki onun başına toplaşır və hər əmrinə əməl edirdilər. Kasıb qohum arvdalar onun əsabələri idi, ona qulluq edir, yaltaqlanır, itaət edirdilər. Onlar bütün şəhərin xəbərlərini nənəmə çatdırır və onu əyləndirmək üçün bu xəbərləri şişirdirdilər də. Əvəzində isə nənəm onları hamam məclislərinə də'vət edir, qoyun ətinin qalıqlarını və çit parça bağışlayırdı. Amma nənəm istəyəndə onları söyürdü də. Arvadlar isə cavab vermirdilər; axı saray əhlinin qüruru az olur.

* * *

Bizim ailənin münasibətlərində dava-dalaş çox mühüm yer tuturdu. Bu dava-dalaşın da iki əsas səbəbi vardı: birincisi ailə üzvlərinin təbiətindəki hikkə idi və söhbət vaxtı hamı hikəli olurdu. İkincisi və VƏRƏSƏ məsələsi idi. Bu verəsə məsələsi atamın atasının vəvatından sonra onun varını bölmək üçün meydana gəlmişdi və ən böyük, ən davalı bölmək üçün meydana gəlmişdi və ən böyük, ən davalı məsələ idi. VƏRƏSƏ! Bu sözü deyəndə fikirləşi-

rəm ki, bu qədər dava-dalaşa, söyüşə qarşılıqlı nifrətə səbəb olmuş həmin sözdən sonra bir neçə nida işarəsi işlədilməlidir. Üç bacı və onların ərləri, iki qardaş (sonra onların arvadları da), anaları və atalarının ikinci arvadı bütün günü didişir, hər biri öz vərəsə payını qoruyurdu. Hələ bu qardaş-bacıların uşaqları da böyüklər arasındakı münasibətdən asılı olaraq bir-birinə münasibətiin az da olsa dəyişməli olurdular. Valideynlər öz uşaqlarına dalaşdıqları bacı-qardaşın uşaqları ilə oynamağı qadağan edirdilər. Beləliklə bu ailə davasında bütün ailə üzvləri iştirak edirdi. Beləcə dalaşa-dalaşa, didişə-didişə gəlib 1917-ci ilə çatdılar. Daha burada başqa izahat lazım deyl…" (səh. 51-59).

Baninin bağ evinə. Oradakı yşaayış və istirahət tərzinə aid xatirələri çoxdur. Hətta ailə uşqalarının əməllərində və söhbətlərində ayıblı və dilə gətirilməyə layiq olmayan söhbətlər də var. Ailənin içindəki didişmələr az qala bütün əsər boyu davam edir. Yazıçı uşaqlıq illərində qəlbinə çökmüş intim hissləri də e'tiraf edir. Öz yazdığına görə on yaşında ikən ilk dəfə öz həyətlərində işləyən gənc bağbana, sonra xalası oğlunun dostu olan rus oğlana, daha sonra isə evlərinə qonaq gələn gənc gürcü knyazına və iranlı zabitə vurulub. Həmin dövrün siyasi hadisələri haqda xatirələr də maraq doğurur:

"Elə qalmaqallı bir dövrə gəlib çıxmışdıq ki, bu dövrdən tarixçilər üçün mövzu bolluğu yarandığı kimi, xalqın əzabı da bollaşırdı.

Artıq mə'lum olan tarixi hadisələrdən sonra Rusiyada çar devrildi, Kerenski də hakimiyyətdən əl götürdü, Oktyabr inqilabı baş verdi, vətəndaş müharibəsi qırmızılarla ağları üz-üzə gətirdi. İmperiya dağıldı.

Bu qarmaqarışıqlıq sayəsində ətraf ərazilərin tarixcə, irqcə, dinə görə ruslardan fərqli olan xalqları ayrılıb müstəqil respublikalar yaradırdılar. Qafqazda Gürcüstan, Ermənistan və Azərbaycan xalqları özünüidarə hüquqlarını bərpa etmək istəyir və bunun üçün çalışırdılar.

Azərbaycanın paytaxtı Bakı şəhərində ə siyasi canlanma başlamışdı. Yaranmış müxtəlif siyasi təşkilatların fəaliyyəti sayəsində rəqabət, dağıntı və döyüşlər baş verdi. Sosialist təmayüllü bir erməni təşkilatı ölkəni kommunist dağıntısından qurtarmaq adı ilə hərbi diktatura rejimi yaratdı. Amma camaat pıçıldaşırdı ki, bu təşkilatın başçıları bolşeviklərdir.

Onlar hər kim olsalar da hakimiyyətə müdafiə imkanı olmayan müsəlmanları qırmaqla başladılar. Burada da xalq, bir ingilis yazıçısının sözü ilə desək "milli rəqabət həvəsinin" qurbanı oldu. Yüksək təbəqənin, nümayəndələri, istər erməni olsun, istər azərbaycanlı, mənafeləri eyni olduğuna görə milli qırğınlar vxatı birbirini qoruyurlar. Qırğını isə, müəyyən bir vaxtda, tərəflərin hansı daha güclü, daha səfərbərdirmə o başlayırdı.

Beləliklə, əgər Türkiyədə qırğın birtərəfli idisə, türklər ermənilərı qırırdısa, Azərbaycanda ermənilər azərbaycanlıları qırırdı (xristianlar müsəlmanlar əleyhinə).

Bir gecə saat ikidə dayəm Froyleyn Anna gəlib məni yerimdən qaldırdı. Yuxudan ayılıb qaranlıq, kədərli bir aləmə qovuşdum.

İşıqlar kəsilmiş, ev və şəhər dərin bir qaranlığa cummudşu, bu qaranlığı isə haradan atıldığı mə'lum olmayan güllələr dəlib keçir, vıyıldaşırdılar. Uzaqdan pulemyot atəşləri də eşidilirdi. Biz hər dəqiqə "daşnakların" (millətçi erməni partiyasının adı belə idi) evə dolacağını, evi dağıdıb bizi də qıracaqlarını gözləyirdik. Telefon da kəsilmişdi, evimiz ətrafı təhlükə ilə dolu tənha bir adaya bənzəyirdi.

Əminənin qaranlıq yataq otağına yığışıb gözləməkdən başqa çarəmiz qalmamışdı. Səhər saat dördə yaxın giriş qapısı elə bərkdən döyülməyə başladı ki, elə bil indicə ev də dağılacaqdı, bizim son ümidlərimiz də. Elə bilirdik ki, daşnaklar bizi qırmağa gəliblər. Atam revolverini götürüb otaqdan çıxdı, arvadı Əminə də onun arxasınca. Zahirən zərif görünən bir qadın üçün bu hərəkət gözlənilməz cəsarət və sadiqlik nümunəsi idi. Biz ölümə hazırlaşırdıq, amma deyəsən tələsmişdik: bir az sonra atamla Əminə arxayın addımlarla qaytıdılar. Onların arxasınca gələnlər isə silahlı daşnaklar deyil, üzbəüz binada yaşayan erməni qonşularımız idi. Onlar bizə mühafizə və evlərində sığınaq təklif etməyə gəlmişdilər.Təklif minnətdarlıq hissi ilə qəbul olundu, buna heç söz ola bilərdi?

Elə həmin dəqiqə hərəmiz kiçik bir çamadan hazırlayıb pillələnləri endik. Biz ancaq küçənin o üzünə keçməli idik, amma küçədə güllələr elə vıyıldaşırdı ki, bu dar küçəni keçmək belə çox qqorxulu idi. Bizə dedilər ki, bu gülləbaran meydanını qaça-qaça keçsək təhlükə azalar. Küçənin o başında döyüş gedirdi, güllələr seyrək olsa da ardıcıl atılır, əvvəl partlayır, sonra isə vıyıldayırdı.

Nə qədər tənbəl olsaq da küçənin o üzündəki evə cəld qaçmalı idik. Küçəin aqranlığında həm üdşmənin çala-çoturuna görə, həm də qorxudan büdrəyə-büdrəyə qaçırdıq. Tək atam qaçmırdı, çünki balaca qardaşımı qucağına götürmüşdü və uşaqla birlikdə yıxıla bilərdi. Amma allah onu qoruyurdu.

Qapıdan içəridə ev sahibləri bizi xeyirxahlıqla qarşıladılar. Belə bir vaxtda bu tə'sirli bir hal idi. Sonra yatmağa hazırlaşanda gördük ki, rahatlıq yoxdur. Adamın sayı çarpayının sayından çox idi. Bə'zilərimiz xalça üstünə salınmış döşəklərin üstündə yatmalı olduq. Mən də balaca bir otaqda yerə salınmış döşək üstündə yatdım. Otaq qonşum isə divanda kiçik qardaşfmla birgə yatmış Froyleyn Anna idi. Həm uşağın səsindən, həm də ki, çöldəki güllə səslərindən səhərə qədər gözümü yuma bilmədim.

Ertəsi gün səhər isə belə bir mənzərənin şahidi olduq: evimi zin qarşısına yük maşınları düzülmüşdü və bu maşınlar bədəninə patrondaşlar sarımış adamların bizim pəncərələrdən atdıqları cürbəcür əşyalarla dolurdu. Cürbəcür çirkli hərbi paltar geymiş bu adamların görkəmi adamı qorxuya salırdı və biz bu səhnəyə qıraqdan baxdığımıza sevinirdik. Əgər biz o üzdə olsaydıq yəqin ki, əşyalar kimi pəncərədən çölə atılacaqdın. Evin içi pəncərələrdən çölə açılırdı: qaşıq-çəngəllərin arxasınca qadın korsajları uçurdu, Lui XIY üslublu bir şamdan havada uçan kaşmir ilişib şalı da özü ilə aşağı dartırdı.

"Bu da mənim yaşıl məxmər donum", deyə Əminə ürək ağrısı ilə inildəyir, Froleyn Anna isə bir ildən çox əlləşib toxuduğu başaltının havada uçmasına qəmgin-qəmgin tamaşa edirdi.

"Bu da mənim təzə alınmış yaraşıqlı gecə köynəyim" deyə Züleyxa köksünü ötürdü. Mən isə həmişə hər əşyana canlı təsəvvür etdiyimə görə astaca pıçıldadım: "Zavallı, paltocuğum, sənə əzab verirlər, əlvida". Əlvida mənim boynu xəzli, istəkli paltom, pəncərədən yük maşınına uçan paltom.

Elə həmin günün axşamı atamla Əminə bizdən ayrılmalı oldular: erməni terroristlər tərəfindən axtarılan bir adam üçün bu ev arxayın sığınacaq deyildi. Erməni dostlarından biri atamı daha arxayın bir yerə apradı. Vəziyyət isə getdikcə daha da pisləşirdi: çox vaxt belə hallarda olduğu kimi indi də başçılar öz adamları üzərində nəzarəti itirmişdilər, bu adamlar isə qarətlə, vurub-dağıtmaqla, insan qırmıqla məşğul olurdular.

Atam gedən günün gecəsi saat üçə yaxın bizi yuxudan oyatdılar. Bir dəstə silahlı adam evi axtarırdı. Onlar dama dırmanır, şkafları, yeşikləri açıb baxır, süngülərlə çarpayıların altını, adam gizlənə biləcək hər yeri süngüləyirdilər. Axtardıqlarını tapa bilməyib onlar evdəki şərabın hamısını içdilər və söyüş söyə-söyə acıqla çıxıb getdilər.

Səhər açılanda isə hardansa bir dəstə hərbçi gəlib damın üstünə pulemyot qoydu və qarşıdakı bizim evi gülləyə tutdular; bu intiqam güllələri boş yerə atılmırdı, boş iş idi, amma əsgərlər öz güclərini göstərmək imkanı tapmışdılar".

Bir neçə gündən sonra Baninin ailəsi İrana qaçmalı olur. Milyonçu ailə başçısı Bakıda əmin-amanlıq yaranana qədər İranda gözləməyi qərara alır və özü gəmiyə minə bilmək üçün gəmi kömürxanasının fəhləsi olur: "Xoşbəxtlikdən hər şey yaxşı keçdi: qonaq etdiyi arağın sayəsində daşnaklar gəmini yoxlayarkən alicənablıq etdilər. Onlar heç maşın zalına da düşmədilər, atam isə orada əlinə bel alıb, papağını gözünün üstünə basıb özünü əvvəllər istismar elədiyi fəhlələrə oxşatmağa çalışırdı".

Ailənin İran həyatı da qalmaqal, sıxıntı və həyəcan içində keçib. Onların İrana gəlişi buarda baş vermiş milli-azadlıq hərəkatı ilə eyni vaxta düşüb. Baninin təsvir etdiyinə görə həmin günlər İran vətənpərvərləri ingilis inşğalçılarına qarşı vuruşurlarmış: "Elə özümüzə təzəcə yer eləmişdik ki, məncə Küçukxan adlı bir nəfərin rəhbərliyi ilə vətənpərvərlər və qalib sifətilə İranda məskən salmış ingilislər arasında müharibə başladı. Vətənpərvərlər saqqal saxlayırdılar və and içmişdilər ki, işğalçılar ölkədən qovulana qədər saqqallarını qırxmayacaqlar".

Milyonçu Əsədullayevin ailəsi İranda altı ay qalıö və vətəndən əmin-amanlıq sorağı gözləyib. Nəhayət "Türklər Bakıda əmin-amanlığı bərpa etdikdən" sonra Baninin ailəsi Bakıya qayıdıb. Rusiyada ilişib qalmış başqa ailə üzvləri də yenidən Bakıya qayıdıb və əvvəlki milyonçu həyatı bərpa olunub. Bakını tərk edən türklərin əvəzinə ingilislərin gəlməsi və nəhayət ingilislər də gedəndən sonra yaranmış müstəqil Azərbaycan respublikasının fəaliyyətini Banin belə təsvir edir:

" Müstəqil Azərbaycan respublikası geniş fəaliyyətdə idi. Ölkənin nümayəndə hey'əti Cenvrəyə gəldi. Respublikanın özü və hüquqları rəsmən tanındı. Bakı millətçi, hələ bir də şovinist şəhər idi, təzəcə istiqlaliyyət tapmış bir ölkənin paytaxı elə əslində belə

olmalıdır. Bə'zi partiyalar sərt ən'ənəçilik edir, başqaları isə "hamı üçün tərəqqi və emansipasiya" arzulayırdı. Belələri qadınların savadlanmağını tələb edir və onların ictimai həyatdan kənarda qalmalarını pisləyirdilər. Qadınların bu cür kənarda qalması bə'zən qəribə vəziyyət doğururdu. Məsələn, tez-tez Azərbaycan dilində tamaşalar verən Bakı Milli Teatrında üzünün tükləri duyulan, pırpızaq qaşlı, qolu əzələli bir Dezdemonanın ehtiraslı sözlərlə ona müraciət edən Otelloya qalın kişi səsi ilə necə cavab verdiyinə baxanda adam təəccüblənirdi. Yalnız artistin çiyninə tökülən saçları və sün'i döşləri onu az da olsa qahına bənzədirdi.

Çox gənc olan paytaxt şəhər şən və qaynar idi. Bu qaynarlığı yraadan vasitələrdən biri inqilab içidə olan rusiyadan qaçıb gələnlərin çoxluğu idi. Qafqaza bağlılığı olanlar, lap bağlılığı olmayanlar da gəlib burada sığınaq tapır və inqilabın qurtarmasını gözləyirdilər. Onlar arxayın idilər ki, bu əhvalat bir nçə aya həll olunacaq. Bu uzaqgörənlərin dilində "Bolşeviklər gedəndən sonra" ifadəsi əzbər olmuşdu və hər dəfə hər biri bu əhvalatdan sonra nə edəcəkləri haqda danışırdılar. Elə bu yaxın və mütləq gələcəyi gözləyə-gözləyə onlar öz kreditlərinin imkanı sayəsində pul borc edir, elə eyni imkan dairəsində də əylənib vaxt keçirirdilər.

Həmişə qonaq-qaralı olmuş evimiz indi lap rəsmi qəbullar mərkəzinə çevrilmişdi. Burada qəbul olunan adamlar içərisindən biz bacılar kütləvi məhəbbətə layqi şəxsiyyətlər seçirdik… "

Milyonçu Əsədullayevin qızlarının, qızların ən kiçiyi olan Baninin özünün də, eşq macəraları haqda yazılar "Qafqaz günləri" kitabının mühüm hissəsini təşkil edir. Bacılardan biri bir rus oğlana oşulub qaçır, sonra onu tapıb geri qaytarır və atanın milyonlarına xidmət edən bir qohuma ərə verirlər. Başqa bir bacı isə əslən iranlı olan bir zabitə ərə gedir. Baniin özü isə hələ yaşca kiçik olduğuna görə ancaq daxili sentimental sevgi hissələri ilə yaşayırmış.

Əgər əsrin əvvəlindəki bir müsəlman milyonçusu ailəsinin və müxtəlif ailə üzvlərinin həyatı, əxlaqi və mə'nəvi cəhətləri Baninin deyil, bizim dövrün başqa bir yazıçısı tərəfindən təsvir olunsaydı çoxları bu əsəri siyasi qərəzi olan bir əsər adlandırardı.

Baninin öz milyonqçu babası Musa Nağıyev haqda xatirələri də maraqla oxunur. O babasının xərisliyinə aid misal çəkməklə yanaşı onun Bakıda çoxlu bina tikdirdiyini də söyləyir. Baninin yazdığına görə Musa Nağıyev ölümünə qadar Bakıda altmış bina tikdirib. Milyonçu babanın ev tikdirmək həvəsini isə o bizim "ev tik-

dirənə əcəl aman verir" məsələ ilə əlaqələndirir və öyləyir ki, xəstə oludğuna görə babası çoxlu ev tikdirirdi ki, ömrü uzansın. Kitabdakı çoxlu şəkillər arasında Musa Nağıyevin gənc yaşında ölmüş oğlu İsmayılın xatirəsinə tikdirdiyi binanın (indi Əlyazmalar İnstitutunun binası) da şəkli verilib.

Milyonçu babanın ölümü və onun qoyduğu vərəsdəən məhrum olmasını Banin bir neçə sətirlə və ürək yanğısı çəkmədən yazır: "Bir ay sonra babam Musa öldü. O bizə, özünün dörd qız nəvəsinə böyük sərvət qoymuşdu. Bu sərvət onlarla milyonçusu olan Bakı kimi bir şəhərdə də böyük dövlət sayılırdı. Bu vərəsə sayəsində mən on üç yaşımda ikən mültmilyonçu oldum. Amma milyonçuluğum çox çəkmədi, bir neçə gün sonra bir səhər tezdən küçədə çalınan beynəlmiləl himninin səsinə oyandım. Yerimdən qalxıb gördüm ki, küçədəki əsgərlər nə görkəmcə, nə də geyimcəAzərbaycan əsgərlərinə oxşamırlar. Bunlar rus əsgərləri idi.

Gecə yarısı bir zirehli qatar, yeni Müstəqil Azərbaycan Respublikasının təzə sərhəddini keçib Qızıl Ordu əsgərlərini yuxulu Bakı vağzalına gətirmişdi. Beləliklə heç bir atəş açılmamış Azərbaycan ordusu yoxa çıxmışdı: respublika məhv olmuş, qalib Rusiya öz əvvəlki varını özünə qaytarmışdı.

Mən öz gözlərimlə bir dünyanın sonunu gördüm".

Bu dövrü Banin öz uşaqlıq dövrünün sonu adlandırıb. Həmin günlər onun atası həbs olunub. Evlərinin əsas hissəsinin müsadirə olunmasına isə Banin, "adam sayına görə otağın çox olduğu üçün" bir növ haqq qazandırır. Daha sonra onların bağ evlərinin də mühüm hissəsi müsadirə olunub istirahət evinə çevrilməsi başqalarının, ələlxüsus qoca nənənin ah-vayına səbəb osla da Baninin və onun xalası qızı Gülnarın ürəyindən olur:

"Bir həftə sonra bizə on-on iki nəfər köhnə inqilabçı gəldi, hər biri öz fədakar işləri sayəsində az-çox yorulmuş adamlar idi. Onların arasında Sibir sürgünlərinə adət etmiş köhnə ideoloqlar, gözlərindən kommunist inamı yağan müəllimələr, şe'r deyib sonra öskürməyə başlayan ukraynalı şair, deyəsən ərinin əziyyətlərindən istirahətə gəlmiş şair, deyəsən ərinin əhiyyətlərindən istirahətə gəlmiş bir komissar arvadı, sifəti və kimliyi yadımdan çıxmış başqa adamlar da vardı. Az vaxta Gülnarla mən onların hamısı ilə tanış olduq. Bir-iki gün sonra ikimiz də qoca bir ideoloqa vurluduq. Mən "qoca" deyəndə on dörd yaşlı bir qızın dili ilə deyirəm: Qriqori Tarasovun qırx yaşı olsa da cavanlıq əlamətləri çox idi. İşdə

peşəsi tarix fənni olsa da gündəlik həyatda lirik bir kommunizm təbliğ edirdi. Gülnarın məlahəti sayəsində o bizim keçmiş issmarçılar sinfinə mənsub olma günahımızı bağışladı. Elə əslində biz doğrudan da həmin sinfin qalıqları idik. O bu cəhətə əhəmiyyət verməyib bizi kommunist ideyaları ilə varlaqdırmağa çalışırdı. Bizi inandırmaq çətin il deyildi — buna imkan çox idi. Gülnar onun sözlərini naz-qəmzə ilə təsdiqləyir, əslində isə ona yaxşı qulaq asmı məzə verə-verə Qriqorinin gözəl ağzına, səliqəli, təmiz dişlərinə tamaşa edirdi. Mən isə daha diqqətli idim və onun bizə söylədiyi fikirləri maraqla dinləyirdim.

"Siz hiss etmirsiniz ki, bu böyük var-dövlət ancaq təsadüfən neft tapılması sayəsində yaranıb?"

Biz bunu hiss edirdik.

"İnanmırsınız ki, milyon-milyon pullar uduzulan qumarxanalarla zavallı fəhlələrin aclıqdan və soyuqdan əzab çəkə-çəkə məhv olduqları daxmalar arasında böyük bir haqsızlıq var?"

Səmimi deyirəm, buna biz inanırdıq.

"Bəs yeganə qayğısı gəzib-dolanmaq olan qadınlar, ancaq at yarışına, qumara, eşqbazlığa maraq göstərən kşiilər haqda siz nə fikirləşirsiniz?"

Sözün düzü, bizim bu adamlar haqda heç bir yaxşı fikrimiz yox idi.

Beləliklə o bizə marksist tə'limi verməyə başladı. Öz məqsədinə elə yaxşı nail oldu ki, bir ay sonra bizim damarlarımızda təzə bir qan qaynamağa başlamışdı. Rəssam, yaxud heykəltəran öz əsərinə baxıb həzz aldığı kimi, Qriqori də bizə baxıb həzz alırdı. O mehribanlıqla bizim şüurumuzu ovsunlayırdı.

Bir gün o Bakıya getdi və qayıdarkən Leninin şəkli həkk olunmuş iki nişan gətidi. Nişanları yaxamıza taxandan sonra isə bizi özünün yaratdığı varlıqlar hesab etməyə başladı. Əvəzində mən də yaxşılıq etdim, onu özümün xəlvəti xəyal guşəmə apardım, o da bura tez öyrəşdi. Sonra hər gün günortadan sonra hər üçümüz bura gəlir, günəş və kişmiş ətri verən iri, qonur daşın üstündə uzanıb və kişmiş ətri verən iri, onur daşın üstündə uzanıb nədən gəldi söhbət edirdik. Qriqori bizi "balaca şərqli qızlar" adlandırır, özü haqda, inqilab haqda söhbət edirdi. Bir gün o dedi:

— Demək olar ki, bizim məşhur şairlərin hamısı Qafqaz haqda söz deyiblər. Mən həmişə bura gəlməyi arzulamışam; rus qızlarından çox fərqlənən Qafqaz qızları, sizin kimi qızlarla görüşməyi ar-

zulamışam. Bax siz, Gülnar — deyə o əllərini sinəsində çarpazlamış Gülnara tərəf əyildi — siz gözəl güllər açmış, amma qorxulu, adamı çəkindirən gül ağacına bənzəyirsiniz. Adam bu güllərin ətirli olduğunu duyur, ona toxunmaq istəyir, amma çəkinir, qorxur ki, tikan əlini sancar.

— Toxunan mənə, — deyə Gülnar sakit səslə cavab verdi, — toxunun, görərsiniz ki, mən sancan deyiləm.

Qriqori Gülnarın sakit sifətinə, yumulmuş gözlərinə xeyli tamaşa etdi.

— Cəsarət etmirəm, — nəhayət dilləndi. — Siz əgər doğrudan sancmasanız da, mən daha böyük təhlükəyə düşə bilərəm.

Sonra o mənə tərəf çevrildi:

— Mən sizdən daha az çəkinirəm, sizə rəğbətim də daha böyükdür. İstərdim sizin kimi bir qız dostum olsun və o qızı həmişə xəyalımda canlandırıb xiffətini çəkdiyim bir qadına — həyatla maraqlanan, idealist, özünü gözəl bir məqsədlə qurban verməyə hazır, həm də incəsənəti sevən bir qadına çevirim. Amma hayıf ki, yaxın vaxtda sizdən ayrılıb getməliyəm. Yaman heyfsilənirəm.

— Yox, getməyin, — deyə Gülnar qışqırıb gözlərini açdı: Axı niyə mənə toxunmaq istəmirsiniz? Mən ki, sancmıram.

O Qriqorinin əlini götürüb öz sinəsinə qoydu. Qriqori də onu sığallamağa başladı. Mən gözlərimi yumdum və bir də vaxtsa Qriqorinin boğuq, həyəcanlı səslə "qayıdağın, gecdir" dediyini eşidəndə gözümü açdım".

Baninin təsvir etdiyi Qriqori Tarasov onlarla bir müddət görüşündən sonra növbəti görüşlərdən birinə Andrey adlı bir dostunu, "qara hərbi geyimli" cavan bir kişi gətirib. Qriqolri dostunu gətirmədən əvvəl onu çox tə'rifləyib və deyibmiş ki, Andrey Massarin bir inqilabi komitənin əməkdaşıdır və Bakıya həmin komitəinn göndərişi ilə gəlib. Banin isə özünün ürək yanğısı ilə təsvir etdiyinə görə Andreyi görən kimi bir könüldən min könülə ona vurulub. Banin onu Tolstoyun Andrey Bolkonskisinə bənzədib və utana-utana da olsa ona üstüörtülü eşq e'lan edib.

Daha sonar Baninlə Gülnar az qala lap inqilabi fəaliyyətə qoşulublar. Onlar öz bağ evlərində və qonşu varlıların evlərindəki əmlakın inqilabi komissiya tərəfindən siyahıya alınmasında iştirak etməli olublar.

Şəhərə qayıtdıqdan sonra böyük milyonçu nəslinin ailələri onlar ayrılmış kiçik mənzillərdə daha rəzil bir güzərana başlayıblar. Ba-

nin həbsdə olan atasına tez-tez yemək aparmalı olurmuş. Atasının görkəmi onu körvəldirmiş də. Gülnar tələm-tələsik ərə gedir. Baninin özü isə günlərin birində "Müsəlman qadınlarının milli konservatoriyası"nda dərs deməyə də'vət olunur. Onu bu vəzifəyə həmin musiqi məktəbinin direktoru Zeynəb xanım də'vət eləmşidi: "Bu Zeynəb xanım qəribə adamdı, onun haqqında çox söz -söhbət eşitmişim və onunla tanış olmq istəyirdim. Savadlı, musiqiyə vurğun olan bu qadının davranışı bütün müsəlman Bakısını həmişə dəhşətə gətirmiş, özünə "fahişə", ərinə isə "baştutan" adı vermişdilər".

Banin özünün e'tiraf elədiyi kimi Azərbaycan dilini yaxşı bilməsə də, Zeynəb xanımın məktəbində dərs deməyə başlayıb.

Yeni şəraitdə ailə üzvlərinin düşdüyü vəziyyət, onların elə bu vəziyyətdə də didişmələri haqda söhbətlə yanaşı Banin öz intim hissləri haqda Andreyə məhəbbəti və onunla yeni görüşləri haqda da təfsilatlı mə'lumat verir. Onun təsvirincə Zeynəb xanımın məktəbinə baş çəkməyə gəlmiş maarif komissarı ilə birgə Andrey də gəlibmiş. Burada görüşdükdən sonra Baninin sevgilisi onu öz mənzilinə, daha doğrusu Baninin böyüyüb başa çatdığı keçmiş ata mənzilinə də'vət edir. Banin Səlim adlı bir qohumuna ərə getmiş Gülnarla birlikdə Andreyə qonaq getməyə başlayr və Andrey qonaq getməyə başlayır və Andrey onları Biryukov familiyalı bir həmkarı ilə birgə qarşılayır. Həmin görüşlərdən birinin təfsilatı belədir:

"Gülnarla ikimiz Andreygildə nahar edirdik. Səlimə də demişdik ki, Zeynəb xanım bizi qonaq çağırıb. Zeynəb xanım vəziyyətdən xəbərdar idi və məmnuniyyətlə bizə himayədarlıq edirdi. Kilkəbaş bir xidmətçi bizə cürbəcür xörəklər bişirib gətirirdi. Xörəklər dadsız olsa da karımıza yetirdi. Mən elə bir vəziyyətdə idim ki, burada hər şey xoşuma gəlirdi, xörəklər də, qalan başqa şeylər də. İki həftədən bəri demək olar ki, hər gün Andreylə görüşürdüm. Mən onu sevirdim deməyim kifayət etməz; mən ona vurulmuşdum, əgər gülünc çıxmasa deyərdim ki, mən ona valeh olmuşdum. Bəli, mən ona valeh idim. Bilmirəm onu sevirdim, yoxsa onun sifətində Andrey Bolkonskini? Bolkonskinin Nataşa Rostovaya olan münasibəti Andreyin mənə münasibətinə bənzəyirdi: rəğbətli və himayədar bir münasibət idi. Hər cür fiziki ehtirasdan kənar idi. Hər halda mən belə güman edirdim. Lap yanılmış olsam da nə fərqi, axı insan hər şeyə öz istədiyi gözlə baxır? Andreyin heç bir hə-

rəkəti məni çəkindirmirdi; onun sözləri də, hərəkətləri də qərəlində idi və hiss olunurdu ki, o özünü həmişə ələ ala bilən bir adamdır. Andrey bir gün mənə demişdi:

— İnsan ölüm qorxusunu kənar edəndən sonra həyatda nail olunamı az şeyi qalır. Mən ölümlə elə tez-tez üzləşmişəm ki, həyatı nəyin bahasına olursa olsun qorunası bir şey deyil, xoşbəxt bir təsadüf sanıram. Elə ona görə də çoxlarının can atdıqları şeylərə mən nifrət edirəm. Fikrimi başa düşürsünüzmü?

Az qala oun cümlələrinin çoxu "fikrimi bbaşa düşürsünüzmü?" sualı ilə bitirdi. Andrey bilirdi ki, mən onun fikirlərini başa düşürəm və buna həmişə təəccüblənirdi:

— Siz hələ körpə uşaqsınız, mən isə sizinlə qadınla danışan kimi danışıram.

— Yox, səhv edirsiniz. Mənim on beş yaşım var: bu yaşda bizim qadınların uşaqları olur. Məni sizdəki rus bacılarla qarışıq salmayın.

— hə, deyəsən bu fərqə öyrəşməli olacağam.

Gülnar getdikcə daha çox keflənirdi. Zarafatcıl Biryukov həmişəki kimi zarafat eir, hey danışırdı. O bizə özü haqda ağlasığmaz əhvalatlar danışırdı, bəlkə də heç yalan demirdi. Andrey deyirdi ki, onun danışdıqlarının yarıdan çoxu həqiqətə uyğundur və elə bu fikrin özü Biryukovu qeyi-adi bir adam saymağa imkan verirdi.

O dəqiqəbaşı Gülnarın qaraşın əllərini öpür, sonra isə özündən ixtiyarsız öpüşlər yuxarı qalxırdı. Öpüş qola çatanda Biryukovun hisslərinin yolu açıqca hiss olunurdu.

Andrey pıçıldadı:

— Öpüşlər boyuna çatanda o haldan düşəcək, bəlkə də elə haldan düşən sizin xalaqızı olacaq.

Gülnarın davranışı məni qorxudurdu. Əgər o beləcə — hər on dəqinədən bir stəkan araq içsə evə qayıda bilməzdi. Mən ona elə beləcə də dedim.

— Hə, daha da yaxşı, — deyə Biryukov qışqırdı, — burada yatarsınız. Ərinizə deyərsiniz ki, gecə qadağan saatına düşdüyünüzə görə Zeynəb xanımgildə gecələməli oldunuz. Biz də Zeynəb axnıma zəng vruub xəbərdar edərik.

Bir ferdə qalmaq elə hamımızın ürəyindən olduğuna razılaşdıq. Gülnar arxayınlaşıb daha da çox içməyə başladı. Biryukov isə əvvəlkilərdən də maraqlı yeni bir macəra söyləməyə başladı. Sonra o pencəyinin cibindən bir dəst kart çıxarıb bizə qəribə nömrələr gö-

stərdi. O qəribə nömrələri göstərdikcə biz ağzımızı açıb tamaşa edir, hərdən lap həyə candan qışqırırdıq da. Nəhayət Biryukov oyununu qurtarıb dedi:

— İndi isə mən bildiyim nömrələrin ən gözəlini göstərəcəyəm. Bircə saniyədən sonra Gülnar mənim dizlərim üstündə oturacaq.

O, ayağa qalxıb Gülnarın əlindən tutdu və xüsusi bir üsulla onu qaldırıb dizləri üstündə oturtdu.

Gülnar şən-şən gülürdü və deyəsən Biryukovun dizləri üstündən düşmək fikri yox idi.

— Gözəl səhnədir, xalq komissarlarının rəqib qızları ilə şəhvət mənzərəsi. Gedəyin mənim kabinetimə, — deyə Andrey ayağa qalxıb məni özü ilə apardı.

Onunla təklikdə olacağıma sevinə-sevinə Andreyin arxasınca getdim.

Tək bir lampa ilə işıqlandırılmış sakit otaqdakı təzə meşinli divanın üstündə oturduq və bircə az sonra mən Andreyin qolları arasında idim.

— Mən də Biryukov kimi nömrə göstərə bilirəm.

Andreyin sinəsinə sıxılıb, ilk dəfə kişi sinəsinə sıxılıb yatdığım bu anda mən xoşbəxtlik dərsi alırdım. Ömrümdə ilk dəfə səadətin, tam harmoniyanın nə olduğunu bütün hisslərimlə duyurdum. Lap körpəklikdən yatdığım, yaşadığım bu otaq indi məni hələ uşaq olsam da qadın səadəti ilə yaşayan görürdü".

Elə həmin vaxtda Cəmil adlı işgüzar bir adam Öaninin adaxlısı sayılırdı. Baninin isə yaxdığına görə ondan zəhləsi gedirmiş. Həmin adam bütün əlaqələrini işə salıb Baninin atasını həbsxanadan çıxarmağa çalışırmış və Banin özünü ona borclu sanırmış. Elə buna görə də bir müdət sonra Andrey Moskvaya qayıdarkən Baninə onunla getməyi təklif etdikdə Banin atasının xatirinə razılıq vermir. Banin Gülnarı atasının xatirinə razılıq vermir. Banin Gülnarı Andreyin yanına göndərir ki, onunla gedə bilməyəcəyini söyləsin. Gülnar isə bu fürsətdən istifadə edib Andreyə qoşulub qaçır, bir neçə ay gəzib-dolandıqdan, əldən-ələ keçdikdən sonra evə ərinin yanına qayıdır və Baninlə də barışır. Bütün bu əhvalatlar avtobioqrafik xarakter daşısa da, tə'sirli bir bədii əsər kimi oxunur.

Atası həbsxanadan çıxdıqdan sonra Banin Cəmilə ərə gedir. İndi isə kürəkən qaynatasının blkədən çıxıb Fransaya, orada qalmış ailəsinin yanına getməsi üçün pasport almalı idi.Müflis olmuş,

lakin gələcəyə ümidi qalmış bir milyonçu ailəsinə qovuşmuş Cəmil bu pasportu da əldə edir və Baninin atası Frasnaya yola düşür.

Baninlə Cəmilin ailə həyatının təsviri də çox qəribədir. Banin onu sevmədiyini dönə-dönə söyləyir. Bir müddət sonra isə Cəmil özləri üçün də pasport alır və onlar Fransaya getmək üçün gəmi ilə Batumdan Türkiyəyə yola düşürlər.

İstambuldan Fransaya getmək üçün viza gözlədikləri müddətdə Baninlə Cəmilin günləri rus emiqrantlarının toplaşdığı kafe və restoranlarda keçir. Cəmil öz pullarını qumarda uduzur. Nəhayət atasının göndərdiyi az məbləğli pulla bilet alıb Banini Fransaya yola salan Cəmilin özü İstambulun küçələrində qalır.

Banin Fransaya gəldiyi anda onun "Qafqaz günləri" başlıqlı xatirələr kitabı sona çatır.

Kitab həm maraqlı xatirələr bolluğu, həm tarixi hadisələrin və böyük bir milyonçu ailəsinin qəribə taleyinin təsviri, həm də müəllifin özünün gözəl bədii ifadə imkanları sayəsində maraqlı bir əsər tə'siri bağışlayır.

Banin (Üm-ül Banu)
(1905-1991)

ÜMİD YERİNƏ GƏLİŞ

("Paris günləri" romanından parça)

Oryan-Ekspress var gücü ilə oraya — Ümid Yerinə tərəf şütüyürdü. O, qulaqbatırıcı bir uğultu ilə irəliləyir, relslərin üzəri ilə bir yoldan o birisinə keçərkən xam at kimi atılıb düşürdü. Qatar özünün cingiltili dəmir dili ilə mənə xilasın və xoşbəxtliyin yaxınlaşdığını e'lan edirdi. O məni dörd illik inqilab dövründən bəri dağıdılmış bir dünyanın xarabaları arasından ümid işığıma dönmüş bir diyara aparırdı. Hələ dörd il əvvəl Qafqaz azad ikən qohumlarımın bir hissəsi buraya gəlmiş, mən isə Müstəqil Azərbaycan Respublikasının naziri olan atamla orada qalmışdım. Sonra isə ruslar Qafqazı yenidən zəbt etdilər. Atam varlı olduğuna görə həbs olundu, mən isə on beş yaşımda məcburən ərə getməli oldum. Bu dəhşətli illərin ən ümidsiz çağlarında belə xəyallarda özümə sığınacaq tapır, dünyanı dolaşır, ağlasığmaz, böyük xoşbəxtliklər, uğurlar, qələbələr haqda fikirləşirdim.

İnsan həyatının həlledici dəqiqələrinin nə demək olduğunu axır ki, duydum. Həmin dəqiqələr məni cənnətin qapısına tərəf çəkib aparırdılar. Həyəcandan bütün bədənim keyləşmiş, boğazım qurumuş, ürəyim isə on yeddi yaşlı canımın bütün hikkəsi ilə döyünürdü. Pəncərədən çöldə axan həyata baxır, həyəcandan korlaşdığıma görə şəhər ətrafının tör-töküntülərini də sezə bilmirdim. Mən acaq öz xəyallarımı soyuq, yarıac, qüssəli keçmişimdən məni xilas edəcək sığınacağımı görə bilirdim. Daim arzuladığım uğur və qələbələri az vaxtdaca ələ keçirəcək və onları daha heç vaxt əldən verməyəcəkdim. Ən böyük qələbə isə artıq mənimlə idi: Ümid Yerinə gəlmişdim. Qafqazdan İstanbula qaça bilmiş, İstanbulda isə ərimə yalançı vədlər verib aradan çıxa bilmişdim. O mənimlə yenidən görüşmək arzusunda olsa da, mən onu birdəfəlik itirmək istəyirdim. Zavallı kişi o da mənim kimi qurbanlıq idi — bizi əzərək irəliləyən Tarixin qurbanı idi. Lion vağzalının qübbəsi qatarı öz qanadı altına alır və öz kölgəsində gizlədir. Sür'ət azalır, lap yavaşıyır və nəhayət qatar dayanır, az qala ürəyim də dayanır. Elə bil son nəfəsimi verirəm. Yox, ölmürəm, əsə-əsə, səndələyə-səndələyə səkiyə düşürəm. Ayaq üstə qala bilirəm və nəhayət göz yaşlarım

arxasından özümünkiləri sezə bilirəm. Onlar dörd nəfər idilər: mənim gözəl ögey anam Əminə, bacılarım Züleyxa və Məryəm, bir də zəhləmgetmiş yeznəm. Mən bir-bir onların boynuna sarılır, gülürdüm. Elə bir səadətə qovuşurdum ki, heç ölüm də məni bu səadətdən ayıra bilməzdi. Amma mən ölmədim, göz yaşlarım qurudu. Hamı deyib-gülməyə başladı, üstümə suallar yağdı və mən yarımçıq cavablar verirdim. Bir anlıq kövrəldiyimə görə də tezcə peşiman oldum, çünki bizim ailədə kövrəkliyə pis baxırdılar və bə'zən də onun əvəzinə kobudluq edirdilər. Həm də ki, çox vaxt zarafatı qəddarlığa dönən məşhur yeznəm Şəmsi də burada idi və onun yanında kövrək bir söhbətə başlamaq mümkün deyildi. O, əlində nə isə oynada-oynada kinayə ilə məni süzürdü və hiss edirdim ki, acı dilini işə salmağa hazırlaşır. Türk qadınları kimi başıma bağladığım çalma, İstanbuldan aldığım ucuz kostyum, kəndlisayaq yerişim və davranışım onu qıcıqlandırırdı. Nəhayət əli ilə mənim iri, dolğun yanbızlarımı göstərib kinayə ilə güldü və mənim günahkar kimi sıxıldığımı görəndə dilləndi:

— Canım üçün onu bu vəziyyətdə "kənd və tərəqqi" adlı bir pantomimo tamaşasında oynatmaq olar. Parisə çarşabla gəlib, qaşları Qafqaz arabaçılarının qaşlarına oxşayır. Əynindəki Daşkənd kostyumudur, hələ paltarın içi — bu iri əndam isə ancaq Abdulhəmidin hərəmxanasına yarayar. Yox onu buradan aparmaq üçün araba tapmaq lazımdır. Əminə ilə bacılarım ona acıqlanıb məndən əl çəkməsini xahiş etsələr də o, dil-boğaza qoymurdu.

Mən pərtliyimi büruzə verməsin gülümsəyirdim. Əslində elə ürəkdən gülümsəyirdim, çünki həyat gözəl idi və mən ömrümün elə şirin bir anını yaşayırdım ki, onun tamını ən acı sözlər də korlaya bilməzdi. Mən vağzaldakı get-gəldən, səs-küydən, həyəcandan, indiki xoşbəxtliyimin və dörd illik əzabdan sonrakı xilasımın sevincindən keyləşmişdim. Mənə elə gəlirdi ki, soyuq, qaranlıq, qorxulu kölgələrlə dolu bir zimzəmidən xilas olub günəşə qərq olmuş çəmənliyə çıxmışam. Amma elə buradaca mənim yazıçılıq azarım üzə çıxırdı və mən həyəcan içində olmağıma baxmayaraq, bacılarımın bər-bəzəyinə də göz qoymağa imkan tapmışdım. Həmişə rəssamlıq həvəsində olan Züleyxa ciddi yaradıcılıq işi görmüşdü və üzünün bəzəyində bütün rənglərdən istifadə etməyə çalışmışdı. Ona nisbətən bəzəksiz görünən Məryəmin isə uzun kipriklərı rəng yükündən qar altdla qalmış küknar budaqları kimi sallanmış, yanaqları və dodaqlarının qırmızısı göz qamaşdırırdı. Bu zövqsüz

bəzəkləri mən görür, yaddaşıma həkk edir, amma onlara bir söz demirdim.

Züleyxanın geyimində də öz sənətinə sadiqliyi duyulurdu: dibçəyə oxşayan papağı gözünün üstünə düşmüş, iri sırğaları çiyinlərinə çatırdı, boynuna saldığı muncuğun rəngləri göz qamaşdırırdı Onun bağladığı bəzəkli kəmər isə belində deyil, ombasının üstündə qərar tutmuşdu, çünki dəb belə idi. Bu əlvan geyimdəki bacımın özündə də həyat qaynayırdı.

Biz iri, qırmızı bir taksiyə yüklədik. Maşın elə iri idi ki, ona minərkən ikiqat əyilməyə ehtiyac olmadı və oturacaqda özümü quyuya düşmüş kimi sanmadım. Tək bir çamadandan ibarət olan yükümü isə sürücünün yanına qoymuşdular. Beləliklə mənim böyük macəram başladı. MƏN PARİSDƏYƏM.

Paris… Mənim bu sözlərimin, MƏN PARİSDƏYƏM sözlərimin tam mə'nasını anlamaq üçün gərək dünyanın o başında qorxunc bir şəhərdə əzab çəkmiş olasan. Bunun üçün gərək uzun, əzablı illər boyu Parisi arzulamış olasan, mənim kimi öz doğma şəhərində özünü sürgündə sanmış olasan. İllər boyu Paris həsrətilə yaşamış bir adam üçün bu şəhər cənnətin qapısına dönür, xəyallar tarixin səhifələrindən süzülüb daşa, küçəyə, meydana, abidələrə dönüb gözlərin qarşısında canlanır. Burada bütün xəyallar gül açır, bu dünyada kiçik dünyacıqlar birləşir, əriyir və yeni bir həyatın sərvətlərinə dönürlər.

Təbiətən vəfasız adam olsam da mən yarım əsrlik yaxınlıqdan sonra da Parisə vəfalı qaldım. Lakin mə'lumdur ki, uzun dostluğun özünün də həm xoş, həm də yorucu və bezikdirici məqamları olur.

Ey bu dünyanın xəyalpərvərləri, bu yerdə sizin şahidliyiniz gərəkdir, axı siz xəyalların xeyir və şərini çox duymusunuz. Xeyiri budur ki, xəyal bizi məst edir və həyatın ağrısını duymuruq, xəyal dar gündə sığınacağa dönür, aclıq çəkəndə yağlı qoğalı əvəz edir.

Xəyal o vaxt şərə dönür ki, həmin xəyal təsadüfən həqiqətə çevrilir və adam öz-özünə deyir: "elə bu imiş". Ən şirin xəyal belə həqiqətə çevrilib həyatın çirkabına bulaşandan sonra adiləşir və həmin sualı doğurur: "elə bu imiş"…

Mənim Paris həyatımın ilk günləri isə bircə fikir doğururdu: "elə bunu istəyirdim". Çünki hər şey gözəl idi, gənc idim, hər şeyə marağım və gələcəyə ümidim vardı. Hətta Lion vağzalına yaxınlaşarkən şəhər ətrafındakı çirkli, tüstülü ərazilər və mənə xoş gəlmiş-

di, çünki mən Parisə qədəm qoyurdum. Sonra gözəl Rivoli küçəsini, sonra isə ondan da gözəl, büllur bağçanı xatırladan Kankord meydanını gördüm. Sürücüyə tapşırmışdılar ki, Şan-Elize ilə getsin. Bu məşhur küçə o vaxt, yarım əsr əvvəl daha gözəl idi. Orada cəmi bircə dükan vardı — Gerlen dükanı. Selest və Fuks kafeləri, iki modalar evi və Glaric mehmanxanasından başqa xidmət yerləri yox idi. Bu gözəllik guşəsi sonralar demoratikləşmə dövründə eybəcərləşdi. Burada tərəzi qoyub konfet satmırdılar. Səki boyu köşklərdə açıq paltarlar, plastik ayaqqabılar, yerfındığı bükümləri satılmırdı. Addımbaşı parnoqrafik şəkilli afişaları ilə hər yaşda, hər cinsdə, hər zövqdə adamlara xidmət göstərən kinoteatrlar yox idi.

Biz yavaş-yavaş Şan-Elize ilə qalxaraq Zəfər Tağına — indi ancaq mənim üzərimdə qələbə çalan Zəfər Tağına çatdıq. Sonra Bua xiyabanındakı (deyəsən elə o vaxt adını dəyişib Foş qoymuşdular) yaraşıqlı məhəllələri keçib Münet məhəlləsinə çatdıq. Burada Lui Buali küçəsindəki əzəmətli bir binanın birinci mərtəbəsində valideynlərim mənzil kirayə etmişdilər. Vətəndən gətirilmiş daşqaş satılıb xərclənənə qədər biz bu varlılar məhəlləsində yaşadıq. Gətirilmiş cəvahirat isə inqilab partlayışının alovlarında külə dönmüş, demokratikləşdirilmiş, kollektivləşdirilmiş, sosialistləşdirilmiş çox böyük əmlakımızın çox cüz'i bir qalığı idi.

Bua xiyabanı ilə aşağı düşdüyümüz vaxt xəyalım bir anlıq başqa bir "bulvara", Xəzər sahili ilə uzanan Bakı bulvarına uçmuşdu. Oradakı bir neçə cılız ağacın arasında qəmli-qəmli dolaşdığım illərdə xəyalım həmişə kənarda, daha doğrusu Parisdə olurdu. Nəhayət inqilabın dalğası məni gətirib buraya çıxarıb və mən həmişə orada varlı yaşamaqdansa, burada kasıb yaşamağı üstün tutmuşam. Yox, sözlərimi ikiüzlülüyə bənzətməyin. Əvvəl yazdığım kimi, mən hələ uşaq vaxtı bağ-bağçamızı sulamaqla məşğul olan on iki bağbanımızdan biri, gənc və yaraşıqlı Rüstəmin arvadı olmaq arzusu ilə xəyalən valideynlərimi müflisləşdirirdim ki, özüm də kasab bir qızcağaza dönüm. Mənim müflisləşmək arzum baş tutdu. Amma gözəl, yaraşıqlı Rüstəmə ərə gedib, onun qoynuna girmək arzum baş tutmadı, mən zəhləmgetmiş Cəmilə qismət oldum. Sonra taleyin hökmündən şikayətlənməyə haqqım yox idi, çünki Rüstəmə qovuşmaq əvəzinə bura gəlmək imkanı qazanmışdım və inanırdım ki, burada Rüstəmdən də min dəfə yaraşıqlı, səviyyəcə yüksək, daha incə adamlar görəcəyəm. Bütün arzularım "Min bir gecə" nağıl-

larına bənzədiyi üçün gələcəyi də Əlibabanın xəzinəsindəki lələ-cəvahiratın içində görürdüm. Bəli hər cür xəzinələr təsəvvür elə-mişdim, amma təkcə bir şey ağlıma gəlməmişdi... Ağlıma gəlmə-mişdi ki, nə vaxtsa mən fransız yazıçısı kimi tanınacağam və bu sətirləri yazacağam. Atam evin girəcəyində bizi gözləyirdi, yəqin taksinin gəldiyini görübmüş. Batumdan onu Paks kompaniyasının gəmisində İstanbula, Parisə yola saldığım vaxtdan üç il keçmişdi. Bəli, o gedirdi, mən isə qalırdım. Ən pisi isə o idi ki, mən ərimlə qalırdım və həmən ərlə Bakıya qayıdıb iyrənc bir ailə həyatı sürmə-li idim. Eh, nə qədər əzab çəkdim... Bə'zən deyirlər ki, insanın "qəlbi sınır", mənim qəlbim isə sınıb ovxalanmışdı. Mən atamın getməsinə görə deyil, onun mənsiz getməyinə görə əzab çəkirdim. Mən Qafqazda bir qayaya mıxlanıb qalmış Prometeyə bənzəyir-dim və heç bir Herakl məni bu şirin əzabımdan xilas edə bilməzdi.

Atam cavanlaşmışdı, azadlıq, yaxşı maliyyə vəziyyəti və ələlxü-sus qorxu çəkməməsi ounn görkəmini dəyişdirmişdi. Sifəti dolmuş, qaməti düzəlmişdi. Geyimi də yaxşı idi. Yadıma onun həbsxana-dakı vəziyyəti, arıq sifəti, əyilmiş qaməti və əynindəki dustaq gey-imi düşdü. Elə həmin geyimin özü insanı sıxıb məhv etmək üçün bəs edərdi. Bibimin, bacımın hazırladığı yemək boxçasını əlində tutub dəmir çərçivə arxasından üzgün bir təbəssümlə mənə baxma-sını da yadıma saldım. Qışın şaxtasında, yayın istisində ona apar-dığım yemək boxçaları mənə ağırlıq etsə də, onun məhbus həyatı-na azacıq da olsa yüngüllük gətirirdi. İndi burada, bu rahat və ge-niş mənzildə arxayınlıqla oturub Bakının neftə bulaşıb qara rəng almış ətrafındakı həbsxananı təsəvvürə gətirmək adamı dəhşətə salır. Elə əslində də bu bir dəhşət deyildimi? Atam soyuqqanlı bir ata kimi qollarını açdı, mən isə ondan çəkinən bir övlad kimi onu qucaqladım. Onun qara gözlərinin ancaq özünə məxsus olan iti baxışları məni həmişə sıxır və çəkindirirdi. Görəsən heç mənə meh-ribançılıq göstərmişdimi? Yox, zənnimcə ondan heç vaxt mehri-banlıq görməmişdim. Həbsxanada ona baş çəkməyə gedəndə də mehribanlıq duymurdum. Bizim aramzıda həmişə bir ayrılıq divarı olub və bu divarı keçməyə heç birimiz cəhd eləməmişdik. O, heç vaxt mənə qarşı sərtlik göstərməsə də, mən ondan çəkinirdim və bu çəkinmək sayəsində də sevdiyim adama qovuşa bilməmiş, atamın istəyi ilə ürəyimə yatmayan bir kişiyə ərə getmişdim.

O vaxt bizim mənsub olduğumuz islam aləmində Atanın nə demək olduğunu indi təsəvvür etmək çətindir. Ata ailədə Allahdan

sonra əsas ixtiyar sahibi idi, övladlarına hüquqsuz məxluqlar kimi baxır və onlara ölümdən başqa hər cür cəza verə bilərdi. Çox mümkün ki, hələ də bə'zi müsəlman ailələrində Ata həmin hüquqları özündə saxlayıb.

Atamın ən dəyərli cəhətlərindən biri onun yaşa dolduqca daha da güclənən liberallığı idi. Bəs bu liberallıq hardan gəlirdi: onun güclü ağlından, laqeydliyindən, yoxsa bizim anlaya bilmədiyimiz başqa cəhətlərindən? Hər halda bu liberallıq bizim — onun qızlarının , hələ o vaxt islam aləmində pis qarşılanan Avropa təhsili almağımıza səbəb oldu. Onun ikinci arvadı, mənim ögey anam Əminə də bu liberallıqdan kifayət qədər, bə'zən də həddən artıq istifadə edə bildi. Hələ yaxın vaxtlarda biz atamın daha bir yüksək keyfiyyətinin də şahidi olacağıq. Atam məni Parisə tək çağırdığına görə çox ona minnətdar idim. Bəlkə elə zorla verildiyim ərimdən boşanmağa şərait yaratmaq üçün belə etmişdi? Mən bu fikrə çox ümid bəsləyirdim. Nifrət etdiyim ərimlə yenidən birləşmək təhlükəsini gənc bir qadın kimi yeni həyat qurmaq arzularım alt-üst olurdu. Mən həyatımı dörd il əvvəl itirdiyim nöqtədən başlamaq istəyirdim, özü də yeni bir dünyada, həmişə arzuladığım əfsanəvi Parisdə başlamaq istəyirdim. Bu ümidə görə hər cür güzəştə getməyə hazır idim. Bacım Züleyxanın "mənim yaşda olanda bilərsən" deyərək, həmişə mənə böyüklük etməsinə də dözəcəkdim, Əminənin məsləhətlərinə itaətlə qulaq asacaqdım, onalrın bütün əmrlərinə tabe olacaqdım. Bir sözlə ərimdən boşanmaq naminə hər şeyə hazır idim. Lazım olsa hamıdan əvvəl yatardım. Uşaq vaxtı freyleyn Annanın almanca "uşaqlar yatmaq vaxtıdır" deyə verdiyi əmr mənə ən ağır cəza kimi görünürdü. Bu gün belə əmrlərə də itaət edərdim, bunların hamısına dözərdim, təkcə Cəmilə dözə bilməzdim.

Atamla görüşəndən sonra səkkiz yaşlı ögey qardaşıma tərəf çevrildim. Uşaq yəqin ki, keçən dörd ildən sonra məni tanımamışdı, üzündə heç bir sevinc hiss olunmurdu və təəccüblə mənə baxırdı. Ağ dərili bu oğlan əsl "ağ irqin" nümayəndəsi idi və bu ağlığı Şimali Qafqazdan olan anasından götürmüşdü. Əqiq rəngli gözqaşımız və başqa əlamətlərimizlə biz ondan çox fərqlənir və şərqli olduğumuzu büruzə verirdik. Biz də öz irqimizi təmsil edirdik, görkəmimiz və həm də damarlarımızda axan qanla qaraşın irqin nümayəndələri idik.

Sonra ailənin yeni əlavələri ilə tanış oldum. Qardaşıma tərbiyəçilik edən, qoca, səliqəli, dombagöz kişi pilləkəni düşürdü. O, asta yeriyirdi və kişinin qıçları elə əyri idi ki, ayaqları bir-birinə yaxınlaşan bir cüt samıya bənzəyirdi.

Evin aşbazı ilə xidmətçisi isə pilləkənin aşağısında durmuşdular və məni görən kimi fransız dilində hütüləyərək həyəcanla qışqırışdılar:

— Oh, mademuazel belə gənc yaşında madam olub?

— Madam… Madamın nə gözəl gözləri var!

Xoş söz eşitmək həmişə xoş olur. Bəli, o vaxt hələ xoş söz işlətmək adəti qalırdı. O vaxt fransızlardan da xidmətçi işləyənlər vardı, bugün isə bunu həqarət sayırlar. Doğrudur, xidmətçilik yaxşı peşə deyil. Amma müdiri həmişə şıltaqlıq edən bir idarədə makinaçılıq etmək, yaxud zavodda işləmək yaxşıdır məgər? Belə görünür ki, camaat təzə peşələri üstün tutur. Keçmişin gözəl illərində ictimai tə'minat yox idi, lakin o vaxt keçmişin fransız xidmətçiləri vardı. Hiss edirəm ki, söhbət azmanı müqayisələr üçün "o vaxt" deyə keçmşi də yada salmalı olacağam. Çünki keçən bu yarım əsrdə elə böyük dəyişikliklər olub ki, elə bil bu gün başqa bir dünyada yaşayırıq. Dəyişikliklər çox olduğu üçün onları sadalamağa da imkan yoxdur. Hər halda bir nümunəni yada salmaq istəyirəm. Lui Vuali küçəsinin bulvara uzanan tərəfində əvvəllər qala divarları vardı və biz hava qaralandan sonra o tərəflərə hərlənməyə qorxurduq. Deyirdilər ki, orada çox qorxulu adamlar gizlənir. Başqa tərəfdə isə Müet parkı yerləşirdi və buranı da istirahət yeri saymaq olmazdı. Burada az qala hər kolun dibində "satirlər" vardı və onları görəndə biz dəhşətə gəlirdik. Beləliklə, biz iki qorxulu ərazinin arasında yaşayırdıq: bir tərəfdə "qala", o biri tərəfdə isə "satirlər" parkı. Paris həyatına uyğunlaşmağım elə gəldiyim gündən bacım Züleyxanın otağına çəkildiyimiz andan başlandı. Züleyxa otağa girdiyi andan Məryəmlə məni mat qoydu. O, öz şkafının siyirməsini çəkib, oradan uzun bir müştük çıxartdı, siqareti müştüyə taxıb yandındı, şahanə bir görkəm alıb, siqaretdən bir qullab vurdu, mənim tüstüdən öskürməyimə fikir vermədən qürurla dedi:

— Bu yaxınlarda ərə gedirəm.

— Nə yxaşı! — deyə sevinclə qışqırdım.

Bu xəbər mənə ikiqat sevinc gətirmişdi. Öncə ona görə ki, evlənmə sözü elə həmişə sevinc gətirir və mənim uğursuz ailə qur-

mağıma ancaq Oktyabr inqilabının ağır nəticəsi səbəb olmuşdu. Sevincimin ikinci səbəbi isə onda idi ki, on yeddi yaşım olsa da iki il idi ərdə idim; bacım Züleyxa isə məndən böyük olsa da hələ ərə getməmişdi və bu düzgün hal deyildi. Bu yerdəyişmə islam ən'ənəsinə, daha doğrusu el adətinə zidd idi. Bacımın yeni həyat yoluna, yüksəliş yoluna qədəm qoymasına sevinirdim.

— Bəs adaxlın kimdir, Qafqazlıdır?

Paris Rus imperiyasının hər tərəfindən gəlmiş köçkünlərlə dolu idi və bu adamların arasında bizim qafqazlılar da çox idi.

— Yox canım. Qafqazlı nəyimə gərəkdir? Mənim adamım ispandır, əsl katolikdir.

Mənim nitqim kəsildi, belə bir qərarla o, ən'ənəni pozurdu və özünə cəhənnəmdə yer seçirdi. Nəhayət özümə gəlib soruşdum:

— Bəs atam nə deyər?

— Necə, atam? Atam məni yeyəsi deyil ki! Axı mən böyüyəm, həm də ki, Bakı uzaqda qalıb, ən'ənə uzaqda qalıb, hər şey dəyişib. Atamdan nigaransansa, mən bu günlərdə onunla danışacağam, öz Jozem haqda söz açağam.

Onun bu arxayın danışığında gopçu ədası olduğunu duyurdum, amma onu da bilirdim ki, bacım cəsarətli qızdır. Özümün acizliyimlə onun cəsarətini müqayisə eləyəndə ona qibtə edirdim. Elə mənimkimi utancaqlıq edən Məryəm də dilləndi:

— Mən heç vaxt cəsarət etməzdim.

— Mən də bacarmazdım, — deyə onunla razılaşdım.

Mən nə dediyimi bilirdim. Axı bu acizliyin ən acı nümunəsini elə mən göstərməmişdimmi? Bu cəsarətsizlik mənə aman verməmişdi ki, Andrey Massarinə qoşulub qaçım. Andrey də xristian idi — özü də lap pisindən — o, inqilabçı idi, bolşevik idi! Mən ona qoşulub gedə bilərdim, amma qorxu məni iflic etdi, başqasına ərə getdim. Qorxu hissi mənim ən qəddar düşmənimdir və bəlkə də həyatımı korlayan elə o olub. Qorxuya o vaxt nifrət etdiyim kimi bu gün də nifrət edirəm.

Bə'zən biz öz həyat yolumuzda ehtiyatla, qorxa-qorxa gedirik, yolumuz haçalanır və biz gələcək taleyimizi həll edəcək iki yoldan birini seçməliyik. Bilmirsən sağa gedəsən, yaxud sola. Bilmirik xoşbəxtlik hansı səmtdədir, bədbəxtlik hansı səmtdə. Adamın bircə təsəllisi olur ki, seçilən yol təxminidir və hər şeyi zaman həll edir.

Züleyxa da yol ayrıcında idi və seçdiyi səmtdən razı idi. O, nə etdiyini bilirdi.

— Axı o xristiandır, — deyə dilləndim — İslam haqda onun heç bir mə'lumatı yoxdur. Bəlkə də islama nifrət edir. Axı xristianlarla müsəlmanlar daim döyüşüblər.

— Hə, deməli biz müsəlmanlar səhv etmişik — deyə Züleyxa əda ilə dilləndi və eyni əda ilə də siqaretinin külünü silkəliyib yerə atdı. Elə bil bu kül hicri tarixindən bəri vuruşmuş milyonlarla müsəlman və xristian döyüşçülərin üstünə səpələndi. Bu kül səkkiz Səlib yürüşünün axırıncı döyüşçülərindən olan, Kartaj yanında ölən Sən-Luinin üstünə; Jlzenin həmvətənləri, Morları İspaniyadan qovmuş sərt katoliklər Ferdinan və İzabelin üstünə; Lepant qarşısında türkləri məhv etmiş Avstriyalı Juanın qoşunlarının üstünə; Polşa kralı Jan Sobyeskinin qoşunları və Vyananı mühasirəyə almış türklərin və bir çox başqalarının üstünə səpələndi. Züleyxanın siqaretinin külü onların hamısının üstünü örtdü və onun Jozeyə olan məhəbbəti qanlı döyüşləri uşaq oyununa çevirdi.

Bəlkə elə doğrudan da əsrlər boyu həmin adamlar səfehlik edirmişlər? Məryəm soruşdu:

— Bəlkə ona getməklə səhv edirsən?

— Mən heç vaxt səhv eləmirəm. Həm də ki, ay zavallı geriqalmışlar, onu da bilin ki, altı aydır mən onun mə'şuqəsiyəm.

Bu sözlər bizim boğazımızı qurutdu. Biz gözlərimizi bərəldib Züleyxaya baxırdıq. Axı adətə görə Məkkənin Kə'bəsi müqəddəs sayıldığı kimi, toy gününə qədər qızın öz bakirliyini qoruması da vacib şərt sayılır. Mən həyəcanla qışqırdım:

Dəli olmusan, toydan əvvəl belə iş görərlər?

Hətta bibim qızı Gülnar da nə qədər pozğun olsa belə, toya qədər öz bakirəliyini saxlaya bilmişdi. Daha bundan da tə'sirli nümunə göstərmək olardımı?

— Bura bax, əzizim, — deyə Züleyxa iri bir qullab vurub, tüstünü eyni zamanda həm burnundan, həm də ağzından havaya buraxdı — əzizim, bir də yadına salmaq istəyirəm ki, bu göydəndüşmə Oktyabr inqilabı sayəsində biz indi Parisdə yaşayırıq və bütün yarasız ən'ənələr də zibilliyə atılıb.

Bir anlıq fasilədən sonra sözünə davam etdi:

— Yaxın günlərin birində səni onun e'malatxanasına apararam. O rəssamdır və yetkin bir sənətkardır. Bilmirəm bu xanım (o, başı ilə Məryəmə işarə edir) nə üçün onunla görüşmək istəmir.

— Özün bilirsən də… Şəmsi…

Məryəm bu sözləri deyib boynunu bükdü. Onun danışığında və hərəkətlərində kökdən gəlmə və şəraitdən yaranma bir müt'ilik vardı. Həm də qəddar ərlə hikkəli bacının arasında qalmışdı.

— Bəli, yenə görkəmli Şəmsi. Görəsən o, indi neçə qat aristokrat sayılır? Xristianla, hələlik pulu və ad-sanı olmayan bir rəssamla qohumluq söhbəti onu haldan çıxara bilər.

Züleyxa çiyinlərini oynatdı və sırğaları kiçik zənglər kimi cingildədilər.

— Siz Jozeni gözdən salmağa çalışa bilərsiniz, amma dəxli yoxdur, ona ərə gedəcəyəm. İşə bir bax, Azərbaycan aristokratiyası sənət adamına nifrət edir. Bir də yadınıza salmaq istəyirəm ki, bizim babamız daş-torpaq içində eşələnən adam idi və daşların arasından neftin fəvvarə vurması heç də onun böyük adam olmasını sübut etmir. Onu da yadınıza salmaq istəyirəm ki, həmin neftin sonuncu damlasına qədər hamısını əlimizdən alıblar və biz səfeh qaçqınlar nə qədər ümid etsək də, nefti bizə qaytarmayacaqlar. Bizə xoş xatirə və bir yığın ümiddən başqa heç nə qalmayıb. Bəli, əzizlərim, neft şahzadələrinin cibləri və qoltuqları ümidlərlə doludur.

Beləcə o, ağzını açıb, gözünü yumdu, özünəbağlılığa, həqiqi yaxud saxta aristokratlara, bütün dünyanın müsəlmanlarına qarşı hiddətlə danışmağa başladı. Sonra var-dövləti, dövlətlilərin rahat həyatını, gözəl və rəhmdil Allahın adından istifadə edib, bir-birinə hücum çəkən dinləri lə'nətlədi. Onun bu alovlu çıxışından duyulurdu ki, öz Jozesini doğrudan da sevir. Mən dörd il inqilabi şüarlar aləmində yaşamışdım, "din xalq üçün tiryəkdir", "insanın insan tərəfindən istismarı" kimi yalan-gerçək şüarlar hələ də qulağımda cingildəyirdi. İndi isə bacımın dediklərinə qulaq asdıqca, ona tərəf səmt alır, bə'zi sözlərinə haqq qazandırırdım.

Amma onun kimi iradəli və güclü olmadığımdan atamın sözündən çıxa biləcəyimi təsəvvürümə gətirə bilmirdim. Onun həbsdə olduğu vaxt isə sərbəstləşib Bakıdakı ideoloji təbliğatın tə'sirinə düşmüş, pencəyimin yaxasına Leninin şəkli olan nişan da taxmışdım. Amma mənim bu səfehliyim çox çəkməmişdi, məni başa salmışdılar ki, atası həbs olunmuş bir qızın yad bir atanın — bütün ailənin əzab və mərhumiyyətlərinə bais olmuş inqilab atasının şəklini gəzdirməsi ləyaqətsizlikdir. Mən Leninin əksini yaxamdan çıxarıb öz nəslimin qayğılarına qoşulmuşdum.

Unudulmaz günün həyəcan və təəssüratları sayəsində Parisdə ilk gecəni yuxusuz keçirdim. Bütün axşamı boşboğaz Şəmsinin yüngül söhbətlərinə qulaq asdıq. Çoxlu zarafat edir və gülüşürdük. At yarışı, tamaşalar, geyim dəbləri haqda danışır, birisinin sözlərin yada salır, yaxud da bir qadının əzlaqsızlıqları barəsində söhbət düşürdü. Mənzilin yaraşığı, analığımın gözəlliyi, evdəki tərbiyəçi və iki xidmətçinin rəftarı neçə ildən bəri unutduğum keçmiş rahatlığı yadıma salır, eyni zamanda "oradakı" həyatla fərqi nəzərə çarpdırırdı. Dağıdılmış vətəndə bu günki söhbətlərə kim ehtiyac duyardı? Əyninə keçirməyə paltar tapmayan adam geyim dəbi haqqında söhbət açardımı? Kimi isə həbsdən qurtarmağa çalışan bir kəsin heç ağlına gələrdimi eşqbazlıq haqqında danışsın? Orada dükanlar boş idi, elektrik işığına daha çox ehtiyac olanda işıq kəsilirdi, cürbəcür qorxulu şaiyələr əzablı həyatı daha da dözülməz edirdi.

Cəmisi üç ay əvvəl mən başqa bir planetdə, min illik islam ən'ənəsini qorumağa çalışan, amma qoruya bilməyən bir ailədə və inqilabi çağırışlar aləmində yaşayırdım. Mən həmin çağırışları eşitmişdim və əgər bir az da cəsarətli olsam başqa bir yol da seçə bilərdim. İndi isə tamam başqa bir dünyadayam və buradakı həyatın yumşaqlığı və şirinliyi məni inqilabi sərtlik aləmindən çəkib ayırırdı. İndi mən əzablar, xoşbəxtliklər, ölümlər, həyatlarla dolu bir dünyanın iki üzü arasındakı fərqi yaşamaqda idim. Bu iki üzdə çarpazlaşan milyonlarla, milyardlarla insan talelərini, təsəvvürə gətirilə bilməyən bir şeyi təsəvvürümə gətirmək istəyirdim. Məndə güclü həyat hissi oyanmışdı, yaşamaq, yanmaq, od içindən keçmək, bütün çeşmələrdən — zəhərli çeşmələrdən belə su içmək istəyirdim.

Belə güclü həyat eşqi yeni bir qüssəni, son illər tez-tez qəlbimə dolan qocalıq qüssəsini yadıma saldı. Hələ iyirmi yaşım olmasa da hər gün, hər saat qocaldığımı duyurdum. Yetkin qadınlar kimi üzümün cizgilərini yoxlayır, xırda cizgilərin iriləşəcəyi, dərinləşəcəyi anları təsəvvürümə gətirməyə çalışırdım. Nə vaxtsa dişlərim saralacaq, tökülәcək, görkəmim dəyişəcək, saçım ağaracaq, getdikcə qadınlıq hissini itirəcək, məhəbbətdən məhrum olacağam. Bir də ki, məhəbbət adlanan od parçası məni artıq yandırmışdı. Bu qısa ömrümdə mən onun yanğısını duymuşdum. Masarinə olan məhəbbətimi itirib, xoşum gəlməyən başqa birisinin məhəbbətnə ilişmişdim. Bir neçə gün sonra Cəmillə görüşə biləcəyimi fikirlə-

şəndə diksinib yerimdən qalxdım ağrıdan əzab çəkən xəstə kimi çarpayımın üstündə oturdum. İçin-için ağladım ki, Züleyxa yuxudan oyanmasın. O yəqin ki, yuxuda öz Jozesini görürdü, qarşılıqlı məhəbbətinin ləzzətini duyurdu. Görəsən o öz bəxtini tək öz arşını ilə ölçürdümü?

Mən həm öz yerimə, həm də bədbəxt ərimin əvəzinə ağlayırdım. Bu ər mənə özündən xəbərsiz əzab verirdi. Mən də ona əzab verirdim, amma hər ikimiz günahsız idik… Ey, deyəsən yenə də təkrara keçdim. Amma yenə fikirləşirdim ki, heç birimizin təqsiri yoxdur. Hər halda oun sevə bilmirdim, ona ancaq nifrət etməyi bacarırdım.

Parisdə inamsızlıq və sevinc, ümid və şübhə içərisində keçirdiyim ilk gecəin hələ bu gün də həyatımın dönüş anı hesab edirəm. Elə ertəsi gün mənim görkəmimdə ciddi dəyişikliklər aparmağa başladılar. Səhər analığımı salamlamaq üçün onun yataq otağına keçəndə, səhər yeməyini yarımçıq qoyub əlini saçlarıma və üzümə çəkərək dedi:

— Bir gör Bakı səni nə günə qoyub!

Zənnimcə, xeyir verə biləcək neft quyularından başqa Bakı ilə bağlı hər şey onun gözünə pis görünürdü. Əsasən şərqli görkəminə görə əhalisini vəhşi saydığı bu şəhər onu həmişə xoflandırır və qorxudurdu. Milli ən'ənələrə bağlı olan yeni qohumlarını da xoşlamırdı. Müsəlman ailəsində dünyaya gəlsə də atası Moskvada mühəndis işlədiyinə görə, o, da Moskvada təhsil almış, ancaq ruslarla təmasda olmuş, onların tə'siri altına düşmüş və dini kökü nəzərə alınmasa ruslardan heç nə ilə fərqlənməzdi. O, paytaxtı Bakı olan Azərbaycanı Rus imperiyasının bir parçası saymış, amma əhalinin etnik və dini əlamətlərini xoşlamamışdı. Görəsən atamla maddi maraq naminə evlənmişdimi? Bunu deyə bilmərəm. Atam bir şərqli obrazı kimi həm görkəmli, həm də yaraşıqlı kişi idi. Əgər atamla maddi maraq naminə evlənmişdisə, indi mə'lum olan və əvvəlcədən görünməyən səbəblərə görə uduzmuşdu. Əgər bura köçməklə qohumlardan canını qurtardığına sevinirdisə bu da nahaq idi. Çünki yaxın vaxtda kasıbçılıq içində acınacaqlı bir həyata başlamalı idi. Amma hələ bu gözəl yay səhəri belə bir gələcəyi görmək mümkün deyildi və analığım mənim şərqli görkəmimi parisli görkəmi ilə dəyişimək qayğısı ilə məşğul idi. O, diqqətlə mənə baxıb nəyi nə ilə əvəz etmək imkanlarını götür-qoy etdikdən sonra təkrarən dedi:

— Bircə gör Bakı səni nə günə qoyub!

Mən sıxıldım, çünki özüm də bilirdim ki, yaraşıqlı deyiləm, özümün də özümdən xoşum gəlmirdi. Mən öz zövqümə uyğun gəlmirdim.

— Onu elə bu saat dəlləkxanaya aparmaq lazımdır, — deyə analığım Züleyxaya göstəriş verdi.

Züleyxa məni Passi küçəsindəki dəlləkxanaya apardı. Burada cavan bir oğlan bacımla məsləhətləşdikdən sonra canfəşanlıqla işə başladı. O qəribə bir cəldliklə saçıma əl qatdı və bir az keçmiş başım yumrulaşdı, gözlərimin üstünə bir kəkil sallandı. Sonra isə Jana D'Arka oxşadım — deməli bir az fransızlaşdım.

Biz evə qayıdanda Əminə dedi:

— Çox gözəl, indi bir az yaxşılaşdın. Sənə bir neçə paltar seçmişəm. Amma gərək bu bədən qəlibini əyninə keçirəsən, əvvəl bir az sıxacaq, sonra öyrəşəcəksən.

Züleyxa fransızca və ədalı bir tərzdə dedi:

— Gözəlləşmək üçün gərək əzab çəkəsən.

— Doğrudur. Sənin budlarını və arxanı qəlibə salıb yığmaq lazımdır, — deyə analığım təsdiqlədi.

Qəlibin məni sıxmağı bir yana, o məni əzir, boğur, üzürdü. Mən çinlilərin ayaqkiçiltğmə ən'ənəsinin əzablarını duyurdum. Başqa çarə vardımı? Nə edəsən, biz yüksək cəmiyyət dəbinin qurbanaları idik və bu aləmdə səliqəsiz görünmək biabırçılıq sayılırdı. Mən sıxıla-sıxıla yeriyir, qəlibin dəmir boşluqları arasında əzab çəkirdim.

Böyük həvəslə və bütün Parisi mat qoymaq fikri ilə aldığım paltarı əlimdən aldılar. Bu paltar camaatı mat qoymuşdu, amma mən fikirləşdiyim mə'nada yox. Əminə öz qarderobundan seçdiyi paltarlardan birini mənə verdi. Bədənim qəlibdə olsa da bu don əynimə zorla keçdi. Paltar mənə çox sadə göründü, mənə qalsa onun üstünə qaytanlar, yaxalıq, heç olmasa təzə düymələr əlavə edərdim. Bu paltarı geyib hündür güzgüdən mənə baxan "Janna d'Ark" özümün xoşuma gəlmirdi. Mənim öz paltarım isə kamodun üstünə atılmışdı. Əminə onu göstərib dedi:

— Bu zibili Parisdə geyməyi heç ağlına da gətirmə!

— Gərək onu elə öz paltarında Doma aparaydıq.

Bu yeni sözün nə demək olduğunu anlamasam da, Züleyxa ilə analığımın şaqqana çəkib gülməsindən tutuldum.

Mən bilmirdim ki, "Dom" azacıq təsəvvürüm olan məşhur Monparnasın ən böyük kafesidir. Amma hər halda pərt oldum.

Doğrudanmı mənim geyimim və özüm elə kobuduq ki, kənar bir yerdə gülüş doğura bilərik?

Züleyxa dilləndi:

— Sən hələ bunun üzünə bax, ömründə bəzək görməyib.

— Hə ona üz-gözünü bəzəməyi də öyrətməliyik.

Onlar məni bəzək masanının arxasına çəkdilər, oturtdular və üzümü bəzəməyə başladılar: yanağıma qırmızı, göz qapaqlarıma mavi rəng çəkdilər, kipriklərimi qaraladılar, sonra üzümü yağladılar, daha gözəlləşdirmək istəyirdilər, onların xoş niyyətini başa düşürdüm; amma güzgüdə gördüyüm şəxs doğrudanmı mən idim? Üzümü bəzəkli bayram yumurtasına döndərmişdilər. Mən e'tiraz etmək istəyəndə Züleyxa üstümə qışqırdı:

— Ay kəndçi, bayaqdan rəngin dilənçi, xəstə rənginə oxşayırdı, indi sağlam adama oxşayırsan. Bilirəm, sən Tolstoyun qəhrəmanına oxşamaq istəyirsən, amma biz Parisdə yaşayırıq.

— Mən bu bəzəyi xoşlamıram.

— Kəndçi ki, kəndçi, — Züleyxa acıqlandı — Hələ bu ağılla Avropada yaşamaq istəyir.

Bəli, mən Avropada yaşamaq istəyirdim. Yaraşıqsız sifətlə də olsa burada yaşamaq istəyirdim. Sadəcə olaraq bu ilk günü güzgüsüz, bəzəksiz yaşamaq istəyirdim.

Günortadan sonra Məryəm bizə qonaq gəldi və o da bərbəzəyimi tə'riflədi:

— Tamam dəyişmisən. Bircə qalır qaşlarını səliqəyə salmaq. O da mənim boynuma.

O həmişə özü ilə gəzdirdiyi maqqaşını çantasından çıxartdı. Artıq tüklərə (bizdə artıq tükün olub-olmadığını Allah bilir) düşmən kəsilmiş bacım işə başladı. Məncə o öz qol-qıçının da xırda tüklərini yolur və yersiz sandığı hər tükü amansızlıqla çəkib çıxarırdı. Adətən sakit və təmkinli görünən bu xanım mənim qaşımı yolmağa başlayan kimi cəllada döndü. Başımı arxaya qatlayıb alnıma tərəf əyildi, cild və sərrast hərəkətlə qaşımın tüklərini yoluşdururdu. Gözlərim yaşarır və ağrıdan qışqırırdım. O isə işini görə-görə məni sakitləşdirir və deyirdi: "Bax, qurtarım, indicə qurtarırıq".

Bir təhər onun əlindən çıxa bildim. Tüklərin yeri göynəyirdi, qanıyan yerlər də vardı. Məryəm öz işindən razı idi, mən isə əldən düşmüşdüm. Bir gün ərzində çox cəfa çəkməli oldum.

Məryəmgil Massene küçəsində döşənəcəkli bir mənzil kirayə etmişdilər. Bizdən oraya piyada on dəqiqəlik yol idi. Onların gəlişi

ərəfəsində Şəmsi dəbdəbəli bir ev kirayə edibmiş. Sonra maddi imkanlarını nəzərə alıb, nisbətən ucuz evə, oradan isə daha ucuz evə köçmüş, nəhayət Massene küçəsində qərar tutmuşdular. Beləcə pillə-pillə aşağıya, ucuzluğa və kasıbçılığa enmək mühacirlərin ən'ənəsinə çevrilmişdi. Mənim valideynlərim də bu yolu keçmişdilər. Əvvəllər, atam hələ Azərbaycan Respublikasının naziri və vardövlət sahibi olduğu vaxt, Əminə buraya gələndə Şan-Elizedə çox bahalı bir ev kirayə edibmiş. Bakı bolşeviklər tərəfindən tutulduqdan və atam həbs olunduqdan sonra o, Pomp küçəsində kiçik bir evə köçməli olub. Daha sonra, bolşeviklərin hakimiyyətdə çox qaldığını və işlərin tamam korlandığını görəndə Lui-Buali küçəsindəki bu rahat mənzilə yığışmalı olublar. Yəqin ki, bu axırıncı rahatlığımız və pis günlərimizin başlanğıcı idi. Bircə ildən sonra bütün pillələri enmiş olacağıq.

Parisə gəlişimdən bir neçə gün sonra Züleyxa məni Jozenin görüşünə apardı. Joze Jan-Bualo küçəsindəki bir rəssam e'malatxanasında yaşayırdı və o vaxtlar həmin küçə bağlı-bağçalı kiçik evləri ilə kənd mənzərəsini xatırladırdı. Həyətə zəngli bir qapıdan girdik. Qapının üstünə "Dülgər-xarrat" sözləri yazılmışdı. Həyətdən taxta və kəpək iyi gəlir, taxta və mişar səsləri eşidilirdi. Həyətin sağ tərəfində qarşısı şüşəbənd olan kiçik bir ev vardı və bura Jozenin e'malatxanası idi. Bacım qapını döymədən (o buranı öz evi sayırdı) itələdi və mə'lum oldu ki, Joze qapını həmişə açıq qoyurmuş. Əvvəl Züleyxa sonra isə mən içəri keçdik. Mən həyəcanlı idim və cüz'i təsəvvürüm olan bir sənətkar həyatı ilə tanışlığa tələsirdim. Amma içəridəki qarışıqlığı, tör-töküntünü əşyaların üstündəki qalın toz qatını, cürbəcür rəng qablarının ətrafa səpələnməsini, səliqəsiz, pərakəndə yığılmış tabloları görəndə mat qaldım. Tabloların bə'ziləri ayaqlıq üstündə dayanmış, bə'ziləri mebelə söykənmiş, qalanları isə bütün divarı örtmüşdü. Dayaqlar üzərinə qoyulmuş böyük bir rəsm lövhəsi e'malatxananın çox hissəsini tutmuşdu. Bu lövhənin, mebelin və tabloların arasından keçməyə xüsusi məharət lazım idi. Sonralar Püs Bazarını görəndə bu bazarla Jozenin e'malatxanası arasında bir oxşarlıq duydum. Jozenin e'malatxanasıda dəstəyi qırıq qızdırıcını, bəlkə də Jozenin babalarından qalmış qədim bir xəncərlə yanaşı, paltarla boş şüşələri birbirinə qarışmış, kirəcdən düzəldilmiş vazadakı qızıl güllərlə simi qırılmış gitaranı çarpazlaşmış, ümumiyyətlə hər şeyi bir-birinə qa-

rışmış görmüşdüm. Bütün bu qarışıqlıqdan isə toz, yağlı boya və Jozenin bizim üçün hazırladığı qəhvənin iyi gəlirdi.

Qəribə tə'sir bağışlayan bu "qaraçı köçü"nün ortasında mənim gələcək yeznəm dayanmışdı: sol əlində rəng tanxtası, sağ əlində fırça, əynində cod parçadan şalvar, açıq yaxasından tüklü sinəsi görünən təmiz ağ köynək… Başının quruluşu yastı və geniş alnına görə qəribə görünürdü. Gözləri badamı, kipriklәri isə at kipriklәri kimi uzun idi. Kənardan baxanda o, yastı alnına, qıvraq bədəninə və enli kürəklərinə görə şəkillərdə gördüyümüz qədim misirliləri xatırladırdı. Daxilən isə Joze şən bir uşağa oxşayırdı və onun şənliyində sərtlik və kobudluq da duyulurdu. Onun danışıq tərzi də məni çaşdırmışdı; çox sərbəst danışırdı, küçə adamı kimi istədiyi sözü və ifadəni dilinə gətirirdi. Amma yeri gələndə nəzakətli olmağı da bacarırdı. Joze xoşqılıq və məzəli idi, şirin təbəssümü ilə lap şeytanın özünü də yoldan çıxara bilərdi. Onun peşəkarlıq keyfiyyəti məni elə məftun eləmişdşi ki, otağındakı yağlı boya ləkələri də rəssamlıq simvolu kimi görünürdü. Mənə elə gəlmişdi ki, sənətkar üçün səliqə və təmizkarlıq artıq bir işdir. Amma sonralar, səliqəli və təmizkar rəssamlarla da tanış olduqca, fikrimi dəyişdim.

Bizi görən kimi Joze rəng taxtasını və fırçanı yerə qoyub mənə yaxınlaşdı, satışa qoylumuş dayçanı yoxlayırmış kimi məi xeyli nəzərdən keçirib r azılıla dedi: "Yaxşı qızdır". Sonra isə qollarını açıb Züleyxaya tərəf getdi. Sonralar anladım ki, onun ovqat dəyişmələri öz təbiətinin məhsuludur və göz yaşı içində gülməyə başlayan körpənin ovqatına bənzəyir. Çox keçməmiş o, yumruğunu masanın üstünə çırparaq oradakı əşyaları lərzəyə saldı və deyingən bir səslə qışqırdı:

— Yaxşı! Yaxşı, bir de görüm sən atanla nə vaxt danışacaqsan…

Mənim ailəm sizinkindən əksik deyil, bəlkə də artıqdır; mən sizini kimi keçmiş neftçi ailəsindən deyiləm, amma…

Onun belə kobud danışmağı, ailəmizin keçmişini xatırlatmağı məni mat qoydu. Züleyxa isə sakitcə cavab verdi:

— Özün bilirsən ki, mane olan ailə deyil, dindir.

— Rədd elə bu sözü, nə dinbazlıqdır. Mənim ailəmin katolikliyi də elə sizin müsəlmanlığınız kimi başdansovdudur. Elə bilirsən ki, zavallı anam (o anasından danışanda həmişə "zavallı" sözünü də işlədirdi və bəlkə də anasının dul olduğuna işarə edirdi) sənin kimi bir… (o mənə baxıb duruxdu və başqa bir ifadə aradı) sənin kimi

bir xaricini ona təqdim edəndə sevinəcək?... Bəli, mən necə qərara gəlmişəmsə, sən də elə etməlisən.

Lovğa Züleyxanın öz sevgilisinin qarşısında belə bir vəziyyətə düşməyi məndə gizli bir sevinc hissi oyatmışdı. Deməli bizim yanımızda nə qədər lovğalansa da atamla üz-üzə durmağa da cəsarəti çatmırdı. Sonra Züleyxa vəziyyəti dəyişmək naminə ədalı bir səslə dedi:

— Bizim cəmiyyətdə belə arabaçı dil ilə danışmırlar...

— Hansı cəmiyyətdir o elə? Sən özün sizin vəhşi ən'ənələriniz haqqında mənə kifayət qədər danışmısan... Səni xəbərdar edirəm, balaca, sənin ikiüzlülüyünə çox dözəsi deyiləm. Ya atanı seçməlisən, ya da məni!

Belə sərt sonluqdan sonra söhbəti davam etdirmək olmazdı. Joze özünə bir stəkan qırmızı şərab töküb birnəfəsə içdi. Söhbətin ciddiliyinə inanmış və məğlub olmuş Züleyxa köksünü ötürərək dedi:

— Yaxşı, söz verirəm ki, sabah, yaxud o birisi gün... bəlkə də həftənin axırına qədər atamla danışacağam.

ALBER KAMYÜ (1913-1960)

Alber Kamyü 1913-cü ildə Əlcəzairdə anadan olub. Atası sadə bir kəndli idi, 1914-cü ildə müharibədə həlak olub və Kamyü demək olar ki, dünyaya göz açandan kasıblıq və rəzalət görüb. O əvvəlcə litseydə oxuyub. Sonra isə kasıb və bacarıqlı gənclərə ayrılmış təqaüd hesabına Əlcəzairdə universitet bitirib. Təhsildən sonra pul qazanmaq üçün çox işləyib və gənc yaşlarından vərəm xəstəliyinə tutulub.

Teatr sənətinə böyük maraq göstərən Kamyü bir teatr qrupu yaradır və müxtəlif tamaşalarda özü də aktyorluq edir. 25 yaşından Kamyü jurnalistik fəaliyyətinə başlayıb. Əvvəl Əlcəzairdə sonra isə Parisdə qəzet və jurnallarla əməkdaşlıq edib. İkinci dünya müharibəsi başladıqda o Müqavimət hərəkatına qoşulub.

Alber Kamüyə yazıçı şöhrəti gətirən onun iki ilk romanı 1942-ci ildə yazılmış "Yad adam" və 1947-ci ildə nəşr olunmuş "Taun" romanları olub.

"Taun" romanı da Fransanın faşistlər tərəfindən işğal olunduğu dövrdə və bu işğalın tə'siri altında yazılıb. Əsərdə insan fədakarlığı, başqalarını ölümdən qurtarmaq naminə öz həyatını hədə altında qoyan insanların fədakarlığı ilə eyni bəlaya daqeydliklə baxanları xudpəsəndliyi üz-üzə qoyulub. Taun xəstəliyi yayılmış, xarici aləmlə əlaqələri kəsilmiş bir şəhərdə müxtəlif təbəqə nümayəndələrinin iç üzü, mə'nəviyyəti açılır.

Müharibə illərində və müharibədən sonrakı ilk illərdə Kamyü bir sıra dram əsərləri ("Kaliqula" — 1994, "Anlaşılmazlıq" — 1944, "Düzgünlər" — 1950) hekayə və məqalələr də yazıb. "Kaliqula" pyesində qədim imperatorun qəddarlıq və şıltaqlıqları, onu əhatə edənlərin mütilik və ikiüzlülüyü böyük yazıçı məharəti və sərt ifadələrlə təsvir olunub.

Alber Kamyü öz fəlsəfi fikirlərini bir sıra roman və esselərində birüzə verib. Onun "Uçuruma eniş" romanı (1956) fəlsəfi romanlarının sonuncusudur. "Sisif əfsanəsi" və "Üsyançı adam" esselərində yazıçı həyatdakı uyğunsuzluqlardan və insanın üsyan ehtiyacından bəhs edir. Öz dövrünə, dövrünün tarixinə qarşı üsyankar kimi çıxış edən Kamyü inqilablar və müharibələr arasında fərq qoymur, insan qırğınına səbəb olan hər tarixi hadisəni ədalətsiz və zorakı adlandırır.

Gənc yaşlarından kasıblığın və səfalətin nə olduğunu duymuş Alber Kamyü kasıb kütləyə və dünya dəzhmətkeşlərinə rəğbətini gizləməyib. Lakin bu hisslər onu inqilabçı yazıçı səviyyəsinə çatdırmayıb və özünün dediyi kimi Kamyü azadlığın nə olduğunu Marksın əsərlərindən deyil səfalətin özündən öyrənib.

1957-ci ildə Kamyü Nobel mükafatına layiq görülüb. Üç il sonra, 1960-cı ildə isə məşhur yazıçı avtomobil qəzasında həlak olub.

Yazıçının "Taun" romanından bir parçanı oxuyun…

Kitabda söylənilən qəribə əhvalatlar 194…-cı ildə Oran şəhərində baş verib. Əslində əhvalatlar adilikdən çıxarılıb və yerləri dəyişdirilib. İlk baxımda Oran doğrudan da adi bir şəhər, Əlcazairin sahilində yerləşən fransız əyalətidir.

Əvvəlcədən e'tiraf edək ki, şəhərin özü yaraşıqsızdır. Görkəmi sakit görünsə də, onu başqa ticarət şəhərlərindən fərqləndirən cəhətləri sezə bilmək üçün xeyli vaxt lazımdır. Məsələn, göyərçini, ağacı, bağı olmayan, qanad çırpıntısı, yarpapq xışıltısı eşidilməyən bir şəhəri, öz sifəti bilinməyən bir yeri necə təsvir etmək olar? Burada fəsillərin dəyişməsini ancaq səmadan bilmək olur. Baharın gəlişi də ancaq havanın ətrindən və tacirlərin əyalətdən gətirib satdıqları gül dəstələrindən duyulur. Yayda istinin gücündən dam döşənəcəyi çox qurumuş evlər od tutub yanır, divralar boz küllə örtülür. Qapı-pəncərəni bağlayıb, evdə gizlənməli olursan. Payızda isə leysandan sonra hər yan palçıq olur. Ancaq qış gələndə xoş günlər başlayır.

Hər hansı bir şəhərin həyatı ilə maraqlananda gərək orada adamların necə işləməsini, necə sevməsini və necə ölməsini öyrənəsən. Bizim balaca şəhərdə isə bunların hamısı elə iqlimin özü kimi qarışıq və cansıxıcıdır. Yə'ni, burada adam darıxır və bu darıxmaya adət etməyə çalışır. Bizim şəhər camaatı çox işləyir, amma varlanmaq üçün işləyir. Əsasən ticarətlə maraqlanır, özlərinin dedikləri kimi, hər şeydən əvvəl işgüzarlıqla məşğul olurlar. Amma kiçik əyləncələri də yaddan çıxarmır, arvadbazlıq edir, kinoya gedir, dənizdə çimirlər. Belə əyləncələri, təbii olaraq, şənbə-bazar günlərinə saxlayır, həftənin qalan günlərini isə pul qazanmağa çalışırlar. Axşamlar işdən çıxanda tə'yin olunmuş vaxtda kafelərdə görüşür, bulvarda gəzişir, yaxud da öz eyvanlarında otururlar. Cavanların əylənlncəəlri çılğın və qısa olur, yaşlılar isə evlərdə toplşır, çoxlu pul qoyub, kart oynayırlar.

Fikirləşmək olar ki, bu cəhətlər ancaq bizim şəhərlilərə aid deyil, elə bütün müasirlərimiz belə yaşayırlar. Doğrudur, adamların bütün günü işləyəndən sonra qalan vaxtı kafe və qumarxanalarda pul xərcləmək, boşboğazlıq etməyə sərf eməli adi haldır. Amma elə şəhərər və ölkələr də var ki, oranın camaatı hərdən başqa işlər haqda da fikirləşirlər. Əslində, bu vəziyyət heç nəyi dəyişmir. Amma bir halda ki, fikirləşirlər, deməli, nəyinsə xeyrinə fikirləşirlər. Oran isə, əksinə, fikirləşməyən bir şəhərdir, yə'ni, əsl müasir şəhərdir. Bizim şəhərdə adamların necə sevişmələrini dəqiq təsvir etməyin əhəmiyyəti yoxdur. Kişilərlə qadınlar ya məhhəbətə qurşanır, az vaxtda biri-birini üzüb, əldən salır, ya da qoşalaşır, birgə ömür sürməyə başlayırlar. Orta vəziyyət isə, demək olar ki, yoxdur. Elə bu da xüsusi bir cəhətdir. Oranda da, başqa yerlərdə olduğu kimi, vaxt və fikir çatışmazlığı üzündən adamlar öz məhəbbətlərindən xəbərsiz olurlar.

Bizim şəhərin ən maraqlı cəhəti budur ki, burada ölüm də çətinliklə başa gəlir. Əslində, bu çətinliyi narahatlıq adlandırmaq daha düzgün olar. Xəstəliyi heç kim xoşlamır və hamı xəstəlikdən qorxur. Amma elə şəhərlər və elə ölkələr var ki, oarda xəstələrə xüsusi qayğı göstərirlər. Belə yerdə rahatca ölmək də olar. Xəstəyə qayğı və onun özünə kömək araması təbii bir haldır. Oranda isə iqlimin tə'sirinə, işgüzarlığa, mənzərənin yaraşıqsızlığına, axşamın tez düşməsinə və əyləncələrin yoruculuğuna dözə bilmək üçün sağlam can gərəkdir. Burada xəstə düşən tək-tənha qalır. Xəstə istidən od tutub-yanan divarlar arxasında tək can verdiyi vaxt şəhər əhalisi telefonlarla danışır, yaxud kafedə oturub, işgüzarlıqdan, müqavilələrdən, qəbzlərdən, xüsusi hesablardan söhbət açırlar. Belə quru, cansıxıcı bir yerdə can verən hər kəs ölümün necə əziyyətli və narahat oldutunu daha aydın duyur.

Sadaladığım cəhətlər bəlkə də şəhərimiz haqqında müəyyən təsəvvür yarada bilib. Geniş təsəvvür yaratmağa ehtiyac da yoxdur. Əsas məqsəd şəhərin yöndəmsiz ggörkəmini və əhalinin yöndəmsiz həyatını nəzərə çarpdırmaq idi. Adam ki, bir həyat tərzinə adət elədi, güzaranı da yüngülləşir. Bir halda ki, bizim şəhərimiz adətlərə rəğbətlə yanaşır, deməli, adət edib, yaşamaq olar. Amma şübhə yoxdur ki, belə həyat çox da gözəl olmur. Bizdə, heç olmasa, törtöküntülük yoxdur. Əhalimiz isə ürəyiaçıq, gülərüz və fəal olduğuna görə, bura gələn səyyahların haqlı rəğbətini qazanır. Gözəlliyi, yaşıllığı, heç qəlbi də olmayan bu şəhərə adam əvvəl-axır adət edir

və burada ilişib qalır. Onu da demək lazımdır ki, bu şəhər mənzərəli bir guşədə, yaraşıqlı təpələrin əhatə etdiyi boş bir düzəndə, gözəl dəniz mənzərəsi yaxınlığında tikilib. Adam təəssüf edir ki, şəhər arxası dənizə tikilib, dəniz görünmür, onu görmək üçün isə gərək dəniz kənarına qalxasan.

Dəniz kənarına gələndə mənzərə dəyişir. Bu ilin yazında baş verən əhvalatları, daha sonra şəhəri bürüyəcək və bizim nəql edəcəyimiz bəabəxtlikləri heç kəs ağlına da gətirməzdi. Bu əhvalatlar bə'zilərinə təbii, bə'zilərinə isə ağlasığmaz görünəcək. Amma əhvalatların şərhçisi gərək belə fikirlərə əhəmiyyət verməsin. Onun borcu budur ki, "əhvalat belə olub" deyə sözə başlasın. Çünki əhvalatın necə başladığını da bilir, bu əhvalatın bütün bir xalqı vəlvələyə saldığını da, minlərlə şahidin onun doğru sözlərinə rəğbət bəsləyəcəyini də.

Bu əhvalatı danışan adamın kimliyi lazımi vaxtda bilinəcək. Onun belə bir əhvalatda iştirakı da şərtidir. Əgər təsadüf onu əhvalatın iştirakçıları ilə görüşə çağırmasaydı, şahidlərin danışıqlarını yazıb götürməsəydi və özü bir növ bu əhvalata qarışmasaydı, belə bir hekayətə başlamazdı. Elə tarixçilər də əsərlərini bu cür yazırlar. Doğrudur, tarixçilər, hətta həvəskar tarixçilər də sənədlərə əsaslanırlar. Bu əhvalatı yazan adamın da öz sənədləri var: əvvəla, öz şahidliyi, sonra başqalarının şahidliyi, əhvalatın bütün iştirakçılarının söhbətlərini özü dinləyib, yazmalı olub və nəhayət, əld edə bildiyi yazılı sənədlər. İndi o həmən sənədlərdən müvafiq vaxtda istədiyi kimi istifadə etmək istəyir. O, həm də istəyir ki... Yox, deyəsən, giriş sözü uzun çəkdi. Əhvalatın özünü danışmağa başlamaq lazımdır. İlk günlərin təsvirinə isə lap az vaxt lazımdır.

x x x

Aprelin 16-da səhər həkim Bernar Ryö otağından çıxanda qapının ağzında bir siçovul ölüsü gördü. O, çəkinmədən ayağı ilə siçovulu kənara itələyib, pilləkənlə aşağı endi. Amma küçəyə çıxanda qapısı ağzıda siçovul görməsi onu təəccübləndirdi və o, ev nəzarətçisini xəbərdar etmək üçün geri döndü. Nəzarətçi təəccüblənməsindən duyulurdu ki, burada nə isə bir uyğunsuzluq var. Qapısı ağzında siçovul ölüsü görməsi onu ancaq təəccübləndirmiş, ev nəzarətçisini isə dəhşətə gətirmişdi. Nəzarətçinin fikri dəqiq idi: evdə siçovul yoxdur, vəssalam. Həkim onu inanırdı ki, ikinci mərtəbədə

siçovul ölüsü görüb. Nəzarətçi yenə sözündən dönmədi. Evdə siçovul yoxdur, yəqin həmən siçovulu çöldən gətiriblər. Bir sözlə, kim isə zarafat edib.

Elə həmin axşam Bernar Ryö evin koridorunda durub, qapısının açarını cibindən çıxardığı vaxt iri bir siçovul gördü. Heyvan koridorun qaranlıq küncündən çıxıb, səndələyə-səndələyə ona tərəf irəlilədi. Sonra dayandı, müvazinətini düzəltmək istədi, yenə irəlilədi, sonra dayanıb, yerində fırlandı, astaca ciyildəyib, yerə yıxıldı və burun dəliklərindən qan açıldı. Həkim bir az ona tamaşa edib, yuxarı, öz mənzilinə qalxdı.

O, siçovulun özü haqda fikirləşmirdi. Heyvanın burnundan qan fışqırması fikrini qarışdırmışdı.

Həkimin arvadı bir il idi ki, xəstələnmişdi. Ertəsigün onu dağa, müalicə evinə yola salmalı idi. İçəri girəndə gördü ki, arvadı onun tapşırığına əməl edərək çarpayıda uzanıb. Belə istirahətdən sonra sabahkı yolun yorğunluğu onu çox üzməzdi. Arvadı onu görən kimi gülümsədi və bu təbəssümü ilə "Özümü çox yaxşı hiss edirəm" demək istəyirdi.

Həkim masaüstü lampanın işığında arvadının ona təəf çevrilmiş sifətinə baxırdı. Otuz yaşa çatsa da, xəstələnsə də, gənclik təravəti hələ üzündən çəkilməmişdi. Bəlkə də xoş əbəssümü onu belə gənc göstərirdi.

Həkim dedi:

— Bacarsan, bir az yuxula. Şəfqət bacısı saat onbirdə gələcək, mən də sizi saat oniki qatarı ilə yola salaram.

Həkim arvadının azacıq tərləmiş alnından öpdü. O, qapıdan çıxana qədər arvadının zərif dodaqlarının təbəssümü çəkilmədi.

Ertəsi gün, aprelin 17-i, səhər saat səkkizdə ev xidmətçisi həkimin yolunu kəsib, şikayətləndi ki, kim isə yenə şit zarafat edib, girəcəyə üç siçovul ölüsü atıb. Özü də siçovullar al qanın içindədir və yəqin ki, onları iri dişli tələ ilə tutublar. Ev xidmətçisi ölü siçovulları bir müddət əlində sallayıb, qapı ağzında durmuşdu ki, bəlkə qonşulardan biri gülüb, öz zarafatını bir növ e'tiraf edə. Amma heç kimdən şübhələnə bilməmişdi.

Xidmətçi cənab Mişel deyinirdi:

— Eybi yoxdur, əvvəl-axır əlimə keçəcəklər.

Əhvalata marağı artmış Ryö bugünkü işinə ən kasıb məhəllələrdən başlamağı qərara aldı. Belə məhəllələrdə həyətlərin zibili daha gec daşınır, düz, tozlu küçələrin səkələri boyu zibil yeşikləri

gün qalxana qədər dolu qalır. Keçdiyi küçələrdən birində həkim tərəvəz tüllantıları, çirkli əskilər üzərinə atılmış on ikiyə yaxın siçovul ölüsü gördü.

Baş çəkdiyi birinci xəstə çarpayısında uzanmışdı. Mənzilin yeganə otağı həm yemək otağı, həm də yataq otağı sayılırdı. Xəstə üzgözü qırışlı, sərt baxışlı qoca bir ispan idi. Qarşısındakı örtüyün üstündə bir cüt xırda noxud küpəsi vardı. Həkim içəri girədə dirsəklənib, yerində oturmuş xəstə sinəgirlikdən nəfəsini yüngülləşdirmək üçün yenidən öz yerinə uzanmaq istəyirdi. Arvadı onun ehtiyacı üçün qab gətirirdi.

Həkim iynə vuranda qoca dilləndi:

— Hə, doktor, siçovullar çıxmağa başlayıblar, görmüsüzmü?

— Elədir, qonşular da üç siçovul ölüsü tapıb, — deyə arvadı əlavə elədi.

Qoca əllərini ovuşdura-ovuşdura dedi:

— Hə, yaman çıxırlar, indi zibil qablarının hamısında siçovul ölüsü var, acından qırılırlar!

Ryö hiss elədi ki, bu məhəllədə hamı siçovullardan danışır. O, xəstələrinə baş çəkib, evə qayıtdı.

Ev nəzarətçisi cənab Mişel qapıda ona dedi:

— Yuxarıya, sizə teleqram gətiriblər.

Həkim nəzarətçidən yenə siçovul görüb-görmədiyini soruşdu.

— Daha yoxdur! — deyə kişi cavab verdi. — Bilirsinizmi, həkim, mən lap tələ də qurmuşam. Bu əclaflar daha cəsarət eləmirlər.

Teleqramda həkimin anasının ertəsi gün gələcəyi xəbər verilirdi. Xəstə arvadı gedəcəyinə görə anası onun ev işlərinə kömək etməyə gəlirdi. Həkim evə girəndə gördü ki, şəfqət bacısı gəlib. Arvadı isə artıq ayaq üstə idi, paltarını geymiş, üzünə kirşan çəkmişdi. Həkim gülümsədi:

— Çox yaxşı, hər şey yaxşıdır.

Bir az sonra onlar vağzala çatdılar. Həkim arvadını çarpayılı kupeyə gətidi. Arvadı kupeni nəzərdən keçirdi:

— Bu kupe yəqin çox bahadır, eləmi?

— Belə lazımdır, — deyə əri cavab verdi.

— Bu siçovul əhvalatı nədir, danışırlar?

— Bilmirəm. Qəribə əhvalatdır, amma keçib gedəcək.

Sonra o arvadından üzürxahlıq elədi ki, ona yaxşı qulluq eləməyib, lazımı qayğı göstərə bilməyib. Arvadı isə başını bulayır,

onun nahaq belə danışdığını bildirmək istəyirdi. Həkim axırda dedi:

— Sən qayıdanda hər şey yaxşı olacaq. Biz yeni həyata başlayacayıq.

— Hə, elədir, — deyə arvadı sevincək cavab verdi, — biz yeni həyata başlayacayıq.

Bir az sonra isə arvadı arxasını ona çevirib, pəncərədən çölə baxırdı. Səkidə adamlar tələsir, biri-birinə toxunurdular. Lokomativin fışıltısı eşidilirdi. Həkim arvadını səslədi və dönəndə gördü ki, gözləri yaşlıdır. O mülayim səslə:

— Belə olmaz, — dedi.

Göz yaşları arxasından sıxıntılı bir təbəssüm sezildi. Arvad köksünü ötürdü:

— Çıx, get, hər şey yaxşı olacaq.

Həkim arvadını sinəsinə sıxdı. Yerə sönəndən sonra isə pəncərə arxasından ancaq onun təbəssümünü görə bilirdi.

— Özündən müğayat ol, xahiş edirəm, — deyə həkim dilləndi.

Arvadı onun dediyini eşidə bilmədi.

Vağzaldan çıxarkən səkidə Ryö, balaca oğlunun əlindən tutub, harasa tələsən müstəntiq Oton ilə üzləşdi. Həkim onun hara belə səfər etdiyini soruşdu. Qaraşın, ucaboy Orton həm yüksək cəmiyyət adamına, həm də müqəvvaya oxşayan bir kişi idi.

O mülayim səslə və qısaca cavab verdi:

— Valideynlərimlə dostluq görüşündən qayıdan zövcəm Orton xanımı qarşılamağa gəlmişik.

Lokomotiv fit çaldı.

— Siçovullar… — deyə müstəntiq sözə başladı.

Həkim qatara tərəf getmək istədi, sonra geri qayıdıb dedi:

— Hə, bilirəm, elə bir şey deyil.

Elə həmən andaca vağzal xidmətçisinin bir qutu siçovul ölüsü apardığını da nəzərdən qaçırmamışdı.

Həmən gün günortadan sonra qəbul vaxtı həkimin otağına bir cavan oğlan gəldi. Həkimə bildirmişdilər ki, o jurnalistdir və səhər də gəlib, onu soruşubmuş. Oğlanın adı Reymon Ramber idi. Qısaboy, enlikürək bir adamdı, ciddi sifəti, təmiz, ağıllı baxışları vardı. Ramber idmançı kimi geyinmişdi və davranışında sərbəst idi. O bir baş məqsədə keçdi. Bildirdi ki, Parisin məşhur qəzetlərindən birinin sifarişi ilə ərəblərin həyat şəraiti və sanitariya vəziyyəti barədə məqalə üçün tədqiqat aparır. Həkim sanitariya vəziyyətinin

yaxşı olmadığını bildirdi. Amma o, söhbətə girişməmişdən bilmək istəyirdi ki, jürnalist həqiqəti olduğu kimi yaza biləcəkmi?

— Əlbəttə, — deyə jurnalist cavab verdi.

— Mən soruşuram ki, siz əsaslı, geniş bir tənqidlə çıxış edə bilərsinizmi?

— Geniş yazacağıma inanmıram. Güman edirəm ki, geniş bir tənqid üçün əsas yoxdur.

Ryö sakitcə bildirdi ki, doğrudan da geniş tənqid üçün əsas yoxdur, amma Ramber bildiklərini çəkinmədən yaza bilər ya yox?

— Mən ancaq açıq söhbətləri qələmə alıram. Sizdən aldığım mə'lumatı başqa mə'lumatlardan üstün tutmayacağam. — Sonra jurnalist gülümsəyərək əlavə etdi: — Açıq söhbət Sən-Jüst dili ilə danışmaq deməkdir.

Ryö səsini qaldırmadan dedi ki, bu barədə bir şey bilmir, amma onun dili yaşadığı aləmdən bezikmiş, eyni zamanda ətrafdakıların zövqünə uyuşmuş, haqsızlığa və biganəliyə qarşı təkbaşına çıxış edən bir adamın dilidir. Ramber boynunu qısıb, həkimə baxırdı. Nəhayət, a ayağa qalxdı.

— Zənnimcə sizi anlaya bildim.

Həkim onu qapıya tərəf ötürdü:

— Məsələyə belə münasibətinizə görə sağ olun.

Ramber elə bil darıxırdı:

— Belə, — dedi, — mən başa düşürəm, vaxtınızı aldığıma görə məni bağışlayın.

Həkim onun əlini sıxıb dedi ki, indi şəhərdəki siçovul qırğını haqda bir məqalə yazılsa, maraqlı alınardı.

Ramber coşğun səslə dedi:

— Hə, bu məsələ məni maraqlandırır.

Saat beşdə həkim xəstələrə baş çəkmək üçün çıxanda pilləkəndə orta yaşlı, ağır gövdəli, yastısifət, pırpızqaşlı bir kişi ilə rastlaşdı. Həkim həmin kişini əvvəllər, evin axırıncı mərtəbəsində yaşayan ispan rəqqasların mənzilində görmüşdü. Jan Taru pilləkəndə, ayağı altında çapalayıb can verən bir siçovula baxa-baxa siqaret tüstüləyirdi. O, başını qaldırıb, sakit nəzərlərlə həkimə baxdı, salamlaşdı. Sonra da bildirdi ki, siçovulların çoxalması və bu vəziyyəti qəribə haldır.

Həkim cavab verdi:

— Hə, elədir. Amma adam lap bezikir.

— Bir yandan elədir, həkim, adam bezikir. Çünki, indiyə qədər belə şey görməmişik. Amma bu vəziyyət xoşuma gəlir, hər halda xeyrədir.

Taru əlini başına çəkib, saçını geriyə daradı, süstləşmiş siçovula bir də baxıb, gülümsəyə-gülümsəyə dedi:

— Həkim, hər halda bu ev xidmətçisinin işidir.

Küçəyə çıxandaca həkim evin qarşısında durmuş ev xidmətçisini gördü. O, qapının girəcəyinə söykənmişdi. Adətən çılğın görünən sifətində yorğunluq duyulurdu. Ryö ona içəridə gördüyü siçovul haqda danışanda qoca Mişel:

— Hə, — dedi, — bilirəm. İndi siçovul ölülərini iki-iki, üç-üç tapıram. Başqa binalarda da vəziyyət belədir.

Qoca yorğun və qayğılı idi. Könülsüz-könülsüz boynunu qaşıyıdı. Ryö onun əhvalını soruşdu. Aydın məsələdir ki, qoca vəziyyətindən şikayətlənə bilməzdi. Amma nə isə bir narahatlığı vardı. Özü deyirdi ki, son günlər bir az düşgünləşib. Siçovul əhvalatı onun əhvalını korlayıb, onlar yoxa çıxandan sonra işlər qaydasına düşəcək.

Amma ertəsi gün səhər, aprelin 18-də, həkim anasını vağzaldan gətirmək üçün aşağı düşəndə gördü ki, xidmətçi Mişelin əhvalı bir az da korlanıb: zirzəmidən dama qədər qalxan pilləkənin üstündə bir düjün siçovul ölüsü vardı. Qonşu evlərin zibil qabıları da siçovul cəsədləri ilə dolu idi. Həkimin anası siçovullar haqqında söhbəti eşidəndə heç təəccüblənmədi:

— Belə işlər olan şeydir, — dedi.

Həkimin anası ağsaç, qaragöz, mülayim baxışlı bir qadındı. O, oğluna üz tutdu:

— Səni görəndə sevinirəm, Bernar. Heç bu siçovul əhvalatı da sevincimə xələl gətirə bilməz.

Həkim isə öz-özünə fikirləşdi ki, doğrudan da anası yanında olanda hər iş ona asan görünür.

Amma o, sanitariya idarəsinə zəng etdi. İdarənin müdiri ilə tanış idi. Müdirdən soruşdu ki, həyətlərə, küçələrə səpələnmiş siçovul cəsədləri haqda eşidibmi? Müdir Mersye cavab verdi ki, eşidib, elə onun öz idarəsinin yanından əlliyə yaxın siçovul ölüsü tapıblar. Bu məsələnin nə dərəcədə ciddi olduğunu heç o özü də bilmir. Ryö bir söz deyə bilməzdi, fikirləşirdi ki, sanitariya idarəsi bir iş görməlidir. Mersye cavab verdi:

— Hə elədir, göstəriş olsa, yaxşıdır. Əgər məsləhət görürsənsə, mən çalışıb rəhbərlikdən rəsmi göstəriş alaram.

— Mən məsləhət görürəm, — deyə Ryö söhbəti kəsdi.

Xidmətçi qadın ona danışmışdı ki, ərinin işlədiyi iri bir zavoddan yüzlərlə siçovul ölüsü yığıblar.

Təxminən elə həmən vaxtdan şəhər camaatının nigarançılığı başlamışdı. Çünki, aprelin 18-dən başlayaraq zavodlardan, böyük anbarlardan yüzlərlə siçovul ölüsü tapılırdı. Bə'zən uzun-uzadı can verən siçovulları vurub öldürməli olurdular. Ətraf məhəllələrdən tutmuş şəhərin mərkəzinə qədər həkim hər yerdə, zibil qablarına doldurulmuş, yaxud keşkal boyu düzülmüş siçovul cəsədləri görürdü. Həmən gündən axşam qəzetləri də işə qarışdı. Yazırdılar ki, bələdiyyə idarəsi tə'cili ölçü götürmək fikrinə gəlib ya yox, əhalini bu bəladan qurtarmaq üçün bir tədbir tökəcəkmi? Bələdiyyə idarəsi isə hələ nə ölçü götürmüş, nə də tədbir tökmüşdü, amma idarə hey'ətinin yığıncağını çağırmaqla işə başladı. Sanitariya idarəsinə göstəriş verildi ki, ölü siçovulları hər səhər sübh çağı toplasınlar. Bütün siçovullar toplandıqdan sonra onları iki yük maşınına yığıb, zibilyandırma zavoduna aparsınlar və yandırsınlar.

Sonrakı günlərdə vəziyyət daha da ağırlaşdı. Ölü gəmircilərin sayı artırdı. Hər səhər daha çox cəsəd toplanırdı. Dördüncü gündən sonra siçovullar dəstə ilə açıq havada ölməyə çıxırdılar. Onlar kanalizasiya trubalarından, zirzəmilərdən çıxıb, uzun cərgə ilə səndələyə-səndələyə işıqlı yerə toplaşır, yerlərində fırlanır, adamların arasındaca yıxılıb ölürdülər. Gecələr həyətlərdə, kiçik küçələrdə can verən siçovulların iniltisi eşidilirdi. Səhər isə bağlarda, keşkal qırağında toplanmış cəsədlər tapılırdı. Hamısının burnunun ucu qanlı idi, bə'ziləri şişmiş və iylənmiş, bə'zilərə isə qaxaclaşsa da, bığ tükləri hələ yapıxmamışdı. Şəhərin içində, evlərin girəcəyində, həyətlərdə kiçik dəstələrlə toplanmış cəsədlər tapılırdı. Bə'zən inzibati binaların zallarında, məktəb həyətində, kafelərin döşəməsində də tək-tək cəsədlərə rast gəlirdilər. Əhali onları şəhərin ən mərkəzi yerlərində görüb, qorxuya düşürdü. Arm meydanında, bulvarda, Fron-dö Mer gəzinti sahəsində də siçovul ölüsünə rast gəlirdilər. Səhər tezdən hər yan cəsədlərdən təmizlənsə də, gün ərzində yavaş-yavaş şəhər siçovul ölüsü ilə dolurdu. Gecə vaxtı gəzinənlər bə'zən təzə ölmüş bir siçovulun yumşaq cəsədini tapdalayıb, diksinirdilər. Elə bil evlərimziin sancıldığı bu torpaq öz eyiblərini biruzə verir, həmişə onu içəridən qazımış kifir canlıları çölə çıxarıb, aləmə gö-

stərirdi. Həmişə sakit həyat sürmüş, indi, bir neçə gün ərzində çaxnaşmaya düşmüş kiçik şəhərimizin vəziyyətini təsəvvür edin. Elə bil həmişə soyuqqanlı olmuş sağlam bir adam birdən-birə coşub-qaynamağa başlamışdı.

İş o yerə gəlib çıxdı ki, Ransdoq agentliyi (xəbərlər, sənədlər, hər cür məsələ barədə mə'lumat verən büro) özünün radio xəbərlərində mə'lumat verdi ki, təkcə aprel ayının 25-də altı min iki yüz otuz bir siçovul ölüsü toplanıb və yandırılıb. Şəhərin vəziyyəti haqqında aydın təsəvvüyr verən bu rəqəm əhalinin həyəcanını bir az da artırdı. İndiyə qədər şikayətlənirdilər ki, şəhərdə iyrənc bir hadisə baş verir. İndi isə anlayırdılar ki, nə gələcəyi, nə də mənşəi mə'lum olan bu qeyri-adi əhvalatda nə isə hədələyici bir cəhət də var. Təkcə sinəgirliyə tutulmuş qoca ispan, əllərini ovuşdura-ovuşdura, sevincək bir səslə elə hey deyirdi: "Hə, çıxırlar, siçovullar çıxırlar".

Aprelin 28-də Ransdoq mə'lumat verdi ki, təxminən səkkiz min siçovul ölüsü yığılıb. Çaşğınlıq şəhəri bürüdü. Camaat ciddi tədbir görülməsini tələb edir, rəhbərliyi günahlandırırdı. Dəniz sahilindəki evlərdə yaşayanların bə'ziləri isə, çəkilib, dənizdə yaşamaq istədiklərlərini söyləyirdilər. Amma ertəsi gün mə'lumat agentliyi xəbər verdi ki, vəziyyət qəfildən dəyişib, sanitariya idarəsi gün ərzində xeyli az cəsəd toplayıb. Şəhər rahat nəfəs aldı.

Amma elə həmən gün günorta çağı Ryö maşınını evin qarşısında saxlayanda gördü ki, ev xidmətçisi irəlidəki tindən çıxıb, ağır addımlarla gəlir. Kişinin başı sallaq, qolları və qıçları aralı, addımları nizamsız idi. Qoca xidmətçi, bir keşişin qoluna girmişdi, həkim keşişi də danıyırdı. Bu adam keşiş Panelu idi, çox qabiliyyətli və mübariz bir din xadimi kimi hörmət qazanmışdı. Dinə biganə olanlar da ona rəğbət bəsləyirdilər. Həkim dayanıb, onları gözlədi. Qoca Mişelin gözləri parıltılı, nəfəsi xışıltılı idi, Kişi özünü pis hiss eləyib, havada gəzinməyə çıxıbmış. Amma boynunun, qoltuqaltı vəzilərinin və nazik yerinin dözülməz ağrısından geri qaytımalı olub və qayıda bilmək üçün keşiş Paneludan kömək istəyib.

— Vəzilərim şişib, — deyə qoca dilləndi. — Yəqin nə vaxtsa gücə düşmüşəm.

Həkim əlini maşının qapısından uzadıb, Mişelin ona tərəf əyilmiş boynunu yoxladı. Barmaqları ağac düyününə oxşayan bir şişə toxundu.

— Gedin, yatın yerinizdə, qızdırmanızı ölçün, günortadan sonra sizə baş çəkərəm.

Ev xidmətçisi gedəndən sonra Ryö keşiş Paneludan siçovul əhvalatı barədə nə fikirləşdiyini soruşdu.

— Hə! Zənnimcə epidemiyadır, — deyə keşiş cavab verdi və girdə eynəkləri arxasında gözləri güldü.

Nahardan sonra Ryö arvadının sağlamlıq evindən göndərdiyi teleqramı yenidən oxuyurdu ki, telefon zəng çaldı. Zəng edən onun keçmiş xəstələrindən biri, bələdiyyə idarəsinin işçisi idi. Bu kişi uzun müddət ürək damarının sıxılmasından əzab çəkmişdi və kasıb olduğuna Ryö onu pulsuz müalicə eləmişdi. O deyirdi:

— Bəli, yaxşı ki, yadınızda qalmışam. İndi söhbət başqa adam haqqındadır. Tez bura gəlin, qonşuma nə isə olub.

Kişi tövşüyə-tövşüyə danışırdı. Ryönün yadına ev xidmətçisi düşdü, fikirləşdi ki, sonra ona da baş çəkər. Bir neçə dəqiqə sonra o mərkzədən kənarda, Fedherb küçəsindəki alçaq bir evin qapısından keçdi. Təzə rənglənmiş və iy verən pilləkənin yarısında onu qarşılamağa düşən bələdiyyə xidmətçisi Jozef Qranla görüşdü. Qran təxminən əlli yaşlı, sarıbığ, ucaboy, donqabel, arıq bir kişi idi. O Ryönün qarşısına çıxdı:

— İndi vəziyyət yaxşıdır, bir az əvvəl elə bilirdim ki, can verir.

O, ağzını yaylıqla örtmüşdü. Binanın ikinci və axırıncı mərtəbəsində sol tərəfdəki qapının üstünə qırmızı təbaşirlə yazılmışdı: "Buyurun içəri, mən özümü asmışam".

Onlar içəri girdilər. Yıxılmış bir stulun üstündən kəndir sallanırdı. Masa otağın küncünə çəkilmişdi. Kədir havada yellənirdi.

— Onu kəndirdən vaxtından qurtarmışam. Qran sadə dillə danışsa da, dirənə-dirənə sözünə davai elədi. — Qapıdan çıxanda səs eşitdim. Sonra qapının üstündə bu yazını oxuyanda, bilmirəm necə izah eləyim, əvvəl fikirləşdim ki, zarafatla yazılıb. Sonra isə qəribə, demək olar ki, qeyri-adi bir inilti eşitdim. — O, başını qaşıya-qaşıya dedi: — Zənnimcə, boğazı kəndirə keçirib, sallanmaq əzablı işdir. Mə'lum məsələdir ki,belə anda çöldə dayanıb gözləmək olmazdı və mən içəri tələsdim.

Onlar başqa bir qapını itələyib, qonşu otağa keçdilər. Otağın özü işıqlı, döşənəcəyi isə kasıb idi. Qısaboy, gombul bir kişi dəmir çarpayıda uzanmışdı. O dərindən nəfəs ala-ala qızarmış gözlərini içəri girənlərə zillədi. Həkim dayandı. Ona elə gəldi ki, kişinin xırıltısı ara verəndə otaqda siçovul civiltisi eşidilir. Otağın künclərinə

diqqətlə baxandan sonra Ryö xəstəyə tərəf gəldi. Kişi nə çox hündürdən yıxılmış, nə də ağır zədə almışdı, boğaz damarları kəndirə tab gətirmişdi. Amma hər halda bir az boğulma qalmışdı. Kardioqramma çıxarmaq lazım idi. Həkim kanfora iynəsi vurub, dedi ki, bir neçə günə hər şey qaydasına düşəcək.

— Sağ olun, həkim. — Kişi xırıltılı səslə təşəkkür elədi.

Röy. Qrandan polis idarəsinə xəbər verib-vermədiyini soruşanda Qran çaşğın-çaşğın cavab verdi:

— Yox, deməmişəm, yox… Mən fikirləşdim ki, hər şeydən əvvəl…

— Düz fikirləşmisiniz. — Ryö onun sözünü kəsdi. — Mən özüm xəbər verərəm.

Bu vaxt xəstə hərəkətə gəldi, dirsəklənib oturdu, e'tiraz edib bildirdi ki, xəbər verməyinə dəyməz.

— Sakit olun. — Ryö onu arxayınlaşdırmaq istədi. — Burada elə bir iş yoxdur. Məsələ bundadır ki, mən xəbər verməyə borcluyam.

— Ah! — deyib, xəstə yerinə uzandı. Sonra qısa hıçqırıqlarla ağlamağa başladı. Bayaqdan kənarda durub, bığını didişdirən Qran çarpayıya yanaşdı:

— Yaxşı, cənab Kottar. Başa düşmək lazımdır ki, həkim bu işdə məs'uliyyət daşıyır. Məsələn, elə birdən ağlınıza gəldi ki, təzədən belə edəsiniz…

Kottar göz yaşı tökə-tökə dedi ki, daha belə iş görməyəcək, bu da bir ağılsızlıq idi, indi isə istəyi budur:

ondan əl çəksinlər. Ryö ona dərman yazdı və sonra dedi:

— Yaxşı, razılaşdıq. Xəbər vermərəm, iki-üç gündən sonra sizə baş çəkərəm. Bir də belə səfehlik etməyin.

Pilləkəni düşəndə həkim Qrana dedi ki, o polisə xəbər verəcək, amma rəisdən xahiş edəcək ki, istintaq üçün iki gün sonra gəlsin. Sonra əlavə etdi:

— Bu gecə onu nəzarətdə saxlamaq lazımdır. Ailəsi varmı?

— Ailəsini tanımıram. Amma mən özüm ona keşik çəkərəm. — Sonra o çiyinlərini çəkdi: — Düzünə qalsa, heç deyə bilmərəm ki, onun özünü tanıyıram. Amma gərək dar ayaqda bir-birimizə kömək edək.

Həyətə düşəndə Ryö künc-bucağa nəzər salandan sonra Qrandan soruşdu ki, məhəllədlə siçovullar tamam yoxa çıxıbmı? Bələdiyyə xidmətçisi dəqiq bir şey bilmirdi. Doğrudur, ona bu məsələ

barədə danışmışdılar, amma o, məhəllə söhbətlərinə məhəl qoymurdu.

— Mənim başqa qayğılarım var, — dedi.

Ryö onun əlini sıxdı. Həkim arvadına məktub yazmazdan əvvəl ev xidmətçisinə baş çəkməyə tələsirdi.

Axşam qəzetlərini satanlar qışqırışırdılar ki, siçovul basqını dayanıb. Ryö ev xidmətçisinin evinə girəndə gördü ki, kişi bir əli ilə qarnını, o biri əli ilə boynunu tutaraq, çarpayıdan aşağı sallanıb, güc verə-verə yerdəki ləyənə qırmızı bir maye qusur.

Xeyli qusandan sonra xidmətçi təngnəfəs, birtəhər dikəlib, yerində uzandı. Qızdırması otuz doqquz yarım idi, bədənindəki şişlər xeyli böyümüşdü, böyründəki iki qara ləkə getdikcə artırdı. Kişi daxili ağrılardan şikayətlənirdi:

— İçim yanır. Bu zibil məni yandırır.

O sözləri tam deyə bilmir, baş ağrısından yaşarmış və girdələşmiş gözlərini həkimə tərəf birtəhər çevirirdi. Həkim susub durmuşdu. Ev xidmətçisiinn arvadı ona yanaşıb, kədərli səslə soruşdu:

— Bu nə xəstəlikdir, həkim?

— Nə isə bir xəstəlikdir. Hələ bir söz deyə bilmirəm. Axşama qədər pəhriz saxladın və mə'dəsini təmizləyin. Çoxlu su verin, içsin.

Elə əslində ev xidmətçisi susuzluqdan yanırdı.

Evə qayıdan kimi Ryö şəhərin ən tanınmış həkimlərindən biri Rişara zəng vurdu. Həmkarı onun sualına belə cavab verdi:

— Yox, mən hələlik elə bir qeyri-adi hal görməmişəm.

— Yüksək hərarətli və daxili yanğılardan şikayətlənən xəstəniz yoxdur?

— Hə, var, iki nəfər bədənlərindəki şişlərin yanğılı ağrılarından şikayətlənir.

— Qeyri-adi hala bənzəyir?

— Hm… Bilirsinizmi, adi hal belədir ki…

Axşam üstü ev xidmətçisi sayıqlayır, qırx dərəcə qızdırma içində siçovullardan şikayətlənirdi. Ryö istədi şişlərdən birini yoxlasın. Xəstə ağrıdan "Ah, əclaflar!" deyə bağırdı.

Şişlər daha da böyümüş, bərkimiş, damar-damar olmuşdular. Xəstənin arvadı başını itirmişdi. Həkim ona dedi:

— Onu gözdən qoymayın. Vəziyyəti ağırlaşsa, mənə xəbər verin.

Ertəsi gün, aprelin 30-da, mavi, nəmli səmada ilıq bir meh oynayırdı. Külək şəhərin uzaq ətraflarından gül-çiçək ətri gətirirdi. Səhər tezdən küçədən gələn səslər də həmişəkindən şən və canlı idi. Bir həftə ərzində başına gəlmiş anlaşılmaz əhvalatdan yaxa qurtarmış balaca şəhərimiz üçün bu gün yeni bir gün idi. Arvadından məktub alıb, arxayınlaşmış həkim də ev xidmətçisinin mənzilinə düşəndə özünü gümrah hiss edirdi. Elə xəstənin qızdırması da səhər otuz səkkiz dərəcəyə enmişdi.

— Vəziyyət düzəlir, eləmi həkim? — deyə xidmətçinin arvadı soruşdu.

— Gözləyək, görək nə olur.

Amma günorta çağı xəstənin qızdırması qəfildən qırx dərəcəyə qalxdı, o ara vermədən sayıqlamağa və qusmağa başladı. Şişlərin ağrısı daha da artmışdı və elə bil ev xidmətçisi boğazını uzadıb, mümkün qədər başını bədənindən aralı saxlamağa çalışırdı. Arvadı çarpayının ayaq tərəfində oturub, yorğanın üstündən əlini ehtiyatla ərinin ayaqları üstünə qoymuşdu. O, həkimin üzünə baxırı. Həkim dedi:

— Qulaq asın, gərək onu ayrı yerdə tək saxlayaq və fərdi müalicəyə keçək. İndi xəstəxanaya zəng edərəm, tə'cili yardım maşını ilə apararıq.

İki saat sonra tə'cili yardım maşınında həkimlə arvad əyilib xəstəyə baxırdılar. Xəstənin ərp bağlamış ağzından kəsik-kəsik "Siçovullar!" sözü uçurdu. Onun bulaşıq dodaqları göyərmiş, göz qapaqları yumulmuşdu, şişdən sıxılmış nəfəsi qısa və xırıltılı idi. Bədəni asma xərəyin dibinə elə cummuşdu ki, elə bil xərək onun üstünü örtüb, yoxa çıxarmaq istəyir, yaxud aşağıdan, yerin dərinliyindən hansı bir qüvvəsə onu özünə tərəf dartırdı. Ev xidmətçisi gözəgörünməz, ağır bir yükün altında boğulurdu. Arvadı ağlayırdı:

— Deməli, daha ümid yoxdur, həkim?

Ryö bir az susub:

— O öldü, — dedi.

x x x

Ev xidmətçisinin ölümü, demək olar ki, qəribə, anlaşılmaz bir dövrə son qoydu və yeni, daha çətin bir dövr başladı. Bu yeni dövrdə təəccüb və anlaşılmazlıqlar yavaş-yavaş həyəcan və qorxuya çevrildi. Şəhərimizin əhalisi vəziyyəti görüb, anlasalar da, heç ağıl-

larına gətirə bilmirdilər ki, tale bizim balaca şəhərimizi siçovulların günəqarşıda qırıldığı və ev xidmətçilərinin qəribə xəstəlikdən öldüyü bir güşəyə çevirib. Bu məsələdə onlar səhv edirdilər və fikirləri dəyişməli idi. Əgər əhvalat indiyə qədər olmuşlarla bətsəydi, onlar yenə də əvvəlki adət-ən'ənələri ilə yaşamağa başlayacaqdılar. İş belə gətirdi ki, şəhərin ev xidmətçiləri də, varlı sakinləri də cənab Mişelin getdiyi yolla həyatdan getməyə başladılar. Elə həmən vaxtdan da qorxu və həyəcan şəhəri bürüdü.

ANRİ TRUAYA (1911-

Tanınmış müasir fransız yazıçısı Anri Truayanın əsl adfamiliyası Lev Tarasovdur. 1911-ci ildə Moskvada anadan olub. Vətəndaş müharibəsi dövründə, yeddi yaşında ikən o valideynləri ilə birgə Fransada böyüyüb və fransız vətədaşlığını qəbul edib, Fransa ordusu sıralarında faşizmə qarşı vuruşub, sonralar fransız yazıçıcı kimi məhşurlaşıb.

Sorbon Universitetinin hüquq fakültəsini bitirmiş Anri Truaya bir müddət Sena vilayəti prefekturasında işləyib sonra isə həyatını ədəbiyyata sərf eləməyi qərara alıb. Onun 1935-ci ildə nəşr olunmuş ilk romanı ("Yalançı sübh") "Populist roman" mükafatına layiq görülüb. 1938-ci ildə isə başqa bir romanı ("Hörümçək") Konkur mükafatını alıb. 1959-cu ildə Anri Truaya Fransa Akademiyasına üzv seçilib.

Anri Truaya böyük həcmli əsərlərinin bir hissəsini Rusiya həyatına həsr eləyib. Bundan başqa yazıçı Dostoyevski, Puşkin, Lermontov və Tolstoya həsr olunmuş monoqrafik əsərlərini də fransız oxucusuna təqdim etmişdir.

Bə'zi mütəxəssislərin yazdığına görə Truayanın fransız həyatına həsr olunmuş əsərləri daha təbii tə'sir oyadır. İşlək və bacarıqlı yazıçılar arasında özünəməxsus yer tutan bu yazıçını insan psixologiyası tədqiqatçısı adlandırmaq olar. Truaya qələminə mənsub olan romanların, hələlik az bir hissəsini oxumuşam. Hekayələrinin isə əksəriyyətinə bələdəm. Bu hekayələrin hər birində müəllifi əhatə edən cəmiyyətin nümayəndələrinin yeni və bizə çox qəribə görünən bir xüsusiyyəti üzə çıxır. Emil Zola Mopassanın hekayələri haqda yazırdı: "Onları oxuyarkən adam gülür, ağlayır və düşünür". Truaya hekayələrini oxuyarkən isə adam daha çox qüssələnir və düşünür. Onun hekayələrindəki yumor hissi adamı ürəkdən güldürə bilmir. Anri Truayanın hekayələri Mopassanın və Andre Moruanın hekayələrini xatırlatsa da burada pesimizm daha qabarıqdır.

Truaya yaradıcılığının əsasını onun romanları təşkil edir. "Səpin və biçin", "Ann Preday" və "Matəmli qar" romanları müasir fransızların güzaranından bəhs edən, rəğbət qazanmış romanlardır. Onun ən çox oxunan romanı isə "Eqletyer ailəsi" romanı sayılır. Bu əsərlərin heç biri hələlik dilimizə tərcümə olunmayıb Truayanın hekayələr kitabı isə oxucularımıza 1998-ci ildə təqdim olu-

nub. Kitaba Truayanın yazıçı kamilliyini sübuta yetirən bir sıra hekayələri salınıb.

Həmən hekayələrdən ikisini təqdim edirik.

Anri Truaya

ƏN YAXŞI MÜŞTƏRİ

Xoşbəxtlikdən, ər-arvad Öterplərin dükanı burjua qəbiristanlığının yaxınlığında idi. Dükanın qarşı tərəfi göz oxşayan tündyaşıl rəngə boyanmışdır. Sağ üzdəki vitrinə qızılı hərflərlə bu sözlər yazılmışdır: "Bir andaca əklil hazır olur. Mirvaridən, sellüloiddən, plastik kütlədən və qalaylı metaldan düzəldilir". Sol tərəfdəki vitrin şüşəsində isə başqa sözlər oxunurdu:

"Mərhuma hədiyyə, bir əklil üçün
Gəzib-dolanmayın bütün Parisi.
Ucuzunu alın,gözəlin seçin
Öterpin dükanı gözləyir sizi".

Bu sözlər müştəri tovlamaq, pul çəkmək üçün işlədilən başaldadan reklam deyildi. Ər-arvad Oterplərin bu dükana sahiblik etdikləri iyirmi beş ildən bəri ətrafdakı əklil dükanlarının hamısı bir-birinin ardınca onlarla rəqabət aparmaq fikrindən çəkindilər. Belə bir müvəffəqiyyəti qazanmaq üçün həm tacirlik məharəti, həm də zərif sənatkar zövqü köməyə gəlmişdir. Həmişə müştərini həm qiymətdən, həm də keyfiyyətdən razı salmağa çalışan Öterplər bütün əklil yeniliklərini ləngimədən tətbiq edirdilər. Düzünə qalsa dükanı madam Öterp idarə eləyirdi. O, hündür, arıq, əzələli, çənədən saz bir qadın idi. Altımış yaşlı, qısaboy, solğun və gözüqıpıq ərini də o işlədirdi. Eləki, o Viktor- deyə ərini çağırırdı, kişi sinəsinə revolver dirənmiş adam kimi diksinirdi. Arvad başına sığal çəkəndə isə, ər başını çanağında gizlədən qorxaq tısbağa kimi boynunu qısırdı. Satıcıları olmadığına və ərin bədəncə zəifliyinə görə qüvvə tələb edən işləri arvad öz öhdəsinə götürmüşdü. Dükanın dəmir çərçivəsini qaldırıb-endirir, iri qutuların qapağını açır mis və mərmər lövhələri pəhləvan gücü ilə dükana və çölə daşıyırdı. Xırdaca şüşə mirvariləri sapa düzməkdə isə Viktorun tayı-bərabəri yox idi. Matəm rəngli şüşəcikləri sapa elə məharətlə düzürdü ki, gəl görəsən. Madam Öterp qonşularına lovğalalnırdı ki, ərinin barmaqları mələkə barmaqları kimi bacarıqlı və zərifdir.

Bir axşam dükanın bağlanmasına az qalmış madam Öterp kassanın pulunu sayırdı. Elə bu vaxt yetmişi haqlamış çox arıq bir kişi

dukana girdi. Qayğılı görkəmi onu ciddi müştəriyə oxşadırdı. Kişini fikirdən ayırmaq üçün madam Öterp təmkinli səslə dilləndi:

— Nə buyurursunuz, cənab?

Kişi cavab verdi:

— Sizin əklillərə baxmaq istəyirəm.

— Buyurun, cənab, xahiş edirəm, — deyə madam Öterp şirin-şirin gülümsədi. — Əklillər sizə xidmət üçündür. Hansı qiymətə almaq istəyirsiniz?

— Qiymətin dəxli yoxdur.

Bu sözlərdən ürəklənmiş madam Öterp müştərini əklillərə tərəf apardı. Dükanın divarları boyu müxtəlif əklillər düzülmüşdü. Metal dəfnə budaqları, qırılmayan sün'i güllər, paslanmayan bənövşələr, ovxalanmayan sarmaşıqlar insan sədaqətinin əbədiliyinə işarə imiş. Hər cür cibə və hər cür zövqə uyğun əklil tapmaq olardı. Hərdən gözə çarpan təzə bənövşə topaları əklillərin tutqun görkəmlərini bir az canlandırırdı: "Mehriban anama", "Sevimli qardaşıma", "İstəkli atama", "Ən sevimli əmioğluma", "Ən istəkli bacıoğluma", "Süd bacıma", "Əvəzedilməz yeznəmə". Əklil üstündə həkk olunmuş bu qəmli ifadələr yan-yana düzülmüşdü. Təsadüfi hallarda müştəri matəm əklililnə başqa bir söz yazdırmaq istərdi.

— Özünüz görürsünüz ki, hər çeşiddə əklilimiz var, — madam Öterp dilləndi. — Hər məzmunda əklil taparsız…

Artıq sözlə müştərini incitməmək və eyni zamanda onun fikrini malın keyfiyyətinə cəlb etmək məqsədi ilə qadın həm küylü ifadələrdən çəkinir, həm də səsinə qüssəli bir ahəng calamağa çalışırdı. Madam Öterp təcrübədən yaxşı bilirdi ki, satıcının dövlətinin alıcının cibi hesabına yaranması fikrini müştərinin başından çıxarmaq asan iş deyil. Elə buna görə də nəzakət naminə öz marağını gizlətməyə çalışaraq ehtiyatla dilləndi:

— Bə'zən sizin kimi cənablar kədərin gücündən yaxşı əklil seçməyə imkan tapmır və gözünə çarpan ilk əklili alır. İxtiyarım olsa, sizə məsləhət görərdim ki…

— Mənə məsləhət verməyin, — kişi onun sözünü kəsdi.

İnciməklə arası olmayan qadın sözünə davam elədi:

— Zanbaq gülləri lap uzaqdan nəzəri cəlb edir. Amma bənövşələri elə düzürük ki, hüzürlü görkəmlə də göz oxşayırlar. Saxsı qızılgülü isə cavan ölmüşlərə və qadın rəhmətliklər üçün məsləhət gö-

rərdim. İcazə versəniz, mərhumla qohumluq əlaqəniz haqda soruşardım.

Bu sözləri eşidəndə namə'lum kişinin sifəti qüssədən daha da sərtləşdi. Baxışları bir nbqtəyə zilləndi. Ağzının yanlarında qırışlar göründü. Dərindən köksünü öğürüb mızıldadı:

— Qohumluq əlaqəm?

— Bəli, — madam Öterp cəld davam elədi. — Mərhum kişidir, ya qadın?

— Kişidir.

— Nəyinizdir?

Kişi çənəsini yuxarı qaldırdı və soyuq su fantanına bənzər baxışları qadının sifətinə zilləndi:

— Sizin sorğu-sualınız məni təəccübləndirir, madam.

— Bu, sorğu-sual deyil, madam Öterp mızıldadı. — Soruşub bilmək istəyirəm ki, əklili kim üçün alırsınız, əminiz oğlu, atanız, qardaşınız…

Bu ürəksıxan sadalamanı kəsmək üçün kişi əlini qaldırdı və dedi:

— Hərəsi üçün bir əklil istəyirəm.

— Başa düşmədim, — madam Oterp tövşüyə-tövşüyə soruşdu.

— Hər qohum üçün bir əklil, — kişi acıqlı səslə təkrar elədi.

— Ancaq kişi qohumlar üçün. Zənnimcə, hər şey aydındır!

Madam Oterp ağzının suyunu udub dilləndi:

— Aydındır, cənab. Deməli belə seçəcəyik: sevimli atama, sevimli qardaşıma, sevimli oğluma, sevimli bacıoğluma…

— Sevimli dayıma, — kişi acıqlı səslə davam elədi, — sevimli əmioğluma, sevimli dostuma, sevimli iş yoldaşıma, sevimli kirayənişimə, sevimli qayınatama, sevimli kürəkənimə! Bir sözlə, hamısına!

Kişinin burun körükləri həyacanla qalxıb - enirdi. Yanaqları da qızarmışdı. Qadın fikirləşirdi ki, ya havalı, ya da fetişistdir.

Bir az qorxuya düşmüş madam Öterp geriyə, kassaya tərəf çəkildi və ərini səslədi:

— Viktor!.. Viktor!

Viktor dükanın arxasında olduğuna görə arvadının səsini eşitmədi.

— Hə, nə oldu? — qəribə adam dilləndi. —

Razısınız ya yox, sifarişimə əməl edirsiz?

— Bəlkə sabaha qədər gözləyəsiniz? — deyib madam Oterp sözkəsərlik eləmək istədi.

— Yox, tələsirəm . Çox tələsirəm. Taksi gətirmişəm ki, əklillərin hamısın aparım. Razı deyilsinizsə, başqa dükana gedə bilərəm.

Kişi danışdığı vaxt madam Öterp götür-qoy eləyirdi. Müştəri qəribə adama oxşadığına görə bu boyda sifarişi rədd eləməyinə dəyərdimi? Həm də bu qorxulu adama e'tiraz eləsə o, zorakılığa da keçə bilərdi axı…

— Hə, nə oldu? Gözləyirəm, — deyə müştəri dilə gəldi.

— Razıyam, bu dəqiqə sizə xidmət edərəm.

Qorxudan tərləmiş madam Öterp əklilləri bir-bir götürüb taksiyə daşıdı. Maşının arxa oturacağına böyük bir ailəni xatırladlan əklillər qalandı. Ata əklili kürəkən əklilinin üstünə düşmüş, oğul əklili isə bacıoğlu əklilini sıxıb əzirdi. Madam Öterp hər cür yas mərasimlərinə xidmət etmişdisə də, bu kollektiv dəfnin fikiri onu çox narahat eləmişdi. Qəfildən nə isə tapmış kimi qışqırdı:

— Hə, bildim nə məsələdir! Sizin kişi qohumlarınızın hamısı qəzada həlak olub.

— Düz tapmısınız. Amma bir az tələsin. Dayı əklilini bir az rahat qoyun. O tərəfə qoyun! Mən sürücünün yanında oturacağam. — Bir an fikirləşib əlavə elədi: — Baba üçün də bir əklil verin.

— Babanız da vəfat eləyib?

— Deyirəmsə, deməli elədir!

— Yəqin yaşı çox imiş?

— Yüzə yaxın idi.

Arxayınlaşmış madam Öterp baba üçün də bir əklil və hesab kağızı gətirdi. Kişi vulu verdi, taksiyə minib şlyapasını düzəltdi. Maşın yola düşdü. Səkidə qalmış madam Öterp namə'lum səmtə uzaqlaşan əklillərin arxasınca qəmli-qəmli xeyli baxdı.

Dükana qayıdan kimi qadın ərini çağırdı. Əri isə şalvarını düymələyə-düymələyə arxa qapıdan içəri gəldi.

— Viktor! — arvad qışqırdı.

K işi diksindi, gözlərini döyə-döyə cavab verdi:

— Eşidirəm, gözəlim.

Qadın bütün əhvalatı ərinə danışdı. O, sözünü qurtaranda Viktor qaşqabağını töküb mızıldadı:

— Qorxulu əhvalatdır!

— Niyə ki? Bu zavallı qocanın bütün kişi qohumları qəzada həlak olub…

— Sən də onun bu qəza söhbətinə inanırsan? — Viktor arvadının sözünü kəsdi.

— Yox, fikirləşəndən sonra daha inanmıram. Sən ki daha bicsən, bəlkə bu sirri sən açа biləsən? Bəlkə həmkarlarımızdan biri öz dükanının mal ehtiyatını çoxaltmaq istəyir?

— Bu qiymətə kim ehtiyat mal alar? Zarafat eləyirsən? Nə qiymət salmaq istəyib, nə də on üçüncü əklili qanun üzrə havayı verməyi tələb edib. Burada məsələ başqadır. Səni dükanda nahaq tək qoymuşam. Bu adam yəqin sadist imiş.

— Sadist imiş?

— Bütün kişi qohumları üçün əklil alan adam ancaq sadist ola bilər. Yəqin yaxın vaxtda onları bir-bir, yaxud elə birdəfəyə öldürmək fikrindədir. Bizim əklillərimiz isə mərhumların qəbirləri üzərinə düzüləcək. Qorxulu məsələdir! Bu təhlükəni qarşısını mütləq almaq lazımdır. Tələsmək lazımdır. O adamın adını, ünvanını soruşmalın?

— Ağlıma gəlmədi.

— Taksini nömrəsini götürmədin?

— Vallah, yox.

Viktor narazılıqla ağzını marçıldatdı:

— Çox təəssüf! Gərək məsələni Simona söyləyək. O bizə məsləhət verər.

Öterpin bacısı oğlu Simon polis mə'muru idi. Elə həmin günün axşamı Viktor onu də'vət elədi ki, əhvalatı danışsın. Onların hər üçü dükanın anbarında oturdular. Ortada bir şüşə şərab və bir şüşə çoxdan qalma rom vardı. Simon rom içir, Öterplər isə şəraba güc vermişdilər. Dayısının söhbətinə qulaq asandan sonra Simon məşhur filosoflar kimi dərin fikrə getdi. Xeyli fikirləşəndən sonra başını silkələdi və dedi ki, çox qəribə əhvalatdır və onun bildiyinə görə heç bir qanun məcəlləsi hər hansı müştəriyə bir neçə əklil almağı qalağan saymır. Həmən əhvalat cinayət xarakteri daşımadığına görə şübhəli bir adama qarşı da olsa istintaq aparmaq mümkün deyil.

— Axı, bu adamın bütün bir kollektivə qarşı cinayət hazırladığına və bu məqsədlə bizim əklillərimizi aldığına şübhəmiz qalmayıb, — deyə madam Öterp qışqırdı.

— Biz onu, ancaq cinayət baş verəndən və həyata keçiriləndən sonra həbs edə bilərik, — Simon mə'nalı-mə'nalı cavab verdi. — Qanun belədir.

Madam Öterp boğazını cırıb Simona sübut eləməyə çalışdı ki, on-on beş nəfərin həyatı təhlükədədir. Simon isə yaxasını ələ vermədi, rom şüşəsini boşaltdı, bığını silib dayısıgildən ayrılmazdan əvvəl dadlı rom üçün öz təşəkkürünü bildirməyi də unutmadı.

Polis mə'murunun soyuqqanlılığı Viktoru arxayınlaşdırdı və o fikirləşdi ki, rəsmi geyimli polis işçisi bu əhvalatı unutmağı məsləhət görürsə, daha o, məs'uliyyət daşımır. Madam Öterp isə qadınların çoxu kimi qanun məcəllələrinə biganə olduğu üçün gecəni çox pis keçirdi. Ailə çarpayısında şirin yuxuya dalmış Viktor arxayın-arxayın xoruldadağı vaxt arvadının qaranlığa zillənmiş gözlərinə qəribə mənzərələr görünürdü. Dünənki müştərisi gözləri qarşısından çəkilmirdi. Onun sifətinin cizgiləri, geyimi də gözləri önündə canlanır, qorxulu cinayətin izləri görünürdü. Qaranlıq və sükut isə bütün bir ailənin doğranılması səhnəsini ön plana çəkirdi. Həmən anda qadının gözləri qarşısında çoxlu əklil almış kişi barmaqları ucunda otaqları gəzir, beşikdə körpələri boğur, ağsaqqal babaların qarnını yırtır, ülgüclə dayıların və bacıoğulların boğazını kəsir, yuxulu qardaşının başını əzir, köməksiz atanın başını bədənindən ayırır, bir əmioğlunu tikə-tikə doğrayır, kürəkənini axtalayır, dağılmış beyin və laxtalanmış qan içində şaqqanaq çəkib gülür.

Ertəsi gün qadın bütün qəzetləri aldı ki, birinci böyük cinayət haqda məqalələri oxusun. Baş məqalədən tutmuş kiçik e'lanlara qədər bütün yazıları oxusa da kiçik intiharlar və həvəskar suiqəsdlər haqda mə'lumatlardan başqa ciddi bir yazı tapmadı. Deməli, məşhur cani hələ əməliyyata başlamamışdı. Hələ hazırlıq görürdü. İşə arxayınlıqla başlamaq istəyirdi. Madam Öterp isə and içmişdi ki, öz tədqiqatını zəiflətməyəcək. Səhər və axşam qəzetlərini onun kimi diqqətlə və ciddi oxuyan yox idi.

Bir ilə yaxın vaxt keçsə də qəribə müştəri haqda mə'lumat olmadı. Çoxdandır ki, madam Öterp öz axtarışını ərinə bildirmirdi. Özünü elə göstərirdi ki, keçmiş, nahaq nigarançılığına özü də gülmək istəyir. Amma ürəyində əmin idi ki, böyük cinayət, günün günortaçağı və ən gözlənilməz bir anda baş verəcək.

Bir cümə axşamı Viktor tə'cili bir sifarişi hazırladığı vaxt madam Öterp ağzına sərinlədici konfet alıb, tikməli şalını başına salıb dükanın qarşısında oturmuşdu. İstəyirdi bir az təmiz hava qəbul eləsin. Cəmi beşcə dəqiqə oturmamış qarşıdakı səkidə divara sürtünə-sürtürə irəliləyən qara geyimli qorxulu bir adam gördü. Madam Öterpi elə bil ildırım vurdu. Fikirləşməyə aman tapmamış

ayağa qaldı, o biri səkiyə keçib namə'lum adamı izləməyə başaldı. Heç nədən xəbəri olmayan namə'lum kişi ağır addımlarla irəliləyirdi. Onun kürəyi donqarlaşmış, əlləri dizinə qədər sallanmış, gözləri arxayın adamlar kimi sağ-solu süzürdü. Amma madam Öterp xarici görkəmə aldananlardan deyildi. Sevinirdi ki, ərinin laqeydliyinə və polisdə işləyən bacıoğlusunun qanmazlığına baxmayaraq, o özü qorxulu adamın izinə düşüb. Əgər uzun müddət izləməli olsa da, kişini bir an belə gözdən buraxmaq fikrində deyildi. Gərək onu məcbur edə ki, hər şeyi boynuna alsın. Madam Öterp cəsarətini toplayıb küçədə kişinin yolunu kəsmək istədiyi vaxt kişi şlyapasını çıxarıb kiçik bir mehmanxananın qapısından içəri girdi. Madam Öterp də içəri keçdi. Kişi pilləkənləri tövşüyə-tövşüyə qalxdı. Kişi kiçik bir koridora buruldu, qadın küncə qısılıb izlədi. Kişi qapısını açanda qadın gizləndiyi yerdən çıxıb qışqırdı:

— Dayan görüm!

Kişi girəcəkdəcə donub qaldı. Gözləri təəccübdən bərəldi, ağzı açıla qaldı.

— Qoyun keçim içəri, — qadın hökm elədi. Sonra isə kişinin cavabını gözləmədən otağa cumdu. Bura, yönsüz, divarlarının köhnə kağızı rəngdən düşmüş bir otaqdı. Otaqda bir mis çarpayı və bambuk çubuqlarından duzəlmə pərdə arxasında gizlədilmiş kiçik əlüzyuyan vardı. Böyüklər, kiçiklər, dostanış üçün alınmış əklillər pərakəndə bir şəkildə divar boyu düzülmüşdü. Bircə dəfə baxan kimi madam Öterp gördü ki, əklillərin hamısı hələlik buradadır. Deməli, vaxtında gəlibmiş. Qadınnı burun körükləri həyəcandan qalxıb-eməyə başladı.

— Sizə nə lazımdır, madam? — kişi qapını örtərək mızıldadı. — Mən sizi tanımıram.

— Mən isə sizi tanıyıram, — qadın təntənəli səslə cavab verdi. — Deyin görək adınız nədir?

— Adım Moris Ballotendir.

— Ailə vəziyyətiniz?

— Subayam.

— Yaşınız?

— Yetmiş yaşım var… Yaxşı, nə ixtiyarla məni sorğu-suala tutmusunuz?

Moris Balloten qadının qarşısında donub qalmışdı. Bıçaq kimi iti, iri burnunun hər iki tərəfindən solğun sifətinin qırış-qırış əti sallanırdı. Qüssəli gözləri dolmuşdu. Pencəyinin düyməsinə ilişdir-

diyi sol əli titrəyirdi. Amma madam Öterp məşhur yazıçıların əsərlərindən oxuyub öyrənmişdi ki, zahirən halsız görünən bə'zi qocalar pələng kimi güclü və cəld olurlar. Hər cür təhlükəyə qarşı hazır dayanan madam Öterp müsahibinin hərəkətlərini gözdən qoymurdu. Kişi qapıya tərəf addım atmaq istəyəndə o qışqırdı.

— Tərpənməyin!

— Yaxşı, madam, mən ki, öz evimdəyəm, yə'ni ixtiyarım yoxdur ki…

— Sizin heç bir ixtiyarınız yoxdur. Siz mənim ixtiyarımdasınız. Əklilləri sizə mən satmışam.

Bu sözləri eşidəndə Moris Balloten əlləri ilə üzünü örtdü və elə bil havasızlıqdan dizləri büküldü. Madam Öterp şikarını yerə sərmiş ovçu kimi arxayınlıqla davam elədi:

— Bəli. Əvvəlcə sizin o gen-bol bazarlığınızın səbəbini anlamamışdım. Amma işin nə yerdə olduğunu çox tez duydum. Ciz canisiniz. Bütün qohum-əqrəbanızı və dost-tanışınızı qırmağa hazırlaşırsınız. Polisə xəbər verilib…

— Polisə xəbər verilib? — Moris Balloten mızıldadı.

Kişi yaxındakı kürsüyə əyləşdi. Qadın onun sifətini görmürdü. Amma hıçqırıb ağladığını eşidirdi. Bu hıçqırıq səsləri qadını ilhama gətirdi.

— Polisə nahaq xəbər vermisiniz, — kişi hıçqıra-hıçqıra dillləndi. — Mən cinayət törətmək fikrində deyiləm. And içirəm…

— Çox istərdim inanım, — qadın kinayəli səslə cavab verdi. — Yaxşı, onda deyin görək, bütün bu əklilləri məndən nə məqsədlə alırdınız?

Kişi başını qaldırdı. Onun qoca, qırışlı, islaq sifəti y ağış altda qalmış əsgiyə oxşayırdı. Saralmış dişlərini alayarı örtmüş dodaqları titrəyirdi. O, çaşqın-çaşqın dilləndi:

— Burada… burada bir sirr var… amma gərək sizə danışım… Məsələ belədir… Mən qocalmışam… Ağır ürək xəstəliyim var… Həkimlər hökmü üzümə oxuyublar… Bir neçə ay, bəlkə də bir neçə gün ömrüm qalıb… Sözün qısası, indi, ancaq öz ölümüm və dəfnim haqda fikirləşirəm. Mənim heç kəsim yoxdur. Nə qohumum, nə də dostum var, təkəm. Bəli, təkəm… Sahibsiz cənazənin küçə ilə aparılmasını təsəvvür edin — nə bir dəstə gülü var, nə müşayiət edəni — kimsəsiz, heç kəssiz bir cənazə… Belə bir dəfndən yaxa qurtarmaq üçün özümə əklillər aldım ki, baxan desin bunun da qohum-əqrəbası, dost-tanışı var. Aldığım əklillər atanın, babanın, qarda-

şın, oğulun, əmioğlunun, dayının, kürəkənin, həyat yoldaşının, dostun kədərini əvəz edəcək… Mən əvvəlcədən qəbrim üstünə sün'i göz yaşları hazırlamışam. Əklilləri alandan bir az arxayınlaşmışam. Ürəyimə bir istilik çöküb. Mənə elə gəlir ki, doğrudan da ölümümə heyfsilənənlər olacaq.

Həyəcandan boğazı qurumuş madam Öterp cinayətkar saydığı bu adama, şair qəlbli qocaya baxa-baxa qalmışdı. Kişi dodaqucu mızıldandı:

— Yəqin məni səfeh hesab etdiniz… bağışlayın məni…

— Yox, siz məni bağışlayın, — madam Öterp köksunü ötürdü.

Sonra o, Moris Ballotenin əllərini öz əllərinə alıb sıxdı, güclü barmaqları ilə ovuşdurdu. Bu səmimiyyətdən sonra onların baxışları bir-birinə zillənib qaldı. Nəhayət, madam Öterp dilləndi:

— Sabah axşam yeməyinə bizə gəlin, daha yaxından tanış olarıq.

Beləliklə, Moris Balloten Öterplər ailəsinin ən yaxın dostuna çevrildi. Kişi özünün gözlədiyi kimi bir neçə ay sonra vəfat elədi. Onun dəfni yol keçənləri təəccübləndirdi.

Dəfn maşınının arxasınca ancaq ər-arvad — Öterplər gedirdi. Amma cənazənin üstündə saxsı mirvarilərlə, misdən və sintetik mallardan kəsilmiş yarpaqlarla hörülmüş bir qalaq əklil vardı. Mavi lentlər üzərindəki yazılar böyük, vəfalı bir nəslin qəmqüssəsini izhar eləyirdi. Bütün bu əklillər qalağı üzərində baha böyük bir əklil vardı. Həmən əklili mərhuma ər-arvad Öterplər bağışlamışdı. Əklil lentinin üstündə isə qızılı hərflərlə sadə sözlər yazılmışdı: "Ən yaxşı müştərimizə".

Anri Truaya

NARAHATLIQ

Madmazel Paskalın sifəti arıq, ovurdları batıq idi. Burnu vəhşi quş dimdiyi kimi yastılanmışdı. Saçların arxaya darayır, boynunun dalına toplayıb sancaqlayırdı. Tünd rəngli donlarının yeganə bəzəyi iri bir sancaq və üzərində gül düyməsi həkk olunmuş parıldayan daş lövhəcik idi. Madmazel Paskal deyirdi ki, bu, "Əfqanıstan daşı"dır. Çiyninə tikmələri didilmiş şal salırdı. Hərəkətləri sərt idi. Adamla elə cəld əl verib görüşürdü ki, elə bil adət etdiyi qapının dəstəyini burudu.

Beş il idi ki, madmazel Paskal beynəlxalq əmlak mühafizəsi və əmlak qəbulu nazirliyinin hüquq bölməsində müdir müavini işləyirdi. İdarədəki xırda dedi-qodu onun irəliləməsini ləngitmişdi. İndi iş yoldaşlarının ədalətsizliyinə bələd idi, ömrünü qoruya bilirdi. Hər vasitə ilə onu incitməyə çalışırdılar. Onun bölməsinə üç-dörd nəfər işçi tələb olunurdu. Amma bircə nəfər vermişdilər, o da fərsiz idi, işin öhdəsindən gələ bilmirdi.

Köməkçinin adı Hüş idi. Saralmış sifətində səfeh bir ifadə vardı, dodaqları sallaq idi. Qırmızımtıl bığları burnunun altına yapışdırılmış poçt markasına oxşayırdı. Həmişə soyuqdəyməli olurdu. Madmazel Paskal deyidi: "O, ibtidai adamlara oxşayır; içən deyil. Əgər içən olsaydı, ağzından iy gələrdi". O işçisinə kin bəsləyir, onunla yalnız idarə işləri barədə danışır, ən ağır işləri ona tapşırırdı.

Otaqda üz-üzə qalmaqdan bezikəndə isə onu nazirliyin uzaq bir küncünə göndərirdi. Onların masaları üz-üzə qoyulmuşdu. Otaq elə darısqaldı ki, masaların yerini dəyişmək də olmurdu.

Bir gün Hüş işə bir saat gecikmişdi. O, üzünü səliqə ilə qırxmış, təzə paltar geymişdi. Yeniyetmə oğlan kimi utancaq-utancaq gülümsəyirdi. O, sakitcə üzrxahlıq etdi:

— Bu gün günortadan sonra beynəlxalq əmlak mühafizəsi və əmlak qəbulu nazirliyinin həvəskar rəssamlarının ikinci sərgisinin açılışıdır.

O, nəfəsini dərmək üçün fasilə verdi, sonra gözlərini yerə dikdi, dodaqlarını irəli uzatdı və nazlana-nazlana eddi:

— Mənim də rəsmlərim göstəriləcək.

Bu xəbər madmazel Paskalı təəccübləndirdi. Onun üzündə bir çaşqınlıq vardı. Bilmirdi maraqlansın, rəhmdillik etsin, yoxsa acıqlansın. Axırda dedi:

— Yaxşı, mən də gəlib baxaram.

— Birinci mərtəbədədir, Cambetta foyesində. Giriş də pulsuzdur.

— Çox gözəl! Amma daha vacib işlər də var. Cənab Qardobutun "Filan milli cəmiyyəti"nin müdiriyyəti tərəfindən xüsusi nəzarət haqqının ödənilməsi barədə məktubuna cavab yazdınızmı?

Cənab Hüşün qolları yanına düşdü, boynunu büküb masasının qarşısında durdu. Madmazel Paskal isə onu məs'uliyyətli olmağa çağıra bildiyi üçün sevindi.

Saat beşdə madmazel Paskal vacib bir işə yekun vurub birinci mərtəbədəki rəsm əsərləri sərgisinə baş çəkməyi qərara aldı. O, çiyninə şalını düzəltdi, saçlarını qaydaya saldı və açıq dənizdə üzən gəmi kimi otaqdan çıxdı.

x x x

Həvəskar rəssamların ikinci sərgisi birinci mərtəbədəki bozumtul, soyuq salonda açılmışdı. İçəri girən kimi adamı kilsə sükutu bürüyürdü. Tamaşaçı az idi, ehtiyatla gəzinir, xəlvət-xəlvət pıçıldaşırdılar. Madmazel Paskal xeyirxah bir təbəssümlə tablolara yanaşdı.

Rəsmlərdə qürubun qırmızımtıl, mülayim rəngləri, Britaniya sahillərində qara qayalara çırpılan mavi dalğalar, üzərinə lalələrin qızartısı səpələnmiş sarı taxıl zəmiləri təsvir edilmişdi. Səbətlərdən boylanan, yaraşıqlı xırdaca pişiklər, yumşaq tüklü körpə çəpişlər, dovşan balaları, köhnə, qızılı pərdələr fonunda çəkilmiş əlvan çiçəklərə də tamaşa etmək olardı. Bunların hamısı çox gözəldi, adamı əyləndirir, ruhunu oxayırdı. Madmazel Paskal boş vaxtını bu cür gözəl işə sərf etmiş həmkarlarına ürəyində təşəkkür etdi.

Salonun axırına çatanda dörd iri əsər düzülmüş bir lövhə onu dəhşətə gətidi. Bu şəkillərdə çılpaq qadınlar ətsvir edilmişdi. Dümağ dərili, qırmızısaç bir qadın çarpayının qırağına sərilib uzanmışdı. Stolu at kimi minmiş başqa birisi əlində siqaret, gözlərini peşəkar bir laqeydliklə boşluğa zilləmişdi. Üçüncü tablodakı qadın güzgü qarşısında gərnəşirdi. Dördüncü isə ehtiyatla ayağını emallı tasdakı suya salırdı. Bu bədənlər şəhvətlə, baş gicəlləndirən

bir həyəsizlıqla çəkilmişdi. Nə abır örtən tül parça, nə də bürünəcək vardı.

Qəzəbindən qızarmış madmazel Paskal, rəssamın adını öyrənmək üçün tablolara yanaşdı. Rəssamın adını oxuyanda az qaldı özündən getsin; bu murdar şəkillərin altında belə bir imza qoyulmuşdu: Hüş.

O, qəzəbindən titrəyə-titrəyə iş otağına qayıtdı. İndi nə edəydi? İşçisini rəsmlərə görə tə'rifləyəydi? Yox, onda həmin şəkillərə haqq qazandırmış olardı. Bəlkə narvzılıq edəydi? Axı, nə ixtiyarla? Heç dinib-danışmasa necə? O susmağı qərara aldı.

Lakin ertəsi gündən narahatlıq aman vermədi. Görəsən, işçilər onun haqqında nə danışırlar? Yəqin bu cür fikirlərlə yaşayan bir kişi ilə hər gün səkkiz saat bir otaqda qapanıb qaldığına yazıqları gəlir? Görəsən, onu məsxərəyə qoymurlar ki? Bəlkə işçilər birbirinə Paskal və Hüş haqqında lətifələr danışırlar? "O öz işçisi ilə yaxınlıq edir". Bu fikir madmazel Paskalı əldən salırdı.

O, indi öz işçisinə tamam başqa gözlə baxırdı. Onun üzündəki pozğunluq əlamətlərini əvvəllər sezə bilmədiyinə təəccüblənirdi. Axı, rənginin solğunluğu, baxışlarının sönüklüyü hərarətli gecələrin əlamətididir. Danışarkən dilinin dolaşması isə yəqin ki, ehtirasın gücündəndir. EH! Madmazel Paskal onu ərəb yastıqları döşənmiş e'malatxanasında, xoş tüstülü qəlyanlar və xəzlər arasında çılpaq bir qadına necə oturmağı göstərdiyini, sonra isə ləngiyib qadına ehtirasla əl gəzdirdiyini təsəvvür edirdi. Deməli, çılpaq qadınlarla kefə baxdıqdan sonra idarəyə gəlir, onunla üz-üzə oturur, qovluqları vərəqləyir , amma fikri çox vaxt əyləncə yerində, çılpaq qadınların yanında qalır.

Elə bunları fikirləşdiyi vaxt madmazel Paskal cənab Hüşun nəzərlərinin ona necə zilləndiyini, bədənini dolaşdığını, iblis kimi hər yerini gəzdiyini hiss edirdi. Hüş onu baxışları ilə soyundururdu. O, Hüşün çılpaq modellərindən birinə dönürdü.

Madmazel Paskalı tər basırdı. O yenidən qurdalanır, ayağa qalxır, çıxıb bayırda gəzinirdi. Lakin otağa qayıdan kimi işçisinin çaşqın baxışları onu qapının ağzındaca yaxalayırdı. Ona elə gəlirdi ki, Mavritan bazarında qul dəllalı onu ora-bura çevirir, yoxlayır, qiymət qoyur. Madmazel Paskalı fikir götürmüşdü: "Əvvəl-axır məni ələ keçirməyə cəhd edəcək". O, işdən çıxanadək tir-tir əsirdi.

x x x

Bir səhər idarənin iki fəhləsi otağa girdi:

— Sizin sifariş etdiyiniz divanı gətirmişik, cənab.

Madmazel Paskal az qala hüşunu itirmişdi. Gör bu murdar özünə necə arxayındır! O, diqqətlə Hüşə baxdı. Hüş təəccüblənmişdi. O dedi ki, heç nə sifariş etməyib. Sonra bilindi ki, fəhlələr səhv ediblər. Onlar divanı əsl sahibinə apardılar. Madmazel Paskal axşama kimi özünə gələ bilmədi.

Həmin gündən zavallı qadının ürəyi tıppıltıda idi: "Görəsən, bu gün nə olacaq? Bəlkə sabah?" Ona elə gəlirdi ki, Hüş masa arxasında bəbir kimi sıçrayışa hazırlaşır. Hərdən Hüş qovluq istəyəndə gözlərini arvada zilləyib onu həyəcanlandırdı. İndi Hüş danışarkən işlətdiyi sözün hər biri müdirin fikrincə, gizli mə'na daşıyırdı. Madmazel Paskal əməkdaşının işini yüngülləşdirirdi. Onu daha gözündən uzağa qovmurdu. Baş verəsi əhvalatı gözləməkdən üzülürdü. Cənab Hüş isə hələ mətləbə keçmirdi. O, Paskalla pişik siçanla oynayan kimi oynayırdı. Nəhayət, madmazel Paskal cəsarətini toplayaraq ondan soruşdu:

— Siz portreti naturadan çəkirsiniz?

Hüş gözlərini qayıraq üzünə hiyləgər bir ifadə verdi:

— Bəli, çox vaxt naturadan çəkirəm. Amma maraqlı bir süjet görəndə yadımda saxlayıram, sonra xəyalımda canlandırıb çəkirəm.

"Bəli, o məni xəyalında canlandırır" — deyə madmazel Paskal fikirləşirdi. İndi yəqin onun siyirmələri mənim də şəkillərimlə doludur. Məni də salonda göstərilən qadın şəkilləri kimi lümlüt çəkib. Bəlkə, gələn sərgidə mənim də şəklim olacaq? Deməli, beynəlxalq əmlak mühafizəsi və əmlak qəbulu nazirliyinin bütün işçiləri onu çılpaq görəcəklər. Halbuki o, indiyə qədər heç kəsin qarşısında çılpaq durmayıb. "Yox, daha bu cür təhqirə dözə bilmərəm" — madmazel Paskal öz-özünə götür-qoy edirdi. Amma qəlbində gizli bir sevinc də dolanırdı. Bəli, həftələr keçdikcə o, öz üzərində Hüşün tə'sirini duyurdu. Bu tərbiyəsizin yanında oturmaqdan onun xasiyyətini götürmüşdü. Ayıblı yuxular görürdü: iş otağının içindəcə qəribə əhvalatlar baş verirdi. Hüş onunla dostluq edirdi. O isə mehriban-mehriban Hüşün başını sığallayırdı. Yuxudan ayılanda isə görürdü ki, ehtirasdan, hərarətdən yanır. Hüşün məsələni belə ləngitməsi onu narahat edirdi. O, Hüşlə eyş-işrətə qoşulacağı anı elə səbirsizliklə gözləyirdi ki…

Bir gün madmazel Paskal işə gələrkən açıq rəngli don geymiş, üz-gözünə də çoxlu kirşan-boya çəkmişdi. O, səsini həzinləşdirib soruşdu:

— Mənim portretimi çəkmək istərdinizmi?

— Mən eç vaxt portret işləməmişəm, — Hüş cavab verdi.

Madmazel Paskal utana-utana ürəyini açdı:

— Bəli, bilirəm, siz çılpaq çəkirsiniz.

Hüş çaşqın-çaşqın başını silkələdi:

— Xeyr, Siz yəqin sərgidə gördüyünüzü çılpaq qadınları deyirsiniz. Onları baş katiblikdəki həmkarım Rüş çəkib. — Hüş sifətində uşaq təbəssümü sözünə davam etdi:

— Mənim çəkdiklərim pişik balaları idi.

Mari-Luiz Ver

Müasir fransız ədəbiyyatında uşaqlara şirin yazıçı dili ilə əhvalatlar söyləyən, onlarda təbiətə, təbiətin gözəlliklərinə məhəbbət hissi aşılayan qadın yazıçılardan biri Mari-Luiz Verdir. Bu yazıçı əlvan çiçəklərə, xırda heyvancığaz və həşaratlara məharətlə dil açdırır, danışdırır, onların varlığı və heyatı haqda maraqlı mə'lumatlar verir. Onun "Peretin nağılları" adlı kitabı 1973-cü ildə azərbaycanca nəşr olunub və deyilənə görə bizim gənc oxucuların da xoşuna gəlib.

MARİ-LUİZA VER

QƏŞƏNG LALƏ

Qurumuş çəmənliklərdəki otların arasında bir lalə vardı. İstidən yanırdı, boynu bükülmüşdü, başını aşağı sallamışdı. Elə hey deyinirdi:

— Uf, yaman istidir!.. Ah, istidən yandım!..

Otlar isə ona deyirdilər:

— Bəsdin deyindin! Sən danışanda bizim yanğımız daha da artır!

Lalə susa bilmir, mızıldanırdı:

— Orada, çayırlığı sulayan şırşırın suyundan heç olmasa bir-iki damcı mənim üstümə səpiləydi.

Doğrudan da bir az aralıda — bağçanın ortasında suçiləyən ətrafa su çiləyirdi.

Xırdaca damcılar lap hündürə qalxır, şən-şən qovdu-qaçdı oynayır, sonra bir-birinin ardınca qayadıb yerə düşürdülər.

Lalə özünün al ləçəklərini susuzluqdan yanan qırmızı dodaqlar kimi tərpədir, qonşusu otlara pıçıldayırdı:

— O damcılardan bir az mənim də üstümə düşəydi.

— Səbir elə, özün deyirsən ki, hər axşam bizi sulayırlar. Yuxula, axşama kimi gözlə.

— Elə bilirsiniz yatmaq olur. Qarışqalar zoğuma dırmaşır, milçəklər ləçəklərim üzərində qaçışır, məni qıdıqlayırlar!

— Yox, bu gün sənin qanın qaralıb. Dünən deyirdin ki, qarışqalar da, milçəklər də sənin dostlarındır. Özün şən-şən başımız üzərində yellənir, bütün çəmənliyi şirin sözlərinlə əyləndirirdin.

Qəşəng Lalə sözündən dönmürdü:

— Mən o damcılardan istəyirəm!

Damcılar istiqaməti dəyişdilər, bəlkə Qəşəng Lalənin səsini eşitdilər?

Amma, məncə, damcıların istiqamətini rəhmdil bir uşaq dəyişmişdi.

Lalənin ləçəkləri üzərinə gur yağış yağmağa başladı. Qəşəng Lalə sevincindən dil açıb danışa bilmirdi. İri otlardan biri zarafatla soruşdu:

— Hə, necədir? Çox su istəyirdin, indi razısanmı?

Lalə tövşüyə-tövşüyə cavab verdi:

— Mən… daha… nəfəs… ala bilmirəm…

— Sən həmişə narazılıq edirsən!

— Yox… mən… çox razıyam… Amma daha əldən düşmüşəm!…

Lalənin başı damcıların ağırlığından əyilib az qala yerə dəyirdi.

Axır ki, suçiləyən istiqamətini dəyişdi. Amma gec idi! Qəşəng Lalə istədi başını qaldırsın. Ləçəklərinin biri düşdü, sonra biri də düşdü… Az sonra ləçəklərin hamısı töküldü.

Bir az kənarda su damcıları günəş şüaları altında oynaşır, oxuyurudlar: "Qəşəng Lalə soyuldu! Qəşəng Lalə yox oldu!" Görəsən onlar Lalənin həlak olmasına sevinirdilər?

Yox, onlar paxıl deyildilər, bilirdilər ki, Lalə ölməyib. Su damcıları oynaşanda onun paltarını soyundurublar, qırmızı xalatı düşüb yerə, amma Lalə başını qaldırır. Onun başındakı yaşıl qutucuğun içində toxumlar var, toxumlar yetişirlər.

Heç Lalənin özü də ləçəklərinin töküldüyünə peşman olmadı:

— Yaxşıca payımı aldım, susuzluqdan şikayət etməkdən dostlarımı cana gətirmişdim. Nə oldusa yaraşıqlı qırmızı donuma oldu. Eybi yoxdur, mənim toxumlarımdan çəməndikdə çoxlu qırmızı, qəşəng lalələr bitəcək.

Doğrudan da sonrakı yay, lalələr çölə tarlaya səpələnib gizlənpaç oynayırdılar. Onları əvvəlcə heç kəs görmürdü. Çünki zoğları da, yarpaqları da, düymələri də yamyaşıl idi, başqa bitkilərdən seçilmirdilər.

Az keçməmiş lalər ətrafa baxmaq istədilər. Düymələri şişdi, sonra ortasından çatdadı və qabıq yerə düşdü. Qıpqırmızı, zərif, birbirini qucaqlamış ləçəklər göründü, sonra onlar açıldılar, al qırmızı Laləyə döndülər.

— Ku-ku! Biz burdayıq!

İndi çiçək toplayan adamlardan gizlənmək lazım idi!

Mən bir lalə tanıyıram — yaman kələkbazdır! Qaçıb taxıl zəmisində gizlənib. O bilir ki, heç kəs lalə dərmək üçün tarlaya girib gözəl sünbülləri əzməz. Amma lalə ətrafa tamaşa eləmək istəyirdi, başını zəminin üzərinə qaldırmışdır. Hərdən külək zəmini əsdirir, lalə gah görünür, gah da gizlənirdi. Hər dəfə görüəndə özü özünə deyirdi:

— Mən burdayam! Sonra ətrafa tələsik bir nəzər salırdı. Sünbüllər onu yenidən araya alırdılar:

— Yaxşı, mən gizlənirəm, — deyə lalə arxayınlaşırdı.

Amma zəminin içi ilə kəndə gedən cığırdan onu görürdülər. Ay lalə, sən nə ehtiyatsızsan. Taxılın içində yaxşıca gizlənə bilmirsənmi?

— Yox, onda heç nə görmürəm.

— Axı, gəlib səni dərərlər!

— Narahat olmayın, mən özümü qoruyuram.

— Zavallı lalə, sən ki belə zərifsən, nə edə bilərsən axı?

— İndi görərsiniz…

— Yaman cəsarətlisən! Məncə sənin axırın çatıb. Bax, balaca Silvi anasının əlini buraxıb çığırla sənə tərəf gəlir.

— Gör nə gözəl lalədir, — deyə qızcığaz qışqırdı. Mən onu dərəcəyəm!

— Gizlən, lalə, yoxsa məhv olarsan!

— Yox, heç nə olmaz, — deyə o, cavab verdi.

Mən sizə demişdim ki, bu lalə yamanca kələkbazdı. Qızcığaz əlini uzadan kimi lalə öz qırmızı ləçəkləriin tökdü. Bəli, gözəl ləçəklərin dördü də qopub uça-uça yerə düşdü, elə bil dörd qırmızı kəpənək nəfəsini dərmək üçün yerə enirdi.

Balaca Silvi məətəl qalmışdı, əlini ləçəkləri tökülmüş laləyə uzadıb durmuşdu, gözləri yaşla dolmuşdu.

İndi bizim laləmiz arxayın idi; daha heç kəsi özünə cəlb eləmirdi. Başını lap hündürə qaldırıb baxa bilərdi, daha qırmızı gözəl ləçəkləri yoxdu, başı balaca və yamyaşıl idi, üzərində yanları delikli bir qutucuq da vardı. Qutucuq get-gedə qurudu və içərisindəki toxumlar yetişdi. Külək dostumuz laləni sünbüllərlə bərabər yırğalamağa başladı. Əntiqə idi; lalə gah bu yana, gah o yana yırğalanır, gah düzənliyə tərəf, gah da dağa tərəf əyilirdi. Hər dəfə əyiləndə qutucuğun içindəki toz kimi xırdaca, qara toxumlar deşiklərdən sağa, sola, hər tərəfə səpələnirdi!

Bu toxumlardan çəmənliklərdə, tarlalarda çoxlu lalələr cücərəcək, hər tərəfdən onların nəğməsi eşidiləcək:

Ku-ku, ku-ku! Bizə baxın!
Qəşəng lalələrik, qızlar
Bizi yaxanıza taxın!

MARİ-LUİZA VER

BALACA CIRCIRAMANIN UZAQ SƏFƏRİ

Şam meşəsinin kənarında bir cırcırama bütün günü o qədər oxumuşdu ki, özündən çıxmışdı, daha dayana bilmirdi.

Otların arasında gizlənmiş Qaraca adlı qara çəyirtkə isə onun dayanmasını gözləyirdi ki, özü oxumağa başlasın. Cırcırama dayanmaq bilmirdi…

— Ey, bura bax, Cırcır, — deyə çəyirtkə onu səslədi, görmürsən günəş batıb; indi mənim növbəmdir, mən oxuyacağam!

Cırcırama səsini kəsdi.

— Düz deyirsən! Axşamın düşdüyündən xəbərim olmayıb. Şam ağacının qabığı elə istidir ki, elə bilirdim gün hələ batlayıb.

— Sənin ki, yaraşıqlı gözlərin var: görürsən ki, o tərəfdən ay çıxır. Yaxşı, get yat.

Amma Cırcırın hələ yuxusu gəlmirdi. O, çəyirtkə ilə bir az söhbət eləmək istəyirdi.

Çəyirtkənin maraqlı bir fikri vardı:

— Bilirsənmi, mən gəzməyə gedəcəyəm. Mənim qohumlarımdan biri o gün çörək maşınında çörəkxanadan mənə baş çəkməyə gəlmişdi. O mənə oxşamır, ev çəyirtkəsidir. Paltarı daş rəngdədir, adı da Cığcığazdır. O, uzaqda yaşayır, küknar ağacları bitən ölkədə. İstəyir öz ölkəsinə qayıtsın. Mən də onunla getmək istəyirəm.

— Yəqin ki, küknar ağacları çox yarışıqlıdır, — deyə Cırcır cavab verdi. Mən heç ömrüdə küknar ağacı görməmişəm, axı onları qışda gətirirlər.

— Gedək bizimlə!

— Axı mən yolda soyuqdan ölərəm!

— Bura bax, ay mənim sarışın dostum, biz isti yerlər tanıyırıq, səni soyuqdan qoruyarıq. Gedək bizimlə: sən meşədə küknar ağaclarını görərsən… çığ-çığ-çığ-çığ..

Çeyirtkə oxumağa başladı. Cırcırama isə yuxuya getdi, şirin yuxular gördü…

Onların fikri qəti idi. Səfərə hazırlaşırdılar.

— Yox, mən ölmərəm, mən küknar ağaclarını görməliyəm, — deyə Cırcır narahatlıqla fikirləşirdi. Çəyirtkələrin kefi kök idi. Bir gün onlar yola düşdülər. Çəyiritkələr yolun kənarındakı çalalarda

gizlənir, cırcırama isə koldan-kola uçaraq irəli gedir, sonra onları gözləyirdi.

Əyri bir ot zoğunun üstünə qonmuş iki milçək onlardan soruşdu:

— Hara belə gedirsiniz?

— Biz, yeni il gecəsi bəzənən küknar ağacları bitən ölkəyə gedirik.

— Axı, ora uzaqdır! Siz yolu tanıyırsınız?

— Şərq küləyi əsən tərəf oradır. Adı Vogez[3] ölkəsidir. Yolumuz çox uzaqdır, amma biz gedib çatacağıq.

— Bizi də aparın, — deyə milçəklər xahiş elədilər. Biz bələdçilik edərik. Birimizin adı Zonzondur, birimizinki isə Zonzet.

Milçəklər irəliyə kəşfiyyata gedir, qorxulu yerləri yoldaşlarına xəbər verirdilər. Axşamlar onlar istirahət edirdilər. Çəyirtkələr bir az oxuyurdular: çığ-çığ-çığ… Sonra hamısı yuxuya gedirdi. Gündüzlər isə cırcırama ağac qabıqlarının üstünə qonub marş çalırdı: cır-cır-cır-cır…

Onlar yavaş-yavaş gedirdilər. Qara, zərif ayaqları tez yorulurdu. Oktyabr ayının isti günlərindən birindən axşamüstü cırcırama hiss elədi ki, üşüyür. O dedi:

— Yox, biz gedib çata bilməyəcəyik. Hiss edirəm ki, eləcəyəm.

Cırcıramaların düşməni soyuq külək vıyıldamağa başladı:

— Gedə bilməyəcəksən, ay Cırcır! Qoymaram gedəsən… Vıy-y-y!..

Milçəklər uçub ətrafı fırlanırdılar, onların ağlına belə bir fikir gəlmişdi:

— Yoldan avtomobillər keçir. Əgər oturacaqlardan birinin altında gizlənə bilsək səfərimiz asanlaşar.

— Yaxşı, çalışarıq, — deyə cırcarama cavab verdi. Amma görək hələlik bir yer tapıb isinək. Eşidirsinizmi külək necə vıyıldayır:

— Gedə bilməyəcəksən, Cırcır! Qoymaram gedəsən!.. Vıy-y-y!..

— Gəlin bura, — deyə milçəklər onları öz arxalarınca çağırdılar.

Az sonra hamısı bir mal pəyəsində gizləndilər. Pəyə isti idi. Çəyirtkə oxumağa başladı: çığ-çığ-çığ…

— Əgər səsini kəsməsən eşidərlər, gəlib bizi tutarlar.

[3] Воэез — Франсанын шимали-шяргиндя даь силсиляси.

Onlar yuxuya getdilər. Yerləri elə rahat idi ki, bir neçə gün orada qaldılar, istirahət elədilər.

Bir gün Zonzet dedi:

— Şəhərə getmək lazımdır. Bəlkə maşınla gedək?

— Axı, hava soyuqdur, — deyə çırcırama cırıldadı. Milçəklər bilirdilər ki, ertəsi gün pəyədəki öküzü bazara aparacaqlar.

Cırcırama ilə çəyirtkələr öküzün qarnının altındakı tüklərin arasında gizləndilər. Onlar öküz gicişdirməsinlər deyə qorxularından tərpənmirdilər. Əgər öküz, tüklərinin arasında bu xırdaca cücülərin gizləndiyindən xəbər tutsaydı özündən çıxardı!

Şəhərdə dostlarımızın bəxti gətirdi. Zonzon maraqlı bir söhbət eşitdi:

— Mən Vogezə gedirəm, — deyə bir qadın öz iri səbətlərini yolun qırağına qoydu. İndi maşın gəlib məni aparacaq.

— İşimiz yaxşı düzəldi,- deyib Zonzon sevinə-sevinə yoldaşlarının yanına uçdu.

— Tez gəlin! Gedib səbətdə gizlənərig.

Cırcırama igi milçəyin arasında yavaş-yavaş gedir, adam görəndə gizlənirdi. Çəyirtkələr atılıb arxın üstündən keçdilər.Hamısı bir səbətə girib gizləndilər. Sonra adamlar səbətləri maşına yığdılar. Onlar Vogezə yola düşdülər.

Maşındakı qadın dedi:

— Yol uzaqdır, gecə maşını saxlayıb yatacağıq.

İstirahət etmək lazımdır.

— Milçəklərdən biri gizləndiyi yerdən çıxıb dostlarının yanına gəldi.

—Gəlin, maşının radiatorunun yanında gizlənəyin; ora istidir.

—Doğrudan da ora elə isti idi ki, cırcırama özünü saxlaya bilməyib oxumağa başladı:

—Cır-cır-cır…

Maşındakı adamlardan biri dedi:

—Deyəsən burada cırcırama var!

Cırcırama tez səsini kəsdi.

Yox, səs çöldən gəlir, — deyə bir qadın cavab verdi.

Maşın dayandı. Radiator soyudu: yaxşı ki, radiatorun üstünə ortük çəkmişdilər. Hələlik işlər yaxşı gedirdi.

Məskənə çatmağa az qalmış bizim dostlarımız əvvəl gizləndikləri yerə qayıtdılar, sonra dağ kəndlərindən birinə çatanda səbətin

içindən yerə endilər. İndi ələ keçməmək üçün səbətdən çıxmaq lazım idi.

Hava soyuq idi, adam donurdu. Çəyirtkələr tir-tir əsir, zavallı cırcırama isə az qala donmuşdu.

—Gedə bilməzsən,cır-cır! Qoymaram uzağa gedəsən! Vıy-y-y,- deyə külək vıyıldayırdı.

Milçəklərin daha uçmağa taqəti qalmamışdı…Lakin birdən:

—Mən buranı tanıyıram,—deyə Qaracanın əmisi oğlu dilləndi:Bura bizim kəndimizdir! Gedəyin çörəkxanaya, lap yaxındadır.

Bir təhər sürünə-sürünə irəlilədilər.Cığcığaz bu gözəl dəstəni öz arxasınca yaxşı bir yerə apardı. Bura çörəkxana ocağının barısındakı bir dəlik idi. Nə yaxşı oldu! Yeni il gəlincə burada qalmaq olar.

Cırcırama hərdən deyirdi:

—Mən yeni il ağaclarını görmək istəyirəm.

Amma hər dəfə çölə çıxmaq istəyəndə soyuq külək vıyıldayırdı…

—Gedə bilməyəcəksən, cır-cır, uzağa gedə bilməyəcəksən! Vıy-y-y !..

—Səbir elə,—deyə cırcığaz ona ürək-dirək verdi.Milçəklər də dilləndilər:

—Bir çarə taparıq.

—Qorxuram küknar ağaclarını görməmiş öləm!— deyə cırcır mızıldanırdı. Bəs bu zalım külək ara verməsə mən meşəyə necə gedərəm? Hələ bayram axşamı qayıdıb burada çılçıraqla bəzədilmiş gözəl ağaca tamaşa etməliyəm.

Yeni il bayramı yaxınlaşırdı. Cırcırama bilmirdi neynəsin.Çöldə külək barıları döyəcləyir, vıy-vıy vıyıldayırdı.

Zonzolla Zonzet burunlarını hər yerə soxurdular. Çörəkçinin meşəyə gedib öz qızı üçün yeni il ağacı seçəcəyini necə öyrəndiklərini bilən olmadı. Bilirsinizmi, küləkdən qorxan cırcırama meşəyə necə getmişdi?

O, çörəkçini qalın kürkünün arasında gizlənmişdi.

Qara çəyirtkə də onun yanında idi. Çörəkçi barıdakı dəliyin yanından keçəndə onlar atılıb kürkün içinə girə bilmişdilər.

Yeni il ağacları bitən yer nə gözəl imiş! Hələ dağın yamacına düzülmüş, üstü qırovlu, küknarlara baxın! Onlar soyuq küləkdən qorxmurlar. Külək onları silkələyir və cır səslə oxuyurdu:

— Küknar gözəl ağacdır, küknarı çox sevirəm! Vıy-y-y!..

Çörəkçi zərif gövdəli, sıx budaqlı bir küknar ağacı seçdi. Ağacı meşəqıran fəhləyə göstərdi, sonra kəndə tərəf endi. Kəndin evləri bir-birinə söykənmiş ağ göbələklərə oxşayırdı.

Cırcır ətrafı yaxşı görmək üçün başını kürkün arasından çölə çıxarmışdı. Külək onu gördü və yenə zalım-zalım qışqırdı:

— Yox, gedə bilməzsən, Cırcır! Qoymaram uzağa gedəsən! Vıy-y-y…

Cırcırama ətrafdakı mənzəyəyə elə aludə olmuşdu ki, qorxuzad yadına düşmürdü. O soyuqladı, qayıdarkən hiss elədi ki, xəstələnib.

— Eh, nə olsun, — deyə öz-özünə fikirləşdi. Onsuz da indi cırcıramaların fəsli deyil… Mənim əsas arzum çıl-çıraqlı yeni il ağacını görməkdir.

O, yeni il ağacını gördü. Amma elə xəstələnmişdi ki, yoldaşları milçəklər və çəyirtkələr köməkləşib onu bir təhər şənlik otağına gətirdilər.

Uşaqlar oyuncaqlara elə aludə olmuşdular ki, küknarın budaqları arasında gizlənmiş Cırcırı görmürdülər. Cırcırama burada sevdiyi şam meşəsinin xoş ətrini duyurdu. O, xırdaca xortumunu ağacın qabağına sancıb azacıq şirə içdi və bir az özünə gəldi.

— Ah! Nə gözəl ağacdır! Meşədəkilərdən də gözəldir, üzəri rəngbərəng lampalarla və oyuncaqlarla doludur.

Cırcırama uşaqların şənliklərinə axıra kimi tamaşa elədi. Səhər işıqlar sönəndə, hava işıqlananda bu gözəl cırcıramanın öldüyünü, ancaq dostları bildilər. O, gözəl yeni il ağacının budaqları arasında, sonsuz bir yuxuya getmişdi.

ANN FİLİP

Əslində Ann Filipdə yazıçı deməkdən söz ustası demək daha uyğundur. Çünki o yazıçı deyil, sadəcə olaraq məşhur fransız aktyoru Jerar Filipin zövcəsi idi. Çox sevimli ərinin ağır xəstəliyi və ölümü Ann Filipə güclü bir tə'sir bağışlamışdı. O ürəyində bişmiş kədəri ustalıqla vərəqlərə köçürdü (1963) və bu hissin təbiiliyi, səmimiliyi də tez nəzərə çarpdı. Peşəkar yazıçıların illərlə gözlədiyi şöhrəti Ann Filip bir anda qazandı. İnsan ömrünü bircə an adlandıran qadının kitabı az müddətdə bir çox dillərə tərcümə olundu və nəhayət 1971-ci ildə "Bir göz qırpımı" adı ilə azərbaycancaya a çevrildi.

"Bir göz qırpımı" əsərini yazmazdan əvvəl Ann Filip jurnalistika ilə məşğul olmuş, müxtəlif mövzulu məqalələrlə yanaşı "Asiya karvanları" adlı xatirələr kitabını da nəşr etdirmişdir (1955). Lakin nə Çinə həsr olunmuş bu kitab, nə məqalələr, nə də etnorafiya mövzulu filmlərin çəkilişində iştirakı Ann Filipə "Bir göz qırpımı" kitabının səmimiyyətindən gələn rəğbəti qazandıra bilməmişdi. Müəllifin 1966-cı ildə nəşr etdirdiyi "Təpədə görüşlər" əsəri də səmimi hisslər üzərində qurulub. Burada da insanın ən ali hissi olan məhəbbət hissi, bir ananın öz qızına məhəbbəti və münasibəti poetik dillə verilib. Amma bu hisslər sevimli ərinin şirin xatirəsinə öz daxilində həm sadə, həm də fəlsəfi dillə ağı deyən Ann Filipin hisslərinə tay deyil.

Fransız aktyoru Jerar Filip gənc yaşında, yaradıcılığının çiçəkləndiyi bir dövrdə vəfat etmişdir. Ann onun xərçəng xəstəliyinə tutulduğunu və bir neçə gündən sonra öləcəyini bilirdi. Jeraın özü isə xəbərsiz idi, tezliklə sağalacağını güman edirdi.

Ann Filipin kitabının üslubunu tə'yin etmək çətindir. Bu nə povestdir, nə xatirə, nə də lirik gündəlik. Bu ölmüş ərin xəyalına müraciətlə söylənən monoloqdur, son söhbətdir. Bu, sevən qadın qəlbinin naləsi, əsil məhəbbətin nə olduğunu bilən bir insanın könül çırpıntılarıdır.

ANN FİLİP

BİR GÖZ QIRPIMI

Kədər insanı kamillik zirvəsindən endirir.
SPİNOZA

I

Tez oyanmışam. Hələ gecədir. Gözümü yumub yenidən yuxuya getmək istəyirəm, amma bacarmıram. Geniş, dumanlı bir düzəngahda, gerçəkliklə xülya arasında qalmışam. Yaxşısı budur lampanı yandırıb kitab oxuyum, məni təngə gətirmiş qarma-qarışıq fikirləri başımdan qovum, amma yorğunluq məni kütləşdirir, gözəl xatirələr aləminə dalıram. Hərdən bu xatirələr məni elə bürüyür ki, ömrünün hansı günlərini yaşadığımı unuduram. Amma şüur öz işini görür, xatirədən xatirəyə keçdikcə yerimdə qurdalanıram, üzümü sənin yastığına tərəf çevirirəm. Bəli, yastığını indi də hər gecə sağ tərəfdən yanıma qoyuram. Çevrilib sənin donuq sifətini görürəm. Son nəfəsini çəkəndə üzünü boş yatağıma çevirmişdin. Açıq gözlərinə, sakit, həyata biganə sifətinə, hərəkətsiz əllərinə baxırdım, duyurdum ki, əzabsız, qüssəsiz getmisən. Həmin gün sənə tamaşa etdikcə, soyuyub qaxaca dönmüş əllərini oxşadıqca, üzgözünü sığalladıqca, mənə elə gəlirdi ki, ölməmisən, elə belə uzanmısan, çimərlikdəki kimi istirahət edirsən. Məni isə müqaivmət göstərə bilmədiyim bir axın özü ilə aparırdı. Sən ömürlük dayanmışdın, mən isə hələ hərəkət edə bilirdim. Ölüm bizi həmişəlik ayırmışdı.

Gözlərimi açıram, lampanı yandırıram, özümün özümə acıtım tutur. Səhər açılır, amma bu gün də bir xoşbəxt əhvalat gözləmirəm. Məni yalnız sən görürdün, səni isə təkcə mən. Bu gün gözlərimin həmdəmi yoxdur və mən bir boşluqda yaşayıram. Bilirdim ki, belə olacaq. Hər biri ölümlə qol-boyun gələn son günlərdə sənə baxırdım, məhəbbəti görmək istəyirdim, amma gözümə ölüm görünürdü, fikirləşirdim: "Mən sənə baxdığım kimi sən də mənə bax, axı mənə heç olmasa xatirələr qalacaq, sənin isə heç nəyin olmayacaq. Hər şey yoxa çıxacaq, heç təsəvvürün, xəyalın da olmayacaq. Bir heçlik. Sən heçliyə qayıdacaqsan". Sənə on gözlə

baxmaq istəyirdim, hərəkətlərini, baxışlarını gözlərimə yığırdım. Gülümsəyirdim ki, sənin təbəssümünü görüm; əlini öpürdüm ki, əlimi necə öpdüyünə bir də baxım. Özüm-özümü arxayın edirdim ki, bunlar heç vaxt yadımdan çıxmayacaq. İstərdim əlinin yerləri bədənimdə həmişəlik qalsın, mənim çəkdiyim sığallar isə sənin bədənini çürüməyə qoymasın. Mümkün olmayan bir iş üçün mübarizə aparırdım. Məğlub olmuşdum, çünki sən məğlub idin. Amma heç özünün xəbərin yox idi.

Gəzmək istəyirəm, həmişə yolda olamaq istəyirəm. Mənə elə gəlir ki, yalnız bu cür yaşamaq mümkündür. Daha biz heç vaxt qoşa addımlamayacağıq, bu, həyatın ən böyük həqiqətidir. Bu gün mən hara gedirəm? Axı gəzmək ayağın birini o birindən irəli atmaq deyil. Gərək bir səmtin olsun. Mən həyatın qanunlarına əməl edirəm: yaşamalı və yaşatmalı. Bu çətin iş deyil, mən yalnız hər şeyə həyatın gözü ilə baxa bildikdən sonra öhdəmə düşən işi görə bilərəm.

Qışın sakitliyində, çılpaq və ətirsiz torpağın üzərində özümü yaxşı hiss edirəm. Qış yuxusuna dalmaq istəyirəm. Yazda, hərdən qayıqda gəzinəcəyəm. Günəş, tumurcuqlar, ətirlər, quşların mahnıları məni valeh edəcək.

Baharın ilk çiçəyinə necə sevinməyə bilərsən və onun kimi sadə ömür sürməkdən imtina etmək mümkünmü?

Sənsiz bir gələcək mənə lazımdırmı?

Lüksemburq bağında gəzinirəm. İki il əvvəl gəzdiyim cığırlarla dolanıram. Səhərin ala-toranı… Skamyalar boş idi. Dərsə tələsən məktəblilər iti addımlarla keçirdilər. Fəvvarə səhərin işığında parpar parıldayırdı. Qış yaxınlaşsa da, indiki kimi yağış yağmırdı. Küləyin o yan-bu yana qovduğu yarpaqlar da, ayağının altındakılar da ölmüşdülər. Yarpağa nə var ki? Başqaları cücərəcək. Sən ölürsən başqa bir insanın doğulduğu mənə təsəlli ola bilərmi? Tanış və sevimli cığırlarla o baş-bu başa gedirdim. Ağacların hər biri köndələn tir kimi yolumu kəsirdi. Bizim heç vaxt bir-birimizə demədiyimiz sözləri mən sənə dəyirdim. Mən asta-asta, ciyərlərim dolusu nəfəs alırdım. Əyləşməyə cəsarət etmirdim, dayanmağa qorxurdum. Elə gəzirdim ki, elə bil dayanmadan bütün dünyanı dolanmalı idim. Mən baş alıb gedir, tövşüyürdüm. Mən çıxış yolu axtarmırdım, çünki hər şey qət olunmuşdu. Dözülməz bir hadisə idi, vəssalam.

O vaxta qədər heç ölümlə maraqlanmamışdım. Mən onu saya salmırdım. Yalnız həyatla maraqlanırdım. Ölüm! Bu elə bir görüşdür ki, həm labüddür, həm də heç mümkün deyil, çünki o gələndə biz daha mövcud olmuruq. Biz yox olan kimi o bizim yerimizi tutur: ya o mövcud olmalıdır, ya da biz. Onun qarşısına çıxa bilərik, lakin onu tanıya bilərikmi, bu bircə andan artıq çəkərmi? Dünyada ən çox sevdiyim bir varlıqdan ayrılmağa hazırlaşırdım. "Əbədi ayrılıq" qapını kəsmişdi. Bilirdim ki, mənim məhəbbətimdən başqa heç nə bizi bir-birimizə bağlamayacaq. Fikirləşirdim ki, əgər könül adlanan məfhum hələ mövcuddursa, o yalnız xatirələrlə yaşayacaq və bizim ayrılığımız əbədidir. Özüm-özümə deyirdim ki, ölüm heç nədir, yalnız qorxu, fiziki əzab, sevdiyin adamlardan ayrılmaq əzabı, yaxud başlanmış bir həyatın amansız sonu və bunu duymaqdır. Həyatdan birdəfəlik getmək!

Mən bu dəhşəti duyurdum. Məni boğan, batıran, qurum rəngli bu qarınlığın mövcud olduğunu anlamaq üçün öz uşaqlıq xatirələrimə qayıtmalı olurdum. Dörd-beş yaşım var. Anamla vağzaldayıq. Pəncərənin qarşısında növbəyə durmuşuq. Növbəmiz çatan kimi anam deyir: "V. Şəhərinə gedib-gəlmək üçün bir bilet, ancaq getmək üçün bir uşaq bileti". Mən onun müraciət etdiyi adamı görmürəm, amma danışığı eşidirəm və anama sığınıram. Yadımda deyil onu qucaqlayırdım ya yox, amma bu yadımdadır ki, onu hamıdan çox istəyirdim. O mənim dünyada yeganə sığınacağım, yeganə arxam idi. Biz qatardayıq. Bütün dayanacaqları tanıyıram. Bu yolu çox getmişəm. Bilirəm irəlidə məni nə gözləyir. Anamla birgə olacağım vaxtın qurtarmasına nə qədər qaldığını hesablayıram. Sonra ayrılacağıq. Bu ayrılıq hər dəfə mənə həyatın özündən də uzun görünür. Mənə elə gəlir ki, daha ağlamamağa öyrənmişəm. Amma ürəyimi elə bil məngənədə sıxırdılar, onun ağrısından boğazım qəhərlənir, ağzım acı olurdu. Mən də, çoxlu başqa uşaqlar kimi, ayrılmış valideynlərin övladıyam. Sevib-sevildikləri üçün biri-birindən intiqam almaq istəyən iki şəxsin artığıyam. Bəli, əslində bu adi bir haldır. İndi mən ata "payımı" yaşamağa gedirəm, özü də atamın yanında yox, onun qardaşı və qardaşı arvadının yanında. Qatar dayanır: V... şəhəri. Yaşamaq üçün 10-15 dəqiqə vaxtım qalır. İndi biz gedib faytona əyləşəcəyik, orda anama sığınacağam. At yavaş-yavaş gedir, çünki Fransa küçəsi həm yoxuşdur, həm də dolanbac. Bu da axırıncı döngə. Artıq evi görürəm, başqa evlər kimi o da ağdır, birinci mərtəbəsində gözlük də var,

heç kəs səni görmür, amma sən kimin qonaq gəldiyini, kimin zəngi basdığını görürsən. Mən anamı qucaqlayıb hələ iyirmiyə qədər saya bilərəm, vaxt qalıb, çünki fayton dönməlidir, ev yolun sol üzündədir. Sonra anam məni bağrına basacaq, mən də onu çoxlu öpəcəyəm. O, faytondan düşməyəcək, elə həmin faytonla qayıdacaq. Mən isə, ürəyim həyəcandan partlasa da, sakit-sakit ikiüzlülüklə ona əl etməli idim, burda öyrənmişəm ki, heç bir hissi büruzə vermək lazım deyil. Evə girirəm. Soldan birinci qapı qəbul otağınındır. Mebel də, xalçalar da, divarlar da bir rəngdədir. Sonrakı — yemək otağıdır. Bu otağın pəncərələri balaca həyətə açılır, ordan bir neçə pilləkən düşüb bağa enmək olur. Bu otaqda gördüyüm yeganə şey, sirdaşım, yemək vaxtı mənimlə üz-üzə duran, böyük güzgüdür. Hər dəfə başımı qaldıranda mənə deyirdilər: "Güzgüdə özünə baxma!" Başımı aşağı salıb könülsüz-könülüsüz gövşəyirəm. "Ye!" deyirlər. Sakitlik çökür. Dözülməz bir sakitlik, yalnız qab-qaşığın cingiltisi eşidilir. Əmimlə arvadı bir-birilə danışmırlar. Onlara ər-arvad demək olmaz, ailə yaradıblar, uşaqsız bir ailə.

Bəli, bunlar bədbəxtlikdən doğan hisslər idi. Sonralar e'tiraz və qəzəb hisslərim də baş qaldırdı, lakin özümə xoşbəxt həyat qurmağı qəti qərara almışdım.

II

Həkimlər məni cərrahiyyə salonunun yanındakı balaca otağa də'vət edəndə soruşdum:

— Nə qədər yaşayır?

— Bir ay, uzağı altı ay.

— Bəlkə yuxulu ikən elə edəsiniz ki, heç ayılmasın.

— Bacarmarıq, xanım.

Beş dəqiqə əvvəl oturub gözləyirdim. Ən yaxın dostlarımızla birgə gözləmə otağında idim.

— Xanım, həkimlər sizi istəyirlər, — deyə şəfqət bacısı məni içəri çağırdı. Onun arxasınca gedə-gedə fikirləşirdi: "Bəs niyə belə tez? Axı mənə demişdilər ki, saat yarım çəkər, apardıqları iyirmi dəqiqə ancaq olar". Ağ xalatlı dörd nəfər həkimin mənə tərəf gəldiyini görəndə onların üzündəki ifadəni oxumaq çətin olmadı. Onlardan biri heç nə demədən mənə yer göstərdi. Başa düşmüşdüm. Bən dara çəkilirdim, ölüm hökmünü almış adam isə bir neçə addım o yanda yatmışdı.

O çox əzab çəkəcək?

Yox, üzgünlükdən öləcək.

Aşağıya endim. Lift həmin lift idi, amma mən bayaqkı adam deyildim, indi sinəmdə bir ölü ürəyi gəzdirirdim, dünyanın axırı çatmışdı. Kimə isə cavab verdim: "hər şey bitdi". Məni telefona çağırdılar, yalan danışmağa başladım. Bir az sonra otağa qayıtdım, sən artıq orda idin; sol ayağına vitamin axıdırdılar. Çətinliklə nəfəs alırdın, burnuna zond qoyulmuşdu. Sən yuxulu idin, solğun, qəmli görkəmin vardı, hələ istirahət edə bilərdin, kaş axırı salamatlıq olaydı.Ümidim olan günlərdə belə fikirləşirdim: üç gün əzab çəkəcəyik, sonra qarşımızda yenidən tam bir ömür olacaq. Üç əzablı gün keçdi, axırda da ölüm sorağı. Elə bu vaxtdan aramızda yalan hökm sürməyə başladı.

Sən yuxulu olana da üzünə ümidsizliklə baxmağa qorxurdum, məni boğan dəhşəti gizlədirdim. Özümü arxayınlıqla baxmağa məcbur edirdim. Sən huşsuz olanda, səninlə necə danışacağımı özüm-özümə təkrar edirdim, məşq edirdim. Birgəhəyatımızdan mənə qalan təkcə bu idi. Şəfqət bacısı səni təkərli xərəklə aparanda biz adəti mərhəm nəzərlərlə axırıncı dəfə baxışdıq.

III

Səkkiz il necə gəlib keçdi… Şənbə günü idi. Hama hələ soyuqdu. Parisə bahar gəlməmişdi, şəhər ətrafında isə səma bomboz, ağaclar çılpaq olsalar da, bahar təravəti vardı.

Mənzil idarəsi işçilərindən aldığımız plana baxa-baxa yol gedirdik. Kəndə gəlib çıxınca və axtardığımız mənzilin darvazasını tapınca bir neçə dəfə azdıq. Ağacların araya aldığı bir küçə ilə irəlilədik, axırda evi gördük, eybəcər ev idi, sarı, qırmızı rəngə boyanmışdı. Ortadakı alçaq eyvan burun üstündəki ziyil kimi evi daha da eybəcərləşdirirdi. Təkcə köhnə kirəmitli dam adamın xoşuna gəlirdi. Yaşlı bir kişi çəmənliyin otunut çalırdı. O bizə tərəf gəldi. Kişi qamətli idi, süvari zabitlər kimi özünü şax tutmuşdu. Onun səliqə ilə bağlanmış qalstuku, sellüloid yaxalığı, həsir şlyapası, aydın və bir az kinayəli baxışları hələ də yadımdadır. O bizi diqqətlə nəzərdən keçirir və qısa cümlələrlə danışırdı.

Bəli, mülk, doğrudan da, satılır. Baxa bilərsiniz. "Amma, — deyə o əlavə elədi, — evin mənə dəxli yoxdur, istəyirsiniz xanımı çağırım". Xanım onun arvadı idi. Gedib arvadını çağırdı. Arvad çiyninə yumşaq tüklüy şal salıb yanımıza gəldi. O bizi səmimiyyət-

lə salamladı, əlindəki açarları cingildədib arxasınca, getməyimizi xahiş etdi. Pəncərələri açdıq, evi nəzədən keçirdik. Xəyalımda qurub-yaradırdım. Pəncərələrin hər biri zərif, romantik bir mənzərəyə açılırdı. Evi istədiyimiz şəklə sala bilərdik, bir az aralıda çay axır, ağac da çoxdur, bu torpaqda sakitlik hökm sürür. Biz burda məhəbbət yuvası quracağıq.

Bağban, qapının qabağında gözləyirdi. Bizi bağçaya aparıb ağacları göstərdi. O, hər ağacın yanında dayanır, əlini ağacın gövdəsinə vurur, təzə tumurucuqları göstərirdi.

— Şabalıd ağacları xəstə idi. Təkcə biri salamat qalmışdı, qıpqırmızı çiçək açır, evin qarşısını bəzəyirdi. Gördüyünüz palıd ağacının bu tərəflərdə tayı-bərabəri yoxdur. Görün gövdəsi encə düzdür. Yuxarıda kiçik ağcaqayın meşəsinin yanında sidr xiyabanı var. Həmin ağacların əkildiyi yadımdadır. Buranın keçmiş sahiblərindən biri əkdirmişdi. O, ağaclardan baş çıxarırdı, onları sevirdi də. Amma ondan sonrakılar Mejevi, yaxud Mavi sahili xoşlayırlar. Kəndi tanımaq, sevmək lazımdır. Siz necə, kəndi sevirsinizmi?

— Bəli, sevirik.

— Kənd mənim həyatımdır. Amma mən sadə bir bağbanam, bağ sahibi istədiyi vaxt məni qova bilər. O bu sözləri deyərkən bizə elə qürurla baxırdı ki, xoşum gəldi.

Həmin vaxtdan cənab B.-yə rəğbətim var. O bizə üç böyük ləkdə əkilmiş tərəvəzi göstərdi, meyvə ağaclarından söhbət açdı, torpaqdan danışdı, bir kəsək götürüb ovcunda ovxaladı. Biz yerkökü, kahı ləklərinə, çiyələkliyə, pion çiçəklərinə tamaşa etdik. Şabalıd ağaclarının arasındakı xiyabanın o tərəfində bağın başsız qalmış sahəsi uzanırdı. Bura mamır basmış, sarmaşıqlı, qurumuş ağacları çalın-çarpaz yıxılmış bir meşə idi. Sonra Uaz çayına tərəf gedən bir çığıra düşdük. Sahildə durub qayıqlarda üzənlərə əl elədik. Çay cənab B.-ni maraqlandırmırdı.

— Yayda burda çimmək olarmı?

Sualımız, deyəsən, ona qəribə göründü.

— Əgər iyrənməsəniz çimə bilərsiniz: çimənlər var, amma su mazutla, pişik cəmdəkləri ilə dolu olur.

Çəmənliklərdən birinin yanandı cənab B.özünün yaradıcılığını fəxrlə bizə göstərdi: o, ağacların başını cürbəcür quş şəkillərində vurmuşdu.

— Bax, iş buna deyərlər! Ağacı bu cür hamarlamaq saatlarla vaxt istəyir, özü də bunu bacarmaq lazımdır. İndi bağbanlarbelə şeyləri öyrənmək istəmirlər, çox çətin işdir.

Bu cür sün'i formaların yaradılması bizim ən acığımız gələn bir əməldir. Amma ağılla və səliqəli görülmüş iş idi, biz də çalışdıq ki, xoşumuza gəldiyini ona bildirək.

Həmin günü bununla qurtardıq. Malikanədən gedərkən təpələrdən birinin üstündə dayandıq. Uaz çayı hələ göyərməmiş tarlaların arası ilə uzanıb gedirdi, uzaqda, lap üfüqdə, bir neçə evlə əhatə olunmuş kilsə görünürdü. Gözəl mənzərə idi. Çox xoşumuza gəldi. İstəyirdim səninlə danışım, sənə bir söhbət açım. Amma susdum, daha doğrusu, əsas məsələdən danışmadım. Hamilə olduğuma hələ əmin deyildim, özümün də əmin olmadığım bir xoşbəxtliyin sevincini bölüşmək hələ tez idi.

On beş gün sonra yenə qayıtdıq. Bahar öz hökmünü vermişdi. Maşınımızı əvvəlki yerində saxladıq. Gün qalxmışdı, ətraf sakit idi. Biz günəşin dümanı necə parçaladığına və təzəcə aldığımız evin ağacların arasından güclə sezilən damını necə işıqlandırdığına tamaşa elədik.

İllər keçib. Uşaqlarımız olub. Adi axşamlardan biridir. Səni gözləyirəm. Təkcə maşınımızın səsini deyil, sənin müəyyən yerlərdə, əhvali-ruhiyyəndən asılı olaraq maşına necə qaz verdiyini və necə əylədiyini də bilirəm. Gözlərimi yuub gecənin səslərinə qulaq asıram. Sən gəlirsən. Maşını saxlayıb darvazanı açırsan, daha darvazanın səsi gəlmir, çünki bağlamırsan, deməli yorğunsan. Təkərlər çınqılı xırtıldadır, maşının işığı bağlı pəncərələrimizə sığal çəkit, sən itimizi şirin dillə oxşayırsan, pilləkəni qalxırsan. Evə girirsən. Otağımızdasan. Biz birlikdəyik.

Mən hamıdan əvvəl qalxıb, sübh tezdən bağçaya gedirəm. Bu, günün ən gözəl çağıdır. Çay dumanın arasından bərk vurur. Çəmənlər şehdən islanıb, su çiləyən qurğular tərəvəzi və güllüyü suvarır, bağban meyvə yığır, mən onunla birlikdə gəzirəm, yetişməkdə olan meyvələrə tamaşa edirəm. Hər səhər qayın, sidr, şaftalı, əncir ağaclarına baş çəkirəm, fəslin gözəl çiçəklərini dərirəm. Oyananda sənə bağımızdakı, güllüyümüzdəki yeniliklərdən danışacağam.

Sentyabr gecələrindən birində uzaq səfərdən qayıdırdıq. Heç kəs gəldiyimizi bilmir, it də hürmür, sakitcə quyruğunu bulayıb qıçlarımıza sırmanır, sevindiyini bildirir. Çayın kənarına çəkilmiş

alçaq hasarın üstündə otururuq. Ay, dümağ evimizi, hər küncünə bələd olduğumuz bağımızı işığa qərq edib.

İllər keçdikcə duyurduq ki, məhəbbətimiz sayəsində hər şeyə qadir olacağıq. Uşaqlarımız olacaq, sənətimiz, dostlarımız olacaq, evlər tikəcəyik, bəlkə daha yaxşı bir dünya yaradılmasında da xidmətimiz olacaq. Arzular indi həyata keçir. Biz cuşa gəlmiş inşaatçılar kimi hey qurub yaradırıq. Bu gecə duyuruq ki, planlarımız həyata keçib. Bəlkə uzaqdan gəldiyimizə görə, dəyişikliklər belə kəskin nəzərə çarpır, bəlkə də gecəin çox gözəl olduğuna görə.

Sənin öləcəyini bildiyim gündən anladım ki, daha heç vaxt o yerlərə qayıda bilmərəm. Amma bir dəfə sənin xahişinlə getməli oldum. Cənab B. birinci dəfə gördüyümüz kimi işləyirdi; o həmin çəmənliyin üstünə səpələnmiş qırmızımtıl şabalıd yarpaqlarını təmizləyirdi. Biz görüşdük. O sənin vəziyyətini soruşdu. Dedim ki, yaxşısan, ayağa qalxan kimi bura gələcəksən.

Uşaqlar həyət-bacada oynadılalr. Çay hazırladım. Həmişə sənin maşınla gəldiyin xiyabana baxa-baxa çayımızı içdik. Mən bura axırıncı dəfə gəlirdim. Hər şey öz gözəlliyini itirmişdi. Burda bizim yaratdıqlarımız bizsiz də mövcud olacaqdır. Mənim bütün ağaclara, güllərə, itə, quşlara, daha çox əşyalara, divarlara, mebelə, bəzək-düzəyə, şkafda səliqə ilə asılmış paltarlara acığım tuturdu — onlar qalacaqdır. Bu əşyaların qələbəsi idi, canlı aləmin yox, cansızların qələbəsi idi. Həmin gün fikirləşirdim ki, sən son nəfəsini səkəndə yer aralanıb burdakıların hamısını udsa nə yaxşı olar.

IY

Bağda keçirdiyimiz bir gecəni yadıma salıram. İndi həmin bağda tək gəzinirəm. Sən öləndən bəri uzaq qaçdığım yerələrdən biri də buradır.

Gecə yarı idi. Teatrdan axırıncı biz çıxdıq. Qar yağırdı. Əl-ələ tutub gedirdik. Danışmağa nə həvəsimiz vardı, nə də ehtiyacımız. Hara gəldi gedirdik. Hərdən maşınlar gəlib yanımızdan səssizcə keçirdilər. Məncə küçələr bomboş idi, bəlkə də boş deyilmiş, məhəbbətimiz bizi bütün aləmdən ayırıbmış. Biz Parisi görmürdük, gecəyə və səmaya daha yaxın idik. Vaven küçəsini keçəndən sonra Lüksemburq bağına gəlib çıxdıq. Sən dedin: "Bəlkə keçək bağa?".

Hasarın üstündən aşdıq, gözəl bir aləmə düşdük. Ayaqlarımızın altında qar xırtıldayırdı. Biz xoşbəxt idi və xoşbəxt olduğumuzu bilirdik. Bu, təmiz, mülayim bir sevinc gətirirdi. Sevinc isə belə bir

əqidədən doğurdu ki, dünyada hər şey yaxşı olmalıdır. Sən paltonu çıxarıb yerə sərdin, üstündə oturduq. Gecənin qaranlığında bir-birimizə baxırdıq. Sənin aydın gözlərini və qardan islanmış kirpiklərini görürdüm. Şəhər dövrəmizdə, iki addımlığımızda idi, hasarın o üzündə qalmışdı. Saat üçü vurdu. Axı nəyə görə mən birdən-birə bədbəxtlik haqqında düşündüm? Öz bədbəxtliyimizi yox, onda bu haqda təsəvvürüm də ola bilməzdi, başqalarını düşünürdüm. Həmin vaxt hardasa insanlar ölürdülər, öldürürdülər, ailələr dağılırdı, başsız qalmış körpələr ağlaşırdılar, arvadlar, kişilər çarpayılarında uzanıb öz səfil həyatlarının haqq-hesabını çəkirdilər. Burdan çox uzaqda, Hind-Çində, ölür-öldürürdülər. İnsan mövcud olandan bəri sevinc və qəm, ölüm və həyat oyunu bircə dəqiqə də olsa ara verməyib, həmişə də davam edəcək. Biz xoşbəxtlikdən məst olmuşuq, qol-qola, baş-başa oturmuşduq. Birimiz dedi: "Əgər bir gün bizə bədbəxtlik üz versə çalışarıq mərd olaq". O birimiz cavab verdi: "Mən sənə söz verirəm".

Şəhər canlanmağa başlayanda biz yola düşdük. Evə qayıdanda da yuxumuz gəlmədi. Həmin yuxusuz gecəni unuda bilmirdim; o çox gözəl, həm də qar kimi təmiz idi.

Y

Bə'zən özüm-özümdən çəkinirəm, ehtiyatla dolanıram. Hiss edirəm ki, yenə başgicəllənməm tutacaq. Gərək bir işlə məşğul olam, başım qarışsın. Fikirləşməmək üçün ora-bura qaçıram, işləyirəm. Bircə məqsədim olur: bir saat vaxt keçirmək, beləliklə saatlar keçir, fikrim yayınır. Amma, bə'zən ağır fikirlərdən yaxa qurtara bilmirəm. Səhərlər əhvalım yaxşı olur. Mən iki adam kimi yaşamağa öyrənmişəm. Fikirləşirəm, danışıram, işləyirəm və eyni vaxtda fikrim səninlədir. Sənin müəyyən məsafədən görünməyin mənə xoş olur, tütqün çıxmış şəklə oxşayırsan. Bu anlarda ehtiyat etmirəm, təslim oluram, ağrım-acım da yaxşı öyrədilmiş cıdır atı kimi amiranə olur. Cilvu buraxıram və qəfildən tələyə düşürəm. Sən yanımdasan. Səsini eşidirəm, əlini çiynimə qoyursan, yaxud astanada addımlarının səsini eşidirəm. Mən məhv oluram. Süstləşib yerimdə qalıram, gözləyirəm ki, bu vəziyyətim keçib getsin.

Hərəkətsiz bədəndə fikir, səmanın sükutunu yara-yara yerə enən zədələnmiş təyyarəyə oxşayır. Yox, sən burda deyilsən, orda,

buzlu sükut aləmindəsən. Axı, nə olub? Hansı səs, hansı duyğu, fikirlərin hansı sirli uyğunluğu səni gətirib mənə qovuşdurur?

Hey səninlə çarpışıram; başa düşürəm, bu çox dəşhətlidlir, amma özümü sənə təslim etmək üçün də kifayət qədər qüvvəm olmur. Biz üz-üzə durmuşuq. Otaqdakı sükutun səsi bütün gurultulardan güclüdür. Başımda qarma-qarışıqlıq, qəlbimdə həyəcan… Mən özümüzü keçmiş günlərimizin birində təsəvvür edirəm. Ruhum bədənimdən ayrılır, xoşbəxt günlərimizə, xoşbəxt anlarımıza qayıdır.

Parisdə, yaxud Nyu-Yorkda veyllənən, dünyanın axırı çatdığını bilən tənha adam kimi, mənə ucsuz-bucaqsız görünən mənzilin otaqlarını gəzinirəm. Dünyanın axırı sənin ölümündür. Amma görürdüm ki, dünya sənsiz də mövcuddur, həyat davam edir.

Əvvəlki kimi lazımi işləri görürdüm. Özüm isə əvvəlki kimi ola bilərdimmi? Mən güzgüyə baxırdım, toy gecəsinin səhəri güzgüyə baxan gənc, xoşbəxt bir gəlin kimi baxırdım. Yox, üzümdə heç nə duyulmurdu. Hələ keçmiş xoşbəxtliyin izləri qalmışdı, əzabımın izləri isə sonralar həkk olunacaq. Mən arxayın ola bilərdim, çünki sən heç nə görməyəcəkdin. Üzümün çizgiləri də, təbəssümüm də əvvəlki kiim idi. Hərəkətlərim də dəyişməmişdi. Mən hamam otağında olanda o biri otaqdan səninlə danışırdıq. Yaxşı eşitmək üçün gözlərimi yumurdum. Ömrümdə səni bu cür dinləməmişdim, bilirdim ki, bir vaxt səsini unudacağam; "Doğrudanmı on beş gündən sonra mən də çiməyəcəyəm?" deyən səsin yadımda qalmayacaq. Mən adamlara zəng vururdum. Sənə göndərilən çiçəklər üçün təşəkkür edirdim. Cərrahiyyə əməliyyatının müvəffəqiyyətlə keçdiyini söyləyirdim, tə'cili məktublara səninlə birgə cavab hazırlayırdıq, sonra arxamı sənə çevirib sün'i görkəmini dəyişib istirahət edirdi. Bank vərəqlərini bir-bir qoparırdım, pul xərclənib gedirdi… Sən deyirdin: "Mart aynıdı işləməyə başlayaram". Bu zərbələr məni gicəlləndirirdi. Bunlar bıçaq zərbəsi idi, yoxsa ən şirin sözlər? Səni ilk dəfə aldadırdım, inandırıcı baxışlarımla aldadırdım. Səni uçuruma aparırdım və bunun üçün tə'riflənirdim. Xəcalət çəkirdim, amma, o vaxta qədər mənə hər şeydən əziz olan həqiqətdən də güclü və dəyərli bir qüvvə məni bu yalanı danışmağa vadar edirdi. Bəli, bir aydan sonra biz istirahətə gedəcəyik. Taxta eyvanlı yaylaq evimiz olacaq, qarlı çölləri gəzəcəyik, meşələr keçəcəyik, günəş şüalarına qərq olmuş dağlar aşacağıq. Yox, daha heç vaxt, heç vaxt. Gündə on dəfələrlə həqiqəti sənə açmaq istəyirdim. Birinci cümoləni astaca özüm-özümə təkrar ediridm: "Gərək

sənə deyim", yaxud "biz ayrılacağıq" ya da "sənə yalan deyiblər". Axı, sənə dəxli olan bir işi səndən gizlətməyə nə ixtiyarım var, özünün cəsarətlə gedə biləcəyin yerə nə üçün səni qorxaq kimi, aparmalıyıq? İnandırdım ki, mərdlik göstərərdin. Mənə baxırdın: "Mən daha yaxşıyam, işini-gücünü atıb ancaq mənimlə məşğul olma, özümü yaşı hiss edirəm, heç yerim ağramır". Mən susurdum, ayaq tərəfdən çarpayıqnın üstündə oturub hərəkətsiz qalırdım, əlini məndən ayırmırdın, köksümü ötürüb fikirləşirdim ki, əgər həqiqəti sənə söyləmiş olsaydım indi nə edərdik: ölüm fikri səni bürüyəcəkdi, mən isə qolların arasında höncürəcək, öz xoşöəxt həyatımızdan danışacaqdım.

Mən sənin bədəninnin kəsilmiş yerinə baxırdım. Bu yara səni əyləndirirdi, deyridin:

— Mə'dəmə yol açıqdır!

Mən o yaraya nifrət edirdim, həm də məəttəl qalmışdım. Burdaca, dodaqlarımdan iki-üç santimetr aralıda səni öldürməyə hazırlaşan xərçəng yaşayırdı. O səni həlak edəcəkdi, özünün isə xəbərin yoxdur. Fikirlərimi oxuya bilmirdin, sifətim də sənin səliqə ilə tikilmiş yraan kimi hər şeyi gizlədirdi.

— Qəribədir, bilirsənmi, adam sinəsiinn yarılmış olduğunu təsəvvür edəndə qəribə hisslər keçirir.

— Əlbəttə, belə olur, həm də ki, sən birinci dəfə operasiya olursan.

— Mən sağalandan sonra başını yenə də sinəmin üstünə qoyarsan?

Mən başımın hərəkətilə "hə" dedim. Daha heç vxat, əzizim, ya da sən öləndən sonra. Mən gülümsünürdüm, amma belə fikirləşirdim. İstəyirdim heç nə anlamayım, şəyatın özünü tutub saxlayım, daha hərəkə olmasın. Yox, mən əlimdən gələn hər işi, nə cür olurolsun görəcəyəm, həyatdan məhrum olmaq isə sənə nəsibdir.

Sən mənə yorğun, dodaqlardan daha çox gözlərdə oxunan uzaq bir təbəssümlə baxırdın. Gözlərin əsil xəstə gözləri idi; ağı solmuş, bozarsış, susuz qalmış qamış kimi həm yaşıla, həm də sarıya çalırdı, qarası isə sədəf kimi idi. Hərdən baxışların ifadəsiz olurdu. Mənim zvallım, əmnim məhəbbətim! Bizim günlərimiz elə bil Sena çayı ilə birgə axırdı. Sənin son mənzilə çatmağına lap az qalmışdı. Kaş zəlzələ olaydı, dam uçulaydı, elə bir gözəl təsadüf olaydı ki, ikimiz bir gedəydik, həyatı birgə tərk edəydik.

Hərdən pəncərəyə yxaınlaşırdım, evlərə, yol keçən adamlara, cərgəyə düzülmüş maşınlara baxırdım, hər yerdə bir yazı görürdüm: "O öləcək", başqa heç nə görmürdüm.

Ayaq tərəfində çarpayıda uzanırdım, sənə baxıb gülümsünürdüm, ürəkdən gülümsünürdüm, çünki ələlik yanımda odluğun üçün xoşbəxt idim. İstəyirdim həmin anı ömürdən ayırıb götürüm, ondan kiçik bir ada düzəldim, amma bu da heç nə idi, heç nə. Sabahkı günüm qara olacaq, nə edim axı? Məqim bütün fikirlərim eyni bir divarla qarşılaşırdı: çıxılmaz vəziyyət, bağlıdalan. Bircə yol görünürdü, o ad fəlakət yolu. Sən nə oldu yeyirdin, mən isə özümü gövşəməyə məcbur edirdim.

Bir axşam belə dedin: "Ət yumşaq deyil, amma lap təzədir".

Lap təzədir, deməli bir az əvvəl kəsilib, öldürülüb. Nədənsə ürəyim bulandı.

YI

Parisdə səmaya təsadüfi hallarda baxırlar. Biz hər dəfə şəhərdən çıxandan sonra göyə baxa bilirik. Ayın və ulduzların hərəkətini izləmək, həmişə, hər ikimizin daixl olduğumuz bu sonsuz aləmə sayahət kimi ləzzətli olur. Hər dəfə biz ayrılanda sən ulduzların birində görüş tə'yin edərdin və mənə elə gəlirdi ki, məhəbbətimizin sonsuz tellərini görürəm. O, parlaq bir tel, qızıl bir xətt, odlu bir izdir; bizim ikimizdən ayrılıb qalxır və uzaq nöqtədə birləşir.

Çox vaxt gecəyə, səmaya tamaşa eləyərkən öz sevincimi və qüssəmi daha aydın, daha dəqiq görürəm, dünyanın quruluşunu və bizim ordakı mövqeyimizi, tənhalığı, məhəbbətin kamilliyini daha yaxşı anlayıram. Troil Kressidaya belə deyirdi: "Günəşin gündüzə, dişi göyərçinin öz erkəyinə, dəmirin maqnitə, yerin öz oxuna sadiqliyi kimi…"

Sən öləndən sonra, bir neçə ay göyə baxa bilmədim. Bir yay gecəsi, daha doğrusu, avqustun 28-də o ulduzu yenidən gördüm. Ulduzları arayırdım, onu axtarırdım, tapdım. O təkcə, sakit-sakit qərbdən şərqə tərəf hərəkətdəydi. Həmin ulduz insan şüurundan doğulmuşdu, adı "Exo II" idi. Onun sayəsində səma ilə barışdım. Həmin axşam uzun müddət çöldə qalıb onun qayıtmasını gözlədim. Elə bilirdim ki, böyük bir qələbə çalmışam. Mən Əlcəzair müharibəsinə, sürgünlərə, insanlara verilən əzablara görə xəcalət çəkmişdim; indi insanların ilk dəfə komsosa yol açdıqları bir döv-

rdə yaşadığım üçün fəxr edirdim. Sənin qəbrindən bir neçə yüz metr uzaqda idim, sənsizlik qollarımı yanıma salmışdı. Sən yaranmaqda olan bu yeni dünyanı görə bilməyəcəkdin. Daha həyata biganə idin. Heç unuda bilmirəm ki, səni xilas edə biləcək bir dərmanın kəşfini, dünyanın ən gözəl, ən xətasız bir raketindən üstün tutardım. Qızılgül gözəl ətir saçırdı. İtlər hürüşürdü, yol tərəfdən qulağıma maşınların uğultusu və maşınlarda gəzənlərin şən qəhqəhələri gəlirdi. Hər dəfə xoşbəxtlik əlamətlərinə rast gələndə, özümün necə bədbəxt olduğumu adha aydın hiss edirdim.

Gərək e'tiraf edim ki, ilk dəfə xatirələrin qoynuna atılıram; xatirələrimi ətrafıma toplayıram, yaşamaq üçün onlardan kömək dilәyirəm, öz keçmişimi arayıram. Hərdən öldüyün üçün sənə acığım tutur. Məni tək qoydun, qaçdın. Sənin ucbatından daha boz səmaya, noyabr yağışlarına, payızın qızılı yarpaqlarına baxa bilmirəm. Əvvəllər qara, çılpaq ağaclara baxanda baharın tezliklə gələcəyini düşünürdüm, indi onları görməyə gözüm yoxdur. Sübh çağından və axşamın ala-qaranlığında acığım gəlir, ancaq günəşə, ay işığına baxa bilirəm. Mən şux və dözümlü idim, indi ağırlaşmışam, əvvəllər şux addımlarla gəzirdim, indi ayaqlarımı sürüyürəm. Heç nəyə həvəsim yoxdur.

Daha heç yerdə sənin gözlərini axtarmıram. Uzun müddət səni görürdüm. Sənинlə birgə gəzmədiyimiz bir cığır, bir küçə, bir sahil varmı? Ya heç yana çıxmamalı, ya da hər yerə tək getməli idim. Qarma-qarışıq küçələrdə də, kimsəsiz meşə cığırlarında da tək səni görürdüm. Ağlım bu görüşdən çəkinir, ürəyim isə istəyirdi. Sən həm yoxdun, həm də vardın. Hər dəqiqə özümün yaşamağım bir yana, ürəyimin sənsiz necə döyündüyünə təəccüb edirdim. Hərdən deyirdilər ki, sən bizim aramızdasan. Mən razılaşırdım. Axı, niyə də mübahisə edəsən? Amma özüm-özümə fikirləşirdim ki, bə'zi adamlar üçün başqasının ölümü adi bir şeydir. Görəsən hamı özünün əbədi olub-olmayacağı haqda fikirləşirmi?

Mən səni çox sevirdim; bədəninin yoxa çıxması ilə razılaşmaq, ruhunun onu əvəz etdiyini və yaşadığını söyləməyə qadir deiyləm. Axı onları necə ayırmaq olar, necə demək olar ki, bu onun ruhudur, bu isə bədəni? Sənin təbəssümün və baxışın, bu isə bədəni? Sənin təbəssümün və baxışın, yerişin və səsin materiya idi, yoxsa xəyal? Həm materiya, həm də xəyal, lakin ayrılmaz idilər.

Hərdən dəhşətli bir oyun oynayıram: fikirləşirəm ki, görəsən sənin bədəninin hansı hissəsi kəsilsə, yaxud şikəst olsaydı sən mə-

nim sevdiyim həmin adamdan çevrilib başqa adam olardın? Məhəbbətimizin nişanəsi, həddi nəə idi? Nə vxat deyə bilərdim ki, daha səni tanıya bilmirəm?

Bə'ziləri mənə deyirlər ki, sevənlər bir-birini çox yaxından tanıyanda məhəbbət azalır, bitkiyə günəş lazım olan kimi məhəbbətə də pərdə lazımdır. Axı bu pərdə kimə gərəkmiş, ondan istifadə etmək acizliyi boynuna almaqdır. Onu yox etmək, aradan qaldırmaq lazımdır. İnsanla nə qədər səmimi, nə qədər yaxın olsan da görəcəksən ki, aralıqda hələ pərdə varmış.

Yatdığın vaxt sənə və sənin olduğun aləmə, dodaqlarının küncündəki təbəssümə, kirpiklərinin astaca titrəməsinə, çılpaq, heysiyyatsız bədəninə baxıram; bunları əvvəllər görməmişdim.

Mən sənin yanındayam, mavi və ilıq bir suda üzürəm, gözləyirəm ki, sarmaşıq çiçəklərinə qərq olmuş qapıda görünəsən. Mənə "salam" deyirsən, yuxuda nə gördüyünü, yuxudan sonra nə fikirləşdiyinə də bilirəm, amma səni tamam öyrənməmişəm.

Biz danışırıq: sənin səsin, fikrin və fikrini ifadə etmək üçün işlətdiyin sözlər dünyada ən yaxşı tanıdığım şeylərdir. Birimizin başladığı cümləni o birimiz başa vura bilərik. Yenə də səni tam öyrənməmişəm, bir-birimizi lazımınca öyrənməmişik. Sənin ən adi bir hərəkətin Cakondanın təbəssümündən də sirlidir. Hərdən ən çətin maneələr dəf edilir. İnsanı dünyanın kamilliyinə inandıran da gözəl çağlardır. Hərdən bu kamilliyi ədəbi yaşatmaq üçün özümə ölüm arzulayırdım. Lakin insan yaşamaq imkanı qalmayanda özünü öldürür, xoşbəxtlik isə insanı yaşamağa çağırır. Mən dəqiq bilmirəmr, amma başa düşürəm ki, kamilliyə yetişəndən sonra biz yenidən mübarizələr aləminə düşmək istəmirik. Biz allah olmuşuq, yenidən dönüb insan olmaq istəmirik.

Məhəbbət bulaqdır, həyatın bulağıdır, dünyanı firavanlaşdırır, insanı gözəlləşdirir; o həm mö'cüzədir, həm ə mə'lum bir şey, itirilmiş cənnətin kəşfidir, bədənlə ruhun birliyidir, gücümüzün və zəifliyimizin təcəssümüdür, həyata bağlılıq və eyni zamanda ölümə biganəlikdir, heç kəsin kəşf etmədiyi və həmişə hərəkətdə olan bir gerçəklikdir, ələkeçməzdir, gərək hər gün onu yenidən fəth edəsən.

Məni həyata bağlayan sən idin, indi ölümlə tanışlığımsan. Ölüm gələndə sənə qovuşacağım haqda düşünməyəcəyəm, fikirləşəcəyəm ki, sənin keçdiyin bir yolla, tanış bir yolla gedirəm.

YII

Mən yenə səmaya qayıdıram, yenə göylərə baxmağı sevirəm. Boz, qara buludlar geri çəkilən ordu kimi damların arası ilə sürünür.

Bu gün günəş gizlədilmiş səadətə oxşayır. Mən açıq səmanı, parlaq günəşi axtarıram. Şən olmaq üçün yeni səbəblər tapmalıyam. Üzü gülər olmalı, qaranlığı qovmalı, səni özümdə saxlamalıyam. Mən bu yeni vəziyyəti axtarıram. Hərdən tapıram, sonra itirirəm. Heç bilmirəm niyə bu qədər inadcıllıq edirəm. Uyğunlaşmalı ya da məhv olmalı — bu həyatın qədim qanunudurmu?

Başladığı işi yarımçıq qoymaq qorxaqlıq olardı. Mən ancaq çıxış yolu actarmaqla məşğulam. Bu səhər, Lüksemburq bağında gəzərkən əvvələr boşluqda gəzindiyim vaxtları andım. Onda xatirələrim sərbəst dolanırdı. Sən hardasa, min kilometrlərlə uzaqda yaşayırdın. Nə yoxluq, nə də məsafə mənə mane olurdu. Biz eyni fuqanın iki təranəsi idik və buna heç ə amne ola bilmədi. Bir sən vardın, bir də mən, ikimiz idik. Amma bu "ikimiz" əslində sən və məndən ibarət deyildi, o, təzə yaranırdı, bizi ötüb keçəcəkdi, bizi yaşadacaqdı.

Düşüncənin, xəyalın dolaşdığı düzəngah bütün mənzərələrdən yaxşıdır. Düzəndəki tənha ağac, səmada uçan bir cüt quş ən qaynar həyatdan canlı, ən yaşıl vadidən yaşıldır. Bə'zən mən danışırdım, sən qulaq asırdın, bə'zən də bir kəlmə də deməədn atların belində yanaşı gedirdik. Elə ki, xəyaldan ayılırdım, sənsizliyi, tənha olduğumu başa düşürdüm, ancaq qüssələnmirdim. Sən var idin, biz görüşmüşdük, başqa nə lazımdı ki. Biz hələ bir-birimizə öyrəşməmişdik, hələ çox iş görməli idik.

Mən öz taleyimi yaradırdım, mən də taleyim yaşadırdı. Özümü qıvraq hiss edirdim və hisslərimdən kənara çıxa bilirdim. Elə zənn ediridm ki, kamil və ağıllı adamam, hər cür hadisə ilə üz-üzə gəlməyə hazıram. Elə bilirdim ki, "bədbəxtlik — xoşbəxtlik" məsələlərinin mənə dəxli yoxdur. Elə bu inamın özünün xoşbəxtlikdən doğduğundan xəbərsiz idim. Xoşbəxtliyi adi bir şey kimi qəbul etmişdim.

YIII

Bir nəfər tibb işçisi gəldi. Onu çarpayıdan götürüb təkərli xərəyin üstünə qoydu. Biz bir-birimizə badıq. İstədim mən də gedim,

qoymadılar. Qapının qabağında qaldım. Tibb işçisi xərəyin arxasınca gedirdi, onun qarşısını kəsmişdi. Addım səsləri və təkərlərin asta uğultusunu eşidirdim, mənə elə gəlirdi ki, tibb işçisi bu uzun və səliqəli koridorun o başına çatanacan bir il yol gedəcək.

Əslinə qalsa, mən səndən həmişəlik ayrılırdım. Səni yorğana bükülü gördüyüm an, xoşbəxtliyimin son anı idi. Heç bir saat keçməmiş yenidən görüşdük, sən yatmışdın, saçların dağınıq idi, rənginsaralmışdı. Vaxt nə deməkdir? Daha bir saat keçdiyini xatırladan qüllə saatının zəngimi, ya bu bir saat ərzində baş verən hadisələrmidir? Yer titrəmişdi. Hər şey səndən milyon illər uzağa düşmüşdü. Yatırdın, sənə baxmağa cür'ət etmirdim, hərdən baıb tez gözümü çəkirdim. Donub qalmışdım, tibb bacıları, həkimlər vurnuxur, öz vəzifələrini yerinə yetirirdilərl. Mən sənin ölümünü arzulayırdım. İstəyirdim ki, ölüm tez gəlsin, ildırım kimi şığısın, yaxud oğru kimi xəlvəti gəlsin. Məhəbbət bu imişmi? Bir saat əvvəl səni yaşatmaq üçün hər şeyə hazır idim, indi ölümünü arzulayırdım. Həkimlərə yalvarmışdım ki, səni ayılmağa qoymasınlar. Bilmirdim yaxşı hardadır, pis harda.

Gecə damcı-damcı axıb gedirdi. Çarpayıda uzanıb gözlərimi tavana zilləmişdim. Məni əldən salmış fikirlərim tavanda əks olunurdu.

O öləcək, o öləcək.

O qədər mübarizə etmişdim ki, bütün bədənim ağrayırdı, düşməni özümdən kənar edirdim, o məni əzir, boğur, o baş-bu başa sürüyürdü. Mən təslim olurdum, həmin fikrə başımda da, bədənimdə də yer edirdim, sonra elə ağırlaşırdım ki, yerin yeddi qatına batırdım. Bəli, o öləcək. O çürüyəcək. Bunu bilmək lazımdır, buna hazır olmaq lazımdır. Bəlkə üzümü yana çevirsəm yaxşı olardı. Divar düm ağ idi, ora hələ heç nə yazılmamışdı. O yazılmamış bir səhifə idi. Mən dünənki səhifə kimi yazılmamış bir səhifə istəyirdim. İyirmi dörd saat geriyə qayıtmaq istəyirdim. Dünənki günü yenidən yaşayırdım. Sən operasiya olunacaqsan. Otanqda zəng. Çöldə bağban sakit-sakit gəzinir. Sənin sarpayında ayaqlarımız bir-birinə toxunur. Sağ əlinlə mənim sol əlimdən tutmusan. Yalnız kitablarımızın vərəqlərini çevirəndə əllərimiz bir-birini tərk edir. Necə də sakitlikdir! Hərdən mürgüləyirsən, üzünü mənə tərəf çevirirsən Saat üçdür, iki saat saxtımız qalıb.

— İstəmirəm ki, operasiyadan çıxanda yanımda olasan, adam cərrahiyyə əməliyyatından sonra eybəcərləşir, həm də yuxulu olur. Söz verirsənmi, orda olmayacaqsan ki?

— Yox, yanımda qalmalıyam, özü də eybəcərləşməyəcəksən. Sən yuxuda olanda baxmışam.

— Bu tamam başqa yuxudur.

— Yaxşı, söz verirəm.

Tibb işçisi gəlib səni apardı. Mən otağı səliqəyə saldım. Pəncərəni açdım. Səma alçaq, həm də dəmir örtük kimi ağır idi. Gözləmə zalına getdim. Məni yuxarı çağırdılar. Şəfqət bacısı ilə birgə liftə qalxdım. O, qapını açıb məni balaca bir otağa buraxdı, içəridə ancaq kürsüləri gördüm. Addım səsləri eşitdim, həkimlərin dördü də içəri girdi. Onlardan biri mənə yer göstərdi. Sakitlik çökdü. Mən onlara baxırdım. Danışan hansı idi? Həmin andan əvvəl taleyə yalvarmaq, vxatı tutub saxlamaq lazım ilimş. Daha ağ divarlar yox idi. Hər yanda, rənglərə də, lavmpalara da, qapının üstündən süzülüb gələn işığın şüalarına da belə yazılmışdı: O öləcək.

Sən yanımda idin, biz əlçatmaz bir aləmdə idik. Sən yatırdın, məhbusa dönmüşdün, mən isə cəlladın köməkçisi idim. Eşitmişdim ki, qəssabxanalarda heyvanlardan biri yaşamaq imkanı alır və öz nəslindən olan heyvanları bıçaq altına aparmaqla məşğul olur. Mənim başqa nə alacım vardı?

Səhərə qədər fikirləşir, özüm-özümlə mübarizə aparır, tərəddüd edirdim. Səhər açılırdı. Gərək sənlə görüşərkən üzümdən heç nə duymayasan. Mən həmişə anlamışam ki, ən böyük qərarlar bir neçə saniyədə qəbul olunur. Mən qərar qəbul etməli idim ya xoşbəxt qalmalısan, ya da xoşbəxtliyin qəfildən yoxa çıxmalıdır. Çəkdiyim əzabı, keçirdiyimi qorxunu duymamağın üçün əlimdən gələni edəcəyəm. Mənim imkanım bununla məhdudlaşır. İstəyirdim əvvəllər yaşadığımız xoş anları yaşayasan. Sonra özüm-özümə suallar verəcəkdim. Mən instinktlə şüur arasında bölünməmişdim. Bədbəxtlik həyatımı bürümüşdü. Bütün hisslər, bütün duyğular ondan süzülüb gəlirdi. O məni dəyişdirirdi. Bəlkə bir vaxt, əvvəlki kimi inanacağam ki, xoşbəxtlik də, bədbəxtlik də insan həyatının bərabər parçalarıdır və onlarvın hər ikisini qarşılamağa hazır olmaq lazımdır. Bu ağıllı fikir idimi?

O bütün gecəni də, səhəri də yatdı. Hərdən, bir anlıq huşa gəlirdi. Mənə baxırdı, bilmirəm məni görürdü ya yox, sonra yenə yuxuya gedirdi.

Sənin ilk baxışın. Bu baxış başqa bir dünyadan gəlirdi, ordan qaçıb, mənim baxışlarıma qovuşmaq istəyirdi. Mən isə xəyanət etməyə başladım, dedim: "Hər şey qaydasındadır".

Sən gülümsündün, gözlərini yumdun, əlimə toxundun. Həmin andan sonra hər nə fikirləşsəm də, ancaq sənin yanında özümü yaxşı hiss edirdim. Başımızın üzərində bəla dumanı sıxlaşırdı, amma yanımda olmağın, hələlik salamat və xəbərsiz olmağın məni ürəkləndirirdi. Özün də bilmədən mənə kömək edirdin: sənin xoşbəxtliyin naminə hiylə işlətməyə məcbur idim. Bircə dəqiqə də olsa sərbəst olmağa, bu dünyaya göz yummağa imkanım yox idi. Hər dəqiqə özümü cəmləşdirirdim. Deyirlər ki, dərd böyük olanda adam heysiyyatını itirir. Bu o qədər də düzgün fikir deyil, ömrümdə hər şeyə bu qədər diqqətli olmamışdım. Həmin axşam evimizə getdim. Uşaqlar məni qəhqəhələrlə qarşıladılar.

Mə'sumluğun özü də əzab çəkəcəkdi. Mən bunun da qarşısını ala bilmədim. Dəyirmi masanın arxasında sənin yerin boş idi. Bu da bizim çarpayımız. Görəsən burda öləcəkdinmi? Harda öləcəyinin nə fərqi vardı? Ən dəhşətlisi bu idi ki, sən öləcəkdin. Mən tək qalacaqdım, hələ bu haqda fikirləşməmişdim. Tənhalıq həm görməməkdir, həm də görülməmək. Klinikaya getdim. Məni gözləyirdin. Sən hələ var idin, sabah da söz yox ki, hamıdan əvvəl birbirimizi görəcəyik. Ağlıma dəhşətli bir fikir gəlmişdi: istifadə etmək. Bu sözlər beynimdə ilk dəfə cingildəyirdi. Axırıncı günəşli günlərdən "istifadə etmək", əmək haqqından "istifadə etmək". Bu iki söz elə eybəcər, elə həris, elə acgöz sözlər idi ki…

Gözlədim ki, sən yuxuya gedəsən, sonra ilk dəfə hüşumu itirdim, yorğun ayı kimi yuxuya getdim.

Səhər lap tez oyandım. Nəfəsinin səsinə qulaq asdım. Günlərin biirndə bu səsi eşitməyəcəkdim. Özümü tovlamaq istəmirdim. Özüm-özümə deyirdim: "O öləcək, öləcək, sabah, yaxud on beş gün sonra öləcək, bunu birdəfəlik bilmək lazımdır, çarə yoxdur". Özümü aldatmamalıyam. Bilməliyəm. Sonra bildiyimi unudub həmişəki işlərimlə məşğul olmalıyam. Gərək dayanmayam, yerimdən qalxam, duş qəbul edəm, dişlərimi yuyam, məktəbə gedən uşaqlarımız haqda fikirləşəm.

Sən yuxudan oyanan kimi hər iş asanlaşdı: indi biz iki nəfər idik. Bir yerdə olmağımızın nə qədər çəkəcəyini düşünmək istəmirdim. Saniyələr mənə saatlar kimi uzun, günlər isə saniyələr kimi qısa görünürdü. Axı, bizim ömrümüzün özü əbədiliyin yanında nədir ki? Bir göz qırpımı ancaq çəkər. Bəşəriyyət tarixini mağaralarda yaşamış əcdadlarımızdan bəri, hər biri bir göz qırpımı qədər çəkən, uc-uca calanmış ömürlər təşkil edir. Sən ölürdün, bir az sonra mən də öləcəyəm. Biz ucsuz-bucaqsız həyat zəncirinin kiçik bir həlqəsi olacağıq.

IX

Cərrahiyyə əməliyyatından dörd gün sonra səhər-səhər otağa bir tibb işçisi gəldi, səndən xahiş etdi ki, bir az gəzəsən. Sən iki dəfə cəhd eləyəndən sonra qalxa bildin. Yumşaq ev ayaqqabılarını ayağına geydirdim. Bədənin üzülürdü, pijamanın içində itmişdin. Bir tərəfdən tibb işçisi tutmuşdu, bir tərəfdən də mən. Görəsən o bir şey bilirldimi? Mənim bildiyimdən xəbərdar idimi? Mən dərdimi heç kəslə bölmək istəmirdim. Biz əvvəlcə bağçaya baxmaq üçün pəncərənin qarşısına getdik.

Sən dedin: "Bizim kəndə qayıdacağımız gün gözəl olacaq". İstəyirdim qayıdıb yerində uzanasan, çünki nə edəcəyini duymuşdum, amma sən istədiyini etdin. Bəzək otağına tərəf getdin, güzgüdə özünə baxdın. Kaş gözlərin səni aldadaydı, bunun üçün nə desən qurban verərdim! Özün-özünə diqqətlə baxırdın, başını bir az irəli uzatmışdın, həmişəki kimi əlini saçına çəkirdin. Mən irəli keçdim:

— İndi görkəmin o qədər də yaxşı deyil.

— Yaxşı deyil.

— Çünki ayaq üstəsən. İndi çarpayıya uzananda güzgümü verəm baxarsan, yerində uzananda rəngin qırmızı olur.

Doğrudan da, belə idi. Yerinə uzananda qan sifətinə qalxırdı, sən yaxşı görünürdün, təkcə saralmış gözlərin əmni narahati edirdi.

Qayıdıb çarpayında uzandın.

Mən indi sənə, on beş il əvvəl bir-birimizi sevməyə və öyrənməyə başladığımız günlərdəki kimi baxırdım. Baxışlarım təmiz idi. Ən sadə, ən mə'lum, eyni zamanda ən intim və ən gözəl hərəkətlərimiz ilk günlərdəki ləzzəti ilə gözlərim qarşısında canlanırdı. Bilirdim ki, bunlar keçmişdə qalıb. Biliridim ki, bunlar keçmişdə qalıb.

Bilirdim ki, daha heç vaxt uşaqları çiynində gəzdirməyəcəksən. Amma hələlik kitabın vərəqlərini çevirməyinə, əlimi əlinə ağmağına, məktub yazmağına tamaşa edə bilirdim. Hərəkətlərinin çoxunda xəstəliyin tə'siri vardı; asta addımlarla yeriyirdin, belin bir az əyilmişdi, üzünü qırxarkən iki-üç dəfə dayanırdın, çarpayıya əyləşərkən ehtiyatla əlini dayaq verirdin.

Ah! Əzizim, özündən xəbərsiz belə dəyişməyin yaxınlaşmaqda olan blümün sorağı idimi? Yox, ancaq mənə belə gəlirdi, çünki sənə başqa gözlə baxırdım. Axşamüstü sən yuxuda olanda baxırdım: çöhrən sakit idi, boynundakı damarda qanın necə axdığını görürdüm. Çöhrən sonra də belə olacaqmı? Bu gün sağ idin. Bir günü qazanmışdıq. Bəs ölüm nə cür gələcək? Onu nə cür tanıyacağıq? Mən onu izləyirdim, amma tanımadan necə izləmək olar? Bəlkə tanıdım? Sən mənim sfinksim idin, amma mənə verdiyin sualdan özün də xəbərsizdin. Ehtiyatla səni sorğu-suala tuturdum. Sənin çox yeməyinə məəttəl qalırdım: başa düşmürdüm bu fədakarlıq idimi, yə'ni tez salağmaq, özündə hiss etdiyin zəiflikdən yaxa qurtarmaq üçündü, yoxsa ölüm ayağında olsan da cavanlığın səni ac qurda döndərmişdi?

Bilmirdim klinikadan sağ çıxacaqsan ya yox. Tez-tez məni dəhşətə gətirən ağ divarlara baxırdım və fikirləşirdim ki, görəsən sənin ölümün bizi buradamı yaxalayacaq. Yox, vəziyyətin yaxşı idi, günlərin birində bizə dedilər ki, evə qayıda bilərik.

Mən şeylərimizi yığışdırdım. Hava yaxşı idi, bir az pəncərənin qarşısında dayandıq. Mən göz yaşı tökən arvadlardan deyləm. Otaq bizim gəldiyimiz gündəki kimi boş görünürdü. Təkcə, tilli bir stəkanda, quruyub ölmkədə olan bir qızılgül qalmışdı. Sonraı xəstə gəlib yerini tuta bilərdi. Deməli, bəxtimizin otağı bura imiş. Mən istəyirdim yatasan, amma sənin başında yeni planlar qaynaşırdı, istəyirdin dağda yaşayacağımız evin necə olacağından adnışım. Ev meşənin kənarında üzü gündoğana olacaq. Sən xizəklə sürüşməyəcəksən, amma xizəkli araba tutacağıq, ay iti verən qalın xəz paltolar geyəcək. Qarla yüklənmiş ağacların altında gəzinəcəyik, yaşıl dələlər tutub əhliləşdirəcəyik. Taxta balkonda nahar edəcəyik, axşamlar səmadakı və kənddəki işıqların yanmasına baxacağıq. Gündə altı dəfə yeyəcəksən, günəş vannası da qəbul edəcəksən.

Sən qayıdıb çarpayıda oturdun. Sonra paltarını geyməyə kömək etdim. Gəldiyimiz gün geydiyin kostyumu seçdin. Şalvarın

omba sümüyünə ilişib qalmışdı, köynəyinin boynu üç barmaq boş qalmışdı.

Sənin koridorla getməyinə tamaşa edirdim. Qapıdan çıxandan sonra bir anlıq səkidə dayandım. Dərindən nəfəs alırdın, günəşin sərt şüalarından gözlərini qıymışdın. Yadıma döyüş meydanına çıxmış öküz düşdü. Maşında dörd nəfər idik. Sən irəlidə əyləşdin, mən arxada. Sifətinin profilini görə bilmridim. Paris həm gözəl idi, həm qəddar, həm də mülayim. İstəyirdim sənin yorğun sevincini duyum, sənin gözlərinlə görüm, amma təkcə tük basmış, çöpə dönmüş boynunu görürdüm. İyirmi yaşın olanda da boynunu görürdüm. İyirmi yaşın olanda da boynun belə nazik idi. Elə ki, özün özündən narazı olurdun, qabağa düşüb tək gedirdin, cığırın qırağından götürdüyün çubuqla uzun otları vurub qırırdın. Bir az sonra mənə tərəf qayıdırdın, məni qucaqlayırdın, hər ikimiz qəh-qəhə ilə gülürdük. Amma gərək vaxtında güləydim, bircə dəqiqə əvəl gülsəydim sən yenidən qaşqabağını sallayacaqdın. Bütün bunlar uzaqda qaldı. Onda biz yolun o biri başında idik.

Sən qolunu söykənəcəyin üstünə uzatmışdın, əlini tərpədirdin ki, onu sığallayım. Elə arıq, elə zəif idin ki. Paris, Paris! Bu adamlar hara gedirlər? Hara belə tələsirlər? Mən yaşıl və qırmızı işıqlar havasına oynayan piyadaların və maşınların can üzən rəqsinə tamaşa edirdim, hər addım ölçülür, bir saniyə də vaxt itirilmir. Hər şey lazımi qaydasındadır, qaydalara riayət etmək kifayətdir. Piyada gedən o adam bəlkə bu axşam ölə cək, bəlkə də xəstəliyə tutulub, heç özünün xəbəri yoxdur. Nə dəxli var! Ölüm həmişə qapının ağzındadır. Əsas məsələ onu duymamaqdır. Xəbərsiz olmaqdır. Senanın axmasına, günəş şüalarının körpülər üzərində oynamasına tamaşa edəsən, dayanıb orda qalasan, ətrafa baxasan, nə xoşbəxtlik, nə bədbəxtlik nə keçmiş, nə də gələcək haqda fikirləşəsən. Dəqiqələri yaşayasan.

Bu bizim axırıncı gəzintimiz, sənini sevdiyin yerlərə son səfərin idi. Daha heç vaxt Parisi birgə gəzməyəcəkdik, daha heç vaxt həmin gün keçdiyimiz yolla gəlib Bak adlı dörd yol ayrıcını, Sen-Mişel meydanını keçəndən sonra evimizə çatdığımızı fikirləşməyəcəkdik. Günəşli səhərlərdə bu yolu qol-boyun keçdiyimiz yadıma düşdü. Bonapart küçəsil gəlib Sena sahilinə çıxardıq, hər dəfə eyni həvəslə, eyin vüqarla sahilin gözəlliyinə tamaşa edərdik. Səmanın rənginə hansı rəng demək olardı: nə ağ idi, nə mavi, nə boz, nə də qızılı, amma hər rəngdən vardı. Hələ şüaların astaca titrəməsi,

mülayim parıltılar bu daş döşəməli mənzərəyə, körpülərin tağlarına, çayın döngələrinə layiqli, insan şüuru və ağlı qarışmış bir incəlik verir.

Biz sahillə Trokaderoya qədər gedirdik, hərdən, tələsməyəndə dayanıb bu gözəlliyə elə-belə, yolüstü tamaşa edirdik. Parisdə həyat elədir ki, küçəyə çıxarkən əlin cibinə qoyub veyllənmək üçün yox, bir yerə getmək üçün çıxırsan. Hər il özümüzə söz verirdik ki, vaxta qənaət edək, amma iş elə gətirdi ki, həyat bizi axınına alıb aparırdı, şəraitin qurbanı olurduq, xırda gəzintilərdən çox uzaq səfərlərdə olurduq. Parisin qeyri-adi mühiti bizi bir neçə günlük bir-birimizdən ayırırdı. Görüşə bilmirdik, danışa bilmirdik. Evdən çıxırdıq, qayıdırdı, zəngləşirdik, yatırdıq. Bir müddət əlaqələrimiz kəsilmişdi, bir-birimizə həsrət qalmışdıq, amma bilirdik ki, gələn bazar günü görüşəcəyik, bu sonsuz həftənin bizə nələr veriyini bir-birimizə söyləyəcəyik, düşüncələrimizi, eşitdiklərimizi danışacağıq. Həm də, istəməsək də bir-birimizi uzaqdan müşahidə edirdik, axı biz adəti həyatımıza yamanca alışmışdıq. Həmin gün ilk dəfə geydiyim təzə yun köynəyim diqqətini cəlb eləmədi, tə'rifləsəydin məmnun olardım, axı sənin yapon qalstukunun boz köynəklə yox, ağ köynəklə daha yaxşı yaraşdığını deyəndə sən məmnun olmuşdun. Yeddi gün ərzində çəkdiyimiz həsrətin əvəzini çıxardıq, Jülyet Qrekonun "Bazar günlərindən zəhləm gedir" mahnısına gülürdük.

Biz həsrətli günlərdən sonra görüşmüşdük. Bir-birimizdən qida alırdıq. Daha görüşümüz olmayacaq. Yeganə görüşümüz sənin ölümlə görüşündür, onu sənin sifətində izləyirdim. Elə ki, sifətin bir az dartındı yaxud tərpəndi, özüm-özümə deyirdim; bu da ölüm; vəziyyətin yaxşı olanda da, özünü xoşbəxt sananda da şübhələnirdim, eşitmişdim ki, ölümqabağı xəstənin əhvalı yaxşılaşır. İndi ki əlimdən heç nə gəlmirdi, gərək fikirləşməyəydim də. Son nəfəsinə qədər səninlə olmağım mənə bəs idi. İndi biz birlikdə idik, maşında, əl-ələ tutmuşduq.Bəlkə də bir aydan sonra indi mənə cəhənnəm əzabı kimi görünən bu anları yaşamaq üçün hər şeydən keçməyə hazır olacağam.

İstədin pilləkəni tək qalxasan. Mən arxanca qalxdım. Şübhə yox ki, evimizə axırıncı dəfə qalxırdın. Əvvəllər bu pillələri səs çıxarmadan bəbir kimi dörd-dörd qalxardın, axşamlar qapının taqqıltısından bilirdim ki. Gələn sənsən, sonra sükut çökürdü. Bircə dəqiqə sonra otağımızın qapısında açarın səsini eşidirdim.

Həmin gün arxanca qalxırdım ki, yıxılsan tuta bilim. Pilləkəni qalxmağa sərf elədiyin qurtarmaq bilməyən vaxtda allaha yalvarırdım ki, qonşulardan heç biri çıxıb səni görməsin. İstəyirdim, arıqlamış, bozarmış, tər basmış sifətini heç kəs görməsinö Sürahidən əlini çəkmirdin, səndələyirdin. Burun pərdəklərin sıxılır, üzünün əzələləri dartınırdı. Elə bil Babil qülləsinə qalxırdıq. Ömrümdə pilləkən mənə bu qədər uzun görünməmişdi, elə bil dünyanın axırına qalxırdıq, bu pilləkən qurtarandan sonra başqa bir dünyanın axırına qalxacağıq, hey qalxacağıq, sonra mən tək qalacağam.

Evə çatan kimi kürsüdə əyləşdin. Başını aşağı salıb gözünü dizlərinin üstünə qoyduğun əllərinə zilləmişdin. Barmağındakı nişan üzüyünə baxırdın. Üzük baomağında durmurdu, sürüşürdü, şalvarına sürtüb geri çəkirdin.

Otağımız çiçəklə dolu idi, mənə elə gəlirdi ki, çiçəklər zəhərləniblər. Bilirdim, tezliklə onlar bu otağa böyük dəstələr, əklillər şəklində gələcəklərl. Sən bir gəncin çiçəyə qərq olmuş meyitinə dönəcəksən.

Deməli evimizə qayıtmışdın, mən bura hər axşam gəlirldim, özümü itirirdim, özümü ələ alırdım, sənin xoşuna gələn donlarımdan yaxud kostyumlardan brini geyirdim.

Axşam düşürdü. Pərdələri çəkdim. Gəlib yanında uzanıb özümü yuxuluğa vurdum, sən kitaö oxuyrudun. Mən qəddar bir varlağın lap yaxınlığında idim. Görəsən bu xərcəng necə şeydir? Bərk bir kütlə. Gördüyüm elmi-kütləvi filmləri yadıma salıb arayırdım. Mən bu güclü hüceyrlərən həyatını, onların qarşısıalınmaz tə'sirini görürdüm.

Onlar qalib gəlirdilər. Bu faciə lap elə bil gözümün qarşısında, sənin sığallı, günahsız dərinin altında baş verirdi. Axşamın sükutunda mənə elə gəlirdi ki, onların qarışqa kimi yorulmadan çalışdıqlarını hiss edirəm. Korladıqları orqanizm gözəl, həm də cavan olduğu üçün işləri daha rahat, daha tez gedirdi. Ölüm səni səssizsəmirsiz çəkib aparırdı, nə sənin xəbərin vardı, nə də mənim əlimdən bir şey gəlirdi.

X

Uşaqlarımızın ilk hərəkətlərini necə izlədiyimizi xatırlayıram. Mən bu günkü kimi onda da həyatla yaşayırdım, sən isə indi ölümlə yaşayırsan.

Qış səhərinin ala-qaranlığında səninlə körpələrimizin arasında mürgülədiyim yadıma düşür. Bu həm bədənimin, həm də şüurumunu xoşbəxt anı idi! Mən zahirən sakit görünən adi bir qabıq idim, daxilində isə həyat qaynayırdı. Mən mavi bir boşluqda üzürdüm. Bədbəxtlik və ölüm uzaq, unudulmuş məfhumlar idi, bir gün gələcəkdi, amma onlardan qorxan olmayacaqdı, həm də nə cür olur-olsun, həmin xoşbəxt günün gözəlliyini gizlədib yoxa çıxara bilməyəcəkdi.

Bir az əvvəl dünyaya yeni bir insan gəlmişdi. Mən gözlərimi aralayıb tez-tez ona baxırdım ki, yuxu görmədiyimə əmin olum. İndidən məni məftun eləməyə başlamış bu kiçik məxluqu inkar etmək olmaz. Bizim əlimizdən gələn o olar ki, bu insancığazın inkişafına kömək edək, yaxud istiqamət verək, çalışaq həyatda özünə yer axtarmağı öyrənsin. Bəs həyatdakı dönüşlərə adət etmək, müqavimət göstərməyi bacarmaq vacib deyilmi? Axı elə adamlar var ki, çətinliklərdə bərkiyib mətinləşir, başqaları isə mübarizəyə başlamamış məğlub olurlar. İndi mən bilirəm ki, həsrətlə baxan, arxayınçılıqla dolu, yalanın nə olduğunu anlamayan uşaq gözləri qarşısında acizəm.

Uşaqlıq illərinə qayıtdıqca körpə çağlarımın xoşbəxtliyinin külünü tapıram, onu yaşamalı və onun üçün müəyyən mə'nada cavabdeh olduğumu anlayıram. Qüssə içərisində keçmiş uzun günləri xatırlayıram; uşaqdım, qüssədən yaxa qurtarmaq istəyirdim, şən keçirdiyim anları isə haqlı və gözəl sanırdım. Sonralar abşa düşdüm, başa düşdüm ki, xoşbəxtlik yalnız can rahatlığı və dinclikdə deyil.

Bu gün də həmin fikri sınamaq istəyirəm. Məncə bu özümə, həm də sənə e'tibarlı olmağımdım, indi mö'cüzə gözləyirəm: birt gün yuxudan oyananda görəydim ki, xoşbəxtəm, ağrı-acı hiss etmirəm. Bilirəm ki, bədbəxtəm, yara almışam, bu yraa bədənimin bir üzvünə çevrilib, bilirəm, amma istəyirəm həmin yara daha mənə əzab verməsin.

İndi öz ömrümü yaşaya bilmirəm. Çox vaxt keçmişdə oluram, bu günə hərdən, təsadüfən qayıdıram. Bu ölümdən danışarkən fikirləşirdik ki, birgə ölmək daha yaxşıdır, hansımız gec ölsə daha çox əzab çəkəcək, indi bilmirəm nə deyim, cavabım hər dəfə əhva-

lımdan asılı olaraq dəyişir. Elə ki, baharın nəfəsi sinəmə dolur, uşaqlarımıza baxıram, həytan gözəlliyini duyuram, bir anlıq səni düşünmədən (bu çox az çəkir) həyatdan zövq alıram; sonra fikirləşirəm ki, sənin əzabın daha böyükdür. Amma elə ki, qüssə məni yaxalayır, əzir, kiçildir, özüm-öüzmə deyirəm ki, biz haqlıyıqmış, ölmək daha asandır. Tez-tez özümlə razılaşmıram. Gah səni xatırlamaq istəyirəm, gah da bezikirəm. Elə ki, qüssə başımdan aşır, dərdin sonu görünmür, istəyirəm bir az sakitləşəm. Hər dəfə sən məni rahat buraxanda, ayrılıqdan, son günlərimizin, son baxışlarımızın xatirələrinin pozulacağından, özümdən xəbərsiz məndə baş qaldıran həyat eşqindən qorxuram. Fikirlərim qarışıq düşür, heç səndələyirəm, müvazinətimi saxlaya bilmirəm.

Hələ uzun müddət belə olacaq. Razıyam. Amma hərdən elə bərk yoruluram ki, bütün fikirləri başımdan qovmaq, azad olmaq istəyirəm. Belə anlarda torpağa rəğbətim artır, onun içində yatmaq istəyirəm, istər ölü olum, istər diri, çürümək fikri də məni narahat etmir; qorxusuz-qadasız, acısız-ağrısız əriyəcəyimi təsəvvürümə gətirirəm.

Klinikdan qayıdan günün səhəri gec oyandım. Mənə dedin: "Elə yorğunam ki!" Cavab verdim ki, başqa cür ola bilməz, bu mərtəbələri qalxmaq sənin üçün çox ağırdır, gərək istirahət edəydin, yataydın. Biz çarpayıda hərəkətsiz, səssiz-səmirsiz fikrə getdik. Hər kəs öz fikirləri ilə məşğul idi. Mənə elə gəlirdi ki, fikirlərimizi görürəm, onlar otağın içində yuxarı qalxır, papiros tüstüsü kimi qıvrılır, başımızın üzərində hərlənir, açılıb-bükülür, bir-birinə toxunur, lakin nə qarışırlar, nə də bir-birini tanıyırlar.

Sənin sevdiyin bir musiqiyə qulaq asırdıq. Yalnız musiqi belə tə'sir göstərə bilər, istəsə adamı sakitləşdirər, istəsə sarsıdar, qəmləndirər ya da məmnun edər. Həmin gün musiqi ilə istirahət etdim. Musiqi ürəyimin rahatlığını geri qaytardı. Rahatlığım sən "Elə yorğunam ki", dediyin vaxtdan yoxa çıxmışdı.

Həyəcanlanmaq lazım deyildi bu hələ həkimin dediyi zəifliyin əlaməti deyildi, yəqin pilləkənin yorğunluğu idi. Sənin yanaqların yenə də qızaracaqdı, yemək istəyəcəkdin, bəlkə də çarpayının üstündə otura biləcəkdin, həyatdan bir gün də möhlət alacaqdıq. Fikrimi uzaqlaşdıra bilməzdim, günortadan sonranı fikirləşmək lazım deyildi, çox uzaqlaşmaq, artıq vaxt diləmək yaramazdı. Yox, həyata çox ərklə baxmaq da olmazdı. Bunu dinlədiyim musiqi təbliğ edirdi; deyirdi ki, hər şey daimidir, amma dəyişə bilər,

mehr və məhəbbət həyatdan təcrid olunmalıdır. Elə ki, azacıq da olsa dincliyə qovuşurdum, ürəyim müqavimət göstərirdi. Axı, nə vardı ki? Mən sağ idim, yaşayırdım, canlı idim, gələn yayı da, uşaqlarımızın boya-başa çatmasını da görəcəkdim. Bəs görəsən öləndə necə öləcəkdim? Sözün düzü bircə dəfə həyatım təhlükədə olub, onda da ölümü çox dəhşətli saymamışam, doğrudur bu, kədərli anlarıma uyğun bir təsadüf idi, mən oyun oynamışdım, risk eləmişdim, başqa dözülməz bir şey yox idi. Görəsən adamın öz məs'uliyyətini daşıması asandır, yoxsa başqasının? Bilmirəm. Əgər bilsəydim ki, səni xilas etmək üçün kiçicik bir imkan var, biz ikimiz məsləhətləşərdik, bütün imkanlardan istifadə edərdik, bəlkə də qələbə çalardıq. Həkimlər "heç bir ümid yoxdur" demişdilər, mən öyrənmişdim ki, onlar həqiqəti deyiblər. Buna inanmaq üçün tibb təhsili alan bir tələbənin dərs kitabını açıb baxmaq kifayət edərdi. Əgər məndən də gizləsəydilər, mən də sinin kimi xəbərsiz olsaydım necə? Yox, yaxşı eləyiblər. Həmişə bilməyi bilməməkdən üçtün tuturam. İstəyirdim hər şeyi mənə açıq desinlər, özüm isə səninlə başqa cür danışırdım. Mən bərabərliyimizi pozurdum, özüm mühafizəkara çevrilirdim. İstəyirdim sən xoşbəxt olasan, bu hər şeydən vacib idi, hər dəfə sən "xoşbəxtəm" deyəndə bütün yalanlarım bal kimi şirinləşirdi, onda mənə bəxş etdiyini ötəri təbəssüm üçün bütün dünyanı yalan danışmağa məcbur edərdim, istərdim həmin təbəssümü qarmalayıb götürüm, sinəmə sıxım, həmişə mənimlə olsun.

Bilirdim ki, özünün gözəl və qısa ömrünü uzun, dəyərsiz bir ömrə dəyişməzdin, Azı bu müqayisə nəyə lazımmış. İki cür insan olurmu, sən ulduz kimi yanıb yxa çıxanlardan idinmi?

XI

Breygelin "İkarın uçuşu" adlanan hərarətli əsəri tənhalığın rəmzidir. Bu tənhalıq lovğalıqdan deyil, laqeydlikdən yaranır, insanları bir-birindən uzaq salan laqeydlikdən. İkarım məhv olduğu bir vaxtda cütçü öz yoluna davam edir, yəqin o haqlıdır. Gərək həyat davam etsin, birisi ölsə də gərək məhsul toplansın, yaxud torpağa səpilsin, yeni məhsula dönsün. Amma o öz əzizinin köməyinə getsəydi yaxşı olardı. Bəlkə də mən səhv edirəm, şübhə yox ki, bir insanın ölməsindən onun da xəbəri olmur. O da dəniz, səma, təpələr və qayalar kimi xəbərsizdir. İkar ölür, o tənhalıqdan

deyil, tanınmazlıqdan ölür. Bizim hər birimiz həmin cütçünün günündəyik. Hər dəfə evdən çıxanda, küçədə gözəgörünməz qüssənin, əzabın yanından keçirik.

İmdad diləyən baxışları, ürəklərdəki və bədənlərdəki iztirabları duymuruq. Mən öz gələcəyimdən uzaqdayam. Əgər, doğrudan da, ona yaxın olsaydım qətiyyən tərəddüd etmədən öz işlərimdən əl götürüb ona tərəf gedərdim.

Biz İkar idik. Çöldə həyat davam edirdi. Pərdəni çəkib çölə baxırdım, həyətimiz də, küçəmiz də həmişəki kimi idi, amma mən onları başqa cür görürdüm. Hər şey dəyişmişdi, yeni bir mə'na almışdı, səslərdən diksinirdim, elə bilirdim ilk dəfə eşidirəm, gülüş səsləri elə bil başqa bir dünyadan gəlirdi, hər səhər zibil qabları səkilərin üstü ilə sürünəndə çıxardıqları səs sanki kiminsə e'dam olunmasını xəbər verirdi. Ölümə məhkum olunmuşdur hər səhər dan söküləndə qulaq asırlar ki, həyətdə dar ağacının qurulmasından xəbərdar olsunlar. Sən səhərlər dərin yuxuda olurdun, mən isə oyanıb ömrünün ən taqətsiz anlarını yaşayırdım, indinin, gələcəyin dərdini çəkirdim. Nə yuxulaya bilirdim, nə də çarpayımızdan qalxmağa halım olurdu. Yeganə ümid yerim ağ balışın üstündə sezdiyim sçların və yaxınlıqdakı bədənin idi. Bədəninin istisini duyurdum. Öldüyün günün səhəri də həmin istini duymuşdum. Sən sakit-sakit yatırdın, xəstəlik isə son hücuma hazırlaşırıd. Otağımızın qapısını örtüb çıxanda səni axırıncı dəfə görürəmmiş. Heç günorta olmamış sənin haqqında keçmiş zamanda danışacaqlar; o sevirdi, o istəyirdi, o işləyirdi, o çəkinirdi deyəcəklər. Keçmiş zaman — ölümün zamanıdır. Heç bilmirəm ən əvvəl kim bu zamanda danışdı; həikmlərmi, dostlarmı, yoxsa mən özüm. Bəlkə də mən idim: "Bilirdim" demişdim. Hər dəfə uşaqlarımın "olmaq" fe'lini bütün zamanlarda təsrif etdiklərini eşidəndə bir səhər keçmiş zamaın mənim üçün nə mə'na veriyini xatırlayıram. O var idi, daha heç vaxt olmayacaq. Vəssalam. Qurtardı. İstəyirsən başını divara döy, bağır, keyləşib qal, guya heç nə olmayıb, əlini dişlə, yalvar, e'tiraz elə, razılaş, heç nə dəyişə bilməzsən: o var idi, daha yoxdur. Hamı onun haqqında fe'lin keçmiş zamanında danışa bilər və danışmalıdır. Keçmiş onun öz zamanıdır.

Daha səni oyatmamaq üçün astadan danışmağa ehtiyac yox idi. Sən mövcud olmadığını göstəməyə başlamışdın. Mən tək idim. Bəlkə də tək olmağın yox, sənsiz olmağın qorxusunu hələ anlamırdım. Səni klinikada, xərəyin üstündə yuxulu görəndən sonra, bütün

fikirlərimdən güclü yeni bir fikir hərəkətlərimi eyni məsədə yönəltmişdi: o əzab çəkməsin, o heç nə bilməsin. Mənim rolum qurtarmışdı, şərəfsiz vəzifəmi yerinə yetirmişdim. Sənin saflığın ən gözəl keyfiyyətlərindən biri idi, ölümün qarşısına sadəlövh uşaq kimi çıxmışdın.

Sən gözəl idin. İndi də gözəlsən. Sabah belə olmayacaqsan. Bəli, bilirdim ki, sən daha həmin bədəndə deyilsən, amma gözümü səndən çəkə bilmirdim. Hələ sənə baxa bilərdim, əlini əlimə ala bilərdim, üz-gözünü oxşaya bilərdim. Sabah heç buna da imkanım olmayacaq. Sabah tabutda olacaqsan, həmişəlik gizlənəcəksən. Mən fikirləşirdim: özün özünlə tək qalacaqsan. İki gündən sonra arxanca yol gedəcəyəm, üç kündən sonra tamam ayrılacağıq. Xoşbəxtliyimizin sona çatdığı vaxtdan iyirmi gündən də az keçmişdi.

Özüm-özümə deyirdim: o ölüb, o ölüb, sən ölmüsən. Gərək bunu tez-tez təkrar edəydim, yoxsa boyun qaçırdardım, inanmazdım, inkar edərdim, pis vəziyyətə düşərdim. Dərd bütün bədənimi ağrıacı ilə doldurmuşdu, nəfəsim də bir nalə idi.

İstəyirdim bədənim mənə əziyyət verməsin, kömək etsin. Uçurumun bir kənarından tutub durmuşdum. Çalışırdım ancaq boşluqlara baxım. Ölüm sənin sifətində gəlmişdi, mən ona baxım, onu görə bildim. Ölü ilə xudahafizləşmək çox ağır işdir, başına gəlməyənlər bilməzlər, onu heç bir hadisə ilə müqayisə etmək olmaz. Bu ayrılıq dəhşətli dərəcəyə çatanda insan şüurunu itirir: elə hər şey də bu andan başlayır.

Hələ indi də həyatımızı bir-birindən ayıra bilmirəm. Sənin yoxluğunu özümə anlatmaq istəyəndə həyatım mühüm bir səhvini, dünyanın bütün zərif qüvvələrini lərzəyə salacaq kosmik bir bəlanı təsəvvür edirəm. Özümə dinclik axtarıram, tapa bilmirəm.

Hərdən sənin yoxluğuna adət edirəm. Daha yuxudan ayılarkən bədənimdə ağrılı giziltiləri, beynimdə isə yuxumun dərinliklərinə cuman, səhərlər sənin ölüm xəbərini mənə təkrar edən qulaqbatırıcı cingiltini duymuram. Hava haqda, oxuduğum kitablar haqda, gün ərzində görəcəyim işlər haqda fikirləşməyə başlayıram. Bir neçə ay fikirləşirdim ki, sənin haqqında yox, başqa bir mövzuda da həvəslə söhbət edə bilsəm, fikrimi təkcə sənin əksin deyil başqa bir əşya da cəlb etsə özümü bir növ xilas edilmiş sanacağam.

Bəlkə bu gün xilas olunmuşam? Bilmirəm. Keçmiş canıma çöküb. İndinin haqq-hesabını onunla çəkirəm. Amma bunu bilirəm, istəyirəm də, məni məəttəl edən ürəyimin tənha döyünmək

istədiyi bir anda, günlərin kədər yükü altında həyata qayıtmağın çətinliyidir. Fikrim həmişə qarışıq olur. Axşamlar evdən çıxanda lampanı keçirmirəm. Qayıdanda pərdələrin arxasından lampanın işığını görüb özümün xeyirsiz hiyləgərliyimə gülümsəyirəm, axı otaq işıqlı olanda qapını açan kimi öz tənhalığımla üz-üzə dururam. Şkafları açıb-bağlayıram, ətir şüşələrini silkələyirəm, kranları açıram, amma sənin yoxluğunu andıran sükutdan başqa heç nə eşitmirəm. Mən sükutu dinləyirəm, amam vahiməyə düşmürəm, əksinə, valeh oluram. Bu sükutu pozmaq istəmirəm. Yuxum özü gələcək, neçə-neçə gecəni sənin yoxluğunun sükutunu dinləyə-dinləyə yuxulamışam.

Bə'zən sənin nə vaxtsa mövcud olduğuna da şübhə edirəm. Həmin xoşbəxtlik, həmin gözəllik doğrudanmı var idi? Doğrudanmı biz onlarla qidalanırdıq? Belə vaxtlarda fikrimi cəmləyə bilmirəm, o uçub ötən günlərin üzərindən keçir, bütün maneələri dəf edir, hərlənir, ipə-sapa yatmır. İndi mənə qalan təkcə yuxu və keçmiş yanğının gülüdür, xatirəm təzələnir, elə bil səni görürəm, xoş xatirələr yavaş-yavaş qaydaya düşür və həqiqəti əvəz edir: qəribə xəyanətdir, axı xəyalı yox etmək üçün gərək onun əsli mövcud ola. Özümü yalandan xoşbəxt edirəm, bununla da ağıldan, dəyanətdən, şüurdan uzaq düşürəm. Otağımızda tək qalıb uzun müddət gözlərimi səin durduğun yerlərə, sevdiyin əşyalara zilləyirəm, sənin izlərini axtarıram, səni yavaş-yavaş qaranlıqdan çəkib gətirirəm. Hər dəfə dəqiq bir xatirədən başlayıram, bax elə divara düşən bu günəş şüaları… Neçə gündü yağış yağırdı. Ölümündən üç gün əvvəl, səhər gün çıxmışdı. Pərdələri çəkdim, sən mənə dedin: "Üzümə gün düşəndə ləzzət alıram". Çarpayını gün düşən yerə çəkdim. Bir anlıq gözləri yumulu qaldın, sonra gözlərini açanda pıçıldadın: "Nə gözəldir!"

Vaxt çox ləng keçirdi. Sənə təmiz paltar gətirdim. Mavi rəngli pijamanı seçdin, sən bu paltarda öləcəkdin. Günəşin şüaları otaqda oynaşırdı, sonra sənin çarpayından çəkildi, həmişəlik çəkildi. Ertəsi gün yağış yağdı, sonrakı gün də yağdı, üçüncü gün yağış yağdı, sonrakı gün də yağdı, üçüncü gün səhər sən öldün. Həmin səhərki onyabr günəşinin rəngini, sənin sifətini və saçlarını necə oxşadığını, sonra divana çəkilməsini heç vaxt unuda bilməyəcəyəm. Günəşə də acığım tuturdu. O da səni tərk edirdi.

Birgə keçirdiyimiz sonuncu yayda Eskalenin havası gözəl idi. O vxat biz yaman xəyalpərvər idik. Nələr fikirləşirdik…

Biz bitkilər kimi yaşayırdıq. Küləkdən və günəşdən asılı idik. Günümüzün necə keçəcəyini onlar tə'yin edirdilər. Ən adi hərəkətlərimiz adətə çevrilirdi, heç nə dəyişmirdi, günlərimiz xoş keçirdi, xoşbəxt idik. Xoşbəxtliyi su kimi içirdik, bə'zən nə qədər xoşbəxt olduğumuzu da unudurduq. Məgər quşlar uçmağın xoşbəxtlik olduğunu fikirləşirlərmi?

Biz saatlarla dənizin sükut dolu nəfəsini dinləyirdik, təkcə ürəklərimiz döyünürdü, vəssalam. İsti güc gələndə suya girirdik, səssizcə üzürdük ki, günəşlə dənizin gözləşməsinə mane olmayaq.

İstəsəydik dinməz durardıq, istəsəydik hər şeydən danışardıq. Əgər insan sükutdan və söhbətdən məhəbbətin, yaxud dostluğun yüksək təzahürü kimi istifadə edirsə, əgər onlar narazılıq, barışmaz ixtilaf əlaməti deyilsə, zahirən bir-birinə oxşamayan iki şəxsi daxilən tam oxşarlığa gətirirsə sükut da, söhbət də gözəldir.

Hərdən sənin qanın qara olurdu, onda mən də bir az qüssələnirdim. Sonra hər şey keçib gedirdi. Gün bərk qızanda sən şam ağacları əkilmiş kiçik vadini belləməyə gedirdin, mən isə geniş otağımıza çəkilib pəncərələri bağlayırdım. Uşaqlar yatırdılar. Evimizdə xoş bir sükut hökm sürürdü. Çəyirtkələrin səsi eşidilirdi. Sənin işlətdiyin toxanın səsini və ayağının altında qalan quru çör-çöpün çıqqıltısını eşidirdim. Saatlarla çalışırdın, çırpıları səliqə ilə üst-üstə yığırdın, ilk yağışlar qurtarandan sonra onları yandıracaqdıq. Evə qayıdanda tərli olurdun, üst-başından çör-çöp sallanırdı, əl-ayağın cızılırdı, özün şən görünürdün. Bə'zən də traktora minirdin, benzin iyindən və traktorun gurultusundan zəhləm gedirdi, sürüb uzaqjakı təpənin üzərinə qalxırdın, uzun illərdən bəri kolkos basmış keçilməz yerlərə yol açırdın.

Axşamüstü, günəş öz şüalarını evimizin üstündən çəksə də təpəni hələ işığa qərq etdiyi vaxt, ora gedirdik, bir neçə saat əvvəl sənin traktorla təmizlədiyin təzə yerlərə baxırdıq. Biz ordan şam qozaları yığıb gətirərdik, bə'zən uşaqları əyləndirmək üçün bir tısbağa da gətirərdik. Hərdən uşaqları da özümüzlə aparardıq. Tək olmaq istəyəndə, uşaqlardan xəlvət gedirdik, amma gələyimiz baş tutmurdu, görürdük ki, iki balaca kölgə təpəni qalxıb birbaş yanımıza gəlir. Qucağımızda bir az dincəlir, nəfəslərini dərir, sonra maraqlı bir əhvalat danışmağımızı tələb edirdilər. Hərdən uşaqlar fikirləşib ciddi suallar verirdilər. "Nə üçün günəş hər gün belə edir?" Onlar

ətrafdakı gözəlliyi duyur,susur, təzə bir əhvalat söyləməyi tələb etmirdilər. Onlar da bizim kimi qürub çağının gözəlliyinə tamaşa edirdilər.

— Bəlkə günəş daha qayıtmadı?

Biz cavab verirdik ki, sabah səhər tezdən, hələ onlar yuxudan oyanmamış günəş qayıdıb gələcək, indi oturduğumuz yerləri yenidən işıqlandıracaq.

— O bütün gecəni gəzəcək?

— Hə, gəzəcək, o dayanmır, biz də hərəkət edirik, bizdə gecə olanda başqa ölkələrdə gündüz olur.

Uşaqlarla edilən söhbətdən dəciddi söhbət ola bilməz. Onlar ciddi suallar verir, vacib məsələlərlə maraqlanırlar. Hər şeyi əsaslı öyrənmək istəyirlər. Hərdən onlarla ölüm haqqında danışırdıq. Bilmirdim ki, ölüm tezliklə özünü onlara tanıdacaq. Evin ətrafında çəyirtkə yaxud kərtənkələyə rast gələndə təsəvvür edirdilər. Tezliklə hər şey dəyişəcəkdi.

Bir neçə ay sonra uşaqlar "daha heç vaxt" sözünün mə'nasını anlamağa başlamışdılar. Onlardan biri çox əzab çəkirdi, çünki daha çox anlayırdı, o səndən danışarkən deyirdi:

— İndi ki, o ölüb, mən başqasını istəyirəm, özü də ona oxşayanı.

Mən istəyirdim başa salım. Axı nəyi başa salım? Deyim ki, məhəbbət…

— Axı ölünü sevmək olmaz, onu ki daha görmək olmayacaq, — deyə cavab verirdi. — Bəs o indi hardadır? Heç olmasa bizi görürmü?

— Yox zənnimcə görmür. Amma biz onu öz xatirəmizdə görürük.

Biri fəxrlə deyirdi:

— Mənim gözlərim də, ağzım da eyniylə onunkuna oxşayır, eləmi?

— Mənim bütün hərəkətlərim onun hərəkətlərinə oxşayır.

— Doğrudur.

— Bəs bədəni nə oldu, harda basdırdın?

Deyirdim təpədə basdırmışam, qəbiristanlıqda basdırmışam, deməyə dilim gəlmirdi. Çünki istəyirdim sevdiyimiz guşədəki ağacların birinin altında tabutsuz basdırılasan. Nə üçün bizim ölüm ayinlərimiz bu qədər kədərli və qeyri-təbiidir? Qanq çayı sahilindəki dəfn mərasimləri heç kəsçi qüssədən azad etməsə də azhi-

ri kədər də tələb etmir. İstəyirdim uşaqlarımızın xatirində işıqlı bir iz kimi qalasan və sənin çürüyəcəyin haqd fikir onların ağlına gəlməsin, bu fikir bir neçə ay mənə əzab vermişdi. Sənin məlahətinə və gözəlliyinə hörmətsizlik ediblər, deyə bilmərəm, amma bədəninin kəsilib dərmanlanmasını görürdüm, yanırdım, boğulurdum. Özüm-özümə deyirdim ki, eybi yoxdur. Sən heç nə hiss etmirsən, bu kimyəvi fenomendir, amma sənin bədənini, gözlərini, dodaqlarını, kostyumunun parçasını görürdüm. Elə ki, cücüdən yaxud milçəkdən qorxmuş bir uşağa "kiçik canlılar böyükləri yemirlər" deyirdilər. Hər dəfə fikirləşirdim ki, yox yeyirlər, özü də lap tamam yeyirlər. Bəli, mən istəyirdim bütün bunları özüm üçün saxlayım, istəmirdim sənin göydə olduğunu söyləsinlər, çünki biz belə fikirləşməmişdik. İstəyirdim səni həyatla əlaqələndirəm. Deyirdim ki, o bir cür ağaca və çiçəklərə çevrilib, arılar həmin çiçəklərdən şirə çəkirlər, bal düzəldirlər, sonra biz balı yeyirik, beləliklə, hər şey yenidən təkrar olunur.

Uşaqların hərəsi bunu öz təsəvvürü ilə qəbul etmişdi. Biri fərəhlə dedi:

— O ki elə gözəl idi, yəqin gözəl də çiçəklər açıb.

O biri dinməzcə fikrə getdi. Ertəsi gün yanıma gəlib dedi:

— Deməli,biz bal yeyəndə bir az da adam yeyirik.

Mən istərdim uşaqlar məni olduğun kimi sevsinlər. Görəsən onlar səni necə təsəvvür edirlər? Mənə keçmiş gəzintidən danışırlar. Əhvalatı onlara mən danışmamışam, özlərinin yadında qalıb. Həmin gün sən balaca bir ilan öldürmüşdün. O vaxt buna böyük maraq göstərdikləri nəzərə çarpmırdı. Evimizdən iki yüz metr aralıda baş vermiş bu hadisə indi uzaq səyahətdə sənin dəhşətli bir ilan öldürməyin haqda dastana dönüb. Sən onlar üçün cəsarət və qoçaqlıq simvoluna çevrilmisən. Mən onlara başqa, daha uzaq, daha maraqlı gəzintilərimizdən danışanda yenidən öz əhvalatlarına qayıdırlar.

Onlar səni axtarırlar, səin tanımağa çalışırlar, özlərinin həqiqi və uydurma xatirələrində səni yenidən görmək istəyirlər. Fotoşəkillər, deyilənlər, özlərinin qarışıq, tutqun, lakin hərdən adi bir əhvalatın tə'siri ilə aydınlaşan xatirələri onları həqiqətə yaxınlaşdırır, nəyin yalnız zahiri görkəm və nəyin dumanlı bir xatirə olduğunu aydınlaşdırmağa kömək edir. Onlar axtarırlar, fotoqraf kimi aparatın obyektivini burur, seçdikləri mənzərəni aydınlaşdırırlarl. Onlar səni öyrənməmiş özlərinin kim odluğunu bilməzlər.

Mən onlarda elə oxşarlıqlar görürəm ki, həm heyran oluram, həm də qüssələnirəm. Bu oxşarlıqlar ötəridir, birindən o birinə keçir. Adi bir hərəkət, ayaqqabının qaytanını bağlamaq, eyni vaxtı, eyni səmanı sevmək, səhər oyanmaq, bunlar hamısı səni xatırladır. Bə'zən elə bir baxışla rastlaşıram ki, onu heç vaxt sezməmişdim, bəlkə də var imiş, amma mənə elə gəlir ki, indi yaranır. Mən onları dinləyirəm, müşahidə edirəm.

Mən sənin ömür yolunla geri qayıdıram, tanımadığım yaşlarda səni görürəm. İstəyirəm uşaqların indiki görkəmi ilə sənin iyirmi yaşda odluğun vaxtı birləşdirəm, onda səninlə tanışlığım tam olar.

Yazıram, elə bil qurtarmaq bilməyən yumağı açıram. Yumağın ipi məni sənə tərəf aparır, gözü yumulu getmirəm, ömrümüzün izi ilə gedirəm. İstəyirəm ömrümüzün lap özəyinə qədər gedim. Elə ki həmin özəyə çatdım görürəm ki, bu adi bir mərhələ imiş, hələ uzaqlara getməli, xatirələr və duyğular dənizini keçməliyəm. Hər dəfə bir qat xatirə qabığından çıxmalıyam, yalnız bu yolla, sevdiyim arzusunda odluğum aləmə gəlib çıxaram. Öz həyəcan və müvəffəqiyyətlərimdən tək özüm xəbərdaram. Hərdən hiss edirəm ki, sənə yaxınlaşıram, kefim kökəlir, amma qəfildən hər şey yox olur, nə sümüyüm qalır, nə ətim. Elə bil sulfat turşusuna batıram; ip də qırılır. Əsəb telləri çəlməşik düşmüş balaca, yöndəmsiz bir canlıya dönürəm.

Yox, daha mübarizə etməyin əhəmiyyətiyoxdur, gərək bir fənd işlədib başımı qarışdıram, özümü əyləndirəm, elə bu fikir də məni haldan çıxarır. Maşınla, piyada yola çıxıram, heç nə fikirləşə bilmirəm, yol hara aparsa, ora gedirəm. İstəyirəm üzümü külək döysün, möhkəm torpaq üzərində dayanım, hər şeyi unudum, boş bir aləmdə olum. Yorulanda elə bil xils oluram. Deməli yaşayıram. Torpaq üzərinə qayıdıram. Hər şeyi əvvəlki yerində görüb təəccüblənirəm.

XII

Həmin gün səhər tezdən qapının hər iki tayını açdılar. Bir gün yarım sənin arxanca yol getdim. Yadımda o qalıb ki, yol qurtarmaq bilmirdi, kəndlər keçirdik, maşınlar ötürdük, sənin arxanca gedirdik, gözümdən uzaq düşəcəyindən qorxduğum gül-çiçək dolu qara maşını izləyirdik. Daha heç nə yadıma düşmür. Həmin gün Lionu keçəndən sonra sərv ağacları və çinarlarla əhatə olunmuş

fantanlar görünəndə cənuba getdiyimizi də duymadım. Burada səma da başlqadır, yağış da; külək güclüdür. Biz bunu duyradıq, həm də təəccüblənərdik ki, hər dəfə eyni ləzzəti alırıq.

Həmin başgicəlləndirən səfərdən həm aydın, həm də qeyri-təbii bir xatirəm var. Qara mşın benzin götürmək üçün dayandı., biz də arxada dayandıq, dayanmaya da bilərdhik, amma indi uzaqda olsan da səni gözdən qoya bilmirdim. Axşamüstü də dayandıq. Səni "qaraja" qoydular. Ətrafında fırlanmağa başladım. Bilmirdim nə edim, çiçəkləri sığalayırdım, əlimi tabutun üzərinə çəkilmiş qara parçanın üstünə qoyurdum, maşına əlimi sürtürdüm, yatmaq üçün otağa qalxa bilmirdim. Başımı itirmişdim. Heç nə anlamırdım. Sən qarajda qalmaoısan, mən isə otaqda, isti çarpayıda; yaxud nahar vaxtı sən qəribə bir bağçada olmalısan. Yeyirdim, içirdim, heç gözlərim də yaqarmırdı. Nə gələcəyi fikirləşirdim, nə də neçə gündən bəri görmədiyim uşaqlarımızı. (Sonralar uşaqlar mənə dedilər ki, həmin gün öz kiçik dostlarının evində oynayırlarmış).

İkinci gün gəlib qəbiristanlığa çatdıq. Burda ağlım başıma gəldi. Gözlərimi boz səmaya oxşayan uzaq dənizə zilləmişdim. Tabutun üzərinə atılan çiçək dəstələrinin səsi yadıma gəlir, küt bir səs idi, amma hər dəfə güclü dalğa kimi mənə toxunurdu. Az sonra tabutun üzərinə torpaq tökdülər, qəribə güclü səs idi, yaman guruldayırdı, torpaq taxtanın üstü ilə diyirlənib aşağıda özünə yer tapınca səs mülayimləşirdi. Dünyada təkcə ikimiz var idik, sən uzanmışdın, mən isə ayaq üstə idim.

Baxışlarım taxtanı da, qurğuşunu da keçirdi. Bütün dünyanı, dünyada nə varsa hamısını qurban verərdim, kaş sən qalxaydın, həmişəki kimi təpənin üzərində ikilikdə gəzinəydik, ya da dinməzcə dənizə tamaşa edəydik. Artıq yox, onca dəqiqə yaşayaydıq, sonra mən də öləydim, əzab çəkəydim,nə olur-olsun təki səni görə biləydim.

Ömrümdə birinci dəfə mümkün olmafan bir şeyi arzulayırdım. Sonralar uşaqlardan biri mənə dedi: "Sən ki hər şeyi bacarırsan, elə et ki, o bir günlük gəlsin, heç olmasa bir günlük, bayram edərik, şuluğ salmarıq, görər ki, biz xoşbəxtik". Mən bunun mümkün olmadığını izah etdim, başa düşdüm ki, mənim körpəm əbədiliyin mə'nasını anloayıb, amma o da mənim kimi buna inana bilmirdi.

Narın yağış yağmağa başladı, saat on ikini vurdu. Hava sakit idi. Bir yarpaq da tərpənmirdi. Damcılar səssizcə yarpaqların üzərinə və daş divarlara səpələnir, divarlarda tutqun izlər buraxırdı.

Torpaq yavaş-yavaş tabutu örtdü. Quyunun yerində çiçəklərlə örtülmüş bir təpəcik əmələ gəlmişdi.

Paris küçələrində işğal dövründən sonra həmin yerdə bir vətənpərvər öldürüldüyünü göstərən lövhəciklər var. Bə'zi adamlar onlara baxanda güllə dağıtmış sifət, qan gölməçəsi, yerə səriləmiş cəsədi təsəvvürünə gətirir və bununnə olduğunu bilirəm.

Paris vağzalında idim. Vağzal dəyişməmişdi, bizim istirahətdən qayıtdığımız vaxtdakı kimi idi (biz yayın qurtarmasına heyfsilənmədən, qışda nə edəcəyimizi fikirləşir, özümüzü irəlidəki fəslin ixtiyarına verirdik). Mən vağzalda, səkidən pilləkənə çıxmaq istədiyim vaxt bədənimdən soyuq gizilti keçdi, tənhalığın nə odluğunu anladım.

Qısarğa keçib getdi, salamat qaldım. Mən döyüş gözləyirdim, onun nə cür olacağından xəbərim yox idi, elə bir aləmə qədəm basırdım ki, onun haqqında fikirləşməyə nə vaxtım, nə də həvəsim olmuşdu. Otaqda qəribə bir sükut var! Hər şey əvvəlki yerindədir. Çarpayının örtüyü tərtəmizdir, başaltı dik durub, elə bil heç baş altına qoyulmayıbmış, çiçəklər solmayıb, oxuduğumuz axırıncı kitablar da çarpayının yanındadır. Hər şeydə yaxın bir keçmiş görünür, dörd günlük bir keçmiş, bu keçmişin əvvəli çox uzaqdadır, operasiya günü başlayıb, cəmisi iyirmi bir gündür, uçurumun o üzündə, o biri sahildə isə bizim birgə həyatımızın izləri qalıb.

Hər şey bitdi, həmişəlik qurtardı. Zaman öz addımlarını yeyinlədir. Ya boğulmalıyam, ya da nəfəs almalıyam, amma heç birini istəmirdim, seçmək istəmirdim. Həyat qəddarlıq edirdi: "Ölürsən, yoxsa yaşayırsan" deyirdi. Mən dinmiridm "Sən nə yemək istəyirsən, nə də yatmaq. Həm ölümləsən, həm də həyatla". Nə qorxaq idim, nə də cəsarətli. Uşaqlar mənə qəyyumluq edirdilər; onlar yanımda olanda özümü yaxşı hiss edirdim, onların sadəlövhlüyü, sənin az əvvəlki sadəlövhlüyün kimi mənə kömək edirdi. Azacıq iradəm qalmışdı, əgər o da olmasaydı, tez-tez müvazinətimi itirərdim. Başa düşdüm ki, hərəkətsizlik ölümün başlanğıcıdır. Yatmaq, huşsuz olmaq, qaranlığa cummaq istəyirdim, amma gözlərimi yuman kimi elə bil qarşımda güclü işıq yandırırdılar. Tənhalığı dinməzcə müşahidə edirdim; o, insanı üfüqə tərəf aparan səliqəli, hamar bir yoldur. Burda tənhalığın özündən başqa heç nə olmur. Bilmirdim günləri necə başa vurum, fikrimi nəyə cəlb eləyim. Sən məni haldan salmışdın, gözümün qabağından çəkilmirdin, boğulurdum, hara baxırdım sənin xəstə çağlarını görürdüm, istəyirdim

əvvəlki günlərimizi görüm, amma ölümün məni kor eləmişdi. Başıma bir çarə qıla bilmirdim. Gərək bu bağlı qapıları itələyib açaydım, amma saatlar, günlər keçir, heç nə etmirdim. Özümü məcbur edirdim ki, lazımi işləri görüm, deyiləsi sözləri deyim. Amma nə iş görsəm yersiz çıxırdı.

Hələ musiqiyə qulaq asa bilmirdim, qorxurdum musiqi məni öz aləmimdən ayırsın, canlı həyata aparsın. Heç duymaq da istəmirdim, bilmirdim axırım nə olacaq, məhv olacağam, yoxsa həyata qayıdacağam. Həyatın özü nə etməli olduğumu öyrədirdi. Gecələrə lə'nət oxuyurdum, amma onlardan yaxa qurtara bilmirdim, hər gün gəlirdi. İstəyirdim insanın hələ çata bilmədiyi bir şeyi keçi b getmiş hesab etməsinin ayıb olduğunu dərk edim. Varlılar deyirlər ki, var-dövlət xoşbəxtlik eyil, tənbəllər fikirləşirlər ki, nə etsən vaxt itirərsən, kobudlar deyirlər ki, mədəni olmaq insanlıq üçün şərt deyil, soyuqqanlı qadınlar neçə-neçə odlu məhəbbətdən sovuşduqlarına lovğalanır, zəiflər isə platonik ehtirası ən gözəl ehtiras sayırlar. Bu düşkünlüyə üstünlük verən, məharətlə hazırlanmış bir xəyanətdir. Lakin var-dövlətin xoşbəxtlik olmadığı, vaxtın itirilə bildiyi, savadlı adamın kobud ola biləcəyi və məhəbbətin yalnız fiziki ehtirasdan ibarət olmadığı da doğrudur.

Mən isə, ancaq ümidsizliyin dərinliklərinə çatandan sonra özüm-özümlə bir növ dil tapıram. Əgər bircə yolum qalırsa, o da qaranlıqdan, bataqlıqdan keçir.

Bir yol tapmaq üçün, gərək məni tərk edib getdiyin qarmaqarışıqlığı gəzib dolanam, başımı itirməyəm, hər şeyi öyrənəm, heç nədən qorxmayam, xoşbəxtliyi qəbul etdiyim kimi bədbəxtliyi də qaprşılayam.

Evdə fırlanıb məni həyəcanlandıran bir yığın əşyanın arasında başımı itirirdim. Daha lazım olmayan diş fırçasını, üzqırxanı, başmaqları neyləməliydim? Yandıraydım, saxlayaydım, başqasına verəydim, yoxsa Sena çayına ataydım? Yandırsaydım birdəfəlik olardı. Saxlasaydım ondakı vəziyyətimlə razılaşmış olardım. Görəsən mən, öz keçmişinə qapanmış, xəyala dönmüş bir ərə sadiq, köhnə məktubları oxuyan, dönə-dönə şəkillərə baxan bir qadına dönəcəkdim? Hərdən ev əşyalarının bə'zilərini satmalı, yaxud yerini dəyişməli olurdum, amma bə'zi şeyləri məsələn kitabı sənin qoyduğun yerdən tərpətmirdim. Onun vasitəsilə otaqda sənin hərəkətini, baxışını, danışığını təsəvvür edirdim. İstəyiordim vaxtı tutub saxlayam, ötəri anları əbədiləşdioəm; boşluqda sənin heykəl-

lərini düzürdüm. Gecə düşəndə çarpayımıza uzanırdım, donub qalırdım, tərpənmirdim, hardasa özümdən uzaqda sənin yanında olurdum.

Heç nə gözləmirdim, amma nə isə gözləyirdim. Beləliklə aylar gəlib keçdi. Varımızı hesaba alırdılar, borclarımızın cəmini hesablayırdılar, "daş-qaş və şəxsi əşyalardan başqa" bizim seçib aldığımız hər şeyə qiymət qoyurdular. Mən var-yoxdan çıxmamışdım, amma bir şey də qalmamışdı.

XIII

Hər şeyin tamam məhv olmadığını duyduğum gün indi yadımda deiyl. Bəlkə bir körpə təbəssümü, yaxud yersiz bir qüssə məni ayıltmışdı? Bəlkə məs'uliyyət hissi? Bəlkə mən özüm ümidsizliyi əldən salmışdım? Bəlkə də həyatın axınına qoşulmuşam. Həqiqətin o qədər üzü var ki, yenidən yaşamağa necə başladığımı dəqiq deyə bilmirəm. Bir gün hiss etdim ki, daha kölgə deyiləm. Hiss etdim ki, yaşayıram, nəfəs alıram. Mən yenidən ətrafıma açıq gözlə baxmaq istəyirdim. Yavaş-yavaş özümü ələ alır, öz vəziyyətimi öyrənirdim. Həmin vxatdan tənhalığın əzabını çəkmədim, amma onun tə'siri qalmışdı.

O mənə məhrəm oldu, indi bir-birimizi yaxşı tanıyırıq, onun gözlərinin içinə də baxıram. Mən tənhalıq haqqında dostlarımla da söhbət edirəm, onlar həmişə tənhalığı adi bir hal hesab edirlər. Mənim üçün qoşa yaşamaq hər şeydən gözəldir. Elə ki, yanımda sevməyi sərbəstliyin, bütövlüyün qənimi adlandırırlar, fikirləşirəm ki, görəsən söhbət mənim tanıdığım sevgidən gedirmi?

Yadımdadır, bir axşam kitab oxuyurdum, nəzərlərim kitabdan ayrılıb həmişə birlikdə tamaşa elədiyimiz kiçik heykəlciyə sataşdı; bu qadın bədənidir, elə bil şən qışqırtı kimi yerdən göyə ucalır. Donub qalmışdım, daha kitabı vərəqləmiridm. Gözlərimin qarşısından köhnə xatirələrim keçdi, sonsuz bir tamaşaya baxdım, qələbə mahnısının sədalarını eşitdim; tamaşa da, mahnı da noyabr günlərinin birində məhv olmuşdu. Elə bil torpağın altından üzə çıxırdım. Otaqda tək idim, amma tənha deyildim, mənə elə gəldi ki, otaq əvvəlki kimi deyil. Yenidən yaşamağa başlamışdım, gözəlliyi duymaq hüququ qazanmışdım.

Amma yenə əzab çəkirdim. Hər şeydən çox qoşa gəzənləri görəndə əzab çəkirdim. Onların baxışları camaatın başı üzərində hər-

lənir, bir cüt ulduz kimi qarma-qarışıq səslərin, siqaret tüstüsünün, viski qədəhlərinin üzərindən uçub uzaqlaşırlar: başqa nə varsa yaddan çıxır, onların görüşü dünyanı qaydaya salır, həyat gerçəkləşir. Kim nə deyir desin, nə eşidir eşitsin, onlar birləşiblər, başımızın üzəri ilə uçurlar, sonra biz çıxıb küçədə tək gedəndə onlar cüt olacaqlar. Mənim üçün isə həmin qoşa ulduz məhv olub, amma başqa ulduzların uçuşuna biganə deyiləm, onları tapıb aşkar edirəm.

Axırad təəccüblə fikirləşirəm ki, əbədiləşmiş cütlər çox az imiş.

Heç vaxt ölümə xoşbəxt günlərdəki qədər biganə olmamışam. Mənim üçün ölmək və yaşamaq, demək olar ki, eyni idi. İndi ölüm haqda çox fikirləşirəm. Küçəni keçəndə də, maşın sürəndə də yadıma düşür. Yüngül bir soyuqdəymə sətəlcəmə çevirlə bilər, azacıq arıqlayanda ağır bir xəstəlik haqda

LUİ BAZƏN

Lui Bazən fransanın tanınmış türkşünas alimi və yazıçılarından biridir. Onun, atası tanınmış fransız yazıçısı Erve Bazən sosyal mövzulu romanları ilə şöhrət tapıb.

Lui Bazənin ədəbiyyata,ədəbi araşdırmalara və bədiitərcüməyə ciddi marağı da əcdadları arasında yetişmiş ciddi ədiblərin təsirindən yaranıb. Şərq ədəbiyyatına marağı sayəsində Lui Bazən müasir Fransa ədəbiyyatşünaslığında türk ədəbiyyatı mütəxəssisi kimi tanınır. Lui Bazən türk alimi və ədəbiyyatçısı Altan Göyalpla birgə "Kitabi Dədə Qorqudu" fransız dilinə çevirib və bu əsər Fransada ilk dəfə 1998-ci ildə nəşr olunub. Lui Bazənin " Kitabi Dədə Qorqudun" fransızca nəşrinə yazdığı ön söz onun türk xalqlarının tarixi və mədəniyyətinə böyük maraq göstərməsinə dəlalət edir.

QISA TARİXİ YADDAŞ

"Dədə Qorqud Kitabı" (Kitabi Dədə Qorqud) bizim orta əsr dastanları kimi hərdən şerə keçən nəsr parçalarından ibarət epik bir yazıdır.Əsasən əfsanədən kök alan bu hekayələr tarixən mövcud olmuş Orta Asiyadan cənub-qərbə türk axınında böyük rol oynamış bir cəmiyyətin islamlaşmış-köçəri Oğuz cəmiyyətinin həyatı ilə bağlıdır.

O vaxt şərq türkləri (göy tyrk) hakimiyyətində olan İndiki Monqolustanın Şimal-Qərbində yaranmış "Doqquz Oğuz" qəbilə birliyi xristian erasının 740-cı ilinin əvəlində ali seçilmiş Uyğur qəbiləsinin başçılığı ilə öz hakimlərinə qarşı üsyan etdilər. Sonra Uyğurlar Monqolustanın Hakimi oldular. Ancaq 840-cı ildə Yenisey çayının yuxarı hövzəsindən gəlmiş qırğızlar onları ərazidən qovdular. Uyğurlar indi çin Türküstanı adlanan əraziyə tərəf çəkilərək orada yeni bir imperiya yaratdılar. Eyni zamanda oğuz qəbilələrinin bir hissəsi Orta Asiya çöllərini keçərək qərbə tərəf hərəkət etdilər. Bu qəbilələrdən biri olan kınıq qəbiləsinin başçısı Səlcuqun nəsil davamçıları başqa oğuz qəbilələri içində böyük nüfuz qazandılar və nəticədə səlcuqlar sülaləsi yarandı. Bu sülalənin əsasını qoyan Toğrul bəy 1038 və 1063-cü illər arasında Xorasan, Xarəzm, İrak, Azərbaycan və İranın böyük hissəsini öz hakimiyyəti altına ala bildi. Onun qardaşı oğlu və davamçısı olan Alp Arslan Bizansı məğlub edib, onun imperatoru Romen Diogeni əsir aldı, Ermənistanı tutdu və Anadoluya türk yürüşü üçün qapı açdı.

Təxminən on il sonra Süleyman adlı bir Səlcuq prinsi Bizansı n müxtəlif qrupları arasındakı vətəndaş müharibəsinə qoşularaq Rumdakı ilk səlcuq sultanlığının paytaxtına çevrilən (1081-dən 1097-yə kimi) Nise şəhərində məskən saldı. Sonra paytaxt Konyaya köçdü və 1318-ci ildə sülalənin sonuna qədər orda qaldı. Əslində isə bu sülalə 1243-cü ildə kiçik müqavimətdən sonra Monqollara təslim edilmişdir.

İstər İranın "Böyük Səlcuqları" istərsə də "Rum Səlcuqları" (əvvəl bizans olmuş Anadolu) olsun,oz siyasi xadimləri və dövlətlərinin sünnü dini rəhbərlərini təşkil edən Səlcuq aristoqratiyasına görə nisbətən sonra islamlaşmış Oğuzlardan - qərbi İran (Azərbaycan) və Anadolu Türkmənlərindən fərqlənirdilər. Səlcuqlar ərəb-fars mədəniyyətini və İran həyat

tərzini qəbul etmişdilər. Onların yazılı (bəzən də şifahi) dili türk dili deyil ərəb və fars dilləri idi. Qəbilə ənənələri onlar üçün uzaq bir xatirə idi və onlar özlərini türk adlandırmırdılar. Köçəri maldar və döyüşçü olan,əsasən geniş düzənliklərdə,yayda isə dağ otlaqlıqlarında məskən salan Türkmənlər isə türk-oğuz dili ilə bərəbər öz qəbilə qurumlarını və qədim ənənələrini qoruyub saxlamışdılar. Onlar özlərini müsəlman sayır və din yolunda döyüşlərə girsələrdə də,qəbul etdikləri yeni dinə islamdan əvvəlki myxtəlif inaclar da qarışmışdıla.

1071-ci ildə Səlcuqların Bizansı məğlub edib Türkmənlərin Anadoluya köçməsinə şərait yaratması fikri düz olsa da,Anadolunun bəzi rayonlarına və Azərbaycan türk əhalisinin və türk dilinin yayılmasını təmin edənlər getdikcə iranlılaşan səlcuqlar deyil, məhz türkmənlər olub. Monqol işğalı bu prosesin daha da sürətləndirib. İranın "Böyük Səlcuqlar" hakimiyyətinə son qoyan və "Rum Səlcuqları"nı özünə tabe edən (həmən dövürdən dağılıb və gücdən düşüb) Monqollar qəsdlə yaxud qərəzsiz olaraq türkmən qəbilələrini mərkəzi hakimiyyətə tabelikdən azad etdilər. Türkmən sərgərdələri müstəqil türk əmirlərinə dönərək sərhədləri dəyişgən və bəzən də müvəqqəti olan bəyliklər yaratdılar,qonşularla tez-tez vuruşmalı oldular, ərazidə türk əhalisi artdı və türk dili geniş yayıldı.

Bu bəyliklərdən birinin,əvvəl Anadolu səlcuk hakimlərindən birinə tabe olmuş, sonralar isə təkbaşına döyüşlər aparan Osmanlılar bəyliyinin inkişaf yolu xüsusi maraq doğurur. Kiçik Asiyanın şimal-qərbində,keçmiş Yunan əyaləti Bitinində əslən Kayı oğuz tayfasından olan türkmən sərkərdələr nəsli hərbi uğurlar nəticəsində Söçüt ərazidə bir bölgəyə sahib olurlar . Sonra onlar əhatədəki bizans başçılarla qohumluqlar yaradaraq (qız alaraq) öz hakimiyyətlərini bütün əyalətə yaydılar və buradan başlanan böyük yürüşlər nəticəsində bir imperiya yarandı. Oturaq və sahmanlı, köçəri türkmənlərdən çox fərqlənən bir cəmiyyətin rəhbəri və təşkilatçısına dönmüş bu Osmanlılar səlcuqlardan fərqli olaraq öz oğuz əcdadlarını çox yüksək qiymətləndirir. Özlərini Nuh nəslindən olan əfsanəvi Oğuz xanın davamçısı, oğuz tayfalarını birləşdirmiş Kayı xanın nəsli sayırlar. ("Kayıq" oğuz tayfasının adı tarixi mənbələrdən ancaq X1-ci əsirdən bəllidir). Bu fakt müsəlman türklərin Anadolunu fəth etməsində türkmən oğuzların neçə aparıcı rol oynamasını əsəslandırır və XIV-əsr

Osmanlı türk tarixçələri bu əfsanəni yayarkən nəyə əsaslandıqlarını göstərir.

Məkan və zamanca daha yaxın keçmişdə orta Asiya mənşəli,böyük oğuz tayfası "Bayındır" nəslindən olan "Ağqoyunlu" türkmən tayfası da, eyniylə oğuzkökündən olan "Qaraqoyun"lularla düşmənçiliklər dövründə öz hakimiyyət dairilərini genişləndirdilər. Kanstantinopolu fəth etmiş Osmanlı sultanı II-Mehmedin müasiri,Uzun Həsən adlandırılan Həsən bəyin parlaq hakimiyyəti dövrünndə, XV-əsrin ikinci yarısında onlar şərqi Anadolunu, Azərbaycanı,İraqı və nəhayət İranı öz hakimiyyətləri altına aldılar.

1444-cü ildə atası öldükdən sonra Uzun Həsən böyük qardaşı Cahangirə məharətli bir silahdaş oldu.Vərəsə kimi onun payına paytaxtı Mardin olan kiçik bir Analolu bəyliyi düşmüşdü. 1447-ci ilə qədər qardaşlar "Qaraqoyunlu"lara qarşı birgə uğurlu döyüşlər aparırlar. Sonra isə onların araları dəyir və bir il sonra Uzun Həsən təkbaşına Amidi ələ keçirir və bəy rütbəsi alır. Daha sonra o bir sıra parlaq qələbəli döyüşlər ararıb şərqi Anadolu, Azərbaycan, İrak, İran, Xorasanın bir hissəsi və Gürcüstanın daxil olduğu böyük bir imperiya yaradır. O Təbrizi Özünə paytaxt seçir. Burada incəsənət və ədəbiyyatın çiçəklənməsinə şərait yaradır. Öz əcdadlarının tayfa mənşəyinə görə onun imperiyası "Bayındırlar Dövləti" adlandırıldı. Eyni zamanda II-ci Mehmedin imperiya paytaxtı Andrinopoldan 1453-cü ildə fəth olunmuş Kanstantinopola köçürülərək "Osmanlı Dövləti" adlandırıldı.

Uzun Həsənlə qarşıdurmadan ehtiyat edən II Mehmed şərqi Avropada mövqeini möhkəmləndirdikdən sonra öz hakimiyyətini kiçik Asiyaya tərəf genişləndirmək qərarına gəldi. İlk növbədə o bizans imperiyasının qalığı, Qara dənizin şərq sahilində yerləşən Trebizond yunan imperiyasına hücum etdi və 1461-ci ildə onu öz ərazisinə qatdı. Həmən vaxtdan Osmanlı imperiyası, şərqdə Uzun Həsən imperiyası ilə əlaqəli oldu. Onların qarşılaşması vaxtı hələ çatmamışdı. Çünkü II-ci Mehmedin Avropada işi çox idi, burada müxtəlif birləşmələrlə vuruşmalı olurdu. Eyni zamanda Uzun Həsən də kiçik Asiyada, şimaldan onu hədələyən "Qaraqoyunlu" türkmən bəylikləri və özünün cənub əyalətindəki Karamanlılardan ehtiyat edirdi. Yalnız 1473-cü ildə Sultanın ordusu güclü bir hucumdan sonra Uzun Həsəni məblub etdi. Bu döyüşdən sonra nə sülh nə də məğlubiyyat müqaviləsi olmasa da 1478-ci ildən Uzun

Həsənin ölümünə qədər vəziyyət sabit qaldı. Onun oğlu və varisi Xəlil Sultan isə II-ci Mehmedlə uzun müddətli sülh müqaviləsi bağladı.

Müxtəlif tarixi hadisələri seçib yada salmaqda məqsədimiz bizə yalnız iki əl yazması ilə məlum olan "Dədə Qorqud kitabı" nda cəmləşmiş əfsanələrin yarandığı mühit haqda ümumi də olsa bir təsəvvür yaratmaqdır.

Bu əl yazmalarının ən dəyərlisi belə görünür ki,ən qədimi Drezdendəki keçmiş Saks kral kitabxanası 1831-ci kataloqunun 86-cı nömrəsi altında saxlanılır.

Əlyazma 152 vərəq, 304 səhifədən (13 sətirlə) ibarətdir, "Nakşi" üslublu ərəb əlifbası ilə və kursivlə yazılıb. XVI əsr qərbi türk dili qrafiq qaydalarına, onun az səsli (hərfaltı və hərfüstlü işarələr çox azdır) kar və cingiltili səslərin qarışdığı varianta çox da uyğun gəlmir.

Yazının dili o dövrün Osmanlı türk dilindən aydınca fərqlənir. O şərqi Anadolu vəAzəbbaycan dialeklərinə mənsub fonetik, qramatik və lakin xüsusiyyətləri özündə əks etdirir.

Əlyazmanın kolofonu yoxdur. Orada göstərilən yeganə tarix birinci vərəqin (üzlük) yuxarı sağ tərəfində başqa əllə yazılmış bir qeyddir. "Osman paşanın ölüm tarixi : "993" (hicri ilə; bizim era tarixi ilə 1585).

Bu qeyd Yəmən fatehinin oğlu,1526-cı ildə anadan olmuş Özdəmiroğlu Osman Paşa haqdadır.O gənc yaşlarından yüksək vəzifələrdə olmuş, İrana qarşı 1577-ci il müharibəsində böyük şücaətlər göstərmiş, həmən müharibə vaxtı Gürcüstanda,Qarabağda və Dağıstanda vuruşmuşdu. 1584-cü ildə III Muradın baş vəziri təyin olunmuş, Təbrizi almış və bir il sonra orada vəfat etmişdir. Ölümündən əvvəl o əfsanəvi bir şəxsiyyətə dönmüşdü.

"Dədə Qorqud kitabı"nın bəzi qəhramanları kimi bu tarixi hadisələrində bir hissəsi Qafqazın cənubuna aid olduğu üçün, fikirləşmək olar ki, Drezdendəki əl yazmasının keçmiş sahiblərindən biri bu tarixi hadisəni sonrakı nəsillərə anlatmaq üçün onu kitabın üz cildinə qeyd etmişdir.

LUİ BAZƏN
Fransa Əlyazmalar və Bədii
Yazılar Akademiyasının üzvü.

FRANSUAZ SAQAN

Tanınmış fransız yazıçısı Fransuaz Saqan 1935-ci il iyunun 21-də Fransanın Kajark şəhərində anadan olub. Kiçik yaşlarından valideynləri ilə Parisə köçüb və təhsilini də orada alıb. Yeniyetmə vaxtından Saqan bədii yaradıcılıq həvəsinə düşüb və özünün dediyi kimi həmən yaşda uğursuz pyeslər, şe'rlər və hekayələr yazıb. Nəhayət, on səkkiz yaşında ikən özünün ilk romanı ilə böyük şöhrət qazanıb. "Salam qüssə" adlanan həmən roman az vaxt içində iyirmi beş dilə tərcümə olunub və milyon nüsxələrlə çapdan çıxıb. Dünya ədəbiyyatı tarixində bu yaşda belə bir şöhrət qazanmış yazıçı az olub. Yazıçı özünün ilk əsəri və böyük müvəffəqiyyəti haqda belə deyib: "Gənc qızların əsas cəhəti budur ki, onlar yalançı yaxud uydurmaçı olurlar. Mən əvvəlcə yoldaşlarımı inandırdım ki, bir roman yazıram, sonra yalanımı doğrultmaq üçün həmən romanı yazdım. Əsəri yazıb bir kənara — bir siyirməyə atdım, mənə elə gəlirdi ki, yönsüz yazıdır. Yay idi və biz kəndə yığışmışdıq, hazırlıq imtahanından kəsildiyimə görə evdə məni məsxərəyə qoyurdular. Sonra mən Parisə qayıtdım, atam da Parisdə idi. Yazımı bir rəfiqəmin köməyi ilə makinada yazdırdım. Jülyar və Plon nəşriyyatlarına göndərdim. Telefonumun işləmədiyi bir faxt Jülyar nəşriyyatından teleqram aldım. Adətən belə hallarda olduğu kimi yazmışdılar: "Xahiş edirik tə'cili Jülyar nəşriyyatına zəng vurasız". Günortadan sonra, saat ikidə Jülyarla danışa bildim. O dedi ki, kitabı nəşr etmək istəyir və mən keyləşib qaldım. Yadıma düşür ki, bir stəkan konyak içdim. Saat beşdə isə onunla görüşə getdim. O çox mehriban idi, deyirdi ki, kitabım xoşuna gəlib, və güman edir ki, əsər avtobioqrafik deyil, çünki o vaxt əsasən avtobioqrafik əsərlər yazmaq dəbdə idi. Mən onu inandırdım ki, öz başıma gələni yazmamışam və mənim şəxsi həyatımda belə qaranlıq əhvalat olmayıb. O sevindi, məni inandırdı ki, əsəri götürür və mən də sevinə-sevinə çölə çıxdım.".

Elə bu kiçik söhbətlə Saqanın başına şöhrət tacı qoyulur. Az sonra, əsər çapdan çıxan kimi sorağı aləmi götürür. Kitab Fransanın "Kritik" ədəbi mükafatına layiq görülür. Jurnalistlər və şəkilçilər on səkkiz yaşlı yazıçını əhatə edir. Sadə parisli qız Madmuazel Kuarez, Fransuaz Saqan adı ilə yazıçı şöhrəti tapır, dünya şöhrətinin nə olduğunu görür. Sonra Saqan yeni əsərlərlə öz uğurlu yürüşünü davam etdirir: 1956-cı ildə "Adi təbəssüm"; 1957-ci ildə

"Bir ay sonra, bir il sonra", 1959-cu ildə "Bramsı sevirsizmi"; 1961-ci ildə "Gözəl buludlar"; 1965-ci ildə "Təslim siqnalı", 1868-də isə "Qəlb keşikçisi" romanlarını çap etdirir. Həmən illər arasında Saqan adı çəkilən romanlardan başqa uğurlu dram əsərləri də yazıb. Hələ 1984-cü ildə Səməd Vurğun adına Azərbaycan dram teatrının səhnəsinin maraqlı tamaşalarından biri Saqanın "Huşsuz at" pyesidir. Saqana şöhrət tacı gətirmiş "Salam qüssə" əsəri də şöhrət tapdığı ilk illərdə, və sonrakı bir sıra əsərləri rus dilinə tərcümə olunub. Azərbaycan oxucusu isə hələ Saqanla tanış olmaq imkanı tapmayıb.

Saqanın ilk əsəri ədəbiyyat mükafatına layiq görülmüşdüsə sonrakı əsərləri onun bu mükafata layiq olduğuna və özünün doğrudan da yazıçı olduğunun sübutuna xidmət elədi. Saqanı pisləyənlər də vardı, tə'rifləyənlərdə. Bə'ziləri onu Sartr və Kamyu kimi yazıçıların həmkarı sanır, bə'ziləri isə hiddətlə ağız büzürdülər. Əsas məsələ bu idi ki, o oxucuların və ədəbiyyatşünasların diqqətini cəlb eləmişdi. Bu diqqət isə onun dünya miqyasında daha da yaxından tanınmasına xidmət edirdi. Sən demə şöhrətin də hesabı səliqə ilə aparılırmış. Parisin "Jan-Jak Pover Yeni nəşr" cəmiyyəti 1974-cü ildə Saqanın yeni bir kitabını nəşr etdi. Bu kitabı Saqan yazmamışdı. Nəşriyyat məşhur yazıçının 1954-cü ildən 1974-cü ilə qədər müxtəlif qəzet və jurnallara verdiyi müsahibələri toplayıb, onları səliqə-sahmana salıb, təkrarları ixtisar edib, maraqlı bir kitab yaradıb. Müsahibələr Fransanın və dünyanın bir sıra ölkələrinin 81 tanınmış qəzetində dərc olunub. Həmən müsahibələri qələmə almış 75 jurnalistin və eyniylədə qəzetlərin adı kitabın giriş hissəsində sadalanıb. Bu siyahıda kifayət qədər məşhur qəzet və adlı-sanlı ədəbi tənqidçi adına rast gəlmək olur və onları sadalamaq uzun çəkər.

Müsahibələrin maraqlı məzmunu və kitabın tərtib üsulu sayəsində yeni oxunaqlı bir əsər yaranıb. "Cavablar" adlanan bu kitabda müəllifə öz həyatı, dünya görüşü, bədii yaradıcılığı, fəlsəfi fikirləri, fərdi duyğuları və i.a. haqda sualların cavabları toplanıb.

Fransuaz Saqan haqda mə'lumat almaq istəyən, onun dünya görüşü ilə maraqlanan hər kəs həmin kitabdan yaxşı mənbə tapa bilməz. Elə bu fikirlə də Saqanın həyat və yaradıcılığı, əsərləri haqda danışmağa söz axtarmaqdansa "Cavablar" kitabından müəyyən parçaları fransıbcadan çevirib maraqlananlara təqdim etməyi üstün tutdum.

"— Deməli "Salim qüssə" çıxdı, az vaxtda şöhrətiniz yayıldı, şəkillər, müsahibələr…

"— Salam qüssə" çap olunanda on səkkiz yaşım vardı. Şəkilçəkənlərdən və mənə verilən suallardan hürkürdüm. Onların hamısı məndən anektod soruşurdular. Necə yə'ni anektod?! Belə söhbəti belə qaçaraqda ayaqüstü eləmirlər. Axşam yığıncağında, dostlar arasında bəlkə danışmaq olar. Amma orada! Onda mən deyirdim: "Anektodmu? Yox… bilmirəm, heç nə bilmirəm…" Sonra ağzıma su alıb dururdum. Lal olurdum. Onda uydurdular ki, guya mən qəmginəm. Yalandır, həmən şəraitdə mən nə edə bilərdim axı?

— Sizin zənninizcə bu əfsanəvi uğurun əsas səbəbkarı kim oldu? Fransada bir milyon nüsxə ilə satılmış kitab çox az olub.

— Hər şeyə "Kritik" mükafatı səbəb oldu. Həmən andan sonra elə bil koorida oyunu başladı. Mükafat böyük rol oynadı və kitabı uğurlu yola tuşladı. Mükafatdan sonra bir kokteyl görüşü təşkil olunmuşdu. Jurnalist və şəkilçiləri mənim yaşım təəccübləndirmişdi və onlar yaxşı məqalə və şəkillər üçün uğurlu mövzu olduğumu güman edirdilər. Zənnimcə ədəbiyyat mükafatları, bə'zi istisnaları çıxmaqla əhəmiyyətsiz şe'ylərdir. Amma mükafatlananlar üçün maraqlı olur. Mükafat imkan verir ki, müəllif bir il, iki il maddi ehtiyacı olmadan işləsin. İnanmıram ki, mükafatın başqa əhəmiyyəti olsun".

……

"—O vaxt siz yazıçı olduğunuza inana bilirdinizmi? Nə fikirləşirdiniz? Nə edirdiniz?

— Yazıçı olduğuma həmişə inanırdım, amma müvəffəqiyyətin — qorxulu və rəngarəng qar topunu xatırladan qəfl müvəffəqiyyətin qarşısında aciz olub qalmışdım. Boynumu büküb həmən anın keçməsini gözləməkdən başqa çarəm qalmamışdı… Əvvəlcə lap əzab çəkirdim, çünki əşya kimi barmaqla göstərilmək adamın həmişə zəhləsini aparır. Adi adam olmaq daha yaxşıdır… Mən öz qayığına bağlanmış Yaqonun vəziyyətində idim… Ən xoşum gəlməyən cəhət tənqidçilərin qeydləri və dedi-qodular deyil, bir əşya kimi ortalığa qoyulub müzakirə olunmağım idi. "Kritik" mükafatını aldığım vaxt məndə bir anlıq ayılma əmələ gəldi (mə'lum vəziyyətə görə başıma toplanmış şəkilçilər, adamlar arasında) və mən qəfildən fikirləşdim: "Hə, deməli şöhrət bu imiş". Bu vəziyyət bircə saniyə çəkdi, necə deyərlər "şöhrət günəşi parladı" və sonralar

yandan keçdi və gözümü qamaşdırmadı, amma bircə anlıq duydum: "şöhrət gəlib".

Bəla burasındadır ki, mən bu şöhrətdən ləzzət ala bilmirdim; tezcə başa düşmüşdüm ki, şöhrət suallar və cavablar aləmi, bir də həqiqətin yanından bacarıqla sürüşüb keçmək qabiliyyəti imiş. Mən bunu çox tez anladım, on səkkiz yaşında və 188 səhifəlik yazı ilə… Günahım olmadığını bilsəm də özümü az qala günahkar sanırdım. Şöhrətin acı havasını duyurdum…" (səh.31-34).

"— Bəs pul haqda nə deyərsiniz? Pulu necə izah edərsiniz?

— Əgər həyatda tək olsaydım güman edirəm ki, heç nəyi, heç cürə izah etməzdim… Mən lam çoxlu müsahibə vermişəm və məqalələrin hamısında əsasən puldan danışılır. Hər hansı bir qəzetdə Saqan adını oxuyanda dəhşətə gəlirəm. Fikirləşirəm ki, gör oxucular nə çəkirlər…

Mən nə desəm, nə etsəm xeyri yoxdur, məni eyni şəxsiyyətdən kənara çıxmağa qoymurlar… "Valentinanın sumağı donu" romanında mənim qəhrəmanım deyir: "Məni hamı görmək istədiyi şəkildə görür". Mən yüz milyonlarla pulu göyə sovuran, Yaquar maşınıyla qarıları əzən, adamları mat qoymaqdan ləzzət alan, bütün ömrünü gecə klublarında keçirən bir qadınammış. Yox, təsvir olunan həmən qadın yoxdur. Heç cürə başa düşə bilmirəm, nə üçün adamlar mənim kitablarımda bu cür cəhətlərin əksinə yazılmış səhifələri oxumamış keçirlər.

— Bəlkə heç həmən səhifələri oxumaq istəyən yoxdur…

— On səkkiz yaşımda mən varlı və məşhur idim, bunu mənə bağışlamadılar. Bə'ziləri özgəsinin uğurunu çox pis həzm edir. Məni ədəbiyyatçı yox, ticarət mö'cüzəsi sanırlar. Nəşriyyatda yerim var, bəs ədəbiyyatda necə? Bilmirəm, bir söz deyə bilmirəm…

— Bəs ikinci, üçüncü romanlarınız, 56-cı ildə "Adi təbəssüm", 57-də "Bir ay sonra, bir il sonra" əsərləriniz çıxdı, onlar uğursuz oldular?

— Yox canım. Onlar da çox yaxşı satıldılar. Amma məqalələr vergi qəbzinə oxşayırdı. Hər dəfə elə güman edirdim ki, mənimlə ədəbiyyat barədə danışacaqlar, amma yox! Bankdakı pul hesabım haqda daha çox danışırdılar.

Heç bilmirəm nəyi mənə qəbahət tuturlar, çox pul qazanmağımı, yoxsa qazandığımı xərcləməyimi? Mənə elə gəlir ki, əgər bir düjün gecə barı alıb qoca günlərimin dolanışığı üçün zəmanət yaratsaydım adamlar az qiybət qırardılar. Mənim isə adamların ra-

hatlıq naminə özlərinə güzəran zəmanəti yaratmaq cəhdindən zəhləm gedir. Zəmanətsiz həyat məni daha çox cəlb edir. Mən arxayınçılıq axtarmıram, heç bilmirəm onu xoşlayıram ya yox. Mən nə varlı olmağı də pula qənaət etməyi xoşlamıram". (səh. 39-40)

. . .

"— Pula heç bir rəğbətim yoxdur. Onun özünə yox, insanlar arasına gətirdiyi münasibətlərə və fransızların əksəriyyətinə qismət elədiyi həyat tərzinə nifrət edirəm. Onlar daha vaxt tapmırlar, hər tərəfdən arakəsmə olunublar: pul problemləri, sənət, ailə, nəqliyyat. Onların başı fikirlərlə dolub; metroda gedərkən baxışları başqalarının yorğun baxışları ilə rastlaşır. Onlar evə dönürlər ki, öz uşaqları və yöndəmsiz televizorlarına qovuşsunlar.

— Bəs böyük rahatlıq necə?

— Bu gün ən böyük rahatlıq öz vaxtına sahib olmaqdır. Cəmiyyət insanların vaxtını oğurlayır.

— Axı, qazandığınız pullar sizi dəyişib…

— Əlbəttə, romanlarıma görə qazandığım pullar həyat tərzimi dəyişib. Amma bu pullar özümə, yaradıcılığıma və dostlarıma olan münasibətimi dəyişə bilibmi? Yox". (səh. 43).

. . . . .

"— Siz necə yazırsınız?

— Bir romanı başlayarkən əvvəlcə ilk parçanı tam sərbəstliklə yazıram. Plan qurmuram, sərbəst quraşdırmanı xoşlayıram və mənə elə gəlir ki, kələfin ucunu tutmuşam, və onu istədiyim kimi çəkirəm. Sonra mətnin üzərində işləyirəm. Cümlələri səliqəyə salır, artıq sözləri ixtisar edir, ritmi yoxlayıram. Çalışıram ki, çatışmayan hər hecanı, hər sözü yerinə qoyum. Yazmaq da sənətkarlıq tələb eləyir. Roman cümlələrində söz qruplarının sayı dəqiq olmur, amma adam cümləni yazarkən, yaxud ucadan oxuyarkən cümlənin axsayıb axsamadığını duyur. Mən fransız dilini sevirəm, amma bu dildə səhvim olanda özümü itirmirəm, çalışıram ki, necə uyğundursa elə yazım… Mənə elə gəlir ki, kitabın adı da əhəmiyyət kəsb edir. Kitaba ad qoyarkən elə bil ona paltar geydirirsən. Kitablarıma həmişə xoşum gələn adları qoyuram, Adı isə az qala həmişə kitabı qurtarandan sonra tapıram.

— Asanlıqlamı yazırsınız?

— Hərdən bir. Bəzən ön vərəqi bir-iki saata yazıram.

— Həmişə makinada?

— Bəli, heç vaxt əllə yazmıram. Makinada yazı daha təmiz olur. Həm də makina yazısı adama ürək-dirək verir.

— Böyük yazıçıların bə'ziləri, məsələn elə Flober, çox çətinliklə işləyirlərmiş, hər sözün başına fırlanırlarmış. İndi də belə hallar var.

— Bəli, mən bunu yaxşı anlayıram. Bəlkə də onlar haqlıdırlar. Mənim üçün isə sözlər fikri ifadə etmək üçün bir vasitədir. Onları çox çəkib-çevirmək lazım deyil. Zərgərliklə zərgər məşğul olur.

— Siz hər gün işləyirsiniz?

— Bu vacib deyil. Elə olur ki, bir romanı on-on beş günlük bir neçə oturumla yazıram. Aradakı vaxtlarda isə fikirləşirəm, yazdığım əhvalatı yaşayıram. Sonra yazım barədə danışıram. Bə'zən fikirlərimi itirirəm. Başqalarının rə'yini bilmək istəyirəm. İstəyirəm fikrim xoşa gəlsin.

— Bəlgə fikriniz xoşa gəlmədi?

— Bu mənə çox pis tə'sir eləyir. Amma bilirəm ki, böyük dəyişiklik edəsi deyiləm. Mühərrik işə düşüb…"

. . . . .

"—Adama elə gəlir ki, "yaxşı" yazdığınıza görə fəxr edirsiniz.

— Yaxşı yazmaq hər kəsə nəsib olmur. Adamlarda sözə məhəbbət duyulmayanda onların yazıları çox vaxt darıxdırıcı, pis, yaxud sönük olur. Fransız dili gözəl dildir və həmişə təzədir. Yeni roman asan bir yol seçib və istəyir ki, talantsız yazılmış əsəri talantlı oxucu gücləndirsin. Hər halda əsl ədəbiyyatı talantlı müəlliflər yaradır. Oxucu ovsunlamalı, cəzb olunmalı, yazıçının ixtiyarına keçməlidir. Hamı üçün eyni olan, lakin yazıçının hamı kimi işlətmədiyi sözlər vasitəsilə adamları ələ almaq bacarığından yaxşı nə ola bilər?

— Yaxşı, siz yazdıqlarınızdan razısınızmı?

— Yazmaq mənim üçün ağır, sıxıntılı bir təşəbbüs olaraq qalır. İstərdim əmin olum ki, yaxşı bir kitab yazmışam, yaxud yazıram, amma əmin deyiləm. Yazmaq elə bir işdir ki, heç kəsin onunla zarafat eləmək ixtyarı yoxdur. Məni ən çox əsəbiləşdirən yaradıcılığım haqda söylənən saxta fikirlərdir. Mən gözəl kitablar, böyük əsərlər tanıyıram, onlar kimi bir kitab yazdığıma əmin olmaq üçün hər şeydən keçərdim. Mən mərdliyə inanıram. Mənim üçün mərdlik, hər hansı bir varlıq haqda mövcud fikrə hörmət deməkdir. Və mənim hörmət eləməyə çalışdığım varlıq ədəbiyyatdır. Doğru sözümdür". (səh.50)

. . . .

"—"Salam qüssə" romanını çap etdirməzdən əvvəl şe'r yazırdınız, sonralar da şe'r yazdınızmı?

— Çox yazmışam. Ammma çox yaxşı şe'rlər deyil. Şe'r aləmində isə "çox yaxşı" sayılmayan şe'rlər heç üzə çıxmasa yaxşıdır" (səh.54).

. . . .

"—Siz də elə fikirləşirsinizmi ki, bu günkü adamlar kədərli ömür sürür?

— Bu gün hər bir kəsin daxilində dəhşətli bir kədər var. Hər yeni kitabım çıxandan sonra aldığım məktublarda mənə belə yazırlar: "Mən də həmən yolu keçmişəm, mən də həmən hissi duymuşam, tanımışam, mən də həmən əzabı çəkmişəm və i.a. Bu gün hər kəsin dişi, saçı olduğu kimi kədəri də var. Heç başqa cür ola bilərmi? İnsanların həyatı acınacaqlıdır, onlara belə həyat veriblər. Mənim güzəranım yaxşıdır, nə istəsəm edirəm, istəsəm lap tənha da yaşayaram. Amma çoxları dəhşət içində yaşayır. Onların boğazından yapışıb gecə gündüz işlədirlər, evlərində səfeh bir televizor var, özləri heç vaxt tək olmurlar, onlara tələ qurulur, həmişə izələnirlər. Onların "gözəl vaxt" adlanan vaxtı, saniyə-saniyə axıb gedən və axımı göz qarşısında olan gözəl, arxayın vaxtları olmur. Əksəriyyəti həyatı və vaxtı qarışıq, kor-təbii bir sirk arenasında görür". (səh. 71)

. . . . . .

"—Nə cür adamları sevirsiniz?

— Fikrim, yəqin ki, çox adi görünəcək, amma deməliyəm ki, sadə adamları sevirəm, sifətini dəyişib özünü başqa şəkildə göstərməyə çalışmayan adamları sevirəm. Bu cəhət ağıllılıq, nə isə daxili bir xoşbəxtlik və yaxşılıq əlamətidir. Səmimi adamları çox, lap çox sevirəm.

. . .

— Nə cür adamlara nifrət edirsiniz?

— Dözümsüz, arxayın, özünü həmişə haqlı sanan, küyçü, özündən arxayın adamlara nifrət edirəm. Səfeh adamlar məni bezikdirir. Arxayın həyat naminə alçalanları xoşlamıram, bu hala dözmürəm. Yalançı fədakarları, yalançı ziyalıları və doğruçu heyvərələri sevmirəm. Pula pərəstiş, ikiüzlülük, ictimai yerlər və burjua xeyirxahlığını xoşlamıram; xeyirxahlıq, əvəzsiz şeydər, amma göstərmə xeyirxahlıqda zəhləm gedir.

— Qorxduğunuz adamlar varmı?

— Həyata qorxusuz baxan adamlardan qorxuram. Əslində özündən arxayın adamlara qibtə edirəm… Özüm heç vaxt özümdən arxayın olmamışam.

— Varlılara necə baxırsınız?

— Ümumiyyətlə varlı adamları xoşlamıram, çünki onlar pullarını saxlaya bildiklərinə görə varlı olurlar, bu da göstərir ki, varı saxlamaq üçün başqa adamlara gündə on dəfə "yox" deməyi bacarmaq lazımdır. Mən hiss edirəm ki, həmişə varlılar pul haqda danışırlar. Onları bir cəhət başqalarından fərqləndirir. Onlar arxayındırlar — arxayınlıq, zəmanətlilik isə başqa hissiyyatlar doğurur. Onlar da başqaları kimi ağıllı, qabiliyyətli və hissiyyatlı ola bilərlər; onlar da insandırlar, amma mənim dostlarım, öz təbii inamlarını saxlaya bildiklərinə görə sevdiyim adamlar, qətiyyən varlı deyillər və heç vaxt pul haqda danışmırlar. Dost sözü mənim üçün əzizdir. Sevdiyim adamlar mənim üçün hər şeydən əzəldir; bu həmən adamlardır ki, yalnız onların yanında özümü yaxşı hiss edirəm və onlar məni mənim özümə görə sevirlər. Belələri azdır".

. . .

— Sartrın məşhur fikri belədir ki, yazıçı məs'uliyyətli, mübariz olmalıdır…

— Yazıçının məs'uliyyəti. Nəyə görə məs'uliyyəti? Bunu bilmək lazımdır… Doğrudur mən Joan Basz, yaxud Jane Fonda kimi tam mübariz olmamışam və bu işimə görə ömrüm boyu xəcalət çəkmək fikrində deyiləm. Əlcəzair müharibəsi vaxtı, Bon-Nuvel bulvarında polis güllə-baranını, silahsız əlcəzairlilərin pulemyortla qırıldığını görəndə fikirləşdim ki, bunun qarşısını almaq lazımdır. Mən hərəkətə gəldim və mübarizəyə qoşuldum. Cəmilə Bupaşa üçün də mübarizə apardım. O.A.S. təşkilatı məni hədələyirdi də. Mən yaxşı iş görmüşdüm.

— Siz də Sartr kimi fikirləşirsinizmi ki, yazıçı siyasətlə məşğul olmalıdır?

— Yazıçı siyasətlə maraqlana da bilər maraqlanmaya da bilər. O azaddır. Əgər o duyursa ki, müəyyən problemlər onu cəlb edir — təbii olaraq siyasətlə məşğul olmalıdır. Əgər onu ancaq estetika məsələləri məşğul edirsə, siyasətlə məşğul olmur, vəssalam. Yazıçı öz daxilinə çəkilmiş bir vəhşidir. O öz qəfəsindən çölə baxır ya baxmır bu onun əhvalından asılıdır". (səh. 85).

—"Son bir cümlə, bir arzunuzu söyləyin.

— İstərdim on yaşa qayıdım; ahıl olmaq istəmirəm. Vəssalam". (səh. 123).

Maraqlı arzudur. Görəsən Saqan yenidən həyata başlasa on səkkiz yaşında dünya şbhrəti tapa bilərdimi, ən çox oxunan yazıçılardan biri olardımı? Yaxud, heç yazıçı olmaq istərdimi?

1985-ci ildə Fransuaz Saqanın altmış yaşı tamam oldu. Amma hələ qırx yaşa yaxınlaşarkən yazıçı keçmiş gəncliyini yenidən yaşamaq yeni bir ömür başamaq arzulayırdı. Bu çox təbii bir insan arzusudur və hamı bilir ki, arzu arzu olaraq qalır. Saqan da öz arzusunun əl çatmaz bir xəyal olduğunu duyur və ahıl bir yazıçı kimi yaradıcılığını davam etdirir. Dövrümüz kim bədii yaradıcılıq sənəti də elə bir inkişaf mərhələsindədir ki, yazıçı öz yaşından irəlidə yaşamaq istəyir. İstəyinin ölçüsündən asılı olmayaraq öz dövrü ilə ayaqlaşa bilən, maraqla oxunan hər bir yazıçı rəğbətə layiqdir.

Saqan bu gün də diqqət mərkəzində olan yazıçılardandır, sabah üçün sabaha layiq əsərlər yaradacağına da ümid çoxdur.

FRANSUAZ SAQAN

ÇƏMƏNLİKDƏ PİANO

İŞTİRAK EDİRLƏR:

MOD — 44 yaşlı varlı, gözəl qadın.
LUİ — 46 yaşlı içkipərəst, yaraşıqlıdır, amma çox içir.
ANRİ — 44 yaşlı arvadbaz, yaralıqlı kişi.
İZABEL — Anrinin arvadı, çox gəncdir, gözəldir, bir az səfehdir.
EDMOND — 45 yaşlı alçaqboy, kök, özünüdartan, universitet müəllimi.
ALİN — Edmonun arvadıdır, sərt qadındır.
SİLVİAN — 44 yaşlı qadın, Modun xidmətçisidir, yaşına uyğun görkəmi var.
JAN-LU — yaşlı işgüzar kişi, Modun keçmiş sevgilisi.

I PƏRDƏ

I SƏHNƏ

Mod, Lui, Anri və İzabel çəmənlikdə oturublar. Edmond kilsə xadimi kimi qara geyinib. Qəlyanaltı edirlər. Silvian qurama kürsüdə əyləşib.

MOD (şən səslə) — Bura gözəl yerdir, eləmi? Sardin balığı da çox dadlı idi. Silvian, bəlkə o məzəli kürsündən enib bizə soyutma yumurta verəsən?

SİLVİAN — Mod, yadınıza salıram ki, revmatizmam olduğuna görə kürsüdə oturmuşam. (Silvian yaxınlığındakı çantadan soyutma yumurtalar çıxarır).

MOD — Hə, sən revmatiksən… Elə deyəsən buradakıların hərəsinin "ik"lə qurtaran bir xəstəliyi var. Lui alkoqolikdir, Edmond hepatikdir, qara ciyəri xəstədir, Silvian revmatikdir, bəs sən, Anri, sənin nə xəstəliyin var?

LUİ— Anri simpatikdir. Ciddi xəstəlikdir. Sən isə dinamiksən, bu da ciddi xəstəlikdir, yan-yörəndəkilər üçün.

MOD — Nə olub axı, yə'ni burda rahat deyilsiniz?

LUİ — Rahatıq əzizim, burda hər şey gözəldir. Ələlxüsus qara paltarlı Edmond yaşıl çəməndə çox gözəl görünür.

(Mod, Anri, İzabel və Silvian gülürlər).

Əgər Silvian çılpaq olsaydı, istər-istəməz Manenin "Çəmənlikdə nahar" tablosu gözlərim önündə canlanacaqdı.

(Modla Anri şaqqa çəkib gülürlər)

SİLVİAN (acıqla) — Lui, xahiş edirəm nəzakətli olasınız.

LUİ — Bundan artıq nəzakət?

EDMOND — Mənimsə rəsmdən başım çıxmır. Allaha şükür ki, başım çıxmır, Lui, heç anlaşılmaz kinayələriniz də mənə toxunmur.

LUİ — Təəccüb eləmirəm. Bu çəmənliyə şaxta çöküb. (O şərab şüşəsini qaldırır). Çoxdandır qara ciyərimi, bronxlarımı və başımı qurban verdiyim bu vəfalı rəfiqəm olmasa gedib Silvianın dizləri üstündə oturardım.

SİLVİAN — Bunun üçün mənim icazəm də gərəkdir.

LUİ — Görünür kefli adamın kürsüyə hücumunu hələ görməmisiz. Elə bu saat sizi aşıraram ordan… (O ayağa qalxır).

MOD — Lui dayan, bəs deyil? Həm də xahiş edirəm daha içməyəsən!

ANRİ — Düzdür, Lui, əzizim. Hələ saat birin yarısıdır.

LUİ — Nə olsun ki? Mən içmək istəyirəm. Həm də ki, mən gecələr çarpayıda ehtiras odu söndürən deyiləm. Səhər açılandan gün batana qədər içə bilərəm. Mən ki, tək yaşayıram.

MOD (İzabelə) — Soyutma yumurta istəyirsizmi, gözəl bala?

İZABEL (donquldanır) — Xeyr, sağ olun.

MOD — Soyutma yumurtanı xoşlamırsınız?

İZABEL — Anri ilə evlənməmişdən iyirmi iki il soyutma yumurta yemişəm. Daha bezikmişəm.

MOD — Bəs niyə həmişə soyutma yumurta yeyirdiniz ki? Ağır deyildi?

İZABEL — Mən maneken işləyirdim. Kələm şorbasına giirşə bilməzdim ki?

MOD — Yönsüz sözlər danışmayın, gözəl bala. İndiki dövrdə, cəmiyyət qadını deyə bilər ki, Artura yaxud Robertoya girişmişdim. Kələm şorbasına yaxud ən dadlı yeməyə belə girişdim demirlər.

LUİ — Dayan, Edmond, bir dəqiqə tərpənmə, sağ ol, tık. (O əlindəki yumurtanı Edmondun başına vurub sındırır)

EDMOND (qəzəblə) — Nə olub sizə? Dəli olubsuz nədir? Bu nə axmaq zarafatdır?

LUİ — Yəqin ki, mən iyirmi beş il əvvəl də belə bir hərəkət eləmişəm. Siz də yəqin ki, elə beləcə hoqquldamısız.

EDMOND (ayağa qalxır) — Daha bəsdir! Mən burda qala bilmərəm… Mən Sonbonda dərs deyirəm, öz məs'uliyyətim var… Burda qalsam Lui məni tamam hörmətsiz edəcək…

LUİ— Elə bilin ki, mən də tələbənizəm.

EDMOND — Xeyr, cənab, tələbələrim mənə hörmətsizlik etmirlər.

LUİ — Doğrudanmı? Onda gərək iş üslunuzu başqa müəllimlərə də öyrədəsiniz, hamı sizdən razı qalar.

EDMOND — Sizin heç nəyə hörmətiniz yoxdur. Sabah mən yola düşürəm.

HAMI BİRDƏN — Ah!

ANRİ — Bura baxın, rənginiz tamam ağarıb, dostum, ürəyiniz incitmirki?

EDMOND — Yox, məncə sardin balığındandır… bir az.. Bağışlayın məni, bir az gəzinmək istəyirəm. (O uzaqlaşır)

LUİ — Zavallı Edmond… Sardin balığı, üstündən də yumurta, özü də yaş otun üstündə. Buna ciyər dözər…

MOD — Sən lap ağ elədin, Lui. Ondan nə desən çıxar, çıxıb gedə bilər.

ANRİ — Yaxşı, günümüz şən keçir. Kim bilir, sonra nə edəcəyik?

İZABEL — Bəlkə Sən — Topezə gedəyin?

MOD — Yox, balaca, Sən-Topezə getməyəcəyik. Hələ tezdir. Hələlik kənddə qalacağıq, hamımız bir yerdə. Yaxşıca əylənəcəyik.

İZABEL — Əminsiniz ki, əylənəcəyik?

LUİ — İndiki deyirlər, deməli elədir. Məgər biz yalançıya, xəyalpərəstə, dəliyə oxşayırıq?

İZABEL (əl-ayağa düşür) — Xeyr, xeyr…

LUİ — Bəlkə biz bir az yaşlıyıq deyə vaxt itirmək istəmirsiz?

ANRİ — Lui… Əl çək arvadımnan.

İZABEL (Anriyə) — Deməli, Sən-Topezə getməyəcəyik?

MOD (acıqla) — Yox, canım, daha bəsdir! Anri, arvadın başqa bir söz bilmir? "Sən-Topezə getmirik?" Lap canüzənsən, balaca. Rəhm edin, başqa bir cümlə öyrənin bu ay üçün, lap əzbərdən deyin, amma başqa bir cümlə deyin.

İZABEL (həyəcanla) — Oldu, madam.

MOD — Oldu, Mod deyin.

İZABEL — Oldu, madam.

MOD — İndi vacib məsələlərdən danışıq. Edmondu saxlamaq üçün nə edə bilərik? İçki içmir, papiros çəkmir, başqa… Ağlıma bir fikir gəlib! (Lui ilə Anri bir-birinə baxırlar) İndiyə qədər Edmonda deyən lomayıb ki, maraqlı cazibəli kişidir?

ANRİ (gülərək) — Mərci xoşlamasam da, köynəyimnən mərc gələrəm ki deyən olmayıb.

İZABEL (ciddi) — Mən də mərc gələrəm. Lap əlimi oda soxmaqdan mərc gələrəm. Bu görkəmdə, bu xasiyyətlə, dəfn bürosu işçisi kostyumu, cizgili qalstuk, tüksüz baş…

MOD — Balaca, sizə dedim ki, başqa cümlə öyrənin, daha demədim ki, həmişə danışasız. Bura baxın, bəlkə… Siz ki, belə gözəl, cavansız və i.a. bəlkə Edmonda bir az görüm-baxım edəsiniz?

İZABEL — Mənmi? Xeyr, heç vaxt. Anri, and içirəm ki, məni bu işə məcbur etsən çıxıb gedəcəyəm. Sən — Topezə gedəcəyəm.

ANRİ — Narahat olma, əzizim. Elə şey yoxdur. Heç vaxt icazə verməræm.

MOD — Axır ki, sən də qaydaya düşdün. Yaxşı, qaldı Silvian.

SİLVİAN (ayağa qalxır) — Necə, mən? Yaxşı, Mod, yə'qin zarafat edirsiniz. Edmond ömründə mən tərəfə baxmayıb, iyirmi il keçəndən sonra, indi heç baxmaz!

MOD — Səs salma. Edmondun yaşında kişilər hər cür qadına baxırlar. Bu əməliyyatı sənə e'tibar edirəm. Siz isə, oğlanlar əməliyyat vaxtı kinayəni, məsxərəni yığışdırsanız, sizə minnətdar olaram, onsuz da yazıq Silivanın işi çətin olacaq.

LUİ — Hamımızın işi çətin olacaq.

ANRİ — Mənim də dəli gülüşüm tutdu, qurtardı.

MOD (əmr edir) — Yaxşı, get Silvian! Get gətir onu. (Silvian Edmondun getdiyi səmtə çıxır).

İZABEL — Bir işə bax ha! Mən heç öz qiymətimi bilməmişəm.

(Sükut çökür)

LUİ (Silvianın arxasınca baxaraq) — Ah, Silvian! Get! Əziz Enona! O sənin hər əmrinə müntəzirdir! Hara getsən arxanca gedir, gözləri açıq, ağzı yumulu, lap keçmiş, gözəl çağlarda olduğu kimi.

MOD — Bilirsənmi, iyirmi ildir beləcə xidmət edir. Zavallı qızcığaz, mənim çox əziyyətimi çəkib! On dəfə mənimlə dünya səyahətinə çıxıb… Amma bizim Turinin əvəzini heç bir yer verə bilməz.

LUİ — Ona görə bizi bura də'vət eləmisən? Özü də Aleksandr Dumanın əsərindəki kimi iyirmi il sonra?

MOD — həm ona görə, həm də başqa məqsədlə.

LUİ — Nə məqsədlə?

MOD — Təsəvvür elə ki, mən də özümü bir dəfə tənha hiss elədim.

LUİ — Tənha?

MOD — Təzəcə boşanmışam. Oğlum da mənimlə bura gəlmək istəmədi. Yə'qin siz də bilirsiniz ki, indi söz gənclərindir. Gənclər belə edir, gənclər belə düşünür. Gəncliyin tələbi başqadır.

ANRİ — Bunu duymamaq üçün gərək kar və kor olasan, əzizim.

MOD — Belə görünür ki, 45 və 50-ci illər arasında doğulanlar yüksək səviyyəli adamlardır. Və biz onlara çata bilmərik. Bilin ki, mən çox çalışmışam. Min don geydim, tiryək çəkdim, yüz oyun-

dan çıxdım, hər şey etdim. Nahaq yerə. Mənə gülürdülər. Yə'ni oğlumu demək istəyirəm, o gülür mənə. Özü də on altı yaşı var.

ANRİ — On doqquz!

MOD — Niyə ki?

ANRİ (gülə-gülə) — Axırıncı dəfə səni Nyu-Yorkda görəndə oğlunun on yeddi yaşı vardı. O vaxtdan iki il keçib.

MOD — Yamanca xırdaçısan, Yaxşı, deyək ki, on yeddi yaş. O mənə izah edir ki, iqtisadi, mə'nəvi və ictimai səbəblərə görə onun gəncliyi mənim gəncliyimdən fərqlidir.

LUİ — Ağıllı söz deyib

MOD — Deməli, sözün qısası sadaladığım səbəblərə görə o öz gəncliyini mənimlə bölüşmək istəmir. Məsələn, heç vaxt razı olmur ki, mən onun özü və dostları ilə küçədə maşınlara od vurmağa gedim. Deyir ki, onlara mane olaram. Lazım olsa bərk qaça bilmərəm. Allah bilir nə vaxt qaçırlar!

ANRİ — Mənim maşınımı da bəlkə elə o yandırıb. Qey-Lüssak küçəsində… Ağ maşın idi.

MOD — Bilmirəm, Anri, təəssüf edirəm, amma heç nə bilmirəm.

ANRİ — Təəssüflənməyinə dəyməz. İzabel aldırmışdı o maşını mənə. İçinə minəndə canıma qorxu düşürdü, saatda iki yüzlə sürürdü, özümü sındırmırdım, amma qorxurdum. Onu küçədə yanmış görəndə, xeyli yüngülləşdim, heç sığorta da etdirməmişdim. Köhnə 404 markalı maşınımı sürməyə başladım, canım qurtardı!

İZABEL — Canın qurtardı, elədir! Maşın bir təhər sürünür, günlərin birində də körpü üstündə yatacaq!

MOD — Bayaqkı söhbətimə qayıdıram. Deməli, fikirləşdim ki, özümü gənc sanıram, gənc olmaq istəyirəm. Ancaq gənclik illərimə yoldaş olmuş adamlarla gəncliyimi tapa bilərəm. Bəs gəncliyim kiminlə keçib? Sizinlə!

LUİ — Sağ ol, əzizim!

MOD — 50-ci ilin yayında burda keçirdiyimiz gözəl günlər yadınızdadırmı? Hamımız burada idik, Jan-Lu da. İndi biz həmən yay günlərini yenidən yaşayırıq. Düz iyirmi il əvvəl, 1950-ci il iyulun 1-də biz həmən bu çəmənlikdə qəlyanaltı edirik.

LUİ — Bəs qorxmursan ki, bizim hər işimiz qaydasında olmaya bilər.

MOD — Nə məsələn?

LUİ — Deyək ki, elə əyləncə proqramımızın olmaması.

MOD — Xeyr, qorxmuram. Bax, srağagün bunu damdan tapmışam.

ANRİ — O nədir elə?

(Mod çantasından qırmızı bir dəftərçə çıxarır).

MOD — O vaxt yazdığım gündəlikdir. Burda hər şey yazılıb, günbəgün, 50-ci il iyulun 1-dən 31-nə kimi. Hamısı. Əziz körpələrim, sizi iyirmi yaşa qayıtmağa də'vət edirəm. Bütün bir ayı cavan olağın. Bu gündəlikdəki ömrümüzü təkrar edək və o vaxtdakı kimi xoşbəxt olaq.

LUİ — Qoy bir az fikirləşim… Axı 50-ci ildə mən heç xoşbəxt deyildim. O vaxt Solanj Bergenə dəlicəsinə vurulmuşdum, fikrimzikrim o idi…

MOD — Yaxşı, indi necə, yenə sevirsənmi onu?

LUİ — Yox, çox sağ ol. Onu görsən heç soruşmazdın!

MOD — Deməli, indi 50-ci ildəkindən xoşbəxt olacaqsan. Hələ üstəlik yadına sal ki, həmən ildən içgiyə qurşanmısan.

LUİ — Elədir ki, var.

ANRİ —Yaxşı, 50-ci ildə mən nə edirdim?

MOD — Yavaş-yavaş hamısını deyəcəyəm. Hər axşam gündəliyi oxuyub ertəsi gün keçmişi təkrar edərik. Sizcə belə yaxşı deyil?

ANRİ — Bəli, əlbəttə. Heyif ki, Jan-Lu bizimlə deyil. Gəncliyimiz şairsiz keçəcək.

MOD — Jan-Lu tapılmır. İyirmi ildir Braziliyaya gedib. Sonra gördüm deyən yoxdur.

ANRİ — Hə, elədir, çox təəsüf!

MOD — Sənin arvadın lap adamı darıxdırır, Anri… Neyləyəcəksən onu? Bəlkə bir müddət Cənuba göndərəsən…

ANRİ — Yox. Yox dedim, vəssalam. Lazım olsa bizimlə bir oynayar, amma onu tək buraxmaram. Birdəfəlik bil.

İZABEL (acı səslə) — Xeyr, elə şey yoxdur, heç ağlınıza da gətirmyin.

MOD — Yaxşı, qoy oynasın bir az bizimlə. Razınısınız?

LUİ — Əlbəttə, razıyıq! Deməli mən Solanja vurulmuşam və onu unutmaq üçün içkiyə qurşanıram, elə deyil? Ə'la!

ANRİ — Məncə fikriniz yaxşı fikirdir. Gərək Edmondla da söhbət edək. Amma deyəsən o çox ləngidi.

MOD — Yə'qin Silvian onunla məşğuldur (Mod qollarını geniş açıb dərindən nəfəs alır). Ah! Nə gözəl ətir var!…

LUİ — Bəli. Təmiz hava və gəncliyin gözəl ətri. Zənnincə sən bu ətri asanlıqla qavraya biləcəksən…

MOD — Bəlkə də. Mənim ki burnum viski şüşəsində deyil.

LUİ — İndi mənim də burnum şüşədə deyil. Bir də demək istəyirəm ki, ömrümün şərab dalğalarında keçən bu hissəsi sizlərdən, siz yaxşılardan uzaq olmaqda mənə kömək edib. İndi qırx beş yaşımda, xəstə, yoxsul və içgi düşgünü olmuşamsa da, ürəyimin təmizliyini addım-addım, qədəh-qədəh qoruya bilmişəm. Sizin pul və şöhrət naminə qurduğunuz əməllərdən kənar olmuşam. Vəssalam.

MOD — Axı nəticədə də bir şey yoxdur.

LUİ — Yoxdur. Bəs sən necə? Sənin nəyin var?

MOD — Əvvəla pulum var. Sağlam canım var. Bir də əylənmək arzum var.

ANRİ — E'tiraf edək ki, pis nəticə deyil.

LUİ — Bəli, elədir! Bəs sən? Mən şərab şüşələrində gizlənirdim, sən isə qadınların qoynunda. İndi məndən artıq nəyin var axı?

ANRİ — Xatirələrim. Bir də cavan arvadım. Elə cavandır ki, hər baxanda ehtirasa gəlirəm (İzabeli sığıllayır).

MOD — Əlbəttə… Bax, gör Anri necə yaraşıqlıdır… Sən özün də pis deyilsən, qamətini şax tutsan, içgini azaltsan…

LUİ — Rəhm elə, rəhm elə, əzizim. Kimin xatirinə özümü qaydaya salmalıyam? Mən daha qurtarmışam. Demək olar ki, heç sevişmirəm. Əlimə qadın düşəndə də qaranlığa çəkirəm, haqqını verib daha üzünü görmək istəmirəm.

ANRİ — Kədərli haldır, çoz kədərli haldır.

LUİ — Səndəki ehtiras heç vaxt məndə olmayıb, əzizim.

ANRİ — Bəsdir məni misal gətirdin. Guya ki, mən ancaq gəzəyən olmuşam, arvadbazlıq etmişəm. Xahiş edirəm, daha bəsdir.

LUİ — Axı sən başqa nə iş görmüsən?

ANRİ — Bə'zən sevmişəm də (Lui qəhqəhə ilə gülür). Bəli, sevmişəm də. Əgər bilmək istəyirsənsə elə həmən yay Moda vurulmuşdum.

İZABEL (digəlir) — Ola bilməz, zarafat edirsən?

MOD — Siz nəzakətli olun, qarışmayın!

ANRİ — Özü də Jan-Luya görə qısqanır, əzab çəkirdim.

MOD — Zavallı dostum… Mən hamısını bilirdim… Bir bax, lap gündəlikdə də qeyd etmişdim. İyulun 2-də yazmışdım… (Mod

oxuyur) — "Qorxuram Anri mənə görə əzab çəkə, elə mən də əzab çəkirəm. Amma neyniyə bilərəm axı". — Beləcə yazılıb.

LUİ — Beləcə yazılıb? Çox tə'sirlidir. Yaxşı, sənin dəftərində yazılmamış bir şey var?

MOD — hər şey yazılıb. Velosipedə minib poçta qaçmağın, Solanja zəng edib saatlarla danışmağın, qayıdarkən kafeyə girib Rikard şərabı içib özünə gəlməyin, tənbəl olsan da saat doqquzda qalxıb poçtalyonu gözləməyin. Deyirəm ki, hamısını yazmışam.

LUİ (qışqırır) — O dəftəri alıb yandıracam. Bəli, oda atacam, ixtiyarınız yoxdur ki…

MOD (sakit səslə) — Nəyə ixtiyarımız yoxdur?

LUİ — Bə'zi hissləri oyatmağa.

(Silvian gəlir)

ANRİ — Hə, bu da Silvian!

MOD (Silviana) — Necə keçdi?

SİLVİAN — Bir şey çıxmadı.

(Edmond gəlir)

MOD — Edmond… Aman allah, siz lap göyərmisiz ki.

EDMOND — Hə, əzizim, bir balaca mədəm pozulmuşdu. Həkimim ciddi rejim tə'yin edib, bu yeməklər də ki…

MOD — Nə yemisiz ki!.. Bir tikə sardin bağılı!.. Lui bu qədər ki, içirsən sən də xəstələnəcəkmən… Ah! Kaş ki, Jan-Lu burda olaydı…

ANRİ — Yaxşı olardı, amma Jan-Lu burda deyil.

(Bir anlıq sükut)

MOD — Termos yoxdur ki, buralarda, bəlkə qəhvə var? Edmond, bəlkə bir soyutma yumurta yeyəsiz, mədənizə xeyri olar. Təzə yumurtadır.

(Edmond iyrənirmiş kimi əlini yelləyib tələsik uzaqlaşır).

MOD — Silvian!

SİLVİAN — Heç inanmıram ki, bir şey çıxa! Dəqiqə başı kolluğa qaçan xəstə kişinin qadın şivəsinə nə ehtiyacı. Yaxşı, get deyirsiniz gedim!

(Silvian gedir)

MOD — Edmond, zavallı bala… çimməyə gedəndə, gərək onun üçün qızardılmış ət götürəm.

ANRİ — Çimməyə, o nə çimməkdir elə?

MOD — Luar çayında çiməcəyik. Həmişə getdiyimiz balaca çimərlik yadında deyil?

ANRİ — Aman allah!

LUİ — Demək istəyirsən ki, bizim məzəli dəstəmizə çimərlik paltarı geyindirib Luarda isladacaqsan?

MOD — Niyə də islanmayaq axı? Heç bilirsən ki, soyuq su, qan damarlarına, dəriyə, hər şeyə xeyirdir? Mən özüm iki ay əvvəl Floridada çimmişəm, su lap ləzzət verirdi!

ANRİ — Bu ki sadizmdir, əsl sadizm. Revmatizmalı Silvianı, ciyəri xəstə Edmondu, mənim kimi sudan qorxanı və Luini şərab şüşəsilə birgə buz kimi soyuq suya salmaq olar…

LUİ — Bir şeyi təsdiq bilirəm ki, lül-qəmbər olmasam getməyəcəyəm!

MOD — Əgər öz görkəminizdən utanırsınızsa, adamsız bir yer taparıq. Mə'lum məsələdir ki, dəriniz hələ gündən qızarmayıb.

İZABEL — Əlbəttə ki, hələ qızarmayıb, ancaq dəniz kənarında dəri gündən qızarır!

ANRİ — Mə'lum məsələdir.

LUİ — Dərimiz nə rəngdə olsa dəxli yoxdur, məncə uşaqlar bizi daşa basacaqlar, heç şübhə etməyin!

SİLVİAN (qayıdaraq) — Mod!.. Tapşırığın yerinə yetdi.

(Edmond gəlir)

LUİ — Edmond, bu dəfə lap qıpqırmızı olmusuz ki! Əsl buqələmunsunuz? İndicə Luar çayında çimməkdən danışırdıq… Fikriniz nədir?

EDMOND — Neçə? Ah, yox, Mod, yox… Birdəki, heç mənim çimərlik paltarım yoxdur…

MOD — Sizə qara cizgili çəmərlik paltarı alacam.

EDMOND — heç on ildir ki, üzməmişəm. Boğulacağam… Ay allah, bu nədir belə? (o ayaq üstə sıçrayıb qaşınmağa başlayır) Qarışqa, nə çox qarışqa var, lap yüzlərlədir…

MOD — Qarışqa yuvasıdır!

İZABEL — Gördün, Anri, lap topa-topa qaçışırlar!

MOD — Qarışqalar təsadüfi halda cüt gəzirlər, gözəl bala!

ANRİ — Lap elə bil Sən-Topezdəyik!

MOD — Lui, o qarışqaların üstünə şərab tok sakitləşsinlər.

LUİ — Qarışqalara viski verim? Bu ki, lap korçuluqdur!

EDMOND — Lə'nətə gələsiz, murdar heyvanlar, adamyeyənlər.

LUİ — Bu nə strip-tizdir belə, Edmond? Lap köynəkcəksiz ki. Başa düşürəm, kənddəyik, amma burda qadınlar da var!

EDMOND — Bilirəm, başa düşürəm, amma qaşınıram axı, yeyirlər məni.

LUİ — Qaşınmadan yaxşı nə var ki. Köhnə məsəldir; qıçlarda qaşınma, dəri altında qaşınma, başda qaşınma, hər yanda qaşınma.

(Edmond köynəkcək çırpınır, özündən çıxıb)

EDMOND — Daha bəsdir, daha bacarmıram… İt kimi xəstə olasan, sonra da, sonra da gəlib bu adamyeyənlərin yuvasına düşəsən! Heç belə də dərd olar…

MOD — Yaxşı, özünüzə gəlin, sizə bir sürpriz hazırlamışam.

ANRİ (təəccüblə) — Yenə bir sürpriz? Aman allah! Lui şüşəni ötür mənə.

MOD — Göstər onlara, Silvian.

(Silvian kürsünün altından köhnə bir patefon çıxarır.

Mod təntənə ilə patefona bir val qoyur. Musiqi səsası ucalır. Hamı bir-birinə baxır)

MOD (şən səslə) — Yaxşı, rəqs etmək istəyən yoxdur?

(Sükut çökür, hamı ovsunlanmış kimi ona baxır) Nə olub sizə belə?

ANRİ — Bu Jan-Lunun mahnısı idi, yadına düşmür? Həmişə bu mahnını oxuyardı, hər birimiz üçün sözlər də qoşmuşdu. Mahnını gitarada çalırdı. Lap həyətdə rəqs elədiyimiz gün pianoda da çalmışdı. AH! Piano çəmənlikdə necə gözəl görünürdü!

MOD — Nə olsun ki!

ANRİ (quru səslə) — İndi bu mahnını eşidəndə ürəyim sıxıldı.

SİLVİAN — Mənim də.

EDMOND — Elə mənim də.

MOD (Luiyə) — Yəqin ki, sənin də, eləmi?

LUİ — Qətiyyən, əzizim, gəl rəqs edək. Amma belimdən bərk tutsan yıxılmaya da bilərəm.

(Onlar qalanların baxışları altında asta-asta rəqs edirlər)

MOD — Yaxşı! İndi ki, bu val sizi dilxor edir, hər şey mə'lumdur, indi valı dəyişərəm. (Mod gedib valı dəyişir) Güman edirəm ki, bu musiqi sizi şənləndirər. Jitterburq rəqsidir! (O şən-şən fırlanır) Yaxşı, kim rəqs edəcək?

LUİ — Biz ikimiz.

MOD — Axı nə olub sizə belə?

LUİ — Edmondun ciyəri ağrıyır. Silvianın sinirləri xəstədir. Anri fikir çəkir. İzabel jerk rəqsini xoşlayır. Mən isə kefliyəm. Özü də ki, daha iyirmi yaşda deyilik. Heç birimiz. Səndən başqa.

MOD — Doğrudur, heç biriniz gənc deyilsiniz. Amma burda hamı azaddır. Əgər darıxan varsa, yaxud mənim bu birgə istirahət fikrimi xoşlamayan varsa, gedə bilər, mən incimərəm.

İZABEL (Anriyə) — Deyirəm, bəlkə?..

ANRİ — Bəli! Bəlkə Sən-Topezə gedək!.. Sənin əclaf dostların yəqin ki, artıq ordadılar.

(Sükut çökür)

MOD — Edmond, əgər sizə elə gəlirsə ki, buranın havası sizə düşmür…

EDMOND — Xeyr, qətiyyən… Mod, özünüz yaxşı bilirsiniz ki, bu yerlərdən xoşum gəlir. Mən sabaha qədər sağalacağam, elə indi də özümü yaxşı hiss edirəm.

(Silviana baxıb gülümsünür)

MOD — Bəs sən, Lui, Parisdə barların heç biri səni gözləmir ki?

LUİ — Borclu olduqlarımın heç biri gözləmir, əzizim. Mən qalıram.

MOD — Silvian, səndən heç nə soruşmuram. Yaxşı, Edmond Silvianla rəqs edir, sən isə mənimlə, Anri, qalanlar da birgə. Başladıq! Gəlin! Diribaş olun!

(Bir-bir hamı qalxıb rəqs etməyə başlayır)

Qaranlıq.

II SƏHNƏ

(Turində Modun mənzilinin böyük salonu. Uzaqda çəmənliklər görünür. Silvian səhnədədir. Çiçəkləri səliqəyə salır və uçan milçəkləri tutmağa çalışır. Jan-Lunun valını asta səslə oxudur, özü də zümzümə edir. Lui qapıda görünür. Silviana baxıb gülümsəyir).

LUİ — Xəyal aləmindəsiniz?

SİLVİAN — Ah! Qorxutdunuz məni… Elə bilirdim siz də başqaları ilə səfərə getmisiniz.

LUİ — Yox, mən canımı qurtardım. Yaxşı, deyin görək iyirmi illik nökərçilikdən sonra özünüzü necə hiss edirsiniz?

SİLVİAN — Yox yaxşı.

LUİ — Yaşamaq asan, pul qayğısı yox, səyahətlər, hərdən bir də Modun aşiqləri ilə xəlvəti görüş, elə deyil?

SİLVİAN — Elədir ki, var.

LUİ — Heç başqa şey arzulamamısınız?

SİVİAN — Məsələn?

LUİ — Məsələn "özünüzün" bir şeyi yaxud bir kəsi olmasını.

SİLVİAN — Özümün?

LUİ — Düz tapmışam, elə deyil? "Özünüzün" bir adamı, ancaq sizi sevən, sizin özünüzü sevən bir adam.

SİLVİAN — Mənim buna heç vaxt imkanı olmayıb, əzizim, Lui. Moda xidmət eləməyə başlayanda on səkkiz yaşım vardı, bircə frank da pulum yox idi…

LUİ — İndi yaşınız iyirmi il artıb və xeyli pul toplamısınız, eləmi?

SİLVİAN — Elədir.

LUİ — Razısınız?

SİLVİAN — Çox razıyam.

LUİ — Düzü, Mod sizinlə müqayisədə körpə uşaq kimidir. Heç sevdiyiniz adam olub?

SİLVİAN — Olub, sizi sevmişəm. 1950-ci ildə. Bütün günü poçtda keçirdiyiniz vaxt.

(bir anlıq sükut)

LUİ — Düzdür, bunu mənə tez-tez qandırırdınız da. Amma o günlər siz vaxtınızı samanlıqda da keçirdiniz, Anri ilə. Elə deyil?

SİLVİAN — Elədir, nə olsun ki? Mən gecə ova çıxan canlılardanam, əziz dostum, mən kölgədəyəm, amma hər cür işıqdan istifadə edirəm, ləzzət işığından da, asan ləzzət məni qane edir, özü də anadangəlmə beləyəm.

LUİ — Doğrudanmı?

SİLVİAN — Doğrudan. Sizlər gözəlsiniz, yaxşısınız, ağıllısınız. Siz istədiyinizi seçirsiniz, elə deyil? Sevmədiyiniz kəslə yatağa girmirsiniz, eləmi? Mən isə yox. İyrənc olsam da qanım qaynardır.

LUİ (sıxıntılı səslə) — Kəsin səsinizi.

SİLVİAN — Niyə axı? Sizin xəbəriniz yoxdur. Modun aşiqləri, sonra… Lap elə Nyu-Yorkdakı yönsüz qapıçı… ləzzət verirdi… Hələ indi bu zavallı Edmondun özü də.. Siz "xoşbəxt" olmaq istəyirdiniz, bu kobud sözdən yapışmışdınız, indi isə hissiyyatsızsınız, ya da cüz'i ehtirasınız qalıb, vacib hallar üçün…. Mən isə yox. Ehtirasdan başqa heç nə istəmirəm. Kiminlə olur olsun. Can rahatlığıdır!

LUİ — Siz ki, nimfomənsiniz, əzizim.

SİLVİAN — Kaş ki, olaydım. Mod da olaydı. Mod istəyirdi hər nə var ələ keçirsin, axırda əli boşda qaldı. O Jan-Lunun xəyalı ilə yaşayırdı. Çiy şeyə, çiy adamlara nifrət edirdi. Yaxınlıqdakı canlı bir kişini heç nəyə dəyişmək olmaz, ən əziz xəyala da.

LUİ — Düzü, məni lap qorxuya saldınız, Silvian.

SİLVİAN — Elə qırx ildir ki, mən özüm də özümdən qorxuram.

(Silvian çıxır. Lui susub qalır. Sonra gedib patefonu susdurur. Qoltuğunda bir jurnal İzabel daxil olur)

İZABEL — Oh! Bağışlayın. Elə bilirdim ki, siz də gəzməyə getmisiz.

LUİ — Yox. Mən e'tiraz elədim.

(İzabel əyləşib jurnalını açır. Sükut çökür)

LUİ — Sizin o jurnalda nə yazırlar? Sən-Topezdən yazmırlar ki?

İZABEL — Xeyr, müasir qadınlar haqda mülahizələrdir.

LUİ — Aman allah! Siz də bununla maraqlanırsınız?

İZABEL — Nə ilə?

LUİ — İndi oxuduğunuzla, müasir qadınla.

İZABEL — Axı mən də elə onlardan biriyəm, elə deyil? Burdan hər cür məsləhəğ alıram. Bilirsizmi, indi qəzetlərdə hər barədə yazırlar, əvvəlki qadağalar yoxdur daha, azadıq.

LUİ — Azadsız? Doğrudanmı? Həkimlərin, psixoloqların, məsləhətçilərin əhatəsində yaşayırsız. Sizə deyirlər nə yeməlisiniz, necə davranmalısınız, necə sevişməlisiz, hələ bir deyirsiz ki, azadsız?

İZABEL — Axı bunlar əmr deyil, məsləhətdir.

LUİ — Nə fərqi var? Dərinizə krem çəkməmiş gün altında qalarsınız? Üz-gözünüzün kirşanını təmizləməmiş yatağa girərsiniz? Yayada dağa, yanvar ayında isə dəniz kənarına gedərsiniz? Yamanca azadsınız… Siz də başqaları kimi robotsunuz, ay körpə. Siz idarə olunursunuz. Allah bilir, küçələrdə barrikada quran, məni də tez-tez dərdə salan cavanlar elə sizin yoldaşlarınızdır. Amma boynuma alıram ki, onlar da nahaqdan qalmaqal salmırlar. Bu barədə siz nə fikirdəsiniz?

İZABEL (çaşqınlıqla) — Nə barədə?

LUİ — Öz yaşıdlarınız barədə nə fikirdəsiniz? Müasir həyatdan xoşu gəlməyənlər, küçələrdə barrikada quranları deyirəm.

İZABEL — Mənə belə gəlir ki, köhnəni qırıb-dağıtmaq yaxşı işdir, amma gərək dağıtdığını nə ilə əvəz edəcəyini biləsən.

LUİ — Ə'la. (içir) İndi dediklərin də sizin o qəzetdə yazılıb?

İZABEL — Yox. Anri deyib. Jan-Pyerdən də eşitmişəm.

LUİ — Jan-Pyer, hə, Sən-Topezdəki məşuqlarınızdan biridir?

İZABEL — Məşuq, məşuq, sadəcə olaraq tay-tuşdur. Anri hamıya qısqanır. Jan-Pyer hələ indi-indi meydana çıxır, iyirmi altı yaşı var, tələbələr də ki, belədir, başa düşürsüz… vaxtım yoxdur.

LUİ — Başa düşürəm.

İZABEL — Bəs siz,nə ilə məşğulsunuz?

LUİ — Mən içirəm.

İZABEL — Bəs peşəniz nədir?

LUİ — Elə bu da peşədir. (İzabel ona baxıb çiyinlərini çəkir və qəzetini oxuyur) bizim bu oyunumuz haqda fikriniz nədir? Burdakı oyunumuz? Gəncliyimizi axtarmağımız barədə… Gənclik haqda nə fikirdəsiz?

İZABEL — Mən, bilirsiz, mənim üçün fərqi yoxdur, özümün iyimi iki yaşım var.

LUİ — Ən ağıllı cavabınız bu oldu, mənim mələyim.

(Sükut çökür)

İZABEL — Yaxşı, deyin görək bu Jan-Lu kimdir? Burda bütün günü ondan danışılır.

LUİ (gülür) — Jan-Lu mülayimlik nümunəsi, böyük hisslər, gözəl oxunan şe'r, vicdan, beynə vuran qan deməkdir. Jan-Lu bəxti gətirib vaxtında yoxa çıxmış bir nümunədir, bizim gəncliyimizdir. Vəssalam.

İZABEL — Hamı onu sevirdi, eləmi?

LUİ — Əlbəttə. Külək əsəndə onun saçlarını oynatmaq üçün əsirdi, günəş çıxanda onun gözlərini işıqlandırmağa çıxırdı, pişiklər də qaçıb onun dizləri üstündə otururdu. Bilirsizmi həyatda belə adamlar da olur.

İZABEL — O ölüb?

LUİ — Şübhəsiz. Elə biz də hərəmiz bir az ölmüşük. O isə yarımçıq iş görən deyildi.

(Sükut çökür)

İZABEL — Narahatsınız, nədir?

LUİ — Hər şey qaydasındadır.

İZABEL — Nədənsə mənə elə gəlir ki, hamınız bir az ağıldan kəmsiniz.

LUİ — Lap Anri də?

İZABEL — Elə babatınız Anri olar. Amma, bilirsiz nə var, Anri ilə mənimki uzun çəkməyəcək. Hər halda qırx dörd yaşı var!

LUİ — Elədir! Deməli onu sevmirsiniz?

İZABEL — Onsuz da yaşı keçib, çalışıram heç ona çox bağlanmıyam.

LUİ — Ondan sonra isə Jan-Pyer, elə deyil? Özü də Jan-Pyerin gələcəyi yaxşı olmalıdır… Siz tələbələr kimi deyilsiniz, sındırdığınızı nə ilə əvəz edəcəyinizi bilirsininz. Mə'lum məsələdir.

İZABEL — Bircə ömrümüz var.

LUİ — Düzdür. Amma sizin yaşınızın gözəlliyi orasındadır ki, hər kəs bir neçə ömür yaşayacağını fikirləşir.

(Mod, Anri və Edmond daxil olurlar, saçları dağınıq, özləri yorğundurlar).

ANRİ — Bir kilometr yolda iki dəfə təkərimiz buraxdı… Bu Şenar-Valker maşınını ölüm yatağından yola çıxarmaq səfeh işdi… Piyada qayıtmalı olduq…

MOD — Amma mən çoxluca gülmüşəm… Bircə Edmondu domkratla işləyən görsəydin…

EDMOND (incik səslə) — Çox sağ ol, Bağışlayın ki, mexanikanı tarixi bildiyim kimi öyrənməmişəm, heç vaxt deməmişəm də ki, mexanikanı bilirəm…

MOD (daha da ucadan gülərək) — heç nə görmədin Lui, gərək orda olaydın.

ANRİ — hə, gərək orda olaydın. Hər işi tək mən görməli oldum. Gör əllərim nə gündədir. Özü də Mod maşının içində oturub gülməkdən həlak olmuşdu (Anri də gülür)

MOD (Gülməkdən təngnəfəs olub) — Sən demə Edmond Flanel jilet geyirmiş, Anrinin isə əlləri xəzan yarpağı kimi əsirmiş… Ha, ha, ha… Gözəl səfər idi, sevişən gənclərin üstüaçıq maşında səfərinə oxşayırdı… Ha, ha, bağışlayın məni, lap üzüldüm gülməkdən (gülməkdən gözləri qızarmış halda çıxır).

ANRİ — Yaxşı, deyəsən daha ağlı başına gəlir.

LUİ — Elədir. Amma əylənir də. İşlər daha da korlaınr.

ANRİ — Nə demək istəyirsən?

LUİ — Mod yanılmağı sevən deyil.

İZABEL — Bilirsənmi, Anri doğrudan da Sən-Topezdə günümüz daha xoş keçərdi, bircə gör pencəyin və köynəyinin qolları nə gündədir… Gərək təmizləyəm onları.

LUİ — Deməli, cavan xanım hələ evdarlıq da edir. Hə, hər halda ərinizdir, gərək qeydinə qalasınız.

ANRİ — Sən niyə belə danışırsan?

LUİ (mülayim səslə) — Demək istəyirəm ki, əslində gərək sənə acıq eləsin, istirahət günlərini bir dəstə qoca səfehlə keçirmək ona ləzzət verə bilməz, amma yenə qeydinə qalır.

ANRİ (İzabelə) — hə, yəqin elədir, başa düşürəm.

(İzabel çıxır)

EDMOND — Nə əclaf şey imiş bu domkrat, lə'nətə gəlsin!

LUİ — Bu nə danışıqdır belə, Edmond? Sonra da ki, Anri ilə ikimiz səninlə danışmaq istəyirik.

EDMOND (kürsüdən qalxmadan) — Mənə deyiləsi sözünüz var?

ANRİ — Bəli, bilmək istəyirdik ki, burdakı güzaranımızdan razısınızmı.

EDMOND (şübhə ilə) — Məni sorğuya çəkirsiniz?

LUİ — Bura baxın, domkratalı adam, Anrinin sualına hə ya da yoxla cavab verin. Modun bizə caladığı bu proqramla razılaşırsınızmı?

EDMOND — Mən… mən də elə sizin kimi.

LUİ — Yox, bizim kimi ola bilməz. Mənim xeyrim budur ki, bir az havayı içəcəm, Anri isə parlaq karyerasının axırında bir axmaqlıq edib cavan qızla evlənib, indi də çalışır ki, onu Sən-Topezdəki pozğun cavanlardan uzaq salsın. Bəs siz? Siz, necə? Yaxşı vəzifəniz var, Sarbonda kafedarnız, tanınmış tarixçisiz… Siz niyə?

EDMOND — Qızlarımızın ikisi də nişanlanandan sonra arvadım Alinlə sözümüz düz gəlmir. Fikirləşdim ki, bir az aralı düşsəm pis olmaz. Həm də istirahətimin qayğısına qalan kimdir axı, bizim sevimli Modun gözlənilməz təklifi lap elə…

LUİ — Yaxşı, yaxşı. Hər şey mə'lumdur. Anri münaqişədən qaçıb siz də arvadınızdan. Heç olmasa bunu bilirik. Deməli allahınıza şükür etməyə, Moda isə əliaçıqlığına görə təşəkkür etməyə haqqınız var…

EDMOND — Nəyə işarə eləmək istəyirsiz?

LUİ (gülə-gülə) — Heç, elə belə?

ANRİ — Uşaqlar, deyin görək Modun neft sahibkarından ayrılıb çap maşınları sahibkarı ilə evləndiyi müddət arasında nə qədər qazandığını bilirsiz? Yox? Bir rəqəm deyin. Beş yüz milyon, əlbəttə, köhnə pulla.

LUİ — Mənim üçün eyni şeydir. Lap onda birini desəydin yenə şad olardım.

EDMOND — Aman allah… Beş yüz milyon… Kimin ağlına gələrdi… İyirmi il əvvəl…

ANRİ — Bu əyalət qəsrinin sahibəsi, balaca rəfiqəmiz iş bacarandır. Çox gözəl, əzizim. Elə mən də varlı olmaq istəyirdim.

LUİ (maraqla) — Hələ varlanmamısan? Sənin ki qayğını qadınlar çəkib həmişə? Gərək sən bizim nəslin ən varlı, "sevimli" kişisi olaydın axı.

ANRİ — Elədir, amma ya qadınlar mənə vurulub, nələri varsa veriblər, ya da mən sevib hər nəyim var vermişəm. Heç vaxt qarşılıqlı olmayıb. Mənimki gətirməyib, elə deyil?

LUİ — Əsl qadın mütəxəssisisən. Bəs bu axırıncı necə?

ANRİ — Heyif ki, bunu sevirəm. Özü də bundan əvvəl Dafne Van Krukla uzun müddət səmərəli dostluq eləmişdim.

LUİ — Doğrudanmı? Van Kruk qarı ilə?

ANRİ — Qarı, qarı! Qarı niyə olur ki? Dafne ağayana qadın idi! Bu axırınca isə məni soyub talayır. Hələ üstəlik səfehliyi də var.

LUİ — Zavallı Anri… Mən həmişə fikirləşmişəm ki, həyatda nə əkirik, onu da biçirik. Amma adam hərdən istəyir bu həyatı natəmiz küçük kimi boynundan yapışıb burnunu öz zibilinə batırıb deyəsən: "Nə etmisən belə? , nə oyun açmısan başıma?" Dərd burasındadır ki, o da küçük kimi çarpınır və heç vaxt cavab vermir.

EDMOND — Siz lap filosofmuşsuz ki.

LUİ — Alkoqoliklərin hamısı filosofdur. Bu da onların kiçik günahlarındandır. Gedib üst-başınızı təmizləyin. Edmond, indi görkəminiz həmişəkindən də pisdir.

EDMOND — Mənimlə bu cür danışmağı sizə qadağan edirəm.

LUİ — haqqınız var. Heç kəsin başqası ilə bu cür danışmağa haqqı yoxdur. Bağışlayın məni.

EDMOND (acıqla) — Necə?

LUİ — Bağışlayın məni.

EDMOND — Lap çox içmisiniz…

LUİ (gülə-gülə) — Bundan yaxşı nə var ki.

ANRİ — Doğrudur, yaxşı işdir. Yaxşı, çox gözəl mən gedirəm əllərimi yuyum.

(Lui ilə ikisi dalın-dalın, gülə-gülə çıxırlar.

Silvian gəlir).

SİLVİAN — Səslərini eşitdim, elə bilirdim gəliblər… Ah! Burdasızmış; Edmond.

EDMOND — Burdayam, əzizim Silvian. Lap az vaxta da olsa sizdən ayrıldığıma peşman olmuşdum, amma Mod çox tələbkardır (yumşaq səslə). Elə siz də hərdən tələbkar olmağı bacarırsız…

(O Silvianı sığallayır. Silvian diksinir.)

SİLVİAN — Ah, Edmond, xahiş edirəm əvvəlcə əllərinizi yuyasız, tamam sürtgü yağına batıbsız… Özü də bəlkə bizi görən oldu? Nə deyərlər mənə? Siz ki, evli adamsız!

EDMOND — Bağışlayın məni. Keçən gecə elə həyəcanlanmışdım ki,.. həm də gözlənilməz idi hər şey… Gözəl təcrübə idi, Silvian… Gözəl təcrübə idi!

SİLVİAN — Doğrudur.

EDMOND — Sizcə bizdən şübhələniblər? Narahat olmayın… Əgər hər şeyi bilsələr, deyərəm ki, sizi "mən" yoldan çıxarmışam.

SİLVİAN (quru səslə) — Guya ki, başqa cür imiş?

EDMOND — Mən… Mən isə… Mənə elə gəlir ki…

SİLVİAN — Özünüzü əskiltməyin, Edmond. Sizin kimi kələkbaz, bu baxışların, bu davranışın sahibi meşədə nahaqdan tək dolanmır. Ya da gərək ağlını itirmiş ola.

EDMOND (aludəliklə) — Silvian! Sevimli Silvian… İcazə verin…

(Lui daxil olur. Ucadan öskürməyə başlayır)

SİLVİAN (Luiyə) — Mən günlərin birində sizi…

(Silvian qəzəblə çıxır)

EDMOND — Məni hələ çox pusacaqsız?

LUİ — Edmond, gərək əllərinizi yuyaydınız, mən ki, sizə demişdim.

EDMOND — Elədir, düz deyirsiz, tamam çirk içindəyəm… domkrat… Sürtgü yağı… çöl-bayır…

LUİ — Gedin, əzizim, gedin!

(Edmond gedir. Saçını düzəldə-düzəldə Mod daxil olur, keyfi kökdür)

MOD — Hə, təksən, nə yaxşı… Ah! Əzizim kaş o tamaşanı görəydin…

LUİ — Yaxşı olardı, bir az gülərdim. Yaxşı, sənin fikrin nədir axı?

MOD — Fikrimi elə birinci gündən sizə izah eləmişəm.

LUİ — Bu məzhəkənin içində keçmiş gözəl günləri yaşayıram desən də inanmaram… Eşidirsənmi, Mod?

MOD — Hə, eşidirəm. Bəla burasındadır ki, əzizim, əvvəlcə fikrimin düzlüyünə inanırdım. Ürəyimdən olan fikirlərin doğru, yaxud mümkün olduğuna həmişə qəribə bir asanlıqla inanmışam. Elə bəlkə buna görə də çoxlarının məndən xoşu gəlib.

LUİ — Yaxşı, bəs bu məsələdə nə fikrin vardı? Beyninə salmısan ki, iyirmi yaşın var, bundan nə çıxar axı?

MOD — Əlbəttə, heç nə. Yox, mən Jan-Lu ilə bir yerdə olmaq istəyirdim.

LUİ (təəccüblə) — Jan-Lu ilə?

MOD — Bəli. Bilirdim ki, o yoxa çıxıb, amma yenə ona teleqram göndərdim. Bilmək olmaz. İndi sizinlə birgə onu sevdiyim günləri yaşamaq istəyirdim. Yer həmən yerdir. İndi otalaq basıb, sifətlər həmən sifətlərdir, qırış basıb, heç nə dəyişməmişdi. Həm də sizin hamınız, bəli, hamınız o vaxtkı Jan-Lunu xatırladırdınız mənə.

LUİ — Sən onu belə çox sevirsənmiş?

MOD (sakit səslə) — Bəli, çox. Ömrümdə ondan başqa heç kimi sevməmişəm. Sonrakılar əyləncə, zarafat, özümlə mərcləşməkdən başqa bir şey deyildi. Ondan sonra oyunbazlıq idi. Təkər üstə hoqqabazlıq edən, qadınla yatan, bədbəxtlik törədən, yüz oyundan çıxan kişilərin hoqqabazlıq meydanında idim. Gözəl idi, əslində gözəl meydan idi, kişiləri sevən və sevilən bir qadın üçün yer üzərində qurulmuş bir meydan idi. Bu balaca planetdə nə qədər şəhər, sifət, hərəkət, sevgi sözü olduğunu təsəvvür edə bilməzsən. Bax, elə

səkkiz dildə sənə deyə bilərəm "sevirəm səni". Mənim korlanmış yaddaşım üçün pis deyil, eləmi?

LUİ — Deməli, o vaxtdan heç kimi sevməmisən? Daha hamı ilə gəzməyin bir yana.

MOD — Oh, özünü çaşdırma. Elə belə, ehtiras naminə, mehribanlıq naminə, lap bə'zən də dostluq naminə. (Az fasilədən sonra) Bəs sən necə, quzu bala?

LUİ — Eh, mən, bilirsənmi…

MOD — Düzünü danışmasan, şüşəni əlindən alaram.

LUİ — Şirindil Mod… Mənimlə həmişə dil tapırsan. Belə ki, Solanj əhvalatından sonra elə bil diri-diri dərimi soymuşdular. Həyat və qadınlarla öz aramda şərab şüşəsindən sədd düzəltdim, sakitcə yaşadım. Hərdən bir azacıq qalxan ehtirasımı çox içməklə söndürdüm, vəssəlam. Atamdan qalma vərəsini yavaş-yavaş yedim, daha doğrusu içdim. İndi də görürsən, gülümsəyirəm qarşında, demək olar ki, korlanmamışam.

MOD — Bəs rəssamlığın necə oldu?

LUİ — O barədə danışmayaq. On il rəssamlıq etdim, qabiliyyətim də pis deyildi. Çəkdiklərim də pis pula getmirdi. Bədbəxtlikdən iş bununla da qurtarırdı.

MOD — Elə bu pis deyil ki.

LUİ — Yox, pisdir. Allah şahiddir ki, həyatım üçün çox şey arzusunda olmamışam, amma rəssamlığa qarşı tələbkar idim… Dahi olmaq istəyirdim, elə ki, gördüm dahi deyiləm, dedim "qud bay". Başa düşürsənmi?

MOD — Doğrusu başa düşmürəm.

LUİ — Mən də təəccüblənmirəm. Hüdudsuzluq mövhumu yoxa çıxıb. Yaradıcılıq üçün azacıq qabiliyətin vacibliyi də unudulub. Bu necə nəsildir! Hansı səfehin ağlına gəlsə müğənnilik edir, şəkil çəkir, kitab yazır, hələ üstəlik necə işlədiyindən, nə üçün yaratdığından da danışır. Sonra da ki, gərək cinsi münasibətlərin ola, yoxsa qapılar üzünə bağlanar, gərək xoşbəxt olasan, yoxsa uğursuzluq gözləyir. Heç təsəvvür edirsən?

MOD — Lap düşgünləşmisən. Londonda birgə keçirdiyimiz gecə yadındadır? Görüm neçənci il idi.

LUİ — Hə, 52-ci il idi…

MOD — O vaxt mənə elə gəlmişdi ki, ehtiraslı kişisən, laqeyd deyilsən.

LUİ — Yəqin kefli olmuşam.

MOD — Çox özündən nagüman olma. Yaxşı, ver o dirilik suyundan içim. (Mod içir). Xoşüm gəlir səndən, Lui.

LUİ (danışmazdan əvvəl içir) — Mənim də səndən xoşum gəlir, Mod. İndi fikrin nədir. Bu zavallıları azad edəcəksən?

MOD — Niyə ki? Dəli olmusan? Yaxşıca əylənirəm. Həm də ki, gündəliyi hələ axıra çatdırmamışam. Səni inandırım ki, hələ irəlidə qeyri-adi günlər var. Hələ güləcəyəm.

LUİ — Jan-Lu olmasa da güləcəksən?

MOD — İndi Jan-Ludan danışmırdım.

LUİ — Hə, bağışla.

(Anri ilə İzabel gəlir, Silvian da arxalarınca)

ANRİ (şən səslə) — İndi özümü yaxşı hiss edirəm. Adam iqlimə uyğuqlaşır. Gəzintilərimiz də çox şən keçir. Burdan gedincə iyirmi yaş olmasa da on yaş cavanlaşacağıq. Ələlxüsus Edmond. Məhəbbət ilahəsi onun başına sığal çəkib.

SİLVİAN — Yavaş…

(Edmond gəlir)

ANRİ — Nə olub belə, Edmond?

EDMOND — Deyəsən domkratla işləyəndə qabırğam batıb Arvadım Alindən məktub almışam, Mod, sizə xüssi salamı var.

MOD — Çox sağ olsun. Biz onunla tanışıq ki?

EDMOND — Məncə… bilmirəm.

MOD — Sizin üçün çox darıxır yəqin!

EDMOND — Çox sağ olun, xoşdur!

(İzabel qəhqəhə ilə gülür)

ANRİ — Yaxşı, İzabel!

(İzabel gülə-gülə çıxır, Anri ona tərəf getmək istəyir)

LUİ — İşin yoxdur onunla. Zavallı birinci dəfədir ki, burda gülür.

(Onlar qədəh götürüb şən-şən söhbətə başlayırlar)

MOD — Bu gün ayın 17-dir, elə deyil? Maşınla səfərimizi yarımçıq qoymalı olduq. Bizim köhnə Şenar maşınımız əldən düşübmüş.

SİLVİAN — Amma Jan-Lu onu elə sürürdü ki, maşın az qala uçurdu.

ANRİ — Çox bərk sürürdü, amma ağılla.

MOD — Hələ, elədir… yadınıza düşürmü, ondan… (Mod Luinin baxdığını görüb dayanır) Sözün qısası sizə təzə bir xəbər ver-

mək istəyirəm. Ayın 18-də, deməli, sabahkı gün velosipedlə Tur qəsəbəsinə getmişdik.

ANRİ — Nə ilə?

EDMOND — Ola bilməz?

MOD — Bəli. Velosipedlə getmişdik. Təzə velosipedlər aldırmışam, sabah saat onda yola düşürük. Səkinin aşağısında yığışacağıq.

ANRİ — Lə'nət şeytana (kresloya çökür)

SİLVİAN — Bəs mənim xəstə sinirlərim, Mod?

MOD — Bəlkə də velosipel sağaltdı. Hərəkət edəcəksən, sinirlərin yumşalar, daha nə lazımmış.

(Silvian acıqla çıxır)

MOD — Bilmirəm, nə olub buna axır vaxtlar. Nə desən inciyir.

LUİ — Edmonda görə belə eləyir.

EDMOND — Mənə görə?

LUİ — Elədir ki, var, əzizim, o gözləri ilə yemək istəyir sizi.

EDMON (mütəəssir) — Yəqin zarafat eləyirsiz… Yaxşı, Mod, ciddi danışsaq sizin sabahkı planınız məni açmır. Əvvəla bu domkrat məsələsindən sonra lümbaqam başlayıb, sonra da ki, axırıncı dəfə velosipedə mindiyim heç yadıma da gəlmir…

ANRİ — Boynuma alıram ki, bu velosiped məsələsi məni də narahat eləyir, amma, Edmond, sizi velosiped üstündə görmək həvəsinə razılaşmalı olacam.

MOD — Sizə hərəkət lazımdır. Edmond, köksünüz. Arvadınız Alin mənə təşəkkür edəcək. Həm də ki, biz tarixi izləyirik. Tarixə kəm baxırsınız, Edmond? Özünüz də tarixçi!

(Mod Luiyə tərəf çevrilir)

— Bəs sən necə, e'tirazın yoxdur?

LUİ — Mənim üçün nə fərqi, əzizim, ayaqlarımla səkkiz yazım, yaxud velosipedlə.

MOD — Deməli, hər şey qaydasındadır. Bu axşam bir az əylənirik, lap tez yatırıq, səhər saat onda isə, hamı yəhərə qalxır!..

Qaranlıq

III S Ə H N Ə

(Yolda. Həmin adamlar toz-torpaq içində qalaq-qalaq olublar, velosipedlər əzilib. Təkcə Mod sağ-salamat, velosipedin üstündədir).

ANRİ (ayağa qalxa-qalxa) — Lə'nət şeytana… lə'nət şeytana… lə'nət şeytana…

LUİ (qalxıb oturaraq) — İşləri korlayan şeytan olmadı. Silvian oldu.

ANRİ — Doğrudur. Əgər Silvian qəfldən sağa burulmasaydı, sən də onunla toqquşmamaq üçün belə dönüb özünü də, məni də aşırtmazdın. Sonra da bu səfeh Edmond gəlib üstümüzdən keçməzdi…

LUİ — Mans şəhərindəki 24 saatlıq yarışları təkrar eləmək istəyirdin yəni? Bizim final yerimiz elə bu tozluqdur. Elə belə də olmalı idi.

ANRİ — Əslində nə qədər ki, yavaş gedirdik hər şey qaydasında idi. Elə ki, enişi gördüm, bildim ki, işimiz bitib.

EDMOND — Mən də hiss elədim. Bir də gördüm qulaqlarımda külək vıyıldayır. Sizi duman içində görürdüm, rəngli kölgələr kimi… çox pis oldu. Anri, bağışlayın ki, üstünüzdən basıb keçdim.Sükandan elə bərk yapışmışdım ki, əyləcin tutacağına barmaqlarımı çatdıra bilmədim.

MOD (quru səslə) — Qurtarın müzakirəni, sağ-salamatsınız, elə deyil? Qalxın yəhərə!

LUİ (qətiyyətlə) — heç vaxt. Şüşəm qırılmayıb. Mən şüşəmlə burda qalıram. Sizə yaxşı yol.

EDMOND — Mən də qalıram. Bu tozun üstündən duran deyiləm.

(Hamısı yerdə otururlar)

ANRİ — Lə'nət şeytana, bəs İzabel hanı?

MOD — Coşmuş at kimi keçib getdi. Deyəsən əyləci xarab olub. Silvian, sən görmədin İzabeli?

SİLVİAN — Şimşək kimi keçdi yanımızdan.

MOD — Qəribədir, bu səfeh Silvian qəfldən burulub Anri ilə səni yerə sərəndə bircə anda fikirləşib qərara gəldim: ya burulub kolluğa aşmalı, ya da üstünüzdən keçməli idim. Fikirləşdim ki, çəkim azdır, keçsəm yaxşıdır. Adam belə hallarda tez fikirləşir.

LUİ — Məncə tez və eqoistcəsinə fikirləşmisən? Anri ilə mən nəyik məgər? Daş-torpağıq yoxsa çala-çuxur?

EDMOND — Əslində elə məni də yıxan sizin kövdələriniz oldu. İki təkərin üstündə adam bir təhər durur, hələ üstəlik də belə maniələr…

LUİ — Bura baxın, axmaqlıq eləyib bizi əzməyiniz bir yana, hələ bizi günahkar da edirsiz?

EDMOND — Mənə axmaq deyirsiz? Yaxşı, indi görərsən!

(Luiyə tərəf dartınır, Anri onu saxlayır).

MOD (ciddi səslə) — Yaxşı! Qurtarın görək! Yuxu görürük nədir? Edmond vuruşmaq istəyir? Siz ona nə etmisiniz belə, Silvian? Baxın, İzabel gəlir.

(İzabel gəlir, gözləri yaşlıdır, velosipedini də gətirir)

İZABEL (ağlamsınaraq) — Üz-gözüm sıyrılıb, yenişin aşağısında yıxıldım… Hü…Hü… Əyləcim sınıq imiş.

LUİ — Yəqin kimsə sındırıbmış. Aqata Kristi hardasa buralardadır. Hamımız bir-bir öləcəyik.

ANRİ (İzabelin velosipedini əlindən alır) — Ağlama, əzizim, elə bir şey yoxdur, bir az burnun sıyrılıb, vəssalam.

İZABEL (əyləşərək) — Vəssalam, vəssalam, lap səfehsənmiş. Görmürsən ipək köynəyim nə günə düşüb?.. Bir bax… Yox, daha bəsdir, mən Sən-Topezə getmək istəyirəm.

(Anri velosipedlə uzaqlaşır)

SİLVİAN — Hər halda yaxanız tamam açılıb, cavan bala. İcazə verin şalımla örtüm sizi.

(O şalını İzabelin çiyninə salır)

EDMOND — hayıf ki, örtüldü. Hi, hi…

MOD (təəccüblə) — Dayan! Dayan! Sən lap korlanırsan, Edmond?

EDMOND — hərdənbir namuslu kişi də gözəl qadına baxa bilər, elə deyil?

LUİ — Hirslənmə, Anri, Edmond hələ şokdadır.

ANRİ— Hirslənmirəm, heç vecimə də deyil.

MOD — Sən nə olub?

ANRİ — Heç, keyfim kökəlib. İzabelin burnuna baxanda, Sən-Topezə getmək üçün zəhləmi tökdüyünü eşidəndə qəfildən gülməyim gəldi.

MOD — Yuxudan oyanırsan, nədir?

ANRİ — Elədir. Hər halda mən alicənab adamam. Sevirəm onu, yaşadıram, ağlım onunkundan on dəfə artıqdır, amma o üzgüçü dostlarını görmək istəyir. Cavanların yanına can atır.

(Sükut çökür. İzabel həyəcanla)

İZABEL — Sən… Sən nə danışdığını bilirsən? Anri, mən yuxu görürəm?

ANRİ — Yox, yox, görmürsən. Çox təəssüf, çünki birinci dəfədir özünü yuxuluğa vurmaq istəyirdin.

İZABEL — Hə, yaxşı işdir!.. Məni sınıq velosipedə qoyub dikdən aşağı buraxırsan, sonra yıxılanda da yoldaşlarının yanında təhqir edirsən…

MOD — Yoldaşları!.. Ağıllı danışın, biz heç vaxt yoldaş olmamışıq. Biz dost, aşina, düşmən olmuşuq, heç vaxt yoldaş olmamışıq…

LUİ (sakit səslə) — İncitmə o uşağı, Mod, hər dövrün dəbdə olan sözləri var.

İZABEL (hıçqıra-hıçqara) — Luinin ürəyi təmizdir. Aranızda tək o yaxşıdır. Çox içsə də ürəyi təmizdir.

LUİ — Mən ürəyi təmiz deyiləm. Başa pozuğam. Amam o məndən də başı pozuqdur (Edmondu göstərir).

EDMOND — Mən, mənə deyirsən?

LUİ (həvəslə) — Arvadbazdır, özü də çox hiyləgərindən. Evli kişidir, iki yetişmiş qız atasıdır, özü də bizim tər-təmiz Silvianımızın namusunu ləkələməyə çalışır… Daha bu yerdə susmaq olar?

ANRİ — Doğrudanmı? Bir şey çıxıb yəni?

LUİ — Cəhd eləyib. Bilmirəm nail olub, ya yox. Silvian?

SİLVİAN — Özünüzü axmaqlığa vurmayın, Lui. Edmond məni yoldan çıxarmayıb, mən onu zorlamışam…

EDMOND (alicənablıqla) — Yox… İndi ki, həqiqəti demək vaxtı gəlib, danışacağam… Boynuma alıram ki, Silvianı tovlamağa çalışmışam… Doğrudur.

LUİ — Arvadınıza deyəcəyəm.

EDMOND — Oh, yox, amanın günüdür, indi lazım deyil… Biabırçılıqdır…

ANRİ — Yaxşı, Lui, Edmond sərbəst adamdır. Məncə sən onun nə anası deyilsən, nə də bacısı.

LUİ — Allaha şükür!

ANRİ — Necə yəni allaha şükür?.. Edmondun anası, bacısı olmaq əksiklik gətirir yəni?

LUİ — Yox, amma mənə əl verməz.

MOD —Deməliyəm ki…

EDMOND — Lə'nət şeytana… Mən… İnanmıram ki, Silvianın ilk təcrübəsi mən olam… Biz ki, bu yaşdayıq…

LUİ — Yoxsa demək istəyirsiniz ki, Silviana, bu mələkəyə indiyə qədər toxunan olub?

İZABEL — Hər halda olmuş olar!

SİLVİAN — Siz nəyə qoşulursunuz?

İZABEL — Heç, elə-belə. Bir halda ki, burda ancaq sarsaqlar yığışıb… Özünüz də bilirsiz ki, sarsaqsınız…

MOD — Bu nə danışıqdır! Yaxşı… Edmond səhvinizi düzəldəcəksiz?

EDMOND — Mütləq. Necə düzəldəcəyimi də sizə deyərəm.

ANRİ — Yaxşı, Lui, keçək günahından…

LUİ — Oldu (o gülür). Əzizim Edmond, körpə bala, doğrudan da elə bilirdiniz ki, arvadınıza satacam sizi? — kamil adam yoxdur, amma hər halda… Mən xəbərçi deyiləm.

EDMOND — Hə, gülmək üçün imiş… Sizin də zarafatlarınız var ha. Lap qorxmuşdum.

MOD (fikirli-fikirli) — Dayan, "kamil adam yoxdur" dedin yadıma düşdü… Zənnimcə Jan-Lunun ağlına gəlmişdi, bəlkə də sənin, Lui yoxsa mənim… Yaxşı yadımda deyil… Üçümüz idik, yaz axşamlarının birində yaxşıca içmişdik. Yadına düşmür?

LUİ — Yox. Amma içməyimiz adi hal idi!

MOD — Bir klub yaratmaq istəyirdik. Hər şeylə razılaşanlar klubu. "Kamil adam yoxdur", yaxud "hər gözəlin bir eybi var" məsələlini bilənlər heç vaxt, heç kimi mühakimə etməyənlər klubu, yadına düşür?

LUİ — Yox, Amma gözəl fikir imiş.

MOD — Çox az adam tapa bilmişdik. Klubumuza üzvlər tapmaq üçün Jan-Lu bütün gecəni bizi ora-bura sürüdü… Ertəsi gün səhər ruhdan düşdü.

LUİ — Nə qədər üzv yığa bilmişdi?

MOD — Bizimlə birgə deyəsən cəmisi altı nəfər idik. Jan-Lu istəyirdi ki, bizim öz nişanəmiz olsun… Yadıma düşdü… Lui, sol əlini göstər görüm.

LUİ (maraqla) — Buyura bilərsən.

MOD (təntənə ilə) — Əlinin üstündəki ağ ləkəni görürsən? Bu sənin nişanəndir: "Kamil adam yoxdur". Jan-Lu sənin, özünün və qalan üç nəfərin əlini siqaretlə yandırmışdı.

LUİ — Təsdiq bilirsən? Mən də hərdən fikirləşirdim bu nə ləkədir belə… Bəs sən? Əlini göstər görüm.

MOD (sıxılaraq) — Mən, fikirlə razı idim, amma qadın əlinin üstündə ləkə yaxşı görünməzdi; həm də, axı, belə yanıq ağrı verir..

LUİ (mülayim səslə) — Əlbəttə, elədir (fikirli-fikirli əllərin ovuşdurur). Yaxşı, bəs o klubun axırı necə oldu?

MOD — Bilirsənmi, o da elə başqa fikirlər kimi. Bir axşam, bir il… Sonra yaddan çıxır.

Edmond — Yox, klubu unutmaq lazım deyil. Dostlar mənim sizə ehtiyacım var! Kömək edin! Alinə yazmışam ki, onu boşamağa hazıram.

— ANRİ —Necə?

SİLVİAN — Doğrudan?

LUİ — Bu nə danışır?

EDMOND — Yazmışam. Bilirəm ki, xasiyyətim xoşunuza gəlmir, amma sizinlə olanda gülürəm, özümü yaxşı hiss edirəm, evdə də Sorbonda da çox darıxıram, sizinlə qalmaq istəyirəm, nə Alini, nə də qızlarımı görmək istəirəm, burda qalmaq istəyirəm, lap velosiped də sürərəm.

LUİ — Hə, bu da əlli yaşlıların ailə savaşı. Yaxşı, Edmond, bəs sizin ailə, cəmiyyət qarşısında borclarınız?

EDMOND — Daha bəsdir. Sən-Jak küçəsinə qayıdıb Alin və heyvərə qızlarımla televizora tamaşa eləmək itstəmirəm. Səfeh ev tapşırıqlarını yoxlamaqdan, oxuduğum səfeh mühazirələrdən də bezikmişəm. İstəyirəm burda, sizinlə qalım, hoqqabazlıq edim. Axı ölməyimə az qalıb.

MOD — Niyə ölürsən ki, xəstəsən?

EDMOND — Xəstə deyiləm, qocayam.

MOD — Bu nə sözdür, sən ki, mənimlə yaşıdsan. Özün də lap qıvraqsan. Yaxşı, Silvian, bəlkə sən bir çarə qılasan.

SİLVİAN — Mən bacardığımı eləmişəm, Mod. Yenə yada salmalıyam?

MOD — Doğrudur. Yaxşı, ağlama görək, Edmond, hər şeyi qaydaya salarıq. Dərs demək istəmirsən, getməzsən məktəbə. Arvadına da pul göndərərik, yəqin diplomun çox olsa da maaşın bir şey deyil…

EDMOND (hıçqıra-hıçqıra) — Üç yüz frank, hərdən bir də mükafat.

MOD — Görürsənmi, maaşın da az imiş. İstəsən qala bilərsən burda, ev-eşiklə məşğul olarsan. Bəlkə elə Lui də qaldı səninlə.

EDMOND (ağlayır) — Hü, hü, necə də bədbəxt olmuşam, ömrüm boyu darıxmışam, bütün ömrüm boyu…

MOD (ciddi səslə) — Lui… ver şüşəni ona bir az içsin.

EDMOND (gözü yaşlı) — Spirtli içki içən deyiləm.

MOD — İç. Yoxsa Jozefini… eh, Alini çağırram. İç görək! Nə böyük dərdin varmış? Zavallı Edmond…

LUİ — Onun gənclik hissi oyanır, əzizim. Bu hissi oyatmaq şiri qurdalayıb yuxudan oyatmaq kimi qorxuludur. Ömür keçir, gün keçir, qəfldən ürəyinin dərinliyini eşirlər. Edmond, çox şadam ki, içgidən xoşunuz gəldi, amma şüşə mənimkidir axı.

(O şüşəni Edmonddan almaq istəyir. Edmond isə ara vermədən içir.)

EDMOND — Yaxşı kömək eləyir. Hamınızdan üzr istəyirəm, əsəblərim korlanmışdı.

İZABEL — Mənim isə əyləcim korlanmışdı!

LUİ — Eyni şeydir, gözəl bala. (Edmonda). Nə yaxşı, əzizim, heç bilmirdik ki, sizin əsəbləriniz də var.

EDMOND — Deməli bilmirdiniz ki, əsəblərim var?

LUİ — Təzədən çevrilib pedant olmayın, Edmond, siz ki, az qala adam olmuşdunuz üçcə dəqiqəlik.

EDMOND (ağlaya-ağlaya) — Mən adam kimi də qalmaq istəyirəm, adam kimi.

MOD — Əlbəttə adamsan. Sözün keçmiş zamanda işlədildiyinə görə ağlama.

LUİ — Bizim də keçmişdən başqa bir şeyimiz qalmayıb, əzizim…

MOD — Səndən də xahiş edirəm atmacalarını qurtar… Alkaqoliksən, çox yaxşı, çox gözəl, daha Edmondu ağlatmaq nəyə gərəkmiş.

LUİ — Edmondu ağladan mən parazit, əyyaş deyiləm. Edmond ona görə ağlayır ki, namuslu, diplomlu, ailəli adamdır, yaxşı vətəndaşdır, gözəl atadır, hələ üstəlik alimdir, Edmond. Bilirsənmi iyirmi yaşı olanda o da arzularla yaşayırdı.

SİLVİAN — Sizin arzularınız nə imiş görəsən?

MOD — Hamımız arzularla yaşayırdıq. İndi arzular qurtarıb. Mən bilirəm ki, arzular qurtarıb, bəlkə səndən də yaxşı bilirəm.

Çünki yəqin sən hələ hərdənbir içki şüşəsinin arxasından günəşli, xoş, qayğısız xülyalar görə bilirsən…

LUİ — Olur, düzdür. Amma gec-gec olur.

MOD —Mən isə içən deyiləm. (Bir anlıq sükut. Sonra Mod şəqqə çəkib gülür. Deyəsən axırda içkiyə qurşanmalı olacam.

ANRİ — Gözəl fikirdir. Mən də qadınlardan, macəralardan qurtarıram. Şüşələr, şüşələr. Yumru, dördkünc, sarışın, qaraşın şüşələr…

LUİ — Lap şüşələrdən də danışanda elə bil qadından danışırsan.

EDMOND — Heç bilmirəm mənim qara ciyərim…

MOD — Sənə qara ciyər da alaram. Bu tərəflərdə kim birinci ölsə qara ciyəri sənin olacaq. Cərrahi köçürmə vasitəsilə. İndi bu adi bir şeydir.

EDMOND — Fikirləşəndə ki, arvadımın ömründə qara ciyəri ağramayıb…

MOD — Yox, canım. Arvadını ciyərinə görə öldürəsi deyilik. Ayrılarsan ayrıl, başqa məsələ, daha ayrılanda arvadının qara ciyərini də özünlə götürmə, yaxşı deyil.

EDMOND — Y ox, mən elə fikirləşmirdim… Mod.

MOD — Sən heç vaxt heç nə fikirləşmirsən!

ANRİ — Məncə Edmond haqlıdır. Gəlin hamımız qalağın burda, birgə qocalıb birgə də öləyin.

MOD — Mən razı. Dolandıraram sizi.

İZABEL — Elə şey yoxdur!.. Deyəsən hamınız dəli olmusunuz!

MOD — Dəli-zad olmamışıq, ay bala. Məsələ burasındadır ki, öz cavanlığınız, zərifliyiniz və e'tirazlarınızla zəhləmizi tökmüsünüz… düzü lap darıxdırırsınız bizi. İndi yığışmışıq özümüz, kinsiz, kələksiz, eyni yaşlı adamlar, qərara almışıq deyib gülə-gülə bir yerdə ölək. Nə olsun ki?

İZABEL — Anri… Anri… Sən də qalırsan yəni?

ANRİ — Qalıram, əzizim. Burda uşaqlıq xatirələrimizi vərəqləyəcəyik. İstirahət günləri çəmənlikdə yeyib-içəcək, velosiped sürəcəyik. Sənə belə güzaran təklif edə bilmərəm. Sənin klubların, plyajların var. Gələcəyin də var hələ. Axı bir gün sən də qocalacaqsan, əzizim, onu da fikirləş. Bizim kimi olacaqsan.

İZABEL (qışqırır) — Yox, elə danışma!

MOD — Biz indi Türində velosiped sürürük. Siz isə qocalanda Sən-Topezdə qayıq sürəcəksiz, başqa fərq olmayacaq.

LUİ — Təkcə dövr başqa olacaq, bir də iqlim. Bəlkə sür'ət də müxtəlif oldu.

ANRİ — Elədir. Başqa fərq olmayacaq. İndi get dostun Jan-Pyerə zəng elə.

İZABEL (Hamısına) — Zəhləm gedir sizdən.

EDMOND (gülümsəyərək) — Mənimsə sizdən xoşum gəlir, gözəl qız. Bu nazik köynəyin altında lap ə'lasız.

(Ləng addımlarla İzabelin arxasınca gedir)

LUİ — Canım üçün deyəsən bu havalanıb!

SİLVİAN — Havalınb eləməyib. Çox içirtdiniz, vəssalam.

İZABEL (qorxu içində) — Anri… O dəlidir, gözləri hədəqəsindən çıxıb, mütləq zorlayacaq məni…

ANRİ — Əziz Edmond, indi ki, həvəsi var… (O şəqqə çəkib gülür)

EDMOND — Həm də keyfim belə istəyir!

İZABEL — Necə?

EDMOND (hədə ilə) — Həm də keyfim belə istəyir. Burda kimin keyfi nə istəyir eləyir.

LUİ — Doğrudan da lap lül-qənbərdir.

(Edmond İzabelin arxasınca meşəyə girir. Mod çaşğındır)

MOD — İndi ki, hamının keyfi kökdür, gəlin menyuları tə'yin edək. Hərənizin öz yemək rejimi var, elə deyil?

LUİ — Nə desən onu da yeyəcəyik, Mod.

ANRİ — Elədir, Mod, lap soyutma yumurta da yeyərik.

(Meşədən qışqırıq səsi gəlir)

MOD — Anri, xoş xəbər olmasa da deməliyəm ki, deyəsən Edmond arvadını zorlayır.

ANRİ — Mən arxayınam. İzabel ondan bərk qaçır. Mənim üçün əsas odur ki, İzabel mümkün qədər uzağa qaçıb getsin. Yaxşı oldu. Sabah çıxıb gedəcək. (O otun üzərinə uzanır) Otun üstündə adam özünü lap rahat hiss eləyir.

LUİ (fikirli-fikirli) — Doğrudur, otun üstü adama ləzzət verir. Axı nə olub bizə belə?

MOD (mülayim səslə) — Cavanlaşmışıq, əzizim.

Pərdə düşür

II PƏRDƏ

I SƏHNƏ

(I-ci pərdənin 2-ci səhnəsində görünən otaq, amma indi yağış yağır və divar peçi yanır. Mod, Silvian, Anri və Edmond kart oynayırlar. Lui peçin yanında fikrə gedib).

MOD (Edmonda) — Çox fikirləşəcəksiz, Edmond?

EDMOND — Vaxtım da var, ixtiyarım da.

MOD — Vaxtınızdan yamanca istifadə edirsiz! Zavallı Alinin günü çox da xoş keçmirmiş… (Edmond oynayır) Hə! Hə! Axır ki, tutuldunuz. Valet məndədir. Əzizim Silvian, bunları yaxşıca tutmuşuq. Bu belotu biz apardıq. Nəyiniz var gəlin. Belot məndədir.

EDMOND — Belot sizdədir? Hansı belotdur o elə?

MOD — Dördkünc.

EDMOND — Ola bilməz, Mod. Dördkünc məndə idi.

MOD — Elə isə bu ürəkdir.

ANRİ — Mən heç belot dediyinizi eşitməmişəm.

MOD — Deməli kələk gəlirəm? Hə, deyin kələk gəlirəm?

ANRİ— Kələk gəlmirsən, səhv edirsən.

MOD — Kart oyununda ikisi də birdir… Elə deyil, Lui? Lui oyan görək.

LUİ — Siz ki, bir qəpik udub-uduzmursuz. Nə mə'nası var. Bəsdir dalaşdınız.

MOD — Davasız belot oyunun ləzzəti yoxdur. Sözümün üstündə duraram ki, şah və dama demişdim.

SİLVİAN — Məncə bu belot oyunu lap köhnəlib.

MOD — Sən bu uşaq oyununa köhnə deyirsən? Əzizim, yüksək cəmiyyət adamları görmüşəm ki, oyun salonlarında ovuclarında dollar tutub "tap görək" oynayırlar. Orda olsan görərdin köhnə oyun necə olur. Hə, Edmond, gəlirsən? Yoxsa pass demək istəyirsən?

EDMOND — Bir qurtum kalvados içmək istəyirəm.

MOD — Lui, deyəsən sənin həmkarların artır axı… Edmond kalvados şərabına qurşanıb, Silvian mentollu likora, Anri çintonikə… Nə olub sizə belə?

LUİ — Çünki həyat dözülməzdir, gözəl dostum, sən bunu başa düşmürsən. Narkotiklər, içkilər, sakitləşdiricilər, morfi — hamısı eyni məqsəd üçündür. Vaxt keçirmək üçün.

MOD — Elədir. Amma mən həyatı olduğu kimi təmiz şəkildə xoşlayıram, dava-dərmansız, spirtli içkisiz ömrü xoşlayıram. Edmond, mən gəlmişəm.

LUİ — Sən başqa, əzizim, sən qaniçənsən.

MOD — Elədir. Yadımdan çıxmışdı ki, "mən" qaniçənəm! Yaxşı, xahiş edirəm deyəsən, həyatda uğursuzlar və qaniçənlərdən başqa bir şey varmı?

LUİ — heç nə yoxdur, zavallı dostum, heç nə. Hərdən itlər cəsarətli çıxırlar.

MOD — Nələr?

LUİ — İtlər (iti yamsılayır) ham! Ham!

ANRİ — Mən pass deyirəm.

SİLVİAN — Mən də pass.

EDMOND — Pass.

MOD — Bu hələ keflidir, deyəsən. Əlində kart, oynamır.

LUİ — Darıxıram, Paris üçün, barlar üçün darıxıram.

MOD — Gedə bilərsən!

LUİ — Yox. Qorxuram. On frank pul üçün ora-bura qaçmaq gözümü alıb. Edmond da darıxır, mühazirələri, tələbələri üçün, Anri qadınları üçün darı xır, amma hamımız qorxuruq… Xoşbəxtlikdən sən də yaxın vaxtda öz intriqaların və səfərlərin üçün darıxacaqsan, onda dağılışmağa məcbur olacaq. Uf!

ANRİ — O sayaqlayır. Qonaqpərvərliyin çox xoşdur, Mod. (O Modun əlini ağzına aparır)

EDMOND — Düz deyir, Mod, çox xoşdur. (O da Modun əlini ağzına aparır)

MOD (qışqırır) — Ay! Bu dəli olub, axı… Nə olub sizə, Edmond? Əlimi dişlədi.

ANRİ — Dişlədi?

MOD — Əlbəttə, dişlədi. Bir bax, Anri.

ANRİ — Nə olub sizə belə, Edmond?

EDMOND — İstəyirdim əlinin yumşaq yerini yüngülcə dişləyim, kitabda oxumuşdum ki, bə'zən belə eləyirlər. İstəmirdim ki…

MOD (acıqla) — Harda oxumusuz belə şeyi? Hansı axmaq kitabda yazılıb?

EDMOND — Axmaq kitab deyil! Cəngavərlik romanı idi.

MOD — Cəngavərlik ha… Yaxşı, bəs mənim əlimi niyə dişləyirsiz? Xarab olmusuz?

LUİ (intonasiya ilə) — "Ona yemək verən əli dişlədi"

MOD — Qəribə işdir… Biri hürür, o birisi əlimi dişləyir, belə getsə gərək Silvianın ağzına bir tikə şirni atam ki, mənə toxunmasın.

(Silvianın hirsləndiyini görüb Anri qəhqəhə ilə gülür)

ANRİ (gülə-gülə) — Bağışlayın, aləm qarışıb. Bizim oyunumuz nə oldu? Qapının zəngi çalındı. Görüm kimdir. (O gülə-gülə çıxır).

SİLVİAN — Bilmirəm bu şirni məsələsinin nəyi gülməlidir…

EDMOND (alicənablıqla) — Məndə gülməli bir şey görmürəm, sevimli Silvian.

MOD (fikirli) — Gərək əlimə spirt tökəm, belə yaralar tez infeksiya verir.

LUİ — Küylənməyin, əzizim. Sizi dişləyənin ağzı köpüklü olsa da, özü quduz deyil. (Lui də gülür)

EDMOND (ayağa qalxır) — Sizi… sizi… deyəsən sizi çırpmalı olacam…

LUİ — Lap məktəb uşaqları kimi danışırsız. Əslində belə də olmalıdır…

(Anri qayıdır, o hələ gülür; Silviana baxıb gözünü silə-silə Moda bir teleqram uzadır).

MOD (təbəssümlə) — Özünə gəl, Anri, on iki yaşlı oğlan deyilsən ki. İcazə verin oxuyum.

(O teleqramı açır).

Aman allah!..

ANRİ — Nə olub, Mod?

MOD — Uşaqlar, Jan-Lu gədir.

(Hamı çaşıb qalır).

ANRİ — Jan-Lu? O ki, ölüb…

MOD — Teleqramı yəni ölü göndərib? Baxa bilərsən. Ah! Bilirdim, mən bilirdim ki, o ölə bilməz. Onun ölümündən ağır nə olardı… Qulaq as Lui: "Teleqramı aldım. Ayın 25-də gəlirəm. Jan-Lu". Lui, Lui, sevinmirsən, yəni?

LUİ — Yox, mən nigaranam.

MOD — Axı, o ki sağdır…

LUİ — Necə sağdır? Nəyin bahasına sağdır? Onun da ömründən iyirmi il keçib. Ömür elə belə keçmir bircə bizə bax.

MOD — Yox… keyfimizi pozma…

LUİ (mülayim səslə) — Oldu, Mod.

ANRİ — İşə bax ha… Jan-Lunu görəcəyimə lap sevinirəm!

EDMOND — Mən də.

MOD — Ayın 25-i… Elə bu gün 25-idir ki! Heç saçımı da düzəlməmişəm. Biz burda lap vəhşi kimi yaşayırıq. Lap qocalar evindəki kimiyik. Silvian, gəl kömək elə, paltarımı dəyişəcəm.

EDMOND — Sizcə necə gələcək o?

MOD (gülə-gülə) — Təsdiq piyada gələcək. Çiynində dəyənək, özü də arıq, saçları yüngülcə çallaşmış.

ANRİ — Ya da kasıb arvadlardan birinin köhnə maşınını borc alıb gələr. Bəlkə də qatarla, biletsiz gəldi. Yaxşı, iyirmi ildir o Braziliyada nə edirmiş görəsən?

SİLVİAN — Yəqin qəbilələrdən birinə qoşulub yaşayır, ömrün necə keçdiyini müşahidə edirmiş.

EDMOND — Ya da orda bir qadına dəlicəsinə vurulub, onun kölgəsində yaşayır… eşq e'lan eləmsək istəyir… amma şə'ninə sığışdırmırmış…

LUİ — Bəsdir cəngavərlik romanı oxuduğunuz, Edmond.

MOD — Nə olub sənə, Lui? Biz hamımız belə sevinirik. Sən sevinmirsən onun gəlişinə?

LUİ — Sevinirəm. Elə ona görə də nigaranam. Onu görəcəyimə çox sevinirəm.

ANRİ — Yaxşı, onda bəs nə olub?

LUİ — Mən ki sizə dedim, çox vaxt keçdiyinə nigaranam.

EDMOND — Bəs bizim belot oyunumuz. Qurtarmadıq axı.

MOD — Oyun… oyun… dəlisən nədir? İdi oyun vaxtıdır?.. Tez gəl, Silvian.

(Mod çıxır, Silvian da arxasınca)

EDMOND — Əntiqədir. Mən udurdum… Yox canım, bəsdir daha, haqsızlıq oldu…

(O kartları atıb çölə çıxır. Anri ilə Lui tək qalırlar).

ANRİ — Məncə bu Edmondun ağlı xarab olur. Gələndə əməlli-başlı adam idi, indi isə… Yəqin Silviana görədir…

Nə fikrə getmisən, Lui?

LUİ — Fikirləşirəm ki, Modu çox istəyirəmmiş.

ANRİ — Əlbəttə. Mən də çox istəyirəm. Söz nədən düşüb ki?

LU — Yox. Mən fikirləşirdim ki, onu "doğrudan" çox istəyirəmmiş. Mod üçün narahatam.

ANRİ — Narahat niyə olursan? Modun kefi kökdür. Bu gün onun Jan-Lusu gəlir.

LUİ — "Onun" Jan-Lusu… İndi gələn onun Jan Lusu olacaq yəni? Elə özümüzə baxaq, Anri. Daha doğrusu mənə bax. Çünki səni qadınlar uşaq kimi əzizlədiyinə yaxşı qalmısan. Doğrudan da məhəbbət — fiziki məhəbbət adamı yaxşı salayır. Amma məni görürsən? Cavan vaxtı necə olduğum yadındadır?

ANRİ — Elə indi də pis deyilsən, canım.

LUİ — Sağ ol, çox razayım. Yaxşı, de görüm özün özünü belə zərif saxlayırsan?

ANRİ — Başqa çarəm yoxdur, əzizim. İndiki zamanda zərif, gündən yanmış və şən olmasan işin bitib…

LUİ — Bu ki, lap zülümdür. Təsəvvür edə bilərsən ki, mən səhər idmanla məşğul olur, viskini az içir, vitamin uduram? Bəlkə bəzənək, ətirlənək də? Canım, biz harda yaşayırıq? Bu camaat dəli olub nədir? Bir qadın məni sevirsə çəkimin ona nə dəxli? Mən heç vaxt qadını belinin incəliyinə… yaxud başqa cəhətinə görə sevməmişəm…

ANRİ — Elə mən də, amma çarə yoxdur. Hamısı özünə yemək rejimi götürüb, yaxud kökəlməmk üçün massaj qəbul eləyirlər.

LUİ — Mən demək istəyirəm ki, Anri, hissiyyatın estetika ilə əlaqəsi azdır. Mənə ən gözəl, ən zərif qadını göstər, əgər onun gözlərində və dodaqlarında axtardığım ifadəni görməsəm… mənə lazım deyil.

ANRİ — İzabel haqda fikrin nədir?

LUİ — İzabel, onu başa düşmək olur.

ANRİ — Sağ ol, əzizim. Yaxşı, Jan-Lu məsələsinə qayıdaq. Mod özünü gözəl saxlayıb, əgər Jan-Lu bir az kökəlmiş, saçı azacıq çallamış olsa…

LUİ — Mən tək fiziki görkəmnən danışmıram. Sən hiss eləmirsən, Anri, indi biz bir adamın gəlişini yox, öz gəncliyimizin gəlişini gözləyirik. Gələn bizim gəncliyimizin simvoludur. Elə bu simvola görə də biz buradayıq, əziz-xələf qonağıq. Bilmirsən yə'ni?

(Bir anlıq sükut)

ANRİ — Bəsdir, Lui. Axı niyə deyilməyi məsləhət olmayan sözləri belə açıq deyirsən?

LUİ — Çünki istəyirəm mənə kömək edəsən… elə Modu qorumaq üçün.

ANRİ (gülür) — Modu qorumaq… qəribə sözdür… kimdən qorumalıyıq biz Modu?

LUİ — Elə Modun özündən. Yaxşı, gəl! Gedək üst-başımızı səliqəyə salaq.

(Onlar çıxan kimi, uzun don geymiş Modla Silvian gəlir. Silvian gedib pəncərədən baxır)

MOD — Bir şey görmürsüz, Silvian?

SİLVİAN — Yox. Qəribədir, Mod, ömründə sizi belə əsəbi görməmişəm.

MOD — Mən əsəbi deyiləm. Jan-Lunu görəcəyimə çox sevinirəm, vəssalam.

SİLVİAN — Vəssalam. Üzr istəyirəm. Mod, amma bə'zi şeyləri unudursuz. Məsələ burasındadır ki, dünyanın bütün məşhur mehmanxanalarında sizin şeylərinizi mən yerbəyer edir və iyirmi ildən bəridir bilirəm Jan-Lunun saralmış şəklini, otaqda təsadüfən tək olduğunuz vaxtda, hara qoymalı olduğumu bilirəm. Çarpayınızın yanındakı xırda masanın üstünə.

MOD (soyuq səslə) — Nə olsun ki?

SİLVİAN — Yadınızdan çıxıb ki, onu bütün Cənubi Amerikdaa axtardığınız vaxtlar fərdi agentliklərə keçirdiyiniz pulları mən sənədləşdirirdim.

MOD — Yaxşı nə olsun ki?

SİLVİAN — Heç, elə belə.

MOD — Elə belə də yaxşıdır.

(Bir anlıq sükut)

SİLVİAN — Aha… Bir maşın görürəm, daha doğrusu işığını.

MOD (ayağa qalxır) — Odur yəni?

SİLVİAN (ləng səslə) — Bilmirəm… Bura gəlir… yox, sağa dönür. (O qəfildən çevrilib ayaq üstə durmuş Moda baxır və gülümsünür. Mod fikirdən ayılıb ona baxır).

MOD (yerində otura-otura) — Nə olsun ki? Siz məni gülünc hesab edirsiz, Silvian, mən isə sizi heysiyyətsiz. Nə mə'nası…

SİLVİAN — Elə bir fərqi yoxdur. İyirmi illik belə münasibətdən sonra iki qadın bir-birinə ancaq nifrət elə bilər, elə deyil?

MOD — Mən sizə nifrət eləmirəm.

SİLVİAN — Yox. Amma bircə dəfə, tək bircə dəfə mənimlə mehriban dolansanız, yaxud dostluq etsəniz bir-birimizi başa düşərikmiş.

MOD — Heç bu barədə fikirləşməmişəm.

SİLVİAN — Bilirəm. Niyə də fikirləşəsiz axı?

MOD — Heç bu barədə də fikirləşməmişəm. İnstinkt belə imiş.

SİLVİAN — Çox gözəl, varlıların instinkti belə imiş. Lap ə'ladır!

(Kişilər qayıdırlar, geyimləri səliqəyə düşüb).

LUİ — hə , necədir, Silvian, bir dəyişiklik görmürsüz?

SİLVİAN — Yox.

LUİ — Ann, bacım Ann nə pis günə düşmüsüz. (bir artisti yamsılayır — tərc.)

ANRİ — Gərək gəldiyi vaxtı bildirəydi. Gözləmək adamı əsəbiləşdirir.

EDMOND — Sizin qayğınız sayəsində kökəlmişəm deyəsən, Mod. Köynəyimin boğazı sıxır.

ANRİ — Bilmirəm niyə belə geyinib-keçinmişik. İndi lağlağıçı Jan-Lu gəlib bizi belə görüb doyunca güləcək. Onun gülməyi də ki, yəqin yadınızdadır? Başladı dayana bilməzdi…

SİLVİAN — Təpədən ağaşıda maşın işığı görürəm… (Bir anlıq sakitlik. Lui, Anri, Edmond pəncərəyə tərəf bir addım atırlar. Mod yerində donub. Lui ona baxır) — Hə, maşın sola döndü. Bura gəlir.

(Silvian pəncərədən çəkilir. O birilər tələsik kreslolarında otururlar, biri qəzet götürür, biri qədəh, hamısı elə bil utanır. Mod gözünü qapıya zilləyib. Jan-Lu daxil olur. Ucaboy, canlı, bir az qızarmış, mehriban görkəmlidir. Qapıdan girib dayanır).

JAN-LU — Hello, bu da mən… (Hamı çaşqınlıqla ona baxır. Mod, əzizim Mod, gərək səni birinci öpəm.. Həmişəki kimi gözəlsən, əzizim… Özü də varlısan… Elə inanırdım ki, belədir… (Modu öpür) Anri, gözəl Anri… (öpür)… Lui… Edmond… Silvian… Yaddaşım korlanmayıb, eləmi… Sizi gördüyümə lap çox şadam… Bəlkə mənə bir qədəh viski verəsiz… Yol yaman uzaqmış. (O özünü kresloya yıxır).

ANRİ — Səni… səni çox yormadı yol?

JAN-LU — Bilirsənmi, üç gün əvvəl təzə "DS" markalı maşın almışam. Yaxşı gedir. Yolda lap bir Mersedesi keçdim. Maşının sahibi hirslənmişdi… (bir anlıq sükut) hə, necədir?

MOD — Nə necədior?

JAN-LU — Deyirəm işləriniz necədir, nə ilə məşğulsuz? Axı iyirmi ildir görüşməmişik… Sənin teleqramını Nyu-Yorkdan qayı-

danda aldım, orda bir az imiş vardı… Yaxşı, siz niyə yığışmısız bura?

LUİ — Səni gözləyirdik. Bəs sən, sən nə ilə məşğulsan?

JAN-LU — Mən, özün bilirsən ki, yoxa çıxmışdım, cibimdə bir qəpikdə pulum yox idi. İndi altı aydır ki, Parisdə "Kofinel" ilə birgə üzə çıxmışam. Kofinel mənim təsərrüfatımın adıdır.

EDMOND — Kofinel… Kofinel… Eşitmişəm bu adı…

JAN-LU (gülə-gülə) — Eşitmiş olarsan. Hər yanda tikintisi var. Fondu on milyarddır.

EDMOND — İşə bax ha!.. Özü də sizindir… yəni sənindir?

JAN-LU — Əlbəttə, əzizim. Tək özümündür. Sonra da uşaqlarımın olacaq. Üç uşağım var. Bəs sən nə edirsən?

EDMOND (çəkinə-çəkinə) — Mən… mən Sorbon universitetində tarix müəllimiyəm… və… iki böyük qızım var.

LUİ — Gərək çatan kimi bir-birimizə ailə şəhadətnamələrimizi göstərəydik, vaxt az gedərdi.

JAN-LU — Eh! Lui, köhnə dost, həmişəki kimi sataşmağa imkan axtarırsan… Bəs sən, sən nə edirsən?

LUİ — Mənmi? Mən içirəm.

JAN-LU — Vəssalam? Bəs nə ilə dolanırsan?

LUİ — İndi? İndi Modun hesabına.

JAN-LU — Məzəyə bax… Mən sənə bir məşğuliyyət taparam, əzizim, Parisdəki filialımda. İşin az olar, gəlirin çox… Bəs sən necə, Anri, yenə qadınlarla məşğulsan?

ANRİ — Eh, elə belə, bir təhər…

JAN-LU — Sən necə, Mod, yenə od qoyduğun ürəkləri saymaqla məşğulsan? Heç bilirsən necə gözəlsən?

MOD — Sağ ol, Jan-Lu. Yox, istirahətdəyəm.

JAN-LU — Elə bil yuxulusunuz hamınız. Yaxşı ki, gəlib oyatdım sizi, əvvələrdəki kimi. Yaman məzəli günlər keçirirdik burda, yadıma düşür… İndi gününüzü necə keçirirsiz?

LUİ — İlk günlər velosiped sürür, çəmənlikdə qəlyanaltı edir və…

JAN-LU (maraqla) — Məzəyə bax… Sizin yaşınızda ha?

MOD — "bizim" yaşımızda.

JAN-LU — Doğrudur. Bizim yaşımızda. Hər halda hamımız yaxşı qalmışıq. Mən necəyəm, Mod?

MOD — Ə'la.

JAN-LU — Aktiv həyat sürdüyümə, çox çalışıb-vuruşduğuma beləyəm. Doğrudan da deyə bilərəm ki, vuruşmuşam. Özü də tək canıma. Şair olmaq istədiyim yadına gəlirmi? İndi deyə bilərəm ki, həyat başqa imiş, poeziya başqa. Bunu başa düşmüşəm. Siqar çəkmək istəyən var?

LUİ — Məmnuniyyətlə. Deməli yaxşı başa düşmüşəmsə, sənin Kofi-maşın şirkətin, üç uşağın, təzə "DS" maşının var… yaxşı, de görək arvadın da var ya yox?

JAN-LU — Əlbəttə var. Adı da Cenni. Görsən xoşuna gələcək, Anri. Bura gəlmək istəyərdi, amma arvadların işini bilirsiz də, indi Parisdə dəbli paltar kolleksiyası dövrüdür, əgər bircəsini tapa bilməsə ürəyi gedər, yaxşı geyim üçün dəlidir. Doğrudur, mənə baha başa gəlir, amma neyləyəsən, xoşu gəlir geyinsin, mənim ki, imkanım var.

MOD — Bəlkə çamadanlarını aparasan otağına… Otağın hazırdır. Boz otağı tanıyırsan yəqin.

JAN-LU — İndi nəyimə gərək? Yoxsa istəyirsən smokinq geyim? Yox, mələkəm, elə göstəriş vermə, onsuz da ömrüm kəpənək yaxalıqla keçir. Cenni məni hər axşam bir yerə aparır. Tərs kimi bütün Parisi tanıyır… Yox, bir az da kəndsayağı yaşayaq! Sabah köhnə məxmər şalvar və iri toxunma köynək geyirəm, vəssalam. Özü də mən sabah axşam yola düşməliyəm.

LUİ — Nə tez?

JAN-LU — İş-gücüm var, əzizim, işim çoxdur.

MOD — Daha başqa şey fikirləşməyə vaxtın qalmır?

JAN-LU — Başqa nə fikirləşməliyəm ki? Hə, hərdən bir qızlarla… Yaxşı əyləncədir. Elə deyil, Anri? (Anrini dürtmələyir)

ANRİ (çəkinə-çəkinə) — Eh, mən, bilirsənmi…

JAN-LU — Bilirəm… bilirəm… Yaxşı başa düşmüşəmsə Edmond müəllimlik edir, sən qızları ovlayırsan, Lui isə içir. Deyəsən təkcə Mod özünə bir gün ağlaya bilib.

MOD — Nə mə'nada "özünə gün ağlayıb" deyirsən?

JAN-LU — Əsas məsələdən danışıram, gözəl dostum, puldan. Deyəndə yaxşı çıxmır, amma düzü belədir.

MOD — Hə, düz deyirsən, özümə bir gün ağlamışam. (bir az sonra) Axmaq adam! (bir anlıq sükut) Mən özümdən danışırdım. Bəlkə bir viski də içəsən?

JAN-LU — Sağ ol. Birini nahardan əvvəl içirəm, birini də sonra. Vəssalam. Artıq məzə vermir.

LUİ — Elə hey “məzə” sözünü təkrar eləyirsən, “məzəyə bax”, “məzə vermir”. Adətin belədir?

JAN-LU — Doğrudan? Elə deyirəm? Yəqin mexaniki olur. Həm də elə öz aramızdır, boynuna al ki, həyatın özü əntiqə bir məzədir, elə deyil?

MOD — Gərək bələd olasan. Lui, zəhmət olmasa mənə içgi ver, hansından olur olsun. Səni gördüyümə çox şadam Jan-Lu. Bir neçə milyon sərbəst pulum var, səncə onu sənin Kofinel şirkətinə sərf edə bilərəm? Aksiya almaq olarmı? Ya da sonra bir məsləhət verərsən? Çox şadam ki, aramızda kəlləli kişi də var. Özün bilirsən ki, Lui, Anri, Edmond bacarıqsız adamlardır. Uşaq vaxtı necə idilər, elə də qalıblar… Sənin kimi samballı, görkəmli özündən arxayın adamı görəndə bunu daha aydın hiss elədim.

LUİ — Buz da istəyirsənmi, Mod?

JAN-LU — Mod, mən sənə lazımi məsləhətlər verərəm. Ə’la bir maliyyə agentim var, ona da tapşıraram. Bilirsən sizinlə burda olduğuma necə sevinirəm. Qəfldən mən də özümü uşaq sandım. Bu həyət, bu ev, bu ağaclar, köhnə döşənəcək, valoxudan…

LUİ — Deyəsən qusmağım gəlir.

JAN-LU — Eləsə çıx çölə, əzizim. Çox içirsən, ona görədir. Mənim çox bacarıqlı bir təbibim var, əgər ciyərinə görə istəsən…

LUİ — Yaxşı, sənin nəyin yoxdur axı?

JAN-LU (gülə-gülə) — Hər şeyim var. Hə, çatışmayan təkcə vaxtdır. Sizinlə burda bir həftə keçmişdəki kimi qalmaq üçün nə desən verərdim. Heyif ki, keçmiş keçib gedib.

MOD — Elədir, elədir, elədir. Keçmiş keçmişdə qalıb və gənclik də vaxtında keçib getməlidlir. Belə demək istəmirsən?

JAN-LU — Düzdür. Yaxşı, Mod, əzizim, mən beş yüz verst yol gəlmişəm gedirəm yatmağa. Sabah görüşümüzün şərəfinə sizə böyük bir qonaqlıq verəcəm. Gələndə Mişeləndə “üç ulduz” bir restoran görmüşəm, on kilometr yoldur. Razısınız?

MOD — Əlbəttə, gözəl fikirdir.

(Jan-Lu hamını öpüb çıxır. Uzun bir sükut çökür. Hamı başını aşağı salıb).

EDMOND (öskürərək) — Hə, bizim Jan-Lunun görkəmi lap yaxşıdır.

LUİ — Düzdür, görkəmini düz deyirsən.

EDMOND — Heç ağlınıza gətirirsiz? Kofinel ha? Mənim qaynım maliyyə işçisidir, elə dili-ağzı Kofinel idi… üç ayın söhbətidir. Fransada ən böyük müəssisədir, hələ…

MOD — Kəs səsini, Edmond, cəhənnəm olsun Kofinel.

EDMOND — Siz ki, aksiyalar almaq istəyirdiniz, deyirdiniz ki…

MOD — Ah, allah xatirinə! Rəhm elə. Kəs səsini Edmond. (Luiyə) Aramızdan nə keçib belə, Lui?

LUİ — Heç nə. İyirmi il.

ANRİ — Özü də iyirmi il keçdiyi yaxşıca duyulur.

SİLVİAN — Yəqin xidmətçi olduğum yadında qalıb, mənimlə heç kəlmə də kəsmədi.

EDMOND — Yox, buna inanmaram, əziz Silvian. Bəlkə də… yəqin bir az dəyişib, amma yenə də pis oğlan deyil. Lap deyərdim ki, onun səviyyəsində olan bir adam üçün davranışı da pis deyil.

LUİ — Sənin zənnincə Kofinelin rəhbəri camaatı tapdalamalı idi?

EDMOND — Demək istəyirəm ki, belə adamlar çox olur.

ANRİ — Eh! Pul, pül, nə axmaq şeymiş pul… Cibində üç frank pul, anaşa çəkə-çəkə küçələrdə veyillənən, heç nə ilə məşğul olmayan avaraları görəndə fikirləşirəm ki, onlara da qoşula bilərdim.

LUİ — Hə, sən bir az bahalı anaşa çəkərdin. Hərdən yaxşı bir mehmanxana otağı da kirayə edərdin. Yox, əzizim, bizim məsələmiz həll olub. Ömrümüzün qalanını rahat da yaşaya bilərik, səfil kimi də. Məncə otuz beş yaşında hər kəs nə isə bir uğursuzluğa uğramış olur. Biri məhəbbətdə, biri işgüzarlıqda, biri öz fikrini müdafiədə. Sonra uğursuzluq getdikcə sür'ətlənir.

MOD — Bəlkə yenə bir şey verəsən içim?

LUİ — ON dəqiqənin içində ikincisin içirsən. Məni ötürsən.

MOD — Fikir vermə. (tez içir) Yaxşı, indi, indi ki, iş bu yerdədir, uşaqlar, içirəm gəncliyimizin sağlığına, nümunəvi həyatımızın və şərəfli keçmişimizin sağlığına. Uşaqlıq xəyallarımızın, anadangəlmə səfehliyimizin, ədəbi küskünlüyümüzün sağlığına. Yaxın ölümümüzün şərəfinə içirəm… içirəm…

LUİ — Qurtar, bəsdir daha.

ANRİ — Hə, bəsdir.

EDMOND — Elədir. Yanımda ölümdən danışan olanda əsəbiləşirəm.

LUİ — Qəribə işdir, həyatın dadını az bilənlər ölümdən daha çox qorxurlar.

ANRİ — Çünki bizlər həyatdan ləzzət aldığımız vaxtlar elə anlarla rastlaşırıq ki, ölümün nə odluğunu görür və onu vecimizə almırıq. Məsələn elə çarpayının dərinliyində.

LUİ — Elədir. Mənim üçün isə şərab şüşəsinin dərinliyində. Görəsən Kofinelin dərinliyində nə var?

MOD (keflidir) — Siz sayaqlayırsız, biz sayıqlayırıq… Biz bir yerə yığışıb sayaqlayan zavallı dəlilərik. Doğrudan içki yaxşı şey imiş, Lui. Mən donmuşdum, indi isinmişəm. Xəstə idim, sağalmışam. Rahat nəfəs alıram. Həyat məndən qaçır, elə bil qorxur məndən. Bir qədəh də süz.

ANRİ — Mod, bəlkə…

LUİ — İşin yoxdur. (Lui şərab süzür)

MOD — Fikirləşəndə qəribə görünür: bu oğlan necə gözəl, necə ləyaqətli idi. Cavan qızları, hə, bə'zən lap ağlı qaçmış yetgin qadınların da gecə-gündüz arzuladığı gözəl şahzadə idi. İndi bu gözəl şahzadənin adı cənab Kofineldir…Ha, ha, ha… Əntiqədir… (o gülür) həyat cənab Kofinel demişkən gözəl məzə imiş. Hə, o ə'ladır, sizə deyə bilərəm ki, çox gözəldir cənab Kofinel (o şəqqə çəkib gülür) ha, ha, ha, qara "DS" maşını və üç "uşaq", yox, canım çox məzəlidir… Hələ, ha, ha, ha! Hələ məşhur dərzixanaları gəzən madam Kofinel, ha, ha, ha! Yox, daha halım yoxdur…

(Mod hönkürüb ağlayır. Hamı nigaranlıqla ona baxır).

SİLVİAN — Mod, deyəsən keflənmisiniz.

SİLVİAN — Möhkəmcə… həm də yaxşı ki, keflənmişəm… Bəs bu əhvalata sizin gülməyiniz gəlmir… Məncə burda gülməmək olmaz… Siz heç təsəvvür edə bilirsiz: bu cənab Kofisoldur, Kofineldir, nədir bizim Jan-Ludur. Həmən bədən, həmən saçlar, həmən baxış, həmən əllər. Bu Jan-Ludur.

LUİ — Jan-Lu idi.

EDMOND — Heç deyildi də. Fikirləşəndə ki, hər yeddi ildən bir bizim hüceyrələrimiz tamam dəyişir, saçımız daim uzanır və bizim…

ANRİ — Kəs səsini, Edmond, kəs!

EDMOND — Siz burada yeganə centlmen idiniz, Anri, çox tə-əssüf ki…

ANRİ — Dedim kəs səsini, qoca bayquş.

MOD — O doğrudan da bir az bayquşa oxşayır. Elə əslində bu axşam hamımız bayquşa oxşayırıq… Hi…hi… (Mod ayağa qalxmaq istəyir, amma kreslosuna yıxılır). Lui kömək elə qalxım, gedib yatmaq istəyirəm.

(Lui ilə Anri onu ayağa qaldırırlar. Mod bir az səndələyir. Qapıya çatanda çevrilir)

Gedin yatın, uşaqlar. Sabah cənab Kofinel bizi gözəl maşında üç ulduz restorana aparıb böyük qonaqlıq verəcək.

(O Anri və Lui ilə birgə çıxır. Silvianla Edmond çaşğın-çaşğın bir-birinə baxır).

EDMOND — (mızıldayır) — Başa düşmürəm. Yəni Jan-Lunun varlanmasını ona qəbahət tuturlar?

SİLVİAN — Edmond, siz doğrudan da maymaq adamsız.

EDMOND — Əvvəllər mənə belə demirdiniz.

SİLVİAN — Eh, Edmond, Edmond… heç belə söhbətin vaxtıdır?

EDMOND — Əlbəttə vaxtı deyil. Amma mən başa düşə bilmirəm. Keçən gün Modun özü o klubdan danışırdı "heç kəs kamil deyil" deyənlər klubundan. Yaxşı, deyə bilərəm ki, Jan-Lu kamil deyil. O bir az… hm… ağırdır. Nəhayət, bunu da nəzərə almaq lazımdır.

SİLVİAN — Bilirsizmi, qəribədir, mən Jan-Lunun əlinə baxdım… o məşhur yanıq ləkəsini görmək istəyirdim… Həmən ləkə daha yoxdur, ultrabənövşəyi şüa qəbul edib itirib! Şüa ləkəni yox eləyib. Heç izi də qalmayıb. "Ə'ladır, eləmi! Təkcə Lui həmən yanıq ləkəsini saxlayıb. Mehriban Lui. Aramızda ən mehriban odur. Anri də yaxşıdır. Elə siz özünüz də, Edmond. Bir sözlə kişilərin mehribanı elə sizsiniz, mən isə həmişə kənarda qalmışam. Yəqin elə bunun üçün də Mod məndən ehtiyat edirdi.

EDMOND (alicənablıqlar) — Kənarda, kənarda, təvazökarlıq etməyin…

SİLVİAN — Mən başqa şeydən danışıram. İnsanda mehribanlığın mənşəindən danışıram. Müəllim diplomu verməmişdən sizə Şekspiri oxutdurmayıblar?

EDMOND — Əlbəttə, oxumuşam. Tarixi mövzuda o özünə bir az sərbəstlik verib, amma…

SİLVİAN — Gecən xeyrə qalsın, Edmond, zavallı Edmond.

(Silvian onu öpüb çıxır. Edmond onun arxasınca baxıb val oxudana trəf gedir, valı qoyub pərt-pərt qulaq asır)

Qaranlıq çökür

II S Ə H N Ə

(Ertəsi gün günortadan sonra. Modla Jan-Lu səhnəyə gəlirlər. Modun rəngi qaçıb).

JAN LU — Hə… bu Turin şərabı tünd idi deyəsən? Yerdən də heç olmazdı, ə'la yerdir… Elə deyil?

(Sükut)

Elə deyil? Mod, səninləyəm, karsan nədir?

MOD (diksinir) — Qışqırma. Düz deyirsən, yer ə'la yer idi. Şərab da, hə, tünd idi. Bunu soruşmurdun?

JAN-LU — Bura bax, de görüm nə pislik eləmişəm? Sənin teleqramına cavab vermək üçün beş yüz verst yol gəlmişəm və…

MOD (yorğun səslə) — Kilometr, kilometr. Sən beş yüz kilometr yol gəlmisən, beş yüz verst yox. Bu nə dildir danışırsan.

JAN-LU — Yaman deiyngən olmusan, mənim qarım.

MOD — Mən sənin qarın deyiləm.

JAN-LU (mehribanlıqla) — Elədir. Amma mənim "cavan gözəlim" olmusan.

MOD — Yox, daha danışma.

JAN-LU — Qulaq as, Mod, bilirəm ki, sənə yöndəmsiz, ancaq iş-güclə, qazancla məşğul olan adam tə'siri bağışlayıram.

Bilirəm ki, bu dəbdə deyil və sən məni şair görmək istərdin. Bir yxaşı fikirləş şair olub nə qazanacaqdım? Heç nə. Mən də o biir yoldaşların kimi uğursuzun biri olacaqdım.

MOD — Yoldaşlarımız.

JAN-LU — Düzdür, yoldaşlarımız deməliyəm. Yoldaşlarımız fərsizlik ediblər. Allaha şükür ki, sənin lə ikimiz özümüzə bir gün ağlamışıq…

MOD — Necə, özümüzə gün ağlamışıq?

JAN-LU — Yəni vəziyyətdən çıxmışıq. Bilirsənmi, bacarığın mənə ləzzət verir. O sənaye sahibkarı ilə məsələn, sonra o bankirlə… hə… Stokello… ə'ladır, ə'la… Xoşum gəlir belə qadınlardan. Elə ki, fikirləşdin özünə bir kişiciyəz tapırsan, sən…

MOD — Kişi.

JAN-LU — Hə, bağışla, kişi olsun. Deməli, ələ keçirdin, qurtardı, eləmi? .. İşə bax ha…Onlar da elə bilirdilər ki, səni ələ keçiriblər, hə?

MOD — Elədir.

JAN-LU — Sonra isə… fışt, mənim Modum, daş-qaşı götürüb aradan çıxır: o səfehlərə bu da azdır. Amma bu yolla az pul çırpışdırmamısan ha. Elə yaxşı eləyib aradan çıxmısan, onlarla yaşamağına dəyməzdi.

MOD — Niyə ki? Hər halda sevirdilər məni.

JAN-LU — Nə olsun ki? Sən onları sevirdin?

MOD — Yox.

JAN-LU — Hə, görürsənmi.

(Mod bir val oxudur)

MOD — Bu mahnı yadına bir şey salmır?

JAN-LU — Yox, necə ki? Bilirsənmi, sən ə'lasan. Heç bir kipriyini də itirmədən özünə ömürlük güzaran qura bilmisən. İstəyirəm sənə deyim ki, Mod, əgər subay olsaydım, arvadım, bir də, hə… uşaqlarım olmasaydı evlənərdim səninlə.

MOD — Sağ ol.

JAN-LU — Düzünü deyim ki, arvadım da məni açmır. Deyingənliyin mənə mane olmaz. Elə belə, qeyri-rəsmi görüşsək necə… Daha xoşuna gəlmirəm yəni?

MOD — Niyə ki?

JAN-LU — Ağlama bir fikir gəlib. Monten xiyabanında kiçik bir mənzilim var. Hərdən işgüzar səfərlərim də olur. (O gülür) İkimiz səninlə xoş günlər keçirərdik, yadındadır necə əylənirdik, elə burda da?

MOD — Yadımdadır, yaxşı əylənirdik.

JAN-LU — Sarmaşıq kollarından süzülən ay işığı yadındadırmı?

MOD — Yadımdadır. Sarmaşıqlar…

JAN-LU — Görürsənmi, hər şey yaxşı olacaq. Sən də özünə gün ağlamısan, mən də. Nə peşimançılığımız var, nə də qayğımız. Hər ikimiz eyni cəmiyyətdənik. Oyunbazlıq etsək də diribaş olmuşuq. Necədir fikrin?

MOD — Nə barədə?

JAN-LU — Elə bizim barəmizdə.

MOD — İkimiz eyni cəmiyyətdənik. Belə demirsən?

(Lui ilə Anri gəlirlər).

Dadlı nahar üçün çox sağ ol, Jan-Lu. İndi icazə vesən gedib bir az istirahət edərdim. Özü də nə badə məni oyadasız.

JAN-LU — əlbəttə. Bu Turin şərabı güclü şərabdır, eləmi?

(Mod cavab verməmiş çıxır)

Elə yerimiz də pis deyildi. Ördək əti də dadlı idi, elə deyil?

ANRİ (yalandan öskürərək) — Bəli, bəli, dadlı idi. (bir anlıq sükut)

JAN-LU (mehribanlıqla) — Yaxşı, deyin görək nə olub axı? Nahar vaxtı da Edmondla məndən başqa heç biriniz kəlmə kəsmədi. Nə olub axı? Bəlkə mən bir şey edə bilərəm?

LUİ — Yox. Zənnimcə daha heç nə lazım deyil.

ANRİ — Bilirsənmi nə var, Jan-Lu… Sən gəlməmişdən belə fikrimiz vardı ki… fikirləşirdik ki, yenə gənc qayğısızıq…. …. əvvəlki kimi… Eşidəndə ki, gəlirsən fikirləşdik ki… hm….. yenə əvvəlki kimi olacağıq…

JAN-LU — Hə, hə… Siz şair gözləyirdiniz, eləmi? Heç bilirsiz ki, mən elə qəlbən şair də qalmışam? Hamımızın əzbərdən söylədiyimiz o şe'r də yadımdadır, hələ. Dayan görüm necə idi….

Bir axşam Londonun çəni içində
Gördüm ki, qarşıdan bir yurdsuz gəlir
O mənim eşqimə bənzəyirdi və…

LUİ — Xahiş edirəm, Jan-Lu: Appolinerə sataşma. Siqarını çək və daha bu barədə danışmayaq.

JAN-LU — Yaman hökmlə danışırsan, əzizim! Nə haqla axı? Qocalar kimi bura yığışıb gəncliyiniz üçün yaş tökürsüz… Mən isə özümü gənc və aktiv hesab eləyirəm… burda nə var ki? Doğrudur, işim çoxdur, şairlərə sizdən az bələdəm, doğrudur, amma mən üç yüz işçiyə, arvadıma və balalarıma çörək qazanıram…

LUİ — "Uşaqlarıma" de… hər dəfə "balalarım" deyəndə adam əsəbləşir.

JAN-LU — Yaxşı, uşaqlarım olsun. Bilirsizmi, mən özümü qocalmış gənc hesab eləmirəm, mən özümü yetgin adam sanıram. Məgər bu cinayətdir? Heç mən sizə qəbahət tuturammı ki, Modun hesabına dolanır və gülünc vəziyyətə düşürsüz? Yox. Yaxşı, nə istəyirsiz?

ANRİ — Heç nə, Jan-Lu, bəlkə də sən haqlısan. Amma bizim gözlədiyimiz sən deyildin. Vəssalam. Əlaxüsus Modun gözlədiyi sən deyildin. Vəssalam. Ələlxüsus Modun gözlədiyi sən deyildin.

JAN-LU — Modun? Bu lap ağ oldu… Yadına düşürmü ki, mən Modun eşqindən dəli idim? Deyəsən elə o da sevirmiş məni. Yaxşı, bizim o hay-küylü istirahət günlərimizdən sonra ona dedim mənə ərə gəlsin, mənim, kasıb şairin arvadı olsun. Mənimlə evlənməyə qorxub əvvəlcə pul qazan deyən kim oldu? Mod. Gözləy-

əcəyinə and içib məni Braziliyaya kim göndərdi? Mod. Sonra onun birinci əri ilə evləndiyini təsadüfən öyrənən kim oldu? Mən. Onda mən dərddən işə qurşandım, Lui, sənin pulun olduğuna içkiyə qurşanmışdın. Elə mən də sənin kimi adətgərdə olmuşam, sən içkiyə adət eləmisən, mən isə Kofinel şirkətinə. Vəssalam. (Bir anlıq sükutdan sonra sakit səslə) Hə, bilirəm… təxminən bilirəm məni nə halda görməyə hazırlaşırdınız… həmən vaxtdan qalma şəkilləri də saxlamışam… Amma axırı uğursuz çıxan sizsiniz, mən yox…

LUİ — Uğursuz… uğursuz… Bu nə deməkdir, axı? Yaxşı, de görək xoşbəxtsən?

JAN-LU — bəli, xoşbəxtəm.

LUİ — Səhər yerindən qalxanda ürəyində fikirləşirsən ki, bir gün qalxmayacaqsan — xoşbəxtlikdir? Tez-tez çəkini yoxlayırsan — xoşbəxtlikdir? Arvadından bezikir, uşaqlarından nagüman olursan — xoşbəxtlikdir? Güzgüdə özünə baxanda özünü xoşbəxt sanırsan?

JAN-LU — Tutaq ki, heç sanmıram. Nə olsun axı? Deməli, heç xoşbəxt adam yoxdur? Bəs sən özün necə?

LUİ — Mən ki, demirəm xoşbəxtəm.

JAN-LU — Nə fərqi var?

LUİ — Çoxdur fərqi.

JAN-LU — İçmək üçün bəhanə olur?

LUİ — Qoy elə olsun. Bu söhbət məni bezikdirir. Hər şey bitdi. Zənnimcə Parisə qayıtmaq lazımdır, Anri.

ANRİ — Bilmirəm. Amma ürəyim darıxır.

(Edmond gəlir, keyfi kökdür).

EDMOND — Çox ləzzətli nahar idi, əzizim Jan-Lu… Qonaqlıq verməyi bacarırsız… Lap krallara layiq ziyafət idi…

LUİ — Narahat olma, Edmond yenə tarixi roman oxuyur.

EDMOND — Qəribədir, güman edirdim ki, xəstələnəcəm, amma özümü lap ə'la hiss eləyirəm. Kənd havası belədir… Bəs Mod hanı?

LUİ — Otağındadır. Yenə dişləmək stəyirsiz onu?

EDMOND — Bəsdir, Lui… O da bir zarafat idi.Doğrudur, yersiz çıxmışdı, amma zarafat idi. Əzizim Jan-Lu yəqin siz də hiss eləmisiz ki, biz elə keçmişdəki kimi uşaq olaraq qalmışıq. Məncə bir az Kalvados şərabı mənə ziyan eləməz.

(O özünə şərab süzür. Silvian təntənə ilə gəlir).

SİLVİAN — Axşamınız xeyir, cənablar. Əslində "əlvida" demək istəyirəm sizə.

ANRİ — Nə olub belə?

SİLVİAN — And içmişdim ki, ömrümün qalanını yaşamaq üçün kifayət qədər pul toplayan kimi Modu və bu evi tərk edəcəm. İndicə əmanət kitabçama baxdım, məsələ həll olub. Köhnə pulla yüz-yüz milyon pul toplanıb, sizi tərk edirəm, özü də məmnuniyyətlə.

(Bir anlıq sükut)

LUİ — Təbrik edirəm. İyirmi illik gözəl və namuslu xidmətdən sonra toplanmış pul halal olmalıdır.

SİLVİAN — İyirmi üç illik.

LUİ — Səhvim böyükdür! Deməli beləcə Modu tərk edirsiz?

SİLVİAN — Lap həvəslə. Zənnimcə xidmətçi, nəzarətçi, qulluqçu olduğum bəsdir.

ANRİ — Axı siz ki, onun dostusunuz, elə deyil?

SİLVİAN — Modun dostu… Cürbəcür geyimi, daş-qaşı, ərləri olan Modun? Niyə onun dostu olmalıydım, axı? Dəlisiz nədir? Mən ki, ömrümü onun artıqları ilə yaşamışam.

ANRİ — Yüz milyon, gözəl artıqdır ha.

SİLVİAN — hər halda kifayət edər. Mod isə qalar burda özünün üç kütləşmiş dostu, bir də xarab çıxmış köhnə məhəbbəti ilə — mən sizi nəzərdə tuturam, Jan-Lu. Qoy Mod nigarançılığında olsun. Mən isə gedirəm gəzməyə, Parisdə özümə ev alacam, tək yaşayacam, tamam tək… bir pişik də tapacağam yoldaş olsun, xanım kimi xoşbəxt yaşayacağam!

LUİ — Sizə qonaq gələcəyik. Yəqin ki, hörmət edərsiz.

SİLVİAN — Sizi evə buraxmaram. Yaxşısı budur elə Modun mehriban qonaqları kimi qalın. İndi siz ona xidmətçilik edərsiz. Sizə başqa arzum yoxdur.

ANRİ — Şəxsən mən çox şad olardım.

SİLVİAN — Ah, centlemen… qoca centlemen, filosof alkoqolik, korlanmış alim — özü də hərtərəfli korlanmış alim, bir də əli gətirmiş işgüzar… heç bilirsiz nə eybəcər karikaturalarsız…

LUİ — Ehtiyatlı olun, Silvian, sizin özünüz də elə hazır bir karikaturaya çox oxşayırsız.

(Bir anlıq sükut)

SİLVİAN — Mən gedirəm çamadanlarımı yığışdıram. Həm də Modu xəbərdar eləyim. Ömrüm boyu gözlədiyim xəbəri verim.

ANRİ — Mod tapşırıb ki, onu oyadan olmasın.

SİLVİAN — Bilirəm. Amma indi onun əmrinə tabe deyiləm.

(O çıxır. Bir anlıq sükut.)

JAN-LU — Nə həyasız qadın imiş.

ANRİ — Yəqin Modla günü xoş keçməyib.

JAN-LU (fikirli) — İşə bax, həmən yay mənim əl-ayağıma yapışırdı.

ANRİ — Elə mənim də, Luinin də.

EDMOND (sadəlövhlüklə) — Elə mənim də, inanırsız, bu yay mənə girişmişdi.

LUİ (gülür) — Eh, gözəl Edmond… bu sözünlə bütün günahlarını yudun. Gəl, üzündən öpüm sənin, hə, hə, gəl.

(O Edmonda yaxınlaşır. Edmond əl-ayağa düşür)

EDMOND — Yox, xahiş edirəm, Lui…Məncə kişilərin öpüşməyi yaxşı deiyl… Mən…

LUİ — Müəllimlərin sevgi əlaqələrinə bələdik. Gəlin, Edmond, indi də saqqallı çənənizi mənim saqqallı üzümə sürtün, mehribançılıq naminə… (Edmond otağın o biri başına qaçır. Anri şəqqə çəkib gülür, Jan-Lu da). Gəlin, gəlin, Edmond, yoxsa biabır olarsız, arxanızca gedib koridorda sizdən icazəsiz öpüş alaram, sizin cəngavərlik romanlarındakı kimi. Gəlin görüm, Edmond, utanmayın…

(Silvian qayıdır, rəngi tamam qaçıb. Silvianı belə görüb hamısı dayanır).

SİLVİAN — Mod… Mod… hamam otağındadır. Tamam qan içindədir.

(Hamısı bir anlıq donub qalırlar)

Qaranlıq çökür.

III S Ə H N Ə

(Lui ilə Anri səhnədədir, üzləri tüklü, özləri pencəksiz, halları pərişan. Səhər açılır).

ANRİ — Nə dəhşətli gecə idi!.. Ömrümdə bu gecə yadımdan çıxmaz!.. Heç gedib yatmağa cəsarətim də çatmır.

LUİ — Gərək gedib yataydın, rəngin saralıb.

ANRİ — Elə sənin də rəngin qaçıb. Səndən aralanmağa qorxuram. Qəribə işdir.

LUİ — Mən də tək qalmağa qorxuram. Heç içməyə də halım yoxdur, bu lap ağ oldu. (Bir anlıq sükut) Fikirləşəndə adamın gülməyi gəlir… bu qanköçürmə əhvalatın deyirəm… işə bax ki, tək Silvianın qanı uyğun gəldi, təbiətin… ələlxüsus həyatın qəribə təsadüfləri var. Silvian Modun borcunu bir dəfəyə qaytardı. Daha doğrusu bir həyatın dəyərini ikinci dəfə ödədi… Özü də aradan çıxmağa hazırlaşdığı vaxt.

ANRİ — Görəsən gedəcək Silvian? İndi Mod ona borclu qalır…

LUİ — Mütləq, mütləq gedəcək. Bütün borclarını ödəyib, özü də qələbə çalıb. Edmond hanı? Deyəsən axırda yatmalı oldu.

ANRİ — Deyəsən yatır. Bəxtimiz gətirdi ki, həkim tez gəldi. Yaxşı oldu.

LUİ — Çox yaxşı oldu.

ANRİ — Sən Jan-Lu ilə niyə elə sərtlik elədin, itələdin onu bayıra?

LUİ — Düz deyirsən, o zavallının da bir günahı yox idi. Adamları bilə-bilə, beləcə pərt eləmək yaxşı iş deyil. Adamın lap ürəyi sıxılır. Yaxşı, sənin fikrin nədir?

ANRİ — Gedib arvadımı Sən-Topezdə dilə tutacam ki, qayıtsın evə. Mən qadınsız yaşaya bilmərəm. Həm də deyəsən bizim bu "gənclik" əməliyyatımız baş tutmadı, elə deyil?

LUİ — Lap elə əvvəlindən baş tutmamışdı, əzizim. Adam iyirmi yaşla otuz yaş arasında cavan olur, başqa əl-ayağa düşmək nahaqdır. Bilmirəm bizə nə olmuşdu belə?

ANRİ — Mən də bilmirəm. Bəlkə moda belədir.

LUİ — Moda dedin Mod yadıma düşdü. Bəs o nə edəcək görəsən?

ANRİ — Elə mənim də fikrimdən çıxmır. Qəribə işdir, indi onun taleyi özümünkündən çox düşündürür məni.

LUİ — Özünü üzmə. Canına qəsd eləmişlərə hamının yazığı gəlir. İki gündən sonra yenə əvvəlki eqoist olacaqsan. Dayan, bu kimdir belə?

(Qapıda sərt görkəmli bir qadın dayanıb).

QADIN — hardadır o? Düzünü deyin. Hardadır və neynəmisiniz ona?

ANRİ (ayağa qalxır) — Kimi deyirsiz, madam?

QADIN — Ərimi deyirəm, cənab.

ANRİ (çaşğınlıqla) — Jan-Lunu deyirsizsə, o gedib, xeyli…

LUİ — Anri, axı Jan-Lunun özü danışmışdı ki, arvadı məşhur dərzilərlə daha çox maraqlanır.

ANRİ — Hə, düz deyirsən (fiirləşir). Bağışlayın, madam.

QADIN — Mən Jan-Lu zad soruşmuram, Edmond Sinakı soruşuram, tarix müəllimidir, ərimdir.

ANRİ — Hə! Siz Alinsiniz… Hə, əlbəttə, sizsiniz, əyləşin, xahiş edirəm…

ALİN — Oturmayacam. Özü də məni tək adımla çağırmağı sizə qadağan edirəm.

ANRİ — Bilirsizmi, mən… İcazə verin özümü təqdim edim.

ALİN — Yox, lazım deyil. Dünən axşam Edmond zəng eləmişdi, dəli kimi danışırdı. Deyəsən bu evdə qəribə hadisələr baş verir.

LUİ — Qəribə heç nə yoxdur, madam. Edmondun otağı ikinci mərtəbədə koridorun sağ üzündədir. Amma zənnimcə gəldiyinizi bilibsə qaçıb bağın küncündə gizlənmiş olar.

ALİN — Sizin kinayəniz mənə tə'sir etməz, cənab.

LUİ — Hiss edirəm, madam. Tə'sir etsə qorunmalı olardım.

ANRİ — Lui!..

(Alin onlara tərs-tərs baxıb çıxır. Onlar bir-birinə baxıb şəqqə çəkib gülürlər).

Ah! Nə yaxşı iş imiş gülmək, halım yaxşılaşdı. Yazıq Edmond, işə bax ha… yəqin qorxubmuş… İndi isə…

(Alinin bağırtısı eşdilir "Edmond", "Edmond", "Edmond", Anri ilə Lui əsəbi halda gülürlər. Alin qayıdır)

ALİN — hardadır o? Paltarı otağındadır, amma özü yoxdur? Hardadır o? Cavab verin deyirəm, yoxsa polis çağıracam.

(Onlar gülmək edən imkan tapıb cavab verə bilmirlər. Anri yaşarmış gözlərini silib əli ilə bağ tərəfi göstərir. Alin "Edmond" qışqıra-qışqıra çıxır… Silvian gəlir, yorğundur).

SİLVİAN — Kimdi Edmondu bu səslə çağıran? Modu oyadacaqlar.

ANRİ — Hi, hi, hi… Edmondun arvadı, mehriban Alindir… gəlib onu aparmağa.

(Alinin qışqırtısı eşidilir uzaqdan "Edmond", "Edmond").

LUİ — Səsi adamın beynini deşir lap… Mod necədir?

SİLVİAN — Yaxşıdır, yatır. Tibb bacısı yaxşı adammış.

LUİ — Yenə getməyə hazırlaşırsız?

SİLVİAN — Əlbəttə. Qanım bir az azalıbsa da pulum yüz milyondur ki, var.

LUİ — Özünüzü çox vecsiz göstərməyə çalşmayın. Siz də elə bizim kimi qorxmuşdunuz.

SİLVİAN — Elədir, axı mən də insanam.

LUİ — Gərək bir az yataydınız.

SİLVİAN — Yuxulaya bilməzdim.

ANRİ — Modu oyatmaq fikrinə düşməsəydiniz, onda…

SİLVİAN — Bir dəfə əmrindən çıxdım, onda da həyatını xilas elədim. Qəribədir, eləmi?

(Qaça-qaça Edmond gəlir).

EDMOND — Xilas edin məni… xilas edin… Deyəsən gördü məni…

(O qaçıb divanın arxasında gizlənir).

ANRİ — Yaxşı, Edmond, özünüzü səfehliyə vurmayın. Onu özünüz çağırmamısız?

EDMOND (divanın arxasından) — Elədir, qorxmuşdum, Moda görə… elə hər şeyə görə qorxmuşdum. Amma ondan daha çox qorxuram. Gizlədin məni.

LUİ — Arvadınız deyir ki, polis çağıracaq. Getmək istəmirsiz deyin "rədd ol", danışın onunla, canım.

EDMOND — Ürək eləmirəm. Yox, onunla getmək istəmirəm. Deyin ki, mən bu səhər çıxıb getmişəm.

(Alinin qışqırtısı eşidilir: "Edmond")

Aman allah, gəlir.

LUİ — buna dözmək üçün gərək əsəblərin dəmirdən ola. Deyəsən bir qədəh içməli olacam.

(Hirsindən dingildəyən Alin gəlir).

ALİN — Hardadır o? Gördüm xiyabanla bu tərəfə qaçırdı… Burdadır, hiss edirəm ki, burdadır.

LUİ — Çox gözəl, arvad ərinin iyini bilir. Mən daha boğaza yığılmışam, belə ağır gecədən sonra sizin məzhəkəyə baxmağa halım yoxdur. Sizin sağlığınıza! (O içir).

ALİN (Silviana) — Madam…

SİLVİAN (quru səslə) — Mənə mademuazel deyin…

ALİN — Mamuazel, görürəm burda söz deyiləsi adam tək sizsiniz. Xahiş edirəm, evdə atasını özləyən iki yetişmiş qızım var…

LUİ — Dayanın, bu saat hönkürəcəm.

SİLVİAN — Səhv edirsiz, madam. Mən qətiyyən söz deyiləsi adam deyiləm. Özü də keçən həftə kolluqda ərinizin başına pislik açmışam.

(Bir anlıq sükut. Alin onlara baxıb qəfildən bağırır, "Edmond". Edmond gipnoza düşmüş kimi gizləndiyi yerdən qalxır).

EDMOND — Salam, əzizim.

ALİN — Yola düşməyə hazırsan?

EDMOND — Hazıram, əzizim.

ALİN — Get şeylərini götür. Yox, gedək, mən də gedirəm.

EDMOND — Yaxşı… Mən… Sağ ol, Lui, sağ ol Anri, sağ ol Silvian.

(Onlar Edmondla əl verib görüşür. Qapıdan çıxanda Edmond qayıdır).

Moda deyin ki… deyin ki, çox sağ olsun… Ona məktub yazacam. İstirahətimiz çox gözəl keçdi, heç vaxt unutmaram… bir də…

ALİN (qayıdaraq) — Tez gəl görüm. (Onlar çıxırlar).

LUİ — Edmond da belə getdi. Zavallı qoca. İndi növbə kimindir?

SİLVİAN — Mən günortaya yaxın gedirəm, taksi gələcək. Nis şəhərinə getməliyəm.

ANRİ — Niyə? Yəni o vaxt qatar olur ki? Bilsəm Modun mənlik işi yoxdur, elə mən də sizin taksi ilə gedərdim, əziz Silvian.

(Silvian çıxır.)

LUİ — Silvian da belə getdi.

ANRİ — Səncə hələ bir az qalsam yaxşı idi? Düzü, Sən-Topezdəki dostlarımdan birinə teleqram göndərmişəm. Qatara bilet almağa pulum çatar, ordan da zəng edəcəm dostum gələcək qatara və…

LUİ — Zənnimcə qalmağının mə'nası yoxdur.

ANRİ — Bəs sən, sən nə vaxt gedirsən?

LUİ — Hələ bilmirəm. Yəqin çox ləngimərəm.

ANRİ — Hə, bilirsənmi, Lui, sən həmişə fikirləşirsən ki, mən sadəlövhün biriyəm, qadınlardan başqa heç nə bilmirəm. Amma mən adamları görüb tanımağı bacarıram. Bilirsənmi, Lui, əzizim, sən yaxşı adamsan.

LUİ (təəccüblə) — Nə olub belə?

ANRİ (çəkinərək) — Heç nə. Elə istəyirdim bunu deyim. Bir də istəyirdim… (o dayanır)

LUİ — Nə istəyirdin?

ANRİ — Deyim çox içmə, Lui. Bilirəm, sözüm yaxşı çıxmır, amma deməyə bilməzdim.

LUİ — Məsləhətin üçün sağ ol. Bilmirəm, əməl edəcəm ya yox, amma sağ ol. Uğur olsun, Anri.

ANRİ — Sağ ol. (O çıxır)

(Lui səhnədə tək qalır, bir qəzet götürüb oxuyur. Mod daxil olur, ev paltarındadır, biləkləri sarğılı.)

MOD — Lui… Sən nə əcəb yola düşməyə hazırlaşmırsan? Zənnimcə vida üçün xoş sözlər eşitməyə haqqım var (Mod gülür).

LUİ — Vəziyyətin yaxşılaşırmı?

MOD — Yaxşılaşır. Zəifləmişəm, amma yaxşıyam.

LUİ — Mən də özümü zəif hiss edirəm.

(O moda baxıb gülümsəyir).

MOD — Nə vaxt getmək istəyirsən?

LUİ — Nə vaxt istəsən. Zənnimcə çox ləngimərəm. Bəs sən nə etmək fikrindəsən?

MOD — Parisə qayıdacam. Bilirsənmi, İena prospektində bir mənzilim var. Bir az oğlumla məşğul olmaq istəyirəm. Özümü fikirləşəndə başa düşürəm ki, cavan olmaq aman iş deyilmiş…(O gülür). Lui, de görüm mənə acığın tutmur?

LUİ (sakit səslə) — Nəyə görə?

(Mod dinməzcə sarğılı biləklərini göstərir). Yox. Qətiyyən.

MOD — Amma başqalarının isə acığı tutub. Elə ona görə də qorxuya düşmüş siçovullar kimi aradan çıxırlar. Məni iradəli adam bilirdilər, onları ruhdan saldım.

LUİ — Yox, sən iradəli adamsan. Bilirsənmi, ancaq həyatı möhkəm sevən adam onu tərk etməyə cəhd göstərə bilər. Mən həyatı çox sevmirəm, amma özümə belə qəsd eləyə bilməzdim.

MOD — Bəla burasındadır ki, qolumdakı kəsik yerləri uzun müddət gözə çarpacaq. Çox pis görsənəcək (o biləklərinə baxır). Allaha şükür o qədər qolbağım var ki, on beş belə qəsd yarasının üstünü örtər.

LUİ — Elədir, allaha şükür.

(Bir anlıq sükut).

MOD — Yazıq Anri… rəngi sap-sarı saralmışdı.

LUİ — Hə, onun üçün hər şey yaxşı oldu. Öz xanımcığazına sübut elədi ki, bir ay onsuz da yaşaya bilər, lap yaxşı oldu. İndi yəqin Anrinin qayıtdığını eşidib sevincindən ağlayır. Silvian isə…

MOD — Zavallı Silvian… Bilirsənmi, onun hər işindən xəbərdar idim. Həmişə mənim məşuqlarımı özünə cəlb eləmək istəyir, nahaqdan özünü yorurdu. Hər halda getdiyinə peşiman deyiləm: ömründə nə ürək verdiyi adam olub, nə də ürəklə gördüyü iş.

LUİ (gülür) — Bu sənin fikrindir. Bəs Edmond necə?

MOD — Hər halda bir az istirahət elədi, çox pis keçmədi onun üçün.

LUİ — Bir sözlə hər şey qaydasındadır?

MOD — Əlbəttə. Dəli günlər qurtardı.

LUİ — Onda yuyaq bu əhvalatı…

(O özünə də, Moda da şərab süzür).

MOD — Bilirsənmi, dünənki o dəhşətli nahardan sonra Jan-Lu ilə burda bir dəqiqəlik tək qalmışdıq… Həmən valı oxutdum, qulaq asdı.

LUİ — Hə, necə oldu?

MOD — Yadına düşmədi.

LUİ — Heyf, val gözəl valdır. Bəlkə oxudum?

(O valı qoyub oxudur. Musiqi sədası gəlir. Bir anlıq sükut.)

MOD — Lui…

LUİ — Hə.

MOD — Lui, mənimlə qalmaq istəyirsən?

LUİ — İstəyirəm, Mod.

MOD — Niyə?

LUİ — Havayı içmək üçün.

MOD — Lui, ciddi danışıram.

LUİ (əsəbi) — Bəs nə deməyimi istəyirsən? Deyim ki, elə bərk qorxdum ki, başa düşdüm? Başa düşdüm ki, ömrümüz səfehliyimiz ucundan korlanıb? Başa düşdüm ki, bəlkə birgə xoşbəxt yaşanası bir neçə il ömrümüz qalıb? Bunları özün də bilirsən, deyil?

MOD — Elədir.

LUİ — Onu da bilirsənmi ki, həmişə üçümüz olacağıq? Sən, mən, bir də bu şüşə.

MOD — Hamısını bilirəm.

LUİ — Yaxşı onda neynirsən məni? Tək qalmağa qorxursan?

MOD — Yox. Bu lə'nətə gəlmiş istirahət günlərində bilmişəm ki, mənə çox… hm… çox yğun gəlirsən.

LUİ — Hə, bu da ömrümdə üzümə oxunmuş alovlu eşqnamələrdən biri.

MOD — İstəyirəm gedib uzanım yerimdə. İena prospekti rayonundan xoşun gəlir?

LUİ — Mənim üçün heç bir fərqi yoxdur.

MOD — Yaxşı. Deyəsən bu evi satmalı olacam.

LUİ — Zənnimcə ağıllı iş görəcəksən. Evi sat və valı sındır.

MOD — Elədir. Hələlik. (Qapıya çatanda Mod geri dönür). Hər halda bu birgə istirahət fikri, yaxşı fikir imiş, eləmi?

(Lui qədəhini ona tərəf qaldırır. Mod gülümsəyib çıxır).

S O N

PYER QAMARRA

PYER QAMARRA — müasir fransız ədəbiyyatının görkəmli bir nümayəndəsi kimi tanınır. O 1919-cu ildə Tuluzda kəndli ailəsində anadan olub. İkinci dünya müharibəsindən əvvəl müəllimlik edən Qamarra müharibə başlayandan və Fransa işğal olunandan sonra Müqavimət hərəkatı sıralarına qoşulub. Müharibədən sonra Qamarra əvvəl Tuluzda, sonra isə Parisdə jurnalist işləyib. 1948-ci ildən başlayaraq o uzun müddət "Avropa" jurnalında işləyib.

1950-ci ildə yazıçı "Od evi" adlı romanına görə beynəlxalq mükafata layiq görülüb. Bundan sonra Qamarra daha üç roman və üç hekayələr kitabı nəşr etdirib.

Qamarra yaradıcılığının mühüm bir hissəsini uşaqlar üçün yazılmış əsərlər təşkil edir. "Berlüretin sirrləri", "Trikuar xəzinələri", "Berlüret və Eyfel qülləsi" adlanan kitabların hər biri maraqla oxunan, uşaq fantaziyası və macəralarla dolu oxunaqlı əsərlərdir. 1962-ci ildə uşaq ədəbiyyatı mükafatını almış kommunist yazıçı Qamarra ədəbiyyatın bu növünə böyük əhəmiyyət verdiyini bildirək deyib: "Mən çoxdandır çalışıram ki, uşaq ədəbiyyatını başqasından əskik saymasınlar... Uşaqlar üçün yazılmış kitab sadə, orijinal həm də ibrətamiz olmalıdır".

Yazıçının hekayələri də maraqla oxunur. Onun "Onezimin ixtirası" adlı hekayəsi dilimizə tərcümə olunub və oxucularımıza mə'lumdur.

ONEZİMİN İXTİRASI

Şimal qütbünə yola düşməzdən əvvəl Onezimə baş çəkdim. Düz iki il el-obadan uzaqda olacaqdım. Onezimlə, əziz dostum Onezimlə görüşməmiş gedə bilməzdim. Onu hamı tanıyır. Həmən vaxtdan bəri şəkli dünyanın bütün qəzetlərində dərc olunub. Üzdən klassik alimlərə oxşayır, baxanda fikri dağınıq yaxud diqqətli olduğunu ayırd etmək olmur. Başı iri və tüksüzdür. Xırdacı gözəlri bir cüt qara çəkmə düyməsinə oxşayır. Müsahibinə tərəf əyiləndə sifətində həm mehribanlıq, həm də kinayə duyulur. Görəsən kinayə edir? Baş çıxarmaq olmur. Amma mən deyə bilərəm ki, o ən yaxşı oğlanlardan biridir.

Bəli, onlara gəldim. O məni özünün iş otağına apardı. Mən səfərə necə hazırlaşmağımdan, zooloji tədqiqat planlarımdan danışıdım. Nəzakətlə qulaq asdı, lakin elə laqeyd idi ki, elə bil ona qonşu Sanua kəndindən xalamın bizə qonaq gəlməsini xəbər verirdim. Bir az sonra o yana çevrildi, aşağı əyilib masanın arxasından qara bir qutu çıxardı və onu mənim qarşıma, kağızların üstünə qoydu.

— Görürsənmi, — deyə o, təntənəli səslə qutunu mənə göstərdi. — Daha hazırdır. İşləyir.

Mən təəccüblə soruşdum:

— Nədən danışırsan? Bu nə qutudur?

Bu yerdə onun səbri bir az tükəndi.

— Yaxşı, mənim yazıçı-maşın düzəltmək üçün hazırladığım layihə yadındadır?

— Yazıçı-maşın?

— Bəli, elədir ki var, yazıçı-maşın!

Birdən hər şey yadıma düşdü. Bu Onezimin o qədər layihəsi, o qədər ixtirası var ki…

— Vay səni! Onezim, yoxsa demək istəyirsən ki, həmən maşını…

Onun sifətinə xoş bir təbəssüm qondu.

— Bəli, bəli! Mən həmən maşını ixtira etdim. Bu şah əsərləri yaradan bir maşındır. Özü də yaxşı işləyir.

— İşləyir?

— Çox gözəl işləyir. Göstəriş verirsən, o əməl edir. Fəxr edirəm ki, çox cəld işləyir.

— Cəld işləyir?

— Bəli. 35 dəqiqəyə Saqanın romanlarına bənzər bir roman yazır. Ronsar üslubunda bir sonet on saniyəyə hazır olur. Daha iri əsərlər üçün isə vaxt müxtəlifdir: bir saat, bir saat yarım… Dünən axşam Korneyin nəşr olunmamış bir tragediyasını qırx beş dəqiqəyə, Rembonun uzun bir poemasını isə iyirmi səkkiz saniyəyə hazır etdim… Təsəvvür edirsənmi?

Yox, təsəvvür edə bilmirdim.

— İnanmaq olmur, Onezim! Axı o necə işləyir!

— Elektronikanın əlində, bu sadə bir işdir. Burada, görürsənmi, sağ tərəfdə hər ədəbi janr üçün bir düymə var: nağıl, roman, poema, dram fəlsəfi əsr və s. Solda isə balaca bir mikrofon var. Seçdiyin janrın düyməsini basırsan, mikrofona tərəf əyilib deyirsən: Rable, Viktor Hüqo. Xülasə xoşun gələn müəllifin adını deyirsən… Sonra isə ortadakı qırmızı düyməni basıb gözləyirsən. Əsərin əlyazması maşının arxasından iki nüsxədə çıxır. Sən ağ kağız ver, vəssalam…

Mən təəccüblə əllərimi yuxarı qaldırdım:

— Onezim, əgər sənin ciddi adam olduğunu bilməsəydim…

— Mən səninlə ciddi danışıram. Maşın işləyir! Özü də istəsən baxa bilərsən… Əlyazmaları oradadır…

O səliqə ilə yazı maşınında yazılmış bir yığın kağız göstərdi. Mən irəli cumub kağızları vərəqlədim. Onezim yalan demirmiş. Burada ondan çox şah əsər vardı! Balzakın görünməmiş bir əsəri, Jirodunun xırda bir yazısı, Moris Drüonun iri bir tarixi romanı, Viktor Hüqonun yarım düjün poeması, hamısı gözəldir…

Onezim barmağını kağızların üstünə qoydu:

— Bir saat iyirmi dəqiqə Drüona sərf edilib, gözəl əsərdir? Otuz yeddi dəqiqə isə Jiroduya… Elə bunların gəliri mənə bəsdir.

Mən həyəcandan çaşıb qalmışdım.

— İndi sən nə edəcəksən, Onezim? Bu əlyazmalarının müəllifi olacaqsan, eləmi? Axı onlar sənindirlər. Onlar nə Viktor Hüqonun, nə də Jirodunun əsərləridir… Sən məşhur adam olacaqsan, bütün ədəbiyyat mükafatalrını alacaqsan. Nə naşirlər, nə də tənqidçilər bir şey anlamazlar. Yaxşı, bəs bu maşın necə işləyir? Elektronikadır — çox yaxşı, amma hər halda…

O tamam ciddi bir görkəm aldı.

— Çox mürəkkəb işdir. İnanmıram ki, səni başa sala biləm. Riyaziyyatı yaxşı bilmirsən. Sənə ancaq onu deyə bilərəm ki, maşın işləyir.

— İndi isə həm sənin, həm də mənim nailiyyətlərimiz şərəfinə içəcəyik. Bir az viski ilə aran necədir?

O öz mətbəxinə tərəf getdi. Soyuducunun içindən nə isə götürdü. Mən lap mat qalmışdım. O sualıma cavab vermədi. Görəsən bu şah əsərləri neyləyəcəkdi? Nəşriyyatlara və müsabiqələrə göndərəcək. Amma nə hay-küy düşəcək! Ay səni Onezim, axı o litseydə yazı işindən həmişə aşağı qiymət alırdı… Riyaziyyat və fizika üzrə isə, şübhəsiz, hamıdan yüksək idi. İndi bütün ədəbiyyatçıları geridə qoyacaq! Ədəbiyyatın gözü olacaq. Onun işi öz sehrli qutusuna tərəf əyilib sadalamaqdır: Anatol Frans, Heminquey… Şah əsərləri yazan bu maşın otuz beş dəqiqə qırx yeddi saniyə ərzində tayı-bərabəri olmayan bir roman, misli görünməmiş bir dastan yazacaq… Vay səni Onezim! O, doğrudan, da bir şey icad eləmişdi, amma nə idi bu icad olunan?

Fikirləşdim ki, səfərimi tə'xirə salım. İstəyirdim əzizim Onezimin müvəffəqiyyətinin şahidi olum. Amma qala bilməzdim. Bütün hazırlıq görülmüşdü…

O mənə bir qədəh verdi:

— Şimal qütbündə qazanacağın müvəffəqiyyətin şərəfinə!

— Sənin alacağın Nobel mükafatının şərəfinə, Onezim!

Mən gəmi ilə yola düşdüm. Sağ-salamat gedib mənzilə çatdım. Elmi işə başım elə qarışmışdı ki, Onezimin əfsanəvi ixtirası az qala tamam yadımdan çıxmışdı. Radioya qulaq asmağa vaxtım yox idi həm də ki, radio heç Onezim haqda danışmır. Qəzetləri isə gec alırdım.

Səfərim sona yaxınlaşanda mətbuatda Onezim haqda hay-küy qalxdı. Onun şəklini və tərcümeyi-halını dərc etdilər. Bir axşam kayutumda oturub yenicə aldığım qəzetləri vərəqləyirdim. Qəfildən beş sütunluq bir məqalənin başlığını görüb diksindim:

"Onezimin qeyri-adi ixtirası".

Mən başımı silkələdim. Deməli, o öz ixtirasını bəy an edib. İndi bütün dünya biləcək ki, o silsilə ilə şah əsərlər yaratmağa qadirdir… Yəqin özü bir nəşriyyat açacaq… Hər halda bu böyük qələbədir. Onezimin qələbəsidir.

Bəli, bu, Onezimin qələbəsi idi.

Lakin məqalədə söhbət ədəbiyyatdan getmirdi. Onezim qeyri-adi elektron tava ixtira edibmiş. Görünür gözəl maşındır, onda həm toyuq, həm bifşteks, həm də quzu ətindən kotlet qızartmaq

olur. Onezimin məşhur tavası bütün dünyanı dolanırdı! Bu gün bizim hamımız belə bir reklamı əzbər bilirik: "Əti daş dövründəki kimi qızartdığınız kifayətdir, Onezim tavasından istifadə edin!"

Bəs ədəbiyyat? Onezimin yazıçı-maşını xarab çıxdı yə'ni?

Parisə qayıdan kimi Onezimin yanına tələsdim. O dəyişməmişdi. Həmişəki kimi irəli əyilmiş iri gövdə, həmişəki qara gözlər, həmişəki mehriban təbəssüm. Lakin onun təbəssümündə azacıq gözə çarpan bir dalğınlıq duyurdum.

— Necəsən, Onezim?

— Yaxşıyam, lap yaxşıyam. Səhhətim ə'ladır. Puldan da korluq çəkmirəm.

O, mənzilini rənglətmişdi, təzə mebel almışdı, təzə kostyum geymişdi…

— Bunlar tavanın qazanclarıdır?

— Bəli, — deyə o, təvazökar səslə cavab verdi. — Tava yaxşı satılır. Çoxlu müqavilə bağlamışam. Mən milyonerəm. Özün necəsən? Şimal qütbündə nə var, nə yox?

— Çox maraqlı yerdir, — dedim. — Pinqvinlər haqda bir kitab çap etdirmək istəyirəm…

— Hə! — deyə o fikirli-fikirli dilləndi. — Naşir tapmısanmı?

— Hələ yox. Kitab hazır deyil. Yaxşı, Onezim, de görək o maşın necə oldu?

— Maşın?

— Hə, sənin məşhur maşının, şah əsərlər yazan…O xarab oldu? İşlədəsi olmadın?

— Hə! Əlbəttə işlətdim, — dedi. — Maşın çox işlədi.

O, əlini qaldırıb yorğun bir hərəkətlə öz kitabxanasını göstərdi.

— Maşın mənim üçün onlarla şah əsər hazırladı…Əsərlər sənin ixtiyarıdadır. Əgər Şimal qütbünə qayıtsan, onları özünlə apara bilərsən…

— Sən onları naşirlərə təklif etmədin?

O çiyinlərini çəkdi.

Mən əsəbiləşdim.

— Nə demək istəyirsən? Yoxsa onları bəyənmədilər? Doğrudanma Onezim, naşirlər sənin şah əsərlərini qəbul etmədilər? Ola bilməz. Bəlkə bir anlaşılmazlıq olub, elektronika işləməyib? Bu maşın…

O quru bir tərzlə sözümü kəsdi:

— Maşına söz ola bilməz. Amma naşirlər onun yazılarını qəbul etmirlər. Eh! Sənə bir qovluq məktub göstərərəm. Kallimar, Julyar, Plon kimi nəşriyyatlardan məktublar almışam. Hamısı eyni cavab yazır:

"Lütfkarlıqla bizə təqdim etdiyiniz əlyazmasını məmnuniyyətlə oxuduq. Təəssüf ki, onun nəşri bizim nəşriyyatın imkanlarından kənardır…"

— Axı nə üçün?

— Bu yerdə, demək olar ki, həmişə eyni bəhanə: "Hiss olunur ki, Balzakın tə'siri altındasınız…" "Şübhə yox ki, siz Moris Drüonun əsərlərini çox oxumusunuz…" "Təəssüf ki, siz Erve Bazenin əsərlərinə baş barmağınıza bələd olan kimi bələdsiniz…" Hər dəfə də, təssüf ki!

— Deməli hamısına e'tiraz edirlər?

— Hamısına!

— Dəhşətdir! Amma ağlıma bir şey gəlib. Götür maşını, əyil mikrofona tərəf. Korney, Zolya yaxud Saqan demək əvəzinə sadəcə olaraq öz adını de, de:

Onezim. Onda alınan əsər sənin özünün olacaq.

O dodaqucu gülümsündü:

— Yəqin özün fikirləşirsən ki, mən bunu etməmiş olmaram. Mən "Fəlsəfi əsər" düyməsini basdım, sonra mikrofona öz adımı dedim: Onezim:

— Sonra?

— Qırx üç saniyəyə yüz səhifəlik bir əlyazması hazır oldu.

— Əsərin adı nə idi?

— "Toyuğun, bifşteksin və quzu ətindən kotletin yeni elektronik üsulla bişirilməsinə dair bə'zi mülahizələr".

JAN SANİTAS

SAKİTLİK

Reymon Pake kəndi çox sevir. Hər yay Parisdən çıxıb Yuxarı Averndəki bir kəndə gedir. Kənd, mərkəzi yoldan da, bizim əsrdən də aralı düşüb. Burada yarım düjün yöndəmsiz, alçaq ev var. Evlərin kiçik pəncərələrindən süzülən zəif işıq adamı sehrləyir. Hər evin isti nəfəsli bir pəyəsi də var. Kənin bir bulağı var, lap çoxdan axır. Kəndin üstünü nəhəng şabalıd ağaclarının dən düşmüş saçları, sarmaşıq qotazları, budaqlarda gözəl naxışlara oxşayan mamırlar, bir də səma — aydın, mavi, əzəmətli bir səma örtüb. Qoyun sürüsünə oxşayan təpələr kəndi araya alıb onu yaşıl dolanbaclı bir vadiyə döndərib. Ara-sıra otlaqlar, tarlalalr və göllərin ətrafında təpəciklər üzərində küknar, şam və toz ağacı meşələri görünür. Hələ süpürgə güllərini görəsən! Onlar əvvəl qırmızı olur, yavaş-yavaş saralır, payızda isə ağarırlar.

Reymon Pake bir qarı ilə qocanın qonağı olur. Qocaların üzləri, əlləri elə bil şümşad ağacından yonulub. Səmimi və mehriban adamlardı. Reymon onları nənə və baba çağırırdı. Reymonun orta əsr qalası kimi qalın divarlı otağında sərinlik və sakitlik hökm sürür. Otaq yarıqaranlıqdır. Burada illərdən bəri işlənib üzülmüş mebel — çarpayı, paltar şkafı, masa var. Mücrünün üstünə qoyulmuş mis şamdanlar otağa titrək, zəif işıq səpələyir.

Reymon Pake burada gördüklərinin hamısına kənd deyir. Gündüzün günəşi də kənd deməkdir, gecənin ulduzları da. Nə yağış, nə də külək haqda fikirləşməyə dəyməz.

Günəş kəndi qızdırdığı, qızılı dalğalarla aləmi döyəclədiyi vaxtı Reymon çox sevirdi. Gecənin qarasına boyanmış, üzərində yuxulu səmanın mirvariləri bərq vuran kənd gecəsi də onu məftun edirdi.

Belə gecələri necə sevməyəsən axı, otlaqların, meşələrin, qayaların, çayların, göllərin üzərində mülayim bir sükut hökm sürür.

Reymon Pake sükutu sevir. Amma hər cür sükutu yox. Elə bir sükutu ki, onun nə yerdə, nə də göydə hüdudu olsun. Əbədilik və sonsuzluqla yoğrulmuş bir sükut. Kəndin qızmar çağlarına və gecə qaranlığına məhəbbəti də sükuta, sakitliyə olan məhəbbətindən yaranıb. "Sal daşın özünün kamil bir əsər olduğu kimi sükut da güclüdür, düşüncə və şüurla doludur" deyən filosofun sözləri bura-

da sübuta yetir. Sakitlik Reymon üçün içərisində böyük işlər görülən bir aləmdir.

Bu sakitlik sevimli nəğmələri yada salır, məşhur müğəğnnilərin qəmgin kupletlərini zümzüməyə çevirir.

Hər gün günorta çağı Reymon iri həsir şlyapasını başına qoyub evdən çıxırdı. Şlyapa onu meksikalıya oxşadırdı. Reymon ot basmış cığırlarla bir-iki saat fikirli-fikirli dolanır, yetişmiş, iri dənli sünbüllərə, zoğlu şeytan qanqallarına hələ tamam qurumamış vələmirə tamaşa edirdi. Günün ən qızmar çağı sakitlik olur, bu sakitlikdə təbiət lap qədimlərdəki kimi hökmranlıq edir.

Gecə düşəndən sonra da Reymon Pake həmən cığırlarla gəzinirdi. Gecələr şlyapanın əvəzinə başına beret qoyur, ayağına isə həmişəki yumşaq ayaqqabılarını geyirdi. O, əlləri cibində gəzinir, yerlə göyün bir-birindən seçilimədiyi mehriban bir qaranlıqda uzaq kəndlərin sarışın işıqları ilə göydəki gümüşü ulduzların birbirinə qarışdığından ləzzət alırdı. Yerin sükutu göyün sükutuna bənzəyir. Hər ikisi insanı valeh edir.

Kənddəki bu sakitlilə Parisdə iş otağındakı sakitlik arasında böyük fərq var. Kabinetdəki sakitlik sün'idir, cansızdır. Kənddəki sakitlik isə canlıdır, təbiətin özündən yaranıb. Bu sakitlik günorta çağı milçəklərin və arıların vızıltısından, quru vələmir sünbüllərinin xışıltısından, gecələr isə cırcıramaların iliyə işləyən nəğməsindən və ulduzların sehrli simfoniyasından yaranır. Bəli, bunlarsız Reymonun sevdiyi sakitlik mövcud olmazdı. Sakitlik boşluğa dönərdi.

Keçən yay xoş ətirli, mülayim, gözəl gecələrin birində Reymon Pake xəyal dolu cığırların birində gəzindiyi vaxt qəfildən dayandı; elə bil üstünə qüssə çiskinlədi. Bu qüssənin haradan gəldiyini, yaxud nədən doğduğunu ayırd edə bilmirdi.

O, iri qol-budaqlı bir qoz ağacının dibində donub qalmışdı, bütün bədəni həyəcan içində idi. Bu həyəcan nə qədər çəkdi? Bir saniyə? İki? Üç? Bəlkə on saniyə? Reymon özü bunu deyə bilməzdi. Həmin an çox ağır, çox uzun görünmüşdü. Qəfildən o qüssənin səbəbini duydu, tez həyəcanlandığı kimi tez də sakitləşdi. Nəhayət nəfəs aldı.

Gecənin sükutunu yaradan səslərə — minlərlə gözəgörünməz canlıların səslərinə güc-bəla ilə eşidilən təzə bir hənirti qoşulmuşdu.

Reymon Pake diqqətlə qulaq asdı. Eşidilən səs inilti idi, ahəstə bir inilti, zəmidəki yetişmiş sünbüllərin xışıltısından azacıq zil idi. Səs yaxınlıqdakı kolun dibinən gəlirdi. Reymon Pake yaxınlaşıb aşağı əyildi, ürəyi həyəcanla döyünməyə başladı. Ayağı tələnin iti dişləri arasında qalmış balaca qırmızımtıl bir tülkü qalın otların arasıda uzanıb qalmışdı. Tülkü, daha əsiri olduğu polad tələdən yaxa qurtarmağa çalışmırdı. Yorulub, ümidini üzüb, böyrü üstə uzanıb ölümünü gözləyirdi. Zingildəməsi isə ağrının gücündən idi. Reymon aşağı əyiləndə heyvancığaz ölüm gətirəcək zərbəni qarşılamaq üçün titrədi və dişlərini azacıq göstərdi.

Reymon Pake onun əzilmiş pəncəsini tələnin polad çənələri arasından çıxarmaq üçün var gücünü sərf etməli odlu.

Bir neçə gün sonra, eyni vaxtda. Reymon Pake həmən yerdə dayandı. Əsaslı bir məqsədi yox idi. Özü elə-belə dayandı, azad etdiyi, həyata qaytardığı heyvancığazı yadına saldı.

Ona elə gəldi ki, yaxınlıqda, hündür otların arasından kiçik bir heyvanın tövşüyə-tövşüyə nəfəs aldığını duyur. Heç təəccüblənmədi də. Bu-tülküdür! Reymon tülkünün yaxınlıqda olduğuna əmin idi. Heç yoxlamağına dəyməzdi. Tülkü bir az aralıda çömbəlib ona tamaşa edirdi.

Reymon Pake addımlamağa başlayanda otlar arasından yüngül bir xışıltıdan hiss etdi ki, tülkü qaçıb uzaqlaşdı.

Yay boyu tülkü dəfələrlə görüşə gəldi. Reymon Pake ona yaxınlaşmaq fikrinə düşmürdü. Axı nəyə gərək? O, bir anlıq heyvancığazın nəfəs çəkməsinə qulaq asır, balaca tülkü isə yarpaqların arasından ona tamaşa edirdi. Bu mehribançılıq mərasimsi başa vurulan kimi hərəsi öz aləminə qayıdırdı.

İndi istirahət günləri başa çatıb. Reymon Pake sün'i sakitliyə qərq olmuş kabinetində olub-keçənləri yadına salır. Otaqdakı yalançı sakitlik də, həyatın karikaturası olan avtomatlar da onu cana gətirir. O, sakitliyi, əsl sakitliyə qovuşmaq üçün yayın gəlməsini gözləyir. Xəyal dolu cığırın kənarında isə, yəqin ki, ilıq nəfəsli, qırmızımtıl tülkü onu gözləyəcək.

JORJ KUL ON

MOTSART QAZAMATDA

Fren həbsxanasında bir-birindən qorxmayanlar tez dostlaşırlar. Motsartı iki ay əvvəl mənimlə keşikçi Ernest tanış eləmişdi. Həmin vaxtdan Motsartla dostlaşmışdım. Bəli, keşikçi ilə yox, onunla dostlaşmışdım. Motsart yekəpər heyvana oxşayırdı, qolları güclü, ağlı isə küt idi. Gövdəsi sərt, ürəyi kövrəkdi. Başı donuz başı kimi iri, fikirləri isə körpə uşaq fikirləri idi.

O, saman döşəyin üstündə uzanıb gözlərini mənə zilləyirdi. Dərin xəyala dalır, hərdən sayıqlayırdı.

Mən onun deyəcəyi sözləri gözləyirdim. Nə deyəcəyini bilmirdim. Həmişə eyni şeyi deyir, sonra da köksünü ötürürdü. Hiss edirdim ki. Motsart keçmiş bir əhvalatı gözləri qarşısından keçirir, sonra fikirli-fikirli həmin cümləni deyir.

O yenə köksünü ötürdü. Mən qulaqlarımı şəkləmdim.

— Hər halda yaxşı işləmişdik!

Motsart bir də köksünü ötürdükdən sonra fikirli-fikirli qalxıb saman döşəyin üstündə oturdu. Bunların hamısı mənə tanış idi. İndi yaxınlıq vaxtı çatmışdı. Motsartın mənə, sözlərimə ehtiyacı vardı.

Gözlərimi Motsartın üzünə dikib, səsimə laqeyd bir ifadə verib neçə gündən bəri məni narahat edən sualı verdim:

— Motsart? Axı, sənə nə üçün Motsart deyirlər?

Araya sükut çökdü. Qurtarmaq bilməyən həbsxana sükutu. Soyuq, qaranlıq, murdar və uzun bir sükut.

Görəsən, Motsart sualımdan hirslənmir ki? Yaman nigaran idim.

Axırı ki, üzümə baxdı. Amma hələ susurduq. Bu həbsxana sükutu idi. Ən ağır cəzaya oxşayan sükut idi… məzar sükutu.

— Mənə niyə Motsart deyirlər?

O, mehriban baxışlı inək başına oxşayan başını yuxarı qaldırmışdı, iri, eybəcər dodaqlarına təbəssüm qonmuşdu.

Sonra o əhvalatı söyləməyə başladı…

Mademuazel Plianın qanuna dönmüş adətləri vardı. Bu adətlərin bə'ziləri onun həyatına məcburən daxil olmuşdu, bə'zilərini özü götürmüşdü. Bə'ziləri isə rahatlığa olan ehtiyacdan yaranmışdı.

Mademuazel Plianın 73 yaşı vardı… Boyu balaca üz-gözü qırış, ürəyi hikkəli, özü tənha idi. O, səhərlər özünü yüngülcə səliqəyə salır, azacıq bazarlıq edir, bir az ev işləri görür, bir za da mətbəxdə işləyirdi. Mademuazel Plian zəif, xırdaca, arıq bir adam olduğu üçün gördüyü işlər də elə bil öz boyuna, öz imkanlarına uyğun idi: hər səhər yavaş-yavaş gəzinə-gəzinə gəlib Ormo küçəsindəki balaca ərzaq mağazasına çıxırdı. Burada özünün balaca səbətinə azacıq ərzaq alıb yığırdı: bir az yağ, bir az kofe, bir tikə donuz əti.

Bundan sonra o özünün balaca mənzilinə qayıdırdı. Pilləkəndə xırdaca Lakoz xanıma bir-iki qısa söz deyər, yaxud gömrük nəzarətçisinin dul qarısı madam Şmellə azacıq söhbət edərdi. Saat birdə Mademuazel Plian nahar edirdi — xırdaca masanın balaca bir küncündə yüngül bir nahar. Axırda azacıq kofe içirdi. Sonra isə hər şey dəyişirdi.

Onun xırdaca, darısqal, sıxılmış həyatı birdən-birə böyük bir həyata, sevinc selinə, ehtirasla dolu, şirin, əsl insan ömrünə çevrilirdi. Hər gün günortadan sonra, saat iki olan kimi Mademuazel Plian öz piaonsunun (royalının) qarşısında əyləşir, düz axşam saat altıya kimi çılardı. Dayanmadan çalırdı, deyə bilərəm ki, heç nəfəsini dərməyə də dayanmırdı. Nə çalırdı? Bütün repertuarını çalırdı. Yə'ni "Qarımış qızın duası"nı çalırdı. Bəli, tək qaldığı əlli bir ildən bəri Mademazel Plian hər gün günortadan sonra dörd saat ərzində Badagervskanın əsərini çalırdı. Başqa heç nə çalmazdı.

Onun ifası haqqında rə'ylər müxtəlif idi. Yuxarıda yaşayan bir qadın, madam Kler deyridi ki, çox pis çalır, madam Karl isə güman edirdi ki, çox ə'la çalır. Bu fikirlərin hər biri, şübhə yox ki, şişirdilmişdi. Lakin həmişəki kimi əsl doğru fikri kütlə söyləyirdi. Yə'ni, qonşuların gur səsli xoru bildirdi ki, bu çalğı hər şeydən əvvəl baş ağrısıdır.

Bunu ələlxüsus şənbə günləri axşam kişilər evdə olanda (onların əyləlncəsi yox idi) hiss etmək olurdu. Bir də görürdün ki, onlar mənzillərindən çıxır, əl-qollarını oynadıb acıqlı-acıqlı qışqırışır, deyinirlər. Onlara baxanda adam fikirləşirdi ki, fransızlar musiqini çox sevmirlər.

Lakin süpürgə ağacları ilə otaqların tavanlarını bir az döyəclədikdən, bir az çığır-bağır saldıqdan, ah-nalə etdikdən sonra Hamı sakitləşirdi. Çünki əlli bir ildən bəri hamı bilirdi ki, nə olur-olsun, Mademuazel Plian saat ikidən altıya qədər "Qarımış qızın duası"nı çalacaq. Hələ üstəlik hamı qarımış qızın həyatına, tənhalığına

və kimsəsizliyinə də bələd idi. Elə buna görə də qonşuların hirsi tez soyuyur, ona yazıqları gəlir, onu başa düşürdülər. Hər gün günortadan sonra o, əslində piano çalmırdı: öz ərinə nəvaziş göstərən qadınlar kimi pianosuna nəvaziş edirdi, o sevirdi… o şirin bir zövq alırdı. İndi onun çaldığı "Qarımış qızın duası" deyildi, Mademuazel Plian öz duasını oxuyurdu. Axı özü qarımış qız idi.

O, öləndə hamı heyfsiləndi. Qonşular pul topladılar, nar gülündən lira şəkilli bir əklil hördürdülər. Bəli, fransızlar çox musiqipərəst olmasalar da, simvolik əlamətləri xoşlayırlar.

Sonra narahatlıq, nigarançılıq başladı. Hamıya mə'lum idi ki, Mademuazel Plianı öldürmüşdülər.

Xəlvəti Luici Kaksiopodan şübhələnirdilər. O hər şənbə saat beş radələrində dözə bilməyib pilləkənə çıxır, Məryəm ananı köməyə çağırır, söyləyirdi ki, başı bu səsə dözə bilməyib partlayacaq. Əlləri ilə havada qarpız forması düzəldir və italyan ləhcəsilə mızıldayırdı: "Qarpız kimi partlayacaq". "Başım qarpız kimi partlayacaq!"

Lakin bu yersiz şübhə uzun çəkmədi. Tezliklə mə'lum oldu ki, Mademuazel Plian sadə həyat sürən az xərcləyən, az ehtiyaclı bir adam olduğuna görə qənaət edib xeyli pul toplayıbmış. Deməli, onu qarət məqsədilə öldürüblər.

Həmin vaxtdan müstəntiq Muflet "qarımış qızların canisi" haqda fikirləşməyə başlamışdı. Həmin şəxsi müstəntiq yaxşı tanımırdı, bir onu bilirdi ki, adı Joze Mulosdur. Bir ildən bəri müstəntiq onun əsl simasını açmaq istəyirdi. Jozeni tutdular, istintaq etdilər, sorğu-suala tutdular. Heç nə! Heç nə çıxmadı: mayın 17-də saat 18də Mülos "Kleron" kafesində kart oynayırmış. İyirmi nəfər şahid var idi.

Cinayət saat altıdan əvvəl baş verə bilməzdi, çünki qonşular bir səslə təsdiq edirdilər ki, Mademauzel Plian həmişəki kimi saat ikidən saat altıya kimi ara vermədən pianoda çalıb.

Müflet fikirləşdi ki, adamların şahidliyi həmişə dəqiq olmur, həm də ki, "Kleron" kafesi ilə Mademuazel Plianın evi arasında üçcə avtobus dayanacağı yol vardı. Əgər cəld olsa Mülos vaxt tapardı…

Lakin "Kleron" kafesinin sahibi sözünün üstündə möhkəm durmuşdu:

— Mülos kafeyə saat beşdən əvvəl gəlmişdi. Kafenin daimi müştəriləri də eyni sözü deyirdilər. Onda Muflet məhkəmə həkimi

ilə tutuşmalı oldu. Meyiti təşrih etdilər. Gözlənilməz nəticələr alındı. Mademuazel Plianı mə'dəsində həzm başlamamışdan öldürmüşdülər.

— Deməli, axşam çağı, nahardan sonra?

— Ola bilməz, — deyə həkim e'tiraz etdi, — heç olmasa, yeddi saat əvvəl.

— Səhər yeməyindən sonra!

— Belə çıxır.

Qarımış qızın qoşuluğunda yaşayan arvadlar arasında madam Karl daha ciddi adam tə'siri bağışlayırdı, bu qarıya inanmaq olardı. Muflet ona bir də qonaq gəldi. Nəzakətlə Mademuazel Plianın uğursuz taleyinə heyfsiləndiyini bildirdikdən sonra ciddi səslə soruşdu:

— Yaxşı fikirləşin, madam… deməli sizin rəfiqənizin meyiti mayın 18-də saat 15-30 dəqiqədə tapılıb.

— Elədir ki, var. Saat ikidə onun çalğısını eşitməyəndə hamımız narahat olduq… fikirləşdik ki, onu heç səhər də görən olmayıb. Onda ev nəzarətçisinin yanına getdik, sonra… onu tapdıq…

Madam Karl hıçqırıb ağladı. Muflet yenə sual verdi:

— Əvvəlki gün onun saat 2-dən 6-ya kimi çaldığına əminsinizmi?

— Əlbəttə… hələ deyə bilərəm ki… mən hey bu haqda fikirləşirəm… amma… məni səfeh hesab edəcəksiniz… amma o, ölümün gəldiyini duymuşdu…

— Siz niyə belə fikirləşirsiniz?

— Çünki… Ah! Əgər o ölməmiş olsaydı, bəlkə də mən bunu duymazdım. İndi fikirləşirəm… Mən sonra hiss etdim ki.. O… yəqin ki, tezliklə öləcəyini luyubmuş… O həmişəkindən yaxşı çalırdı… O, incəsənət adamı idi, başa düşürsünüzmü, cənab müstəntiq, mən inanıram ki, o duyubmuş…

Lakin Muflet daha ona qulaq asmırdı. O, qaça-qaça pilləkənləri düşürdü.

— Beləliklə mən özümü ələ verdim, — deyə Motsart köksünü ötürdü. — Muflet polis romanlarındakı axtarışçılar kimi sayıq idi. Axşam o məni evimizdə gözləyirdi.

— Bəs sonra?

— Sonra mən hər şeyi boynuma aldım… İki il idi ki, pianoda çalmağı öyrənirdim. Bunu məndən Joze xahiş etmişdi: "Təmiz işdir, demişdi… Sənlik bir iş yoxdur. Sənin işin təkcə saat ikidən altıya qədər "Qarımış qızın duası" nı çalmaqdır", Mənim tərəddüd etdiyimi görüb, demişdi: "Adi pianoda yox, royalda çalacaqsan". Onda mən razılaşmışdım…

Qarı bazarlıq etməyə gedəndə biz onun evinə, girdik. Gizləndik. Qarı nahar edib salona keçdi, onda tarak! Bu işi Joze gördü… Yaman cəld imiş… Mən isə gördüm saat ikidir… keçdim pianonun arxasına… düz axşama kimi çaldım…

Motsart bir də köksünü ötürdü, sonra isə mızıldandı:

— Hər halda yaxşı işləmişdik! Mənə Motsart adını Muflet verdi.

— Sən həmin saat hər şeyi boynuna aldın?

— Bəs necə. O məni çantam qoltuğumda piano dərsindən qayıtdığım vaxt evdə yaxaladı.

O mənə tərəf çevrildi:

— Nə edə bilərdim? Mən musiqinin dadını öyrənmişdim.

Aramıza sükut çökdü, ikimiz də fikirləşirdik.

İki il çalışasan, səbrlə gecə-gündüz öyrənəsən (sol əlin altındakı düymədə qammadan enməni öyrənməkdə dostum çox əziyyət çəkibmiş) axırı da belə…

Amma həbsxanada da onun təsəllisi vardı:

— Bilirsənmi mən niyə hər şeyi boynuma aldım. Çünki qonşu Karl xala belə hesab edirmiş ki, qarı çox mahir çalğıçı imiş… Hə! Amma sonra hiss edib ki, mən ondan yaxşı çalırammış.

Bu sözdən sonra Motsartın fərəhdən üzü güldü… Sonra xəyallar aləminə cumub saman döşəyin üstündə şirin-şirin mürgülədi. O, yavaş-yavaş yuxuya gedirdi, amma görürdüm ki, barmaqları sol yanbızı üzərində asta-asta piano dillərini oynadırmış kimi tərpənir.

O beləcə arxayınlıqla, üzündə xoş təbəssüm xoşbəxt bir körpə kimi yuxuladı.

Axı, mə'lumdur ki, Motsart da uşaq kimi yatırmış.

MARTİN-MANO

QIRMIZI ÇAYDAN QAYIDARKƏN

Ay yolu işığa qərq eləmişdi, maşınım sür'ətlə gedirdi. Yorulmuşdum, yuxum gəlirdi. Qırmızı Çaydakı bir xəstəyə baş çəkib qayıdırdım. Xərçəngdir. Çarəsi yoxdur. Qırmızı Çayda az adam yaşayır, hər yer bataqlıqdır, cəmisi üç ev var, onlar da yavaş-yavaş çürüyürlər.

Nədənsə heç özüm də səbəbini bilmədən qar haqda fikirləşirdim. Mən heç qarın özünü görməmişəm.

Yalnız şəklidə, kinoda və Yeni il ərəfəsi poçt kartlarında görmüşəm. Doğrusu qarın özünün nə olduğu haqda dəqiq mə'lumatım yoxdur. Ay işığı ağacların yarpaqlarını və otluqları ağ rəngə boyamışdı. Şimaldakı qış mənzərələrini xəyalıma gətirirdim. Mən ömrüm boyu cənubda olmuşam.

Köhnə şevroletim təzə maşın kimi şütüyürdü. Lam uzağı gecə yarısı evdə olacaqdım. Yatmazdan əvvəl, yəqin ki, bir qədəh viski içərəm. Sonra axırıncı siqaretimi çəkəcəyəm. Daha sonra yatağıma girəcəyəm.

Maşının işığında yola bir qız çıxdı. O, yolun ortasında durmuşdu, yolun kənarında isə Byuik markalı maşın dayanmışdı. Qız əlqolunu oynadıb nə isə qışqırırdı. Əvvəlcə özümə söz verdim ki, saxlamayacağam. İstəyirdim evə tez çatım, özümü yatağıma salıb gözlərim yumulu allaha yalvarım ki, daha telefon zəng çalmasın. Amma qızı maşınla vurmaq da olmazdı.

Maşını saxladım.

Qız yanıma qaçıb maşının pəncərəsinə dirsəkləndi. Üzümə kölgə düşürdü, yəqin ki, o məni yaxşı görmürdü. Mən isə onun üzünün cizgilərini belə sezə bilirdim. Sifəti balaca, dəyirmi idi, ağıllı gözləri vardı. Yerişi yaraşıqlı uşaq yerişinə oxşayırdı. Yaşı on səkkizdən çox olmazdı. Saçı çox qısa kəsilmişdi. Onun sifətində həm kələkbazlıq, həm də utancaqlıq duyulurdu. Mən hiss edirdim ki, o qorxur, eyni zamada özünü lap sərbəst aparmağa çalışır. Cənub gecəsinin ay işığı onu daha da cavan göstərirdi. Öz-özümə fikirləşirdim ki, görəsən nə məsələdir.

— Başıma səfeh bir qəza gəlib, — deyə qız dilləndi.

Onun səsi də gözəl idi. Bu qız şəkərə qoyulmuş limona oxşayırdı. Elə təravətli, elə şirin idi ki…

— Bu səfeh maşın daha getmək istəmir, — deyib qız maşını göstərdi.

Mən güldüm.

— Benzin tökməyi unutmamışdınız ki?

Qız mənə incik bir nəzər saldı.

— Siz məni axmaq hesab edirsiniz?

Mən gülə-gülə maşından düşdüm:

— Bunu hamı unuda bilər.

Qəfildən o da güldü.

— Əlbəttə, bir dəfə atamın başına gəlib.

Mən artıq maşının motoru ilə məşğul idim.

— Mənim adım Jildir, — deyə qız yenidən sözə başladı, — Jil Morqan. Professor Morqan mənim atamdır.

Mən professor Morqanı tanıyırdım. Bütün Amerika onu tanıyırdı. Deyirdilər ki, o Nobel mükafatı alacaq. Xərçəng xəstəliyini tamam bilməməsi isə onun günahı deyil, bu xəstəliyi hələ heç kəs yaxşı bilmir.

Başımı motorun içidən çıxarmadan dedim:

— Nəcabətli adamsınız, atanız görkəmli şəxsiyyətdir.

O artıq özünü təqdim etdiyi üçün mən də özümü nişan verdim.

— Mən isə Con Farreləm, həkiməm.

Qız yamanca sevindi. Həkim olmağım onu arxayınlaşdırdı. Nəmə'lum bir sürücüdən isə qorxmalı idi. İndi o mənim hansı ictimai təbəqəyə aid olduğumu bilirdi, hörmətli adam sayırdı.

— Yaxşı, mənim bu Teodorama nə olub?

— Teodoraya?

— Bəli, atam onu mənə verəndə təzə gəmi kimi şampanla yuduq. Adı xoşunuza gəlmir?

— Bu Bizans imperitriçasının adıdır, — dedim. Deyəsən öz biliyimlə onu təəccübləndirə bilməmişdim.

— Bilirəm, — dedi. Bu adı seçməkdə əsas məqsədim xalama sataşmaqdır. Onun da adı Teodoradır, özü də yaman arvaddır.

Mən qəddimi düzəldib motordan aralandım.

— Bəli, — dedim. Təəssüflə bildirməliyəm ki, Sizin Teodoranın xəstəliyindən baş çıxara bilmədim.

O yenə də xəfifcə gülüb ürəyimi oynatdı.

— Bir həkim üçün gözəl e'tirafdır.

— Məsləhətləşmək lazımdır, — dedim. — Ən bacarıqçız mexanik sizə daha yaxşı xidmət göstərərdi.

Qız nigarançılıqla maşına baxırdı. Onun saçından lavanda qoxusu gəlirldi, əsl ona yaraşan ətir idi. Mən ondan çox böyük görünürdüm.

— Qulaq asın! — dedim. Baş sındırmağına dəyməz. Zənnimcə, bu işin bircə çarəsi var. Mən də Ceksona gedirəm, siz də. Gedək mənimlə, sizi atanızgilə ötürərəm. Sabah isə mexanikinizə zəng edərsiniz, gəlib maşınınızı tə'mir edər.

Mən görürdüm ki, o tərəddüd edir; dodaqlarını dişləyir, həyəcanla əllərini oynadırdı. Qəfildən, düz üzümə baxdı. Mən arxamı aya çevirmişdim, — o, üzümü çətinliklə sezirdi. Deyəsən, imtahandan yaxşı çıxdım. O gülümsəyərək dedi:

— Gedək, siz xeyirxah adamsınız.

O qalxıb yanımda əyləşdi və mən motoru işə saldım.

Daha yuxum gəlmirdi, özümü şən və gümrah hiss edirdim. Lap az qalırdı şadlığımdan mahnı oxuyam. Yorğunluğum qəfildən yoxa çıxmışdı. Mən maşın sürməyi sevirdim, gecəni də sevirdim, indi istəyirdim ki, döngələrdə Jilin çiyni mənim çiynimə toxunsun. Qız tamam sərbəst indi. Elə onun təbiətinin dərinliyi də bunda idi, güclü həyat eşqi, yaşamaq sevinci onu sərməst etmişdi. Qız gözlərindəki parıltını gizlətməyi, cingiltili gülüşləriin cilovlamağı tez-tez unudurdu. O danışır, mən qulaq asıb gülürdüm.

— Mən elə indi Teo xalamgildən gəlirəm. Hər ayın bir gününü onun qonağı oluram.

— Korvedə?

— Elədir ki, var! Xalam bərk narahatdır ki, on doqquz yaşım olsa da hələ nişanlı deyiləm. Elə cüman edir ki, mən kişilərin xoşuna gəlməyi bacarmıram.

On doqquz yaş! Deməli mən çox səhv etməmişəmmiş.

O sakit səslə davam etdi:

— Teo xalamın qırx yeddi yaşı var. Hələ ərə getməyib!

Atam hər dəfə ona deyir ki, adam baş çıxarmadığı şeydən danışmaz!

Mən gözucu baxdım. Yox, o məzə vermək istəmirdi, belə şey heç ağlına da gəlmirdi. Adi bir məsələ haqda elə-belə danışırdı. Gecə yarısı özgə bir şəxsin yanında belə açıq danışması isə onun balaca və sərbəst çənəsinə də, zərif boğazına da yaraşırdı. Mən həmən dəqiqə Jil Morqanın kim olduğunu anladım: o öz saflığı ilə hamını şübhəyə salan, saxtakarlığın nə olduğunu bilməyən şəxslərdəndir:

— Mən isə Qırmızı Çaydan gəlirəm, — deyə dilləndim.

— Bah! O xarabalıqda neynirdiniz?

— Xəstə vadı. Xərçəngdir. Müalicəsi yoxdur.

— Siz xərçənglə məşğul olursunuz?

— Xeyr. Xərçəng, vərəm, revmatizm, soyuqdəymə, nə ilə desəniz məşğul olan kiçicik bir həkiməm.

Özümün özümə yazığı gəldi. Nə üçün özüm haqda belə alçaldıcı kinayə ilə danışdım. Özü də belə bir təbəqəyə malik olan qızın yanında.

— Bəlkə atam sizə kömək edə bildi, — deyə Jil dilləndi. — Bilirsinizmi o, xərçəngdən yaxşı baş çıxarır.

Hiss edirdim ki, sükanı tutan əllərim əsir.

— Bilirəm, — dedim.

— Onda atama müraciət etmək lazımdır, — deyə qız qətiyyətlə davam etdi. — Heç kəsi ölməyə qoymaq olmaz. Siz məni ötürəndə qalxarsınız atamın yanına, hər şeyi ona danışarsız.

— Professor Morqanın özünün kifayət qədər işi var, — dedim.

— Elədir, amma hər halda kömək edər. — Biz bir müddət dinib-danışmadıq, yolumuza davam etdik. Nəhayət mən dilləndim:

— Mənim xəstəmin yaşı çoxdur, əzab çəkir. Mən is həmişə onun yanadı qalaa bilmərəm.

— Yəqin ki, yanında nəzarətçi qalır.

— Qırmızı Çayda nəzarətçi?

Mənim gülüşümdə təhqiramiz bir ifadə vardı. Qız başını silkələyib dedi:

— Düz deyirsiniz? Yəqin onun pulu da yoxdur.

— Heç nəyi yoxdur.

— Daha da pis. Deməli onun yanına şəfqət bacısı da göndərmək olmaz. Pulunu verən olmayacaq… Gönüllülər isə…

O, gözləriin yolun mənim tərəfimdəki hissəsinə zilləmişdi, baxışları qaranlığı dəlib keçirdi. Hiss edirdim ki, qaranlıqda mənə də baxır.

— Mən, — deyə o sözə başladı. — Mən iynə vurmağı bacarıram. Şübhəsiz, xəstə yanındı nəzarətçi də ola bilərəm. İş burasındadır ki, buna adət etməmişəm.

Sağ əlimi sükandan götürüb onun sol əlinin üstünə qoydum. O, əlini çəkmədi. Bizim danışmağa ehtiyacımız yox idi. Mən onu sevirdim, çünki yalan danışmırdı.

— Siz də qalxarsınız evə, — deyə qız təkrar etdi. — Atam hələ yatmayıb. Onunla bir qədəh içərsiniz.

— Siz güman edirsiniz ki, o Qırmızı Çaya gedər?

Sualım lap ikiqat səfeh sual idi. Əvvəla ona görə ki, bilirdim ki, professor oraya getməyəcək. Sonrası da ki, getsə də, çox gec idi. Qırmızı Çaya həkim çağıranda həmişə çox gec çağırırlar.

— Atam çox yaxşı adamdır, — deyə Jil cavab verdi.

Mən bilirdim ki, o yaxşı adamdır. Qızını görəndən sonra bu fikrimə daha çox inanırdım. Qız elə mülayim, elə gözəl, elə qəlbitəmiz idi ki!

— Rəqs etməyi sevirsinizmi? — deyə qız qəfildən soruşdu.

— Bəli, — dedim.

Ürəyim yamanca döyünürdü. Fərsiz olduğuma özüm bələd idim. Ürəyimin səsini gicgihlarımda duyurdum. Bilirdim ki, ağlımı itirərəm.

— Rəqs etməyi çox sevirəm, — deyə təkrar etdim.

— Hərdən bizə gələrsiniz, — dedi. — Siz telefonunuzu məən verin. Mən yaxın vaxta bir şey təşkil edərəm.

O, ciddi-ciddi fikirləşirdi.

— Bəlkə çərşənbə günü. Əgər sizə əl verərsə?

— Çərşənbə günü boşam, — dedim.

Ah sefeh, sefeh, sefeh!

— Yaxşı, — deyə o yekun vurdu. — İndiisə gedərik atamla bir qədəh içərsiz.

O yenə güldü, amma bu dəfə səsində mehribanlıq və eyni zamanda iftixar hissi duyulurdu.

— O, pamplemus şirəsi içəcək. Xoşbəxtlikdən canının qədrini bilir. Sizə isə viski təklif edəcək.

— Mən də pamplemus şirəsini xoşlayıram, — dedim.

O ürəkdən güldü.

— Deməli, siz gözəl gələcəyə malik bir gəncsiniz! Əgər Amerikada meyvə şirəsi içməyi xoşlayan çox olsaydı, az cinayət baş verərdi… və i.a. və s. O sizinlə görüşən kimi sizi Conni çağıracaq.

— Bu çox gözəl olardı, — dedim.

Mən, deyəsən, dəli olmuşdumi, səfehləmişdim, nə dediyimi, nə danışdığımı bilmirdim. Bəlkə mənim belə bir istirahətə ehtiyacım varmış?

Biz Ceksona yaxınlaşmışdıq. O, söhbətə ara verib çantasını eşələyirdi. Əvvəlcə bir dəstə açar çıxardı, sonra pudraqabı, əl yaylığı,

qara ipək şərid çıxdı. Nəhayət o, bir qutu "Lakki" markalı siqaret və balaca, uzunsov bir alışqan çıxardı.

— Siqater çəkrisinizmi? — deyə o təklif etdi.

— Bəli, — dedim.

Həmən dəqiqə başa düşdüm ki, hər şey bitdi. Mən ona görə "bəli" dedim ki, doğrudan da siqaret çəkmək istəyirdim. Lakin alışqan haqda fikirləşməmişdim. Alışqanın amansız alovu heç yadıma düşməmişdi.

O, damağına bir siqaret qoydu. Sonra mən yavaş-yavaş üzümü onun ovcunda əsən alova tərəf çevirdim. O mənim üzümü hələ indi görürdü.

Deməliyəm ki, o özünü yaxşı ələ aldı. Astaca köksünü ötürdü. Tələsmədən alışqanı da, siqaetləori də çantasına qoydu. Çantasını bağladı. Sonra əllərini dizləri üzəridə çarpazlayıb gözlərini irəliyə zillədi. Daha dinib-danışmadı.

Mən də danışmadım. Nədən danışaydım, axı? Ceksona daxil olanda o dil açdı. Amma hələ üzümə baxmırdı.

— Mərkəzə çatmamış məni düşürərsiniz, — deyə astaca, lakin ciddi səslə dilləndi.

Mən dinməzcə razılaşdım. Mərkəz işıq olur, bütün gecəni adamlar gəzişirlər, bizi görə bilərdilər.

Maşını əylədiyim yerdən onların evinə on beş dəqiqəlik yol vardı. O, qapını açınca mən tərpənmədim. Əllərim elə bil sükana yapışmışdı. Dodağımı dişləyib qanatmışdım. O, səkinin üstü ilə bir addım getdi, tərəddüdlə dayandı, sonra geri döndü.

— Yaxşı, sağ olun, — dedi.

— Dəyməz, — dedim.

Qız bir qərara gələ bilməyib səkidə durmuşdu.

— Çərşənbə günü… — deyə inamsızlıqla sözə başladı.

— Xoşdur, deyə quru səslə söz kəsənlik etdim. O, çiyinlərini çəkdi, ayağını astaca yerə vurdu, sonra gözlənilməz bir coşğunluqla dedi:

— Çox pis oldu. Adam xəcalət çəkir.

— Elədir, — dedim. — Amma ona fikir verməyin…

Maşını sürüb getdim. O, tufana sinə gərirmiş kimi çiyinlərini irəli verib hərəkətsiz durmuşdu.

Ay yolu işığa qərq eləmşidi, maşınım sür'ətlə gedirdi. Yorulmuşdum, yuxum gəlirdi… Mən qəsəbədəki evimə, çarpayıma, rahat otağıma, kitablarıma tərəf getmirdim. Mən düz irəli gedirdim,

çünki sür'ətin özündə nə isə məstedici bir qüvvə var, adamın əhvalını yaxşılaşdırır.

Mənim dərim çox qara deyil. Dodaqlarım da çox iri deyil. Amma bunun əhəmiyyəti yoxdur.

Mən zənciyəm.

MORİS PONS

QAYINAĞACI KÖLGƏSİNDƏ

Bir az əvvəl onlar bir məhbusu asmışdılar. Bəli, güllələməmişdilər, asmışdılar.

Dənizin qoynuna aldığı bu kiçik adada günəş topağa, torpaq salxım çiçəkli ağaclara, çiçəklər isə arılara can verərdi. Bu bal və bambuq adacığındakı kəndlərdə balıq və torlar suda cövlan edərdi. Burada kəndlərə də qədim ağac və balıqların adlarını qoymuşdular. Gəlmələr isə elə bilirdilər ki, özləri ilə yüzillik mədəniyyətin dəbdəbəsini gətiriblər.

— Onları alt paltarında asmaq lazım idi, — deyə gənc David qullablardan həzz alaraq gözləri yumulu mayxallanırdı. O, dünyanın ən gözəl tütünündən çəkdiyi üçün fəxr edir və həzin-həzin danışırdı:

— Bəli, alt paltarında ki, başqalarıa görk olsun.

Rubert öz-özündən soruşdu:

— Görəsən, heç onların alt paltarı olurmu?

Əslinə qalsa onlar yerlilər haqda heç nə bilmirdilər. Yerlilər yan-yörədən elə cəld şütüyüb keçirdilər ki, özləri haqda heç bir təəssürat buraxmırdılar. Yaddaşda onların tutqun rəngli gödəkçələrinin şiş göstərdiyi gövdələri və geniş şalvarları haqda ötəri bir iz qalırdı.

— Qəribədir, — deyə gənc David tez-tez deyinirdi, — bu paltarları onlar nə ilə doldururlar.

David yerlilərin ürəklərində nələr olduğu haqda fikirləşmirdi. Bir səhər öz limanlarında yelkənsiz, torsuz, toplar və tanklar yüklənmiş gəmiləri gördükdə, onlar mat qalmışdılar. Ağacların kölgəsində, avtomatların şaqqıtlısı kəsilməyən bu yuvalar tikitldikdə, başları üzərində qanlı xaçı ilə adanın səmasını korlayan bayraqları gördükdə təhqir olunmuş bu adamları qəzəb boğurdu. Düşmən adada özünün ağ afişaları və patrulları ilə hökm sürürdü. Həyatın xoş keçdiyi bir zamanda qazarma cədvəli tərtib etmişdilər. Onlara öz ana dillərində — üzüm becərən, balıq təmziləyən, mial sağan analarının dilində yeni sözlər; keşikçi və hərbi-polis sözlərini öyrətmişdilər.

Əsgərlər arasında ölənlər də olmuşdu. Davidin sarışın dənizçi yoldaşları, hələ gəmidə teatrdan və şairlərdən söhbət açan gənc

dostları bir-bir öldürülürdü. ONları yolun ortasında kürəklərində qırmızı və tozlu yara, daş-torpağın arasından tapırdılar. Yüksək rütbəli, soyuqqanlı bir zabiti də öldürmüşdülər. İyirmi illik hərbi xidmətdən saralmış, cılız zabitin, dalğaların sahilə atdığı, şişib tuluğa dönmüş və göyərmiş meyitini bir səhər sahildən tapmışdılar.

Yerlilərdən də bir neçə gənci asmışdılar. Bu gəncləri qohumtanışlar ləqəblə çağırardılar.

Onların adlarını qara haşiyədə iri hərflərlə yazılmış divralara yapışdırılmış kağızlarda Eftişya Xeynyuya göstərəndə qarı heç nə başa düşə bilmirdi. Necə yə'ni, məgər bu əvvəllər onun Sən Jerom hovuzundan boğulub lap ölhəöldə dartıb çıxardığı balaca Yanki deyilmi? O biri ki, quşların qənimi, yuvadağıdan Nikosdur. Yə'ni onları bostan müqəvvası kimi ağaca sarıyacaqlar?

— Yox, nənə, ağaca sarımayacaqlar, onların həbsxanada dar ağacları var.

— Nələri var?

— Dar ağacları.

Xarici dilin bu yeni sözlərini öyrənmək onun yaşına uyğun deyildi. Eftişya qarı qərara almışdı ki, ömrünün son günlərini ana dilində danışsın və nənəsindən qalma bir cüt ağ örtüyün arasında başa vursun. Çoxdan bəri — elə hərbi geyimli ölümün kəndin ətrafında dolanmağa başladığı gündən həmin örtükləri təmiz yudurtmaq məsələsi qarını narahat edirdi. Qarı onları divar şkafında, tərtəmiz görmək istəyirdi. Özü də ən təmiz su ilə yudurtmaq lazımdır.

Eftişya qarı öz-özünə deyirdi:

— Gərək onları aparıb bacım qızı Aspasyaya verəm. Hələ ki, buralarda ən yxaşı paltar yuyan sayılır.

Qarı bir gün günortadan sonra bacısı qızının yanına yollandı. İsti, qanqaraldan bir gün idi. Ətrafdakı boşluq və qüssə qəmgin bir adamı xatırladırdı. Adanın hər yerində Yankinin qara haşiyəyə alınmış adına rast gəlmək olardı. Göyərti satanlar bazardan getmişdilər, balıqlar suyun dibinə çəkilmiş, uzunqulaqlar çardaqları altında sakit-sakit mürgüləyirdilər. Kəndlilər və balıqçılar isə gözlərini pəncərədən çölə zəlliyib susur, əvvəllər qazandıqları qəpik-quruşla dolanırdılar.

Eftişya uzun çəkən qeyri-adi vəziyyətə az əhəmiyyət verirdi. Heç kəs ona çəkdikləri əzabın, yaxud göstərdikləri şücaətin səbəbini izah etmək qayğısına qalmamışdı. Kimin nə işinə qalmışdı ki,

lal-dinməz qarıya adadakı sükutun səbəbini izah etsin? Kimə lazım idi ki, qara geyimli qarıya keçirdikləri bəlalı günlərin səbəbini anlatsın? Kim düşünərdi ki, ayda üç dəfə öz daxmasından və ildə üç dəfə kənddən çıxan bu əldəndüşmüşə gizli döyüş zamanı ehtiyatlı olmağı tapşırmaq lazımdır. Amma iş elə gətidi ki, o, örtüklərini saxladığı boğçanı başına alıb Leükinosa, bacısı qızı Aspasyanın yanına yola düşməli oldu.

— Hə, əgər onlar məni sorğu-suala tutsalar, yaxşı-yaxşı başa salaram ki, bacım qızı Aspasyanın yanına gedirəm.

Qarı kimsəsiz küçələrlə, sükuta dalmış evlərin arası ilə gedirdi.

Gənc David binoklu ilə onun kiçik körpünü keçdiyiin gördü. Altı saat idi ki, Rubetlə ikisi qum doldurulmuş torbalardan düzəltdikləri hasarın arxasında, qayınağacının səfalı kölgəsində pusquda durmuşdu. O, ağacın gövdəsinə bıçaqla cizgilər çəkmişdi. Rubert də onun kimi. Sonra qabığı qoparıb ağacın gövdəsində öz vətənlərinin ağ ərazi xəttini və dostlarının ağ fiqurlarını yaratmışdılar. Əsgərlər avtomatları qarşılarına qoyub sakit-sakit öz motosikletləri haqda söhbət edirdilər. Qum içindəki kölgəli yuvaları isə sarı papiros kötükləri ilə dolurdu.

— Bir bax, Rubert, — deyə David birdən səsləndi. Rubert öz binoklu ilə baxıb Eftişyanın hər iki nəzarət postunu kuçdiyini gördü.

— Bu elə əsl biz deyəndir, — deyə David dilləndi.

O, qəhrəmanlıq etmək həvəsidə deyildi. Rəhmsiz tapşırıqları həvəslə yerinə yetirən serjant Tomasın ölümü onu bir az qorxutmuşdu. Nəzarət postlarını gəzən ən formal qalağan yerlərini dolaşan bu qara, namə'lui kölgədən onun gözü su içmirdi. Rubert gizləndiyi yerdən bağıraraq qısa bir əmr verdi. Eftişya isə boğçası başında Davidin binoklunda get-gedə irəliləyirdi.

— Əgər məni saxlasalar, onları yaxşı-yaxşı başa salaram ki, buralarda Aspasyadan yaxşı paltar yuyan tapılmaz. — O, başını boğçanın altında düz tutub mızıldayırdı.

David kisələrdən düzəldilmiş hasarın üstünə qalxıb bağırdı:

— Bir dayan görək, lə'nətə gəlmiş, murdar, dayan deyirəm.

O, revolverini yuxarı qaldırıb iki dəfə atəş açdı.

Eftişya tozun içi ilə onlara tərəf addımlayırdı. Çığırın üstü ilə onun əyri kölgəsi uzanırdı.

Qarı öz-özünə deyirdi:

— Mənim yaşımda hər kəs kəfənliyini hazır saxlamalıdır, burda nə var ki.

Əl avtomatından açılan atəş onu öz kölgəsinin üstünə sərdi.

— Aman allah, bu nədir? — deyə qarı inlədi, gözləri boşluğa zilləndi. Boğçası daşların arası ilə diyirləndi.

Sükuta dalmış kəndi güllə səsləri ayıltdı. Hamı qaçıb gəldi. Toplaşanlar başının üstünü əli silahlı əsgərlər kəsmiş, qanına boyanmış Eftişyanı gördülər. Hər tərəfdən qışqırdılar:

— Aman allah! Bu ki, Eftişyadır! O ölüb!

Sonra isə əsgərlərə baxaraq:

— O zavallı kar idi, — dedilər.

ROJE LÖKÜRÖ

İŞILDAQUŞ

"Məni yenə döydülər... Yenə daşa basdılar... Onlar zalımdırlar... Zalım!"

Bir qoluna dirsəklənib uzanmış Nikola həyəcanlı və səbrsiz hərəkətlər edirdi. Batmaqda olan günəşin qırmızı parıltısını silirmiş kimi arıq, uzun barmaqlarını gözünün qabağında o yan-bu yana tərpədirdi. O, üz-gözünü turşudub təpənin arxasında gözdən itən günəşə axırıncı dəfə dilini çıxartdı...

"Çəkil, tez ol, tez çəkil!"

Günəşi yumruğu ilə hədələdi.

Qütbdə göy qızardı. Sonra yavaş-yavaş tutqunlaşdı. Nikola əllərini başının altına qoyub üzüyuxarı otun üstündə üzandı. Xoşhallanıb gözlərini yumdu...

"O bu gecə gələcəkmi? Görəsən gələcəkmi? Səmada boz və mavi naxışlar salmış, mehriban, sakit qaranlıq ətrafa sükut səpələyirdi. Nikola dalğın-dalğın gülümsəyirdi. Fikirləşirdi ki, qaranlıq ona oxşayır, onun kimi mehriban, onun kimi dinməz, onun kimi sakitdir. Həm də ki, qaranlıq onun dostu, sirdaşı deyilmi? Bütün günü gözlədiyi gecəni gətirən qaranlıq deyilmi? "Nikola gicdir, Nikola dəlidir" deyirlər. Heç bilən varmı gecə vaxtı kimsəsiz yollarda Nikola nə axtarır?

Nikola sərxoş adam kimi çəmənlikdə xumarlanır, fikirləşirdi... Kəndin adamları səfehdirlər. Elə bilirlər ki, suallarına cavab verəcəm? Onlar lağlağıçı, zalım, daşqalaqçı və qəddardırlar. Nikolanın sirrini öyrənməyə ehtiyacları yoxdur. Onun sirri... Nikola yavaş-yavaş ayağa qalxdı. Burnunun pərəkləri genəlmişdi. Gecənin düşməsi ilə gələn hər şeyi görmək, hər səsi eşitmək istəyirdi. Ətrafdakı tikililərin kölgələri zorla sezilirdi. Qoca Düvalın hasarı qara xət kimi uzanırdı. Qranjelərin ferması isə qanada bənzəyən yan tikililəri və hərdən gözdən itən işıqları ilə alçaqdan uçan təyyarələrə oxşayırı.

Nikola gözlərini göyə dikdi. "O bu gecə gələcəkmi?"

Nikola sualı ulduzlara verir, onların titrəməsində cavab axtarırdı. Qəfildən şən-şən atılıb-düşdü.

"Bəli? Bəlkə də qamışlıqdan keçən yola gəldi?" O, iri addımlarla dikdiri aşdı və sevincək qaranlığa cumdu. "Sən gecə vaxtı bu

kimsəsiz yollarda nə axtarırsa? Hə? Nikola! Bizim toyuqları oğurlamaq istəyirsən?"

Nikola güldü. Onlar Nikolaya "dəli" deyirlər. Görəsən özləri dəli deyillər ki?

O qaçdıqca kənd camaatının sifətləri gözləri qarşısından keçirdi… Düval… Qranje… Süro qarı… Balaca uşaqla oynayırmış kimi həmişə astadan onun üzünü silələyən Vali… Nəzarətçi də — qəsdən, vəhşi kimi öz təbilini guruldadıb Nikolanın diksinməsinlən ləzzət alan murdar nəzarətçi də…

Onlar sirri bilmirlər! Heç vaxt bilməyəcəklər. Bu gözəl sirri öyrənməyə layiq deyillər.

Nikola kimsəsiz yolla yavaş-yavaş irəliləyirdi. İndi o həm şən, həm də narahat idi…

"Görəsən bu gecə gələcəkmi? Axı nə üçün qayıtmadı? İlk görüşün gözəl xatirələri Nikolanın başından çıxmırdı. Bir-birinə dedikləri sözlər yadına düşürdü: dostluq… məhəbbət… şənlik… xoşbəxtlik… Bəs niyə qayıtmadı? İyirmi bəlkə də lap otuz gecədir ki, Nikola kimsəsiz yollarda onu axtarır. O nə qədər gözəl idi!

Bir işıldaquş zəif işıq saça-saça ötdü. Nikola yolun ortasında dayanmışdı. O, əllərini ətrafında fırlanan işıldaquşa uzatdı…

— Gəl! Gəl bir az dincəl…

Kiçik bir ulduz kimi qaranlıqda rəqs edən işıldaquş yolunu dəyişdi, göyə qalxmağa başladı…

— Yox, yox! Qayıt!

Nikolanın səsi kədərdən boğulurdu. İşıldaquş yerə şığıyaraq otun üstünə qondu…

Nikola heyran-heyran dizi üstə çöküb dabanlarının üstündə oturdu. Sifəti ciddiləşdi. Əllərini irəli uzatdı…

— Bu sənsənmi? Yalvarıram cavab ver! Təkcə sən məni başa düşmüsən… Təkcə sən mənimlə dostluq eləmisən…

Otları kiçicik bir parıltı işıqlandırdı…

— Yox!

İşıldaquş bir az fırlanıb yoxa çıxdı. Nikola daşa dönmüş kimi oturduğu yerdə qaldı. Heç işıldaquşun arxasınca baxmadı da.

— Bu sən deyilsən! Yenə işıldaquşu sənə oxşatmışdım. Bəs nə vaxt qayıdacaqsan? Bəlkə də sabah? Deməli, sabah… Bəli, sabah!

Qoca Düval daha yoxdur. Düvalın oğlu Nikolanı daşa basır. Vali uşaqla oynayan kimi onun üzünü sillələyir. Gözətçi təbilin gumbultusu ilə onu diksindirib ləzzət alır. Kəndin bütün adamla-

rının fikri birdir: Nikola dəlidir! Hələ bir az fəxr edirlər. Hər kəndin bir gici, dəlisi yoxdurmu? Hələ onların dəlisi tamam başqadır… İndiyədək kim görüb ki, adam işıldaquşlarla söhbət etmək üçün bütün yay gecələrini kimsəsiz yollarda veyllənsin?

Yox, bu qoçaqlar heç nə bilmirlər…

Onlar bilmirlər ki, Zvimf Yerə səfərindən bir az sonra Plutona qayıtmışdır.

— Siz yaman gec gəldiniz, Zvimf!

— Mə Yerdə bircə gecə qalmışam… Gözəl bir gecə!

Zvimf şaqqanaq çəkib güldü…

— Bilirsinizmi, çox qəribədir! Yerdə bizə bənzəyən canlılar yaşayır… Bizim boydadırlar… Onlar uçurlar, həm də bizim kimi işıq saçırlar…

— Yerliləri deyirsiniz?

— Xeyr! Yerli insan nəhəng bir canlıdır… Amma mülayimdir, çölləri gəzməyi sevir, gecələr gəzməyə çıxır. Əgər düzgün başa düşmüşəmsə, o, yağışı, küləyi, ağacları, çiçəkləri və işıldaquşları — bizə oxşayan canlıları sevir. O, özünə oxşayanları da sevir…başqalarını da, görürsünüzmü, sağ-salamat qayıtmışam!

— Qoçaq insanlar, xoşbəxt, insanlar… — deyə başçı köksünü ötürdü. — Əgər bütün plutonlular belə olsaydılar… Yaxşı, Zvimf, sən bir də Yerə qayıtmaq istərdinmi?

— Kim bilir? Bəlkə də bir gün…

Kimsəsiz yolların dəlisi, işıldaquşların dostu Nikola da elə həmin günü gözləyir…

ROJE ŞATONÖ

GÖZ YAŞLARI

Birdən-birə Simson babanın gözləri yaşla doldu. İçəriyə süzülən işıqda o elə qəribə görünürdü ki, Vənsen qorxuya düşdü. Görəsən qoca niyə bu günə düşüb. Birinci dəfə deyildi ki, Vənsen yaşlı adamın ağladığını görürdü. Başqalarının ağlamasının səbəbini bilirdi. Amma bu gün məsələ tamam başqa idi. Simson Vənsenin babası deyil, ailənin dostu idi Onlardan üç ev o yana, məhəllənin qurtaracağında yaşayırdı. Orda, çaya enişo qədər maili idi ki, evlərin damı yamaca touxnurdu. Baş küçə bağçaların arası ilə uzanır, sonra isə sement zavodu tərəfdə haçalanırdı. Küçələrin biri ilə baxanda neftə bulaşmış suda lövbər salmış boz, qara gövdəli iri gəmilər görünürdü. Başqa tərəfdə isə qaldırıcı kranların qolaları, günəşin qırmızıya boyadığı duman içində şəhər, saysız-hesabsız evlərin damları görünürdü. Cümə axşamı idi. Gün çox pis keçirdi. Vənsen Simsongilə gəldiyinə peşman olmuşdu. Uşaq elə qorxmuşdu ki, az qala nərdivanı dırmaşıb zirzəmidən çıxacaqdı. Əlbəttə, çıxsaydı gedib bağçada əylənə bilərdi, yaxud həmin iyun axşamında məhəllədə o yan-bu yana qaçışan yoldaşları ilə oynayırdı. Nə isə, belə etməmişdi. Bu elə bir duyğu idi ki, bunu doqquz yaşlı oğlan özü üçün aydınlaşdıra bilməzdi. Vənsenin daxilindəki səs pıçıldayırdı ki, bu həzin göz yaşlarının şahidi bir uşaq olmalıdır.

Sıxıntı azalırdı.

— Yaxın gəl, oğlum. Sən heç nə görmədin, eləmi? Atana heç nə söyləmə.

Onlar zirzəminin küncündə üz-üzə durmuşdular. Altmış iki yaşlı qoca dəzgahının yanında kətilin üstündə əyləşmişdi. Onun saçları ağarmışdı. Ağ bığlarının üstündə üç yerdə tütün qırıntısı vardı. Saatının gümüş suyuna çəkilmiş zənciri gödəkçəsinin üstünə sallanırdı. Velosipedin zənciri ilə əlləşməkdən toz-torpağa batmış oğlan ayaq üstə durmuşdu. Barmaqları qaralmış, əlləri yapışqanlı idi. Başının tüklərinə qədər sürtkü yağına bulaşmışdı. Qısa şalvarında da barmaqlarının yeri qalmışdı. Eyb etməz, onsuz da bu iş şalvarı idi. "Vənsen velosipedin təkərini dəyişməkdə mənə kömək edəcək, gələcəkdə ona lazım olar" — deyə Simson onlara qəhvə içməyə gələrkən valideynləri xəbərdar etmişdi. Sonra isə demişdi: "Onsuz da velosiped mənə daha lazım olmayacaq". Vənsenin atası Simso-

na baxıb həmişəkindən də qəhərli bir səslə ürək-dirək vermişdi. Əslində o gümrah danışmaq istəyirdi.

— Niyə belə danışırsan, Simson? Sement zavodundan çıxmaqla çox şey itirməmisən… Fikir eləmə, sən hələ işləyə bilərsən…

Bəli, Simsonu ixtisara salmışdılar. Zavodun ona ehtiyacı yox idi. O tək deyildi. Yoldaşlarından iyirmi nəfərdən çoxu işdən çıxarılmışdı. Vənsenin atasından ayrılarkən Simson özünü o qədər də pərt göstərmirdi. Zirzəmidə isə ah çəkdi:

— Ah, əclaflar!

İndi nə etmək olardı? Qocanın boynuna sarılsınmı? Yox, Vənsen buna cür'ət etməmişdi. Keçən il belə edərdi. İdi isə mümkün deyildi. Bu böyük şəhərin cünubunda, sement zavodu rayonunda yaşayan uşaqlar on yaşa çatmamış kişiləşirlər. Simsonun dərdi kişilər arasında saxlanılan bir sirdir. Rəğbət və hörmət naimnə həmin saat unutmaq lazımdır. Onu sonraya saxlamaq, daş kimi möhkəm qəzəbə çevirib toplamaq lazımdır.

Həmin axşam şam edərkən Vənsen öz-özündən sorüşürdü: "Görəsən, evdəkilər heç nə hiss etməyəcəklər ki?" Görəsən, atası Jorj Lober və anası Sesil, Simson babanın birdən-birə göz yaşı axtımasının səbəbini bilirdilərmi? Görəsən, bütün kişilər, məsələn elə onun atası, tək olanda xəlvətcə ağlayırmı? Sonra isə qonşulara və arvadına özünü sakit və qayğısız göstərirmi? Simsonun arvadının adı Qabriyel idi. Yəqin heç nədən xəbəri yoxdu.

Günlər keçirdi. Simson hələ iş tapa bilməmişdi. Vənsen bunu bilirdi. Onun məhəlləsində — damlarını sement tozu basmış bu məhəllədə iş sözü dillər əzbəri olmuşdu. Uzun cərgələrlə aşağı enən alçaq evlərdən tutmuş, sobaların və anbarların arası ilə çaya qədər uzanan bu cənub məhəlləsinin hər yerində iş sözü həyatla bağlıdır. Vənsen hərdən bağa gəzməyə çıxardı. Bu, altı min ailənin yeganə bağı idi. Qocalar orada üstünü toz basmış yöndəmsiz gölməçələr arasında qəzet oxuyrudular. Qurtarmaq bilməyən bu boz pudra hər yeri örtmüşdü. Ağacları qurudur, duman kimi küçələrdə fırlanır, gəlib beşiklərin də üzərinə qonurdu. Kimlərin sement zavodunda yaxud başqa yerdə işlədiyi mə'lum idi. Kimlərin işdən qovulacağı yaxud qovulduğu da mə'lum idi. Lap əvvəllərdən buranın adamları dünyaya sement dumanının arxasından baxırlar. Başqa bir duman isə sabahkı günü tutqunllaşdırır, qəm-qüssəyə qərq edir. Xoşbəxt o uşaqlardır ki, məktəbdən qayıdarkən səhər evdə danışılanları yadlarına salıb titrəməyə öyrənməmişlər. Onlar

düşünmürlər ki, evə qayıdarkən atalarını rəngi qaçmış, dilxor, əllərində zavoddan çıxarılmaları haqda kağız görə bilərlər. Bəli, xoşbəxtdirlər. Bəs başqaları?! Onlar heç vaxt heç nə başa düşməyəcəklər.

Atası hərdən deyirdi: "Dəmiryolçu olmaq daha yaxşıdır. Heç olmasa qapının üzümə çırpılacağından qorxmuram". Doğrudur, pul yoxdur. Lakin özünü qorxu altında hiss etmirsən. Çox ah-zar etmək lazım deyil, ələlxüsus indi. Doğrudan da bu ixtisarlar böhrandan deyil. Cənab Larno Rüfeyin dediyi kimi "son yenilikdən xəbər verən müvəqqəti çətinlikdir". Rüfey şəhərin valisidir. Uzun, parıldayan boyunbağısı işıqda bərq vurub minlərlə göy və sarı incilər əmələ gətirirdi. "Üç milyon əhalisi olan bir ərazinin mərkəzində yerləşən şəhərimiz yenidən iqtisadi mərkəz rolunu öz əlinə alacaq. Bir neçə ildən sonra yeni fakültəmiz bizə sənaye müəssisələrimizin tələb etdiyi texniki kadrlar verəcək. Müəssisələrimiz varlıdır və gözəl gələcəyi var. Bizim işlərimiz dövlət işlərinə uyğun olmalıdır". Vali bu nəticəyə gəlirdi ki, "rekonversiya şərti"ni qəbul etmək lazımdır. O bunu bütün çıxışlarında təkrar edirdi. Mərkəzin böyük qəzetində də yazırdı. Amma onun rəhbərlik etdiyi əarzidə beş mindən çox ac ailə vardı. Onlar sonrakı günlər üçün və'd edilmiş çörəyi bu gün yeyə bilmirdilər.

Simson səhərlər qəzetə baxmaq üçü Vənsengilə gəlirdi:

— Nə qədər ki, iş tapmamışam, özüm qəzet almaq istəmirəm, — deyə üzrxahlıq edirdi.

Üzr istəmək çətin deyil. O tez qurtarırdı. Qəzeti heç evə də aparmazdı. Ayaq üstdə onu açıb masanın üstünə sərər, e'lanlar səhifəsinə göz gəzdirərdi.

— Simson, nə üçün əyləşmirsiniz?

O, səhifənin sütunlarını dönə-dönə yoxlayırdı. İşçi tələb olunur: Kənd təsərrüfatı — inkələrə qulluq edən… Ərzaq sahəsində — qəssab, yay mövsümü üçün plyajlarda satıcılar… Usta şagirdləri. Bu, Simson üçün deyildi. Tikinti — dülgərlər və suvaqçılar tələb olunur. Bu onun sənəti deyildi. Həm də ki, tikinti sahəsi yüz kilometr uzaqdadır. O xəlvətcə heç özünün ümidi olmasa da belə bir iş təklif oluncağını gözləyirdi: "Təcrübəli bir dəmirçi tələb olunur. Açarçı olsun, dəmir yona bilsin. Yaşının fərqi yoxdur" Simson çox işlər görə bilərdi. Amma deyəsən sahibkarlar həmin işlərdən lazım olanlarını gördürmüşlər.

O çıxıb gedirdi. Elə bil bığlarının altında nə isə, cürbəcür sözlər danışırdı. Simson baba hərdən axşam da gəlirdi. Amma əvvəlki kimi tez-tez yox, Yazda hamı bir-birindən hal əhval tuta bilirdi. Məhəllənin kişiləri işdən qayıdan kimi öz bağçalarında gəzinirdilər. Hərəsinin bir-iki cərgə paxla və noxudunu bir-birindən ayıran taxta hasarın üstündən söhbət edərdilər. Onlar yağışın yazda bitkilər üçün qorxusuz olduğundan və mənənə kollarının çox artdığından danışardılar. Simson isə işdən çıxandan sonra heç öz bağçasına da baxmırdı. Saat yeddidə yaxud səkkizdə o, Pol Movezonun bağçası tərəfdən həytəə çıxanda Vənsenin atası haylayırdı:

— Salam, Simson!

Simson ona tərəf çevrilib biriki addım hasara tərəf gələrdi. Ağır xəstəlikdən sonra çətinliklə yeriyən adamlara oxşayırdı.

— Axşamın xeyir, Lober. Evdə nə var, nə yox? — Başqa nə deməli idi ki. Bir yenilik olsaydı özü hamıdan tez bilərdi.

Jorj Lober deyirdi:

— Gəl bir az içək.

Üçcə dəqiqədən sonra Simson Vənsengildə olurdu. Jorj Lober ağ şərab şüşəsini çıxarırdı. Vənsen kitabdan gözlərini çəkib onu salamlayar, yenidən oxumağa girişərdi. O öz üzərində qocanın baxışlarını hiss edirdi. Uzun-uzadı və fikirli bir baxışı tez-tez duyurdu. Mübahisə yarım saatdan çox çəkirdi. Vənsen söhbətə qoşulmurdu. Məktəbdə o sənətlər haqda bir şey öyrənmişdi. Sənətlərin və hərəkətlərin adlarını qrammatika çalışmasında və inşa yazıda işlətməli olurdu: dəyirmançı ağ un hazırlayır, dəmirçi zindanın üstündə dəmir döyür, toxucu və onun sənəti, karet ustası. Lakin elə ki, böyüklər ağ şərab içə-içə öz aralarında söhbət edirlər, onda nə dəyirmanın, nə dəmirin, nə arabanın, nə də unun yeridir.

Müəssisə söz kimi götürüldükdə quruca bir addır. Orada sirli bir quvvə hökmranlıq edir. Namə'lum ağalar qəfildən kimə isə işarə edirlər ki, zülmətə çəkilsin.

Üç həftə, bəlkə də lap bir aydan sonra Simson daha qəzet oxumağa gəlmədi. O səhər tezdən velosipedinə minib özü ilə heç nə götürmədən hara isə gedir, gecə düşəndən sonra qayıdırdı. Yoldaşları ona demişdilər ki, başqa məhəllələrdə işçi axtarırlar. Bu ya doğru deyildi, ya ada Simson özünü iş yerinə vaxtında yetirə bilmirdi. Uzun yay günü keçib getdikdən xeyli sonra, axşamüstü, Vənsen qapılarının ağzından keçən Simsonun velosipedini səsindən tanıyırdı. Axı dost adamın velosipedinin səsi də başqalarından

fərqlənir. Bir axşam o həmin səsi eşitmədi. Ertəsi gün çörəyi təzəcə yemişdilər ki, Vənsenin xoşlamadığı qonşuları Şodrük onlara gəldi.

— Yaxşısı budur sizə elə birbaşa deyim. Bəd xəbər olsa da deməliyəm. Simson… — Vənsenin atası cəld başını qaldırdı. Ona aman vermədən tez soruşdu:

— Necə, yoxsa ölüb?

Qonşu heç nə demədən ona baxırdı. Bir az sonra dilləndi:

— Onu öz zirzəmisindən tapıblar.

Bunu deyib Şodrük susdu. Çünki Venseni hələ indi görürdü. O tərpənmirdi. Gözlərini kitaba zilləmişdi. Elə bil heç nə eşitmirdi. Atası onu çağırıb dedi:

— Get, mənə siqaret al. Bir az cəld ol. — Qapıdan çıxanda Vənsen anladı ki, söhbət özünü asmış adamdan gedir.

Şəhər qaynayırdı. Aşağıda çay ləpələnir, paroxodlar qışqırışır, qağayılar sür'ətlə uçuşurdular. Seyrək dumanın içərisindən qəmli bir paroxod fiti eşidilirdi — du-u-du. Elə bil su havaya soyuqluq gətirmişdi. Bu çayın havası axşamdar daha çox hiss olunur, qətran iyi yayırdı. Kilsənin qülləsi göyə sancılmışdı. Yox, o, Simsonu öz zirzəmisində boğazından asılmış vəziyyətdə təsəvvür edə bilmirdi. Özü də bu gün hava həmişəkindən xeyli tutqun, həmişəkindən soyuq idi. Elə bir soyuq ki, Vənsen onu bir dəfə odun yararkən baş barmağını kəsəndə hiss etmişdi. O evə qayıdanda qonşu hələ evdə idi.

— Heç cür inana bilmirəm, — deyə atası danışırdı. — Onun belə edəcəyini gözləməzdim, həmişə deyib-gülürdü.

O, arvadına tərəf çevrilərək soruşdu:

— Düzünü de, heç onu birdən-ikiyə qəmgin görmüsən?

— Zənnimcə yox, — deyə Vənsenin anası cavab verdi.

— Qocaların işindən baş çıxarmaq olmur, — deyə Marsel sözə başladı. — Kim bilir… Bəlkə də onda xərçəng varmış, heç kəsə demirmiş. Mənə belə gəlir ki, o özünü öldürməkdə yaxşı iş görməyib. Bəs indi Qabriyel nə edəcək?

Ertəsi gün Simsonu basdırmağa apararkən Vənsen onun arxasınca getdi. Daha Simson haqda heç danışmırdı. Marsel Şodrük bir dəfə qəbiristanlıqdan ərinin qəbri üstündən qayıdarkən yolüstü Vənsenin anasının yanına gəlmişdi. Simsondan söhbət saldı. Ölülərdən və dirilərdən söhbət salmaq onun peşəsi idi. Bu dəfə söhbətə

başlayanda kitabını dizinin üstünə qoyub oxuyan Vənsenə tərəf döndü.

— Bəs balaca? Babasını görə bilmədiyi üçün darıxmır ki?

— Onunla belə söhbət etmə, Şodrük xanım. Yaxşısı budur danışmayın. — Şodrük isə çəkiclə döyülən dəmir parçası kimi cingildəyirdi:

— Bunlar hamısı təzə fikirlərdir! Mənim vaxtımda isə, biz ölüləri görürdük. Doğrudan görürdük. Ölünün heç gözəli olmur. Canım üçün, babam yaxşı yadımdadır. Onun ağzını örtmək heç kimin ağlına gəlməmişdi… Sonra Şodrük piyada qoşun təbili kimi taqqıldadı:

— Sən Simson babanı çox istəyirdin, eləmi? Cavab niyə vermirsən? Heç mənə salam da vermədin. Eh belə şeyləri bu yaşda tez unudurlar. Nə fikirləri var, nə də bir şey başa düşürlər. Bir də ki, bizim dövrümüzdə hissiyyat qalıb ki… Adamın heç ağlına gəlməz ki, iş tapmadığın üçün gedib özünü asasan. Mənim rəhmətlik ərim isə, yəqin ki, işləməməkdən ötrü özünü asardı.

Vənsen heç dinib-danışmırdı. O, xəyalında Simsonu dinləyirdi. Şodrük, qara ipək paltarını geyib qəbir üstünə getməzdən əvvəl öz bağçasında əda ilə o baş-bu başa gəzəndə Simson bığlarının altında gülümsəyərdi:

— Fernanın bu axşam zəhləsi gedər. Zavallı indi çiçək dəstələrinin altında sakitcə yatır. Elə onu öldürən də bu həyasız oldu. Bilmirəm kişi qırx il bununla necə dolanıb.

Dərs ili sona çatdı. Tə'til haqda da düşünmək lazım idi, ələlxüsus Vənsen kimi yaxşı oxuyanlar üçün. Həm də Vənsen gələn il litseyə getməli idi. Litsey şəhərin mərkəzindəki prospektdə, çayın sahilində yerləşirdi. Görəsən oradakı yoldaşları necə olacaqlar? Yəqin hamısı onların məhəlləsindəkilər kimi deyillər. Cənab Larno Rüfeyin şirin və'dlərinə baxmayaraq cənub məhəlləsində — qırmızı məhəllədə litsey tikintisi çox ləngiyirdi.

İndi Vənsen bu haqda fikirləşmirdi. O, anası ilə atasının arasında oturmuşdu. Parisdə yaşayan əmisinin yanına gedirdilər. Onun da familiyası Lober idi, Bernar Lober. Vənsenin atası on beş günlük mə'zuniyyət götürmüşdü. O deyirdi: "Gərək uşaq Parisi tanısın, heç olmasa pullu mə'zuniyyətdən istifadə etmək olar". Onsuz da səyahət çox baha başa gəlmir. Roje Lober istəyirdi ki, bir dəfə də olsa varlılar kimi vaqon-restoranda nahar etsinlər.

Sağda da, solda da çəmənliklər ötüb keçirdi. Amerikan bazasının tikanlı məftilləri və gözətçi budkaları görünürdü. Kim bilir içəridə nələr var. Sonra isə üzümlüklər və zavodlar göründülər. Qatar sür'ətlə ötüb keçməyə başladı. Tamam sarı rənglənmiş bir xəstəxana göründü. Sonra isə bir sement zavodu. Onların məhəlləsindəkinə çox oxşayırdı. Elə bil lap özüdür. Vənsen baxırdı. Qarşıdakı stolda üç cənab əyləşmişdi. Onlar da baxırdılar, hər üçü Vənsenin atasından yaşlı və kök idilər, yaxşı geyinmişdilər. Sifətləri qırmızı, ətli və girdə idi. Vənsenin atası onları görə bilmirdi. Çünki onlara arxasını çevirmişdi. Vənsen isə görürdü. Həm də eşidirdi. Çünki onlar bərkdən danışır və ucadan gülərək bir-birini çağırırdılar. "Cənab sədr", "Əziz direktor". Bunlar həmin şəxslərdirlər ki, hamı onları işgüzar adamlar adlandırır. Hər şeyi bilirlər və guya ki, bütün ömürləri boyu şəhərlər, zavodlar yaradırlar. Bütün məsələləri həll edirlər. Onlar sement zavoduna baxırlar. Onun haqqında da danışırlar. Yol dəyişən yerlərdə, təkərlərin uğultusu altında Vənsen hərdən yarımçıq cümlələr eşidirdi: "Birləşmiş Sement şirkətləri… — Ah, siz ki, cəmləşdirə bilirsiniz, hamısını birləşdirmək lazımdır… Lakin əziz direktor, əmək haqqının ictimai tərəfi də var. — Həqiqəti heç vaxt dəyişdirmək lazım deyil. Rəqəmlər danışırlar. Müəssisə heç gözləmədiyin vaxt artıq gəlir verir…" Yenə səslər birbirinə qarışır. Hamısı birdən danışır. Gülüşürlər. Yenə sakitləşirlər. "Məsələni tez həll etmək lazımdır. — Bəs bölüşdürmək?" Sədr qamətini düzəldir. O, stəkanını qaldırıb deyir: "Bizim hey'ət tez-tez dəyişməyə adət etməyib. Bu elə fikirdir ki, hamı onu başa düşməlidir".

O birilər qulaq asırlar. Sədr yekun vurur: "Biz bunu bilirik, göz yaşı tökülməsə iş başa gəlmir".

Hamısı təsdiq edirlər. Onlar Vənseni görmürlər, heç görmürlər. Əgər bu qədər içməmiş olsaydılar və eynəklərini taxsaydılar da onlara qulaq asan bu balaca oğlanı görə bilməzdilər. Gəlib onun yanında əyləşmiş gözəgörünməz yoldaşını isə heç görə bilməzdilər. Ağ bığlı Simson baba orada idi. O daha danışa bilməyəcək. Şodrük belə şeyləri bilməz, uşaqların gözləri və ağızlarının üzərində bir örtük olur. Bu həyat pərisinin yumşaq və sehrkar əlidir. O, uşaqları qorxulu, ağır fikirlərdən və təsəvvürlərdən qoruyur. Lakin itirilən bir şey yoxdur. Bugünkü uşaq gələcəkdə əsl insan olacaqsa onların əvəzini min dəfə çıxa bilər.

Həmin gün vaqonda, hər şeyi bilən sədr bilmədi ki, bir insanın xəyalında sakit-sakit axan göz yaşlarını əbədiləşdirmişdir. Bilmədi ki, damla-damla süzülən yaşlar intiqam vasitəsinə — yox, intiqam yox, ən güclü ədalət hökmünə çevriləcək.

SİMON TERİ

YAXŞILIQ

Qəribə işdir! İyirmi il keçib Süzan hələ də qayıtmayıb!

Əhvalat bir səhər Ankarpasyoun otağa girdiyi vaxtdan başlamışdı. Həmişəki kimi süpürgəsi də, əsgisi də əlində idi. Qız Mexikoya gəlib gözəl bəzədilmiş otaqları olan bu binada özünə iş tapmışdı. O, həmişə sakit idi. Üzünün sərt cizgiləri onu qədim bütlərə oxşadırdı. Hindliləri xatırladan sifəti heç bir hissi büruzə vermirdi. Bu gün isə…

— Nə olub, hə, balaca? — deyə Süzan soruşdu. — Yoxsa ağlamısan?

Ankarpasyon qırmızı sifətini yana çevirdi. Göz yaşları yanağını daha da qızartmışdı. Dişlərini bir-birinə sıxırdı. Heç nə demək istəmirdi. Süzan isə əl çəkmirdi. Axırda qız özünü saxlaya bilmədi, hönkürüb ağmağa başladı. O, daha qədim bütləri xatırlatmırdı, bütün dünyanın uşaqlarına oxşayan yazıq bir qız idi. Onlar istər ağ, istər sarı, istər qırmızı yaxud qara olsunlar, dərdli olanda hamısı bir-birinə oxşayırlar…

Süzan onu qucaqladı. Sığılladı. Şirin-şirin sorğu-sual etdi. Axırda balaca tövşüyə-tövşüyə boynuna aldı ki, uşağı olacaq…

— Nə yaxşı! — deyə Süzan qışqırdı. — Sənin bəxtin gətirib! Mən həmişə uşaq arzulamışam. Görürsənmi, artıq bu yaşdayam…

Burası düzdür. Axı, Ankarpasyon ərə getməyib! Uşağın atası qaşıdakı binada işləyən bir bənna idi. Ev tikilib qurtaranda o, və'd etdiyi kimi qızla evlənməkdənsə çıxıb getmişdi. Yoxa çıxmışdı…

— Deməli, o əclaf imiş. Yaxanı ondan yaxşı qurtarmısan! Əclaf adama ərə getmək hər şeydən pisdir!

Ankarpasyoon daha ağlamırdı. Təəccüblənmişdi. Lakin hələ sakitləşməmişdi. Sonra isə daha da bərkdən hönkürməyə başladı.

— Düzdür… amma… uşaq var axı… Əgər atam bilsə məni öldürəcək…

Meksikada İspaniyada olduğu kimi ən'ənələr çox sərtdir, xüsusən kəndlərdə.

Qız hıçqıra-hıçqıra danışırdı:

— Ərsiz qızın uşağının… Xaç anası… xaç atası… olmağa kim razı olacaq?

Süzan həmin dəqiqə cavab tapdı:

— Xaç anası? Mən xaç anası olaram! Özü də lap sevinclə!

O nə danışırdı! Ankarpasyonun hönkürtüsü qəfildən kəsildi. Başını qaldırdı. Yaşla dolu gözlərini Süzana zillədi:

— Sizmi? — deyə qız təngnəfəs soruşdu.

— Əlbəttə! — deyə Süzan gülə-gülə cavab verdi. — Nə üçün də yox!

Ankarpasyon gözlərini sildi. Şişmiş dodaqlarıda xoş bir təbəssüm göründü. O heyran-heyran Süzanı süzüdü. Onların kəndində istər ərli, istərsə də ərsiz heç bir arvadın uşağının yadelli xaç anası olmamışdı! Hələ bu xarici adam heç amerikalı da deyil! Amerialılara güclü və varlı olduqlarına görə hörmət edirlər. Amma onları sevən yoxdur! Yox, yox! Onları sevmirlər… Fransızlara gəldikdə isə, onları bütün xariclərdən çox sevirlər! Onun uşağının xaç anası fransalı olacaq! Bu böyük şərəfdir! Qızın xəcaləti elə bil yoxa çıxmışdı…

Balaca yenə dərdli-dərdli soruşdu.

— Bəs… xaç atası?

Lə'nətə gələsən, deməli xaç atası da lazım imiş. Süzan fikirləşdi.

— Nə üçün elə cənab Dreyfüs olmasın?

— Senyor Dreyfüs? Sizcə, o razı olar? Mən heç vaxt çür'ət etmərəm…

— Qəm eləmə, balaca. Mən boyun oluram.

Jan Dreyfüs də həmin binanın bəzədilmiş otaqlarından birində olurdu. O kommunist deyildi. Süzan Mexikoda yeganə fransalı kommunist qadın idi. Xoşbəxtlikdən yüzlərlə ispan, italyan və mesikalı yolaşlar vardı. Dreyfüs ona görə kommunist olmurdu ki, onun zənnincə, partiya "kifayət qədər inqilabçı deyildi". O, bir qədər anarxist idi. Sözün qısası, Süzanın Mexikoda seçə bildiyi yeganə "simpatiyası" idi. Yaxşı qonşu idi. Dünyada onun kimi şən oğlan tapa bilməzdin.

Jan Dreyfüs xaç atası olmağı tərəddüdsüz qəbul etdi. Zavallı qıza başqa nə yaxşılıq etmək olardı? Hələ də belə geridə qalmış xalqları görmək hər halda ağırdır. O, balaca qıza izah etmək istəyirdi ki, evlənmək axmaq burjua adətidir. Əsl məhəbbət isə… Süzan bu fikri onun başından çox çətinliklə çıxardı. Bu qızı qorxutmaq lazım deyildi. O onsuz da pis gündə idi…

Ertəsi gün Ankarpasyon ərklə Süzana yaxınlaşıb uşağının adının nə olacağını soruşdu.

— Onun adamı? — deyə Süzan təəccüblə soruşdu.

— İndi ki xaç anası sizsiniz, gərək adı da siz seçəsiniz.

— Əlbəttə! Bəs bu nə üçün mənim ağlıma gəlməyib? Hə, Moris necədir? Məncə, bu çox gözəl addır. Sənin fikrin nədir?

— Moris… Mən Moris adda bir adam da olsun tanımıroam… Moris… Əlbəttə… Yaxşıdır… Çox gözəldir.

— Böyük bir fransız inqilabçısının, böyük bir vətənpərvərin adıdır. Əgər qız olsa, adını Janet qoyarıq.

— Oğlan olacaq, — deyə Ankarpasyon qəti bildirdi. Süzan özünün xaç uşağı üçün təmiz ağ və paltar hazırlamağa başladı. Dreyfüs kimi, bütün başqa qaçqınlar kimi o da varlı deyildi. Dərs deyərək birtəhər dolanır, Avropaya qayıtmaq, yenidən döyüşə girişməyi arzulayırdı. Neçə aydan bəri o Londondakı "Azad Fransa" qrupuna qoşulmaq istəyirdi. Lakin de Qol, Çörçil və Ruzvelt hökumətləri hələ də onu və minlərlə qaçqınları, İtaliya, Yuqoslaviya kommunistlərini, onun kimi könüllüləri viza gözləməyə məcbur edirdi. De Qol başda olmaqla bu cənablar Hitler əleyhinə müharibəyə könüllülər axtarırlar. Lakin onlar ən mübariz antifaşistləri — kommunistləri özlərindən kənar edirlər…

Yox, Süzan varlı deyildi. Lakin hər halda yoxsul hindlidən də kasıb deyildi. O özünün xaç uşağı üçün ayırdığı azacıq pulu qıza güc-bəla ilə verdi. Qıza elə gəlirdi ki, pulu çoxdur. Dreyfüs də öz növbəsində pul verdikdə məbləğ ikiqat artdı. Ankarpasyon birinci dəfə idi ki, belə bir dövlət sahibi olurdu.

Doğrudan da uşaq oğlan oldu. O, qırmızı əsgiyə oxşayırdı. Lakin balaca deyildi. Necə deyərlər, lap əsl uşaq idi. Süzanla Dreyfüs balaca hindli qızı gülümsəyən gördükdə sevinirdilər. Onlar qıza yaşamaq həvəsi, qürur və ümid vermişdilər. Elə zənn edirdilər ki, vəzifələrini yerinə yetirmişlər. Lakin bir səhər Ankarpasyon utana-utana soruşdu:

— Cümə günü məşğul deyilsiniz ki? Məşğulsunuzsa, günü dəyişmək olar…

— Cümə günü! Cümə günü nəyinə lazımdır!

— Uşağı xaç suyuna salmaq üçün…

— Ah, xaç suyu üçün! Aman allah yamanca yerdə gecələmişik!.. — Bu, Süzanın heç ağlına gəlməmişdi!

— Yaxşı mən… Mən cənab Dreyfüslə danışıram, — deyə Süzan qıza ürək verdi.

Jan Dreyfüs də mat qaldı. Onların fikrincə bə'zən yoldaşları ilə getməli olduqları mərasimlərə oxşayan təntənəli bir mərasim gözlənilirdi.

— Elədir, deyə Süzan danışırdı. Lakin biz bu balaca ilə kilsəyə getməsək onun günü qara olacaq. Bütün meksikalılar kimi o da dindar və adətpərəstdir. O qədər maymaq, savadsız və sadədir ki, dinsiz olmağın mümkünlüyünü ağlına belə gətirmir. Bizə gəldikdə isə, bunun bizə nə xeyri var, nə də zərəri. Gedib uşağın xaç suyuna çəkildiyini görərik… Siz razısınızmı?

— Olan olub, — deyə Dreyfüs gülümsəyərək ağzını marçıldatdı. — Şərabı ki, süzdülər gərək içəsən, geri qaytarmaq olmaz.

Doğrudan, deyəsən, bu dinsiz lap sevinirdi. Gedib kilsədə belə bir məzhəkə oynamaq onun ürəyindən idi.

Cümə günü dördü də yola düşdülər. Ankarpasyon geydiyi təzə gözəl donunda işıq saçırdı. Yuxulu Morisi qucağında tutmuşdu. Uşağın qıpqırmızı sifəti ağ örtüyün arasında görünürdü. Dördü də kilsəyə daxil oldu.

Süzanla Dreyfüs kilsəni ağzına kimi dolu görüb mat qaldılar. Arvadlar bərbəzəkli geyinmişdilər. Onların yanlarındakı kişilər enli sambrerolarını qarınları üstündə iki əlli tutmuşdular. Yəqin ki, bu qədər dindarı razı salmaq üçün zəncirlə ibadət etmək lazımdır. Bəlkə bu gün burada dini bayramdır? Ankarpasyon pıçıldadı ki, şö'bələrdən birinin boşalmasını gözləmək lazımdır. Orada uşağı zəncirli xaç suyuna çəkmək lazımdır.

Bir keşiş gəlib çıxdı. O, Ankarpasyona fikir vermədən hər iki fransıza yaxınlaşdı. Şübhə yox ki, xaricilərə hörmət etmək istəyirdi. Həm də ki, camaat dindarların ilk sırasında onları görsələr yaxşı idi. İşlər xarab idi! İndi nə edəydilər? Ömürlərində bir dəfə də olsun ibadətdə olmamışlar. Dreyfüs, deyəsən, buranı xoşlayırdı. O yan-yörəsinə baxa-baxa ağzını marçıldadırdı. Süzan özünü saxlaya bilməyəcəyindən qorxurdu. Axı burada dəfələrlə qəzəblənmiş camaat xarici turistləri qovub kilsədən çıxarmışdı. Çünki onlar Meksika dindarlarının mərasimi zamanı gülümsəmişdilər.

— Özünüüz ciddi aparın! — deyə qorxmuş Süzan xəbərdarlıq etdi. — Balacanın xatirinə!

— Yaxşı, onsuz da olan olub.

Onlar dua oxuyurlarmış kimi ağızlarını tərpətməyə başladılar. Lakin başqa dindarlar kimi oxuya-oxuya çiyinlərinə də baxmalı idilər. Hələ düzgün yamsılamaq üçün onlarla birlikdə oturur, bir-

likdə də qalxırdılar. Hamısı birdən özlərini dizi üstə yerə buraxırdılar, özü də həsir olmadığına görə birbaş daş döşəmənin üstünə. Daşlar çox incidirdi. Sakitlik çökmüşdü. Dizləri üstə durmuş Jan Süzan tərəfə çevrildikdə aydın səslə pıçıldadı:

— Yazıq anam məni bu gündə görsəydi özündən gedərdi!

Bu dəfə gülməkdən özləriin saxlaya bilmədilər.

Süzan da, Dreyfüs də üzlərini əlləri ilə gizlətmişdilər. Xoşbəxtlikdən birinci cərgədə idilər, heç kəs onları görmədi. Az sonra hamı ayağa qalxdı və onların səsi eşidilməz oldu.

Nəhayət, bu ağır mərasim sona yetdi. Bir keşiş yaxınlaşıb uşağın xaç anası ilə xaç atasına işarə etdi. Onlar keşişin arxasınca getdilər. Keşiş onları bir otağa aparıb masanın arxasında əyləşdi. Qeyd kitabçasını çıxarıb sorğu-sual etməyə başladı. Adınız… doğulduğunuz vaxt və yer… dininiz..

Aman allah Süzanın atası qatı dinsiz idi. O, qızının xaç suyuna çəkilməsinə yol verməmişdi. Bəs indi nə etsin?

— Katolik? — deyə müsahibinə baxmağa cür'ət etmədən inandırıcı səslə dilləndi.

Dreyfüsün növbəsi çatdı.

— Adınız?

— Dreyfüs.

Deyəsən ad katolik adına oxşamır…

— Dininiz?

— Ka…to…lik… — deyə Jan üz-gözünü turşudaraq cavab verdi.

Keşiş şübhəli-şübhəli ona baxdı. Süzan tələm-tələsik:

— İcazə verin… kasıblar üçün sədəqə verim…

O, stolun üstünə pul qoydu.

Keşiş daha tərəddüd etmədi. İnamla onları şö'bəyə tərəf apardı. Ankarpasyon qucağında uşaq, başqa bir keşişlə orada gözləyirdi. Keşiş xaç anasına müraciət etdi:

— Uşağı qucağınıza götürün.

"Görəsən bu nə hoqqadır?! Süzən hər ehtimala qarşı:

— Kasıblar üçün sədəqə, — deyə oradakı keşişə yenə pul verdi. Sonra Morisi qucağına aldı.

— "Müqəddəs Ata" duasını söyləyin, — deyə keşiş qıza işarə etdi.

Özünü itirmiş Süzan Jana tərəf çevrildi. O səfeh öz şənliyini gizlətmək üçün üzünü yana çevirdi.

— Bilirsinizmi… Mən bacarıram… Mən ispan dilində dua oxuya bilmirəm.

— Eybi yoxdur, — deyə keşiş alicənablıqla gülümsədi. — Fransız dilində oxuyun…

— Bizim göylərdəki atamız… — deyəSüzan oxumağa başladı. Sonra dodaqlarının arasında nə isə mızıldayaraq: patati, patata, reparati, reparata… Amin!

— İndi isə "sizə salam göndərirəm, Mariya" duasını oxuyun.

— Sizə salam göndərirəm, Mariya… və bağışlayın ki, gerisini bilmirəm, sonra nə demək lazım olduğunu bilmirəm. Balacanın xatirinə belə etmək lazımdır… Amin!

Mərasim, nəhayət ki, başa çatdı. Ankarpasyon indi qanunsuz sayılmayan körpəsini şadlıqla yenidən bükdü.

Xeyli sonra Süzan Janla olub-keçənləri götür-qoy etdiyi zaman dedi:

— Hər halda, biz pis iş görmüşük! İşə bax: meksikalı günahsız körpəyə dinsiz, bir kommunistin adını qoymuşuq! Hələ ən pisi budur ki, onun xaç anası və xaç atası da dinsizdirlər. Heç xaç suyuna da çəkilməyiblər… Bu dini yığıncaq bilmirəm nə üçünmüş? Sizin zənninizcə, belə bir şəraitdə bu xaç suyuna çəkmənin bir əhəmiyyəti oldumu?

— Əlbəttə, — deyə Jan qəti səslə inandırdı. — Bilirsinizmi, əgər doğrudan da o xeyirxah allah mövcuddursa bizim bu mərasimi başqalarından çox-çox üstün tutmalıdır. O özü yaxşı bilir ki, biz bunu səbəbsiz etməmişik!